# VƏTƏN MÜHARİBƏSİ TARİXİ

## ŞƏXSİYYƏT FAKTORU

27 sentyabr – 10 noyabr 2020-ci il

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

*"İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdır. Bu təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu eyni zamanda bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq".*

*"Bizim şanlı Ordumuzun 44 günlük müharibəsi XXI əsrin muharibəsidir. Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik... 44 günlük müharibənin hər bir günü zəfər günu idı. Hər gün biz qabağa gedirdik. Bir gün belə geri addım atmadıq. Bu, müharibələrdə çox nadir hallarda muşahidə edilən bir mənzərədir. Müharibələrdə hücumlar olur, geriyə çəkilmə olur, manevrlər olur, biz isə hər gün qabağa gedirdik. Hər həftə onlarla yaşayış məntəqəsini işğalçılardan azad edirdik. Nəticədə düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdık. Onları məcbur etdik və cəmi 20 gün ərzində Ağdam, Laçın və Kəlbəcər rayonlarından qoşunlarını çıxardılar, rədd oldular bizim torpaqlarımızdan və biz qayıtmışıq".*

**İlham ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti,
Müzəffər Ali Baş Komandan

63.3(5Aze)
√ 62
+.

**Vatən müharibəsi tarixi. Şəxsiyyət faktoru**
**(27 sentyabr – 10 noyabr 2020-ci il)**
Bakı, "Şərq-Qərb", 2021, 444 səh.

ISBN 978-9952-548-25-9

**BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİ VƏ**
**AMEA A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTUNUN BİRGƏ LAYİHƏSİ**

Layihənin rəhbəri və
ön sözün müəllifi: **Eldar Əzizov**

Elmi redaktor: **Kərim Şükürov**
*Tarix elmləri doktoru, professor, Dövlət mukafatı laureatı*

Kitab Azərbaycan tarixinin ən şanlı səhifələrindən birinə – 27 sentyabr 2020-ci ildə başlamış, işğal olunmuş torpaqlarımızın azad edilməsi və Azərbaycanın tarixi qələbəsi ilə başa çatmış 44 günlük Vətən müharibəsinə həsr olunmuşdur. Kitabda Birinci Qarabağ müharibəsindən, onun məğlub olma səbəblərindən, Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldikdən sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki fəaliyyətindən və ordu quruculuğundan bəhs edilmiş, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qələbə strategiyasının əsas istiqamətləri işıqlandırılmış, İkinci Qarabağ müharibəsi dövrü Zəfər salnaməsi və diplomatiyası tədqiq edilmişdir. Azərbaycanın tarixi zəfərinin geopolitik nəticələri və Prezident İlham Əliyevin postmüharibə dövrü Qarabağın sosial-iqtisadi inkişaf strategiyası da geniş şərh olunmuşdur.

Oxucular bu kitab vasitəsilə Azərbaycanın Vətən müharibəsində qələbəsinin Zəfər salnaməsi ilə ətraflı tanış ola biləcəklər.

ŞƏRQ-QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

© Bakı Şəhər İcra Hakimiyyəti, 2021
© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2021

# ALİ BAŞ KOMANDAN QƏRARGAHDA



# BÖYÜK QƏLƏBƏDƏ ŞƏXSİYYƏT FAKTORU

Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsindən 30 il keçir. Bu illər ərzində ölkəmiz bir çox çətinliklər, faciələr və əvəzolunmaz itkilərlə üzləşmiş, dövlətimizin mövcudluğu uğrunda, iqtisadi və hərbi-siyasi quruculuq sahəsində gərgin mübarizə ilə dolu mürəkkəb bir yol keçmişdir. Bu yol ölkə rəhbərliyinin və xalqımızın qətiyyəti sayəsində Vətən muharibəsində qazanılan möhtəşəm Zəfərlə nəticələnmişdir.

Oxuculara təqdim edilən bu nəşr 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və Azərbaycan Ordusunun göstərdiyi misilsiz fədakarlığa həsr olunmuşdur. Burada Azərbaycanı yeni bir səviyyəyə yüksəltmiş böyük Zəfərin iştirakçıları və müasirləri olmuş insanların təcrübəsi, onların oxucularla bölüşdükləri fikirlər, rəy və təhlillər öz əksini tapmışdır. Düşünürük ki, nəşrdə toplanan materiallar bugünkü və gələcək nəsillərə həqiqətlərin obyektiv çatdırılması baxımından olduqca faydalı ola bilər.

Bu gün Azərbaycanı dünyada uğurlu dövlət və regionun lideri kimi tanıyırlar. Bu bizi və xarici ölkələrdəki dostlarımızı nə qədər sevindirirsə, xalqımızın potensialını, onun nəyə qadir olduğunu artıq yaxşı başa düşən bədxahlarımızı da bir o qədər məyus edir, onlarda aşkar və gizli qısqanclıq doğurur. Lakin Azərbaycanın bugünkü qüdrəti reallıqdır və bu həqiqəti inkar etmək mümkün deyil.

1991-ci ildə Sovet İttifaqı dağıdıcı siyasi proseslər burulğanında parçalanıb bölündü. Bunun ən müxtəlif səviyyələrdə hələ də müzakirə və təhlil edilən bir çox səbəbləri var idi. O da məlumdur ki, SSRİ kimi nəhəng dövlətin dağılmasının katalizatorlarından biri Ermənistanın Azərbaycana tamamilə əsassız və qanunsuz ərazi iddiaları oldu. Bu aqressiv iddialar yaddaşlarda iki ölkə arasında otuzillik qanlı münaqişənin başlanğıcı kimi qalmaqdadır.





Konfliktin kökü bundan iki yüz il əvvələ – Qafqazda kardinal dəyişikliklərin baş verdiyi dövrə gedib çıxır. O vaxt getdikcə güclənən Rusiya İmperiyası Qafqazı fəth etməyi qarşısına məqsəd qoymuşdu və yerli müsəlman əhalini bu yolda əsas maneələrdən biri hesab edirdi. İmperator I Pyotrun dövründən başlayaraq çar Rusiyası Səfəvi və Osmanlı imperiyaları ilə sərhədlərdə xristian xalqlarını məskunlaşdırmaqla bufer zonaları yaratmağa çalışırdı. Ermənilərin və digər xristianların həmin ərazilərə köçürülməsi barədə çar fərmanı məhz bu məqsədlə imzalanmışdı. Həmin sənəddə qeyd edilirdi ki, ermənilər daha çox olduğu üçün üstünlük məhz onlara verilməlidir. Qafqazın mərhələli işğalı və bunun ardınca Rusiyanın daha da güclənməsi genişmiqyaslı köçürülmə prosesini sürətləndirdi.

Beləliklə, XIX–XX əsrin əvvəllərində regiona milyon yarımdan çox erməni köçürüldü. Halbuki bu böyük köçürülmə prosesindən qabaq ermənilər burada əhalinin çox az hissəsini təşkil edirdilər. Hakimiyyət orqanları erməniləri mühum strateji şəhərlərdə məskunlaşdırır, idarəetmə, ticarət və biznes sahələrinin "qapılarını" onların üzünə açırdı. Ermənilər də imperiyanın bu lütfkarlığından gen-bol istifadə edir, bir sıra sahələrdə yüksək vəzifələr tutur, sosial-siyasi mövqelərini möhkəmləndirir, iqtisadi-maliyyə imkanlarını genişləndirirdilər. Bütün bunlarla yanaşı, Azərbaycanın yerli müsəlman əhalisi hər vəchlə incidilib sıxışdırılır və öz qədim yurd yerlərini, ata-baba torpaqlarını tərk etməyə vadar edilirdilər. Bu məkrli siyasətin müəlliflərinin fikrincə, onların həyata keçirdikləri proses regionda demoqrafik dəyişikliklərlə nəticələnməli idi.

1905–1907-ci illərin, sonra isə 1918–1920-ci illərin qanlı hadisələri erməni millətçiliyinin vəhşi təbiətini bütün çılpaqlığı ilə nümayiş etdirdi. On minlərlə müsəlman öldürüldü, doğma torpaqlarından qovuldu, didərgin salındı. Ermənilər digər müsəlman xalqlarına mənsub olan insanlara da aman vermir, onları da qəddarlıqla qətlə yetirir, işgəncələrə məruz qoyurdular.

İnsanlığa sığmayan bu yırtıcı siyasəti ermənilər sovet dönəmində də davam etdirir, yüz minlərlə azərbaycanlını indiki Ermənistan ərazisindəki qədim yurd yerlərindən və Qarabağdan qovub çıxarırdılar. Nəticədə, həmin ərazilərdə demoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişdi. Əgər XX əsrin əvvəllərində İrəvan şəhər sakinlərinin böyük əksəriyyəti azərbaycanlı idisə, 80 il sonra orada, bir nəfər də olsun, azərbaycanlı qalmamışdı. Bütün bunlar isə erməni millətçilərinin "iştahını" daha da artırır, onları yeni qanlı avantüralara sürükləyirdı.

Öz təcavüzkar niyyətlərindən əl çəkməyən ermənilər Azərbaycana qarşı ərazi iddialarını davam etdirərək ən qanlı və faciəli təxribatlara ötən əsrin 80-ci illərinin sonlarında başladılar. O vaxt Ermənistan SSR Azərbaycan SSR-in ərazisinə iddialı olduğunu açıq şəkildə elan etdi. Bu iddianı gerçəkləşdirmək üçün onlar Kremldəki hər cür təsir rıçaqlarını işə saldılar. Lakin ermənilərin çoxdan işləyib hazırladıqları məkrli planın reallaşdırılması yolunda ən böyük maneə Azərbaycan xalqının dahi oğlu, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, təcrübəli siyasətçi Heydər Əliyev idi. Ermənilər və havadarları yaxşı bilirdilər ki, nə qədər Heydər Əliyev Kremldə söz sahibidir, onların istəkləri ürəklərində qalacaq. Buna görə də o dövrdə SSRİ-yə rəhbərlik edən Mixail Qorbaçov 1987-ci ilin sonlarında Heydər Əliyevin yüksək vəzifələrdən kənarlaşdırılmasına nail oldu. Bu isə sovetlərin hakimiyyət mərkəzindəki nüfuzlu ermənilərin və xaricdəki erməni diasporunun əlləri ilə Qarabağda ermənilərlə azərbaycanlılar arasında münaqişənin alovlandırılmasına şərait yaratdı. Erməni millətçilərini artıq heç nə dayandıra bilməzdi. Onların nüfuzlu beynəlxalq toplantılarda və mətbuat səhifələrində dilə gətirdikləri ərazi iddiaları qanlı hərbi qarşıdurmaya – Birinci Qarabağ müharibəsinə gətirib çıxardı. 1991-ci ildən 1994-cü ilədək davam edən bu müharibə on minlərlə azərbaycanlının həyatına son qoydu, torpaqlarımızın 20 faizi işğal edildi, bir milyondan çox vətəndaşımız qaçqın və məcburi köçkün oldu.

Qarabağ münaqişəsi həm də o məqsədlə törədilmişdi ki, mustəqil Azərbaycan ona uğur qazandıra biləcək nəhəng layihələri reallaşdırmaq, Cənubi Qafqazda sabitliyin qarantına çevrilmək imkanlarından məhrum olsun. Müəyyən xarici qüvvələr regionumuzda uzun sürən və idarə edilən xaosun bərqərar olmasını istəyirdi. Bu xaos isə erməni separatizmi və millətçiliyinin əlləri ilə yaradılmışdı və günlər, aylar keçdikcə daha da alovlanır, dərinləşirdi. Təəssüf ki, regionda ağalıq etmək fikrinə düşənlərin köhnə "Parçala, hökm sür!" siyasəti özünü Birinci Qarabağ müharibəsinin nəticələrində də göstərdi: Azərbaycan ərazisinin 20 faizi işğal edildi.

Həmin dövrdə ölkəmizdə ziddiyyətli vəziyyət, anlaşılmaz siyasi hərc-mərclik və özbaşınalıq hökm sürürdü. Milli varlığımız və dövlətçiliyimiz üçün təhlükənin kritik həddə çatdığı bir vaxtda xalqın çağırışı və tələbi ilə hakimiyyətə dünya siyasətinin ən məşhur və nəhəng simalarından biri – Heydər Əliyev gəldi. O, qısa zaman ərzində ölkənin parçalanmasının qarşısını almağa, onu iqtisadi böhrandan qurtarmağa, ordu quruculuğu sahəsində mühüm irəliləyişlərə nail oldu.





Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu xətti Prezident İlham Əliyev uğurla davam etdirdi, dövlətin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Hakimiyyətə gəlişinin ilk günündən başlayaraq, Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa və tarixi ədalətin bərqərar edilməsinin zəruriliyini dönə-dönə vurğulayaraq bu böyük vəzifənin həyata keçirilməsi yolunda mühüm işlər gördü.

Azərbaycan xalqının son iki yüz illik tarixində erməni millətçiləri ilə kifayət qədər qarşıdurma və müharibə baş vermişdir. Bu münaqişə və müharibələr bizim üçün böyük itkilərlə nəticələnmişdir. İkinci Qarabağ müharibəsi, nəhayət ki, bu uğursuzluqlara son qoydu. İlk dəfə olaraq düşmən darmadağın edildi və hərbi-siyasi kapitulyasiyaya uğradığını etiraf etməyə məcbur oldu.

Vətən müharibəsinin gedişini və 44 günlük bu müharibədə qələbəmizi təmin edən amilləri nəzərdən keçirərkən tarixdə şəxsiyyət faktorunun nə qədər önəmli olduğunu aydın başa düşürük. İlham Əliyevin böyüklüyünü onun fəaliyyətinin nəticələri səciyyələndirir. Uğurlu iqtisadi islahatların həyata keçirilməsi, güclü iqtisadiyyatın və onun əsasında müasir qüdrətli ordunun yaradılması ölkənin rəhbəri kimi İlham Əliyevin fəaliyyətini əks etdirən başlıca faktorlardır. Burada biz beynəlxalq sahədə zəruri hüquqi bazanın yaradılması üçün onun ardıcıl səylərini də xüsusi qeyd etməliyik. Beləliklə də, böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan dövlətinin İlham Əliyev tərəfindən yaradılan siyasi-iqtisadi modeli ağır sınaqlardan uğurla çıxdı, özünün həyati qüvvəsini bütün dolğunluğu ilə nümayiş etdirdi.

Belə bir faktı da məmnunluqla vurğulamalıyıq ki, təcavüzkar Ermənistanla ölüm-dirim savaşında ölkəmizdə yaşayan xalqların hamısı fəal iştirak etdi. Müharibə, sözün tam mənasında, onlar üçün də əsl Vətən müharibəsi idi. Bu isə onu göstərir ki, xalq vahid subyekt kimi daha da formalaşıb möhkəmlənmişdir, vətəndaşlar isə ozlərini ölkənin həqiqi sahibləri qismində görürlər. Dünyanın bir çox ölkələri üçün örnək olan bu gerçəklik də İlham Əliyevin siyasi islahatlarının, cəmiyyətdə yaratdığı ab-havanın gözəl nəticəsidir.

44 günlük müharibənin gedişində baş verən hadisələri təhlil edərkən ölkə Prezidenti gözlərimiz önündə nəinki böyük dövlət xadimi kimi, həm də mahir və cəsur sərkərdə kimi canlanır.

Qeyd etmək lazımdır ki, ermənilər Azərbaycanın işğal olunmuş torpaqlarında 30 ilə yaxın müddət ərzində saysız-hesabsız istehkamların, möhkəmləndirilmiş müdafiə rayonlarının, bir çox digər müdafiə qurğularının, yeraltı

bunker və tunellərin bütöv bir sistemini yaratmış, ehtimal edilən savaş ərazilərini başdan-başa minalamışlar. Onlar hesab edirdilər ki, bu müdafiə xətlərini yarıb keçmək cəhdləri mütləq uğursuzluqla nəticələnəcək, yaxud da saysız-hesabsız itkilərlə, eləcə də külli miqdarda maddi və hərbi resursların sərf olunması ilə müşayiət olunacaqdır. Xarici siyasi və hərbi ekspertlərin əksəriyyəti bu fikirdə idi ki, Azərbaycan hücum əməliyyatlarını unutmalıdır, çünki belə əməliyyatların nəticələri rəsmi Bakı üçün çox acınacaqlı ola bilər.

Bütün bu fikirlərə və risklərə baxmayaraq, Azərbaycan Prezidenti ən yeni döyüş silahları və texnikası ilə təchiz edilmiş müasir Azərbaycan Ordusunun yaradılması vəzifəsini önə çəkdi. Elə bir ordu ki, hərbi əməliyyatları minimal canlı qüvvə itkisi ilə həyata keçirməyə qadir olsun. Axı hərb elminə görə, mürəkkəb dağ şəraitində, relyefin hücum əməliyyatları üçün əlverişli olmadığı və eşelonlaşdırılmış müdafiə xətlərinin qurulduğu yerlərdə hücum edən tərəf müdafiə olunan tərəfə nisbətən qat-qat çox itki verir. Lakin 2020-ci ilin Vətən müharibəsində ordumuz döyüş taktikasında qəbul olunmuş bu qənaəti alt-üst etdi. Döyüş əməliyyatlarının gedişində daim hücumda olan, irəliyə can atan Azərbaycan Ordusunun itkiləri müdafiə olunan düşmənin itkisindən qat-qat az oldu.

Ölkə rəhbərinin fenomenal istedadı tək hərb cəbhəsində deyil, diplomatiya və informasiya cəbhəsində də özünü parlaq şəkildə numayiş etdirdi. Prezidentin xarici ölkələrin nüfuzlu media qurumları ilə baş tutan hər bir müsahibəsi dünyanın ictimai fikir meydanında əsl hadisəyə çevrildi, onun böyük zəka sahibi olduğunu əyani şəkildə nümayiş etdirdi. Cəsarətlə demək olar ki, Vətən müharibəsi zamanı böyük bir jurnalist və diplomatlar ordusunun görə biləcəyi işləri Prezidentimiz təkbaşına etdi.

17 il idi ki, İlham Əliyev bütün Azərbaycan xalqının həsrətlə gözlədiyi bu şanlı qələbəyə doğru yorulmadan irəliləyirdi. Qazanılan böyük Qələbə İlham Əliyev fenomenini yeni bir rakursdan işıqlandırdı. Bu, təcrübəli beynəlxalq siyasət qrosmeysteri və istedadlı hərbi strateq keyfiyyətlərini özündə birləşdirmiş iradəli və qətiyyətli Lider fenomenidir. 2020-ci ilin payızında həyata keçirilmiş və arzularımızın tacı olan qədim mədəniyyət mərkəzimiz Şuşanın azad edilməsi ilə nəticələnmiş uğurlu hərbi kampaniyanın əsl müəllifi də məhz İlham Əliyevdir.

Sözsüz ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsi və onun səbəbləri hələ uzun illər geniş araşdırma mövzusu olacaq, çoxlarını özünə cəlb edəcək,





daim böyük maraq və heyrət doğuracaqdır. Bu, təbiidir. Çünki iki yüz il ərzində ilk dəfə olaraq Vətən müharibəsi nəticəsində Qarabağ məsələsi köklü şəkildə həll olundu. Gələcəkdə bu böyük Qələbə haqqında zamanın və dövrün xüsusiyyətlərini nəzərə alaraq, yəqin ki, çoxlu sayda kitablar yazılacaq.

Biz müharibə dövrünün müasirləri və iştirakçıları – tarixçilər, siyasətçilər, iqtisadçılar, məmurlar, hərbçilər məsələni obyektiv araşdırıb müharibənin gerçəklərinin gələcək nəsillərə çatdırılması üçün bu kitabı hazırlamaq qərarına gəldik. Bu məsələlərin müzakirəsi zamanı bir daha dərindən dərk etdik ki, Azərbaycan xalqının çoxəsrlik mübarizə və müharibələr tarixindəki bu böyük Qələbənin arxasında şəxsiyyət faktoru, görkəmli dövlət başçısı və qüdrətli Sərkərdə – İlham Heydər oğlu Əliyev fenomeni dayanır.

Sonda kitabın ərsəyə gəlməsində əməyi olan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyinə, Xarici İşlər Nazirliyinin rəhbərliyinə, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun rəhbərliyinə və kollektivinə, həmçinin zəhməti olan digər şəxslərə dərin minnətdarlığımızı bildirir, qələbəni xalqımıza bəxş etmiş bütün Şəhidlərimizin ruhları qarşısında baş əyir, qazilərimizə, qanlı döyüşlərin iştirakçılarına cansağlığı və uğurlar arzulayırıq.

**Eldar ƏZİZOV**
*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*

# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜNÜN GENİŞLƏNMƏSİ

**BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ**

# I FƏSİL



# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARI VƏ TƏCAVÜZÜNÜN YENİ MƏRHƏLƏSİ

Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları sovet dövründə daha da genişləndi. 1923-cü ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması ilə bu bölgə separatizm ocağına çevrilmişdi. Ulu öndər Heydər Əliyev bu problemin tarixi kökləri və mahiyyətindən bəhs edərkən demişdir: "30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərdə də erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Dəfələrlə qızğın fəaliyyətə başlamışdılar, ancaq onların qarşısı alınmışdı. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam"[1].

1980-ci illərin ortalarına qədər millətlərarası münasibətlərdə sovet rəhbərliyi sərt mövqe tutur, bununla da ermənilər, gürcülər, azərbaycanlılar, eləcə də bir çox başqa millətlər və etnik qruplar arasında sülhü qorumağa çalışırdı. 1985-ci ildə Sovetlər İttifaqında rəhbərliyə gələn M.S.Qorbaçovun həyata keçirdiyi yenidənqurma siyasəti mərkəzi hakimiyyəti effektiv silah dəstəyindən məhrum etdi və onu mövcud olmayan demokratiya şuarları ilə əvəz etdi.

XX əsrin 80-ci illərinin ikinci yarısında başlayan Ermənistanın Azərbaycana ərazi iddiaları ilk dəfə ittifaq və respublika mətbuatı səhifələrində yer aldı, bununla da gizli vəziyyətdən çıxaraq geniş müzakirə mövzusuna çevrildi. 1920-ci illərdən sonra ilk dəfə qapalı kabinetlərdə deyil, açıq şəkildə "sarsılmaz ittifaq"ın əsas sütunlarından biri sayılan sovet dövlətinin inzibati-ərazi quruluşunun dəyişdirilməsi tələbi irəli sürüldü. Eyni zamanda ilk dəfə olaraq Ermənistan rəhbərliyi Dağlıq Qarabağdakı separatçı hərəkata siyasi dəstək verməklə yanaşı, DQMV-nin Ermənistana birləşdirilməsi üçün müəyyən addımlar atmağa başladı.

Əslində, Dağlıq Qarabağ münaqişəsinin yeni mərhələsi, demək olar ki, Qorbaçovun SSRİ rəhbərliyinə gəldiyi andan alovlanmaqda idi. Kreml rəhbərliyi Ermənistan və Dağlıq Qarabağdakı əhvali-ruhiyyə haqqında yaxşı məlumatlı idi, orada nələrin olduğunu, nəyin hazırlandığını yaxşı bilirdi, çünki ermənilər niyyətlərini, planlarını gizlətmirdilər və radikal separatçı tələblərini yenidənqurmanın demokratik ritorikasına daxil etməyə

[1] Əliyev H.Ə. Mustəqilliyimiz əbədidir. 15-ci kitab. Bakı, 2005, s. 399



Heydər Əliyev. 1985-ci il



çalışırdılar. Bunu Qorbaçovun öz xatirələrində söylədiyi fikirlər də sübut edir. O yazırdı: "Üç il ərzində (1985–1987-ci illərdə – İ.N.) Mərkəzi Komitəyə Dağlıq Qarabağdakı vəziyyətlə bağlı 500 məktub daxil olmuşdu. Yenidənqurma böyük daxili qüvvələri hərəkətə gətirdi, köhnə yaralar yenidən irinləməyə başladı. Milli hisslər və onlarla birlikdə milli ekstremizm canlanırdı".[2]

Beləliklə, Qorbaçov etiraf etmək məcburiyyətində idi ki, 1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin qanlı mərhələsi başlamazdan çox əvvəl Moskva yerli ermənilər arasında milli ekstremizmin artması ilə bağlı baş verən mürəkkəb proseslərdən xəbərdar idi. Moskva bu barədə, ilk növbədə, xüsusi xidmət orqanları vasitəsilə məlumat alırdı. O illərdə Dövlət Təhlükəsizlik Komitəsi (DTK) sədrinin birinci müavini olmuş F.D.Bobkov başlamaqda olan qarşıdurma haqqında yazırdı: "Artıq iki ildir ki, biz Ermənistan və Azərbaycan arasındakı qarşıdurma ilə bağlı həyəcan təbili çalırdıq... Ermənistana göndərilən briqada bunu təsdiqlədi: Zaqafqaziyada etnik münaqişələr yetişir və təcili tədbirlər görülməlidir. Məsələ Sov.İKP Mərkəzi Komitəsinin katibliyinə müzakirəyə çıxarılmışdı. Lakin qəbul olunmuş qərarda briqadanın gəldiyi bütün nəticələr və təkliflər öz əksini tapmamış, məsələnin ciddiliyi malalanmışdı. Heç kəs bəzi respublikalarda sosial iğtişaşların baş verdiyini, etnik zəmində qarşıdurmaların olduğunu açıq etiraf etmək istəmirdi... Sov.İKP Mərkəzi Komitəsi həqiqəti üzə çıxarmaq cəhdlərinə mane olmağa çalışırdı".[3] Kreml Dağlıq Qarabağın Ermənistana verilməsi ideyası ətrafında növbəti erməni təxribatının yerli partiya və hüquq-mühafizə orqanları tərəfindən ənənəvi profilaktik təsir üsulları ilə boğulacağına ümid edirdi.

Azərbaycan SSR-in partiya rəhbərliyi də Dağlıq Qarabağ ətrafında baş verən hadisələrdən xəbərdar idi. Bu haqda DTK-nın DQMV-nin regional şöbəsinin keçmiş sədri, polkovnik G.Septan yazırdı: "Millətçi təzahürlərin fəallaşması ilə bağlı faktlar rəhbərliyə mütəmadi olaraq çatdırılırdı. İrəvandan olan emissarların gəlişi və xüsusi xidmət orqanlarının nəzarətində olan qruplar arasında canlanma halları da qeydə alınırdı. Rəhbərliyə məruzə edilirdi, yazılırdı, Gevorkov (Azərbaycan KP DQMV Partiya Komitəsinin I katibi – red.) ilə dəfələrlə qarşıya çıxan problemlər müzakirə olunmuşdu. Lakin Moskva bütün bunlara barmaqarası baxırdı. Bakıdakı rəhbərlik heç

[2] Горбачев М.С. Жизнь и реформы. Кн. 1, Москва, 1995, с. 506

[3] Бобков Ф. КГБ и власть. Москва, 2009, с. 298–299

zaman lazımi narahatlığı göstərmədi: nə açıq şəkildə "miatsum"a (bölgənin Ermənistana ilhaqına – İ.N.) çağıran Z.Balayanın "Ocaq" kitabı məqsədyönlü şəkildə yayılanda, nə də sonradan separatçılar özlərinin ərazi iddialarını demokratiya və aşkarlıq şüarları ilə pərdələyəndə. Fevral ayına qədər artıq hər şey aydın idi. Sumqayıt olmasaydı, başqa bir yerdə partlayacaqdı".[4]

Separatçıların DQMV-dəki hərəkətləri ilə bağlı məsələyə ilk dəfə Azərbaycan KP MK Bürosunun 17 may 1988-ci il tarixli iclasında baxılmışdır. Büro iclasında çıxış etmiş Gevorkov həyəcanla demişdir: "Mən bu barədə Azərbaycan KP MK-ya 4 avqust 1984-cü il tarixli məruzəmdə məlumat vermişəm. 10 dekabr 1984-cü il tarixli məruzəmdə mən Z.Balayanın "Ocaq" kitabının siyasi cəhətdən zərərli olması haqqında Azərbaycan KP MK-ya məlumat vermişəm. Hələ 10 sentyabr 1985-ci ildə mən məlumat vermişdim ki, yazıçı Xanzadyan məktubla müraciət edərək DQMV-nin Ermənistan SSR-in tərkibinə verilməsini tələb etmişdi..."[5] Gevorkov büronun üzvlərinə onu da xatırladır ki, 1987-ci ilin yayında, muxtar vilayətdə DQMV-nin Ermənistana verilməsini dəstəkləyən imzaların toplanmasına başlanan dövrdə o və respublikanın bir sıra digər rəhbərləri Sov.İKP MK-nın Zaqafqaziya respublikaları sektoruna dəvət edilmişdilər, orada Azərbaycan SSR-ə qarşı ərazi tələblərinin irəli sürüldüyü petisiyanın mətni ilə tanış olmuşdular.[6] Petisiyanın sırf siyasi məzmunda olmasına baxmayaraq, respublika rəhbərliyi ənənələrə sadiq qalaraq yalnız izahat tədbirləri ilə məhdudlaşmışdı. Çünki onları belə öyrətmişdilər: siyasi qərarların verilməsi Moskvanın ixtiyarındadır.[7]

1987-ci ilin sonunda erməni millətçilərini ruhlandıran və hərəkətlərinə inam verən bir hadisə baş verdi. 21 oktyabr 1987-ci ildə Heydər Əliyev Sov.İKP Mərkəzi Komitəsinin Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci muavini vəzifəsindən azad edildi. Baş katibin köməkçisi İ.Boldin xatirələrində yazırdı ki, Heydər Əliyev təqaüdə çıxanda Mərkəzi Komitənin plenumunda M.S.Qorbaçov onun özü və gördüyü işlər haqqında səmimi danışdı, amma iclasın stenoqramı dərc edilərkən bu sözləri oradan çıxartdırdı.[8]

---

[4] Гусейнов В. Больше, чем одна жизнь. Кн. 2. Москва, 2013, с. 118–119

[5] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (sonra ARPİİSSA), fond 1, siyahı 83, iş 65, vərəq 19

[6] Yenə orada, vərəq 20

[7] Yenə orada, vərəqlər 24–25

[8] Болдин В.И. Крушение пьедестала. Штрихи к портрету М.С.Горбачева. Москва, 1995, с. 220





"Qarabağ" kitabının müəllifi Tomas de Vaalın sözlərinə görə, erməni millətçilərinin Heydər Əliyevin istefası ilə birbaşa əlaqəsi vardı. O yazırdı: "Onlar Qarabağın işğalı ideyasına əsas maneə olan və bütün prosesi əngəlləyə biləcək Azərbaycan patriarxı Heydər Əliyevi nüfuzdan salmaq üçün kampaniyaya başladılar".

Heydər Əliyev müsahibələrindən birində 1987-ci ildə Qarabağ hərəkatının fəallarından biri olan İqor Muradyandan ona ünvanlanan təhdid və təhqirlərlə dolu bir məktub aldığını xatırlayırdı. O, Heydər Əliyevi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə mane olmaqda günahlandırırdı. Məktuba erməni terrorunun qurbanı olan azərbaycanlıların və türklərin adlarının böyük bir siyahısı əlavə edilmişdi. Məktub müəllifi Heydər Əliyevi ermənilərin yolundan çıxmasa, oxşar aqibətlə üzləşəcəyi ilə hədələyirdi.[9] Maraqlıdır ki, həmin Muradyan 1987-ci ilin martında Siyasi Büro üzvlüyünə namizəd, Yenidənqurmanın ideoloqu A.Yakovlevə ünvanladığı bir məktubda da açıq şəkildə Heydər Əliyevi "Şərqi Ermənistanın (Ermənistan SSR, Naxçıvan MSSR, DQMV nəzərdə tutulur – İ.N.) parçalanmasında" günahlandırırdı. Məktubun müəllifi SSRİ Ali Məhkəməsinə Heydər Əliyevə qarşı iddia ərizəsi ilə müraciət etdiyini, bu iş üzrə 600 səhifəlik material toplandığını və təqdim olunduğunu qeyd edirdi.[10]

İ.Muradyanın bu müraciəti bir daha sübut edir ki, Yenidənqurma başlandıqdan sonra erməni millətçiləri hərəkətlərində o qədər sərbəst idilər ki, Sov.İKP MK-nın Siyasi Bürosunun üzvünə və sovet hökumətinin rəhbərlərindən birinə qarşı ittihamlarla çıxış edə bilirdilər. Əlbəttə ki, Sov.İKP MK-nın Baş katibi M.Qorbaçovun və onun erməni müşavirlərinin – A.Aqanbekyan, G.Şahnəzərov və başqalarının dəstəyi olmadan erməni millətçiləri bu addımı atmağa cürət etməzdilər. Təsadüfi deyil ki, G.Şahnəzərov öz xatirələrində Heydər Əliyevin onu və Qorbaçova yaxın digər erməniləri Qarabağı Azərbaycandan qoparmaqda günahlandırdığını yazırdı. Separatçılar hətta Ermənistan KP-nin lideri Karen Dəmirçyanın da dəstəyinə müvəffəq olmuşdular. O hətta SSRİ-nin ən yüksək partiya rəhbərliyində rəqibinin siyasi karyerasına son qoyulmasından çox məmnun idi. Bunu xatırlayan Dəmirçyan 1990-cı ildə demişdir: "Ən vacib işi – hərəkat (Qarabağ) başlamazdan əvvəl Əliyevi kənarlaşdırmağı bacardıq. Bu, çox vacib idi".[11]

---

[9] Heydər Əliyevin müsahibəsi. // "Ulduz", 1990, №6, s. 71

[10] Российский Государственный Архив Новейшей Истории (далее РГАНИ), фонд 100, опись 5, дело 631, листы 1–2

[11] Ваал Т. Черный сад. Армения и Азербайджан между миром и войной. Москва, 2005, с. 38–39

Beləliklə, Sovet İttifaqının ən yüksək siyasi rəhbərliyində Heydər Əliyev kimi bir Azərbaycan liderinin olması separatçıların öz məkrli planlarını həyata keçirməsinə ən böyük əngəl idi. Tanınmış rus tarixçisi F.Razzakov qeyd edir ki, "Qorbaçov Əliyevi Siyasi Büroda saxlayıb Qarabağa göndərsəydi, gələcək faciələr olmaya bilərdi. Ancaq Qorbaçov başqa bir seçim etdi: Əliyevdən qurtuldu, ancaq Georgi Şahnəzərovu özünə yaxınlaşdırdı (o zaman köməkçisi olub). Qorbaçov Azərbaycan tərəfini dinləmək istəmədi" [12]

Qorbaçov rəhbərliyə gəldikdən sonra Sov.İKP və sovet dövlətinin ali orqanlarına müxtəlif kanallar vasitəsilə gələn siqnallara reaksiyanın olmaması erməni tərəfini ərazi tələblərini daha israrla irəli sürməyə həvəsləndirirdi. Qorbaçovun iqtisadi sahədə müşavirlərindən olan Abel Aqanbekyan 1987-ci il noyabrın 16-da Parisdəki İnterkontinental otelində bir qrup fransız ermənisi ilə görüşdü və onlara problemlə bağlı öz fikirlərini çatdırdı: "Dağlıq Qarabağ Ermənistana qaytarılsa, mən sevinərdim. İqtisadçı olaraq hesab edirəm ki, onun Azərbaycanla müqayisədə Ermənistanla daha sıx əlaqələri var. Mən artıq bu haqda təklif vermişəm, ümid edirəm ki, bu ideyalar yenidənqurma və demokratiya ruhunda həyata keçiriləcək".[13]

Aqanbekyanın fikirləri fransız kommunistlərin Sovet İttifaqında da yayılan qəzetində – "Humanite"də nəşr edildi. Qorbaçov müşavirini nə birbaşa, nə də dolayı yolla təkzib etmədi. Buna görə də ermənilər hiss etdilər ki, partiyanın baş katibinin iqtisadi sahədə məsləhətçisinin bu cür cəsarətli açıqlaması təsadüfi deyildir və əvvəlcədən onunla razılaşdırılmışdır. Aqanbekyanın açıqlaması dərhal xaricdəki erməni qəzet və jurnalları, Parisdəki "Ayb", həmçinin "Azadlıq", "Amerikanın səsi" radiostansiyalarının erməni şöbələri üçün əsas mövzu oldu. Ermənilərin diaspor təşkilatlarının fəaliyyəti canlandı.[14] Beləliklə, nişanlanmış Qarabağ kartı oyuna daxil oldu

DQMV-nin Ermənistana verilməsi tələbi ideoloji cəhətdən, birincisi, Qarabağın tarixən ermənilərə mənsubluğu haqqında mifik ideyaya, ikincisi, millətin öz müqəddəratını təyinetmə hüququna malik olması prinsipinin birtərəfli şəkildə şişirdilməsinə əsaslanırdı. Separatçı hərəkatın bütün təbliğat ritorikası Yenidənqurmanın ideoloji proseslərinin kontekstində qurulmuşdu. SSRİ tarixinin tənqidi şəkildə yenidən nəzərdən keçirilməsindən istifadə edən ermənilər İ.Stalinin 1921-ci ildə Dağlıq Qarabağı Azərbaycana "verdiyi" barədə uydurma iddialarını mətbuatda, bir qədər sonra isə kiçik broşür şəklində çap olunan kitablarında yaymağa başladılar. Cəmiyyətdə fəal şəkildə müzakirə olunan SSRİ-də inzibati-amirlik sisteminin aradan qaldırılması ideyalarının Sovet İttifaqının milli dövlət quruluşuna da aid edilməsini erməni separatçıları DQMV ərazi-hüquqi statusuna yenidən baxılması üçün istifadə edirdilər. Sovet cəmiyyətinin sosial-iqtisadi problemlərinin tənqid edilməsi ermənilərə, öz növbəsində, muxtar bölgənin sosial-iqtisadi və milli-mədəni problemləri ətrafında əsl isteriya qaldırmaq üçün əlverişli zəmin yaratdı.

[12] Раззаков А. Коррупция в Политбюро. Дело «красного узбека» Москва, 2009 с.574–575

[13] Ваал Т. Черный сад. Армения и Азербайджан между миром и войной. Москва 2005, с. 21

[14] Широнин В. Агенты перестройки. Рассекреченное досье КГБ. Москва, 2010, с. 140





Bu dövrdə Ermənistandakı emissarların rəhbərliyi ilə DQMV-də separatçı hərəkatın təşkilati əsasları yaradıldı. 1988-ci ilin martında Xankəndidə (1923–1991-ci illərdə Stepanakert – red.) "Krunk", Yerevanda "Qarabağ" təşkilatlarının fəaliyyəti qanuniləşdirildi.

1987-ci ilin sonundan etibarən Ermənistanın azərbaycanlı əhalisi güclü mənəvi və psixoloji təzyiqlərə, təhdidlərə məruz qalırdı və azərbaycanlılara qarşı fiziki zorakılıq faktları artmışdı. Bunun nəticəsi olaraq, ilk dəfə 1988-ci ilin yanvar ayında Ermənistanın Qafan və Mehri rayonlarından yüzlərlə azərbaycanlı qovuldu. Fevral ayında qaçqınlığın miqyası xeyli artdı. 1988-ci il fevralın 18-dək Ermənistanı tərk etmək məcburiyyətində qalan azərbaycanlıların sayı artıq dörd min nəfərdən çox idi. Respublikanın yollarında və yaşayış məntəqələrində qaçqınların görünməsi, baş verənlər barədə onların danışdıqları böyük həyəcan doğururdu və milli həmrəyliyin yaranmasına şərait yaradırdı. 22–24 fevral tarixlərində Xankəndi–Ağdam yolunda ermənilər azərbaycanlılarla ilk qarşıdurma yaratdı. Qarabağ münaqişəsinin ilk qurbanları olan iki azərbaycanlının Əsgəran bölgəsində öldürülməsi xəbəri bu həyəcanı kulminasiya nöqtəsinə çatdırdı. Bakıdan gələn hakimiyyət nümayəndələri ilə rayon aktivlərinin səyləri nəticəsində insanların hiddəti bir qədər cilovlana bildi. Ağdamda keçirilən mitinqdə iki azərbaycanlının ölümü ilə bağlı ehtirasları oyatmamaq qərarı verildi.[15] Lakin hadisələr fərqli bir ssenaridə inkişaf etməyə başladı.

Yaranmış gərgin vəziyyətdə və respublikalarda kütləvi mitinq dalğalarının artması şəraitində Mərkəz yenidən Ermənistan və Azərbaycandakı hadisələrə reaksiya verməyə çalışdı. Beləliklə, 1988-ci ilin mayında hər iki

[15] Дашдамиров А.Карабахский конфликт в контексте перестройки. // «Вестник аналитики», 2005, №3 (21), с. 196

respublikada rəhbərlik dəyişdi. Azərbaycanda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə əvvəllər Nepalda və Pakistanda səfir işləmiş, ümumiyyətlə, 12 il respublikada olmamış Əbdurrəhman Vəzirov təyin edildi. Heydər Əliyev Vəzirovun Azərbaycana rəhbər təyin edilməsini səhv addım kimi qiymətləndirmişdi: "Azərbaycan KP MK-nın birinci katibi Vəzirov mürəkkəb vəziyyətdə özünü çox zəif göstərdi. Onun bu vəzifəyə təyin olunması ən böyük səhvdir. Onun partiya işi sahəsində lazımi təcrübəsi və siyasi hazırlığı yox idi. Uzun illər xaricdə işlədiyi üçün respublikadakı vəziyyətdən xəbərsiz idi. Vəzirovu Azərbaycana gecə Liqaçov apardı. Səhərisi isə təqdim etdi və o, Azərbaycan KP MK-nın birinci katibi "seçildi". Respublikada heç kim onun namizədliyini irəli sürməmişdi. Büro üzvləri, partiya fəalları ilə əvvəlcədən məsləhətləşmə olmamışdı. Halbuki respublikada bu vəzifəyə layiq adamlar var idi".[16]

Rəhbərliyə gəldiyi ilk günlərdən respublikanın problemləri ilə bağlı səthi biliklərə malik olan Vəzirov belə qeyri-adi və məsuliyyətli vaxtda Azərbaycana rəhbərlik etməyə tamamilə münasib olmayan, üstəlik, ana dilini yaxşı bilməyən fiqur idi. Uzun illər Azərbaycandan kənarda işləmiş, respublikada gedən mürəkkəb ictimai-siyasi və sosial-iqtisadı proseslərdən bixəbər olan Vəzirov "yenidənqurmanın" doğurduğu eyforiyaya qapılaraq ucuz populist hərəkətləri ilə xalqın rəğbətini qazanmağa çalışırdı.

1988-ci ilin sonlarında Azərbaycan hakimiyyətinin siyasi, ideoloji, mənəvi resursları tükənmək ərəfəsində idi. Respublikanı bürüyən böhranın kökləri o qədər dərin idi ki, Azərbaycanın xeyli hissəsində xüsusi rejimin, komendant saatının tətbiq edilməsi belə, tətil və mitinqlərin avtomatik dayandırılmasına gətirib çıxartmadı. Əhalini adi iş həyatına qaytarmaq üçün güc strukturlarının bütün imkanlarını səfərbər etmək lazım gəldi. Bununla yanaşı, mərkəzi və respublika orqanlarının öhdəsindən gələ bilmədikləri, çətin həll olunan millətlərarası, siyasi, milli, sosial-iqtisadi problemlərə yeniləri əlavə olundu. Bunların arasında qaçqınlar problemi ön plana çıxdı.

1988-ci il noyabrın sonu – dekabr ayında azərbaycanlıların Ermənistandan tamamilə qovulmasının sonuncu mərhələsi başlandı. Fevral ayında Ermənistanda və Dağlıq Qarabağda "miatsum" şüarı altında kütləvi numayişlərlə başlayan hadisələr 1988-ci ildə Ermənistandan azərbaycanlı əhalinin tamamilə təmizlənməsi ilə başa çatdı. Beləliklə, millətçilərin "Ermənistan ermənilər üçün" şüarı həyata keçirildi. Azərbaycan SSR Nazirlər Sovetinin

[16] Qayıdış (1990-1993). Bakı, 2008, s. 76-77





1988-ci il dekabrın 2-nə olan məlumatına görə, qaçqınların sayı 78 min nəfəri keçmişdi.[17]

Vətəndaşların milli zəmində təqib olunması faktı ilə üzləşən ölkə rəhbərliyi insanların əsrlər boyu yaşadıqları torpaqlardan zorla çıxarılması faktlarına reaksiya verməli idi. Sovet dövlətində qaçqınların görünməsi sosialist sisteminin əsaslarına, sovet xalqının ümumi sovet ölkəsi, sovet həyat tərzi haqqında fikirlərinə zidd idi. Bu gözləntilərə cavab SSRİ Nazirlər Sovetinin 1988-ci il 6 dekabr tarixli "Azərbaycan SSR və Ermənistan SSR yerli hakimiyyət orqanlarının bəzi vəzifəli şəxslərinin vətəndaşları daimi yaşayış yerlərini tərk etməyə məcbur edən yolverilməz hərəkətləri haqqında" qərarı oldu.[18] Bu sənəd nə səviyyəsinə, nə hadisələrin anlaşılmasına, nə də təklif olunan tövsiyələrə görə respublikalardakı real vəziyyətə uyğun deyildi. Qətnamə müəllifləri Sovet Konstitusiyasının kobud şəkildə pozulduğu bir şəraitdə yalnız istehsal, nazirlik və hüquq-mühafizə orqanlarının ayrı-ayrı rəhbərlərini cəzalandırmaqla vulkan püskürməsinə bənzəyən siyasi prosesi dayandırmağın mümkün olduğunu hesab edirdilər. Qərarın məzmunu bir daha əyani olaraq onu sübut edirdi ki, mərkəzi hakimiyyət bütün kritik vəziyyətlərdə münaqişə tərəflərinin məsuliyyət bərabərliyi prinsipinə sadiq idi. Tərəflərin bərabər məsuliyyətli taktikası prosesin tezliklə idarəolunmazlığına gətirib çıxaran əsas səbəblərdən biri idi. Qərarda azərbaycanlıların Ermənistandan tamamilə deportasiya edilməsi faktı öz əksini tapmamışdı. Münaqişənin həqiqi topoqrafiyası, müvəqqəti və məkan dinamikası da nəzərə alınmamışdı. Bundan əlavə, hakimiyyət əvvəlcə Ermənistandan qaçan azərbaycanlıların sayının, əsasən, Sumqayıtı tərk edən ermənilərin sayından xeyli çox olduğu faktını nəzərə almamışdı. İkincisi, azərbaycanlılar ata-babalarına, ulu babalarına məxsus olan torpaqlarını – tarixi yaşayış yerlərini tərk etmişdilər. Bu qətnamənin hazırlanması və həyata keçirilməsinin tələsik olması Moskvanın respublikalardakı etnik statuskvonun bərpası barədə düşünmədiyini göstərirdi. Bu andan etibarən bir neçə il ərzində qaçqın fenomeni Azərbaycanın siyasi və ictimai həyatında qaçılmaz bir amilə çevrildi. Azərbaycan SSR Dövlət Statistika Komitəsinin məlumatına görə, 1990-cı il fevral ayının əvvəlinə qədər Ermənistandan Azərbaycana 186 min azərbaycanlı, eləcə də 11 min kürd və 3,5 min rus

[17] «Бакинский рабочий», 1988, 3 декабря
[18] Там же, 1988, 7 декабря

qaçqını pənah gətirmişdi. 1990-cı ilin ortalarında Azərbaycan Dövlət Statistika Komitəsi respublikada Ermənistan və Özbəkistandan olan 233 min qaçqını qeydiyyata almışdı. Azərbaycanlıların Ermənistandan deportasiyası ilə Ermənistan–Azərbaycan münaqişəsinin miqyası artmış, daha çox insan kütləsi bu prosesə cəlb edilmişdi.

Moskva faciənin humanitar və siyasi nəticələrini, azərbaycanlıların və ermənilərin birgə, qonşuluqda yaşadıqları bütün yaşayış məntəqələrinə qaçılmaz şəkildə yayılacağını başa düşmədi və qiymətləndirə bilmədi. 1988-ci ilin nəticələri göstərdi ki, Sovet rəhbərliyinin niyyətindən asılı olmayaraq, onun siyasi və təşkilati səylərinin qeyri-müəyyən təbiəti münaqişənin şiddətlənməsinə səbəb oldu və hər iki tərəfdən mərkəzi hakimiyyətə qarşı inamsızlığı artırdı. 1988-ci ilin sonlarına doğru məlum oldu ki, Sov.İKP MK-nın Qarabağ məsələsində apardığı xətt nəinki müsbət nəticələr vermədi, hətta ciddi siyasi səhvlərə və itkilərə gətirib çıxartdı. Azərbaycanlıların Ermənistandan deportasiyasından sonra Qarabağda davam edən separatist hərəkat azərbaycanlıların DQMV-dən qovulması ilə nəticələndi.

1989-cu ilin əvvəlində Dağlıq Qarabağ böhranı Azərbaycan üçün daha təhlükəli mərhələyə daxil oldu. 1989-cu il yanvarın 12-də guya vəziyyəti normallaşdırmaq üçün SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə yaradılmış A.Volskinin başçılıq etdiyi DQMV Xüsusi İdarə Komitəsi (XİK) vilayətin idarə olunmasından respublika orqanlarını faktiki olaraq kənarlaşdırdı. XİK-in köməyi ilə DQMV-nin Azərbaycanla bütün iqtisadi, siyasi və mədəni əlaqələri kəsildi. Fürsətdən istifadə edən erməni tərəfi Qarabağ probleminin zorakı yolla həlli üçün hazırlıq işlərini, ilk növbədə, yaraqlı dəstələrin formalaşdırılması prosesini sürətləndirdi. Bu dövrdə Dağlıq Qarabağın erməni yaşayış məntəqələrində döyüş dəstələrinin və yaraqlıların hazırlanması məqsədilə xüsusi təlim düşərgələrinin yaradılmasına başlanıldı. Volskinin rəhbərlik etdiyi XİK-in yaratdığı belə əlverişli şəraitdən istifadə edən erməni yaraqlıları 1989-cu il yayın əvvəllərində Azərbaycan icmasının Qarabağdan tamamilə sıxışdırılıb çıxarılması üçün genişmiqyaslı əməliyyatlara başladılar. Əgər indiyə kimi Dağlıq Qarabağ ərazisindəki erməni yaraqlılarının fəaliyyəti, əsasən, ayrı-ayrı azərbaycanlılara qarşı terror aktlarının təşkilinə yönəlmişdisə, artıq 1989-cu ilin yayından etibarən vilayətin azərbaycanlı əhalisinin məskunlaşdığı yaşayış məntəqələrinin blokadaya alınmasına başlanıldı. Azərbaycanlıların Dağlıq Qarabağdan qovulması prosesini sürətləndirmək məqsədilə erməni yaraqlıları azərbaycanlı





əhalinin yaşayışını təmin edən təsərrüfat obyektlərini və nəqliyyat kommunikasiyalarını məhv etməyə çalışırdılar. Bu dövrdə Dağlıq Qarabağın erməni yaşayış məntəqələrində döyüş dəstələrinin və yaraqlıların hazırlanması məqsədilə xüsusi təlim düşərgələrinin yaradılmasına başlanıldı. Həmin düşərgələrdəki təlim prosesinə, bir çox hallarda, xaricdən dəvət olunmuş, ABŞ, Qərbi Avropa və Yaxın Şərq ölkələrinin erməni milliyyətindən olan vətəndaşları başçılıq edirdilər. Eyni zamanda Ermənistandan Dağlıq Qarabağa avtomobil və hava yolu ilə intensiv surətdə silahlar daşınır, vilayətin ərazisində erməni yaraqlı dəstələrinin hərbi sursat anbarları yaradılırdı. Kremlin Dağlıq Qarabağ məsələsində birmənalı olmayan mövqeyi getdikcə münaqişə tərəfləri arasında şiddətli qarşıdurmaya və hər iki tərəfdə mərkəzi hökumətə qarşı inamsızlığın artmasına səbəb olmuşdu.

1989-cu il noyabrın 28-də SSRİ Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda göstərilirdi ki, SSRİ Ali Soveti Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin xahişini nəzərə alaraq DQMV üzrə Respublika Təşkilat Komitəsi yaratsın və 20-ci çağırış DQMV Xalq Deputatları Sovetinin və onun icraiyyə komitəsinin 12 yanvar 1989-cu ildə dayandırılmış səlahiyyətlərini bərpa etsin.[19] İlk baxışdan, 10 aylıq fasilədən sonra Azərbaycanın Dağlıq Qarabağ üzərində suverenliyi bərpa olunurdu. Lakin bu qərara cavab olaraq 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında SSRİ və Azərbaycan SSR-in Konstitusiyalarına zidd qərar qəbul etdi. Bunun ardınca 1990-cı il yanvarın 9-da Ermənistan SSR Ali Soveti özünün növbədənkənar iclasında "DQMV-nin 1990-cı il üçün sosial-iqtisadi inkişaf planının Ermənistan SSR-in 1990-cı il üçün sosial-iqtisadı inkişafı haqqında Dövlət planına daxil edilməsi" barədə Azərbaycana qarşı daha bir qeyri-qanuni qərar da qəbul etdi. Lakin 1990-cı il yanvarın 10-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən Ermənistan SSR Ali Sovetinin "Dağlıq Qarabağa dair SSRİ Konstitusiyasına uyğun olmayan 1989-cu il 1 dekabr və 1990-cı il 9 yanvar tarixli aktları" barədə qərar qəbul olundu. Qərarda göstərilirdi: "Ermənistan SSR-in qəbul etdiyi bu qərarlar Azərbaycan SSR-in suveren hüquqlarının pozulması ilə bərabər, SSRİ Konstitusiyasının 74-cü maddəsinə əsasən, heç bir hüquqi qüvvəyə malik deyil".[20]

[19] «Правда», 1989, 29 ноября

[20] «Бакинский рабочий», 1990, 11 января



Bakı. 20 yanvar 1990-cı il

Beləliklə, Kremlin Dağlıq Qarabağ məsələsində birmənalı olmayan mövqeyi getdikcə münaqişə tərəfləri arasında şiddətli qarşıdurmaya və hər iki tərəfdə mərkəzi hökumətə qarşı inamsızlığın artmasına səbəb oldu. Nəticədə, muxtar vilayət yalnız Bakının deyil, Moskvanın da nəzarətindən tamamilə çıxdı. 1989-cu ilin sonlarında Sov.İKP Mərkəzi Komitəsinin Qarabağ məsələsində yürütdüyü siyasətin nəinki müsbət nəticə vermədiyi, əksinə, ciddi siyasi səhvlərə və itkilərə səbəb olduğu aydın oldu.

1990-cı ilin əvvəllərində Qarabağdan gələn məlumatlar isə artıq hərbi hesabatları xatırladırdı. Erməni terrorçular Qubadlı bölgəsindəki 10 Azərbaycan kəndini viran qoydular. Laçın rayonu daim atəş altında idi. Xankəndidə azərbaycanlı sərnişinlərin olduğu avtobusa hücum edildi. Ermənistan tərəfindən Naxçıvanın azərbaycanlıların yaşadığı kəndlərə hücumlar başlanıldı. Azərbaycan kəndlərinin Alazan raketlərindən atəşə tutulması qeyd edildi. Bu hadisələr Moskvanı 1990-cı il yanvarın 15-də DQMV-də fövqəladə vəziyyət elan etməyə məcbur etdi.





Heydər Əliyev Şəhidlər xiyabanında. 1991-ci il

Sovet qoşunlarının Bakıya müdaxiləsi ərəfəsində şəhərin müəyyən rayonlarında erməni mənzillərinə hücumlar qeydə alınmışdı. Yəni 1988-ci ilin fevral ayında Sumqayıt təxribatının ssenarisi təkrarlanırdı. Bu cür təxribatların əsas məqsədi mərkəzi hakimiyyət orqanlarına Azərbaycanda erməni əhalisinin hüquqlarının pozulduğunu göstərmək və bununla da Dağlıq Qarabağdakı separatçı hərəkatı əsaslandırmaq idi. 1990-cı il yanvarın əvvəllərindən Moskvadan Bakıya müxtəlif səviyyəli emissarlar gəlməyə başladı. Respublika televiziyasında və mitinqlərdə çıxışları vaxtı onlar xalqı şəhərdə fövqəladə vəziyyətin tətbiq olunmayacağına, qoşunların girməyəcəyinə və etirazçıların bütün tələblərinin yerinə yetiriləcəyinə inandırmağa çalışırdılar. Lakin Moskva gözlənilməz zərbə vurmağa hazırlaşırdı. Yanvarın 19-da Qorbaçov, Azərbaycan SSR Ali Sovetinin xəbəri olmadan, 20 yanvar saat 00:00-dan etibarən "Bakıda fövqəladə vəziyyətin tətbiqi haqqında" fərman imzaladı. Yanvarın 19-dan 20-nə keçən gecə müxtəlif təyinatlı sovet qoşunları bir neçə istiqamətdən Bakı şəhərinə daxil oldu.

Nəticədə, onlarla günahsız mülki insanın qətli ilə nəticələnən Yanvar faciəsi baş verdi. Əslində, Yanvar faciəsi 1988-ci ildən başlayaraq mərkəzin Azərbaycan xalqına qarşı apardığı ədalətsiz siyasətinin davamı idi. Və bu faciənin kökündə ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə olan ərazi iddiaları dururdu. Təsadüfi deyil ki, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bu hadisənin günahkarlarını açıq tənqid edən Sov.İKP Mərkəzi Komitəsinin Siyasi Bürosunun keçmiş üzvü Heydər Əliyev Bakıda baş verən faciəli hadisələrin əsas səbəbi olan Qarabağ məsələsində Kremlin və respublika rəhbərliyinin yol verdiyi kobud səhvləri üzə çıxartdı.

Qanlı Yanvar hadisələrindən sonra respublikada son iki ildə ikinci dəfə rəhbərlik dəyişdi. 20 yanvarın səhəri hərbi vertolyotla Moskvaya qaçan Ə.Vəzirovun yerinə Kreml Azərbaycan SSR Nazirlər Sovetinin keçmiş sədri Ayaz Mütəllibovu respublika partiya təşkilatının yeni başçısı təyin etdi. Həmin ilin may ayında Azərbaycanda prezident vəzifəsi təsis edildi və A.Mütəllibov Ali Sovet tərəfindən respublikanın prezidenti seçildi.

1990-cı il martın 5-də SSRİ Ali Soveti Ermənistanla Azərbaycan arasında olan münaqişəni nizama salmaq məqsədilə növbəti qərar qəbul etdi. Qərarda əllərdə toplanmış qanunsuz silahların yığılması məsələsi ön plana çəkilirdi. Bu məqsədlə SSRİ baş prokuroruna və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə tapşırıldı ki, iki ay müddətində SSRİ Ali Sovetinə müvafiq məlumatlar təqdim etsinlər. Lakin Ermənistan rəhbərliyi bu qərara da əvvəlkilər kimi laqeyd münasibət göstərdi. Azərbaycanın Ermənistanla sərhəd rayonları erməni yaraqlılarının hücumlarına məruz qalmaqda davam edirdi.

1990-cı ilin əvvəllərində Azərbaycanın Qazax rayonunun Ermənistanla sərhədində vəziyyət gərginləşməyə başladı. 1990-cı ilin mart ayında ən faciəli hadisələr Qazax rayonunun Bağanıs-Ayrım kəndində baş verdi. Martın 24-də ermənilərin silahlı hücumu nəticəsində Bağanis-Ayrım kəndində 7 nəfər dinc sakin diri-diri yandırıldı, 1 nəfər yaralandı, 13 yaşayış evi yandırıldı.[21]

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti aprelin 21-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin Əsgəran, Hadrut, Mardakert, Martuni rayonları və Stepanakert şəhərinin inzibati-ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Qərar qəbul etdi. Bu qərara əsasən, muxtar vilayətin ərazisində 9 yeni kənd şurası, bir qəsəbə şurası və bir rayon tabeliyində olan Xocalı şəhəri yaradıldı.[22]

[21] Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Bakı, 2005, s. 11





SSRİ prezidenti M.S.Qorbaçov 1990-cı il iyulun 25-də "SSRİ-nin qanunvericiliyində nəzərdə tutulmayan silahlı birləşmələrin yaradılmasının qadağan edilməsi və qanunsuz saxlanıldığı halda silahların götürülməsi haqqında" fərman imzaladı.[23] SSRİ DİN-in istintaq-əməliyyat qrupunun Baş Qərargah rəisi V.Krivopuskov kitabında qeyd edirdi ki, 1990-cı ildə Qorbaçovun pasport rejiminin yoxlanılması ilə bağlı fərmanının icrası üzrə 160 hərbi əməliyyat həyata keçirildi. Onlardan 156-sı yalnız ermənilərin yaşadığı şəhər və kəndlərdə aparılmışdı.[24] Bu rəqəmlər Dağlıq Qarabağda sülhə olan təhlükənin haradan qaynaqlandığına parlaq sübut idi.

1990-cı il ərzində DQMV-də vəziyyət gərginləşməyə davam etdi, ermənilərin silahlı birləşmələri ilə SSRİ DİN-in hissələri və sovet ordusunun silahlı birləşmələri arasında toqquşmalar başladı. Ermənistandan silahlı qrupların DQMV-yə daxil olması və bura silah-sursat daşınması dayanmırdı. DQMV ərazisində silah və döyüş sursatı olan anbarlar yaradıldı. Yaraqlılar Ermənistan SSR-dən DQMV-yə "tikinti dəstələri"nin, "elmi-tarixi ekspedisiyalar"ın iştirakçıları adı altında gəlirdi və yerli erməni əhalinin qeyd-şərtsiz dəstəyindən istifadə edirdilər. Ermənistandan silah-sursat gətirmək üçün vertolyotlardan istifadə olunurdu ki, bu da, şübhəsiz, Ermənistan SSR hakimiyyətinin xəbəri olmadan baş verə bilməzdi. Qeyd etmək lazımdır ki, DQMV-də fəaliyyət göstərən ermənilərin qanunsuz silahlı dəstələri SSRİ-nin DQMV-yə ezam edilmiş hüquq-mühafizə orqanlarının bir sıra yüksək vəzifəli əməkdaşlarının dəstəyindən də istifadə edirdi.

Ermənilərin atıcı silahlarla, qumbaraatanlarla və minaatanlarla təchiz edilmiş silahlı dəstələri ciddi təhlükə törədirdi. Onlar pusqu təşkil edərək, keçən nəqliyyat vasitələrinə, daxili qoşunların və sovet ordusunun zastavalarına hücum edir, azərbaycanlılar yaşayan məntəqələri atəşə tuturdular. Belə ki, 1991-ci il yanvarın 9-da Laçından Şuşaya gedən yolda, Qaladərəsi kəndi yaxınlığında "Azərbaycan gəncləri" qəzetinin müxbiri Salatın Əsgərovanın da içərisində olduğu avtomaşın erməni yaraqlıları tərəfindən atəşə tutuldu. Jurnalist S.Əsgərova və SSRİ Daxili İşlər Nazirliyinin Daxili

[22] «Бакинский рабочий», 1990, 22 апрел

[23] Там же, 1990, 26 июля

[24] Кривопусков В.В. Мятежный Карабах. Из дневника офицера МВД СССР. Издание второе, дополненное. Москва, 2007, с. 22

Qoşunlarının üç hərbçisi həmin hücum nəticəsində həlak oldu. DQMV üzrə DİN rəisi general-mayor V.Kovalyova sui-qəsd təşkil edildi. Hücumlar təkcə DQMV ərazisində deyil, həm də Azərbaycan ilə Ermənistan arasındakı sərhədin müxtəlif sahələrində həyata keçirilirdi.

Azərbaycan SSR rəhbərliyi də respublika əhalisinin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görsə də, imkanlar çox məhdud idi. Birincisi, ordu da, daxili qoşunlar da İttifaq hakimiyyət orqanlarının tabeliyində idi. İkincisi, 1990-cı ilin yanvar ayının sonunda SSRİ DİN naziri V.Bakatinin əmri ilə Azərbaycan SSR DİN tamamilə tərk-silah edilmişdi. Makarov tapançaları istisna olmaqla, bütün silahlar müsadirə olunmuşdu. Azərbaycan kəndlərinin sakinlərinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan SSR DİN və DTK rəhbərliyi erməni silahlı birləşmələrinin hücumlarına və ya atəşə məruz qalmış Azərbaycan kəndlərinə mərkəzi aparatdan, rayon bölmələrindən işçilərin ezam edilməsinə başlamışdır. 1990-cı ilin may ayında Azərbaycan SSR DİN-in tabeliyində Xüsusi Təyinatlı Milis Dəstələri (XTMD) yaradılmış və 300 nəfərə yaxın insan həmin hissələrə daxil olmuşdu. Həmçinin Azərbaycan SSR DTK-nın tərkibində "A" xüsusi qrupu yaradılmışdır.

Ermənistan hakimiyyəti SSRİ-nin qorunub saxlanılması və yeniləşdirilməsi haqqında 1991-ci il martın 17-də keçirilmiş Ümumittifaq referendumunda iştirak etməkdən, həmçinin 1991-ci ilin aprelində yeni ittifaq müqaviləsinin formalaşdırılması prosesində iştirakdan imtina etmişdi. Ermənistan rəhbərliyinin bu hərəkətləri İttifaq rəhbərliyi ilə münasibətlərini gərginləşdirmişdi. Azərbaycan rəhbərliyi öz tərəfindən SSRİ-nin tərkibindən çıxmaq məsələsini qaldırmamış, Ümumittifaq referendumunda və Novoqaryov prosesində iştirak etmişdi. İrəvan-Moskva münasibətlərinin mürəkkəbləşməsindən məharətlə istifadə edən Azərbaycan rəhbərliyi Moskvadan DQMV və ətraf rayonların ərazisində qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi ilə bağlı daha fəal və miqyaslı xüsusi əməliyyatların keçirilməsinə razılıq almışdır.

O dövrdə Xanlar rayonu (indiki Göygöl rayonu) Bakının xüsusi narahatlığına səbəb olurdu, çünki burada Çaykənd, Kamo, Azad və Martunaşen (Qarabulaq) kəndləri, habelə Şaumyan (indiki Yuxarı Ağcakənd) rayonunun Todan kəndi ərazisində döyüşlər gedirdi. Buradan dinc sakinlərə və Bakı ilə Gəncə arasında hərəkət edən avtobuslara hücumlar edilir, girovlar götürülürdü. Çaykənd və bir sıra digər kəndlərin azad edilməsi təkcə bütöv regionun Bakı ilə kommunikasiya əlaqəsini bərpa etmirdi. Belə bir əməliyyat respublikada mənəvi-siyasi ab-havaya müsbət təsir göstərə bilərdi və yeni rəhbərliyin buna çox ehtiyacı var idi. Əməliyyat "Halqa" (Çaykənd əməliyyatı) adı almışdı. Çaykənd və Qarabulaq kəndlərində erməni silahlı birləşmələrinin ləğv edilməsi ilə yanaşı, Hadrut rayonunun kəndlərində də əməliyyatın keçirilməsi nəzərdə tutulmuşdu. 1991-ci il aprelin sonundan iyulun sonunadək davam etmiş "Halqa" əməliyyatı nəticəsində 20-dən çox yaşayış məntəqəsi erməni terror qruplarından azad edilmişdi. 1991-ci il iyunun 26-da SSRİ daxili işlər nazirinin birinci müavini İ.Şilov müsahibəsində bildirmişdir ki, əməliyyat nəticəsində 30 apreldən 17 maya kimi 240 ədəd odlu silah, o cümlədən 115 ədəd avtomat, partlayıcı maddələr, minalar, zenit qurğuları götürülmüşdür. 413 nəfər (onlardan 100-dən çoxu müxtəlif cinayətlərə görə axtarışda olanlar idi) saxlanılmış, 64 nəfər barəsində cinayət işi açılmışdı.[25] "Halqa" əməliyyatı nəticəsində DQMV-nin azərbaycanlılar yaşayan hissəsi etibarlı müdafiəyə götürüldü. Xanlar, Goranboy və Şaumyan rayonlarının erməniləşdirilməsinin qarşısı qətiyyətlə alındı. Xarici qüvvələrin təcavüzkar planlarının qarşısının alınması baxımından strateji əhəmiyyət daşıyan Gəncə və ona bitişik qərb regionu Bakının nəzarətinə götürülmüşdü. Onlarla döyüş texnikası, eləcə də başqa hərbi ləvazimatlar – döyüş sursatı, əməliyyat zamanı götürülmüş radiostansiyalar respublika XTMD-nin sərəncamına verilmişdir. Lakin DQMV-nin təcavüzkar separatçılardan tam azad edilməsi və vilayət üzərində suverenliyin bərpası ilə bağlı hazırlanmış planları axıra çatdırmaq mümkün olmadı.

Dövlət Fövqəladə Vəziyyət Komitəsinin 1991-ci ilin 19–21 avqustunda dövlət çevrilişi cəhdi və sonradan SSRİ-nin dağılması buna mane oldu. 1991-ci ilin sentyabrında Rusiya Federasiyasının Prezidenti B.Yeltsinin və Qazaxıstan Prezidenti N.Nazarbayevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması barədə təşəbbüsü və Jeleznovodskda imzalanmış razılaşması boşa çıxdı. Noyabrın 20-də içərisində Xankəndinə sülhməramlı missiya ilə səfər edən Azərbaycan, Qazaxıstan və Rusiya Federasiyasının yüksəkrütbəli dövlət xadimləri və hərbçiləri olan Mİ-8 tipli mülki vertolyot Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən vuruldu. Bu hadisə Jeleznovodskda Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq vasitəçilik yolu ilə həllinə yönəldilən ilk cəhdin sonu oldu və erməni təcavüzünün daha da genişlənməsinə təkan verdi.

[25] «Правда», 1991, 26 июня; «Бакинский рабочий», 1991, 27 июня

Buna cavab olaraq, 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Soveti öz növbədənkənar sessiyasında milli dövlət quruluşu məsələlərini həll etməyə suveren hüququnu əsas tutaraq Dağlıq Qarabağın muxtariyyət statusunu ləğv etdi. Azərbaycan Respublikasının Ali Soveti bu qərarını onunla əsaslandırdı ki, 1923-cü ildə Azərbaycan SSR-in tərkibində yaradılan DQMV Azərbaycan xalqının milli mənafeyinə zidd olan, Azərbaycan xalqı ilə erməni xalqı arasında milli ədavətin dərinləşməsinə şərait yaradan, Azərbaycanın ən böyük təbii-iqtisadi bölgəsi olan Qarabağın infrastrukturunun dağıdılmasına və təsərrüfat əlaqələrinin qırılmasına yönəldilən, Dağlıq Qarabağın Azərbaycanın əzəli tərkib hissəsi olduğuna dair bütün etnik, tarixi, siyasi, iqtisadi və mənəvi əlamətləri bu ərazidə yox etmək üçün erməni millətçilərinin istifadə etdikləri amilə çevrilmişdi. Qanunda xüsusilə qeyd olunurdu ki, Azərbaycanın əzəli tarixi ərazisini qoparıb almaq üçün Ermənistan rəhbərliyinin yeritdiyi siyasət və bu siyasətdə DQMV-nın bir alətə çevrilməsi Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü üçün real qorxu törədir. Bunları nəzərə alan Ali Sovet suveren Azərbaycan dövlətini və onun bütövlüyünü qoruyub saxlamaq və inkişaf etdirmək uçun Azərbaycan xalqının indiki və gələcək nəsilləri qarşısında tarixi məsuliyyətini başa düşərək, Qarabağın dağlıq hissəsində Azərbaycan Respublikasının suveren hüquqlarını tamamilə bərpa etmək, qanunsuz yaradılmış silahlı dəstələri tərk-silah etmək, Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarını, azadlığını və ləyaqətini qorumaq, millətlərarası münasibətləri nizama salmaq zərurətini əsas götürərək "Dağlıq Qarabağ Muxtar Vilayətinın yaradılması haqqında" Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekretini və "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanununu quvvədən düşmüş hesab edirdi. Qərarda DQMV tərkibinə daxil olmuş şəhər və rayonların adlarının və inzibati-ərazi sərhədlərinin dəyişdirilməsi ilə bağlı məsələlər də öz əksini tapmışdır. Belə ki Stepanakert, Mardakert, Martuni şəhərlərinin tarixi adları qaytarılaraq, Stepanakert şəhəri Xankəndi şəhəri, Mardakert şəhəri Ağdərə şəhəri və Mardakert rayonu Ağdərə rayonu, Martuni şəhəri Xocavənd şəhəri və Martuni rayonu Xocavənd rayonu adlandırıldı. Əsgəran və Hadrut rayonları ləğv edildi. Xocalı şəhəri mərkəz olmaqla, Xocalı rayonu yaradıldı, ləğv edilmiş Əsgəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verildi.





Xankəndi və Şuşa şəhərləri respublika tabeli şəhərlər, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları respublika tabeli rayonlar sırasına daxil edildi.[26]

1991-ci ilin avqust hadisələrindən sonra SSRİ Daxili Qoşunlarının münaqişə zonasından tədricən çıxarılması şəraitində erməni silahlı birləşmələri Dağlıq Qarabağda öz təcavüzünü genişləndirməyə başladı. Ermənilər bölgədə yerləşmiş sovet hərbi hissələrinin arsenallarını ələ keçirməyə nail oldular. Bundan başqa, Xankəndində yerləşən əsgər və zabit heyətinin bir hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayı erməni separatçılarının tam ixtiyarında idi. Separatçıların rəhbərlərindən biri Robert Koçaryan deyirdi: "Bu, çox ciddi idi. Bütün silahlar bizdə qalıb, biz onu aparmağa qoymamışıq. Sovet qoşunları Qarabağdan çıxdıqdan sonra biz azərbaycanlılarla üz-üzə qaldıq, lakin ən azı üç və ya dörd illik gizli fəaliyyət təcrübəsinə malik olduğumuz üçün daha yaxşı təşkil olunmuşduq". Nəticədə, T. de Vaalın yazdığı kimi, "nisbətən azsaylı Azərbaycan kəndlərinin sakinləri erməni yaraqlılarının mərhəmətinin ümidinə qalan kiçik tələlər şəbəkəsinə düşmüşlər".[27] Beləliklə, SSRİ-nin dağılması ərəfəsində Azərbaycan və Ermənistan öz müstəqilliklərini elan etdikdən sonra Qarabağ münaqişəsi beynəlxalq münaqişəyə çevrildi. Tərəflər bir-birinə rəsmən müharibə elan etməsə də, 1991-ci ilin sonunda artıq müharibə iki dövlətin orduları arasında gedirdi.

[26] "Həyat" q., 1992, 7 yanvar

[27] Ваал Т. Черный сад. Армения и Азербайджан между миром и войной, с. 202–203

# BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ VƏ ONUN MƏĞLUBİYYƏT SƏBƏBLƏRİ

Tarixini bilməyən və ya onu unudan xalqın faciələri çox olur. Tarix hər bir xalqın milli mənliyi, namusu, qeyrəti deməkdir. Xalqın tarixində baş verən hadisələr, xüsusilə də əgər bu hadisələr onun torpaqları, ərazisi ilə bağlıdırsa, uğurlu, yaxud uğursuz olmasına baxmayaraq, ətraflı öyrənilməli, onların səbəbləri və nəticələri təhlil edilməlidir. Bu, xalqın gələcəyi üçün vacibdir, çünki tarix ibrətdir, tarix dərsdir, tarix qan yaddaşıdır.

2020-ci ilin payızında Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən İkinci Qarabağ müharibəsində misilsiz bir zəfər qazandı. Təxminən 30 ilə yaxın bir müddət ərzində düşmən tapdağı altında qalan, inləyən və sahibini gözləyən Azərbaycan torpaqları azad olundu, öz doğma yurd-yuvasından təhqiramiz şəkildə qovulan, min bir məhrumiyyətlərə məruz qalan yüz minlərlə azərbaycanlının dədə-baba yurduna qayıtmaq arzusu gerçəkləşdi, bütün millətin əyilmiş qaməti dikəldi, Azərbaycan xalqı qüruru və vüqarı ilə dünya dövlətləri birliyinə doğma torpağına sahib çıxmağı bacaran bir xalq kimi sözünü demək iqtidarında olduğunu sübut etdi.

Sual oluna bilər: Bütün bunlara nəyin nəticəsində nail olundu? Qısa bir dövrdə, yəni cəmi 44 gün ərzində aparılan uğurlu hərbi əməliyyatlar nə üçün bu qələbənin təmin olunmasına kifayət etdi? Əslində, bu qələbə əvvəlki onilliklər ərzində Ümummilli lider Heydər Əliyevin və 2003-cü ildən onun dövlətçilik siyasətinin davamçısı Prezident İlham Əliyevin qətiyyətli, məqsədyönlü, dərindən düşünülmüş daxili və xarici siyasətinin, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəldilmiş təcavüzkar siyasətinin beynəlxalq aləmdə ardıcıllıqla ifşa olunmasının nəticəsi idi. Bu misilsiz qələbəni dünya miqyaslı dahi siyasətçi Heydər Əliyevin siyasət məktəbinin yetirməsi və davamçısı, 17 illik prezidentliyi dövründə özünün dövlətçilik və Azərbaycançılıq siyasəti ilə xalqını dəmir yumruq kimi birləşdirməyi bacaran İlham Əliyev və onun rəhbərlik etdiyi ordu qazana bilərdi. İlham Əliyevin prezidentliyi dövründə əgər torpaqları dinc yolla qaytarmaq ehtimalı reallaşmasa, hərbi yolla azad etmək zərurəti diqqət mərkəzində idi. Çünki qüruru sarsılmış millət və dövlət ölümə məhkumdur. Tarix dəfələrlə belə nümunələrin şahidi olmuşdur. Azərbaycanda işğalçı Ermənistana qarşı uğurlu müharibə aparmaq üçün bütün imkanlar yaradıldı. Bu müharibə Azərbaycanın işğalçıya qarşı ədalətli müharibəsi idi. Beynəlxalq hüquq normaları Azərbaycanın hərb yolu ilə öz torpaqlarını azad etməsinə imkan verirdi. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsində işğala məruz qalan ölkə və xalqın işğalçıya qarşı bütün vasitələrdən, o cümlədən müharibə variantından istifadə hüququnun olduğu qeyd edilmişdir.

Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin hakimiyyəti illərində həyata keçirilən dərindən düşünülmüş daxili və xarici siyasətin nəticəsi olaraq, Azərbaycan qalibiyyətli müharibə aparmaq üçün bütün maliyyə, maddi və insan resurslarına malik idi. Dövlətlə xalq arasında sarsılmaz birlik yaradılmışdı. Mənəvi-psixoloji üstünlük də Azərbaycanın tərəfində idi. Azərbaycan əsgəri öz torpaqları uğrunda qisas və intiqam hissi ilə vuruşurdu. Erməni əsgəri müharibəyə zorla cəlb olunmuşdu, onda ruh düşkünlüyü vardı, odur ki orduda fərarilik baş alıb gedirdi.

Beləliklə, Birinci Qarabağ müharibəsinin və atəşkəs dövrünün acı həqiqətləri ilə üzləşən Azərbaycan İkinci Qarabağ müharibəsində məğlubiyyəti misilsiz qələbəyə çevirməyi bacardı.

Ermənilərin Azərbaycanın tarixi torpaqlarını ələ keçirmək iddiaları hələ çar Rusiyası dövründən gündəmə gəlmişdir.

Sonrakı onilliklərdə də ermənilər dəfələrlə Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməyə cəhd göstərsələr də, çoxmillətli dövlət olan SSRİ-nin kommunist rəhbərliyi digər respublikalarda da milli münaqişələrin qızışacağı ehtimalını nəzərə alaraq buna yol verməmişdi.

XX əsrin 80-ci illəri SSRİ-də dərin ictimai-siyasi və iqtisadi böhranla müşayiət olunurdu. Sözdə, ancaq kağız üzərində mövcud olan demokratiya tamamilə tənəzzülə uğramışdı. Millətlərin və ayrı-ayrı fərdlərin insan haqları pozulur, bir çox respublikalarda SSRİ-dən ayrılmaq çağırışları eşidilirdi.

Ermənilər sovet imperiyasında ciddi dəyişikliklərin olacağını hiss edərək bir sıra hazırlıq işləri həyata keçirməyə başladılar. 1984–1985-ci illərdə Cənubi Qafqazın tarixini saxtalaşdıran bəzi məqalələr və kitablar yazıldı, "elmi" konfranslar keçirildi. Onların guya Qafqazın qədim, yerli əhalisi olması ilə bağlı uydurmaları, "erməni məsələsi", "genosidin 70 illiyi" məsələsi ortaya atıldı.

1985-ci ilin martında Mixail Qorbaçov Sov.İKP MK-nın yeni Baş katibi seçildi. Baş katib 1987-ci ilin yanvar plenumunda yeni siyasi xətt – "aşkarlıq və demokratiya xətti"ni qəbul etdi. 1988-ci ildə o, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsini də ələ keçirdi. Onun atdığı addımlar və həyata keçirdiyi "yenidənqurma" siyasəti tənəzzülə uğramaqda olan sovet cəmiy-

yətini daha da "siyasiləşdirərək" böhranı xeyli dərinləşdirdi. Müstəqilliyə can atan və "mərkəzdənqaçan" qüvvələr gücləndi. Bütün bunların qarşısını almaq üçün Moskva respublikalar arasında konfliktlər, millətlərarası münaqişələr yaratmaq mexanizmini işə saldı.

M.Qorbaçovun açıq ermənipərəst mövqeyi və ortaya atdığı "yenidənqurma prosesləri" ermənilərin işğalçı niyyətləri üçün geniş imkanlar açdı. Artıq Azərbaycana qarşı işğalçı və ilhaqçı tələblər çox açıq şəkildə səsləndirilirdi. Hətta rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə M.Qorbaçova yaxınlığı ilə seçilən akademik Abel Aqanbekyanın dili ilə Dağlıq Qarabağda Mərkəzin "xeyir-duası" ilə baş qaldırmış separatçılıq hərəkatına rəğbətlə yanaşdığını, daha doğrusu, müsbət munasibət bəslədiyini, qeyri-rəsmi olsa da, bütün dünyaya bəyan etdi. Aqanbekyan "Humanite" qəzetinin 1987-ci il 18 noyabr tarixli sayında dərc olunan müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olduğunu və hətta bu barədə dövlət başçısına təklif verdiyini bildirirdi.[28] Təəccubludür ki, SSRİ-də milli məsələnin həll edilməməsi haqqında uydurma tezis M.Qorbaçovun Böyük Oktyabr sosialist inqilabının 70 illiyinə həsr olunmuş məruzəsinin adına çıxılır.[29] Məqsəd ermənilər və onların havadarları üçün açıq qalan Qarabağ problemini "həll etmək" idi. Təsadufi deyil ki, erməni yazıçısı Sero Xanzadyan açıq-aşkar bəyan edirdi ki, "Qarabağ olmasa, bizə heç bir yenidənqurma lazım deyil".[30]

Bu hadisələrin başladığı dövrdə Ümummilli lider Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü, həmçinin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Moskvada fəaliyyətini davam etdirirdi. M.Qorbaçovun yeritdiyi siyasətin ölkədəki vəziyyəti daha da ağırlaşdırdığını görən Heydər Əliyev "yenidənqurma"nın metodlarına, milli munaqişələrə səbəb ola biləcək düşünülməmiş dövlət siyasətinə, xüsusən türk respublikalarına qarşı həyata keçirilən qərəzli siyasətə açıq və kəskin etirazını bildirmişdi. 1987-ci ilin oktyabrında o, siyasi büronun və şəxsən M.Qorbaçovun yerit-

[28] Azərbaycan Respublikasının tarixi (1991–2003). 1-ci cild. Heydər Əliyev dovru. 2016, s. 109

[29] Yıldırım D., Özönder C. Karabağ dosyası (II Baskı). Turk Kulturunu Araştırma Enstitüsü yayınları: 118. Seri: III – Sayı: A 31, Ankara, 1991, s. 89

[30] Paşayev A. XIX–XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımılar və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2007, s. 301; Помпеев Ю.А. Кровавый смут Карабаха. Баку, 1992, с. 28–29





diyi səhv xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermiş və mövcud rejimə qarşı müxalif mövqe tutmuşdu.[31]

Moskva Heydər Əliyevin rəhbər vəzifələrdən azad edilməsindən cəmi bir ay sonra qondarma Dağlıq Qarabağ münaqişəsinin alovlanmasına təkan verdi. Münaqişəni daha da alovlandırmaq üçün 1988-ci il fevral ayının 28-də mərkəzin və Ermənistanın xüsusi xidmət orqanlarının "birgə əməyinin nəticəsi" olan Sumqayıt təxribatı həyata keçirildi. Nəticə isə göz qabağında idi. Sumqayıt hadisələrindən dərhal sonra Ermənistanda yaşayan azərbaycanlılara qarşı soyqırımılar, deportasiyalar geniş vüsət aldı. Hətta Moskva bu hadisəni əldə əsas tutaraq Azərbaycanın partiya rəhbərliyini dəyişdirdi və 1988-ci ilin mayında M.Qorbaçova yaxınlığı ilə seçilən Əbdürrəhman Vəzirov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə gətirildi.[32] Ə.Vəzirov Dağlıq Qarabağ münaqişəsinin və Ermənistandan deportasiya olunmuş qaçqınların probleminin həllində taktiki çeviklik və cəsarət nümayiş etdirmədi. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qarşıya çıxan mühüm vəzifələri həll etmək əvəzinə, hakimiyyətə gələn kimi ictimaiyyətin diqqətini sosial, kadr, iqtisadi və s. məsələlərlə bağlı problemlərə yönəltməyə və əsas məsələlərdən yayındırmağa çalışdı.[33] Halbuki Bakıda 1988-ci il mayın 16-da keçirilən nümayişdə problemin düzgün həlli yolu ilə bağlı haqlı tələblər[34] irəli sürülmüşdü. "Gədəbəy, Tovuz, Qazax, Laçın, Ordubad, Naxçıvan və digər rayonlardan qoparılan torpaqlar, Azərbaycan SSR Ali Sovetinin fərmanı olmadan xəlvəti satılmış ərazilər geri qaytarılsın; Zəngəzurda, Goyçə mahalında, Masis oymağında, Ararat vadilərində və Ermənistanın digər rayonlarında yaşayan Azərbaycan türklərinə muxtariyyət verilsin; ...cinayətin ilk təkançıları Zori Balayanlar, Aqanbekyanlar, Muradyanlar, Poqosyanlar məhkəməyə gətirilməyənədək Sumqayıt gənclərinin mühakiməsi dayandırılsın; ...erməni və rus mətbuatının gündəngünə genişlənən anti-Azərbaycan kampaniyasına son verilsin; Ermənistandan didərgin salınan Azərbaycan türkləri Xankəndidə və Dağlıq Qarabağda yerləşdirilsin!; Xankəndini millətçilik və şovinizm yuvasına çevirmiş Poqosyan və havadarları ifşa olunsun, onların partiyada qalması dozülməz sayılsın; Xankəndidə "Krunk" təşkilatı ifşa edilsin, bu sözün mahiyyəti, yozumu

[31] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, 2004, s. 343

[32] Azərbaycan Respublikasının tarixi (1991–2003), 1-ci cild, s. 110

[33] Yenə orada

[34] Yıldırım D., Özönder C. Karabağ dosyası, s. 101–110

xalqa çatdırılsın; Azərbaycanın tarixi abidələrinin bərpasında ermənilərin işləməsinə yol verilməsin; Qatı şovinizm və millətçilik yuvasına çevrildiyi üçün Xankəndinin siyasi təşkilat forması – Dağlıq Qarabağ muxtariyyəti ləğv edilsin; Xankəndinin, Gəncənin, Beyləqanın adları özlərinə qaytarılsın və s."[35]

Meydanlara axışan Azərbaycan xalqının mövqeyi bu idi. Bu tələblərin hər biri öz-özlüyündə hər şeyi ifadə edirdi. Xüsusilə də Ermənistandan didərgin salınan Azərbaycan türkləri ilə bağlı görüləcək tədbir əməli formada icra olunsaydı, çox güman ki, Dağlıq Qarabağ problemi bu qədər dolaşığa düşməzdi. Lakin xalqın önündə bu tələbləri qətiyyətlə həyata keçirməyə qadir olan bir lider olmadığından onlar reallaşmadı.

"Azərbaycanın bütün guşələrini bürümüş mitinqlərdə eşidilən haqq səsi, xalqın harayı əzəmətli binaların kabinetlərinə nüfuz edə bilmir... Əcəb işdir. Bakıda bu boyda mitinqlər keçirilir, respublikamızın böyükləri isə nəinki xalqın qarşısına, heç televizora çıxmırlar. Ona görə də bu vəzifələrə xalqın dərdinə qalan, çətin vəziyyətdə başını itirməyən adamlar keçməlidir..."[36] Həqiqətən də, 1988-ci ildə Azərbaycan rəhbərliyinin alovlanmaqda olan Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmaq əvəzinə, daxildə düşmən axtarışı, əvvəlki rəhbərliyin, ilk növbədə, Heydər Əliyevin ünvanına əsassız tənqidlər, qarayaxmalar kampaniyası Azərbaycan cəmiyyətini daxili qarşıdurmaya aparırdı. Nəticə isə göz qabağında idi: 1988–1991-ci illərdə Ermənistan SSR ərazisindən, öz ata-baba yurdlarından 257 min nəfərə yaxın azərbaycanlı qovulmuşdu.[37] Azərbaycanda açıq-aşkar Moskvanın emissarı kimi fəaliyyət göstərən Ə.Vəzirov Ermənistandan getdikcə artan qaçqın axınını Dağlıq Qarabağa yönəltmək əvəzinə, qaçqınların Qarabağın hüdudlarından kənarda, əsasən Bakıda, Sumqayıtda və digər bölgələrdə yerləşdirilməsi barədə göstəriş verdi.[38] Şuşadakı 4 minə qədər qaçqının 3 mindən çoxu Dəvəçi, Lənkəran, Şamaxı, Abşeron, Beyləqan, Yevlax, Kürdəmir, Salyan, Neftçala, Astara, Şəmkir, Xaçmaz, Bərdə və Tərtərdə yerləşdirildi.[39] Bundan əlavə, Aşağı Qarabağ bölgəsindən azərbaycanlı əhalinin öz soydaşlarına kömək məqsədilə Dağlıq Qarabağa yürüşünün də qarşısı alındı.

---

[35] Yıldırım D., Özonder C. Karabağ dosyası, s. 101–110

[36] Yaqubov Ş.H. Mən şahidəm ki... Bakı, 1992, s. 5, 8

[37] Paşayev A.Ə. XIX–XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar və deportasiyalar, s. 312

[38] Yenə orada, s. 321–322

[39] Hacıyev N. Dağlıq Qarabağın tarixinə dair sənədlər. Bakı, 2005, s. 118





M.Qorbaçov Dağlıq Qarabağla bağlı anti-Azərbaycan siyasətini "uğurla" həyata keçirmək üçün digər yaxın adamı – S.Arutunyanı da Ermənistan rəhbərliyinə göndərdi. 1988-ci ilin mayında, vəzifəyə gələndən bir həftə sonra S.Arutunyanın razılığı və göstərişi ilə Ermənistanda "Qarabağ hərəkatı" təşkilatı yeni forma almağa başladı. "Krunk" təşkilatının ardınca Ermənistanın gələcək ilk prezidenti L.Ter-Petrosyanın rəhbərliyi ilə "Qarabağ komitəsi" yaradıldı və açıq fəaliyyətə keçdi.[40] Lakin Dağlıq Qarabağda nə "Krunk", nə də "Erməni Ümummilli Hərəkatı" adlandırılan qurumlar müstəqil, təcrid olunmuş şəkildə fəaliyyət göstərən və yeni yaranmış təşkilatlar deyildi. Bu qurumlar Sov.İKP MK səviyyəsində (Sov.İKP MK Baş katibinin köməkçisi K.Şahnazarov, MK-da şöbə müdiri K.Brutens, qocaman aparat işçisi L.Onikov kimi şəxslərin timsalında) güclü dəstəyə, himayəyə malik idilər. Maraqlıdır ki, həmin dövrdə Sov.İKP MK-da aparıcı vəzifələrdə ermənilərin sayı 20 nəfərə çatırdı.[41]

Belə bir vəziyyətdə Mərkəzin tabeliyində qalınca Dağlıq Qarabağ məsələsinin həll olunmayacağına əmin olan Azərbaycan xalqı 1988-ci il noyabrın 19-da Azadlıq meydanında, ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını qaldırdı. Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, əks təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyaların tətbiq edilməsi nümayişçilərin başlıca tələblərindən idi. Bu tələblər mərkəzlə əlbir olan Azərbaycan rəhbərliyini təşvişə saldı. Dekabrın 4-də gecə Bakıda yerləşən sovet hərbi hissələri hücuma keçib silah gücünə meydanı boşaltdı.[42]

Azərbaycan xalqının belə qətiyyətli və açıq etirazını gözləməyən Moskva Dağlıq Qarabağ məsələsində manevr edərək guya vəziyyəti nizama salmaq üçün 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in DQMV-nin xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. A.Volskinin başçılığı ilə Muxtar Vilayət Xalq Deputatları Soveti, onun İcraiyyə Komitəsi hüququnda birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsi (XİK) yaradıldı. Azərbaycanda fəaliyyət göstərəcək bu komitənin tərkibində 5 nəfər rus, 2 nəfər erməni və yalnız 1 nəfər azərbaycanlı var idi.[43] Əslində, məqsəd bəlli idi: erməniləri silahlandırmaqla onlara "Qarabağ" arzularını reallaşdırmaq imkanı qazandırmaq. Bu məqsədlə DQMV-də, Laçın, Goran-

---

[40] Azərbaycan Respublikasının tarixi (1991–2003), 1-ci cild, s. 110–112

[41] İsmayılov A. Sumqayıt – SSRİ-nin süqutunun başlanğıcı. Bakı, 2010, s. 185

[42] Azərbaycan Respublikasının tarixi (1991–2003), 1-ci cild, s. 112

[43] Hacıyev N. Dağlıq Qarabağın tarixinə dair sənədlər, s. 124

boy rayonları ərazisində silah və sursat cəbbəxanaları yaradıldı, Ağdərə rayonundakı gizli təyyarə meydanına gecə-gündüz silah və sursat daşındı. Azərbaycanlılardan isə adi ov silahları belə müsadirə edildi. 1989-cu il iyunun 13-dən başlayaraq vilayətdə azərbaycanlılar yaşayan məntəqələr blokadaya alındı.[44] Erməni quldurları sovet ordu hissələrinin fəal köməyi ilə Xankəndində yaşayan bütün azərbaycanlıları – 14 min nəfəri doğma yurd-yuvasından qovub çıxardılar. Xüsusi İdarə Komitəsi Azərbaycanın demokratik qüvvələrinin təkidli tələbi ilə 1989-cu ilin noyabrında ləğv edilsə də, vəziyyət nəzarətdən çıxmışdı. İdarəçiliyin Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırılması da heç nəyi dəyişmədi, əksinə, ermənilər yeni təxribatlar və terror aktları törətməkdə davam etdilər. Beləliklə, Ə.Vəzirovun atdığı ilk addımlardan açıq-aşkar aydın oldu ki, onu Azərbaycan rəhbərliyinə gətirməkdə Kremlin əsas məqsədi Dağlıq Qarabağı müxtəlif vasitələrlə Azərbaycanın tərkibindən çıxarıb Ermənistana birləşdirməkdir.

SSRİ rəhbərliyi açıq-aşkar Ermənistanı dəstəkləyirdi. Bu dəstəyə arxalanan Ermənistan Ali Soveti 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi.

Mərkəzin ədalətsiz siyasəti hələ 1988-ci ildə Azərbaycanda başlanmış milli-azadlıq hərəkatına güclü təkan verdi və 1990-cı il 20 Yanvar qırğını belə xalqın mübarizə əzmini qıra bilmədi. Heydər Əliyev Kreml rejiminin təqiblərinə və səhhətindəki problemlərə baxmayaraq, ertəsi gün Azərbaycanın Moskvadakı numayəndəliyində qanlı qırğınla əlaqədar verdiyi cəsarətli bəyanatında Azərbaycan xalqına qarşı silah işlədilməsini qətiyyətlə pislədi və bununla da Azərbaycan xalqının qurtuluş mübarizəsinin önünə keçdi. Bundan sonra da xalqın mənafeyi naminə öz qətiyyətli mövqeyini nümayiş etdirərək mərkəzin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sov.İKP sıralarını da tərk etdi.

Gizlicə respublikadan qaçmış Ə.Vəzirovun yerinə Moskva 1990-cı il yanvarın 24-də Ayaz Mütəllibovu Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirdi.[45]

Azərbaycanda erməni və kommunist irticasına tərəfdar olan qüvvələrə qarşı mübarizə gücləndi. Mitinqlərdə xalq yeni rəhbərlikdən DQMV-də Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlər görülməsini tələb edirdi.[46] Lakin əfsuslar olsun ki, A.Mütəllibov da Ə.Vəzirov

[44] Azərbaycan Respublikasının tarixi (1991-2003), 1-ci cild, s. 113
[45] Yenə orada, s. 116
[46] Yenə orada, s. 122





kimi, Azərbaycanı Moskvanın diktəsi ilə idarə edirdi. 1991-ci il noyabrın 20-də Yuxarı Qarabağda Xocavəndin düşmən tərəfindən ələ keçirilib vandalizmə məruz qalması ilə əlaqədar olaraq vəziyyətlə yerində tanış olmaq üçün respublikanın bir neçə yüksək vəzifəli şəxsini, o cümlədən dövlət katibini, daxili işlər nazirini, baş prokurorunu, habelə SSRİ Müdafiə Nazirliyinin numayəndələrini, Rusiya və Qazaxıstan müşahidəçilərini Ağdama gətirən Mi–8 vertolyotu Qarakənd yaxınlığında vuruldu.[47] Bu hadisə respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi.

Sovet imperiyasının rəhbərliyində siyasi böhranın kəskinləşməsi və 1991-ci ilin avqustunda baş vermiş dövlət çevrilişinə cəhd vəziyyəti kökündən dəyişdi. Moskva regionlar üzərində nəzarəti itirdi. İmperiyanın pəncəsindən xilas olmağa çalışan xalqın tələbi ilə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında respublikanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyannamə qəbul edildi.

Bu hadisələr dövründə imperiyanın Dağlıq Qarabağdakı hərbi qüvvələri idarəolunmaz vəziyyətə düşdülər. Bundan istifadə edən Ermənistan Dağlıq Qarabağda geniş fəaliyyətə başladı və sentyabrın 2-də burada "Dağlıq Qarabağ Respublikası" deyilən qurumun yaradıldığı elan edildi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etməsi ilə Dağlıq Qarabağ münaqişəsi daha da kəskinləşdi. 1991-ci il noyabr ayının 26-da Azərbaycan parlamenti Ermənistanın Dağlıq Qarabağın "müstəqilliyi" ilə manipulyasiya etməsinə cavab olaraq "Azərbaycan və erməni xalqları arasında milli ədavət yaratmaq və dərinləşdirmək faktoru kimi" Dağlıq Qarabağın vilayət statusunu ləğv edən qanun qəbul etdi.[48] Dekabrın 8-də Dağlıq Qarabağ erməniləri öz "müstəqillik"lərinə dair referendum keçirərək, səs çoxluğu ilə nəticə əldə etdilər. Lakin Azərbaycan əhalisi buna etiraz edərək referendumun nəticələrini qəbul etmədi.[49]

Danışıqlar və dinc etiraz yolu ilə problemin həllinə heç bir ümid yox idi. Belə bir şəraitdə Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 9-da "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında"

[47] Yenə orada, s. 124-125; Мелик-Шахназаров А.А. Нагорный Карабах: факты против лжи Информационно-идеологические аспекты нагорно-карабахского конфликта. Москва, 2009, с. 597–598
[48] Hacıyev N. Dağlıq Qarabağın tarixinə dair sənədlər, s. 139
[49] Yenə orada, s. 140



Birinci Qarabağ müharibəsi cəbhəsində



Qanun qəbul etdi. Yeni təşkil olunmuş ordunun ilk hissələri dekabrın 8-də cəbhəyə yola salındı. İlk vaxtlar könüllülük əsasında qurulan, təcrübəli hərbçiləri az olan orduda ciddi nizam-intizam yaratmaq çox çətin idi. Bəzi ictimai təşkilatların, məsələn, Azərbaycan Xalq Cəbhəsinin, hətta ayrı-ayrı şəxslərin hərbi dəstələri vardı. Hərb sənətini mükəmməl bilən kadrlara ehtiyac duyulurdu. Baş Qərargahın işi düzgün koordinasiya edilməmişdi. Güclü informasiya axınına yol verilirdi. Orduda korrupsiya baş alıb gedirdi. Hərbi hissələrdən silah, sursat, yanacaq oğurlanır, hətta düşmənə satılırdı. 1993-cü il mayın 25-də keçirilən müşavirədə də Prezident Ə.Elçibəy bildirirdi: "Ölkəni korrupsiya bürüyüb. Respublikada rüşvət baş alıb gedir... Bundan bezmiş insanlar kommunistlərə rəhmət oxuyur. Azərbaycan benzini Ermənistana satılır. Xalq bir gün məmurlardan qisas alacaq".[50] Bu, dövlət başçısının açıq və acınacaqlı etirafı idi. Vəziyyət o həddə çatmışdı ki, yerli əhali hesabına özünümüdafiə batalyonları təşkil edilirdi. Oktyabrdan başlanan bu proses noyabrın 19-da sənədləşdirildi. 22 rayon və şəhər özünümüdafiə batalyonunun yaradılması haqqında əmr verildi. Bu qüvvələr müvəqqəti hesab olunurdu və sonradan ordu hissələri çağırışçılar hesabına komplektləşdiriləndə könüllülər tədricən ehtiyata buraxılacaqdı. Özünümüdafiə batalyonlarının komandirləri, onların müavinləri rayonların hərbi komissarları tərəfindən seçilir, icra hakimiyyəti başçılarının razılığı ilə təyin edilir və Müdafiə Nazirliyinə təqdim olunurdu. Bu batalyonların komandirləri Müdafiə Nazirliyinin səlahiyyətli nümayəndələri idi. Bu da rəhbərlikdə ikili tabeçilik kimi yolverilməz bir vəziyyət yaradırdı. Batalyonların təchizatında, səfərbərlikdə ciddi qüsurlara yol verilirdi. Yerli imkanlar hesabına saxlanılan batalyonların silahlanması, hərbi işə yaxşı bələd olan zabitlərlə təchizi pis vəziyyətdə idi. İkili tabeçilik də onların fəaliyyətinə mənfi təsir göstərirdi. Müdafiə nazirlərinin tez-tez dəyişdirilməsi ordu quruculuğuna ağır zərbə vururdu.[51]

Erməni hərbi birləşmələri əvvəlcə Dağlıq Qarabağın azərbaycanlı yaşayış məskənlərinin işğalına başladı. 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndləri işğal olundu, dinc və silahsız əhaliyə divan tutuldu, Xocalı və Şuşanın mühasirə mənganəsi daraldı. Tələm-tələsik həyata keçirilən Daşaltı əməliyyatı uğursuz oldu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə erməni quldurları Rusiya Müdafiə

[50] Əbülfəz Elçibəyin Prezident sarayında iclası. 1993-cü il // https://www.youtube.com/watch?v=MuFpWJn6Sps

[51] XX əsr Azərbaycan tarixi. II cild. Bakı, 2009, s. 478–479

Nazirliyinin tabeliyində olan və Xankəndidə yerləşən 366-cı motoatıcı alayın bilavasitə iştirakı ilə Xocalı şəhərinə hücum edərək soyqırımı cinayəti törətdilər.

Xocalı şəhərinin məhv edilməsi barədə qərar fevralın 19-da Moskvada Rusiya Prezidenti B.Yeltsinin, Ermənistan prezidenti L.Ter-Petrosyanın, R.Koçaryanın, S.Sarkisyanın, S.Ohanyanın, Rusiyanın müdafiə naziri P.Qraçovun, daxili işlər naziri Yerinin və Baş Qərargah rəisi Şanovkinovun iştirakı ilə keçirilən məxfi müşavirədə qəbul edilmişdi.

Erməni faşistləri Xocalıda Rusiyanın 366-cı motoatıcı alayının əsgərləri ilə birlikdə 613 nəfər azərbaycanlını – qadın, körpə, yaşlı – fərq qoymadan qətlə yetirdilər, 1000 nəfərdən artıq adam şikəst oldu, 1275 nəfər əsir alındı, 8 ailə bütünlüklə məhv edildi. Bütün bu dəhşətləri görən 366-cı motoatıcı alayın 02270 saylı xüsusi şöbəsinin rəisi polkovnik Vladimir Savelyev Rusiya Federasiyası Müdafiə Nazirliyinin Baş Qərargahı yanında Baş Kəşfiyyat İdarəsinə, BMT və Avropa Şurasına ünvanladığı hesabatında Azərbaycan xalqına qarşı soyqırımı cinayətinin törədildiyini etiraf etdi.[52]

Xocalı faciəsindən sonra xalqın təkidli tələbi ilə A.Mütəllibov martın 6-da istefa verdi. Respublika Ali Sovetinin sədri seçilən Yaqub Məmmədov Həsən Həsənova Nazirlər Kabinetinin yeni tərkibini təşkil etməyi tapşırdı. Lakin ölkə daxilində ictimai-siyasi sabitliyi bərpa etmək cəhdi iflasa uğradı və əsl hərc-mərclik dövrü başladı. İstefaya getmiş A.Mütəllibovun 1992-ci il mayın 14-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında ölkə prezidenti vəzifəsinə qaytarılması haqqında qəbul edilən qərar icra edilmədi.[53] A.Mütəllibov xalqın təzyiqi altında hakimiyyətdən imtina etdi və Rusiya Federasiyasına məxsus hərbi təyyarədə Moskvaya qaçırıldı.

Bakıda hakimiyyət uğrunda gedən mübarizədən istifadə edən ermənilər 1992-ci il mayın 18-də Laçın rayonunu işğal etdilər və beləliklə, Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi ilə Ermənistan arasında dəhliz yaradıldı. Mayın 8-də Şuşa şəhərinin, sonra isə Laçın rayonunun işğalı Azərbaycan xalqı üçün ağır itki olmaqla bərabər, həm də ona vurulan mənəvi-psixoloji zərbə idi.[54] Laçının işğalı Ermənistanın hərbi işğalçılıq niyyətinin daha

[52] Boran Əziz. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı, 2008, s. 68–69

[53] Azərbaycan Respublikası Ali Sovetinin 1992-ci il mayın 14-də keçirilmiş sessiyasının qərarlarının qanunauyğunluğu haqqında. Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. Bakı şəhəri, 16 may 1992-ci il. №121. // http://www.e-qanun.az/framework/7101

[54] Azərbaycan Respublikasının tarixi (1991–2003), 1-ci cild, s. 135






Prezident İlham Əliyev Xocalı abidəsi önünə əklil qoyarkən

böyük olduğunu göstərdi. Ermənilərin "humanitar dəhliz" adlandırdıqları bu yol ilə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə qısa müddətdə külli miqdarda silah, döyüş sursatı, hərbi qüvvə gətirildi. Nəticədə, Ermənistanın ərazi iddiasının obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4 400 kv. km) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Azərbaycan Respublikasının Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi.[55]

Azərbaycan ATƏM-in (1995-ci ilin yanvarından ATƏT adlanmağa başladı) 1992-ci ilin iyulunda, erməni təcavüzünün tüğyan etdiyi bir vaxtda keçirilən Helsinki Sammitində nəinki ABŞ-ın dəstəyini qazandı, hətta Dağlıq Qarabağ probleminin və Ermənistanın Azərbaycana təcavüzü məsələsinin sammitin gündəliyinə daxil edilməsinə belə nail ola bilmədi. ABŞ-dakı güclü erməni lobbisinin təzyiqi ilə 1992-ci ilin axırlarında ABŞ Konqresi Azərbaycan Respublikasına hər cür yardım göstərilməsini qadağan edən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş deyilən sənəd qəbul etdi.[56] Bu, müstəqil dövlət quruculuğu yolunu tutmuş və zorla müharibəyə cəlb edilmiş Azərbaycan Respublikası üçün çox ağır zərbə idi. 1992-ci ildə Avropa Şurasının qeyri-üzv ölkələr üzrə komitəsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar respublikamızın əleyhinə bəyannamə qəbul etdi.[57]

Yeni müstəqil dövlət quruculuğu işində, xüsusilə kadr siyasətində buraxılan səhvlər, idarəçilik sistemində tətbiq edilən uğursuz usullar 1992-ci ilin iyununda hakimiyyətə gəlmiş AXC-Müsavat tandemi ilə xalq arasında uçurumun getdikcə dərinləşməsinə səbəb oldu. Ölkədə müxalif qüvvələrə qarşı qəddarlıq, hücum, qarayaxma, vəzifəli şəxslərin cəmiyyətdə törətdikləri özbaşınalıqlar, tanınmış insanlara qarşı qərəzli kampaniya adi hal aldı. Daxili işlər və müdafiə nazirlərinin, eyni zamanda digər dövlət nümayəndələrinin əməlləri və bu mühüm güc strukturlarında yaranmış özbaşınalıq Rusiyanın hərbi-siyasi dairələrindən yardım alan Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü genişləndirməsinə şərait yaratdı. Doğrudur, 1992-ci ilin yay və payızında Azərbaycan Ordusu erməni silahlı birləşmələri üzərində bir sıra uğurlar qazandı, qoşunlarımız Xankəndinin 10–15 kilo-

---

[55] Azərbaycan Respublikasının tarixi (1991–2003), 1-ci cild, s. 442

[56] Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991–1995-ci illər). Bakı, 1996, s. 61; İsmayılov F. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ munaqişəsi və ABŞ ın mövqeyi. Tarix üzrə elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2003

[57] Azərbaycan Respublikasının tarixi (1991–2003), 1-ci cild, s. 422





metrliyinə çatdı, lakin 1992-ci ilin sonu – 1993-cü ilin əvvəlində Ermənistan-Azərbaycan cəbhəsində vəziyyət dəyişdi. Ermənilər Rusiyanın hərbi dairələrinin köməyinə arxalanıb 1993-cü ildə Dağlıq Qarabağ ətrafındakı rayonları işğal edərək etnik təmizləmə apardılar. Ermənistan apardığı işğalçılıq müharibəsi dövründə Azərbaycan sərhədlərinin 360 km-lik sahəsində irəliləyərək 20%-dək torpağımızı işğal etdi, Füzuli rayonunun Horadiz qəsəbəsindən Zəngilanadək 198 km-lik Azərbaycan-İran sərhədlərini nəzarət altına aldı. Erməni işğalları nəticəsində Dağlıq Qarabağ ərazisində 50 minədək azərbaycanlının yaşadığı 2 şəhər, 1 qəsəbə, 53 kənd tutuldu. Dağlıq Qarabağdan kənarda aparılan işğallarla birlikdə 890 şəhər, kənd və qəsəbə ermənilərin əlinə keçdi. Dağıdılmış obyektlər, zəbt olunmuş əkin və meşə sahələri aşağıdakılardan ibarət idi: yaşayış evləri – 150000, ictimai binalar – 7000, ümumtəhsil məktəbləri – 693, səhiyyə obyektləri – 695, avtomobil yolları – 800 km, körpülər – 160, su kəməri – 2300 km, elektrik xətti – 15000 km, meşə sahəsi – 280000 ha, əkin sahəsi – 200000 ha, tarixi abidə və muzeylər – 464. İlkin hesablamalara görə, Azərbaycan Respublikasına 60 mlrd. ABŞ dolları həcmində zərər dəydi. Bundan başqa, Azərbaycanın civə, obsidian və perlit ehtiyatlarının hamısı, tikinti və üzlük materiallarının 35–60%-i, meşə fondunun 23,8%-i, su ehtiyatlarının 7,8%-i və s. işğal olunmuş torpaqların payına düşür. Burada 2 qoruq və 3 yasaqlıq, 3 iri su anbarı da yerləşir.[58]

Beləliklə, təkcə XX əsrdə ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində respublikamız 1918–1929-cu illərdə 29,8 min $km^2$ torpağını itirdi, 1991–1993-cü illərdə ərazimizin 20 faizi işğal edildi, son yüz ildə 2,5 mln nəfər soydaşımız qətlə yetirildi.[59]

Çox təəssüf ki, dünya birliyi Ermənistanın bu açıq-aşkar işğalına göz yumdu və təcavüzkarın cilovlanması üçün heç bir əməli tədbir görmədi.

1992-ci ilin əvvəllərindən başlayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi daha çox beynəlxalq əhəmiyyətli problemə çevrildi. Azərbaycan və Ermənistan respublikaları ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv dövlətlərin daha çox diqqət mərkəzində dayandı. ATƏM-in Xarici İşlər

---

[58] Həsənov T. Ermənistan tərəfindən işğal olunmuş ərazilərin təbii ehtiyatları və ekologiyasına vurulan ziyanlar // "Qarabağ dünən, bu gün və sabah": 1-ci Ümumrespublika elmi-əməli konfransı: tezislər [Bakı, 24–25 may, 2002-ci il]. Bakı, 2002, s. 170–173

[59] Azərbaycan Respublıkasının tarixi (1991–2003), 1-ci cild, s. 137

Nazirləri Şurasının 1992-ci il martın 24-də keçirilən əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə edilərək, aparılan danışıqların səmərəliliyini təmin etmək məqsədilə münaqişənin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edildi. Qərarda nəzərdə tutulurdu ki, konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin.

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı münaqişənin mahiyyətini dəyişərək yeni siyasi problem yaratdı. Minsk qrupu çərçivəsində aparılan danışıqlarda qarşı tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxardı.[60]

1992–1993-cü illərdə münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurasında müzakirələr aparılarkən və sənədlər qəbul edilərkən Şuranın daimi üzvləri olan dövlətlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsinin səbəblərinin, xarakterinin və mahiyyətinin qiymətləndirilməsinə birmənalı yanaşmadılar.

Azərbaycan Respublikası ərazilərinin Ermənistan tərəfindən işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurası 7 bəyanat və 4 qətnamə qəbul etmişdir. Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü "Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirilmişdi. Şuranın daimi üzvləri münaqişəyə Azərbaycan Respublikası ilə Dağlıq Qarabağ arasında olan münaqişə kimi baxırdılar. Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822 (30 aprel 1993), Ağdam rayonunun işğalı ilə əlaqədar 853 (29 iyul 1993), Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalı ilə əlaqədar 874 (14 oktyabr 1993), Zəngilan rayonunun işğalı ilə əlaqədar isə 884 (11 noyabr 1993) saylı qətnamə qəbul edilərkən Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək, münaqişənin ATƏM-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasını üstün tutdular. Cəzasız qalmasından ruhlanan və bundan istifadə edən Ermənistan Respublikası BMT TŞ-nin münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

Əslində, işğalçı Ermənistana doğma, işğala məruz qalan Azərbaycan Respublikasına isə ədalətsiz və ögey münasibət bəslənildiyindən, bu qətnamə-

[60] Azərbaycan Respublikasının tarixi (1991–2003), 1-ci cild, s. 442–443





lərin heç birində Ermənistan Respublikası təcavüzkar tərəf kimi tanınmırdı. Qətnamələrdən yalnız birində Ermənistan Respublikasının adı çəkilir və ondan tələb olunurdu ki, o, Dağlıq Qarabağda Ermənistanın və Rusiya Federasiyasının birgə yaratdığı separatçı quldur rejimə təsir göstərsin. ABŞ, Rusiya və başqa dövlətlərin parlamentlərində özünə dəstək görən Ermənistan Respublikası təcavüzkar əməllərini həyasızcasına davam etdirir.[61]

1993-cü ilin yayında Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra bir sıra mühüm hərbi-siyasi xarakterli tədbirlər həyata keçirildi. Mərkəzləşmiş komandanlıq və idarəetmə sistemləri təkmilləşdirildi, təlim mərkəzləri və poliqonlarda döyüş hazırlığının səviyyəsi yüksəldildi. Noyabrın 2-dən etibarən Milli Orduya könüllülərin geniş şəkildə cəlb olunmasına başlanıldı. 1993-cü ilin oktyabrından 1994-cü ilin mayına qədər Silahlı Qüvvələrə 4 çağırış həyata keçirildi.

Cənubi Qafqaz regionunda mövqelərini qoruyub saxlamaq, Ermənistan-Azərbaycan muharibəsində qoşunlarını atəş xəttində yerləşdirmək, ağlasığmaz siyasi və iqtisadi güzəştlər əldə etmək məqsədilə 1994-cü ilin aprelində Rusiya Federasiyası Azərbaycan Respublikasına qəbul edilməsi mümkün olmayan saziş layihəsi təklif etdi.

Azərbaycan Respublikasını artıq Ermənistan tərəfindən bəyənilmiş bu layihə ilə razılaşmağa məcbur etmək üçün Rusiya Federasiyasından birbaşa hərbi yardım alan ermənilər aprelin 10-dan bütün cəbhə boyu hücuma keçdilər. Bütün bunlar Azərbaycan dövlətini bir sıra əlavə tədbirlər görməyə məcbur etdi. Xaricdən silah və texnika alındı. Bir sıra xarici dövlətlərlə hərbi əməkdaşlıq genişləndirildi. Bu tədbirlər nəticəsində Milli Ordunun döyüş qabiliyyəti xeyli artdı. Azərbaycan Milli Ordusu düşmənin hücumunu müvəffəqiyyətlə dəf etdi. Goranboy rayonunun Talış və Gülüstan kəndləri uğrunda döyüşlərdə Azərbaycan əsgərləri düşməni ağır itkilər verərək geri çəkilməyə məcbur etdi. Tərtər rayonunun İlxıçılar və Göyarx kəndləri istiqamətində gedən ağır döyüşlərdə düşmənin 200-dən çox canlı qüvvəsi məhv edildi. Lakin xarici dövlətlərdən hərbi yardım almaqda davam edən ermənilər Ağdam rayonunun daha 18 kəndini, Ağdərə bölgəsində isə bir neçə kəndi işğal edə bildilər. Respublikanın Bərdə rayonu üçün çox ciddi təhlükə yarandı. Azərbaycan Respublikasının Milli Ordusu bura əlavə qüvvələr gətirməklə düşmən hücumunun qarşısını aldı və əks-hücuma keçərək bir neçə yaşayış məntəqəsini azad etdi.

Azərbaycan Ordusunun həyata keçirdiyi ən uğurlu əməliyyatlardan biri Horadiz əməliyyatı (1993-cü ilin dekabrından 1994-cü il yanvarın 6-dək)

[61] Yenə orada, s. 159

oldu. Bu əməliyyat nəticəsində Horadiz qəsəbəsi, Füzuli rayonunun 20 kəndi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi Azərbaycanın nəzarətinə keçdi. Əməliyyatda xüsusi qəhrəmanlıq göstərdiklərinə görə 8 nəfər "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü.[62]

Beləliklə, Rusiyanın imperiyapərəst qüvvələrinin təklif etdiyi plan - döyüşən tərəflərin ayrılmasında ATƏM-in iştirakı olmadan, yalnız Rusiya Federasiyasının vasitəçiliyini nəzərdə tutan plan boşa çıxdı. Azərbaycan Respublikası üçün həyati əhəmiyyət kəsb edən bu məsələdə ABŞ-ın və ATƏM-in Minsk qrupunun mühüm rolu oldu. Azərbaycan Respublikası öz suverenliyinə hörmət çərçivəsində qonşu Rusiya Federasiyasının atəşkəsə nail olmaq sahəsində səylərindən də imtina etmədi. 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflərin, eləcə də Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının, habelə Rusiya Federasiyasının bu niyyətini təsdiq edən Bişkek protokolu Azərbaycan Respublikası tərəfindən də imzalandı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin uğurlu diplomatiyası, Milli Ordunun yaradılması və gücləndirilməsi nəticəsində düşmən və onun havadarları artıq münaqişəni zorakı vasitələrlə həll etmək cəhdlərinin perspektivsizliyini dərk edirdi. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu.

1994-cü ilin 5-6 dekabrında ATƏT-in Budapeşt Zirvə toplantısında Prezident Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan diplomatiyası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində çox böyük uğur qazandı. Zirvə toplantısında qəbul edilmiş qərara əsasən, münaqişə həll edildiyi təqdirdə regionda ATƏT-in Minsk qrupuna daxil olan ölkələrin, o cümlədən Rusiya Federasiyasının qoşunları deyil, bu beynəlxalq təşkilatın himayəsi altında bitərəf dövlətlərin hərbi qüvvələri yerləşdirilməli idi.[63]

Hələ 1992-ci il noyabrın 6-da "Səs" qəzetində Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə "Yeni müstəqil Azərbaycan uğrunda" başlığı altında cavabı dərc olundu.[64]

Ziyalılarla ölkədəki hərtərəfli böhranla əlaqədar narahatlığını bölüşən Heydər Əliyev öz məktubunda baş verən hadisələrin dərin tarixi-obyektiv

[62] Sultanov Z. Horadiz əməliyyatı. Azad olunan doğma torpaq.//https:az.m wikipedia.org>wiki – Müraciət tarixi 9 sentyabr 2021-ci il

[63] Azərbaycan Respublikasının tarixi (1991–2003), 1-ci cild, s. 163–164

[64] Yeni müstəqil Azərbaycan uğrunda. Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il, Naxçıvan şəhəri.//"Səs" q., 6 noyabr 1992-ci il, №46 (75); 11 yanvar 2011-ci il (təkrar nəşr)





təhlilini verdikdən sonra mövcud şəraitdə qarşıda duran vəzifələri vurğuladı. Bu, əslində, Azərbaycan xalqını düçar olduğu hərtərəfli böhrandan çıxarmağın Heydər Əliyev konsepsiyası idi. Xatırladaq ki, həmin konsepsiyada müəyyənləşdirilən bütün vəzifələr Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra onun siyasətinin əsasını təşkil etmiş və ardıcıl surətdə yerinə yetirilmişdi. Heydər Əliyev ziyalılara məktubunda Qarabağ problemi ilə bağlı yazırdı:

"Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik, Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşlar. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqın var. Respublikaya misli görünməmiş hədsiz maddi və mənəvi ziyan dəyir. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi, bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir... Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyillərin təzahürü böyük təhlükə yaradır. Belə meyillərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir".[65]

İstər iqtisadi, istərsə də siyasi baxımdan böhran içində olan Azərbaycanda sabitliyə ehtiyac duyulurdu. İşğalçı ermənilərin və onların havadarlarının ölkəmizə qarşı təcavüzünə duruş gətirmək, Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək, vətəndaş müharibəsinin qarşısını almaq üçün, bir sözlə, yurdumuzu "olum, ya ölüm!" çarpışmasından zəfərlə çıxarmaqdan ötrü zərurət yarandıqda qəti və sərt addımlar atmaq, keçid dövrünün qanunlarına uyğun siyasət yeritmək lazım idi. Ulu öndər Heydər Əliyev məhz belə də etdi. Onun hazırladığı düzgün xarici siyasət strategiyası, Azərbaycanda bütün sahələrdə aparılan quruculuq işləri, 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt əməliyyatı və 2020-ci ilin Tovuz döyüşləri Qarabağ müharibəsində qazanılacaq zəfərin ilk ayaq səsləri oldu.

[65] Azərbaycan Respublikasının tarixi (1991-2003), 1-ci cild, s. 231

# II

FƏSİL

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ SAHƏSİNDƏ FƏALİYYƏTİ



**(1993–2003-cü İLLƏR)**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN HƏRBİ QURUCULUQ SİYASƏTİ

Azərbaycanın müstəqil dövlətçilik atributlarının, o cümlədən də Milli Ordunun formalaşdırılması xalqın tələbi ilə hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Ölkə prezidenti kimi fəaliyyətə başlamaq üçün keçirilən andiçmə mərasimində Heydər Əliyev bildirdi ki, dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşunu, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək Azərbaycan Respublikası, onun vətəndaşları qarşısında dayanan çox böyük və mürəkkəb vəzifələrdir. Heydər Əliyev bu vəzifələri qarşıda duran əsas prioritetlər hesab edirdi.[1]

Milli Ordu quruculuğu sahəsində Heydər Əliyevin tarixi fəaliyyətinin maraqlı tərəfi ondadır ki, bu fəaliyyət öz başlanğıcını hələ sovetlər dövründən götürürdü. O, Azərbaycan SSR-ə rəhbərlik dövründə (1969–1982-ci illər) ölkənin qəhrəmanlıq ənənələrinin davam etdirilməsi, zəngin hərb tarixinin canlandırılması, gənclərin bu qəhrəmanlıq ənənələri üzərində tərbiyə edilməsi, sərkərdələrin və görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsi kimi məsələləri hər zaman diqqət mərkəzində saxlayırdı.

Bunun nəticəsi idi ki, sovet illərində hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı, bu istiqamətdə əməli-təşkilati işlərə vüsət verildi. Əgər Heydər Əliyevə qədər Azərbaycan gənclərinin hərbi xidmətə cəlb edilməsinə onların ikiillik hərbi mükəlləfiyyəti, hansısa bir hərbi hissədə ikiillik müddətin başa vurulması sınağı kimi baxılırdısa, Heydər Əliyevin respublikaya rəhbərliyi illərində bu baxışlar dəyişməyə başladı və məsələ bir ümumxalq vəzifəsi kimi aktuallaşdırıldı. Yeni şəraitdə hərbi xidmət kişilik məktəbi, xalq üçün xüsusi əhəmiyyət kəsb edən mürəkkəb hərbi ixtisasların oyrənilməsi təcrübəsi kimi qəbul edildi, hərbi xidmətə hazırlıq işlərinə diqqət artırıldı, xalqın və dövlətin qayğısı ilə əhatə olundu.

Həmin illərdə Heydər Əliyev tərəfindən xüsusi diqqət yetirilən məsələlərdən biri, heç şübhəsiz ki, azərbaycanlılar arasında milli hərbi kadr hazırlığının genişləndirilməsi məsələsi idi. Heydər Əliyev respublika rəhbəri

---

[1] Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993-cü il. http /files.preslib.az/projects/toplu/v2/f3 3.pdf

seçiləndən sonra bu sahədə mövcud olan çatışmazlıqların səbəbləri araşdırıldı və təhlil olundu. Heydər Əliyev öz çıxışlarının birində bu səbəbləri belə dəyərləndirirdi: "Dövlət təhlükəsizliyi orqanlarında işləyəndə bütün Azərbaycanda, habelə SSRİ-də olan hərbi hissələrlə çox yaxşı tanış idim. Onlarla əlaqəm var idi, onlarla görüşürdüm. Ancaq hər dəfə məni narahat edən o idi ki, azərbaycanlılardan zabit vəzifəsində adam yoxdur... Ümumiyyətlə, SSRİ ali hərbi məktəblərinə, əsasən, ruslar, ukraynalılar, belaruslar qəbul oluna bilərdilər. Qalan millətlərin gənclərinin hərbi məktəblərə qəbul edilməsini çox nadir hadisə kimi qəbul etmək olardı. Bunları görəndə, bu barədə fikirləşəndə düşünürdüm, yaxşı, biz İttifaqın bərabərhuquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var, biz nə üçün ordudan təcrid olunuruq? Deməli, əlavə tədbirlər görmək lazım idi ki, bu maneəni keçəsən və azərbaycanlıları orduda komandan, zabit vəzifəsinə çatdıra biləsən. Ona görə də mən 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra, 1971-ci ildə bununla məşğul oldum".[2]

Doğrudan da, 1971-ci il aprel ayının 29-da azərbaycanlı gənclərin ölkənin ali hərbi məktəblərinə göndərilməsi məsələsi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Bürosunun iclasında geniş müzakirəyə çıxarıldı və burada hərbi məktəblərin komplektləşdirilməsi məsələsi geniş şəkildə təhlil olundu. Heydər Əliyevin rəhbərlik etdiyi büro iclasında 1970-ci ildə azərbaycanlı gənclərin hərbi məktəblərə göndərilmə vəziyyəti müzakirə edildi və bu sahədə işlərin yarıtmaz olduğu, ümumxalq mənafelərinə cavab vermədiyi bir daha vurğulandı. 1970-ci ildə Azərbaycandan hərbi məktəblərə 1360 nəfər seçilməli olduğu halda, 910 nəfər seçildi ki, onlardan da cəmi 367 nəfəri hərbi məktəbə daxil oldu. Yəni Sovetlər İttifaqı miqyasında ali hərbi məktəblərdə Azərbaycan üçün ayrılmış güzəştli kvotaya heç 30 faiz də əməl edilmədi. Həmin məktəblərə daxil olanların arasında isə azərbaycanlıların sayı xeyli az idi.[3]

Ölkənin ali hərbi məktəblərində Azərbaycana ayrılmış kvotanın bütünlüklə azərbaycanlılar hesabına yerinə yetirilməsi respublika rəhbərliyinin arzusu olsa da və bu istiqamətdə konkret vəzifələr müəyyənləşdirilsə də, bu məsələdə, sözsüz ki, müəyyən çətinliklər də var idi. Əsas çətinlik isə azərbaycanlı gənclərin rus dilini zəif bilməsi idi. Çünki SSRİ ali hərbi məktəblərində qəbul imtahanları və təhsil rus dilində aparılırdı. Rus dilini bil-

[2] C.Naxçıvanski adına hərbi liseyin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitq. 21 aprel 2003-cü il.//Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2006, s. 462–467

[3] Süleymanov M. Azərbaycan Ordusunun tarixi. IV cild. Bakı, 2018, s. 777





məyən azərbaycanlılar üçün bu məktəblərdə təhsil almaq çətinlik təşkil edirdi. Heydər Əliyev bu çətinliyin aradan qaldırılması və azərbaycanlı gənclərin SSRİ-nin ali hərbi məktəblərinə daha yaxşı hazırlaşdırılması üçün 1971-ci ildə Azərbaycanda da Suvorov hərbi-internat məktəblərinin oxşarı olan internat məktəbinin açılması, hərbi məktəblərə daxil olmaq istəyənlərin hələ məktəb yaşından hərb işinə öyrədilməsinə başlanılması təşəbbüsünü irəli sürdü. Azərbaycanın ictimai-siyasi həyatında, milli hərbi kadr hazırlığı tarixində böyük əhəmiyyət kəsb edən bu təşəbbüs həmin dövr üçün kifayət qədər cəsarətli idi.

Heydər Əliyevin təşəbbüsü ilə Bakıda xüsusi internat məktəbinin yaradılması məsələsi Azərbaycan KP MK Bürosunun iclasına çıxarıldı. Həmin il iyul ayının 23-də keçirilmiş MK Bürosunun iclasında "Xüsusi orta internat məktəbinin yaradılması haqqında" qərar qəbul edildi. Qərara əsasən, Zığ qəsəbəsində yerləşən 2 №-li 8 illik internat məktəb təkmilləşdirilərək Xüsusi orta internat məktəbinə çevrilməli idi. Azərbaycan KP Mərkəzi Komitəsi Bürosunun qəbul etdiyi qərara əsasən, Xüsusi internat məktəbinin qarşısında duran başlıca vəzifə ali hərbi məktəblərə daxil olmaq istəyənlərin hazırlaşdırılması olmalı idi. Büro öz qərarı ilə respublika Nazirlər Sovetinə tapşırdı ki, Xüsusi internat məktəbinin zəruri maliyyə vəsaiti ilə təmin edilməsini və şagirdlərin həmin məktəbdə pulsuz təhsil alması məsələlərini həll etsin. Bu tapşırığa əsasən, respublika Nazirlər Soveti də 1971-ci il noyabrın 15-də Xüsusi internat məktəbinin təşkili ilə bağlı qərar qəbul etdi. Qərara əsasən, 1971–1972-ci dərs ilindən başlayaraq 2 №-li 8 illik internat məktəbinin bazasında orta internat məktəbi təşkil edilməli idi. Nazirlər Sovetinin həmin qərarı əsasında internat məktəbinin ştatında dəyişikliklər edilməklə bu məktəbin maddi-texniki bazasının yaradılması üçün müvafiq miqdarda maliyyə vəsaiti də ayrıldı.[4]

Beləliklə, respublikada ali hərbi məktəbə daxil olmaq üçün kontingent hazırlayan Xüsusi internat məktəbinin əsası qoyuldu. 1971-ci ilin noyabrında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev internat məktəbinə bayraq təqdim etdi və bu məktəbə Cəmşid Naxçıvanskinin adı verildi. Məktəbdə təhsil müddəti üç il idi. Tədris VIII, IX və X siniflər üzrə aparılmalı idi. İnternat məktəbinə 7-ci sinfi bitirmiş və gələcəkdə də ali hərbi məktəbə daxil olmaq istəyənlər qəbul edilməli idilər. Bu məktəbi bitirənlərə ali hərbi məktəblərə müsabiqədən kənar daxil olmaq hüququ verilirdi.[5]

[4] Ramiz Duyğun. Mənim unudulmaz məktəbim. Bakı, 2002, s. 7–8

[5] Yenə orada, s. 9

1974-cü ildə C.Naxçıvanski adına xüsusi internat məktəbinin ilk buraxılışı oldu. Həmin ilin buraxılışından məktəbin 21, 1975-ci ildə 24, 1976-cı ildə 46, 1977-ci ildə 68, 1978-ci ildə 81, 1979-cu ildə 83, 1980-ci ildə 105, 1981-ci ildə 107, 1982-ci ildə 103, 1983-cü ildə isə 133 məzunu İttifaqın ali hərbi məktəblərinə daxil oldular.[6]

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə İttifaqın ali hərbi məktəblərinə azərbaycanlı gənclərin göndərilməsi də kifayət qədər artdı. XX əsrin 60-cı illərinin sonunda bu istiqamətdə görülən işlər xeyli zəiflədi. 1967-ci il may ayının 12-də Azərbaycan KP MK-nın qəbul etdiyi qərarda gənclərin seçilib ölkə ali hərbi məktəblərinə göndərilməsi sahəsində görülən işlər qeyri-qənaətbəxş sayılırdı. Qərarda bildirilirdi ki, partiya, sovet, komsomol orqanları və hərbi komissarlıqlar gənclərin seçilib hərbi məktəblərə göndərilməsinə lazımi diqqət göstərmirlər. Azərbaycan KP MK Bürosunun yuxarıda haqqında danışılan 29 aprel tarixli iclasının materiallarından da göründüyü kimi, 1970-ci ildə də bu sahədə arzu edilən nəticələr əldə edilmədi. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin həmin büro iclasındakı çıxışından və respublikanın əlaqədar təşkilatları qarşısında ciddi vəzifələr qoymasından sonra bu istiqamətdə görülən işlər daha da fəallaşdı və ölkə hərbi məktəblərinə daxil olan azərbaycanlıların sayı da artmağa başladı. 1972–1977-ci illər ərzində ölkənin ali hərbi məktəblərinə Azərbaycandan 8208 gənc seçilib göndərildi ki, onlardan 3398 nəfəri azərbaycanlı idi. Göstərilən illər ərzində hərbi məktəblərə göndərilən gənclərin 2153 nəfəri sınaq imtahanlarını uğurla keçib ali hərbi məktəblərə daxil oldular. Onlardan 694 nəfəri azərbaycanlı idi[7].

Artırılan diqqət və qayğının, görülən işlərin nəticəsində 1981-ci ildə azərbaycanlıların ali hərbi məktəbə göndərilməsində bir dönüş yarandı. Həmin il ölkənin ali hərbi məktəblərinə, o cümlədən Bakıdakı ali hərbi məktəblərə sənəd verənlərin sayı 2405 nəfərə çatdı ki, onlardan 804 nəfəri ali hərbi məktəblərə daxil oldu. Ali hərbi məktəblərə daxil olanların yarıdan çoxu, konkret olaraq 416 nəfəri azərbaycanlı idi.[8]

İstər C.Naxçıvanski adına hərbi liseyin təşkil edilməsi, istərsə də sovet dövründə azərbaycanlı gənclərin hərbi işə cəlb edilməsinin hansı tarixi

[6] Ramiz Duyğun. Mənim unudulmaz məktəbim. Bakı, 2002, s. 9

[7] Süleymanov M. Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi. Bakı, 2018, s. 117

[8] Yenə orada, s. 119





əhəmiyyətə malik olduğu əsrin sonlarında əyani şəkildə aydın oldu. Həmin dövrdə Azərbaycan xalqının öz müstəqilliyini əldə etməsi müstəqil dövlət və onun ayrılmaz atributu olan müstəqil milli ordu yaradılması şansını ortaya qoydu. Təxminən 70 illik fasilədən sonra Azərbaycan xalqının intizarında olduğu belə bir tarixi imkanın meydana gəlməsi, çox təəssüf ki, həmin illərdə Azərbaycanın rəhbərliyində olan şəxslər, xalqın ictimai-siyasi həyatında öncül yer tutmaq istəyən insanlar tərəfindən vaxtında və lazımınca qiymətləndirilə bilmədi. Əslində, heç qiymətləndirilə də bilməzdi. Çünki SSRİ-nin dağılması ərəfəsində respublikaya rəhbərlik edənlər nüfuzlarının və vəzifələrinin itirilməsi təhlükəsini milli maraqlardan üstün tutdular, dünyada və bölgədə gedən proseslərin mahiyyətini lazımınca qiymətləndirə bilmədilər, ittifaq hakimiyyətinin Azərbaycanın milli maraqlarına qarşı təcavüzkar mövqedə dayanmalarının fərqinə varmadılar. Azərbaycana qarşı həyata keçirilən haqsızlıqlara qarşı genişlənən xalq hərəkatı fonunda hakimiyyətə gələnlərin səriştəsizliyi, təcrübəsizliyi, xalqın milli mənafelərinə laqeyd münasibətləri Azərbaycan Ordusunun yaranmasını son dərəcə mürəkkəb bir vəziyyətlə qarşılaşdırdı. Azərbaycan xalqına qarşı genişmiqyaslı təcavüzə başlamış bədnam qonşularla müqayisədə mudafiə qüvvələrinin formalaşdırılmasının ayrı-ayrı iddialı adamların ixtiyarına buraxılması Azərbaycanda ordu əvəzinə, idarəolunmaz bir silahlı kütlənin meydana çıxmasına səbəb oldu. Bunun nəticəsi idi ki, çoxlu sayda Azərbaycan vətəndaşının olkənin müstəqilliyini, ərazi bütövlüyünü qorumaq əzmi və istəyi xalqın ümidində olduğu nəticələrə gətirib çıxarmadı. Dövlətin ordu quruculuğuna rəhbərliyi təmin edə bilməməsi isə ordunun tamamilə parçalanmasına, siyasi mənsubiyyətə görə qruplaşmasına, bəzi cinayətkar şəxslərin ətrafında cəmləşdirilməsinə yol açdı.

Həmin dövrdə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda ordu qurulması və müdafiə işlərinin təşkili tamam başqa bir məzmun aldı.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası da Ermənistanın hərbi təcavüzünün əsas istiqamətlərindən biri idi və bunu erməni millətçiləri heç gizlətmirdilər də. Amma Bakıdan fərqli olaraq, Naxçıvanda erməni təcavüzünün qarşısının alınması, sovet qoşun hissələrinin əmlakının respublikada saxlanması, bölgənin müdafiəsi üçün əhalinin, müxtəlif ictimai-siyasi qurumların daha vacib məqsədlər ətrafında birləşdirilməsində məqsədyönlü işlər göruldu. Hələ 1991-ci il oktyabr ayının 26-da NMR Ali Məclisi "Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi qüvvələrin hissələrinin statusu

haqqında" qərar qəbul etdi. Bu qərarda Naxçıvanda 75-ci mexanikləşdirilmiş motoatıcı diviziya və 41-ci sərhəd dəstəsinin muxtar respublika hakimiyyət orqanları ilə qarşılıqlı münasibətləri müəyyənləşdirildi.[9]

Azərbaycan öz müstəqilliyini elan edəndən sonra İttifaq qoşunlarına rəhbərliyi əlinə almış MDB qoşun komandanlığı bu hissələri bütün əmlakı ilə birlikdə Naxçıvandan çıxarmaq istəyirdi. Heydər Əliyev çox böyük səriştə və müdrikliklə bu təxribatın qarşısını aldı, 75-ci diviziyanın və 41-ci sərhəd dəstəsinin rəhbərliyi ilə dəfələrlə danışıqlar apardı, yaranmış yeni tarixi şəraiti onlara anlatdı və onlardan tələb etdi ki, Zaqafqaziya qoşun komandanlığı ilə əlaqə saxlayaraq hərbi əmlakın təhvil verilməsini razılaşdırsınlar. İstər Zaqafqaziya, istərsə də MDB qoşun komandanlıqları Naxçıvandakı hərbi əmlakın bütünlüklə təhvil verilməsinə razı deyildi. Bununla belə, aparılan ardıcıl siyasət nəticəsində 75-ci diviziyanın və 41-ci sərhəd dəstəsinin bütün əmlakı Naxçıvanda saxlanıldı.[10] Sonradan bu əmlak bütünlüklə Azərbaycanın Müdafiə Nazirliyinin nümayəndələrinə təhvil verildi. Həmin əmlakın bazasında da burada Müdafiə Nazirliyinin Naxçıvanda hərbi briqadası formalaşdırıldı.

Heydər Əliyev 1993-cü ilin iyununda Azərbaycan xalqının tələbi ilə respublika rəhbərliyinə qayıdandan sonra ordu quruculuğu sahəsində gərgin fəaliyyətə başladı. 1993-cü ilin yayında Azərbaycanda ən yüksək zirvəsinə çatmış gərginliyin daxili səbəblərinin bir tərəfində siyasi böhran, digər tərəfində Azərbaycan Ordusunun böhranı dayanırdı. Çünki siyasi xaosun, daxili çəkişmələrin alovlandığı bir vaxtda ayrı-ayrı şəxslər ordunu parçalayıb onu qanunsuz əməllərin icrasına səfərbər etməklə Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini çox ciddi və təhlükəli sınaqlar qarşısında qoyurdular.

Bütün xalqın ümidini və iradəsini əks etdirə bilən ordu yaradılmadan genişlənməkdə olan erməni işğallarının qarşısını almaq mumkun deyildi. Belə bir ordunun yaradılması isə Heydər Əliyevin dövlətçilik və təşkilatçılıq fəaliyyəti ilə bağlıdır. O, yeni və dövlət maraqlarına xidmət edə biləcək bir ordunun yaradılmasını, ilk növbədə, Azərbaycanın müstəqilliyinin, milli azadlığının və ərazi bütövlüyünün qorunması zərurəti ilə bağlayırdı. Çıxış-

[9] Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətinin məlumatı. 31 oktyabr 1991-ci il // Qayıdış. 1990–1993. Bakı, 1996, s. 502

[10] "Naxçıvan Muxtar Respublikasının mudafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin qərarı. 19 sentyabr 1992-ci il.// Qayıdış. 1990–1993, s. 551





larında da qeyd edirdi ki, müstəqillik Azərbaycana qarşı təcavüzün davam etdiyi bir zamanda əldə edilmişdi. Bu vəziyyət Azərbaycanın ərazi bütövlüyünü qorumağa qadir olan, onun cəlb edildiyi müharibədən uğurla çıxmağa gücü çatan ordunun olmasını daha da aktuallaşdırırdı. Heydər Əliyev qeyd edirdi ki, Azərbaycan xalqı öz müstəqilliyini, milli azadlığını qoruyub saxlamalıdır. "Bunun üçün də Azərbaycanın güclü ordusu olmalıdır. Bu həm işğal olunmuş torpaqlarımızı düşmənlərdən təmizləmək, həm də gələcəkdə müstəqil Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək üçün gərəkdir".[11]

Azərbaycanın dövlət maraqları əsas tutulmaqla dünya hərb təcrübəsi üzərində belə bir ordunun təşkilatlandırılması isə öz başlanğıcını Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətindən götürdü. Bu müraciət Azərbaycanda ordu quruculuğunun əsaslarını müəyyənləşdirəcək tarixi bir sənəddir. Strateji planda ordu quruculuğunun istiqamətlərinə dair elə bir məsələ yoxdur ki, bu müraciətdə öz əksini tapmamış olsun. O cümlədən ordu və dövlət, ordu və maddi baza, ordu və mənəviyyat, ordu və xalq, ordu və milli kadrlar, ordu və nizam-intizam və s. kimi əsaslı məsələlərin vəziyyəti, əhəmiyyəti və əldə edilməsi yolları Heydər Əliyev zəkasının işığında bu müraciətdə son dərəcə aydın şəkildə təhlil edildi. Heydər Əliyev bu müraciətində müstəqil Azərbaycan dövlətçiliyinin mühüm atributlarından biri olan ordunun böhran vəziyyətinə gətirilməsinin səbəb və səbəbkarlarından geniş söhbət açdı, bu sahədə ortaya çıxan çətinlikləri dərindən təhlil edərək yeni ordunun yaradılması üçün xalqın və dövlətin qarşısında dayanan vəzifələrdən bəhs etdi. Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətində respublikada yaranmış olan ağır vəziyyət də xalqa çatdırıldı.[12]

Bu müraciət hərb quruculuğu sahəsində yaxın və uzaq gələcək üçün Azərbaycan xalqının qarşısında dayanan əsaslı vəzifələrə toxunan proqram çıxışı idi və bu cəhətinə görə Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti Azərbaycanın ordu quruculuğunda böyük praktiki və tarixi əhəmiyyətə malikdir. Dünya hərb quruculuğu təcrübəsinin elə bir əsaslı məsələsi yoxdur ki, 2 noyabr tarixli müraciətində ona toxunulmasın və onun müdafiə quruculuğu sahəsindəki əhəmiyyəti açıqlanmasın. 2 noyabr

[11] Bərdə rayonunda ictimaiyyət nümayəndələri qarşısında çıxışı. 9–10 aprel 1994-cü il. // http: /files.preslib.az/projects/toplu/v2/f3_4.pdf

[12] Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. //"Azərbaycan" q., 4 noyabr 1993-cü il

müraciətinin dolğun və bütöv şəkildə ifadəsini, onun mühüm dövlət sənədinə çevrilməsini şərtləndirən amillərdən biri Heydər Əliyevin ordu quruculuğunun bütün sahələrinə kifayət qədər elmi şəkildə yanaşması və onları dövlətçilik təcrübəsi baxımından şərh etməsi idi. Başlıca olaraq, Heydər Əliyev bütünlükdə hərb quruculuğunun qanunauyğunluqlarının, bu prosesin əhatə etdiyi məsələlərin konkret Azərbaycan şəraitində təzahürünün incəliklərini əsaslı şəkildə açıqlayaraq, bu istiqamətdə mövcud nöqsanların nədən doğduğunu və onların aradan qaldırılma yollarını tutarlı və əsaslı şəkildə xalqa çatdıra bildi. Heydər Əliyev ölkənin uzun müddət üçün etibarlı müdafiəsi baxımından zəruri olan çoxsaylı mühüm problemlərə toxundu ki, onların vaxtında və keyfiyyətli icrası Azərbaycan dövlətçiliyinin daha da möhkəmlənməsinə yol aça bilərdi. Bu baxımdan Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti təkcə hərb quruculuğu sahəsində deyil, Azərbaycanın dövlət quruculuğu sahəsində də mühüm əhəmiyyət kəsb edən bir proqram çıxışı idi.

Bu müraciətdən dərhal sonra ordu daxilində ciddi islahatlara başlanıldı, yeni hərbi hissə və bölmələrin təşkili üçün yeni tələblər ortaya qoyuldu. Qoşunların hərbi hazırlığına və döyüş fəaliyyətinə rəhbərlikdə operativliyi təmin etmək məqsədilə Silahlı Qüvvələrin strukturuna yenidən baxıldı, əsassız şəkildə tətbiq edilmiş Səhra Cəbhə İdarəsinin ləğvi məqsədəuyğun bilindi və Müdafiə Nazirliyinin 4 noyabr 1993-cü il tarixli əmri ilə ləğv olundu. Heydər Əliyevin xalqa müraciətində qeyd edildiyi kimi, 400–500 nəfərlik şəxsi heyət əvəzinə, sıralarında cəmi 15–18 nəfər olan hərbi hissələr də buraxıldı. Döyüş fəaliyyətini düzgün qura bilməyən hərbi hissələrin yeni kadrlarla möhkəmləndirilməsi də dövlət rəhbərliyinin müdafiə qüvvələrinin sağlamlaşdırılması istiqamətində atdığı konkret addımlardan idi.[13]

Heydər Əliyev 1993-cü il noyabr ayının 4-də Bakıda Azərbaycan torpaqlarının bütövlüyü uğrunda mübarizə aparmağa hazır olan Əfqanıstan müharibəsi veteranlarının bir qrupu ilə görüşdü. Bu tədbir Heydər Əliyevin xalqa müraciətindən sonra cəbhə bölgəsinə yollanmaq təşəbbüsü ilə çıxış edən gənclərlə ilk görüşü idi. Bu görüş həm Heydər Əliyev, həm də Əfqanıstan müharibəsinin veteranları tərəfindən böyük məmnunluqla qarşılandı. Elə həmin günlərdə Bakıda və respublikanın digər rayonlarında könüllü müdafiə dəstələrinin formalaşdırılmasına başlanıldı. Qısa müddət ərzində Bərdə

[13] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı.//"Azərbaycan" q., 9 noyabr 1993-cü il





və Bakının Binəqədi rayonlarında könüllü dəstələr təşkil edildi[14]. Salyan, Lənkəran, İmişli, Beyləqan və Bakının Nizami rayonlarının hamiliyi altında təşkil edilən könüllü taborlar cəbhə bölgələrinə yola salındı. Sumqayıt şəhərində isə bir neçə könüllü müdafiə taboru formalaşdırılaraq cəbhəyə göndərildi, onların qayğıları şəhər ictimaiyyətinin nəzarəti altına götürüldü.[15]

Könüllü müdafiə dəstələrinin formalaşdırılması, təlimi, bütünlükdə Silahlı Qüvvələrin döyüş hazırlığı da Heydər Əliyevin daimi nəzarəti altında idi və o bu prosesin gedişinə ciddi diqqət yetirirdi. Hərbi hissələrin təlim-tərbiyəsinin vəziyyəti, şəxsi heyətin xidməti qayğıları ilə yaxından tanış olmaq üçün respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev 1993-cü il noyabr ayının 7-də "N" saylı hərbi təlim mərkəzinə gəldi.[16] O, təlim mərkəzində atıcıların, topçuların, tankçıların təlimini izlədi, əsgər və zabitlərlə görüşdü, onların xidməti, qayğı və problemləri ilə maraqlandı. Bu görüşdə də Heydər Əliyev bildirdi ki, Ermənistanın təcavüzünün qarşısını almaq üçün ordunun möhkəmləndirilməsi, onun canlı qüvvə və texnika ilə təchiz edilməsi sahəsində dövlət rəhbərliyi tərəfindən davamlı və ardıcıl tədbirlər həyata keçirilir.

Ölkə Prezidenti Heydər Əliyev 1993-cü il noyabr ayının 17-də siyasi partiyaların və ictimai hərəkatların rəhbərləri ilə görüş keçirdi və həmin görüşdə siyasi məsləhətləşmələr aparıldı, ölkənin müdafiəsi işinə bütün siyasi qüvvələrin, onların tərəfdarlarının daha yaxından cəlb edilməsi üçün təklif və rəylər dinlənildi.[17]

Bütün bunlar da tezliklə öz nəticələrini göstərməyə başladı. Azərbaycanın hərbi qüvvələrinin əvvəlcə Füzuli istiqamətində, sonra da Ağdam-Tərtər istiqamətində apardığı uğurlu döyüşlər Azərbaycan Ordusunun simasının dəyişdiyini nümayiş etdirdi və bu dəyişiklik düşmən qüvvələri də təşvişə saldı. 1993-cü il dekabr ayının sonlarından başlayaraq 1994-cü il yanvar ayının 6-dək davam edən döyüşlər nəticəsində Horadiz qəsəbəsi, Füzuli

[14] Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxış.//http: files.preslib.az/projects/toplu/v2/f3_3.pdf; Cəbhənin müdafiəsi üçün.//"Azərbaycan" q., 12 noyabr 1993-cü il

[15] Ağır vəziyyətimiz ruhdan düşməyə əsas vermir. Əksinə... //"Azərbaycan" q., 16 noyabr 1993-cü il

[16] Heydər Əliyev: "Azərbaycanın ərazi bütövlüyü sizin əlinizdədir". //"Azərbaycan" q., 9 noyabr 1993-cü il

[17] Hamımız bir məqsədə – Azərbaycanın birliyini, suverenliyini, bütövlüyünü qorumaq məqsədinə xidmət etməliyik. Siyasi partiyaların və ictimai hərəkatların rəhbərləri ilə görüş. //"Azərbaycan" q., 19 noyabr 1993-cü il

rayonunun 20 kəndi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi erməni işğalından azad edildi. "Horadiz" əməliyyatı kimi xatırlanan bu döyüşlərin gedişində 21 min hektar ərazi Azərbaycan Ordusunun nəzarəti altına keçdi, erməni hərbi qüvvələrinə ağır zərbə vuruldu və Heydər Əliyevin Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra Azərbaycan Ordusu özünün böyük qələbəsini əldə etdi.[18]

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 1994-cü il 23 yanvar tarixli bəyanatında bildirilirdi ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Qalx ayağa, Azərbaycan xalqı!" çağırışına cavab olaraq Milli Ordunun döyüşçüləri düşmənə sarsıdıcı zərbələr vurmaqda və onu işğal etdiyi ərazilərdən geri çəkilməyə məcbur etməkdədir. Bunun nəticəsi kimi, Füzuli və Kəlbəcər rayonlarında erməni işğalı altında olan bir sıra məntəqələr azad edildi. Azərbaycanın ordu hissələrinin 1994-cü il yanvar ayının 22-də keçirdiyi uğurlu döyüşlərdən sonra Kəlbəcər rayonunun Bozlu, Təkəqaya, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri erməni işğalından azad edilməklə Kəlbəcər–Ağdərə yolunun yuxarı hissəsi nəzarət altına alındı. Döyüşlərin gedişində düşmənin 300-dək əsgər və zabiti, 9 tankı, 2 PDM-i, 5 artilleriya qurğusu məhv edildi, 4 ədəd tank, 2 ədəd PDM, xeyli sayda atıcı silah, minaatan və s. qənimət kimi ələ keçirildi.[19]

Erməni hərbi qüvvələrinin növbəti genişmiqyaslı hücumu 1994-cü il aprel ayının 10-da başladı. Bu hücum Tərtər və Goranboy rayonları ərazisində xüsusilə geniş vüsət aldı. Erməni hərbi qüvvələrinin qarşısında dayanan əsas hədəflərdən biri Tərtər şəhərinin işğal edilməsi idi. Tərtər istiqaməti erməni hərbi qüvvələrinin diqqət yetirdiyi strateji istiqamət idi. Bu istiqamətdə hərbi uğur əldə etməklə Ermənistanın hərbi-siyasi rəhbərliyi və onun havadarları qarşıya bir sıra məqsədlər qoymuşdular. Erməni hərbi qüvvələri Ağdam-Tərtər ətrafında yerləşmiş Azərbaycan Ordusu hissələrinə və bölmələrinə ağır zərbə vurmaqla cəbhə xəttini yarmaq, gələcəkdə bu istiqamətdə strateji əhəmiyyət kəsb edən Tərtər şəhərini işğal altına almaq istəyirdi. Erməni hərbi rəhbərliyi bununla kifayətlənmək niyyətində deyildi.

---

[18] Paşasoy E. Horadiz əməliyyatının 24 il saxlanılan gizlinləri.// https: musavat.com/news.horadız-emelıyyatının-24-ıl-saxlanan-gızlınleri 405683 html Таривердиева Л., Агаларова Ф. Горадизская операция: день, о котором в Армении вспоминают с дрожью.// https: news.day.az politics 965536 html

[19] Düşmənə sarsıdıcı zərbə vurulur. //"Azərbaycan" q., 25 yanvar 1994-cü il





Nəzərdə tutulmuşdu ki, hücumun uğurla davam edəcəyi təqdirdə aprel ayının sonuna və may ayının ilk günlərinə qədər Bərdə şəhəri də ələ keçirilsin və bununla Azərbaycanın hərbi qüvvələri ilə bərabər, Azərbaycan rəhbərliyi də mürəkkəb bir duruma düşsün.[20]

Vəziyyətin mürəkkəbliyini nəzərə alaraq, Heydər Əliyev 1994-cü il aprel ayının 12-də radio və televiziya ilə yenidən xalqa müraciət etdi. Bu müraciətində Azərbaycan xalqının, Azərbaycan Ordusunun qarşısında dayanan vəzifələri açıqladı, Ermənistanın işğalçılıq siyasətinə ətraflı qiymət verdi.[21] Həmin günlərdə Heydər Əliyev həm də cəbhə bölgəsinə yollandı, əsgər və zabitlərlə görüşdü, hərbi şəraitlə yerində tanış oldu. Onun bu səfərindən və xalqa müraciətindən sonra müdafiə qüvvələri bütün gücü ilə Vətən torpaqlarının qorunmasına səfərbər oldu, Azərbaycan Ordusunun hissə və bölmələri Tərtər istiqamətində bütün müharibə dövrünün ən yaxşı döyüşlərindən birini keçirdi. Erməni hərbi qüvvələri dəfələrlə cəhd göstərməsinə baxmayaraq, hər dəfə Azərbaycanın müdafiə qüvvələrindən ciddi zərbələr almaqla geri çəkilmək məcburiyyətində qaldı. Bəzi kəndləri ələ keçirsə də, erməni hərbi rəhbərliyi əsas məqsədinə nail ola bilmədi. 1994-cü il aprel ayının 21-də erməni hərbi qüvvələri Tərtər şəhərinin 800 metrliyinə qədər yaxınlaşmağa müvəffəq olsa da, Azərbaycan döyüşçülərinin fədakarlığı, bu istiqamətdə mudafiə döyüşlərinin düzgün qurulması nəticəsində Tərtər şəhərini müdafiə etmək mümkün oldu.

1994-cü il may ayının əvvəllərinədək davam edən bu döyüşlərdə erməni tərəfi dəfələrlə Azərbaycan Ordusunun hissələrindən ağır zərbələr aldı. Hər uğursuzluqdan sonra cəbhəyə Ermənistandan yeni-yeni qüvvələr gətirilsə də, Azərbaycan qoşunlarının müdafiə xəttini yarmaq mümkün olmadı. Təkcə son döyüşlər zamanı Ermənistan silahlı qüvvələri 1000 nəfərdən artıq canlı qüvvə və 50-dək zirehli texnika itirdi.[22]

Yeniləşməkdə və möhkəmlənməkdə olan Azərbaycan Ordusundan güclü zərbə alan erməni hərbi qüvvələri geri çəkilməklə Ermənistan rəhbərliyini də atəşkəs müzakirələrinə daha ciddi yanaşmağa sövq etdi. Bunun nəticəsi idi ki, 1994-cü il may ayının 4–5-də Bişkek şəhərində MDB Parlamentlərarası Şurasının iclasında Rusiyanın vasitəçiliyi ilə Ermənistanla Azərbaycan

---

[20] Велимамедов М. Тер-терская операция. // http: vetenperver.net/ter-terskaya-operatsiya/

[21] Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1994-cü il aprelin 12-də televiziya və radio ilə xalqa müraciəti. //"Azərbaycan" q., 13 aprel 1994-cü il

[22] Araslы Дж. Армяно-Азербайджанский конфликт: военный аспект. Баку, 1995, с. 51

arasında atəşkəsin əldə edilməsi üçün yeni müzakirələr başladı, may ayının 12-də isə atəşkəs haqqında əldə olunmuş razılaşma qüvvəyə mindi.[23] Bununla da Ermənistanla Azərbaycan arasında uzunmüddətli atəşkəs əldə edildi.

Heydər Əliyev atəşkəs dövründə silahlı qüvvələr quruculuğu konsepsiyasını daha da təkmilləşdirdi və bu prosesi bütünlükdə Azərbaycanın müstəqil dövlət quruculuğu prosesi ilə əlaqələndirdi. Bununla, o, ordu quruculuğu sahəsində dövlət və cəmiyyət qarşısında dayanan vəzifələri daha da konkretləşdirdi, bu proses üçün zəruri olan qüvvə və vəsaitlərin bazasını müəyyənləşdirdi, onu inkişafda olan bir prosesə çevirdi.

Heydər Əliyev Azərbaycan Ordusunu inkişafda olan canlı bir orqanizm kimi görürdü və bu prosesin davamlı inkişafda olması ordu quruculuğu ilə bağlı Heydər Əliyev tərəfindən əsas götürülən bir prinsip idi. Respublika Prezidenti bu məsələni belə ifadə edirdi: "...ordu canlı orqanizmdir. Bizim bütün silahlı qüvvələrimiz canlı orqanizmdir. Bu bir tərəfdən canlı orqanizm kimi yaşayır, ikinci tərəfdən isə canlı orqanizm kimi daim inkişaf etməlidir. Ordunu birdəfəlik yaratdın, qurtardın və bununla da iş bitdi – bunu heç zaman demək olmaz".[24]

Heydər Əliyev ordu quruculuğunu inkişafda olmaqla bərabər, həm də uzun sürən bir proses kimi görürdü və hesab edirdi ki, bu prosesə nöqtə qoymaq, onu heç zaman bitmiş hesab etmək olmaz.

Atəşkəs dövründə ordu quruculuğuna məhz belə bir mövqedən yanaşıldı və onun davamlı inkişafı Heydər Əliyevin təşkilatçılığı altında Azərbaycan Ordusunu keyfiyyətcə yeni bir səviyyəyə qaldırdı. Heydər Əliyev Azərbaycan Ordusuna ölkənin hərbi təhlükəsizliyinin əsas elementi, Azərbaycan dövlətçiliyinin ən böyük dayağı kimi baxırdı, ona görə də onun inkişafını, təkmilləşməsini ümumdövlət vəzifəsi kimi qəbul edirdi: "Azərbaycan dövlətinin ən böyük dayağı, onun sütunu Azərbaycanın Silahlı Qüvvələridir, Azərbaycanın Silahlı Qüvvələrinə daxil olan bütün hərbi strukturlardır. Bunların içərisində birinci yerdə Azərbaycan Ordusudur. Azərbaycanın dövlət müstəqilliyinin ən dəyərli nəticələrindən biri Azərbaycanın milli ordusunun yaranması, təşkil olunması və onun müasir tələblərə uyğun hazırlanmasıdır. Hər bir dövlət öz dövlətçiliyini qüdrətli etmək istəyirsə, onun güclü ordusu olmalıdır".[25]

---

[23] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Təhlili xronika. Bakı, 2012, s. 152–153

[24] Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 83-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitq. // Heydər Əliyev və ordu quruculuğu, s. 388

[25] Naxçıvandakı "N" saylı hərbi hissədə keçirilən görüşdə nitq. // Yenə orada, s. 433





Ulu öndər Heydər Əliyev cəbhə bölgəsində



Heydər Əliyev ordunun inkişafını və möhkəmləndirilməsini Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsinin tərkib hissəsi kimi qəbul edirdi. O, şübhə etmirdi ki, Azərbaycanın müstəqilliyi dönməzdir və əbədidir, milli ordu da bu dönməzliyin təminatçısıdır: "Azərbaycanda ordunun inkişaf etməsi, möhkəmlənməsi dövlətimizin və xalqımızın ən əsas vəzifəsidir. Biz həmişə həmrəy olaraq bəyan etmişik ki, Azərbaycanın dovlət mustəqilliyi əbədidir və sarsılmazdır. Bu bəyanatı həmişə reallaşdırmaq üçün, bu fikirləri əməli surətdə daim həyata keçirmək üçün biz orduya qayğı göstərməliyik, onu möhkəmləndirməli və inkişaf etdirməliyik".[26]

Heydər Əliyev ordunun təşkilini həm də Azərbaycanın dövlət müstəqilliyinin mühüm atributlarından biri kimi qəbul edir və onun təşkilatlandırılmasını da Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinin mühum şərtlərindən biri kimi dəyərləndirirdi. Ulu Öndərin fikrincə, güclü ordunun yaradılması Azərbaycana qarşı təcavüzkar niyyətdə olan qüvvələri də öz təcavüzündən çəkindirə bilərdi. Ən yaxın vəzifə kimi isə Heydər Əliyev işğal altında olan ərazilərin azad edilməsi üçün silahlı qüvvələrin möhkəmləndirilməsini zəruri bilirdi: "Silahlı Qüvvələr, ordu hər bir müstəqil dövlətin əsas atributlarından biridir. Ordu olmalıdır, ordu yaranmalıdır. Muharibə olmasa da, torpaqlarımıza heç kəs təcavüz etməsə də, Azərbaycanın müstəqilliyini, suverenliyini təmin etmək üçün onun qüdrətli ordusu olmalıdır".[27]

Ordunun davamlı inkişafının təmin edilməsi üçün, hər şeydən əvvəl, bu proses dövlətin rəhbərliyi altına götürüldü. Bu istiqamətdə izlənilən siyasətin mahiyyəti ondan ibarət idi ki, ordunun yaradılması dövlətin müstəsna səlahiyyətidir, bu proses bütünlüklə dövlət tərəfindən aparılır, onun bütün təchizatı dövlət tərəfindən təmin edilir, formalaşma xüsusiyyətləri dövlət tərəfindən müəyyənləşdirilir və praktiki istifadəsi də dövlətin qəbul etdiyi qanunlar çərçivəsində həyata keçirilir. Bunu Heydər Əliyev də öz çıxışlarında təsdiq edirdi: "Biz orduya, Silahlı Qüvvələrə qayğını artırmalıyıq. Onun hər bir problemi dövlətin və hökumətin himayəsi altında olmalı, vaxtlı-vaxtında baxılmalı və həll edilməlidir. Mən dövlət başçısı və Ali Baş Komandan kimi bəyan edirəm ki, bundan sonra da bu vəzifənin yerinə yetirilməsinə çalışacağam".[28]

[26] Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. // Yenə orada, s. 323

[27] Azərbaycan Silahlı Qüvvələrinin 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda çıxış. // Yenə orada, s. 209

[28] Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. //http: files.preslib.az/projects/toplu/v2/f3_8.pdf






Heydər Əliyev Xocavənd taborunun döyüşçüləri ilə. 10 aprel 1994-cü il

Ordunun formalaşması, təşkilatlanması və təchizatı qəbul edilmiş qanunlarla normalaşdırıldı. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə ordu quruculuğu üçün böyük əhəmiyyət kəsb edən "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanunu (1993), "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanunu (1994), "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (1997), "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə (1997) kimi mühüm sənədlər qəbul edildi.[29]

Heydər Əliyev orduya vahid komandanlığın praktiki əsaslarını yaratdı, idarəetmə strukturlarına qarşı məsuliyyəti ciddiləşdirdi, ordu quruculuğunu dövlət quruculuğunun digər sahələri ilə üzvi şəkildə əlaqələndirdi. Ordu dövlətin gündəlik qayğısı ilə əhatə olundu, ordunun ehtiyacları vaxtlı-vaxtında aradan qaldırıldı və bununla bağlı dövlətin bütün orqanlarının cavabdehliyi artırıldı. Dövlətin və xalqın mənafelərinə cavab verən hərbi siyasət müəyyənləşdirildi, bu siyasətlə ordu quruculuğu qarşısında dayanan vəzifələr və onların icra yolları konkretləşdirildi, dövlətin yetərli müdafiə qabiliyyətinin yaradılması üçün əməli addımlar atıldı.

Orduya siyasi qüvvələrin nüfuz etməsinin qarşısı birdəfəlik alındı. Ordunun siyasi qruplaşmalardan və təsirlərdən təmizlənməsi, Silahlı Qüvvələrə

[29] Qanunvericilik. https://mod.gov.az/az/qanunvericilik-015/

rəhbərliyin dövlətin nəzarəti altına gətirilməsi ordu quruculuğunun uğurlu gedişinə zəruri zəmin yaratdı. Ordu və siyasət məsələsində dövlət quruculuğunun tələblərinə cavab verən yeni bir yanaşma formalaşdırıldı, dövlətin bütün gücü ordunun təşkilatlanmasına səfərbər edildi. Bütünlükdə ölkənin siyasi mühitinin sağlamlaşması ordu quruculuğunun yeni səviyyəyə qalxmasına imkan yaratdı.

Sürətli inkişafa nail olunması üçün ordunun maddi-texniki bazasının təkmilləşdirilməsi siyasəti hazırlandı. Bu siyasətin mahiyyəti ondan ibarət idi ki, güclü ordu üçün güclü iqtisadiyyat lazımdır. Bunun üçün də dövlətin təşkilatçılığı altında ölkənin iqtisadiyyatının yenidən qurulması başlandı, xalqın rifahının yaxşılaşmasına və ölkənin inkişafına xidmət edən neft strategiyası uğurla həyata keçirildi, ölkəyə çox böyük miqdarda xarici investisiya cəlb edildi, köklü iqtisadi islahatlara start verildi. Respublikada bərqərar olmuş ictimai-siyasi sabitlik iqtisadi inkişaf üçün əlverişli zəmin yaratdı. Ölkənin iqtisadiyyatının güclənməsi ilə ordunun maddi-texniki vəziyyəti yaxşılaşdı, orduda zəruri infrastruktur yaradıldı, ordu yeni silah və hərbi texnika ilə təmin edildi, ordunun təchizat mənzərəsi günü-gündən dəyişməyə başladı. Ordunun maddi-texniki bazasının təkmilləşməsi isə onun döyüş qabiliyyətini gücləndirdi, müdafiə imkanlarını daha da artırdı.

Heydər Əliyev orduya göstərdiyi qayğının əməli nəticə tapması üçün ordu rəhbərliyi qarşısında ciddi vəzifələr qoydu. Orduya professional rəhbərliyin təmin edilməsini çox mühüm amillərdən biri hesab edən Ali Baş Komandan bu məsələ ilə bağlı münasibətini istər müharibənin davam etdiyi, istərsə də atəşkəs dövründə bildirdi. Radio və televiziya ilə xalqa 2 noyabr 1993-cü il tarixli müraciəti ərəfəsində Heydər Əliyevin qərarı ilə Müdafiə Nazirliyinin rəhbərliyində kadr dəyişiklikləri oldu.[30]

Heydər Əliyev Müdafiə Nazirliyinin fəaliyyətinin düzgün qurulmasına, bu orqanın təşkilatçılıq və idarəetmə imkanlarının genişlənməsinə xüsusi fikir verir, nazirliyin qarşısında dayanan vəzifələrin icrasına daim ciddi tələbkarlıqla yanaşırdı. Xidməti müşavirələrdən əlavə, Heydər Əliyev ictimaiyyət qarşısındakı çıxışlarında da Müdafiə Nazirliyinin idarəçiliyində və təşkilatçılığında mövcud olan bir sıra nöqsanları açıb göstərir və onların aradan qaldırılmasını qətiyyətlə tələb edirdi. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı birmənalı şəkildə bəyan edirdi ki,

[30] Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993 cü il noyabrın 2-də televiziya və radio ilə xalqa muraciətı.//"Azərbaycan" q., 4 noyabr 1993-cü il





hərbi sahə onun daimi diqqəti altındadır və bu yanaşmadan heç zaman əl çəkməyəcəkdir. Onun fikrincə, Azərbaycanın müstəqilliyinin qorunması hər bir qurumdan və təşkilatdan bütün sahələrdə, o cümlədən də hərbi sahədə işlərini düzgün qurmağı tələb edirdi. Heydər Əliyev Ali Baş Komandan kimi hərbi hissələrdə mövcud olan nöqsanlara qarşı barışmaz münasibət nümayiş etdirir və onların da aradan qaldırılmasını, bu nöqsanlara yol açan problemlərin həllini Müdafiə Nazirliyinin rəhbərliyi qarşısında bir tələb kimi qoyurdu.[31] Məhz bunun nəticəsi idi ki, 1994-cü ilin aprelində çağırış və səfərbərlik işində yol verdikləri nöqsanlara görə bir sıra rayonların hərbi komissarları Heydər Əliyevin göstərişi ilə vəzifəsindən azad edilmişdi.[32]

Zabitlərin xidməti vəzifələri ilə bağlı təlimatlandırılmasını da Heydər Əliyev şəxsən özü aparmışdı. Cəbhə bölgəsinə göndərilən zabitlərlə görüş zamanı Heydər Əliyev onları belə təlimatlandırırdı: "Siz hərbi qulluqçu, zabitsiniz. Hərbi xidmətin bir toxunulmaz qanunu var: hərbi qulluqçu, hərbi xidmətdə olan adam Vətən, komandanlıq harada lazım bilsə, orada da xidmət etməlidir. Bu, hərbi qulluqçulara, o cümlədən də sizə yaxşı məlumdur. Ona görə də bu gün alacağınız əmrlər sözsüz yerinə yetirilməlidir... Bir daha bildirirəm ki, bu gün Müdafiə Nazirliyindən aldığınız əmrlər danışıqsız yerinə yetirilməlidir".[33]

Heydər Əliyev 1993–1998-ci illər ərzində ordu quruculuğunun müxtəlif məsələləri ilə bağlı 109 iclas, görüş və müşavirə keçirdi.[34] Bu fakt onu göstərir ki, Heydər Əliyev bu sahəyə çox böyük diqqət və əhəmiyyət verir, yaranmış hər hansı problemləri operativ müzakirələrin və qərarların obyektinə çevirirdi. Göstərilən fakt həm də ordu quruculuğunun hansı sürətlə aparıldığını nümayiş etdirdi.

Keçirilən iclas və müşavirələrdə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qarantı olacaq möhkəm ordunun formalaşdırılması ilə bağlı

[31] Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 83-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitq. 26 iyun 2001-ci il. // Heydər Əliyev və ordu quruculuğu, s. 392

[32] Azərbaycan ərazisinə Ermənistan silahlı qüvvələrinin yeni hücumları ilə əlaqədar güclü ordu yaratmaq üçün bütün qüvvələrin səfərbərliyə alınması vəzifələrinə həsr olunmuş müşavirədə giriş və yekun sözü. 17 aprel 1994-cü il. // Yenə orada, s. 191

[33] Prezident Aparatında zabitlərin bir qrupu ilə görüşdə çıxış. 13 yanvar 1994-cü il. // Yenə orada, s. 130

[34] Vətənə, dövlətə, xalqa sədaqətli xidmətin parlaq nümunəsi. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il oktyabrın 3-dən 1998-ci il oktyabrın 3-dək olan dövr ərzində keçirdiyi tədbirlər və görüşlər haqqında Azərbaycan Respublikası Prezidenti katibliyinin məlumatı. // "Respublika" q., 3 oktyabr 1998-ci il

ən müxtəlif məsələlər və vəzifələr müzakirə edilir və əldə olunmuş qərarlar Müdafiə Nazirliyinin və digər müvafiq dövlət strukturlarının fəaliyyətinin əsasını təşkil edirdi. Ordu quruculuğu məsələlərinə dövlət rəhbərliyinin qayğı və tələbkarlığının artırılması, bu istiqamətdə görülən işlərin sistemləşdirilməsi və təkmilləşdirilməsi Silahlı Qüvvələrin formalaşmasına da müsbət təsir göstərirdi.

Yeni şəraitdə ordu ilə xalq arasındakı əlaqələr yeni bir səviyyəyə qaldırıldı, bu əlaqələr daha səmərəli və işgüzar oldu. Xalq ordunun güc mənbəyi, ordu isə xalqın bir parçası kimi qəbul edildi. Xalqın orduya doğma münasibəti, onu qayğı ilə əhatə etməsi ordunun inkişafının və möhkəmlənməsinin əsas şərtlərindən biri oldu. Ölkə Prezidenti Heydər Əliyev təkidli şəkildə bildirirdi ki, xalqın ayrılmaz hissəsi sayılan ordu vətəndaşların qayğısı altında olmalıdır. Xalq ordunu daim sevməli, ona kömək etməlidir. Əgər xalq azad, sərbəst yaşamaq istəyirsə, ölkəsini, torpaqlarının toxunulmazlığını arzu edirsə, gərək hər şeydən öncə orduya qayğı göstərsin. "Ordunun hörmətini qaldırmaq lazımdır. Hərbi peşə Azərbaycanda ən hörmətli peşələrdən biri olmalıdır. Hər bir vətəndaş Azərbaycan əsgərinə, zabitinə hörmət, ehtiram və qayğı göstərməlidir. Hər bir Azərbaycan vətəndaşı, hər bir gənc orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir",[35] – deyən Heydər Əliyev ordu quruculuğunda mənəvi əhvali-ruhiyyənin qaldırılmasının və hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinin xüsusi əhəmiyyətini qeyd edirdi.

Azərbaycan Ordusunun uğurla formalaşmasının səbəblərindən biri də cəmiyyətdə orduya, orduda xidmətə münasibətin dəyişməsi oldu. Günügündən möhkəmlənən dövlətin siyasi gücü ölkənin hər bir vətəndaşının ordu quruculuğuna səfərbər olmasına, cəmiyyət miqyasında ordunun nüfuzunun qaldırılmasına istiqamətləndirildi. Azərbaycanın müstəqilliyinə sədaqət, Azərbaycanın müstəqilliyini müdafiə etmək hərbi xidmətə münasibətin əsas məzmununu təşkil etdi. Mənəvi əhvali-ruhiyyənin sağlamlaşdırılması üçün hərbi hissələrdə nizam-intizamın yaradılması, tələbkarlıqla qayğının əlaqələndirilməsi təmin edildi, qanunçuluğa əməl edilməsi ciddi nəzarət altına götürüldü. Xalqın və dövlətin mübarizliyi, düşmənə qarşı barışmaz mövqeyi və qətiyyəti ordunun şəxsi heyətinin mənəvi keyfiyyətlərini müəyyənləşdirən əsas amillərə çevrildi.

[35] Naxçıvandakı "N" saylı hərbi hissədə keçirilən görüşdə çıxış. 17 iyun 2002-ci il. // http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf





Dövlət rəhbərliyi ilə ordu arasında münasibətlər yeni bir səviyyəyə qaldırıldı. Respublikanın Prezidenti vaxtaşırı hərbi hissələrə, hərbi təhsil müəssisələrinə baş çəkdi, ordu quruculuğunun gedişi ilə yerlərdə tanış oldu, hərbi qulluqçuların uğurlarını bölüşməklə onların qayğıları haqqında birbaşa məlumatlar aldı.[36]

Ordu quruculuğunun uğurla aparılmasında Heydər Əliyev zabit kadrlarının yetişdirilməsinə və onların yüksək peşə hazırlığının saxlanmasına böyük əhəmiyyət verirdi. Atəşin davam etdiyi dövrdə də o, hərbi hissələrə və bölmələrə professional zabitlərin rəhbərlik etməsini həmişə diqqət mərkəzində saxlayırdı. Heydər Əliyev bütünlükdə milli zabit kadrlarının hazırlanmasına Azərbaycanın müstəqilliyinə xidmət edən bir amil kimi yanaşırdı və yuxarıda qeyd edildiyi kimi, hələ sovet hakimiyyəti dövründən başlayaraq bu məsələyə ümummilli bir vəzifə kimi baxırdı. Onun rəhbərliyi altında Azərbaycanda milli hərbi təhsil sisteminin yaradılması da zabit kadrlarının yetişdirilməsinə verdiyi diqqətdən irəli gəlirdi.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda hərbi təhsilin tamamlanmış sistemi yaradıldı. Bu isə imkan verdi ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün zəruri olan zabit kadrları respublika daxilində hazırlansın. Milli kadr hazırlığının yüksək səviyyədə həyata keçirilməsi üçün Azərbaycanda mövcud olan alı hərbi məktəblərin fəaliyyəti tamamilə yenidən quruldu, dünya ölkələrinin qabaqcıl təcrübəsi yerli xüsusiyyətləri nəzərə almaqla bu məktəblərin işinə tətbiq edildi.

Atəşkəs dövründə mövcud olan hərbi təhsil sisteminin kifayət qədər təkmilləşdirilməsi üçün ciddi işlər görüldü. Heydər Əliyevin şəxsi təşəbbüsü və qətiyyəti nəticəsində 1971-ci ildə əsası qoyulmuş Cəmşid Naxçıvanski adına xüsusi internat məktəbi 1997-ci ildə Hərbi Lisey adlandırıldı. Bu tipli tədris ocağının milli kadrların hazırlanması sahəsindəki əhəmiyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli sərəncamı ilə Hərbi Liseyin Naxçıvan filialı təşkil edildi.[37] 2004-cü ildə isə bu liseyin bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı.

Sovet dövründən mövcud olan ali hərbi məktəblərin fəaliyyəti atəşkəs dövründə daha da təkmilləşdirildi. Hələ sovet dövründə zabit kadrları ha-

[36] Heydər Əliyev və ordu quruculuğu, s. 472–479

[37] Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasim.// "Azərbaycan" q., 22 aprel 2003-cü il

zırlayan tanınmış məktəblərdən olan Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi Azərbaycan müstəqillik qazandıqdan sonra Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 20 avqust 2001-ci il tarixli Sərəncamı ilə Azərbaycan Ali Hərbi Məktəbi adlandırıldı. Azərbaycan Respublikası Prezidentinin 10 mart 2004-cü il tarixli fərmanı ilə bu məktəb indi Heydər Əliyevin adını daşıyır.

Orduya hərbi təyyarəçi kadrların hazırlanması üçün 1995-ci ildə Azərbaycanda Uçuş hazırlığı təlim mərkəzi yaradıldı və bu mərkəzdə 3 illik proqram əsasında təyyarəçi kadrların hazırlanmasına başlanıldı. 1997-ci il oktyabr ayının 15-də bu təlim mərkəzində təhsil alan heyətin ilk buraxılışı oldu, ölkə Prezidenti Heydər Əliyev bu buraxılışda iştirak etdi və gənc hərbi təyyarəçilər qarşısında nitq söylədi.[38]

Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin fəaliyyətinin təkmilləşməsi də atəşkəs dövrünün ilk illərinə, Heydər Əliyevin rəhbərliyi altında aparılan ordu quruculuğu illərinə təsadüf edir. Milli zabit kadrlarının yetişdirilməsi sahəsində Heydər Əliyevin rəhbərliyi altında aparılan işlərin bir əməli nəticəsi də 1999-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması oldu. Bu Akademiyanın açılması ilə Azərbaycan zabitlərinin respublika daxilində ali hərbi təhsil almaq imkanları da təmin edildi.

Hərbi təyyarəçi kadrların hazırlığına xüsusi əhəmiyyət verildiyi üçün 1998-ci ildə Uçuş hazırlığı təlim mərkəzi Bakı Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı. Bu məktəbə daxil olanlar 2 istiqamət və 4 ixtisas üzrə təhsil alırdılar. 2001-ci ildə isə bu məktəb Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı. Elə həmin ildə eyni fərmanla Bakı Ali Hərbi Dənizçilik Məktəbi Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi adlandırıldı. Qeyd etmək lazımdır ki, 1997-ci ildən etibarən adları çəkilən bu məktəblərdə zabit kadrlarının hazırlığı müasir standartlara cavab verən yeni proqram ilə aparılır. 2001-ci ildə bu məktəblərin ilk buraxılışı oldu, Heydər Əliyev bu tədbirlərdə iştirak edərək müdavimlər qarşısında çıxış etdi.

Ordu quruculuğunda ardıcıllıq, elm və təcrübənin əlaqələndirilməsi, hərbi qulluqçuların davamlı şəkildə öz peşə hazırlıqlarını artırması və s.

[38] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ali Hərbi Təyyarəçilik Məktəbinin ilk buraxılışına həsr olunmuş təntənəli mərasimdə çıxışı. 15 oktyabr 1997-ci il. //http://files.preslib.az/projects/toplu/v2/f3_7.pdf





Heydər Əliyevin gənc hərbi kadrlarla görüşü



cəhətlər də ciddi tələblər kimi qarşıya qoyuldu. Bütün sahələrdə olduğu kimi, hərbidə də inkişaf özünü göstərirdi və bu sahənin geridə qalmasını dövrün tələbləri ilə ayaqlaşmamaq adlandırmaq olardı. Hərbi texnologiyanın özünün də sürətlə inkişaf etməsi bu texnologiyadan peşəkarcasına istifadə etməyi bacaran kadrların olmasını tələb edirdi və yalnız elmli, bilikli kadrlar vasitəsilə yeni texnologiyanın döyüş imkanlarını bütünlüklə üzə çıxarmaq olardı. Məhz buna görə də hərbi təhsil sisteminin möhkəmləndirilməsi, elmi biliklərin genişləndirilməsi ordu quruculuğunda prioritet istiqamətlərdən birinə çevrildi.[39] Orduya qəbul edilmiş yeni və ən müasir hərbi texnologiya yeni bir hərbi təfəkkürün formalaşmasına da yol açdı. Bunun da nəticəsində Azərbaycan Ordusu öz döyüş qabiliyyətini xeyli artırdı və Azərbaycanın milli maraqlarını qorumağa qadir olan bir qüvvəyə çevrildi.

Azərbaycanın təhlükəsizliyinin təmin edilməsi sahəsində xüsusi rola malik olan güclü ordunun qurulması sahəsində həyata keçirilən uğurlu siyasətin nəticələrini Heydər Əliyev belə qiymətləndirirdi: "Mən bu gün böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, artıq Azərbaycanın müasir tələblərə cavab verə biləcək nizami ordusu vardır. Orduda lazımi nizam-intizam, qanun-qayda var və Azərbaycanın bugünku ordusu – Silahlı Qüvvələri Azərbaycan torpaqlarını etibarlı müdafiə etməyə qadirdir".[40]

Heydər Əliyevin dövründə bu keyfiyyətləri əldə etmiş Azərbaycan Ordusu Prezident İlham Əliyevin respublikaya rəhbərliyi illərində daha da inkişaf etdi, dünyanın ən güclü orduları sırasında qərar tutdu və 44 günlük Vətən müharibəsinin gedişində öz məharətini nümayiş etdirməklə böyük Zəfərə yol açdı.

[39] Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il.// http: /files.preslib.az/projects/toplu/v2/f3 10 pdf

[40] Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. //http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf





# ULU ÖNDƏRİN ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ SAHƏSİNDƏ DİPLOMATİK FƏALİYYƏTİ

1993-cü ildə ikinci dəfə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyevin xarici siyasətində ən başlıca vəzifələrdən biri Ermənistanın hərbi təcavüzünü dayandırmaq, işğala son qoymaq və münaqişəni həll etmək idi. Heydər Əliyev Milli Məclisin 15 iyun tarixli iclasındakı nitqində bununla əlaqədar olaraq demişdir: "Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geri qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır".[41]

Bu vəzifəni yerinə yetirməkdən ötrü geniş diplomatik-siyasi fəaliyyət gostərməyə başlayan Heydər Əliyev həm çoxtərəfli, həm də ikitərəfli formatda diplomatiyadan geniş istifadə etdi. Münaqişənin həlli ilə bilavasitə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk qrupu məşğul olduğundan Heydər Əliyev onun vasitəçilik səylərini müdafiə etdi.[42] O, 1993-cü il iyulun 2-də ABŞ, Türkiyə və Rusiyaya müraciət etdi. İyulun 5-də isə həmin ölkələrin Bakıdakı səfirlərini dəvət edərək işğalçı Ermənistan silahlı qüvvələrinin Ağdam istiqamətində hücumlarının dayandırılmasını tələb etdi.

İyul ayının ortalarında regiona səfər edən Minsk konfransının sədri, italiyalı diplomat Mario Rafaellini qəbul edən Heydər Əliyev onunla Ermənistanın genişlənən hərbi təcavüzünün dayandırılması məsələləri barədə fikir mübadiləsi apardı.[43] Mario Rafaellinin çağırışlarına baxmayaraq, Ermənistan silahlı qüvvələri iyulun 23-də nəqliyyat qovşağı və strateji cəhətdən mühüm məntəqə, ərazisi 1150 kv. km olan Ağdam rayonunu işğal etdi. Heydər Əliyev

[41] Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15 iyun 1993-cü il. // Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı, 1997, s. 15

[42] Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublıkası Ali Sovetinin Sədri Heydər Əliyevin bəyanatı. 5 iyul 1993-cü il. // Yenə orada, s. 19–21

[43] Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin və ATƏM-in Minsk konfransının sədri Mario Rafaellinin birgə mətbuat konfransında bəyanatı. 14 iyul 1993-cü il. // Yenə orada, s. 32–42



Ulu öndər Heydər Əliyevin andiçmə mərasimi. 10 oktyabr 1993-cü il



iyulun 24-də BMT Təhlükəsizlik Şurasının sədrinə müvafiq məktubla müraciət etdi.[44] Azərbaycanın tələbinə əsasən toplaşan Təhlükəsizlik Şurası iyulun 29-da 3259 saylı iclasında Azərbaycan Respublikasının Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 (S/RES/853 (1993)) saylı qətnaməni qəbul etdi.[45]

Azərbaycan dövləti iyulun 30-da, avqustun 5 və 6-da BMT Təhlükəsizlik Şurasına müraciət edərək Ermənistanın hərbi təcavüzünün dayandırılması üçün təsirli tədbirlərin görülməsini tələb etdi. Təhlükəsizlik Şurasının sədrinə avqustun 18-də yenidən müraciət edən Azərbaycan dövləti Ermənistan tərəfinin Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrini yerinə yetirmədiyini, işğal altında saxladığı Azərbaycan ərazilərini boşaltmadığını, əksinə, digərlərini də işğal etdiyini, azərbaycanlılar yaşayan kəndləri yandırdığını, Füzuli, Cəbrayıl, Qubadlı istiqamətlərində hücumu genişləndirdiyini bildirdi, təcavüzün təcili dayandırılması üçün Təhlükəsizlik Şurasının iclasının çağırılmasını tələb etdi.[46]

Müraciətə baxan Təhlükəsizlik Şurasının adından onun sədri avqustun 18-də keçirilən 3264-cü iclasında bəyanat verərək Ermənistan və Azərbaycan arasında münasibətlərin pisləşməsindən narahatlığını ifadə etdi, Füzuli rayonu istiqamətində hücumları pislədi, hərbi əməliyyatların dərhal dayandırılmasını, işğal olunmuş ərazilərin boşaldılmasını tələb etdi. Bəyanatda Azərbaycan Respublikasının və regionun digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyü bir daha təsdiq edilir, tərəflər Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair Minsk qrupunun təqdim etdiyi təxirəsalınmaz tədbirlər cədvəlinin dəqiqləşdirilmiş variantına müsbət cavab verməyə, məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırılırdı.

Təhlükəsizlik Şurası sədrinin bəyanatına məhəl qoymayan Ermənistan avqustun 23-də ərazisi 1390 kv. km olan Füzuli və ərazisi 1050 kv. km olan Cəbrayıl rayonlarını işğal etdi. Bununla bağlı olaraq Azərbaycan

[44] BMT Təhlukəsizlik Şurasının sədrinə. Surəti BMT-nin Baş katibinə. // Yenə orada, s. 44-45

[45] U.N. Resolution 853 (1993) Regarding the Armenia/ Azerbaijani Conflict United Nations Security Council Juli 29, 1993. // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. 1994. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic. Baku, 1994, p. 15-19

[46] BMT Təhlükəsizlik Şurasının sədrinə. Surəti BMT-nin Baş katibinə. 18 avqust 1993-cü il. // Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 89

dövləti avqustun 23 və 30-da Təhlükəsizlik Şurasının sədrinə müraciət etdi.[47] Həmin müraciətlərə cavab verilməmiş, avqustun 31-də Ermənistan silahlı qüvvələri 800 kv.km ərazisi, 95 yaşayış məntəqəsi olan Qubadlı rayonunu işğal etdi.

Azərbaycan Respublikası yenidən Təhlükəsizlik Şurasının sədrinə müraciət etdi.[48] Müraciətdə Ermənistanın hərəkətləri işğalçılıq olaraq qiymətləndirilir, yeni ərazilər işğal etməyin qarşısını almaq üçün Təhlükəsizlik Şurasının heç bir təsirli tədbir görmədiyi vurğulanırdı.

Münaqişənin həllinə dair dövlətin mövqeyini prezident seçkilərində böyük səs çoxluğu ilə qələbə qazanan Heydər Əliyev oktyabrın 10-da andiçmə mərasimindəki nitqində belə bəyan etdi: "Biz, ümumiyyətlə, sülhsevər mövqe tutaraq, bu münaqişəni birinci növbədə sülh yolu ilə, danışıqlar yolu ilə həll etməyə üstünlük veririk. Biz Birləşmiş Millətlər Təşkilatının, ATƏM-in, BMT Təhlükəsizlik Şurasının, bu münaqişənin aradan qaldırılmasında iştirak edən bütün dövlətlərin və beynəlxalq təşkilatların imkanlarından səmərəli istifadə edərək Azərbaycanı müharibə şəraitindən çıxarmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün bundan sonra da səy göstərəcəyik".[49]

Azərbaycan dövlətinin tələbinə əsasən toplanan BMT Təhlukəsizlik Şurası oktyabrın 14-də keçirilən 3292-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 874 saylı (S/RES/874 (1993)) qətnaməni qəbul etdi.[50]

Qətnamənin qəbulundan sonra, oktyabr ayının sonlarında regiona səfəri çərçivəsində ATƏM sədri, İsveçin xarici işlər naziri Marqareta af Uqlası qəbul edən Prezident Heydər Əliyev atəşin dayandırılması və münaqişənin həlli yolları barədə müzakirələr apardı.[51] ATƏM sədrinin çağırışlarına məhəl

[47] Письмо постоянного представителя Азербайджана от 23 августа 1993 года на имя председателя Совета Безопасности; Письмо постоянного представителя Азербайджана от 30 августа 1993 года на имя председателя Совета Безопасности. // Гасанов Г. Письма в Совет Безопасности ООН. 1992-1993. Баку, 2004, с. 267-269

[48] Письмо постоянного представителя Азербайджана при Организации Объединенных Наций от 1 сентября 1993 года на имя председателя Совета Безопасности. // Там же, с. 275

[49] Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993-cü il. // Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 201-208.

[50] Resolution 874 (1993) Adopted by the Security Council at its 3292 nd Meeting on 14 October 1993. // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin, p. 20-22

[51] ATƏM-in sədri Marqareta af Uqlas ilə görüşdə çıxış. 26 oktyabr 1993-cü il.//Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 210-215





qoymayan Ermənistan silahlı qüvvələri oktyabrın 29-da 710 kv. km ərazisi və 83 yaşayış məntəqəsi olan Zəngilan rayonunu işğal etdi.

Bununla Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunun ətrafındakı rayonların işğalını başa çatdırdı. Azərbaycanın tələbinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası 1993-cü il noyabrın 12-də 884 (S/RES/884 (1993)) saylı qətnaməni qəbul etdi.[52]

Beləliklə, Heydər Əliyevin gərgin diplomatik-siyasi fəaliyyəti nəticəsində münaqişənin həlli üçün beynəlxalq hüquqi və siyasi əsaslar yaradıldı. Həmin əsaslar beynəlxalq hüququn norma və prinsiplərinə, Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə, ATƏM və digər beynəlxalq təşkilatların müvafiq sənədlərinə əsaslanırdı. Qətnamələrdə Azərbaycan Respublikasının və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunması bir daha təsdiqlənir, düşmənçilik aktlarının dərhal dayandırılması, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilir, qaçqın və məcburi köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırılırdı və s.

Düşmənin diplomatik-siyasi vasitələrlə qarşısının alınması mümkün olmadığından Azərbaycan dövləti işğalçıya sarsıdıcı zərbə endirdi. Horadiz əməliyyatını uğurla başa çatdıran Azərbaycan Ordusu təcavüzkar ölkəyə ağır zərbə endirərək işğal altındakı bir sıra əraziləri düşməndən azad etdi.

Bundan sonra 1994-cü il fevralın 18-də Moskvada Azərbaycan, Ermənistan və Rusiya müdafiə nazirləri mayın 8-9-dan etibarən atəşkəs elan ediləcəyinə dair sazişi imzaladılar. Mayın 4-5-də Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının təşəbbüsü ilə Qırğızıstanın paytaxtı Bişkekdə Azərbaycan və Ermənistan parlamenti üzvlərinin iştirakı ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına həsr edilmiş görüşün yekununda təqdim edilən protokolda silahlı münaqişənin dayandırılmasına hər vəchlə kömək edilməsi, tezliklə müvafiq sazişin bağlanması, Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsi üçün MDB və Parlamentlərarası Assambleyanın fəal rol oynaması qəbul olundu, atəşi dayandırmağa və müşahidəçiləri yerləşdirməyə, işğal edilmiş ərazilərdən orduları çıxarmağa, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtma-

[52] Security Council. Resolution 884.//Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin, p. 23-25



Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri. 1997-ci il

larına dair çağırış edildi. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasının nümayəndəsi Bişkek protokolunu imzalasa da, azərbaycanlı əhalinin nümayəndəsinə bu imkan verilmədiyi üçün Azərbaycan tərəfi sənədə imza atmadı. Lakin bir müddət sonra müvafiq qeydlərlə, "müşahidəçilər" sözünün əvvəlinə "beynəlxalq", "tutulmuş ərazilər" əvəzinə "işğal edilmiş ərazilər" ifadəsini yazmaqla Azərbaycan parlamentinin sədri və regionun azərbaycanlı əhalisinin nümayəndəsi sənədi imzaladı.

Mayın 9-da Ermənistan və Azərbaycan tərəfi mayın 12-dən etibarən atəşkəs elan ediləcəyini açıqladı. Beləliklə, "nə sülh, nə də hərb" vəziyyəti yarandı.

Azərbaycan dövlətinin atəşkəsə razı olması yaranmış real şəraitdən doğurdu. Azərbaycan tərəfi ya əlverişsiz beynəlxalq şəraitdə ölkəyə böyük maddi və mənəvi ziyanlar vuran, nə zaman bitəcəyi bilinməyən mühari-





Prezident Heydər Əliyev və Rusiya Prezidenti Vladimir Putin

bəni davam etdirməli, ya da atəşkəsə gedərək sosial-iqtisadi sahələrdə islahatlar aparmalı, yeni neft strategiyasını həyata keçirməklə daha çox xarici sərmayə cəlb etməli, xalqın həyat səviyyəsini yüksəltməli, ordunu gücləndirməli, beynəlxalq mövqelərini möhkəmləndirməli və torpaqlarını azad etməkdən ötrü hazırlaşmalı idi. Atəşkəs Azərbaycan üçün işğal altında olan torpaqlarını azad etməyə hazırlaşmaqda zaman qazanmaq vasitəsi idi.

Ermənistan isə atəşkəsə Azərbaycan ərazilərinin işğalı faktının qəbul etdirilməsi və danışıqlar prosesinin uzadılması vasitəsi kimi baxırdı.

Münaqişənin nizamlanmasında tərəflərin mövqelərinin toqquşması 1994-cü il dekabrın 5-6-da ATƏM üzvü olan ölkələrin dövlət başçılarının Macarıstanın paytaxtı Budapeştdə keçirilən Zirvə toplantısında özünü göstərdi. Toplantıda Prezident Heydər Əliyev başda olmaqla Azərbaycan

nümayəndə heyəti iştirak edirdi.[53] ABŞ Prezidenti Bill Klinton, BMT Baş katibi Butros Butros Qali və b. çıxış edərək münaqişənin həlli məsələsində çoxtərəfli sülh səylərini müdafiə etdilər.

Dekabrın 6-da Zirvə görüşündə etdiyi nitqində Heydər Əliyev Azərbaycan ərazilərinin işğal edildiyini, azərbaycanlıların öldürüldüyünü, yaralandığını, əlil olduğunu, əsir düşdüyünü, doğma ocaqlarından qovulduğunu, çadır şəhərciyində yaşamağa məcbur olduğunu, işğal edilmiş ərazilərdə şəhər və kəndlərin dağıdıldığını, bütün evlərin, məktəblərin, xəstəxanaların yandırıldığını və qarət edildiyini, ən qədim mədəniyyət abidələrinin məhv edildiyini fakt və materiallarla iştirakçıların diqqətinə çatdırdı.[54]

Ermənistan Prezidenti Levon Ter-Petrosyan isə çıxışında millətlərin öz müqəddəratını təyinetmə prinsipini bu münaqişəyə tətbiq etməyə, Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni icmasını münaqişədə iştirak edən tərəflərdən biri kimi qəbul etdirməyə cəhd göstərdi.

Heydər Əliyev və Levon Ter-Petrosyan arasında keçirilən görüşdə Azərbaycan tərəfi hamı üçün ədalətli sülhün təmin olunması, işğal edilmiş ərazilərin boşaldılması və məcburi köçkünlərin ev-eşiklərinə qayıtması şərtlərini irəli sürdü. Levon Ter-Petrosyan isə guya Ermənistanın blokadada saxlanılması, millətlərin öz müqəddəratını təyin etməsi və Dağlıq Qarabağın statusu haqqında ümumi ifadələr işlətməklə münaqişənin həllindən yayınmağa çalışdı.

Toplantıda "Dağlıq Qarabağ münaqişəsinə dair ATƏT-in fəaliyyətinin fəallaşması" adlı 5 bənddən ibarət qətnamə qəbul edildi.[55] Rusiyaya Minsk qrupunda həmsədrlik səlahiyyəti verildi, ATƏM isə 1995-ci il yanvarın 1-dən etibarən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) çevrildi.

Bu zaman Minsk qrupunun fəaliyyəti, əsasən, üç istiqamətdə davam edirdi: atəşkəs rejiminin gücləndirilməsi; hərbi münaqişənin dayandırılması məqsədilə böyük siyasi saziş bağlamaq üçün danışıqlar prosesinin davam etdirilməsi; humanitar məsələlərin həll edilməsi.

[53] CSCE. Budapest summit. 1994. Journal №2.//OSCE Archive in Prague. OSCE Budapest summit. 1994. File №210

[54] ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxış. 6 dekabr 1994-cü il.//Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. İkinci kitab. Bakı, 1997, s. 573–576

[55] Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi. Zirvə görüşü. Budapeşt. 6 dekabr 1994-cü il. II. Regional məsələlər. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ATƏM-in fəaliyyətinin fəallaşması.//"Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, №2, s. 117–118






Lissabon Zirvə görüşü. 1996-cı il, dekabr

1995-ci il avqustun 28-də ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə şəxsi nümayəndəsi vəzifəsi təsis olundu.

Prezident Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyətinin qarşısında ATƏT-in 1996-cı il dekabrın 2–3-də keçirilən Lissabon Zirvə görüşündə, əsasən, aşağıdakı məqsədlər dururdu: toplantının kürsüsündən və keçirilən ikitərəfli görüşlərdən istifadə edərək münaqişənin əsl mahiyyətini, davakar separatizm və onun nəticələrini, Ermənistanın beynəlxalq birliyin iradəsinə hörmətsizlik etməsini, BMT və ATƏT prinsiplərini pozmasını, onun siyasətinin ümum-Avropa təhlükəsizliyi üçün təhlükə olmasını çatdırmaq və işğalçı ölkənin əməllərinə qiymət verilməsinə nail olmaq; münaqişənin həllinə dair başlıca prinsipləri yekun sənədinə və qəbul edilən bəyanatlara daxil etmək; dünyanın diqqətini bu məsələyə yönəltmək.[56]

[56] OSCE. Lisbon summit. 2-3 December, 1996.//OSCE Archive in Prague. Lisbon summit. 2-3 December, 1996. Journal 1 and 2. Documents. List of participiants. File №226

Heydər Əliyev Zirvə görüşündə söylədiyi nitqində Ermənistanın hərbi təcavüzü və onun nəticələri üzərində dayandı, beynəlxalq sülhün qorunmasında ATƏT-in rolunu yüksək qiymətləndirdi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edildiyini, Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyini diqqətə çatdırdı və nizamasalmada kompromisli üsulun aşağıdakı tərkib hissələrini açıqladı: Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağ regionunun bütün əhalisi üçün təhlükəsizliyin təminatı.[57]

Azərbaycan Respublikasının ATƏT prinsipləri əsasında ərazi bütövlüyünü qorumaq şərti ilə Dağlıq Qarabağ regionuna ən yüksək status vermək təklifi Minsk qrupunun bütün üzvləri tərəfindən qəbul olunsa da, Ermənistan razılaşmadı. Lissabon Zirvə görüşünün Yekun Bəyannaməsinin 20-ci maddəsi mübahisələrə səbəb olduğundan Azərbaycan bütün yekun sənədinə konsensus vermədi. Heydər Əliyevin Levon Ter-Petrosyan ilə keçirdiyi görüş də nəticəsiz olduqda ABŞ-ın vitse-prezidenti Albert Qor vəziyyətdən çıxış yolunu belə təklif etdi: "Mən yaranmış vəziyyətdən belə başa düşürəm ki, sənədlərdən heç birisi barədə konsensus yoxdur. Azərbaycan bütün mətni əhatə edən öz kvadratşəkilli mötərizələrini götürmədi. Sual belədir: Biz sənəddə əksini tapmalı olan tarazlıq barəsində razılığa gələrək, 20-ci maddənin mahiyyətini götürə bilərikmi və 20-ci maddənin bu mahiyyətini sənəddə deyil, ATƏT-in indiki sədrinin bəyanatına daxil edə bilərikmi? Bu, yaranmış vəziyyətdə mümkün olarsa, bəlkə, onda Azərbaycan bütün sənədin ətrafındakı öz kvadratşəkilli mötərizələrini götürməyə razılıq verərdi".[58]

Azərbaycan tərəfi Albert Qorun təklifi ilə razılaşdı. ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kottinin bəyanatında münaqişənin həllinə dair iştirakçı dövlətlər tərəfindən (Ermənistan istisna olmaqla. – M.Q.) aşağıdakı prinsiplərə razılıq verilirdi: Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; Azərbaycanın tərkibində Dağlıq Qarabağ regionuna ən yüksək dərəcəli özünüidarəetmə hüququ verən öz müqəddəratını təyinetmə əsasında Dağlıq Qarabağın sazişlə müəyyən edilmiş

[57] ATƏT-in Lissabon Zirvə görüşündə nitq. 2 dekabr 1996-cı il.//Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. Bakı, 1998, s. 89–93

[58] ATƏT-in Lissabon Zirvə görüşünün yekun iclasında nitq. 3 dekabr 1996-cı il.// Yenə orada, s. 95





hüquqi statusu; tənzimlənmə müddəalarına bütün tərəflərin riayət etməsini təmin edən, qarşılıqlı öhdəliklər daxil olmaqla, Dağlıq Qarabağın və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi.[59]

Zirvə görüşündən sonra ATƏT-in həmsədrlik institutunda dəyişiklik baş verdi. Əgər 1992-ci ildən ötən müddətdə Minsk qrupuna İtaliya (1992–1993), İsveç (1994), Rusiya və Finlandiya (1995–1996) sədrlik etmişdisə, 1997-ci il yanvarın 1-dən etibarən Minsk prosesini həmsədrlər qismində ABŞ, Rusiya və Fransa aparmağa başladı.

Minsk qrupu çərçivəsində keçirilən görüşlər 1997-ci ilin aprel ayından etibarən dayandırıldı. Onları həmsədrlərin regiona səfərləri əvəz etdi. Valentin Lozinski (Rusiya), Jak Blo (Fransa) və Stroub Talbott (ABŞ) münaqişənin nizama salınmasına dair təkliflərlə iyunun 1-də Ermənistana və Azərbaycana gəldilər.[60] Paket həlli adlandırılan və iki hissədən ibarət olan bu layihə tərəflərin bütün mübahisəli məsələlərə dair ilkin razılıq əldə etməsini, razılaşmanın qarşıdakı sülhün bütün problemlərini və aspektlərini əks etdirən paketdə toplanmasını və gələcəkdə gerçəkləşdirilməsini nəzərdə tuturdu.

Azərbaycan tərəfinin paket həlli layihəsi barədə konstruktiv məsləhətləşmələrə başlamağa hazır olmasına baxmayaraq, Ermənistan onu rədd etdi. Beləliklə, paket həlli gerçəkləşmədən kənara qoyuldu.

Həmsədrlər sentyabrın 19–23-də bölgəyə növbəti səfərləri zamanı münaqişənin mərhələli həllinə əsaslanan yeni təklif təqdim etdilər. Həmin təklif ilk mərhələdə 6 rayonun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğaldan azad olunmasını, ATƏT-in sülhyaratma əməliyyatlarının başlanmasını, məcburi köçkünlərin azad olunmuş ərazilərə qayıtmasını və münaqişə bölgəsində əsas kommunikasiya vasitələrinin bərpasını nəzərdə tuturdu. İkinci mərhələdə isə Laçın və Şuşa məsələləri həll edilməli, Dağlıq Qarabağ bölgəsinin statusunun əsas prinsipləri qəbul olunmalı və Minsk konfransı çağırılmalı idi. Azərbaycan tərəfi bu təklifləri müzakirə etməyə hazır olduğunu bildirdi.

[59] Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Zirvə görüşü. Lissabon. 3 dekabr 1996-cı il. Əlavə 1. ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatı.//"Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar–mart, № 2, s. 120

[60] Armenia-Azerbaijan conflict. GRS. Issue Brief. September 24, 1997, p. 7

Mərhələli həll planı Minsk qrupu həmsədrlərinin səyləri ilə 1997-ci il oktyabrın 10-da Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Strasburqda keçirilən ikinci Zirvə toplantısı çərçivəsində Heydər Əliyev və Levon Ter-Petrosyan arasındakı görüşdə müzakirə edildi.

Ermənistan tərəfi Minsk qrupu həmsədrlərinin son təkliflərini müzakirə etməyə razılığını bildirdi. Görüş zamanı belə bir ümumi fikir ifadə edildi ki, münaqişə sülh yolu ilə aradan qaldırıla bilər. Müzakirələrdən sonra Heydər Əliyevin və Levon Ter-Petrosyanın qəbul etdikləri birgə bəyanatda deyilirdi: "Azərbaycan və Ermənistan belə hesab edirlər ki, Minsk konfransı həmsədrlərinin Minsk qrupu çərçivəsində göstərdikləri fəallıq münaqişəyə cəlb olunmuş bütün tərəflərin konstruktivliyi şəraitində həmin münaqişənin aradan qaldırılması işində real irəliləyişə nail olmağa imkan verə biləcək bazanın yaradılmasına yönəlmişdir. Azərbaycan və Ermənistan belə hesab edirlər ki, Minsk qrupu həmsədrlərinin son təklifləri Minsk qrupu çərçivəsində danışıqların yenidən başlanması üçün ümidverici əsasdır".[61]

Birgə bəyanat Ermənistanda daxili siyasi böhran yaratdı. Baş nazir Robert Koçaryan və müdafiə naziri Serj Sarkisyan Prezident Levon Ter-Petrosyanın əleyhinə çıxdılar. Mart ayında hakimiyyətə işğal prosesində azərbaycanlı əhalinin məhv edilməsində xüsusi rol oynamış Robert Koçaryan gəldi. O, münaqişənin mərhələli həllinə dair Ermənistanın əvvəlki razılığını geri götürdü, danışıqları uzatmaq, qondarma rejimi tanıtmaq məqsədilə münaqişənin həllinin Xankəndidən asılı olduğunu deyərək, Bakı ilə Xankəndi arasında birbaşa danışıqların aparılması tezisini irəli sürdü.

Bundan sonra Minsk qrupu həmsədrləri münaqişənin həllinə dair yeni variantlar üzərində işləməyə başladılar. 1998-ci il noyabrın 9-da Azərbaycana səfər edən həmsədrlər Jorj Vojye (Fransa), Yuri Yukalov (Rusiya) və Donald Kayzeri (ABŞ) Prezident Heydər Əliyevlə görüşdə ümumi dövlət konsepsiyasına əsaslanan təklifi irəli sürdülər.[62] Bu təklifə əsasən, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə respublika formasında dövlət və ərazi vahidi statusu verilməli və o, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan ilə birlikdə ümumi dövlət təşkil etməli idi. Azərbaycan tərəfi Ermənistanın bilavasitə kobud müdaxiləsi və hərbi təcavüzü nəticəsində yaradılmış qondarma qurum ilə "ümumi dövlət" yarada bilməzdi. Heç bir beynəlxalq hüquqi əsası olmayan bu təklif Azərbaycanın Dağlıq Qarabağ bölgəsini müstəqil dövlət və ərazi birliyi kimi nəzərdə tutduğu, ona Azərbaycan ilə bərabərhüquqlu ümumi dövlət statusu verdiyi, Ermənistanın hərbi təcavüzünü qanuniləşdirdiyi, Azərbaycanı ərazisinin bir hissəsindən məhrum etdiyi, Azərbaycan Respublikasının suverenliyinə zidd olduğu üçün Azərbaycan dövləti noyabrın 19-da həmsədrlərə rəsmi məktub yazaraq onu rədd etdi.

[61] Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə Ermənistan-Azərbaycan munaqişəsinin aradan qaldırılmasına dair müzakirə və danışıqların yekunu barədə məlumatın və mətbuat üçün birgə bəyanatın mətninin elan edilməsi. 10 oktyabr 1997-ci il.//Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. On ikinci kitab. Bakı, 2004, s. 305–306

[62] ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündəki söhbətindən. 9 noyabr 1998-ci il. // Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab Bakı, 2006, s. 211–217



Ermənistan tərəfi isə həmsədr ölkələrə məktub göndərərək danışıqları canlandırmaq üçün ümumi dövlət təklifini əsas kimi qəbul etdiyini bildirdi.

Azərbaycan Respublikası ümumi dövlət təklifini rədd etdikdən sonra Minsk prosesi çıxılmaz vəziyyətə düşdü və heç bir yeni təklif irəli sürülmədi.

Nizamlama prosesinə təkan vermək məqsədilə Minsk qrupu həmsədrləri 1999-cu ilin aprel ayından etibarən Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərini təşkil etdi. İki ölkə rəhbəri MDB toplantısı çərçivəsində 1999-cu il aprelin 1-də Moskvada görüşərək atəşkəsin davam etdirilməsinə tərəfdar olduqlarını bildirdilər. NATO-nun 50 illik yubileyinə həsr olunmuş toplantı zamanı ABŞ Prezidenti Bill Klinton və dövlət katibi Madlen Olbraytın təşəbbüsü ilə aprelin 26-da Heydər Əliyev və Robert Koçaryan arasında görüş keçirildi. Növbəti görüşlər iyulun 16-da Fransada Leman gölü sahilindəki Le Grand Saugy iqamətgahında, avqustun 22-də Cenevrədə Le Seyi sarayında,[63] oktyabrın 11-də Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu ərazisində keçirilsə də, nəticəsiz oldu.[64]

ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1999-cu il noyabrın 18–19-da İstanbulda keçirilən növbəti Zirvə görüşündə Minsk

[63] Ermənistan Prezidenti ilə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidentinin bəyanatı. 22 avqust 1999-cu il.//Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. İyirmi birinci kitab. Bakı, 2007, s. 201–203

[64] Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanla görüş. 11 oktyabr 1999-cu il. // Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. İyirmi ikinci kitab Bakı, 2007, s. 176–179



Heydər Əliyev BMT-də çıxış edərkən. 29 sentyabr 1994-cü il

qrupu həmsədrlərinin məruzəsi dinlənildi.[65] Toplantıda nitq söyləyən Prezident Heydər Əliyev Avropada mövcud olan təhlükələrdən danışdı, ölkələrin suverenliyi və ərazi bütövlüyünə təhdidləri diqqətə çatdırdı, Azərbaycan ərazisinin beşdə birinin işğal edildiyini, Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlıların qaçqın və məcburi köçkün olduğunu vurğuladı, həmsədrləri münaqişəni həll etmək üçün səylərini artırmağa səslədi.[66]

Minsk qrupunu yenidən regiona qaytarmaq və sülh prosesini gücləndirmək məqsədilə noyabrın 18-də ATƏT-in fəaliyyətdə olan sədrinin, həmsədr

[65] Report by the co-charmen of the Minsk Conference of the OSCE on Nagorno Karabakh to the Meeting of heads of state or government. Istanbul, 18 November, 1999. // OSCE Archive in Prague. Istanbul summit. 18–19 November, 1999. Summary documents. File № 225

[66] Statement Heydar Aliyev, President of the Republic of Azerbaijan. OSCE summit. Istanbul, 18–19 November, 1999.//OSCE Archive in Prague. Istanbul summit. 18–19 November, 1999. Summary documents. File № 225





olan ölkələrin xarici işlər nazirlərinin Azərbaycan və Ermənistan prezidentləri ilə görüşləri keçirildi.[67]

Zirvə görüşündən sonra Minsk qrupunun fəaliyyəti bir qədər artdı. Lakin tərəflər sülhə yaxınlaşdıqları bir zamanda – 1999-cu ildə Ermənistan parlamentində terror aktı törədildi. Bu hadisə Ermənistan siyasi hakimiyyətinin ölkə daxilində problemlərin həllində zorakılıq yolu tutduğunu, kriminallaşdığını və münaqişənin dinc siyasi vasitələrlə həllindən uzaq olduğunu göstərdi.

Fransa Prezidenti Jak Şirakın dəvətinə əsasən, Prezident Heydər Əliyev Minsk qrupu formatında münaqişənin həlli yollarını Ermənistan Prezidenti ilə müzakirə etmək məqsədilə 2001-ci il martın 4–6-da Parisə səfər etdi.[68] Marini sarayında keçirilən görüş Azərbaycan və Ermənistan prezidentləri arasında sayca 15-ci idi. Heydər Əliyev və Robert Koçaryanın təkbətək görüşü iki saat davam etdi. Daha sonra Fransa Prezidentinin iştirakı ilə üçtərəfli görüş keçirildi.[69] Lakin müzakirələr heç bir nəticə vermədi.

Minsk qrupunun həmsədr ölkəsi olan ABŞ hökuməti 2001-ci ilin mart ayında Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsi təşəbbüsünü irəli sürdü. Təklifi qəbul edən Heydər Əliyev aprelin 1-də ABŞ-a səfər etdi.[70] O, aprelin 3-də əvvəlcə ABŞ dövlət katibi Kolin Pauell ilə görüşərək münaqişənin həlli yolları barədə fikir mübadiləsi apardı.[71]

Florida ştatının Ki Vest şəhərində Kolin Pauell, Heydər Əliyev, Robert Koçaryan və ATƏT-in Minsk qrupunun həmsədrləri Keri Kavano (ABŞ), Jan Jak Qayyard (Fransa), Nikolay Qribkov (Rusiya), Minsk konfransının həmsədri, Rusiya Federasiyasının xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov arasında aprelin 3-də keçirilən görüşü Kolin Pauel

[67] ATƏT-in icraçı sədrinin və ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin xarici işlər nazirlərinin Azərbaycan və Ermənistan prezidentləri ilə görüşlərindəki söhbətdən. 18 noyabr 1999-cu il.//Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. İyirmi üçüncü kitab. Bakı, 2008, s. 156–160

[68] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fransaya işgüzar səfəri. //Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. Bakı, 2010, s. 211–218

[69] Azərbaycan Prezidenti Heydər Əliyevin, Fransa Prezidenti Jak Şirakın və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü.//Yenə orada, s. 219–220

[70] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a işgüzar səfəri. //Yenə orada, s. 346–351

[71] Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının dövlət katibi Kolin Pauell ilə görüşü.//Yenə orada, s. 351–352

açdı. Münaqişənin dinc vasitələrlə tənzimlənməsi yolları müzakirə edildi. ABŞ tərəfi Dağlıq Qarabağ regionu, Laçın dəhlizi və Naxçıvanın qərbinin Ermənistana verilməsi müqabilində Meğri dəhlizinin Azərbaycana verilməsini təklif etdi. Lakin bir sıra səbəblərdən ərazi mübadiləsi təklifi reallaşmadı. Rusiya tədqiqatçısı Əhməd Butayevin fikrincə, Meğri sahəsi Ermənistan-Azərbaycan münasibətləri çərçivəsindən xeyli kənara çıxırdı. O yazırdı ki, guya Meğrinin Azərbaycana və ya beynəlxalq nəzarətə verilməsi türk dünyasının qloballaşması prosesinin başlanğıcı, faktiki olaraq, yeni "Böyük Turan"ın yaranması olardı. Müəllifə görə, bu vəziyyət Türkiyə və Azərbaycan ilə sərhəddə tamamilə azərbaycanlılardan ibarət olan şimal ərazilərinin parçalanmasından ehtiyat edən İranı ciddi surətdə narahat edirdi. Ona görə də İranı indiki vəziyyət – Azərbaycan ərazilərinin işğalı və Meğri dəhlizinin xeyli genişləndirilməsi təmin edirdi.[72]

Minsk qrupu həmsədrlərinin 2002-ci ilin mart ayında bölgəyə səfərləri zamanı görüşlərin Azərbaycan və Ermənistan prezidentlərinin xüsusi nümayəndələri səviyyəsində davam etdirilməsi barədə təklifini hər iki ölkə başçısı qəbul etdi. Xüsusi nümayəndələrin ilk görüşü iyulun 29–30-da Praqa yaxınlığında keçirilsə də, Ermənistan müzakirələrdə irəliləyişə hazır deyildi. Sonrakı görüşlər də işğalçı ölkənin münaqişənin dinc siyasi vasitələrlə həllindən uzaq olduğunu göstərdi.

Heydər Əliyev Ermənistanın hərbi təcavüzü və nəticələri, münaqişəyə son qoyulması məsələsini müxtəlif illərdə BMT, ATƏT, Avropa Şurası, NATO, İKT və MDB toplantılarında etdiyi çıxışlarında tez-tez qaldırdı, dünya dövlətlərinin diqqətini cəlb etdi. Bəzi təşkilatlar tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını müdafiə edən sənədlər qəbul olundu.

Ulu Öndər münaqişənin tənzimlənməsindən ötrü ikitərəfli diplomatiyadan da uğurla istifadə etdi. Dövlət başçısının Fransa, Turkiyə, Rusiya, Böyük Britaniya, İran, Almaniya, İtaliya, ABŞ, Çin, Yaponiya və digər ölkələrə səfərləri zamanı imzalanan sənədlərdə Azərbaycan Respublikasının sərhədlərinin toxunulmazlığına, ərazi bütövlüyünə və suverenliyinə hörmət ifadə edilirdi. Bu sənədlər Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirmişdir.

[72] Бутаев А. Каспий: зачем он Западу? Москва, 2004, с. 444





Uğurlu xarici siyasət yürütməklə paralel olaraq, Heydər Əliyev torpaqları işğaldan azad etməkdən ötrü ölkə daxilində bütün sahələrdə islahatları dərinləşdirdi, iqtisadi, siyasi və hərbi cəhətdən güclü dövlət qurmaq üçün səylərini artırdı.

Beləliklə, 1993–2003-cü ilədək keçirilən görüşlər Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından münaqişənin tənzimlənməsinə imkan vermədi. Ermənistan Azərbaycan ərazilərini işğal altında saxladı. Təcavüzkar ölkə görüşləri həm münaqişənin nizamlanması üçün vaxt uzatmaq məqsədilə davam etdirir, həm də Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz fəaliyyətini genişləndirirdi. Ermənistan tərəfi hərbi təcavüzünü ört-basdır etmək üçün Dağlıq Qarabağ bölgəsindəki hərəkətlərini öz muqəddəratını təyinetmə hüququ kimi qələmə verirdi.

Azərbaycan tərəfi isə münaqişənin həllində danışıqlar yoluna riayət etdiyini bir daha göstərdi. Əraziləri işğal edilən Azərbaycan dövlətinin münaqişənin həllinə dair mövqeyi beynəlxalq hüquq normalarından irəli gələn prinsiplərə əsaslanırdı. Azərbaycanın başlıca məqsədi işğal olunmuş bütün ərazilərin azad edilməsi, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtması, regionda sabitlik və davamlı sülhün bərqərar olması idi.

# PREZİDENT İLHAM ƏLİYEVİN QƏLƏBƏ STRATEGİYASI: ƏSAS İSTİQAMƏTLƏR

**(2003–2020-ci İLLƏR)**

# III FƏSİL



# DİPLOMATİK FƏALİYYƏT

## Müasir dövrdə Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasəti

Son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar, beynəlxalq münasibətlər sistemində davam edən gərginlik, o cümlədən dövlətlərin suverenliyi və daxili işlərinə müdaxilələr, beynəlxalq hüququn norma və prinsiplərinə ikili yanaşma, həmçinin beynəlxalq münaqişələr, birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran vəziyyəti daha da kəskinləşdirib. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasəti onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib.

Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal rol oynayır, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 18 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilib. Nəticədə, Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən hadisələrə də təsir göstərmək imkanı qazanıb. Ona görə də bu gün dünyanı narahat edən və həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar.

2003-cü ildən keçən müddət ərzində Azərbaycan xalqı və dövləti, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşayıb, problemlərin böyük hissəsi öz həllini tapıb, istənilən istiqamət üzrə konkret proqramlar icra edilib.



İlham Əliyevin andiçmə mərasimi. 24 oktyabr 2003-cü il



Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsi əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir.

Qeyd etmək lazımdır ki, 2020-ci il yanvarın 22-də 14-cü dəfə Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edən Prezident İlham Əliyevin moderatorun "Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz – Moskvaya, yoxsa Pekinə?" sualına verdiyi "Bakıya" cavabı böyük önəm kəsb edir[1]. Dövlət başçısının bu cavabı Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların hər zaman uca tutulduğu siyasət yürütdüyünün bariz nümunəsidir.

Dövlət başçısı İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirib. Eyni zamanda bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan edib ki, Azərbaycan bundan sonra da nə danışıqlar prosesində, nə də bölgədə gedən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcək.

## Azərbaycanın diplomatik fəaliyyəti və İkinci Qarabağ müharibəsində qazandığı qələbədə beynəlxalq təşkilatların sənədləri əsas hüquqi baza kimi

Azərbaycan Prezidenti İlham Əliyev mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan etdi. Xüsusilə son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası,

[1] Prezident İlham Əliyevin Davos Dünya İqtisadi Forumunun "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasında iştirakı. 22.01.2020.//https://azertag.az/xeber/ VIDEO-1393666

Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı.

Bu baxımdan, son illər ərzində beynəlxalq təşkilatlar Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etdi. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün əsas amillərdən biri oldu. İlk növbədə, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş 4 qətnamə (822, 853, 874, 884) icra edilməli idi. 2021-ci il iyunun 26-da Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə bildirdi ki, Azərbaycan Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu sübut etməli idi: "Nə üçün sübut etməli idik? Çünki Ermənistan, onun xaricdəki havadarları, erməni lobbisi vəziyyətlə bağlı tam təhrif edilmiş mənzərə ortaya qoyurdular. Əfsuslar olsun ki, ermənipərəst qüvvələr, Ermənistanın xaricdəki havadarları bu saxta reallığı gerçəyə çevirməyə çalışırdılar. Bizim isə imkanlarımız çox məhdud idi. Ona görə beynəlxalq müstəvidə real həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, mötəbər beynəlxalq təşkilatların qərarlarını qəbul etdirmək bizim üçün başlıca vəzifə idi. Belə də oldu. Aparıcı beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası məcbur olub həqiqəti əks etdirən, bizim maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul etmişlər. Bu, məsələnin beynəlxalq tərəfi idi".[2]

Azərbaycanın diplomatik səyləri ilə keçən dövr ərzində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Avropa Parlamenti, NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı qətnamə və qərarlar qəbul etdi.

Azərbaycan Respublikasının AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri İlham Əliyev özünün məntiqi çıxışları, konkret təklifləri ilə bu nüfuzlu beynəlxalq təşkilatda tez bir zamanda diqqəti cəlb etdi və Azərbaycanın nüfuzunu daha da qaldırdı. O, Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi ilk dəfə bu qurumun kürsüsündən Ermənistan silahlı qüvvələri tərəfindən

[2] Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşü. 26.06.2021. //https://azertag.az/xeber/VIDEO-1817501





Azərbaycanın Dağlıq Qarabağ və daha 7 rayonunun işğal olunduğunu, işğal edilmiş ərazilərin terrorizm və narkotik maddələrin tranzitinə çevrildiyini bəyan etdi. Avropa Şurasının sənədlərində Ermənistan təcavüzkar dövlət kimi tanındı, işğalçı qoşunların dərhal Azərbaycan torpaqlarından çıxarılması tələb edildi. Söylənilən bu faktlar AŞ PA-nın sənədlərində öz əksini tapmışdır.[3]

2004-cü il aprelin 29-da AŞ PA-nın növbəti yaz sessiyasında artıq Azərbaycan Prezidenti kimi iştirak edən İlham Əliyevin Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü haqqında ətraflı çıxışı böyük rezonansa səbəb oldu və Avropa ictimaiyyətində bu münaqişə haqqında geniş təsəvvür yaratdı. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü vəziyyət haqqında geniş məlumat verən dövlət başçısı özünün qətiyyətli və prinsipial mövqeyini bir daha nümayiş etdirdi: "...Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara, köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin – Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin – Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik".[4]

Ümumiyyətlə, Azərbaycanın qanunverici orqanı olan Milli Məclisin AŞ PA-dakı nümayəndə heyəti ölkəmizin haqq səsinin dünya ictimaiyyətinə düzgün şəkildə çatdırılmasında, eləcə də Avropa Şurası ilə əməkdaş-

[3] Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin AŞ PA-nın sessiyasında çıxışı. // "Azərbaycan" q., 26 aprel 2001-ci il; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin Strasburqdan Azərbaycan televiziyasına birbaşa müsahibəsi.// "Azərbaycan" q., 27 sentyabr 2001-ci il; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin müsahibəsi. // "Azərbaycan" q., 30 yanvar 2001-ci il; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin Strasburqda Turkiyənin NTV kanalına müsahibəsi.// "Azərbaycan" q., 26 aprel 2001-ci il

[4] Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il aprelin 29-da AŞ PA-nın yaz sessiyasında çıxışı //"Azərbaycan" q., 1 may 2004-cü il

lığın genişləndirilməsi və inkişafında mühüm rol oynadı. Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyəti tərəfindən onlarla sənəd hazırlandı və şuranın rəsmi sənədləri kimi yayıldı. Belə ki "Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı haqqında", "Dağlıq Qarabağda, zəbt olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi haqqında", "Ermənistanda və Dağlıq Qarabağda olan hərbi əsirlər və girovlar haqqında", "Azərbaycanın mədəni irsinin qəsb olunması və dağıdılması", "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi", "Azərbaycanda qaçqın qadın və uşaqların humanitar vəziyyətinə dair" və s. mühüm əhəmiyyət kəsb edən sənədlər 2001–2006-cı illər ərzində, eləcə də sonrakı dövrdə Avropa Şurasının Parlament Assambleyasında qəbul edilmişdir.[5]

Azərbaycan Respublikasının Parlament nümayəndə heyətinin səyi ilə AŞ PA-da münaqişə haqqında obyektiv müsbət rəyin formalaşması nəticəsində 2005-ci ilin qış sessiyasında qəbul edilən sənəd ölkəmiz üçün mühüm əhəmiyyətə malikdir. Belə ki 2005-ci il yanvarın 25-də Devid Atkinsonun hazırladığı və AŞ PA-da müzakirəyə çıxarılan "ATƏT-in Minsk qrupu tərəfindən araşdırılan Dağlıq Qarabağ münaqişəsi" adlı məruzəsi qətnamə və tövsiyə adlanan iki hissədən ibarət idi.[6]

---

[5] Nuclear technologies and nuclear waste in the occupied territories of the Republic of Azerbaijan. PACE doc. 9444, 2002, 7 May. //http 'www.assembly. coe.int; Destruction of the historical cemeteries and creation of new permanent "cemeteries" of catastrophe by Armenians in the occupied territories of the Republic of Azerbaijan. PACE. Doc.9516.2002, 8 July; Network of terrorist organisations supported by Armenia on the occupied territories of the Republic of Azerbaijan. PACE.Doc.9489, 2002, 14 June; Hazardous impact on the clean waters of Azerbaijan through transboundary watercourses. PACE doc.9709, 2003,13 February. //http://www.assembly.coe Int; Settlement of civilian population by Armenia in the occupied territories of the Republic of Azerbaijan. PACE.Doc.10239, 2004, 29 June; The State Policy of Armenia intending to damage the genetic heritage and to erase the historical memory of the Azerbaijani people. PACE doc. 10518, 2005, 26 Aprel. //http www assembly.coe.int; Newly created terrorist organisations, saboteur centres and new occupation plans by Armenia against Azerbaijan. PACE.Doc.10953, 2005, 20 June; The State of the historically important cultural monuments of Azerbaijan in the territory of Armenia. PACE doc.10896, 2006, 12 Aprel. //http: www. assembly.coe.int; Environmental catastrophe as a result of the pollution of the Azerbaijani water sources with chemical and biological substances by Armenia. PACE doc 11062, 2006, 4 October. //http: www.assembly.coe.int; Exploitation of the fields of minerals in the Azerbaijani territories under occupation by Armenia and their devastation PACE doc. 10899, 2006; Bax: Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab. Bakı, 2015, s.137–144

[6] PACE. REC. 1416/2005. The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference.





Məruzənin 1416 saylı qətnamə hissəsində Azərbaycan ərazisinin böyük bir hissəsinin Ermənistan qoşunlarının işğalı altında olduğu, eləcə də Dağlıq Qarabağ regionuna hələ də separatçı qüvvələrin nəzarət etdiyi göstərilirdi. Bununla yanaşı, sənəddə qeyd edilirdi ki, Avropa Şurasının üzvü olan bir ölkənin başqa ölkənin ərazilərini işğal altında saxlaması həmin ölkənin öz üzərinə götürdüyü öhdəliklərə açıq-aşkar ziddir və assambleya öz yerlərindən qaçqın düşmüş insanların geri qaytarılması hüququnu bir daha təsdiqləyirdi. Eyni zamanda assambleya BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə əməl etməyə, eləcə də erməni silahlı qüvvələrinin bütün işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasına çağırırdı. Bu tələblər AŞ PA-nın 1690 saylı tövsiyəsində də öz əksini tapmışdır.[7]

Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 2005-ci il mayın 16–17-də Varşavada keçirilən 3-cü Zirvə toplantısında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında təşkilata üzv ölkələrin təhlükəsizliyi sahəsində mühüm işlərin görülməsinin vacibliyini bildirərək, Ermənistanın hərbi təcavüzünün ağır nəticələrini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Cənubi Qafqazın Avropanın ayrılmaz hissəsi olduğunu vurğulayan dövlətimizin başçısı İlham Əliyev bu regionda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişafı üçün bütün səylərin birləşdirilməsinin zəruriliyini bildirərək qeyd etdi ki, bu, azad, vahid və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı.[8]

Digər beynəlxalq təşkilat olan NATO-nun 2008-ci il aprelin 2–4-də Buxarestdə keçirilən Zirvə toplantısında regional münaqişələr xüsusi müzakirə obyekti oldu. Zirvə toplantısının Yekun Bəyannaməsinin 43-cü maddəsində ərazisində "dondurulmuş münaqişələr" olan dörd postsovet respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün dəstəklənməsi və bu münaqişələrin həmin prinsiplər əsasında həll edilməsi tövsiyə olundu.[9] Bununla yanaşı, NATO-nun 60 illiyi ilə əlaqədar 2009-cu il aprelin 3–4-də Kehl və Strasburqda keçirilmiş sonuncu Zirvə toplantısında qəbul edilmiş bəyannamənin münaqişələrlə bağlı 58-ci bəndində təşkilatın Cənubi Qafqaz və Moldova ərazilərindəki münaqişələrin mövcudluğundan ciddi narahatlıq keçirdiyi bildirilməklə yanaşı, Azərbaycanın ərazi bütövlüyünün dəstəklən-

---

[7] PACE. REC. 1416/2005. The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference.

[8] "Azərbaycan" q., 20 may 2005-ci il

[9] Bucharest Summit Declaration Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Bucharest on 3 April 2008

diyi də öz əksini tapdı.[10] Bundan əlavə, 2010-cu ilin 19–20 noyabr tarixlərində Lissabonda keçirilmiş NATO-nun Zirvə görüşünün Yekun Bəyannaməsinin 35-ci bəndində,[11] NATO-nun 2012-ci il Çikaqo sammitinin Yekun Bəyannaməsinin 47-ci maddəsində[12], həmçinin 2018-ci il iyulun 11–12-də Brüsseldə keçirilmiş NATO Zirvə görüşünün Yekun Bəyannaməsində[13] də münaqişənin dövlətlərin ərazi bütövlüyü və suverenliyi çərçivəsində həlli öz əksini tapdı.

2010-cu il mayın 20-də Avropa Parlamenti Avropa İttifaqının Cənubi Qafqaz strategiyasına dair qətnamə qəbul etdi. Qətnamədə Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması məsələlərinə xüsusi yer verilmişdi. Avropa Parlamentinin Dağlıq Qarabağa dair qəbul etdiyi qətnamədə birmənalı şəkildə göstərilirdi ki, Azərbaycan torpaqları işğal altındadır. Sənəddə Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü tanıdığı və Dağlıq Qarabağ probleminin tezliklə beynəlxalq hüquq prinsipləri çərçivəsində həll olunmasına tərəfdar olduğu öz əksini tapır.[14] 2018-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq prioritetləri" adlı mühüm sənəddə bir çox məsələlər öz əksini tapmaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət də ifadə olunur.

1993-cü ildən başlayaraq İslam Konfransı Təşkilatı (2011-ci ildən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) adlanır) Ermənistan-Azərbaycan munaqişəsi ilə əlaqədar qəbul etdiyi qətnamələrin adını dəyişdirərək, "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında" qətnamə əvəzinə, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamə adlandırmağa başladı.

---

[10] Summit meetings of Heads of State and Government Strasbourg, France / Kehl, Germany 3–4 April 2009. Strasbourg / Kehl Summit Declaration. Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Strasbourg / Kehl, 3–4 April 2009. Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab, s. 200–209

[11] Lisbon Summit Declaration. Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Lisbon. Lisbon, 2010

[12] Chicago Summit Declaration Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Chicago on 20 May 2012

[13] Brussels Summit Declaration. Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Brussels. 11–12 July 2018

[14] European Parliament resolution of 20 May 2010 on the need for an EU strategy for the South Caucasus (2009/2216(INI))





İƏT-in ali orqanı olan və təşkilatın dövlət və hökumət başçılarının iştirakı ilə 2013-cü il fevralın 6–7-də Misirin paytaxtı Qahirə şəhərində keçirilən 12-ci Zirvə toplantısının Yekun Bəyannaməsinin 61-ci maddəsində deyilirdi ki, İƏT üzvü olan dövlətlər Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü faktını bir daha təsdiq edir və Ermənistanı qoşunlarını Azərbaycanın işğal edilmiş bütün ərazilərindən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinə əsasən çıxarmağa, munaqişənin tezliklə və sülh yolu ilə həll edilməsinə çağırırdı.[15] Keçən dövr ərzində İƏT üzvü olan dovlətlər bütün səviyyələrdə keçirilən müxtəlif toplantılarında qəbul etdikləri sənədlərdə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzünü qətiyyətlə pisləmiş və işğalçılıq siyasətinə son qoyulmasını bildirmişdir.[16]

Ümumiyyətlə, İKT Zirvə toplantısının Yekun Bəyannamələrində, İKT xarici işlər nazirlərinin Zirvə konfransında, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının sessiyalarında qəbul edilən sənədlərdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzkarlığı qətiy-

---

[15] CAIRO FINAL COMMUNIQUE OF THE TWELFTH SESSION OF THE ISLAMIC SUMMIT CONFERENCE CAIRO – ARAB REPUBLIC OF EGYPT 6–7 FEBRUARY, 2013. // https://www.oic-oci.org/docdown/?docID=19&refID=7

[16] FINAL COMMUNIQUE OF THE 13TH ISLAMIC SUMMIT OF THE HEADS OF STATE/ GOVERNMENT OF THE OIC MEMBER STATES ISTANBUL, REPUBLIC OF TURKEY 15. APRIL 2016. // https://www.oic-oci.org/docdown/?docID=14&refID=5; Resolution No. 12/46-POL On The Aggression of the Republic of Armenia against the Republic of Azerbaijan. – The Forty – Sixth Session of the Council of Foreign Ministers, (Session: 50 Years Of Islamic Cooperation: Roadmap For Prosperity And Development), held in Abu Dhabi, United Arab Emirates (1–2 March 2019); Resolution No. 4/46-E ON ECONOMIC ASSISTANCE TO OIC MEMBER STATES AND MUSLIM COMMUNITIES IN DISPUTED/OCCUPIED TERRITORIES AND NON-OIC COUNTRIES WITHIN THE OIC MANDATE. The Council of Foreign Ministers in its 46th session (Session of 50 Years of Islamic Cooperation: Roadmap for Prosperity and Development) held in Abu Dhabi, State of the United Arab Emirates, (1–2 March 2019); Resolution NO. 3/46-C ON PROTECTION OF ISLAMIC HOLY PLACES The Forty Sixth Session of the Council of the Foreign Ministers of the Organization of Islamic Cooperation (Session of Fifty Years of Islamic Cooperation: Roadmap for Prosperity and Development, held in Abu Dhabi, the United Arab Emirates (1–2 March 2019); RESOLUTION NO. 7/46-C ON AFFILIATED INSTITUTIONS The Forty Sixth Session of the Council of the Foreign Ministers of the Organization of Islamic Cooperation (Session of Fifty Years of Islamic Cooperation: Roadmap for Prosperity and Development), held in Abu Dhabi, the United Arab Emirates (1–2 March 2019); FINAL COMMUNIQUE OF THE 14TH ISLAMIC SUMMIT CONFERENCE (SESSION OF HAND IN HAND TOWARD THE FUTURE) MAKKAH AL-MUKARRAMAH, KINGDOM OF SAUDI ARABIA 31 MAY 2019.//https://mfa.gov.az/files/shares/Documents%20of%20international%20organizations.pdf

yətlə pislənilirdi. Onu da qeyd etmək vacibdir ki, İKT Ermənistanı birmənalı və qəti şəkildə təcavüzkar adlandıran yeganə beynəlxalq təşkilatdır.[17] Qoşulmama Hərəkatının qəbul etdiyi sənədlərdə də Ermənistanın Azərbaycana təcavüzü pislənilir, güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyi vurğulanır və işğalçılıq siyasətinə son qoyulması üçün münaqişənin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında həllinin vacibliyi bildirilirdi.[18]

Son illər ərzində beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın haqlı mövqeyini dəstəkləyən sənədlərin qəbul edilməsi dövlət başçısı İlham Əliyevin yürütdüyü ölkəmizin milli maraqlarına söykənən xarici siyasətinin nəticəsi idi. Ümumiyyətlə, Prezident İlham Əliyevin prinsipial mövqeyi və diplomatik fəaliyyəti sayəsində Azərbaycanın İkinci Qarabağ müharibəsində beynəlxalq təşkilatlarla imzaladığı sənədlər əsas hüquqi baza kimi tarixi Qələbəni şərtləndirən amillərdən biri oldu.

---

[17] OIC CONDEMNS REPEATED PROVOCATIONS AND AGGRESION BY ARMENIAN MILITARY FORCES AGAINST AZERBAIJAN. 28.09.2021. // https://www.oic-oci.org/topic/?t_id=23879&ref=14184&lan=enOIC General Secretariat Condemns Armenia's Attack On The Tovuz Region In Azerbaijan. 14.07.2020.// https://www.oic-oci.org/topic/?t_id=23655&-ref=14098&lan=enOIC Rejects the Holding of Elections in the Occupied Nagorno-Karabakh. 31.03.2020.// https://www.oic-oci.org/topic/?t_id=23303&ref=13971&lan=en; "OIC Adopts A Contemporary Declaration on Human Rights", Al-Othaimeen. 27.02.2020.// https://www.oic-oci.org/topic/?t_id=23244&ref=13948&lan=en; OIC General Secretariat Commemorates Khojaly Massacre. 25.02.2020. // https://www.oic-oci.org/topic/?t_id=23235&-ref=13946&lan=en; OIC Secretary General Expresses Deep Concern over the Recent Statement of Armenian Prime Minister on Nagorno-Karabakh. 19.09.2019. //https://www.oic-oci.org/topic/?t_id=22154&ref=12928&lan=en; OIC Secretary General Heads a High-Level Delegation to Participate in the UN General Assembly. 21.09.2019. // https://www.oic-oci.org/topic/?t_id=22153&ref=12926&lan=en; OIC Contact Groups on Muslims in Europe, Peace and Dialogue, Azerbaijan and Sierra Leone convene in New York. 24.09.2019. // https://www.oic-oci.org/topic/?t_id=22163&ref=12933&lan=en; //https://www.oic-oci.org/search/?x_key=Azerbaijan&x_do=1&lan=en&x_where=news

[18] 17th Summit of Heads of State and Government of the Non-Aligned Movement Island of Margarita, Bolivarian Republic of Venezuela 17–18 September 2016. FİNAL DOCUMENT. Margarita, B.R. Venezuela,17–18 September 2016; 18th Summit of Heads of State and Government of the Non-Aligned Movement. Baku, the Republic of Azerbaijan 25–26 October 2019. FİNAL DOCUMENT. Baku, Azerbaijan, 25–26 October 2019; bax: DOCUMENTS OF INTERNATIONAL ORGANIZATIONS ON THE ARMENIA-AZERBAIJAN CONFLICT. // https://www.namazerbaijan.org/pdf/BFOD.pdf





## Azərbaycan-BMT əlaqələrinin genişlənməsi çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinin müzakirəsi

Müstəqillik əldə etdikdən sonra Azərbaycan BMT ilə əlaqələrini inkişaf etdirməklə yanaşı, bu təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə töhfə vermək üçün islahat təkliflərinin irəli sürülməsi və müzakirəsi prosesində fəal iştirak edir. 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu proses daha da genişləndi. Belə ki Azərbaycan Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin sessiyalarında və digər yüksək səviyyədə keçirilən müxtəlif iclaslarda və çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi.

XXI əsrin başlanğıcı dünyanın siyasi həyatında, beynəlxalq münasibətlərin nizama salınmasında, müasir dövrdəki ümumbəşəri və qlobal problemlərin həllində, Qərbə inteqrasiya kursu götürmüş ölkələrin demokratikləşməsində dövlətlərarası təşkilatların rolunun kəskin şəkildə artması ilə səciyyəvidir. Azərbaycan Respublikası beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlərini inkişaf etdirmək və XXI əsrdə qlobal təhlükələrə operativ cavab vermək üçün təkliflər irəli sürmüş və bu işə öz töhfəsini verməkdədir.

Bu baxımdan, 2003-cü ilin sentyabrında BMT Baş Məclisinin 58-ci sessiyasında iştirak edən Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev öz çıxışında beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlər arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə, BMT TŞ-nin şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməsini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab vermədiyini vurğulamış və bununla bağlı təşkilat daxilində islahatların vacib məsələyə çevrildiyini bildirmişdir. Azərbaycanın hökumət başçısının fikrincə, BMT Təhlükəsizlik Şurasında "həm bugünkü, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalıdır".[19]

Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etdi. Belə ki Azərbaycan beynəlxalq aləmdə BMT-nin rolunun artırılması və mövcud problemlərin həllində daha təsirli tədbirlərin görülməsinə nail olmaq üçün əlavə addımların atılması zərurətini BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu

---

[19] Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. II cild. Bakı, 2012, s. 276–282

sessiyasında yenidən gündəliyə gətirdi. Sessiyada çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etdi və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ən zəruri məsələ kimi irəli sürdü. Eyni zamanda Azərbaycanın dövlət başçısı bildirdi: "Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verilməlidir".[20]

Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salındı. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyasının 86-cı plenar iclaslarında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edildi.[21]

Həmin sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması, bu ərazilərdə yanğınların törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad edilməklə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Bununla yanaşı, qətnamələrdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyünə hörmət ifadə olunur, eləcə də öz torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququ bir daha təsdiqlənirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin BMT üçün əsas olmasını vurğulayaraq, onların 20 ildən artıq bir müddət keçməsinə baxmayaraq, hələ də yerinə yetirilməməsini ədalətsizlik və ikili standartlar adlandırmışdır. Bu vəziyyətin dözülməz olduğunu vurğulayan Azərbaycan Prezidenti dövlətimizin prinsipial mövqeyini bir daha bəyan etmişdir: "Biz yaranmış bu vəziyyətlə barışa bilmərik. Status-kvo bizi qane etmir. Status-kvo dəyişməlidir və ədalətli dəyişməlidir. Erməni işğalçı qüvvələri bütün torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır".[22]

Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi isə mühüm tarixi hadisə idi. Ölkəmiz 2011-ci il oktyabrın 24-də 2012–2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə inamlı qələbə qazanmışdır. Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu kimi qəbul edilməlidir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü iki il – 2012-ci il yanvarın 1-dən başlayaraq 2013-cü il dekabrın 31-nə qədər davam etmişdir. Bu da simvolik bir haldır ki, Azərbaycan bu tarixi qələbəni BMT-nin təsis edildiyi gün – oktyabrın 24-də əldə etmişdir. Bu uğurun müstəqilliyin bərpasının 20-ci ildönümündə əldə edilməsi təsadüfi deyildir. Belə ki Azərbaycan ötən 20 il ərzində stabil inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki əməlləri ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimiz dövründə – 20 il ərzində belə böyük uğurun əldə edilməsini tarixi nailiyyət kimi qiymətləndirərək demişdir: "Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib. Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir".[23]

---

[20] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 59-cu sessiyasında çıxışı, 24 sentyabr 2004-cü il. // "Azərbaycan" q., 26 sentyabr 2004

[21] Resolution adopted by the General Assembly on 7 September 2006. 60/285. The situation in the occupied territories of Azerbaijan. 98th plenary meeting, 7 September 2006; Resolution adopted by the General Assembly on 14 March 2008. 62/243.The situation in the occupied territories of Azerbaijan. 86th plenary meeting, 14 March 2008





[22] Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2011-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında giriş nitqi // "Azərbaycan" q., 13 yanvar 2011

[23] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi munasibəti ilə Bəyanatı. // "Azərbaycan" q., 25 oktyabr 2011

Əlbəttə ki, 155 ölkənin ölkəmizin namizədliyinin lehinə səs verməsi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun, ərazi bütövlüyü və sərhəd toxunulmazlığının bir daha təsdiqlənməsi demək idi. Digər tərəfdən, son illərdə Azərbaycan Prezidentinin dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsində iştirakı, ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas qüvvələrindən birinə çevrilməsi, həmçinin beynəlxalq münasibətlər sisteminin mühüm məsələlərinin müzakirəsi prosesində ölkəmizin artan fəallığı danılmaz faktdır.

## Terrorizmi dəstəkləyən dövlət kimi Ermənistanın işğalçılıq siyasətinin dünyaya çatdırılması

Dövlət başçısı İlham Əliyev Qarabağ həqiqətlərinin dünyaya çatdırılması məsələsinə diqqəti bir daha cəlb edərək 2016-cı il iyunun 3-də Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayındakı çıxışında demişdir ki, Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli ölkə kimi tanınır və Ermənistandan başqa heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Məlumdur ki, Ermənistanın diaspor təşkilatları artıq onilliklər ərzində formalaşıb və onlar dünyanın aparıcı media qurumlarına müxtəlif yollarla müdaxilə ediblər, eləcə də orada təmsil olunurlar.

Prezident İlham Əliyev bildirib ki, bu istiqamətdə işimizi daha da təkmilləşdirməli, ilk növbədə, xarici media ilə iş aparılmalıdır. Çalışmalıyıq ki, azərbaycanlı jurnalistlər təbəqəsi müxtəlif media orqanlarında təmsil olunsunlar: "Onlar öz Vətənini müdafiə edəcəklər. Onlar həqiqətləri çatdıracaqlar. Çünki XXI əsr informasiya əsridir. Bu gün informasiya müharibələri bir alət, bir silah kimi artıq mövcuddur". Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycan həqiqətlərini müxtəlif ölkələrə çatdırmaq üçün lazımi tədbirlərin görülməsi haqqında müzakirələr aparılmalı, proqram tərtib edilməlidir: "Əgər Azərbaycan dövləti bu işdə hər hansı bir formada öz dəstəyini verə bilərsə, biz buna hazırıq. Əsas odur ki, biz bunu planlı şəkildə icra edək. Bu, Azərbaycanın diaspor təşkilatları olan bütün ölkələrdə, bəlkə də, birinci məsələ olmalıdır. Azərbaycan həqiqətləri haqqında, əlbəttə ki, dünya ictimaiyyətinə geniş informasiya verilməlidir. Biz dövlət olaraq bunu etməyə çalışırıq. Ancaq diaspor təşkilatlarından da çox şey asılıdır. Xüsusilə biz





bunu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı informasiya təminatında görürük".[24] Eyni zamanda Prezident bildirib ki, diaspor təşkilatları ilə səfirliklər arasında möhkəm əlaqələr olmalı və bu əlaqələr güclənməli, o cümlədən xarici ölkələrdə dövlət, hökumət, qanunvericilik orqanlarında Azərbaycan diaspor nümayəndələrinin sayı daha da çox olmalıdır.

Bununla yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Ermənistanın yürütdüyü siyasət, tutduğu mövqe tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmirdi. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, oktyabr ayının 25–26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı tutarlı faktlarla sübut etdi. 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı panel müzakirələr zamanı, eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın Baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

## Prezident İlham Əliyevin qətiyyətli mövqeyi – "Valday"da dünyaya bəyan edilən "Qarabağ Azərbaycandır və nida işarəsi"

Azərbaycan Prezidenti 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun Soçi şəhərində keçirilən XVI illik iclasının plenar sessiyasında Dağlıq Qarabağın və Azərbaycanın digər 7 rayonunun erməni işğalı altında olduğunu diqqətə çatdıraraq Ermənistanın əsassız ərazi iddialarını tarixi faktlara əsaslanaraq ifşa etdi. Bununla yanaşı, dövlət başçısı dünyaya bəyan etdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi

[24] Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimində çıxışı. 03.06.2016. // https://azertag.az/xeber/ VIDEO -957111

Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır. Eyni zamanda Prezident İlham Əliyev bildirdi ki, əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. İyirmi yeddi ildən artıqdır ki, təcavüzkar Ermənistan aparılan danışıqlar prosesində həmişə qeyri-konstruktiv mövqedən çıxış edərək hər dəfə bu prosesi süni surətdə uzatmağa çalışır. Ermənistan rəhbərliyi tərəfindən tez-tez səsləndirilən bəzi fikirlər, xüsusilə ermənisayaq "Dağlıq Qarabağ xalqı" ifadəsi yoxdur və yanlışdır. "Dağlıq Qarabağ xalqı" məfhumu mövcud deyil. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi: "Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir".[25]

Məlumdur ki, "Valday" klubu müasir dövrün aktual məsələlərinin müzakirə olunduğu platforma kimi yüksək dəyərləndirilir və bu gün müasir dünya nizamının aktual məsələlərinin müzakirəsi üçün çox mühüm beynəlxalq məkandır. Bu baxımdan, Prezident İlham Əliyev Ermənistanın təcavüzkar siyasətini tarixi və hüquqi əsaslarla ifşa edərək diqqətə çatdırdı ki, dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb və Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağın tarixi, əzəli Azərbaycan torpağı olduğunu bildirən dövlət başçısı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün bu gün də davam etdiyini bildirərək dünyaya bəyan etdi: "Qarabağ Azərbaycandır və nida işarəsi".[26] Prezident İlham Əliyevin münaqişənin həllinə dair, hər zaman olduğu kimi, qətiyyətli və prinsipial mövqeyi təkcə təcavüzkar Ermənistana deyil, eləcə də dünyaya bir mesaj oldu.

[25] Azərbaycan Prezidenti İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı. 03.10.2019.// https://azertag.az/xeber-VIDEO-1338718

[26] Yenə orada






"Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında. Soçi şəhəri. 3 oktyabr 2019-cu il

## Ermənistanın dövlət terrorizmi siyasətinin və faşist ideologiyasının faktlarla təsdiqi

2019-cu il oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edən Prezident İlham Əliyev işğalçı Ermənistanın faşist ideologiyasını dövlət siyasətinə çevirdiyini diqqətə çatdıraraq bir daha dünyaya bəyan etdi: "Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib".[27]

Dövlət başçısı vurğuladı ki, 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Həmin məruzədə deyilir ki, Ermənistanın keçmiş hakim Respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atmışdır.[28]

Prezident İlham Əliyev tutarlı faktlara əsaslanaraq təcavüzkar Ermənistanın faşist ideologiyasını ifşa edərək bildirdi ki, Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik "1941–1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı VI cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqalədə deyilir: "Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar

[27] Azərbaycan Prezidenti İlham Əliyevin Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışı. 11.10.2019.// https://azertag.az/xeber/ VIDEO-1341121

[28] Yenə orada






MDB Dövlət Başçıları Şurasının iclası. Aşqabad şəhəri. 11 oktyabr 2019-cu il

edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları tərəfindən 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilib. Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur".[29]

Bununla yanaşı, Prezident İlham Əliyev 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəlin qoyulduğunu, Ermənistanın yeni hakimiyyətinin bu heykəli götürmədiyini bildirərək diqqətə çatdırdı ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur. Bütün bunlar onu söyləməyə əsas verir ki, Azərbaycan Prezidenti İlham Əliyev "Valday" beynəlxalq toplantısında, eləcə də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışı zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən və tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirməyən bəzi fikirlərə və əsassız iddialara tam aydın və konkret şəkildə cavab verdi. Bununla da dövlət başçısı Ermənistanın işğalçılıq siyasəti və faşist ideologiyası yürütdüyünü bir daha dünyaya bəyan

[29] Yenə orada

edərək Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu diqqətə çatdırdı və ölkəmizin milli maraqlarının hər şeydən üstün tutulduğunu bildirdi.

Ümumilikdə, Azərbaycan Prezidenti Ermənistan Baş nazirinin əsassız çıxışlarına əsl "nida" işarəsi qoydu və dünya birliyinin diqqətinə çatdırdı ki, Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, bu işğalçı ölkənin rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan hüquqazidd addımlarını pisləməli, onun qarşısını almalıdır.

## Qoşulmama Hərəkatının Bakı Zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünün və beynəlxalq sərhədlərinin toxunulmazlığının təsdiqi

2019-cu il oktyabrın 25–26-da Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının "Bandunq prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, ümumilikdə isə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak ediblər.[30]

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Zirvə görüşündə bildirdi ki, ölkəmiz Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Xüsusilə bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür. Dövlət başçısı diqqətə çatdırdı ki, BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir.[31]

[30] Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşü. 25.10.2019. //https://azertag.az/xeber/ VIDEO-1347207

[31] Yenə orada






Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşü. Bakı, 25 oktyabr 2019-cu il

Bu baxımdan, Zirvə görüşü Azərbaycanın münaqişə ilə bağlı ədalətli mövqeyini daha da gücləndirdi. Sonda qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirir və onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğulayırlar.[32]

Bununla yanaşı, yekun sənədə ilk dəfə olaraq olduqca mühüm yeni bənd daxil edilmişdir. Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayır və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticə-

[32] Summit of Heads of State and Government of the Non-Aligned Movement. Baku, the Republic of Azerbaijan 25–26 October 2019. FİNAL DOCUMENT. Baku, Azerbaijan, 25–26 October 2019; DOCUMENTS OF INTERNATIONAL ORGANIZATIONS ON THE ARMENIA-AZERBAIJAN CONFLICT. // https://www.namazerbaijan.org/pdf/BFOD.pdf

sində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın növbəti dəfə, 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması demək idi.[33]

Xüsusilə yekun sənəddə dövlət və hökumət başçıları nasist hərəkatının, neonasizmin və Vaffen SS təşkilatının keçmiş üzvlərinə abidə və heykəllərin ucaldılmasını, nasist keçmişi, nasist hərəkatı və neonasizmin qəhrəmanlaşdırılması naminə ictimai nümayişlərin keçirilməsini, eləcə də anti-Hitler koalisiyasına qarşı döyüşmüş və Nasist hərəkatının iştirakçıları ilə iş birliyi etmiş şəxslərin milli azadlıq hərəkatının iştirakçıları kimi qələmə verilməsi də daxil olmaqla, hər hansı bir formada qəhrəmanlaşdırılmasını qınaq obyektinə çevirdilər. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət başçıları Şurasının Aşqabadda keçirilmiş sammitində Ermənistanda Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı səsləndirdiyi fikirlərə beynəlxalq səviyyədə verilən dəstəyin bariz göstəricisi idi. Həmçinin yekunda qəbul olunmuş Bakı Bəyannaməsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi səylərinə ciddi dəstək ifadə olunmuşdur".[34]

Bu baxımdan, Ermənistan və onun havadarlarının bütün səylərinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında böyük diplomatik uğura imza atıldı, 120 dövlətin təmsil olunduğu Zirvə görüşünün nəticəsində Ermənistanın işğalçı dövlət kimi ifşa olunmasına nail olundu. Bu, İslam Əməkdaşlıq Təşkilatından sonra ikinci beynəlxalq təşkilat tərəfindən Ermənistanın işğalçı dövlət kimi rəsmən tanınması idi.

Ümumilikdə, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019–2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik nailiyyəti oldu.

[33] Qoşulmama Hərəkatının Bakı Zirvə görüşündə Azərbaycan mühüm diplomatik uğurlara imza atdı. 28.10.2019. // https://azertag.az/xeber/1348357

[34] 18th Summit of Heads of State and Government of the Non-Aligned Movement. Baku, the Republic of Azerbaijan 25–26 October 2019. FİNAL DOCUMENT. Baku, Azerbaijan, 25–26 October 2019; DOCUMENTS OF INTERNATIONAL ORGANIZATIONS ON THE ARMENIA-AZERBAIJAN CONFLICT. // https://www.namazerbaijan.org/pdf/BFOD.pdf





## Azərbaycan Prezidentinin Münhendə Ermənistanın yalan üzərində qurulmuş təbliğatını tarix və beynəlxalq hüquq baxımından ifşa etməsi

2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın Baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.[35]

Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı panel müzakirələri zamanı Azərbaycan Prezidenti İlham Əliyev tarixi faktlara əsaslanaraq əsl həqiqəti Ermənistan Baş nazirinin və dünya ictimaiyyətinin bir daha diqqətinə çatdırdı. Dövlət başçısı bildirdi ki, Qarabağın dağlıq hissəsinə erməni əhalisinin köçürülməsi XIX əsrin 20-ci illərində, xüsusilə Cənubi Qafqazın çar Rusiyası tərəfindən işğal edilməsindən sonra baş vermişdir.

Bununla yanaşı, Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən regionda mövcud olan geosiyasi vəziyyət 1918-ci il mayın 29-da İrəvan şəhərinin ermənilərə siyasi mərkəz kimi verilməsinə səbəb olmuşdur. Beləliklə, 1918-ci ildə Azərbaycan torpaqlarında – keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaradılmışdır. Qarabağ 1918–1920-ci illərdə – Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə quberniyasının, 1921–1991-ci illərdə isə Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olmuşdur.[36]

Ermənistan rəhbərliyi tarixi faktları ermənisayaq təfsir edərək bildirir ki, Azərbaycan Sovet İttifaqı dağıldıqdan sonra müstəqillik əldə etdiyi kimi, eyni yolla Qarabağ həm Sovet İttifaqından, həm də Sovet Azərbaycanından ayrılaraq müstəqillik qazanıb. Bundan əlavə, Ermənistanın Baş naziri tarixdən xəbərsiz və əsassız olaraq bildirib ki, Qafqaz Bürosu Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olmasına qərar vermişdir.

[35] Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr. 16.02.2020. // https://azertag.az/xeber/ VIDEO- 1415483

[36] Prezident İlham Əliyev növbəti dəfə Ermənistanın Baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi. 16.02.2020. // https://azertag.az/xeber/1415887

Azərbaycan Prezidenti İlham Əliyev tutarlı faktlarla bu saxta tezisi də ifşa etdi. Həqiqətən də, Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyərək Ermənistanda sovet hakimiyyətinin elan edilməsindən dərhal sonra ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atdılar. Bununla da iki sovet respublikası arasında ixtilaflar artdığından 1921-ci il iyulun 4–5-də RK(b)P MK-nın Qafqaz bürosunun plenumu məsələni müzakirə etməli oldu. İyulun 5-də plenumun səhər iclasında Qarabağ məsələsinə yenidən baxıldı. Plenum RK(b)P MK-nın rəyini nəzərə alaraq yeni qərar qəbul etdi: "Müsəlmanlarla ermənilər arasında milli barışığın zəruriliyini, yuxarı və aşağı Qarabağın iqtisadi əlaqələrini və daim Azərbaycanla sıx əlaqədə olmasını nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın, muxtar vilayətin tərkibinə daxil olan Şuşa şəhəri inzibati mərkəz olmaqla, ona geniş vilayət muxtariyyəti verilsin".[37]

Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistan tarixçilərinin və rəhbərliyinin dediyi kimi, əgər Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibində olsaydı, qərarda "Azərbaycan SSR-in hüdudlarında saxlanılsın" əvəzinə, "Azərbaycan SSR-ə verilsin" yazılardı. Nəticədə, Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verilmiş və bu hadisə Ermənistanın Dağlıq Qarabağa dair gələcək ərazi iddiaları üçün bir vasitə olmuşdur.

Bununla yanaşı, Prezident İlham Əliyev vurğuladı ki, 1980-ci illərin sonunda Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, 300 min azərbaycanlı Ermənistan ərazisindən deportasiya olundu, sonra isə XX əsrin sonunda məhz Ermənistan beynəlxalq hüququn fundamental prinsiplərini, xüsusilə də güc tətbiq etməmək prinsipini pozaraq Azərbaycan ərazilərini işğal etdi, Xocalı soyqırımını törətdi, nəticədə isə tarixən Dağlıq Qarabağda, həmçinin ətraf yeddi rayonda yaşayan azərbaycanlılar öz doğma yurdlarından məcburən köçkün düşdülər.[38]

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, beynəlxalq hüquq məsələsinə gəlincə, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib, amma bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib və ona görə də sülh danışıqları nəticəsində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün saxlanılmasını təmin etməlidir. Dövlət başçısı həmçinin bildirdi ki, Ermənistan tərəfinə çox aydın şəkildə izah etməlidirlər ki, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ müstəqil ölkə deyil! Heç kim bu qeyri-qanuni qurumu tanımır və Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməklə bağlı beynəlxalq təzyiq daha çox Ermənistana göstərilməlidir: "Təkcə Dağlıq Qarabağ işğal edilməyib. Həmçinin onun ətrafındakı 7 rayon da işğal olunub. Ermənistan bunu gizlətmək istəyir. Bu, həmin 7 rayondur ki, ermənilər heç vaxt orada yaşamayıb".[39]

Bununla yanaşı, Prezident İlham Əliyev qeyd edib ki, Dağlıq Qarabağ və qədim şəhərimiz olan Şuşadan, həmçinin ətraf 7 rayondan bütün azərbaycanlılar etnik təmizləməyə məruz qalmışlar. Eyni zamanda ermənilər bizim xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədiblər, məscidlərimizi, məzarlarımızı dağıdıblar, şəhərlərimizin adlarını dəyişdiriblər: "Onlar hazırda bütün işğal edilmiş ərazilərdən ibarət olan Dağlıq Qarabağın xəritəsini çap ediblər. Sonra onlar deyirlər ki, biz bu reallıqlarla razılaşmalıyıq. Ona görə də beynəlxalq ictimaiyyət izah etməlidir ki, Dağlıq Qarabağ Azərbaycandır. İkincisi, təcavüzkara ciddi təzyiq göstərməlidir ki, dayansın".[40]

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları əsassızdır, tarixi faktların və beynəlxalq hüquq prinsiplərinin ermənisayaq təfsirindən başqa bir şey deyil. Çünki Dağlıq Qarabağ bölgəsinin erməniləri, digər ölkələrdə yaşayan ermənilər kimi, Azərbaycanda yaşayan milli azlıqlardan biridir. Eyni zamanda xalqların öz müqəddəratını təyinetmə məsələsi beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipini pozmamalı, bu prinsiplə ziddiyyət təşkil etməməlidir. Bununla yanaşı, əgər bütün xarici ölkələrdə yaşayan erməni icmaları yaşadıqları həmin ölkələrin ərazilərində "öz müqəddəratını təyin etmək" adı ilə yeni süni dövlətlər yaratsalar, bu halda dünyada, o cümlədən Fransada, ABŞ-da, Rusiyada, Gürcüstanda, Azərbaycanda, Livanda, Argentinada və erməni icmaları yaşayan

[37] К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР. 1918–1925: Документы и материалы. Баку, 1989, с. 92

[38] Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr. 16.02.2020. // https://azertag.az/xeber/ VIDEO-1415483

[39] Yenə orada

[40] Yenə orada

digər ölkələrdə yüzlərlə yeni qondarma erməni "dövlətləri" yaradıla bilər?! Bu baxımdan, ermənilərin öz müqəddəratını təyinetmə hüququnu bəhanə etməsi beynəlxalq hüquq normalarının, xüsusilə dövlətlərin ərazi bütövlüyü, zor işlətməmək və zor işlətməklə hədələməmək, sərhədlərin toxunulmazlığı kimi ATƏT-in Helsinki prinsiplərinin kobud şəkildə pozulması deməkdir.

Prezident İlham Əliyev Ermənistanın Baş nazirinin diqqətinə onu da çatdırdı ki, erməni xalqı öz müqəddəratını artıq təyin edib, onların erməni dövləti var: "Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!"[41]

## Şərq Tərəfdaşlığı ölkələrinin Sammitində Ermənistanın dövlət terrorizmi siyasətinin dünyaya çatdırılması

Prezident İlham Əliyev 2020-ci il iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində çıxışı zamanı bildirdi ki, danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın Baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.[42] Azərbaycan Prezidenti Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın Baş nazirini faktlarla növbəti dəfə ifşa etdi. Prezident İlham Əliyev çıxışında erməni terrorçusu Karapetyanla bağlı məsələyə toxundu. Dövlət başçısının haqqında danışdığı hadisə 1983-cü il iyulun 15-də Parisin Orli hava limanında baş vermişdi. ASALA terror təşkilatının üzvü Varujan Karapetyanın başçılığı altında həyata keçirilən, Türk Hava Yollarının kassası qarşısında törədilən qanlı terror aktında həlak olan 8 nəfərdən 2-si Türkiyə, 4-ü Fransa, 1-i ABŞ, 1-i isə İsveç vətəndaşı idi. Terror zamanı 55 nəfər də yaralanmışdı. Karapetyan istintaqa ifadəsində hadisəni törətdiyini boynuna alaraq, əslində, əsas məqsədin bombanı təyyarənin içində partlatmaq olduğunu etiraf etmiş, törətdiyi cinayətə görə Fransa məhkəməsi onu ömürlük həbs etsə də, 2001-ci ildə Karapetyan Ermənistana ekstradisiya olunmuşdur. Qəhrəman kimi qarşılanan terrorçu Ermənistanın ovaxtkı Baş naziri Andranik Marqaryan tərəfindən qəbul edilmiş, mənzil və işlə təmin olunmuşdur. Son vaxtlaradək Ermənistanda sərnişindaşıma şirkətlərindən birinin sahibi olan terrorçu V.Karapetyan Dilicanda yaşamışdır.[43] Bu, bir daha onu göstərir ki, qanlı terror törədən beynəlxalq terrorçunun Ermənistanda qəhrəmanlaşdırılması adi haldır. Bu, Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini göstərən çoxsaylı faktlardan biridir.

Ermənistan Baş naziri çıxışında Münhen Təhlükəsizlik Konfransında olduğu kimi, növbəti dəfə daha bir yalan uydurdu. Yəni o, Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia etdi, lakin Ermənistanın Baş naziri beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında növbəti dəfə çətin vəziyyətə düşdü, özünü gülünc vəziyyətə saldı.

Azərbaycan Prezidentinin son vaxtlarda səsləndirdiyi fikirləri bir daha xatırlamaq lazımdır: "Ermənistanda faşistlərə abidələr ucaldılır, bugünkü Ermənistan rəhbərliyi faşistlərə xidmət etmiş adamı qəhrəman kimi təqdim edir. Bu nəyi göstərir?! Onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu, faşist mahiyyəti dəyişməz olaraq qalır və bunu hər kəs bilməlidir. Bütün dünya bilməlidir".[44]

## Vətən müharibəsi ərəfəsində BMT Baş Assambleyasında Ermənistanın işğalçılıq siyasəti və hüquqazidd əməlləri haqqında dünya ictimaiyyətinin məlumatlandırılması

"Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini dəfələrlə bütün dünyaya bəyan edən dövlət başçısı İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi

[41] Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr. 16.02.2020. // https://azertag.az/xeber/ VIDEO 1415483

[42] Azərbaycan Prezidenti İlham Əliyevin Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində çıxışı. 19.06.2020. // https://azertag.az/xeber/ VIDEO-1516471

[43] Prezident İlham Əliyev növbəti dəfə mühüm beynəlxalq platformada Ermənistanın işğalçılıq siyasətini ifşa etdi. 19.06.2020. // https://azertag.az/xeber/ VIDEO-1516621

[44] Azərbaycan Prezidenti İlham Əliyevin Şərq Tərəfdaşlığı ölkələrinin Sammitində videokonfrans formatında çıxışı. 19.06.2020. // https://azertag.az/xeber/ VIDEO-1516471

həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirib. Eyni zamanda bu mübarizədə tarixi ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan edib ki, Azərbaycan bundan sonra da öz prinsipial mövqeyindən dönməyəcək.

Bu fikirləri hər zaman beynəlxalq kürsülərdən bəyan edən dövlət başçısı İlham Əliyev 2020-ci il sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclası zamanı Qoşulmama Hərəkatının sədri kimi videokonfrans formatında çıxışında bir daha dünya ictimaiyyətini Ermənistanın işğalçılıq siyasəti, eləcə də son vaxtlar əsassız iddiaları və beynəlxalq hüquqazidd addımları haqqında xəbərdar edərək bildirib ki, Ermənistan BMT qarşısında öz öhdəliklərini 30 ilə yaxındır kobud şəkildə pozmuş, hərbi güc tətbiq edərək Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etmişdir.[45]

Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlərdə 1993-cü ildə Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. BMT Təhlükəsizlik Şurasının sənədlərində işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması tələb olunsa da, Ermənistanın açıq-aşkar işğalçılıq mövqeyi tutması nəticəsində bu qətnamələrin yerinə yetirilmədiyi dövlət başçısı tərəfindən bütün mühüm beynəlxalq platformalarda dünya ictimaiyyətinin diqqətinə dəfələrlə çatdırılıb.

Dövlət başçısı bir daha deyib ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Amma təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamağa davam edir. Ermənistan işğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasəti həyata keçirir. Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv edir.

[45] Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli iclasda videokonfrans formatında çıxışı. 21.09.2020.
// https://azertag.az/xeber/ VIDEO-1591023





Azərbaycan Prezidenti bildirdi ki, Ermənistanın Baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozub və "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbə vurub. Bununla yanaşı, Ermənistanın Baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllü dəstələrin yaradılmasını elan edib. Dövlət başçısı bildirib ki, nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Təxribatlarını davam etdirən Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını numayiş etdirdiyini diqqətə çatdıran dövlət başçısı BMT-ni və bütövlükdə beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə çağırış edərək deyib ki, gərginliyin artırılmasına görə məsuliyyət birbaşa Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Bunun ardınca Prezident İlham Əliyev 2020-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videokonfrans formatında çıxışı zamanı bir daha dünya birliyinin diqqətinə Ermənistanın təcavüzkar siyasəti haqqında məlumatları geniş şəkildə çatdırıb. Dövlət başçısı bildirib ki, Ermənistan Beyrutdakı partlayışdan sonra vəziyyətdən sui-istifadə edərək Azərbaycanın işğal olunmuş ərazilərinə erməni əsilli livanlıları yerləşdirməklə qanunsuz məskunlaşdırma siyasəti ilə məşğuldur və bu da 1949-cu ilin Cenevrə Konvensiyası daxil olmaqla, beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır, eləcə də müharibə cinayətidir. Prezident İlham Əliyev vurğulayıb ki, Ermənistanın Baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Ermənistanın müdafiə naziri "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırır və Azərbaycanı böyük şəhərlərə və mühüm mülki infrastruktura – Mingəçevir su anbarı və Bakının yaxınlığında yerləşən dünyanın ən iri neft-qaz terminallarından biri olan və onlarla dövlətin enerji təhlükəsizliyini təmin edən Səngəçal terminalına zərbə endirməklə hədələyir.[46]

[46] Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışı. 24.09.2020.
// https://azertag.az/xeber/ VIDEO-1594345

Prezident İlham Əliyev vurğuladı ki, Ermənistan müxtəlif ölkələrdən muzdlular və terrorçular cəlb edir, onlardan Azərbaycana qarşı istifadə edir, eləcə də erməni ASALA terror təşkilatının işğal edilmiş Azərbaycan ərazilərində olması ilə bağlı etibarlı məlumatlar var. Bununla yanaşı, dövlət başçısı diqqətə çatdırdı ki, erməni terrorçuları 24 türk diplomatını qətlə yetirmiş, Paris şəhərinin Orli hava limanında terror aktı törədərək müxtəlif ölkələrin vətəndaşlarını qətlə yetirən ASALA terror təşkilatının Varujan Karapetyan adlı üzvü daha sonra Ermənistana ekstradisiya olunmuş və Ermənistan prezidenti tərəfindən əfv edilmişdir. Həmin terrorçu Ermənistanda qəhrəman kimi qəbul edilir.[47]

Dünya birliyinin diqqətinə çatdırıldı ki, Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və Azərbaycanofob fikirlər əks olunub. Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir və biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik.

Prezident İlham Əliyev təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyətin tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü bildirdi: "Biz Ermənistana artmaqda olan silah təchizatından ciddi narahatıq. Xüsusilə də Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistan tərəfindən törədilmiş hərbi təxribatdan sonra. Dövlət sərhədindəki toqquşmaların qaynar fazası iyulun 16-da sona çatmışdır. Növbəti gün – iyulun 17-dən etibarən sentyabr ayına qədər biz hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşınmasının şahidi olduq. Ermənistanın dünyanın ən yoxsul olkələrindən biri olduğunu və silahlara milyardlarla dollar xərcləmək imkanına malik olmadığını nəzərə alsaq, silahların ona pulsuz verildiyi qənaətinə gələ bilərik. Etnik təmizləmə aparmış işğalçı ölkənin silahlarla təchiz edilməsi sülh danışıqlarını ciddi şəkildə sarsıdır və işğalçı dövləti yeni hərbi təxribatlara əl atmağa həvəsləndirir".[48]

[47] Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışı. 24.09.2020. // https://azertag.az/xeber/ VIDEO-1594345

[48] Yenə orada





Bütün ölkələri Ermənistanı silahla təchiz etməkdən çəkinməyə çağıran Azərbaycan Prezidenti bəyan etdi ki, Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır: "Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir. Dağlıq Qarabağ qədim və tarixi Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır!"[49]

Azərbaycan Prezidenti hər zaman mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini bütün dünyaya bəyan etmişdir. Bununla yanaşı, son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratmışdı.

Prezident İlham Əliyev hər zaman hücum diplomatiyasına və milli maraqlara əsaslanan xarici siyasət həyata keçirərək Ermənistanın 30 ildən artıqdır ki, yürütdüyü işğalçılıq siyasətini və bunun bütün region üçün yaratdığı ciddi təhdidləri məntiqi arqumentlərlə dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bununla yanaşı, Prezident İlham Əliyev Ermənistanın təcavüzkar siyasətini, habelə müharibə cinayətlərinin mahiyyətini açmaqla Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün konkret faktlarla təcavüzkarı ifşa etdi. Nəticədə, bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də yalan üzərində qurulmuş təbliğatının, "yenilməzlik" mifologiyasının və erməni saxtakarlığının bütün dünyada ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çalmasını şərtləndirdi.

Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi isə bir ildən sonra, xüsusilə 44 gün ərzində reallığa çevrildi.

[49] Yenə orada

## ORDU QURUCULUĞU

Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa, qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Milli Ordumuz dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qarantı kimi çıxış edir.

Prezident İlham Əliyev öz çıxışlarında ölkəmizdə Ulu Öndər tərəfindən ordu quruculuğunun möhkəm təməlinin qoyulduğunu bildirmişdir.[50] Siyasi varislik bu mühüm sahədə də böyük uğurlar əldə etməyə imkan verdi. Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən inamla, uğurla davam etdirildi.

İlham Əliyev Prezident seçiləndən sonra ölkənin hərbi baxımdan güclənməsi və regionda ən güclü silahlı qüvvələrə malik olması vəzifəsini qarşıya qoydu. Dövlət başçısı kimi o, proqram çıxışlarında bəyan etdi ki, Azərbaycanın qarşısında hərbi büdcəni artıraraq Ermənistanın ümumi dövlət büdcəsini keçmək vəzifəsi dayanır. 2004-cü ildən etibarən Azərbaycan öz hərbi xərclərini bu vəzifəyə uyğun hər il artıraraq Prezident İlham Əliyevin müəyyən etdiyi hədəfə çatdı və onu keçdi.

Ölkənin döyüş hazırlıqlı, modern silahlar və döyüş vasitələri ilə təchiz olunmuş ordusunun yaradılması, saxlanması böyük həcmdə vəsaitlər tələb etdiyi üçün bu hədəfə Azərbaycanın sürətli iqtisadi inkişafı sayəsində çatmaq mümkün oldu. 2003-cü ildə Azərbaycanın hərbi xərcləri cəmi 160 milyon ABŞ dolları təşkil edirdi. 2006-cı ildə Azərbaycan hərbi xərclərdə daha böyük artım etdi, bu məqsədlə dövlət büdcəsindən 750 milyon ABŞ dolları ayrıldı. 2007-ci ildə isə hərbi xərclər 1 milyard dollara yaxınlaşdı. Nəhayət, 2010-cu ildə bu xərclər 2 milyard 150 milyon dollara çataraq Ermənistanın ümumi dövlət büdcəsinin xərclərini ötdü. Bu, Ermənistan üçün psixoloji baryerin keçilməsi idi və Azərbaycan ərazilərini işğal altında saxlayan tərəf onunla hərbi potensial baxımından rəqabətə girməyin qeyri-mümkünlüyünü anladı. Azərbaycan hərbi xərclərinin artımını bununla dayandırmadı. Azərbaycanda 2020-ci ilin dövlət büdcəsi xərclərinin 3 milyard 853,6 milyon manatı müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə yönəldilib. Bu da o deməkdir ki, 2020-ci ildə orduya ayrılan xərclər 2019-cu ilə nisbətən 666 milyon manat və ya 20,9 faiz çoxdur. Bu il üçün Ermənistanın hərbi xərcləri 1 milyard 71 milyon manat təşkil edir. Bu isə Azərbaycanla müqayisədə təxminən 3 dəfə azdır. Beləliklə, Prezident İlham Əliyevin ötən 18 illik hakimiyyəti dövründə Azərbaycanın hərbi xərcləri 24 dəfədən çox artmış oldu.[51]

Dövlətimizin başçısının ordu quruculuğu işinə verdiyi xüsusi əhəmiyyət, silahlı qüvvələrə göstərdiyi diqqət və qayğı sayəsində bu gün Azərbaycan zəngin nəzəri biliklərə və praktik vərdişlərə malik hərbi kadrlarla, müasir texnika və avadanlıqlarla təmin edilmiş güclü orduya sahibdir. Hərbi sahədə əsaslı islahatlar aparılması ilə yanaşı, Azərbaycan Ordusu yeni silah və texnika ilə təchiz edildi. Son illərdə ən müasir texnika və silahlar alındı. Bunlar arasında yüzlərlə zirehli maşın, çoxsaylı patrul gəmiləri, döyüş gəmiləri, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat və nəqliyyat helikopterləri, ən müasir kəşfiyyat və pilotsuz döyüşlər var. Hava vasitələri, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, çoxsaylı raket sistemləri, əməliyyat-taktiki raket sistemləri hərbi gücümüzü artırır.

Respublikamızda müdafiə sənayesi kompleksinin yaradılması, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, ordu birləşmələrinin ən yeni hərbi texnika və avadanlıqlarla təchiz edilməsi, şəxsi heyətin döyüş qabiliyyətinin və peşəkarlıq səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində həyata keçirilən irimiqyaslı islahatlar Azərbaycan Silahlı Qüvvələrini dünya miqyasında sürətlə inkişaf edən, döyüş qabiliyyətini müasir standartlar səviyyəsinə çatdıran peşəkar, çevik və nizami bir hərbi quruma çevirdi. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açdı.

Prezident İlham Əliyev ölkənin hərbi qüdrətinin artırılması siyasəti çərçivəsində Silahlı Qüvvələrin yeni silah və hərbi texnikaya olan tələbatının həm də yerli istehsal hesabına təmin edilməsi vəzifəsini müəyyən etdi. Bu məqsədlə Azərbaycan dövlət başçısı 2005-ci ilin dekabrında ölkənin Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqda sərəncam verdi. Bu nazirliyin tabeçi-

---

[50] https://azertag.az/ru/xeber/Preemstvennost_v_politike_26_let_izmenivshie_sudbu_i_oblik_Azerbaidzhana-1339775

[51] https://ikisahil.az/post/ordumuz-xalqimizin-qurur-dovletimizin-guvenc-menbeyidir

liyinə verilmiş müəssisələr əsasında ölkədə ilk dəfə hərbi sənayeni qurdu və qısa müddət sonra artıq hərbi təyinatlı məhsullarını beynəlxalq silah sərgilərində nümayiş etdirməyə, silahlı qüvvələri bir çox güclü silah sistemləri, texnika ilə təchiz etməyə nail oldu.

Müdafiə Sənayesi Nazirliyi silahlı qüvvələrin tələbatını nəzərə alaraq dünyanın bir çox nüfuzlu hərbi sənaye müəssisələri ilə əməkdaşlıq edir. Azərbaycan müdafiə sənayesinin istehsalı olan hərbi təyinatlı məhsullar son illər nüfuzlu silah sərgilərinə də çıxarılır və maraqla qarşılanır. Hazırda bu qurum Müdafiə Nazirliyinin bir neçə növdə silah-sursata tələbatını tam ödəmək gücündədir. Bu da Silahlı Qüvvələrin təchizatında xarici mənbələrdən asılılığı aradan qaldırmağa imkan verir. Beləliklə, Prezident İlham Əliyevin hakimiyyəti illərində ölkənin hərbi qüdrətinin artırılmasına imkan verən strateji sahə – müdafiə sənayesi təşəkkül tapmışdır. Son illərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə 20-dən çox hərbi müəssisə yaradılıb. Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 1300-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. "İstiqlal" snayper tüfəngi bu qəbildəndir. Azərbay-



Müasir silahlarla təmin edilmiş Azərbaycan Ordusu. 2016-cı il





can Silahlı Qüvvələrinin yaranmasının 90-cı və 95-ci ildönümlərində keçirilən paradlarda Azərbaycan Ordusunun qüdrəti bir daha dünyaya nümayiş etdirildi.

Azərbaycanda hərbi-sənaye potensialının gücləndirilməsi ilə bağlı görülən işlər, müdafiə qüdrətinin və döyüş qabiliyyətinin durmadan artırılması, maddi-texniki bazanın və hərbi qulluqçuların sosial müdafiəsinin daim gücləndirilməsi rəşadətli Silahlı Qüvvələrimizə yüksək dövlət qayğısının parlaq nümunəsidir.

Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin, diqqət və qayğının məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası, onların keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır və ordumuz dünyanın aparıcı 50 ordusu sırasındadır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi munasıbətilə Heydər Əliyev Mərkəzində təşkil edilən rəsmi qəbulda çıxış edən Prezident İlham Əliyev qazanılan uğuru müstəqillik dövrünün ən böyük nailiyyətlərindən biri hesab etdi: "Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik..."[52] Dövlət başçısının sözlərinə görə, Azərbaycan ordunun maddi-texniki təchizatına görə dünyada çox az ölkələrdən biridir.[53]

Silahlı Qüvvələrdə aparılan struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların hazırlıq səviyyəsinin yüksəldilməsi Azərbaycan Ordusunu keyfiyyətcə yeniləşdirib. Müasir texnologiyaların tətbiqi ilə orduda yüksək səviyyəli idarəçilik mexanizmi yaradılıb. Birlik, birləşmə və hərbi hissələrin operativ idarə olunması məqsədilə avtomatlaşdırılmış Komanda İdarəetmə məntəqələri qurulub. Ordunun yeni növ silah və döyüş texnikası ilə təmin edilməsi qoşunların manevr və zərbə qabiliyyətini artırıb. İndi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur. Silahlı Qüvvələrin gücunu artıran, hərbçilərimizin döyüş əhvali-ruhiyyəsini yüksəldən əsas səbəblərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin

[52] https://mod.gov.az/az/pre/23115.html

[53] Yenə orada

Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.[54]

Orduda xidmət şəraiti yaxşılaşıb. Hərbi hissələrin və hərbi şəhərciklərin 80 faizi yenidən qurulub və ya əsaslı təmir edilib. Son illərdə onlarla hərbi şəhərcik yaradılıb. Hərbi qulluqçuların mənzil və məişət problemləri həll olunur. Alınan qərar əsasında 20 il orduda qüsursuz xidmət edən hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Bu gün hərbi hissələrimizdə 20 mindən çox mülki şəxs çalışır. Bunun sayəsində əsgərlər bəzi işlərdən azad edilib, eyni zamanda mülki vətəndaşlar üçün 20 mindən çox iş yeri açılıb.[55]

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu prosesi davamlı surətdə təkmilləşdirilir, hərbi hissələr ən müasir hərbi texnika ilə təchiz olunur, yüksək şəraitə malik hərbi şəhərciklər, döyüş poliqonları yaradılır. Bütün bunların nəticəsidir ki, işğal altındakı torpaqları düşməndən azad etməyə qadir, yüksək döyüş ruhuna malik ordu formalaşdırılıb. Bu özünü uğurlu Aprel döyüşləri zamanı əyani şəkildə təsdiqlədi. 2016-cı ilin aprelində və 2017-ci ilin mayında Azərbaycan Ordusunun istənilən döyüş tapşırığını yerinə yetirə biləcəyinə əmin olduq. Ordumuzun apardığı uğurlu hərbi əməliyyatlar nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə bölgələrində 2 min hektar, Naxçıvan Muxtar Respublikasında 11 min hektar ərazi işğaldan azad edildi. Azərbaycan Ordusunun gücünü həm düşmən, həm də bütün dünya gördü.

Hərbi təhsil sistemi müxtəlif pilləli ardıcıl təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisələri şəbəkəsindən və təhsili idarəetmə orqanlarından ibarətdir, əsas məqsədi isə dövlət təhsil standartlarına uyğun biliyə, bacarığa, dünyagörüşünə malik olan, xalqını, vətənini sevən, Azərbaycan Respublikasının təhlükəsizliyini, müdafiəsini təmin etmək üçün yaradılan Silahlı Qüvvələrin və digər silahlı birləşmələrin qarşısında qoyulan vəzifələri yerinə yetirməyi bacaran kadrların hazırlanmasıdır.[56] Silahlı Qüvvələrimizin təhsil sistemində müasir standartlara uyğun yeni proqram tətbiq edilir ki, o da yüksək hazırlığa malik zabit kadrlarının hazırlanmasına imkan verir. Xüsusi təyinatlı təhsil müəssisələrinin professor-

[54] https://www.fhn.gov.az/newspaper/?az/news/view/8856
[55] https://ru.president.az/articles/29165
[56] https://mod.gov.az/az/azerbaycan-ordusunun-herbi-tehsil-sistemi-326





müəllim heyəti Türkiyənin, ABŞ-ın, Litvanın, Pakistanın, İordaniyanın, eləcə də NATO-nun hərbi təhsil müəssisələrinin nümayəndələri ilə təcrübə mübadiləsində iştirak edir. Azərbaycan-NATO Birgə Təlim və Tədris Fəaliyyət Planına müvafiq olaraq, Silahlı Qüvvələrin xüsusi təyinatlı təhsil müəssisələrinin tədris proqramlarının təkmilləşdirilməsi məqsədilə Hərbi Akademiyada tədris proqramına "Müdafiə strategiyası və planlaşdırılması" kimi yeni fənn daxil edilib.[57] Təlimlərdə hərbi hissələrin döyüş hazırlığının səviyyəsi yoxlanılır, döyüş texnikalarının, müasir silahların tətbiqi imkanları öyrənilir, tapşırıqların daha operativ və səmərəli yerinə yetirilməsi, qərargahlar tərəfindən əməliyyatların hazırlanması, qarşılıqlı fəaliyyətin və təminatın təşkili səviyyəsi yoxlanılır.

Bakıda keçirilən Beynəlxalq müdafiə sənayesi sərgilərində ölkəmizdə istehsal olunan məhsullar, ordu quruculuğunda qazanılmış nailiyyətlər nümayiş olunur. Bu sərgilər digər tərəfdaş dövlətlərlə əməkdaşlıq etmək baxımından da olduqca faydalıdır.

Azərbaycanda güclü ordu quruculuğu sahəsində Prezident İlham Əliyevin rəhbərliyi altında görülmüş işlərin nəticələrindən biri də ölkənin hava hücumundan kifayət qədər etibarlı təminatıdır. Azərbaycan hava qüvvələrini gücləndirməklə yanaşı, ölkənin hava məkanının potensial hücumlardan etibarlı müdafiəsinə nail olmaq üçün hərbi sahəyə ayrılan vəsaitlərin bir qismi yeni HHM sistemləri almağa sərf edilib. Azərbaycanın hazırda malik olduğu HHM sistemi ölkənin hava məkanını, strateji təyinatlı obyektləri, Xəzərdəki neft-qaz infrastrukturunu qoruyur.

Azərbaycanın regionda güclü hava qüvvələri ilə yanaşı, havadan etibarlı müdafiə sisteminə də malik olması hərbi balansın Ermənistanla müqayisədə onun xeyrinə müqayisəolunmaz dərəcədə dəyişməsinə səbəb oldu. Bununla da İlham Əliyevin ölkənin hərbi gücünün artırılmasına yönəlmiş fəaliyyətinin nəticəsi olaraq, Azərbaycan regionda ən modern vasitələrlə təchiz olunmuş HHM qüvvələrinə malik oldu. Nəticədə isə strateji obyektlər ən yüksək səviyyədə qorunur. Hava hücumuna qarşı müasir qurğularımız imkan verir ki, ölkəmiz, o cümlədən strateji obyektlər yüksək səviyyədə müdafiə olunsun.

Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi regionda və müxtəlif dövlətlərin maraqlarının kəsişmə məkanında yerləşən Azərbaycan beynəlxalq hərbi əlaqələrini xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla

[57] https://mod.gov.az/az/silahli-quvvelerın-herbi-akademiyasi-435

qarşılıqlı maraqlar çərçivəsində reallaşdırır. Beynəlxalq hərbi əməkdaşlıq fəaliyyəti Xarici İşlər Nazirliyi və digər aidiyyəti dövlət orqanları, idarə, təşkilat və müəssisələrlə əlaqəli şəkildə, Müdafiə Nazirliyi tərəfindən Hərbi Doktrina və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq konsepsiyası" əsasında həyata keçirilir.

Beynəlxalq hərbi əməkdaşlığın məqsəd və istiqamətləri Azərbaycan Respublikasının milli maraqlarına uyğun olaraq müəyyən olunur. Xarici ölkələrlə, Avroatlantik strukturlarla, beynəlxalq təşkilatlarla və aparıcı dövlətlərin müdafiə sənayesi kompleksləri ilə birtərəfli, ikitərəfli və çoxtərəfli əməkdaşlıq beynəlxalq hərbi strategiyanın əsas istiqamətlərindəndir. Azərbaycan qonşu Türkiyə, Gürcüstan, Rusiya ilə yanaşı, Ukrayna, Belarus, ABŞ, Böyük Britaniya, Pakistan, İsrail və s. ölkələrlə hərbi, hərbi-texniki və hərbi-siyasi əməkdaşlıq edir.

Ölkəmizin beynəlxalq hərbi əlaqələrində Türkiyə, Rusiya, Pakistan, İsrail ilə əməkdaşlıq xüsusi çəkiyə malikdir.

Azərbaycanın hərbi sahədə ən mühüm tərəfdaşı qardaş Türkiyə Respublikasıdır. Azərbaycan və Türkiyə arasında hərbi sahədə əməkdaşlıq yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından deyil, ümumən bölgədə sülh və təhlükəsizliyin təmini istiqamətində də mühüm əhəmiyyət kəsb edir. 44 günlük müharibədə Azərbaycan Ordusunun əldə etdiyi Qarabağ zəfəri ilə Cənubi Qafqazda yaranan yeni geopolitik mənzərənin təhlili iki qardaş və dost dövlətin hərbi əməkdaşlığının rolunu və əhəmiyyətini bir daha ortaya qoydu.

2010-cu il sentyabrın 15-də imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə" Azərbaycan-Türkiyə hərbi əlaqələrinin inkişafında yeni mərhələnin əsasını qoydu. Bu müqavilə ilə Azərbaycan və Türkiyənin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası yaradıldı. Müqavilənin 2-ci maddəsinə görə, tərəflərdən biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldıqda, tərəflər BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və ya kollektiv özünümüdafiə hüququnun həyata keçirilməsi üçün, hərbi imkan və qüdrətlərindən istifadə etmək də daxil olmaqla, mövcud imkanları çərçivəsində bütün zəruri tədbirlərin görülməsi məqsədilə bir-birinə qarşılıqlı yardım göstərəcək. Bu sənəd faktiki olaraq iki qardaş ölkənin hərbi ittifaq müqaviləsi olaraq da dəyərləndirilə bilər.





Rəsmi görüşlərdə, çıxışlarında Azərbaycan Prezidenti İlham Əliyevin bölgədə təhlükəsizlik və sabitlik üçün iki qardaş ölkənin silahlı qüvvələrinin inteqrasiyasının daha da dərinləşdirilməsinin vacibliyini vurğulaması Azərbaycan və Türkiyə hərbi əməkdaşlığının perspektivini ifadə edir.

İki ölkənin silahlı qüvvələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və həyata keçirilən çoxsaylı birgə təlimlər də birlik və əməkdaşlığın önəmli istiqamətlərindəndir.

Müdafiə sənayesi sahəsində mühüm əhəmiyyət kəsb edən əlaqələr də Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın əsas istiqamətlərindəndir. Müdafiə sənayesi sahəsində əməkdaşlıqdan danışarkən İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusunun qələbəsində Türkiyə hərbi sənayesinin istehsalı olan "Bayraktar" pilotsuz uçuş aparatlarının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Azərbaycanın Türkiyə ilə müdafiə sənayesi sahəsində müştərək istehsal kimi əməkdaşlıq üsullarının tətbiqi hərbi əməkdaşlığın perspektiv layihələridir.

Azərbaycanın hərbi sahədə və xarici siyasətdə mühüm tərəfdaşlarından biri də Pakistan İslam Respublikasıdır. Pakistan daim beynəlxalq arenada




Bakının azad edilməsinin 100 illiyi münasibətilə keçirilən hərbi parad
15 sentyabr 2018-ci il

ölkəmizi dəstəkləyir və açıq şəkildə bəyan edir ki, hər zaman Azərbaycanın yanındadır. Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Pakistan İslam Respublikası Birləşmiş Qərargahı arasında imzalanmış "İkitərəfli Hərbi Əməkdaşlıq Planı" da iki ölkə arasında hərbi müttəfiqlik effektini yaradır.

İsrail dövləti ilə hərbi əməkdaşlıq Azərbaycanın beynəlxalq hərbi strategiyasında mühüm yer tutur. Son illər bu ölkə ilə hərbi sahədə əməkdaşlıq dinamik inkişaf edir. Azərbaycan İsrailin müdafiə sənayesi şirkətlərindən müasir pilotsuz uçuş aparatları, radarlar, raket sistemləri və sahil mühafizə vasitələri alır.

Hazırda Azərbaycan Respublikası daha güclü hərbi potensiala malik olmaq üçün hərbi infrastrukturun beynəlxalq standartlara uyğun inkişaf etdirilməsini zəruri şərt kimi ortaya qoyur, dünyanın aparıcı dövlətləri və beynəlxalq hərbi təşkilatları ilə ikitərəfli, üçtərəfli və çoxtərəfli hərbi əməkdaşlığı diqqətdə saxlayır.

Azərbaycan son illərdə silahlı qüvvələrinin arsenalını yeni döyüş təyyarələri, hücum vertolyotları, döyüş maşınları, habelə müasir və uzaqməsafəli artilleriya sistemləri ilə gücləndirdi. Nəticədə, hərbi sahədə bütün göstəricilər üzrə Ermənistanla balansı öz xeyrinə dəyişməyə nail oldu. Ermənistan daxil olduğu hərbi blok çərçivəsində böyük miqdarda silah və texnikanı təmənnasız əldə etsə də, balansın Azərbaycanın xeyrinə kəskin dəyişməsinə mane ola bilmədi. Azərbaycan Ordusunun yeni silah və texnika ilə təchizatında birinci mərhələdə zirehli texnikanın, uzaqvuran artilleriya sistemlərinin, piyadaların döyüş maşınlarının və quru qoşunlarına hava dəstəyi üçün hücum vertolyotlarının alınması həyata keçirildi. İkinci mərhələdə ordunun arsenalı hədəfi yüzlərlə kilometr məsafədən dəqiq vuran raket sistemləri, daha uzaqmənzilli artilleriya qurğuları və hərbi sahədə strateji üstünlük qazandıran digər silah sistemləri ilə gücləndirildi.

Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyevin güclü ordu quruculuğu siyasətinin nəticəsi olaraq, beynəlxalq hesabatlarda da deyildiyi kimi, Ermənistan üzərində əzici hərbi üstünlük əldə edildi. Silahlı Qüvvələrimiz qarşıda dayanan bir nömrəli vəzifəni – torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi vəzifəsini layiqincə yerinə yetirirdi. Ordumuzun gündən-günə gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, aparılan məqsədyönlü islahatlar bu vəzifənin uğurla yerinə yetirilməsini təmin etdi.





## İQTİSADİ İSLAHATLAR

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bilavasitə bağlıdır. Onun rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir. Heydər Əliyev milli iqtisadiyyatımızın inkişafına çox böyük önəm verərək: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir", – demiş, respublikaya rəhbərlik etdiyi dövrdə var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, nəhəng quruculuq işlərini həyata keçirmişdir. Prezident İlham Əliyevin dediyi kimi, "Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına layaqətlə xidmət etmişdir. Azərbaycanın azadlığının əbədi, dönməz olmasında, iqtisadi potensialının güclənməsində, bölgədə və yer üzündə nüfuzunun artmasında onun müstəsna xidmətləri var. İndi bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu azad Azərbaycan yaşayacaqdır".

Heydər Əliyev 1993-cü ildə müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünyanın inkişaf meylini uzaqgörənliklə qiymətləndirərək bazar iqtisadiyyatı yolunu seçmişdi. Bu yol isə iqtisadiyyat üzərində dövlət inhisarçılığının aradan qaldırılması, sahibkarlığın inkişaf etdirilməsi və iqtisadiyyatın liberallaşdırılmasından ibarətdir.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsası qoyulmuşdu. Bu strategiya əsasında həyata keçirilən tədbirlər, o cümlədən Dövlət Neft Fondunun yaradılması bilavasitə davamlı inkişafın təmin edilməsi və dövlətimizin iqtisadi və sosial dayaqlarının möhkəmlənməsində mühüm rol oynayır.

Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə həyata keçirilən qlobal enerji-kommunikasiya layihələri regionun geopolitik mənzərəsini yenidən müəyyənləşdirmişdi. Bu isə dünyada dayanıqlı inkişafa, sülhə, rifaha can atan hər kəs üçün faydalıdır.

Prezident İlham Əliyev ötən dövr ərzində Ulu Öndərin qoyduğu təməl üzərində Azərbaycanın dövlət kimi dayaqlarını möhkəmləndirmişdi.

Qeyd etmək lazımdır ki, Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri Prezident İlham Əliyevin 2003-2020-ci illərdə imzaladığı çoxsaylı fərman və sərəncamlarda, dövlət proqramlarında öz əksini tapmışdır.

Son 17 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda iqtisadi quruculuq prosesi sürət aldı. Ölkəmiz regionun ən güclü dövlətinə çevrilmişdir. Bunun nəticəsi olaraq, insanların maddi rifahı və həyat səviyyəsi xeyli yaxşılaşmışdır.

Prezident İlham Əliyev Ulu Öndərin müəyyən etdiyi dövlətçilik kursuna uyğun olaraq ölkənin sosial-iqtisadi cəhətdən inkişafını təmin etmişdir. Azərbaycan lider dövlət kimi bölgədəki yeni reallıqların əsas müəllifi, iqtisadi-siyasi proseslərin başlıca iştirakçısı olub.

Prezident İlham Əliyev qeyd edirdi: "İnsanların həyat səviyyəsini yaxşılaşdırmaq qarşıda duran ən böyük vəzifədir. Bunu etmək üçün bizim hər cür imkanımız və yetərincə möhkəm iradəmiz var. Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaqdır. Mən Azərbaycanı belə görmək istəyirəm".

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk dövrdə ölkənin inkişaf prioritetlərini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzaladı. Daha sonra davamlı və tarazlı inkişafın təmin edilməsinə yönəldilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nı (2004–2008-ci illər) təsdiq etdi.

2003–2005-ci illər üçün "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın başa çatması ilə əlaqədar olaraq 2008-ci il 15 sentyabr tarixində Prezident İlham Əliyev tərəfindən "2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı" təsdiq edildi. Bu proqram, habelə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı məqsədilə təsdiqlənərək uğurla icra olunan dövlət proqramları, eləcə də digər vacib sənədlər, aparılan məqsədyönlü dövlət siyasəti respublikada uzunmüddətli sosial-iqtisadi inkişafı təmin etdi.

Prezident İlham Əliyev ölkədə neft gəlirlərinin artdığını və inflyasiyanın yarana biləcəyini nəzərə alaraq, "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 31 may 2005-ci il tarixində fərman imzaladı. Bu fərmanda neft bumundan milli iqtisadiyyatın qorunması, dövlət büdcəsi xərclərinə nəzarətin gücləndirilməsi, neft ixracından əldə ediləcək vəsaitlərin səmərəli idarə olunması və istifadəsi məsələlərinə geniş yer verildi.

Azərbaycanda neft və qaz gəlirlərinin kəskin artması şəraitində makroiqtisadi sabitliyin təmin edilməsi, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanılması, qeyri-neft sektorunun stimullaşdırılması, əhalinin rifahının yüksəldilməsi üçün istifadə edilməsi, neft-qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiyanın qəbul edilməsi zərurətə çevrildi. Bu məqsədlə Prezident İlham Əliyev "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya" (2005–2025) təsdiq etdi. Burada neft və qaz gəlirlərindən istifadənin əsas prinsipləri və ortamüddətli xərclər siyasəti müəyyənləşdirildi.








Qeyd etmək lazımdır ki, 2003–2020-ci illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Belə ki bu uğurlar, ilk növbədə, dövlət başçısının siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanması, dövlət idarəçiliyinin səmərəli təşkili, iqtisadi inkişafda əsas hədəflərin düzgün müəyyən edilməsi, islahatların davamlı olması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəlmiş dövlət proqramlarının reallaşdırılması ilə bağlı olmuşdu. Bu isə sonda ölkə vətəndaşlarının maddi rifahının yaxşılaşmasında və həyat səviyyəsinin yüksəlməsində özünü daha qabarıq göstərmişdir.

Ölkəmizdə islahatların texnologiyası təkmilləşir. Prezident İlham Əliyev qeyd edir: "İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir". Ölkədə iqtisadi siyasətdə çevikliyin təmin edilməsi, struktur dəyişiklikləri ilə institusional islahatların paralel aparılması, konkret hədəflərə və maliyyə mənbələrinə əsaslanan proqramın idarə edilməsi bunu bir daha təsdiq edir. 2017-ci ilə qədər 201 proqram xarakterli sənəd, o cümlədən 12 konsepsiya, 12 milli strategiya, 12 strateji yol xəritəsi, 94 dövlət proqramı, 10 milli fəaliyyət planı, 23 tədbirlər planı, 21 tədbirlər proqramı, 17 milli plan və proqramlar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının və ixracının stimullaşdırılması, daxili tələbatın yerli istehsal hesabına təmin edilməsi istiqamətində kompleks və ardıcıl işlər görülür. Bu baxımdan, iqtisadiyyatın neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun davamlı inkişafı iqtisadi siyasətin mərkəzində duran əsas hədəflərdəndir.

Respublikamızda qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meyilləri, ölkənin valyuta ehtiyatlarının həcmi və onunla müqayisədə xarici dövlət borcunun minimal səviyyəsi, nəqliyyat-enerji layihələrinin həyata keçirilməsi ölkənin milli və iqtisadi təhlükəsizliyi üçün güclü zəmin yaradır.

Respublikamızda sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi məsələsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Bu məqsədlə Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün "Dövlət Proqramı" təsdiq edilmiş, 2014-cü il isə "Sənaye ili" elan edilmişdir. Ölkəmizdə sənayenin inkişafı ilə bağlı sənaye parkları və məhəllələrin yaradılması, struktur dəyişikliklərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki bu sahədə son dövrdə xeyli işlər görülmüşdür. Kimya sənayesinin inkişaf etdirilməsi məqsədilə 2011-ci ildə Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının yaradılması üçün qərar vermişdir.

Sənayedə yeni modellərin tətbiqi, sənaye parkları və məhəllələri, aqroparklar kimi müvəqqəti mexanizmlər müasir texnologiyalar ilə işləyən müəssisələrin yaradılmasına, ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə şərait yaradır. Azərbaycanda 5 sənaye parkı – Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları fəaliyyət göstərir.





2016-cı ildə yaradılmış Masallı sənaye məhəlləsində həyata keçiriləcək layihələr əsasən mebel, tikinti materialları, plastik tara, qida məhsulları, xalça istehsalı və kənd təsərrüfatı məhsullarının emalı sahələrini əhatə edir.

2017-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə Neftçala sənaye məhəlləsinin açılışı olmuşdur. Sənaye məhəlləsində avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə rezident kimi qeydiyyata alınmışdır.

2017-ci ildə Hacıqabul və Sabirabad sənaye məhəllələrinin yaradılmasına başlanılmışdır. Hacıqabul sənaye məhəlləsində aqrar maşınqayırma, xüsusi vaqonqayırma, avtomobil ehtiyat hissələri və kompozit materialların istehsalı nəzərdə tutulur. Sabirabad sənaye məhəlləsində isə yük tədarükü, pambıqtəmizləmə, taxta, plastik məmulatlar və tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin və logistik mərkəzin fəaliyyət göstərməsi planlaşdırılır.

Sənaye parklarında rezidentlər üçün vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər tətbiq edilir. Belə ki sənaye parklarının rezidentləri qeydiyyata alındığı tarixdən 7 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlığın və qurucuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunur. Bundan əlavə, sənaye parklarında dövlət vəsaitləri hesabına müasir infrastruktur yaradılır, sahibkarların vəsaitlərini investisiya qoyuluşuna yönəltmələri stimullaşdırılır.

Qeyd etmək lazımdır ki, 2019-cu ilə qədər sənaye parklarında 1,5 milyard manatlıq məhsul istehsal edilmişdir. Bu məhsulların 300 milyon manatlıq hissəsi xarici ölkələrə ixrac olunmuşdur. Əlamətdar haldır ki, Balaxanı Sənaye Parkının rezidenti istehsal etdiyi mebel məhsullarının ABŞ-a ixracına başlamışdır.

Ölkə Prezidenti İlham Əliyevin qayğısı nəticəsində regionlarda sahibkarlar üçün bütün zəruri infrastrukturla təmin olunmuş 4 sənaye məhəlləsi yaradılmış və 38 iştirakçı qeydiyyatdan keçmişdir. 2018-ci ildə isə bu rezidentlərin 21-i fəaliyyət göstərmişdir. Fəaliyyətdə olan 2 sənaye məhəlləsinin iştirakçıları tərəfindən 41 milyon manatdan çox, o cümlədən 2018-ci ilin birinci yarısında 14,5 milyon manatlıq məhsul istehsal edilmişdir. 2018-ci ilə kimi sənaye parkları və məhəllələrində 11 mindən çox iş yeri açılmış və daha çox – 3 minə yaxın iş yerinin açılması nəzərdə tutulmuşdur.

Ölkə iqtisadiyyatının sürətlə inkişafı dünya ölkələrinin marağına səbəb olmuş, ölkəyə gələn əcnəbilərin və turistlərin sayı artmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2011-ci il ölkəmizdə "Turizm ili" elan edilmişdir. Ötən müddət ərzində Bakı ilə yanaşı, respublikamızın regionlarında mehmanxanalar, hotellər, istirahət mərkəzləri yaradılmışdır.

Azərbaycanda ən prioritet sahələrdən biri turizm sahəsinin inkişaf etdirilməsidir. Belə ki Bakı şəhərində 2005-ci ildə 40-a yaxın hotel olmuşdursa, hazırda bu rəqəm 4 dəfə artmışdır. Bakı keçmiş sovet məkanında 5 ulduzlu hotellərin sayına görə ilk yerlərdə qərarlaşmışdır. Təkcə 2018-ci ildə Bakını 2 milyondan artıq turist ziyarət etmiş və proqnozlara görə, bu rəqəm gələcəkdə kəskin artacaqdır. Son 15 ildə Bakıda intensiv tikinti işləri aparılır. Belə ki beynəlxalq agentliklərin reytinqinə görə, turistlər üçün Bakı memarlıq abidələri ilə yaddaqalan 5 şəhərdən biri hesab edilir. Paytaxtımız dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir.

Milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi, turizmin inkişafı istiqamətində görülən işlərin davamlılığına xidmət etməklə yanaşı, Azərbaycan Respublikasının cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına imkan yaradacaq, eyni zamanda qarşılıqlı əlaqələrdən və mövcud turizm potensialından səmərəli istifadə etməklə bu sektorun iştirakçıları arasında əməkdaşlığın inkişafına və Azərbaycanda turizm xidmətləri üzrə keyfiyyətin yüksəlməsinə gətirib çıxaracaqdır. Strateji yol xəritəsində nəzərdə tutulmuş müddət ərzində turizm sektorunun inkişafının dəstəklənməsi beynəlxalq və yerli bazarlarda yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması, yeni investisiyaların cəlb edilməsi və turizmin inkişafı ilə əlaqədar aidiyyəti orqanların qarşılıqlı koordinasiyası kimi tədbirləri özündə birləşdirir.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı–Tbilisi–Ceyhan (BTC) neft ixrac kəməri və Bakı–Tbilisi–Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynamışdır. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trln. kub metrə bərabərdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz–2" layihəsi üzrə qərarın imzalanması xüsusi olaraq göstərilməlidir.






Bakı–Tbilisi–Ceyhan neft kəməri

Bu layihələr artıq həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev göstərir ki, ölkənin beynəlxalq arenadakı nüfuzunun yüksəlməsi bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayının artmasına səbəb olur. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş və sadiq dost kimi təsdiq edə bilmişdir.

Son 17 ildə ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilmiş, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilmişdir. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirmişdir.

Son illər ölkə iqtisadiyyatında müşahidə olunan dinamik inkişaf, heç şübhəsiz, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi hesabına qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində reallaşdırılan tədbirlərin məntiqi nəticəsidir. Belə ki nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən və əlverişli



Azərbaycan Prezidenti İlham Əliyev "Azərsun Sənaye Parkı"nın nəzdində yaradılan Sumqayıt yağ fabrikinin açılışında. 25 fevral 2014-cü il




Balaxanı Sənaye Parkı. 22 sentyabr 2017-ci il





geostrateji mövqeyə malik olan Azərbaycanda nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində son illər görülən işlər xüsusilə vurğulanmalıdır. Şərq-Qərb nəqliyyat dəhlizi Çinlə Avropa arasındakı ən qısa marşrut olduğundan tranzit və yükdaşıma baxımından səmərəlidir. Orta hesabla 5400 km uzunluğunda olan Şərq-Qərb dəhlizinin tranzit müddəti 15 gündür. Əhəmiyyətinə görə "Dəmir İpək Yolu" adlandırılan Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsindən sonra isə dəhliz quru xətlə birbaşa Avropaya çıxış imkanı yaradır. Bundan başqa, söhbət Azərbaycanın fəal iştirakı ilə Xəzər–Qara dəniz–Aralıq, Baltik dənizləri və Avropa İttifaqı regionunda enerji əməkdaşlığının geniş formatından gedir. Təbii ki, neft amilinin ölkəmizin iqtisadi və siyasi həyatında strateji əhəmiyyəti və xüsusi yeri vardır. Lakin dövlətimizin başçısı cənab İlham Əliyev çalışır ki, ölkə neft amilindən asılı olmasın. Buna görə də qeyri-neft sektoruna aid layihələrin reallaşmasının sayı da durmadan artmaqdadır.

Aparılmış tədqiqatlar göstərir ki, artıq dövlətlərin iqtisadi üstünlüyü də məhz texnologiyalara yiyələnməyə, onları mənimsəmə gücünə əsaslanır. Bir sözlə, iqtisadi gücü müəyyən edən meyarların, qazanılan makro və mikro iqtisadi göstərişlərin önündə bu gün məhz həmin ölkədə informasiya-kommunikasiya texnologiyalarının tutduğu yer və onun inkişafı dayanır. Bu reallıqları əsas tutaraq ölkə Prezidenti İlham Əliyev 2013-cü ili Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan etmişdir.

Bu gün Azərbaycan İKT-nin inkişaf göstəricilərinə görə inkişaf etməkdə olan ölkələr arasında mühüm yer tutur və son 5–7 ildə ən dinamik inkişaf edən 10 ölkə qrupuna daxildir.

Respublikamızda neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Bu işdə iqtisadi islahatların, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi müstəsna rol oynayır. Məhz bunun sayəsində regionlarda sahibkarlıq inkişaf edir, yeni iş yerləri yaradılır və yoxsulluq azaldılır. Ölkəmizdə həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması və yoxsulluğun azaldılması sahəsində də dövlət proqramları həyata keçirilmişdir.

2003–2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramının başa çatması ilə əlaqədar olaraq 15 sentyabr 2008-ci il tarixində Prezident İlham Əliyev tərəfindən "2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiq edilmişdir. Bu proqram, habelə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı məqsədilə



Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında.
16 noyabr 2018-ci il





təsdiqlənərək uğurla icra olunan digər dövlət proqramları, eləcə də başqa vacib sənədlər, aparılan məqsədyönlü dövlət siyasəti respublikada uzunmüddətli sosial-iqtisadi inkişafı təmin etmişdir.

Milli iqtisadiyyat 2003–2018-ci illər ərzində 3,2 dəfə, o cümlədən sənaye 2,6 dəfə, kənd təsərrüfatı isə 1,7 dəfə artmışdır. Bundan başqa, qeyri-neft ixracı 4,7 dəfə çoxalmışdır. Bu dövrdə əməkhaqları təxminən 7 dəfə, minimum əməkhaqqı 23 dəfə, pensiyalar 9 dəfə artmışdır. 3,1 min məktəb, 640-dan çox xəstəxana, eyni zamanda çoxsaylı obyektlər istifadəyə verilmiş, 92 müasir qəsəbə və yaşayış kompleksi salınmaqla, 270 minədək məcburi köçkünün müasir şəraitli mənzillərlə təmin olunduğu son 15 ildə ölkəmizdə yoxsulluğun da kəskin şəkildə azaldılmasına nail olunmuşdur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb. Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, yoxsulluq təxminən 50%-dən 5,1%-ə düşmüşdür. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5% səviyyəsindədir".

Yoxsulluğun azaldılmasında əhalinin məşğulluq imkanlarının artırılması da mühüm rol oynamışdır. 2003–2018-ci illərdə Azərbaycanda 1,5 milyon daimi olmaqla 2 milyon yeni iş yeri yaradılmış, məşğulluq imkanları əhəmiyyətli şəkildə artmaqla əmək bazarında sabitlik, işsizliyin 5,2%-ə enməsi təmin edilmişdir. Yeni iş yerlərinin açılması daimi xarakter almaqla yanaşı, dövlət məşğulluq xidmətləri, işsiz və iş axtaran vətəndaşların münasib işlərlə təminatı tədbirləri də getdikcə gücləndirilir.

Ölkə Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindən biri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyin artırılması və həmin sahəyə investisiya qoyuluşunun sürətləndirilməsidir.

Respublikamızda qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan aqroparkların yaradılması istiqamətində xeyli iş görülmüşdür. Bu isə regionlarda yeni iş yerlərinin açılması və məşğulluğun təmin olunması ilə yanaşı, ixracyönümlü məhsulların istehsalında əhəmiyyətli rola malikdir. Respublikada 51 aqroparkın yaradılması ilə bağlı bir çox addımlar atılır. Artıq 22 aqropark fəaliyyətdədir, 2019-cu ilin sonunda 11 aqropark fəaliyyətə başlamışdır. Bu layihələrin icrası nəticəsində 4000-dən çox yeni iş yeri açılmışdır.

Respublikamızda qeyri-neft məhsulları ixracının stimullaşdırılması məqsədilə "Made in Azerbaijan" brendinin təbliği ilə bağlı dəstək tədbirləri

həyata keçirilir, dövlət vəsaiti hesabına sahibkarlar ixrac missiyalarında, beynəlxalq sərgilərdə iştirak edirlər. Bu il ərzində ixracatçıların Almaniyada keçirilən "Beynəlxalq Yaşıl Həftə", "Fruit Logistika" və "Prowein", Rusiyada "Prodexpo" və "Mosbuild", Birləşmiş Ərəb Əmirliklərində "Gulfood", Çində "Sial China" dünyamiqyaslı beynəlxalq sərgilərdə sahibkarlarımız vahid ölkə stendi ilə iştirak etmişlər. Növbəti 4 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak da nəzərdə tutulur. Bununla yanaşı, ixracatçıların 17 beynəlxalq sərgidə fərdi qaydada iştirakına dəstək göstərilmişdir.

Həmçinin ixracatçıların potensial müştərilərlə, xüsusilə idxalçı və distribütorlarla əlaqələrinin qurulması məqsədilə bu dövr ərzində Çin, Polşa, Latviya, Qətər, İsveçrə və Rusiyaya ixrac missiyaları təşkil olunmuşdur. Bu tədbirlər çərçivəsində Azərbaycan məhsullarının ixracına dair razılaşmalar və sifarişlər əldə edilmiş, müqavilələr imzalanmışdır. Eyni zamanda bir sıra məhsulların ixracatçılarına ixrac təşviqi ödənilir. Qeyd edək ki, 2019-cu ilin yanvar-iyun ayları ərzində ixracatçılara 5 milyon manatdan artıq, ümumilikdə isə 2018-ci ilin mart ayından bu günədək 14 milyon manatdan çox ixrac təşviqi ödənilmişdir. Bu mexanizm çərçivəsində Almaniya, Rusiya, Çin, Polşa, İtaliya, Qazaxıstan, Litva, Cənubi Koreya, Yunanıstan, Kanada, Avstraliya, Malayziya, ABŞ, Yaponiya, Səudiyyə Ərəbistanı və digər ölkələrə 210 milyon ABŞ dollarından çox qeyri-neft məhsullarının ixracı stimullaşdırılmışdır.

İxracın stimullaşdırılması tədbirləri çərçivəsində prosedurlar sadələşdirilir, yerli məhsullarımızın ixrac potensialı yüksək olan ölkələrdə ticarət nümayəndələri fəaliyyət göstərir, ticarət evləri və şərab evlərinin yaradılması ilə bağlı işlər davam etdirilir. Azərbaycanın xarici ölkələrdə 10 ticarət və şərab evi açılmışdır. Rusiya, Qazaxıstan və digər ölkələrdə ticarət evləri ilə bağlı işlər görülür. Həmçinin Rusiyanın paytaxtı Moskva şəhərində 15 Azərbaycan şirkəti tərəfindən istehsal olunan 200-dən çox çeşiddə məhsulun təqdim olunduğu "Azərbaycan nemətləri" mağazası fəaliyyətə başlamışdır. Sankt-Peterburq, Yekaterinburq və digər şəhərlərdə də bu cür mağazaların açılması istiqamətində işlər aparılır.

Bütün bunlar qeyri-neft məhsullarının ixracının göstəricilərində də əksini tapır. Belə ki son 3 il ərzində bu sahə ümumilikdə 38,5 faiz artaraq 1,7 milyard ABŞ dolları təşkil etmişdir. 167 növ yeni məhsulun ixracına başlanılmış, ixrac olunan qeyri-neft məhsullarının çeşidi üç mini ötmüşdür. Qeyri-neft məhsullarının ixracında 452 milyon dollarlıq artımın 60 milyon dollarlıq hissəsi yeni məhsulların ixracı hesabına formalaşmışdır. Qeyd edilməlidir ki, ixracın şaxələndirilməsi ilə yanaşı, sahibkarlara yaradılmış





imkanlar xarici ticarətlə məşğul olan biznes subyektlərinin sayında əhəmiyyətli artıma gətirib çıxarmış və 79 faizlik artım müşahidə olunmuşdur. Bu, artan iqtisadi fəallığın və şəffaflığın əyani göstəricisidir. Eyni tendensiya 2019-cu ilin altı ayında da davam etmiş, qeyri-neft ixracı 15 faiz səviyyəsindən artaraq 980 milyon dollar təşkil etmiş, ticarət tərəfdaşlarının, mal çeşidlərinin və ticarət iştirakçısı biznes subyektlərinin sayında artım qeydə alınmışdır.

"Bundan sonra bizim qarşımızda duran əsas məsələ qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın səmərəliliyinin təmin edilməsidir" fikrini Prezident İlham Əliyev heç də təsadüfən qeyd etməmişdir. Bu baxımdan həyata keçirilən liberallaşma tədbirləri, xüsusilə də institusional islahatlar ölkə iqtisadiyyatında ciddi keyfiyyət dəyişiklikləri kimi qiymətləndirilmişdir.

Respublikamızın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul edilmişdir. Konsepsiya qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, ətraf mühitin mühafizəsi və s. məsələləri əhatə edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2019-cu ildə ölkəmizdə sosial-iqtisadi islahatların yeni mərhələsinə başlanılmışdır. Bu məqsədlə "2019–2023-cü illərdə sosial-iqtisadi inkişafın Dövlət Proqramı" qəbul edilmişdir. Dövlət Proqramında dayanıqlı iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələndirilməsi, investisiyaların cəlbi, ölkə əhalisinin maddi rifahının yaxşılaşdırılması və s. məsələlər öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, aparıcı beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin həyata keçirdiyi islahatları yüksək qiymətləndirir. Görülən tədbirlərin nəticəsidir ki, Dünya Bankının "DOİNG BUSİNESS" hesabatında ölkəmizin reytinqi daim yüksəlir. Artıq Azərbaycan bu reytinqdə 190 ölkə arasında 28-ci yerdə qərarlaşmış, eyni zamanda dünyanın 10 ən islahatçı ölkəsi sırasına daxil edilmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş siyasət, dərin islahatlar nəticəsində uzun illər ərzində yaradılmış iqtisadi və hərbi potensial Şanlı Ordumuzun düşmən üzərində parlaq və qəti qələbəsini şərtləndirmişdir.

# PREZİDENT, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVİN VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ DİPLOMATİYASI VƏ ZƏFƏR SALNAMƏSİ

IV

FƏSİL



# HƏRBİ ƏMƏLİYYAT PLANLARININ HAZIRLANMASI VƏ İDARƏ EDİLMƏSİ

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan böyük Zəfər Azərbaycan tarixinin ən möhtəşəm səhifələrindən biri olmaqla yanaşı, artıq dünya hərb salnaməsinə də dərin iz saldı. Ali Baş Komandanımızın müdrik hərbi strategiyası əsasında Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi zamanı rəşadət və şücaət göstərərək düşmənin 30 ildən artıq davam edən hərbi təcavüzünə son qoymaqla Vətən və xalq qarşısında olan şərəfli vəzifəsini layiqincə yerinə yetirdi.

Prezident İlham Əliyevin bu qətiyyəti ölkəmizə hərbi nailiyyət qazandırmaqla yanaşı, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi, bölgənin inkişafı üçün həlledici amilə çevrildi, həmçinin yeni və daha effektiv hərbi, siyasi, iqtisadi və ticarət konfiqurasiyasının formalaşmasına, region ölkələri və xalqları arasında sağlam əməkdaşlıq mühitinin yaranmasına istiqamət verdi.

Fəxrlə qeyd etmək lazımdır ki, Azərbaycan Prezidentinin, xalqının və ordusunun müəllifləri olduğu böyük Zəfər qlobal miqyaslı hadisədir. Bu baxımdan, Qələbəmiz Azərbaycan müstəvisindən daha çox, məhz Cənubi Qafqaz bölgəsinin, Avrasiya platformasının inkişafı baxımından xüsusi strateji əhəmiyyət kəsb edir.

## Genişmiqyaslı hərbi islahatlar Qələbəyə aparan yolun əsasını qoydu

Azərbaycanın döyüş meydanında qələbəsini şərtləndirən əsas amillər güclü dövlət, zəngin iqtisadiyyat, siyasi iradə, məqsədyönlü diplomatiya və ordu quruculuğunda aparılan genişmiqyaslı islahatlardır. Bütün bunlar nəticə etibarilə ölkənin Silahlı Qüvvələrinin gücünü formalaşdırır. Bu sahələrin vəhdətini və eyni vaxtda uğurlu olmasını təmin edən şəxs isə bacarıqlı dövlət başçısıdır.





Tarixdə bu yanaşmanı təsdiq edən minlərlə fakt var. Biz isə bunu Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin yorulmaz fəaliyyətində, dövlətimizin əldə etdiyi nailiyyətlərdə və qazanılan böyük Zəfərdə aydın gördük.

Prezident İlham Əliyev 2013-cü ilin oktyabr ayında məni müdafiə naziri təyin edərkən bir sıra tapşırıq və göstərişlər verdi, Silahlı Qüvvələrdə islahatların yeni və daha səmərəli mərhələsinin başlandığını bildirdi. Ordu quruculuğunda tam yeni yanaşmaların, daha effektiv metod və üsulların, dünyanın müasir hərbi innovasiyalarının tətbiqini vacib sayan Ali Baş Komandan birmənalı bəyan etdi ki, Azərbaycan Ordusunun bütün şəxsi heyəti peşəkar və istənilən vaxt tarixi vəzifənin icrasına tam hazır olmalıdır.

Peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir. Bunun üçün uzun illər, bəzən onilliklər lazım olur. Bizim işimizi yüngülləşdirən və əvvəlcədən də nəticənin uğurlu olacağına təminat verən amil Ali Baş Komandanın bu proseslə bağlı aydın təsəvvürlərinin və onun rəhbərliyi altında aparılan hərbi islahatların konkret istiqamətləri üzrə dəqiq proqramının olmasıdır. Həmçinin yeni hərbi islahatlar və quruculuq tədbirləri birbaşa olaraq möhtərəm Prezidentin, cənab Ali Baş Komandanın şəxsi nəzarəti, diqqəti və himayəsi altında idi. Bu isə, ilk növbədə, məsuliyyət, səmərəlilik və şəffaflıq kimi meyarların təmin edilməsini nəzərdə tutur.

Prezident İlham Əliyevin müdrik hərbi strateq olmasını qeyd etməyim də, əslində, elə bu fakta əsaslanır. Vətən müharibəsi bir daha təsdiq etdi ki, Prezident nəinki Silahlı Qüvvələrin peşəkarlığını formalaşdıran və artırılmasına xidmət edən təkmil nəzəriyyənin müəllifidir, o eyni zamanda bu nəzəriyyəni olduqca mürəkkəb şəraitdə, döyüş meydanında, gərgin hərbi əməliyyatlarda uğurla tətbiq etməklə qələbəni təmin edən Müzəffər Ali Baş Komandandır.

Ordunun təşkilati-ştat strukturunun təkmilləşdirilməsi və yenidən təşkili tədbirləri Ali Baş Komandan tərəfindən prioritet kimi elan olundu. Silahlı Qüvvələrin hissə və birləşmələrinin operativ və keyfiyyətli idarəetmə sistemi yaradıldı. Döyüş qabiliyyəti tələb edən vəzifələrə ixtisaslı mütəxəssislərin təyin edilməsi prosesi sürətləndirildi. Silahlı Qüvvələrin fəaliyyətini təmin edən və tənzimləyən qanunvericilik bazası daha da təkmilləşdirildi, muvafiq hüquqi sənədlər, şəxsi heyətin sosial təminatını yüksəldən proqramlar qəbul olundu.

Digər mühüm istiqamət bölmələrin silahlanmasıdır. Dünyanın ən müasir, yeni nəsil silah və hərbi texnikasının Azərbaycan Ordusunun arsenalına daxil edilməsi məsələsi birbaşa Ali Baş Komandanın şəxsi nəzarətindədir. Döyüş hazırlığının artırılması və düşmən üzərində daim hərbi üstünlüyü saxlamaq məqsədilə ordumuzun silahlanmasına inkişaf etmiş ölkələrin hərbi sənayesinin istehsalı olan yüksək dəqiqlikli, müasir və keyfiyyətli silah və döyüş texnikası, eləcə də digər hərbi təyinatlı məhsullar daxil edilir. Ali Baş Komandanın tapşırığı ilə hərbi və hərbi-texniki əməkdaşlıq ənənəvi tərəfdaş ölkələrlə yanaşı, NATO-ya üzv dövlətlərlə də fəal şəkildə həyata keçirilir.

Prezidentin rəhbərliyi altında aparılan hərbi islahatların digər istiqaməti şəxsi heyətin döyüş qabiliyyətinin artırılmasını təmin edən hərbi infrastrukturun təkmilləşdirilməsi və yenilənməsidir. Son 8 il ərzində Ali Baş Komandanın birbaşa göstərişi ilə Azərbaycan Ordusunun birləşmə, hərbi hissə və əlahiddə bölmələrinin mövcud dislokasiya yerlərinin infrastrukturu, hərbi şəhərciklərin, təlim poliqonlarının və digər hərbi təyinatlı obyektlərin təxminən 90 faizi yenidən tikilib. Şəxsi heyətin məişət şəraiti, qidalanması, geyimlə təmin edilməsi və digər bütün təminat növləri ilə bağlı məsələlər tam həcmdə həll edilib. Bu sahədə Azərbaycan Ordusu dünyada ən yaxşı göstəricilərdən birinə malikdir.

Xidməti-döyüş fəaliyyətlərinin icrasında da əhəmiyyətli dönüş yaranıb. Ali Baş Komandanın tapşırığı ilə şəxsi heyətin sırf döyüş hazırlığı ilə məşğul olması məqsədilə mətbəx, təmizlik və digər məişət işlərinin görülməsi üçün müvafiq vəzifələrə mülki vətəndaşlar cəlb olunub. Beləliklə də, şəxsi heyət təsərrüfat və məişət işlərindən uzaqlaşaraq, yalnız hərbi xidmətlə bağlı tapşırıqların icrasına cəlb edilib. Həyata keçirilən bu islahatların nəticəsində 20 mindən artıq mülki vətəndaşımız yeni iş yerləri ilə təmin olunub.

Möhtərəm Prezident hərbi qulluqçuların sosial təminatının və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yeni hərbi şəhərciklərin, daimi və xidməti mənzillərin istifadəyə verilməsi prosesini sürətləndirib. Bununla yanaşı, hərbi qulluqçuların vəzifə maaşlarının, müavinətlərinin artırılması da ardıcıl hal alıb.





## Ordu quruculuğu prosesində keyfiyyət dəyişikliyi

Beynəlxalq hərbi əməkdaşlıq sahəsində həyata keçirilən tədbirlər uğurlu nəticələr verdi. Xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla qarşılıqlı maraqlar çərçivəsində tərəfdaşlıq münasibətlərinin qurulması nəticəsində hərbi, hərbi-texniki, hərbi-təhsil və bir sıra digər sahələrdə ikitərəfli və çoxtərəfli formatda səmərəli münasibətlər formalaşdı. Hərbi fəaliyyətin müxtəlif istiqamətləri üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi imkanlarının genişləndirilməsi, ordumuzun döyüş qabiliyyətinin və peşəkarlığının artırılması, xarici dövlətlərin silahlı qüvvələri ilə qarşılıqlı koordinasiyanın təşkil edilməsi, beynəlxalq və regional təhlükəsizliyə təhdid yaradan böhranların, silahlı münaqişələrin qarşısının alınması və nizamlanması, həmçinin sülhməramlı əməliyyatlarda iştirakın təmin edilməsi baxımından faydalı əməkdaşlıq mühiti yaradıldı.

Ali Baş Komandanın verdiyi əsas tapşırıqlardan biri də Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) ilə hərbi əməkdaşlığın inkişaf etdirilməsidir. NATO ilə əhəmiyyətli tərəfdaşlıq mexanizmlərindən səmərəli istifadə edərək, strateji sənədlərin işlənib-hazırlanması, hərbi təlimlərdə və tədris məşğələlərində müasir standartların tətbiqi, sülhməramlı qüvvələrin hazırlığı, şəxsi heyətin idarə olunması, ərazi sularında dəniz infrastrukturlarının təhlükəsizliyi, maddi-texniki təminat, qabaqcıl təcrübələrin öyrənilməsi, kibertəhlükəsizlik, enerji təhlükəsizliyi, hava məkanına nəzarət və digər hərbi sahələrdə böyük təcrübə qazandıq. Təhlükəsizlik məsələləri ilə yanaşı, Azərbaycan-NATO əməkdaşlığı elm, təhsil sahəsində də uğurla inkişaf etdirilir. Bu əməkdaşlıq çərçivəsində Azərbaycan Ordusunun sülhməramlı kontingenti bu günədək Kosovo, İraq və Əfqanıstanda nümunəvi xidmət göstərərək NATO rəhbərliyi tərəfindən daim yüksək qiymətləndirilib. Hazırda da sülhməramlılarımız BMT-nin Cənubi Sudanda keçirdiyi sülhməramlı missiyasında müşahidəçi qismində iştirak edir.

Bundan əlavə, Azərbaycan Ordusunun nümayəndələri xarici ali hərbi məktəblərdə və kurslarda təhsil alır, mütəxəssislərin və Xüsusi Təyinatlı Qüvvələrin beynəlxalq yarışlarında, sərgilərdə və forumlarda, nazirlər və baş qərargah rəisləri səviyyəsində keçirilən iclas və konfranslarda fəal iştirak edirlər.

Əlbəttə ki, beynəlxalq hərbi əməkdaşlıq sahəsində ən önəmli strateji tərəfdaş məhz Türkiyə Respublikası və onun Silahlı Qüvvələridir. “Bir millət – iki dövlət”in qardaşlıq fəlsəfəsinə uyğun olaraq, ordularımız da hərbi sahənin istisnasız olaraq bütün istiqamətləri üzrə faydalı, səmərəli, məhsuldar münasibətlər yaradıb, mükəmməl təcrübə mübadiləsi keçiblər. Hazırda bu proseslər yüksək templə davam etdirilir. Türkiyə təlim və tədris, döyüş vərdişlərinin təkmilləşdirilməsi, mənəvi-psixoloji hazırlıq, yeni nəsil hərbi texnikaların tədarükü və bir sıra digər sahələrdə Azərbaycan Ordusuna hər zaman yardım göstərib.

Şəxsi heyətin bilik, bacarıq və döyüş hazırlığının yüksəldilməsi üçün aparılan sistemli islahatlar çərçivəsində Azərbaycan Ordusunun təlim və tədris mərkəzlərinin fəaliyyəti təkmilləşdirilib. Müasir tələblərə cavab verən hərbi təhsil sistemi formalaşdırılıb. Heydər Əliyev və Cəmşid Naxçıvanski adına hərbi liseylər, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Silahlı Qüvvələrin Hərbi Akademiyası, həmçinin Tibb Universitetinin Hərbi Tibb fakültəsi ordumuzun şəxsi heyətinin Vətənə sadiq, savadlı və peşəkar formalaşmasında böyük rol oynayır.

Bu hərbi təhsil müəssisələrində pedaqoji fəaliyyətin müasir təhsil sistemlərinə uyğunlaşdırılması, mükəmməl təcrübə prosesi ilə uzlaşdırılması və tədrisin keyfiyyətinin davamlı şəkildə yüksəldilməsi üçün kifayət qədər işlər görülüb və proses bu gün də davam etdirilir.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi məqsədilə bütün hərbi birlik, birləşmə və hissələrdə şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsi və mənəvi-psixoloji hazırlığı istiqamətində məqsədyönlü iş aparılır. Xalq ilə ordu arasında vəhdəti daha da möhkəmləndirən addımlar vətəndaşlarımızın Azərbaycan Ordusuna inamının əhəmiyyətli dərəcədə yüksəlməsini, ictimai etimadın artmasını təmin edir.

## Komandanlığın İlham Əliyev nümunəsi

Qeyd etdiyim faktlar Ali Baş Komandanın həyata keçirdiyi hərbi islahatlar konsepsiyasının müəyyən bir hissəsidir. Prezident Azərbaycan Ordusuna dair bütün məsələləri diqqət mərkəzində saxlayır. Məhz Ali Baş





Komandanın rəhbərliyi altında həyata keçirilən ordu quruculuğu nəticəsində bu gün Azərbaycan Ordusu çevik, peşəkar və müasir çağırışlara cavab verən ordu kimi formalaşıb.

Ali Baş Komandan qəbul etdiyi qərarların səmərəli icra yollarını bizə göstərməklə yanaşı, bütün proseslərin özünün şəxsi nəzarəti altında həyata keçirilməsini tələb edir. Qarabağın işğaldan azad olunması cənab Prezident üçün ən əsas məsələ idi. O bu məsələni daim diqqət mərkəzində saxlayır, hər gün konkret tapşırıqlar verirdi.

Ordunun döyüş hazırlığının, silahlanmanın, hərbi qulluqçuların maddi təminatının və digər məsələlərin vəziyyəti barədə dövlət başçısına gündəlik məruzə olunurdu. Müvafiq tapşırıq və göstərişlər alınır, onların operativ icrası təmin edilirdi. Cənab Prezidentin islahatlarının əsas hədəflərindən olan ordunun bütün hərbi hissələrinin vahid mərkəzdən operativ idarə edilməsinin təmin olunması ən böyük nailiyyətlərdən sayılmalıdır.

Ali Baş Komandan nəinki yeni tikilən böyük və orta miqyaslı hərbi infrastrukturların, hətta cəbhə xəttindəki səngərin vəziyyəti ilə də maraqlanırdı. Ordumuzla bağlı ən sadə detallar belə onun diqqətindən yayınmırdı. Onun tapşırığına əsasən, mən və nazirliyin rəhbər heyəti davamlı olaraq təmas xəttində, ən ucqar, ən hündür nöqtələrdə olarkən, cənab Prezidentə vəziyyətlə bağlı birbaşa oradan məruzə edilirdi. Bəli, Ali Baş Komandanın iş metodu, fəaliyyət üslubu belə idi, indi də eyni tərzdə davam edir.

Bu gün də dövlət başçısı ön xətdə yerləşən hərbi hissələri ziyarət edir, hərbi qulluqçularla dost kimi görüşür, qayğıları ilə maraqlanır, onları mükafatlandırır və onlarla bir süfrə arxasında yemək yeyir. Belə tədbirlər şəxsi heyətin mənəvi-psixoloji durumuna müsbət təsir göstərir və hərbi qulluqçularda xoş əhvali-ruhiyyə yaradır.

Cənab İlham Əliyevin göstərişinə əsasən və rəhbərliyi ilə müxtəlif hərbi təlimlərin keçirilməsi, hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması, ordumuzun müasir silah, hərbi texnika ilə təchiz edilməsi və bir sıra digər tədbirlər Azərbaycan Ordusunun Ermənistan ordusu üzərində qazandığı üstünlüyün qorunub saxlanmasını təmin edir.

## Zəfərə gedən yol

Bir faktı xüsusi vurğulamalıyam ki, Azərbaycan Ordusunun ən müasir, yeni nəsil silahlarla təchiz olunması, hərbi təlimlərdə məşq etdirilən xüsusi döyüş tapşırıqları Müdafiə Nazirliyi tərəfindən tam həcmdə açıqlanmırdı. Çünki müharibə vəziyyətində olan ölkənin hərbi güc potensialı məxfi saxlanılmalıdır. Lakin düşmən Azərbaycan Ordusunun güclü olduğunu çox yaxşı bilir və hərbi potensialımızda baş verən müsbət dəyişiklikləri diqqətlə izləyirdi. Ermənistanın xüsusi xidmət və hərbi kəşfiyyat orqanlarının bu məsələdə nə qədər həssas olduğunu bilirdik. Eyni zamanda anlayırdıq ki, Ermənistan vəziyyəti gərginləşdirmək məqsədilə hərbi təxribatlar planlaşdırır. Belə bir cəhd 2016-cı ilin 2–5 aprel tarixlərində baş verdi. Erməni silahlı qüvvələri bütün cəbhəboyu mövqelərimizi, yaşayış məntəqələrimizi, mülki infrastrukturu və dinc əhalini iriçaplı silahlardan və artilleriya qurğularından intensiv atəşə tutdu. Ordumuzun həyata keçirdiyi cavab tədbirləri, endirdiyi dəqiq zərbələr nəticəsində düşmən canlı qüvvə və döyüş texnikası sarıdan böyük itkilərə məruz qaldı və Ermənistanın törətdiyi təxribat onun özünün sarsıdıcı məğlubiyyəti ilə nəticələndi.

Əməliyyatların başladığı ilk dəqiqələrdən etibarən hərbi vəziyyəti və döyüşlərin idarə edilməsini Ali Baş Komandan birbaşa olaraq öz üzərinə götürdü. Prezident həmin gecə Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitindən qayıtdı. Aprelin 2-də Təhlükəsizlik Şurasının iclasını çağıraraq konkret əmr və göstərişlər verdi. Cənab Prezidentin rəhbərliyi ilə ordumuz qısa müddətdə Ermənistan silahlı bölmələrinə qarşı sarsıdıcı cavab tədbirləri həyata keçirdi, bütün istiqamətlərdən əks hücuma keçərək düşmən mövqelərinə ağır zərbələr endirdi.

Cəbhənin Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində yerləşən birliklər, artilleriya bölmələri və digər qoşun növlərinin əlaqəli fəaliyyəti nəticəsində qısa müddətdə həyata keçirilən sürətli əks-həmlə əməliyyatı zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti yarıldı, strateji əhəmiyyətə malik yüksəkliklər, ümumilikdə isə 2000 hektardan çox ərazi düşməndən azad olundu. Geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi də azad edilərək bölmələrimizin nəzarətinə keçdi. Döyüşlərdə düşmənə məxsus tanklar, artilleriya və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edildi, 300-dən çox hərbi qulluqçusu öldürüldü və 500-dən artıq hərbçisi yaralandı. Ermənistan silahlı qüvvələrinin komanda-qərargah məntəqəsinin darmadağın edilməsi ilə düşmənin çoxlu sayda hərbi qulluqçusu zərərsizləşdirildi. Erməni hərbi qulluqçuları vahimə içində silah-sursatlarını ataraq öz mövqelərindən təşvişlə geri çəkildi.





Ali rəhbərliyin tapşırığı ilə mən müdafiə naziri kimi yaşayış məntəqələrimizə düşmən tərəfindən vurulan zərbələrin dayandırılmayacağı təqdirdə, raket-artilleriya qoşunları da daxil olmaqla, ordumuzun bütün qoşun növlərinə sərəncamda olan ağır döyüş vasitələri ilə Xankəndi şəhəri və işğal olunmuş digər yaşayış məntəqələrində yerləşən Ermənistan silahlı birləşmələrinə aid hərbi hədəflərə, hərbi təyinatlı infrastruktur obyektlərinə dağıdıcı zərbələrin endirilməsinə hazır olmaları barədə göstəriş verdim. Biz Ermənistanın bu təxribatının qarşısını qətiyyətlə almağa hazır idik.

Aprelin 5-də vasitəçi dövlətlərin, beynəlxalq qurumların müraciətlərini nəzərə alan Azərbaycan rəhbərliyi atəşkəsə razılaşdı və Silahlı Qüvvələrimiz düşmənə qarşı əks-həmlə əməliyyatını dayandırdı, azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərinə başladı.

Bir məsələni xüsusi vurğulamalıyam. Aprel döyüşlərində Azərbaycan Ordusunun yalnız ön xətt bölmələri iştirak etdi. Ordumuz tam tərkibdə bu əməliyyatlara cəlb edilmədi, çünki buna heç ehtiyac da yox idi. Azərbaycan Ordusu artıq Ali Baş Komandanın tələb etdiyi səviyyəyə çatmış, peşəkar, hazırlıqlı, mütəşəkkil hərbçilərdən təşkil edilmişdi. Biz ordumuzun bir qismi ilə Ermənistan hərbi birləşmələrinin törətdiyi bu təxribatın qarşısını alıb Zəfər qazandıq.

Aprel döyüşləri Ali Baş Komandan İlham Əliyevin yeni mərhələdə həyata keçirdiyi hərbi islahatların və ordu quruculuğunun ilk təntənəsi idi. Bu əməliyyatlar Azərbaycan Ordusunun gücünü bütün dünyaya, o cümlədən Ermənistana bir daha nümayiş etdirdi.

2018-ci ilin aprelində Ermənistanda yeni qüvvələrin hakimiyyətə gəlməsi, təəssüf ki, onları ənənəvi təxribat cəhdlərindən çəkindirmədi. Həmin ilin may ayında Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan Muxtar Respublikası sahəsində düşmən növbəti təxribata əl ataraq vəziyyəti gərginləşdirməyə cəhd göstərdi.

2018-ci il mayın 20-dən 27-nə qədər bu istiqamətdə keçirilən Günnüt əməliyyatı zamanı Şərur rayonunun Günnüt kəndi, Ağbulaq, Qızılqaya və Qaraqaya yüksəklikləri, ümumilikdə 11 min hektardan artıq ərazi azad



olundu. Dərələyəz mahalının Arpa kəndi, dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin azad edilməsi nəticəsində isə böyük strateji əhəmiyyətə malik İrəvan–Yeğeqnadzor–Gorus–Laçın–Xankəndi avtomobil yolu, yəni böyük Zəfərədək işğal altında olan Qarabağ ərazisi ilə Ermənistanın cənubunu birləşdirən əsas magistral xəttin mühüm hissəsi nəzarətimiz altına keçdi. Beləliklə, Ermənistanın növbəti təxribatı onun növbəti məğlubiyyəti oldu.

## Qarabağ Azərbaycandır!

2018-ci il iyun ayının 26-da keçirilən möhtəşəm hərbi parad, həmçinin həmin ilin 15 sentyabrında Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin paytaxtımızda baş tutan birgə hərbi paradları bütün dünyada, o cümlədən təcavüzkar ölkədə ordumuzun hərbi potensialı, hazırlığı və döyüş əzmi barədə konkret təsəvvür yaratdı. Artıq hər kəsə aydın idi ki, Azərbaycan Ordusu Qarabağda ədalətli zəfəri tam bərpa etmək iqtidarındadır.





Lakin dövlətimiz sülh danışıqlarına sadiqliyini daim bəyan edir və bunu əməli fəaliyyətində göstərirdi. 2019-cu ilin mart ayında Nyu-Yorkda Ermənistan müdafiə nazirinin səsləndirdiyi "Yeni ərazilər üçün yeni müharibə" avantürası, həmin ilin mayında isə Baş nazir N.Paşinyanın Şuşada söylədiyi "Qarabağ Ermənistandır və nöqtə" cəfəng sərsəmləməsi düşmənin hələ də yalançı miflərin əsiri olduğunu, real vəziyyəti anlamadığını və əvvəlki məğlubiyyətlərdən nəticə çıxarmadığını göstərirdi.

2019-cu il oktyabr ayının 4-də "Valday" Beynəlxalq Diskussiya Klubunun sessiyasında Prezident İlham Əliyevin bəyan etdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" fikri bir an içində Azərbaycan dövlətinin və xalqının yeni məramına çevrildi.

Azərbaycan Ordusunun şəxsi heyəti də "Qarabağ Azərbaycandır!" milli şüarını müasir dövrün yeni çağırışı, səfərbəredici hədəfi kimi qəbul etdi. Ali Baş Komandanın "Nida" işarəsi dedikdə, məhz Silahlı Qüvvələr amilini nəzərdə tutduğunu tək biz hərbçilər deyil, bütün xalqımız, bütün dünya anlayırdı.

2020-ci ilin əvvəllərindən etibarən Ermənistanın istər cəbhəboyu zonada, istərsə də diplomatik aləmdə təxribatlarının sayı artmağa başladı. Həmin ilin fevral ayında Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin N.Paşinyanın bütün iddialarını dəlillərlə ifşa etməsi sonuncunun özünü bir daha gülünc vəziyyətə qoyaraq biabır etməsi Azərbaycan diplomatiyasının növbəti qələbəsi ilə nəticələndi. Azərbaycan qarşısında hər sahədə rəzil duruma düşən Ermənistan rəhbərliyi 2020-ci ilin iyul ayında növbəti silahlı təxribatlara əl atdı.

Həmin dövrdə Silahlı Qüvvələrdə döyüş hazırlığının artırılması istiqamətində aparılan tədbirlər daha intensiv hal aldı. Ali Baş Komandanın tapşırığına və illik döyüş hazırlığı planına uyğun olaraq iyul ayının əvvəllərində Azərbaycan Ordusunun cəbhəboyu zonada yerləşən hərbi hissələrində, o cümlədən Naxçıvanda Əlahiddə Ümumqoşun Orduda genişmiqyaslı hərbi təlimlər başladı. Eyni zamanda Ali Baş Komandanın ideoloji işin gücləndirilməsi ilə bağlı irəli sürdüyü tələblərə əsasən, şəxsi heyətin döyüş, mənəvi-psixoloji və fiziki hazırlıq, həmçinin hərbi nizam-intizam durumu öyrənilirdi.

Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində qoşunların döyüş qabiliyyətinin, şəxsi heyətin isə döyüş ruhunun yüksəlməsini hərbi hissələrdə keçirdi-

yim çoxsaylı görüşlərdə şəxsən müşahidə etdim. Ön xətdə xidmət edən hərbi qulluqçularla görüşlərim, həmçinin üzbəüz yerləşən düşmən mövqelərini müşahidələrim ordumuzun nəinki düşmən təxribatına layiqli cavab verməyə, hətta Zəfər qazanmağa tam hazır olduğunu bir daha təsdiq etdi.

## Həlledici döyüşdən öncəki sınaq

Təxribatçı əməllərindən əl çəkməyən Ermənistanın daha bir diversiyasının qarşısının alınması məqsədilə keçirilən və tarixə Tovuz döyüşləri kimi düşən cavab tədbirləri zamanı Azərbaycan Ordusu növbəti dəfə düşmənə sarsıdıcı zərbələr vurdu.

2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından da istifadə etməklə mövqelərimizi atəşə tutdu. Düşmənin məqsədi yeni əraziləri ələ keçirmək idi. Lakin işğalçı qüvvələrin irəliləməsinin qarşısı qətiyyətlə alındı, onlar itki verərək geri çəkildilər və ərazi itkisinə yol verilmədi. Əməliyyat şəraiti Azərbaycan Ordusunun tam nəzarəti altında oldu.

Təhlükəsizlik Şurasının 13 iyulda keçirilən iclasının qapalı hissəsində Prezident İlham Əliyev hərbi vəziyyəti təhlil edərək konkret tapşırıqlar, göstərişlər verdi. İyulun 17-dək davam edən düşmən təxribatına qarşı bölmələrimiz tərəfindən sərt cavab tədbirləri görüldü. Azərbaycan Ordusu bölmələrinin daha üstün silahlarla endirdiyi dəqiq zərbələrlə qarşı tərəfin müxtəlif təyinatlı hərbi və avtomobil texnikaları, zirehli transportyorları, döyüş vasitələri, artilleriya qurğuları, komanda, idarəetmə və dayaq məntəqələri, qərargahları, hərbi infrastrukturu, atəş mövqeləri, müdafiəsinin dərinliyindəki ehtiyatlar, köməyə gəlməyə çalışan bölmələri və xeyli sayda canlı qüvvəsi məhv edildi. İyulun 17-dən etibarən vəziyyət qismən stabilləşsə də, atəşkəs rejiminin pozulması davamlı hal aldı.

Tovuz döyüşlərində 12 hərbi qulluqçumuz və 1 mülki şəxs həlak oldu. Düşmənin isə xeyli sayda hərbçisi məhv edildi, onlarla döyüş texnikası sıradan çıxarıldı. Bu döyüşlərdə general və polkovnik rütbəli hərbi qulluqçularımızın şəhid olması sübut etdi ki, ali rütbəli zabitlərimiz də əsgərlərlə bir sırada, ön xətdə döyüşürdülər. Hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş hərbi qulluqçular və şəhidlərimiz cənab Prezidentin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olundu.





Tovuz döyüşləri yeni ərazilərin işğalına yönəlmiş Ermənistanın növbəti uğursuz təxribat cəhdi idi. Bu diversiyanın da qarşısı əvvəlkilər kimi qətiyyətlə alındı və erməni ordusunun bir çox strateji mövqeləri darmadağın olundu. Bu döyüşlər həm də Azərbaycan Ordusu üçün bir sınaq oldu. Bütün şəxsi heyətin yüksək döyüş hazırlığına malik olduğu növbəti dəfə təsdiqləndi. Ordumuz bu döyüşdə də birmənalı olaraq əks hücuma keçərək düşmənə daha böyük zərbələr endirə bilərdi. Lakin bu cinahda qarşımızdakı hədəf məhz Ermənistan ərazisi olduğu üçün Ali Baş Komandan: "Biz ədalət savaşı aparırıq, heç kəsin torpağında gözümüz yoxdur", – deyərək atəşi dayandırmaq əmrini verdi.

Tovuz döyüşlərini səciyyələndirən vacib nəticələrdən biri də Azərbaycan xalqının Ali Baş Komandanın və Azərbaycan Ordusunun ətrafında daha sıx birləşməsi, Vətən uğrunda səfərbər olmaq arzusu idi. İyulun 14-dən 15-nə keçən gecə on minlərlə gənc Bakıda yürüş edərək Prezidentə və ordumuza həmrəylik nümayiş etdirdi. Növbəti günlərdə 50 mindən artıq gənc, xaricdə yaşayan soydaşlarımız, ehtiyatda olan hərbi qulluqçular, müharibə əlilləri və veteranlar könüllü olaraq orduda xidmət etmək arzularını bildirərək qeydiyyata alınmaq üçün müraciət etdilər.

Artıq xalq, Ali Baş Komandan və Azərbaycan Silahlı Qüvvələri torpaqların azad edilməsi üçün həlledici döyüşə və Böyük Zəfərə tam hazır idi.

## İlk günün ilk saatı Zəfərlə başladı

Sentyabrın əvvəllərindən etibarən cəbhə xəttində erməni silahlı qüvvələrinin aktivliyinin artması, ayın ortalarından isə döyüş hazırlığı tədbirlərinin bütün istiqamətlərdə keçirilməsi kəşfiyyat məlumatları əsasında təsdiqləndi. Ermənistanın artıq təxribata yox, müharibəyə hazırlaşması aydın görünürdü. Düşmən tərəfindən mövqelərimizin mütəmadi atəşə tutulması, eyni zamanda təmas xəttini keçmək cəhdləri intensivləşirdi. Təbii ki, biz də fəaliyyətsiz deyildik. Şübhəsiz, qoşunlarımızın yüksək döyüş hazırlığı baş verə biləcək hər hansı təxribatın qarşısını almaq üçün kifayət edirdi.

Sentyabrın 27-də saat 06.00 radələrində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlara başlaması xəbəri dərhal mənə bildirildi.



Prezident İlham Əliyev Vətən müharibəsinin başlaması ilə əlaqədar xalqa müraciət edərkən. 27 sentyabr 2020-ci il

Vəziyyət barədə ölkə başçısına məruzə edildikdən sonra Ali Baş Komandan hərbi əməliyyatların idarə etməsini birbaşa öz üzərinə götürdü.

Bəli, 44 günlük Vətən müharibəsinin ilk dəqiqəsindən sonunadək döyüş əməliyyatlarına Ali Baş Komandanın özü şəxsən rəhbərlik edirdi.

Düşmənin mövqelərimizi və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində mülki əhali arasında şəhid və yaralananlar oldu. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəydi. Ali Baş Komandanın tapşırığı ilə Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin təxribatının qarşısını almaq, həmçinin qoşunların qarşıdurma xəttinə yaxın ərazilərdə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirlərinə başladı və düşmənin hərbi obyektlərinə, atəş nöqtələrinə sarsıdıcı zərbələr endirdi.

Elə ilk həmlədən qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət etdi və cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susduruldu. Ardınca da qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatı başladı.





Ali Baş Komandan bütün prosesləri çevik idarə edirdi. Günorta saatlarında xalqa müraciətində baş verən hadisələr barədə ictimaiyyəti məlumatlandırdı və bu təxribatı "erməni faşizminin növbəti təzahürü" adlandırdı. Prezidentin: "Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!" – kimi sözləri xalqda ilk andan böyük qələbə əzmi, ruh yüksəkliyi yaratdı.

Bu müraciətdən sonra Təhlükəsizlik Şurasının iclasını keçirən Ali Baş Komandan birmənalı bəyan etdi ki, "bizim uğurlu əks-hücum əməliyyatımız işğala və ədalətsizliyə son qoyacaq!"

İclasda etdiyim məruzədə Ali Baş Komandana onun rəhbərliyi ilə başlamış əks-hücum əməliyyatının ilk saatlarının qələbə hesabatını verdim. Ermənistan silahlı qüvvələrinin ön xəttinin yarılması, ordumuzun zərbələrinin artıq düşmən müdafiəsinin dərinliyindəki mövqelərə endirilməsi və rəşadətli ordumuz tərəfindən Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndlərinin işğaldan azad edildiyi barədə məruzə etdim. Eyni zamanda Ağdərə və Murovdağ istiqamətlərindəki hakim yüksəkliklərdə yerləşən düşmən postlarının da darmadağın edilərək nəzarətə götürüldüyünü bildirdim.

Həmin gün düşmənin 3 silah-sursat anbarı, 22 tank və digər zirehli texnikası, 15 "OSA" zenit-raket kompleksi, 18 pilotsuz uçuş aparatı, 8 artilleriya qurğusu, 550 nəfərdən artıq canlı qüvvəsi məhv edildi. Bu göstəricilər ilk günün böyük uğurları idi və cəbhə xəttində üstünlüyün sonadək bölmələrimizdə olmasını təmin etdi.

Ali Baş Komandanın göstərişi ilə həmin gündən etibarən düşmənin hərbi infrastrukturu və döyüş texnikasının məhv edilməsinin aeroçəkilişləri ictimaiyyətə təqdim edildi. Bu kadrlar xalqımızda yüksək əhvali-ruhiyyə, qələbəyə sarsılmaz inam, erməni ordusunda və cəmiyyətində isə böyük xaos, təşviş və çaşqınlıq yaradırdı.

Bir məqama da toxunum. Ali Baş Komandanın mənə ilk gündən verdiyi tapşırıq və göstərişlərində əsas tələblərdən biri əməliyyat planlarında şəxsi heyət itkisinin minimum səviyyəyə endirilməsini təmin etmək idi. Möhtərəm Prezident hər bir hərbi qulluqçunun həyatına önəm verir, onun təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət yetirilməsini tələb edirdi. Onun üçün hər bir hərbi qulluqçunun sağ qalması olduqca önəmli idi. Ona görə də əməliyyat planlarının hazırlanmasında bu tapşırığı əsas götürür, icrasına məsuliyyətlə yanaşırdıq.

Döyüş əməliyyatlarının gedişi bu tapşırığın icrasının uğurlu olduğunu göstərdi. Şəhid olmuş bütün hərbçilərimizə Allahdan rəhmət, ailələrinə səbir diləyirəm. Hər bir şəhid yalnız ailəsinə deyil, bütün xalqımız və ordumuza böyük itkidir. Hərbi taktikaya görə, hücuma keçən ordunun itkisi müdafiə olunan ordunun itkisi ilə müqayisədə 3–4 dəfə çox olmalı idi, lakin tam əksi baş verdi. Müdafiədə olan düşmən qüvvələrinin itkisinin hücum mövqeyində olan Azərbaycan Silahlı Qüvvələrinin itkisindən dəfələrlə çox olması məhz Müzəffər Ali Baş Komandanımızın müdrik hərbi strategiyasının nəticəsi idi.

## Vətən müharibəsinə bütün xalq qoşulmuşdu

Sentyabrın 28-də Prezidentin sərəncamı ilə ölkədə qismən səfərbərlik elan olundu. Bu sərəncamda orduya cəlb ediləcək vətəndaşların konkret təsnifatının müəyyən edildiyi və bu prosesin mərhələli aparılacağı elan olunsa da, on minlərlə gənc, müharibə veteranı və əlili Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarələrinə və hərbi hissələrə kütləvi axın edərək dərhal döyüşə göndərilmələrini tələb edirdilər. Hər kəs tezliklə səfərbər edilmək və döyüşən ordunun bölmələrinə qoşulmaqla şanlı Qələbəmiz üçün vuruşmağa tələsirdi.

Bu barədə mən və digər müvafiq dövlət qurumları Ali Baş Komandana məlumatlar verirdik. Cənab Prezident gənclərin vətənpərvərliyi və israrlı mövqeyinə görə çox sevinir, fəxr etdiyini deyirdi.

Dövlətimizin başçısı bizə onlarla aydınlaşdırıcı söhbətlərin aparılmasını və məsələyə həssaslıqla yanaşmağı ciddi tapşırırdı. Biz də öz tərəfimizdən onlara izah edirdik ki, müəyyən döyüş hazırlığı məşqləri və təlimləri keçmədən döyüşə qatılmaq yolverilməzdir.

Şübhəsiz, xalqımızın bu əzminə, gənclərimizin belə mübariz və döyüşkən olmasına, habelə Vətənimizə olan hədsiz sevgisinə görə qürur duyurduq. Belə halların sayı-hesabı yox idi və ucqar bölgələrdən tutmuş paytaxtadək davam edirdi. Ermənistanda isə bunun tam əksi baş verirdi. Gənclər və hərbi xidmətə yararlı olan digər vətəndaşlar kütləvi şəkildə döyüşdən yayınır, müxtəlif bəhanələrlə ölkəni tərk etmək istəyirdilər.

Xüsusilə qeyd etmək istəyirəm ki, Vətən müharibəsində iştirak edən və qəhrəmancasına yaralanan, şəhid olan, habelə döyüşlərə qatılmaq üçün can atan bu cəsarətli gənclər Ali Baş Komandan cənab İlham Əliyevin formalaşdırdığı hərbi-vətənpərvərlik mühitində böyümüş nəslin nümayəndələridir. Bu gənclər böyük Qələbənin müəllifi olan Müzəffər Ali Baş Komandanın mübariz, vətənpərvər əsgərləridir. Bu şərəfli hadisələr tarixin yaddaşına həkk ediləcək və gələcək nəsillər biləcək ki, bu savaş bütün xalqın Vətən müharibəsi idi.





## Artıq ilk günlərdə düşmənin xeyli sayda itkisi var idi

Ali Baş Komandanın göstərişi ilə ehtimal olunan hərbi əməliyyatların planları hazırlanarkən təmas xətti boyunca düşmənin güclü və zəif mövqeləri, hərbi infrastrukturu, gizli hərbi obyektləri, təminat yolları, uzunmüddətli atəş nöqtələri, komanda-idarəetmə məntəqələri, canlı qüvvəsi, istifadəsində olan silah və hərbi texnika, həmçinin digər mühüm xüsusiyyətləri tərəfimizdən öyrənilir, araşdırılır və dəqiqliklə müəyyənləşdirilirdi.

Təəssüf ki, bu proses barədə məxfilik baxımından geniş danışmaq olmur. Sadəcə, onu demək kifayətdir ki, işğal altında olan ərazilərin hər bir qarışının coğrafi-topoqrafik vəziyyəti, orada yerləşən obyektlər bizə məlum idi.

Döyüşlər başlayarkən artıq masamızda əməliyyatların xəritələri və planları var idi. Onları döyüş şəraitinə uyğun müəyyən dəyişikliklər edərək tətbiq edirdik. Məsələn, döyüşlərin ilk günləri hərbi əməliyyatları şimal-şərq və şimal cəbhələrində, yəni Tərtər-Ağdam və Kəlbəcər istiqamətində keçirməyimiz nəticəsində düşmən bütün əsas qüvvələrini bu cəbhə xəttinə yönəltdi. Bu, Ali Baş Komandanın rəhbərliyi ilə hazırlanan əməliyyat planına tam uyğun idi. Yayındırıcı, çaşdırıcı manevrlə Azərbaycan Ordusu əsas hücumu cənub-şərq cəbhəsindən, Füzuli-Cəbrayıl istiqamətindən başladı.

Sentyabrın 30-dək düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki verərək bütün cəbhəboyu tutduğu bir çox mövqelərdən geri çəkilməyə məcbur edildi. Bu müddət ərzində düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 artilleriya qurğusu, yaylım atəşli raket sistemləri, minaatanı, 30 hava hücumundan müdafiə vasitəsi, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan artıq avtomobil texnikası, 1 "S–300" zenit-raket kompleksi və digər mühüm hərbi vasitələri darmadağın edildi, xeyli sayda döyüş texnikası qənimət götürüldü.

Suqovuşan istiqamətində gedən döyüşlər zamanı da düşmən istər canlı qüvvə, istərsə də hərbi texnika baxımından xeyli sayda itki verdi. Suqovuşanın azad edilməsindən sonra Ağdərə ilə Ağdamı birləşdirən əsas təminat yolu Azərbaycan Ordusunun nəzarətinə keçdi.

Həmin gün rəşadətli ordumuz həmçinin Tərtərin Talış kəndini, Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq, Füzulinin Aşağı Əbdürrəhmanlı kəndlərini də işğaldan azad etdi. Azərbaycan Ordusu artıq dayanmadan irəliləyirdi.

## Bütün istiqamətlərdə genişmiqyaslı əks-həmlə əməliyyatı

Oktyabr ayının 4-də Cəbrayıl şəhəri, həmin gün və səhərisi rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad, Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri də işğaldan azad edildi. Bu döyüşlərdə Azərbaycan Ordusunun müxtəlif hərbi birləşmələri, o cümlədən xüsusi təyinatlılar böyük qəhrəmanlıqlar göstərdilər.

Cəbrayılın təcavüzünə son qoyulması ilə Azərbaycan-İran sərhədinin böyük hissəsinə dövlət nəzarəti bərpa edildi. Eyni zamanda Azərbaycan Ordusunun Xocavəndin cənub kəndləri və strateji Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar keçirməsi üçün geniş imkanlar yarandı. Oktyabrın 18-də Xudafərin körpüsü üzərində Azərbaycan bayrağının dalğalanması isə bütün ölkəyə ruh yüksəkliyi bəxş etdi, ordunun şəxsi heyətində mübarizliyi və qələbə əzmini daha da artırdı.

Ümumiyyətlə, sentyabrın 27-dən noyabrın 9-dək, yəni döyüşlərin ilk günündən son anınadək Cəbrayıl rayonunun kəndləri uğrunda döyüşlər getdi. Nəticədə, Cəbrayıl şəhəri və rayonun 90 kəndi azad edildi.

Oktyabrın 9-da Qarabağın qapısı, Şuşanın açarı sayılan Hadrut qəsəbəsinin işğaldan azad edilməsi "Dəmir yumruq" əməliyyatının mühüm nailiyyətlərindən oldu. Ali Baş Komandan bu qələbəni tarixi Zəfər kimi dəyərləndirdi. Həqiqətən də, mürəkkəb relyefdə, qarşı-qarşıya dayanan yüksək dağ massivləri arasında yerləşən bu qəsəbə həm də Şuşaya doğru hücum istiqamətimizin əsas dayaq nöqtəsi idi.

Müharibənin ilk günlərindən Hadrut mühüm hədəfimizə çevrilmişdi. Ətraf ərazilərdəki erməni hərbi hissələrinin idarə edilməsi və təchizatı Hadrutdan həyata keçirilirdi, həm də burada böyük silah-sursat anbarı





vardı. Ali Baş Komandanın təsdiqlədiyi hərbi əməliyyat planına görə, Cəbrayıl şəhərinin və rayonunun azad olunmasından sonra ilk həmlə bu qəsəbə idi. Yüksək peşəkarlıqla hazırlanıb, böyük əzmkarlıq və şücaətlə icra olunan hərbi plana əsasən, cənub cəbhəsində irəliləyən Azərbaycan Ordusu düşmənin gözləmədiyi istiqamətə – Hadruta yönəldi.

Oktyabrın 7-dən başlayan ağır artilleriya döyüşləri iki gün sonra Hadrutun, eləcə də ətrafındakı yaşayış məntəqələrinin və strateji yüksəkliklərin Azərbaycan Ordusunun nəzarəti altına keçməsinə imkan verdi. Qoşunlarımızın bir qruplaşması düşmənin nəzarətində olan hakim yüksəklikləri azad etdi, digər qruplaşması isə Cəbrayıl və Xocavənd istiqamətindən gələn yolları nəzarətə götürərək Hadruta daxil oldu.

Hadrutun işğaldan azad edilməsi ilə erməni qoşunlarının cəbhənin digər istiqamətlərində müqaviməti zəiflədi, həm də ordumuzun sürətli hücumuna şərait yarandı. Azərbaycan Ordusu bu istiqamətdən Şuşaya doğru irəliləməyə başladı. Bizə məlum idi ki, düşmən Şuşaya hücumu, əsasən, Laçın dəhlizindən və Qırmızı Bazar istiqamətindən gözləyir.

Ardıcıl hücumlarımız ciddi müqavimətlə qarşılaşsa da, sürətlə davam edirdi. Ermənistan silahlı birləşmələri cəbhəboyu dinc sakinlərin məskunlaşdığı yaşayış məntəqələrimizi aramsız atəşə tuturdu. Ali Baş Komandanın vurğuladığı kimi, "təkcə orada qurulmuş istehkamlar deyil, eyni zamanda azad edilmiş torpaqların hərbi relyefi də ermənilər üçün daha sərfəlidir. Çünki biz indi həm onların istehkamlarına, onların toplarına, onların raketlərinə qarşı, eyni zamanda təbii relyefə qarşı vuruşmalıyıq və torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik".

Qarşıda Füzulinin, Xocavəndin, Cəbrayılın hələ azad olunmayan kəndləri, Qubadlı, Zəngilan vardı. Sonrakı hədəf isə, əlbəttə ki, Şuşa idi.

## Azərbaycan müharibəni ləyaqətlə apardı

Bu müddətdə Ermənistandan Azərbaycan ərazisində əhalinin kompakt yaşadığı məntəqələrə, mülki infrastruktura sistemli şəkildə raket zərbələri endirilirdi. Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunlarının Radiolokasiya sistemlərinin texniki vasitələri, demək olar ki, gün ərzində dəfələrlə Ermənistandakı start mövqelərindən Azərbaycan ərazilərinə atılan raket buraxılışlarını qeydə alırdı. Bu barədə düşmənə dəfələrlə xəbərdarlıq etdik

və mən bəyanat verdim ki, Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəşin açılması təxribatdır və döyüş bölgəsini genişləndirir.

**Ermənistan silahlı qüvvələri tərəfindən** Gəncə, Mingəçevir, Yevlax şəhərlərinə, Tərtər, Bərdə, Ağdam, Beyləqan, Goranboy, Ağcabədi, Göygöl, Tovuz, Gədəbəy rayonlarına, Naxçıvan ərazisinə, hətta cəbhə xəttindən uzaqda yerləşən Siyəzən, Qəbələ, Kürdəmir rayonlarına və digər yaşayış məntəqələrimizə raket, artilleriya zərbələri endirilir, mülki əhali arasında ölən və yaralananlar olurdu. Düşmən döyüşdə qadağan olunmuş kaset bombasından da istifadə edirdi. Bu müharibədə Ermənistan silahlı qüvvələri tərəfindən dinc vətəndaşlarımıza qarşı törədilmiş hərbi cinayətlər nəticəsində 100 mülki şəxs həlak oldu, 416 nəfər yaralandı, 4186 ev, 135 çoxmənzilli yaşayış binası, 548 mülki obyekt dağıdıldı və ya yararsız vəziyyətə düşdü.

Müharibə dövründə beynəlxalq vasitəçilərin, xüsusilə də Ermənistanın israrlı xahişləri ilə üç dəfə – oktyabrın 10-da, 18-də və 26-da humanitar atəşkəs razılaşması əldə olundu. Xüsusi qeyd edim ki, bu razılaşma Azərbaycanın ardıcıl davam edən hücum əməliyyatlarına, apardığı savaşın mahiyyətinə uyğun gəlmirdi, birmənalı xaos, təşviş içində olan erməni silahlı birləşmələrinin xilasına xidmət edirdi. Lakin elə hər üç atəşkəsi Ermənistan özü pozdu. **Birinci dəfə heç bir gün keçməmiş Gəncəni bombalamış,** ikinci və üçüncü dəfələrdə isə atəşkəsdən cəmi bir neçə dəqiqə sonra razılaşmanı pozmuş, yenə də xaincəsinə dinc sakinlərimizi aramsız atəşə tutmuşdu.

Azərbaycan Ordusu isə müharibənin gedişində dinc əhalini, mülki obyektləri və infrastrukturu əsla hədəfə almadı. Hədəfimiz atəş mövqeləri, hərbi obyektlər və hərbi infrastruktur oldu. Bu, Ali Baş Komandanımızın müharibənin ilk günü mənə verdiyi əmr idi. Azərbaycan Ordusu işğalçı Ermənistandan fərqli olaraq, hərbi əməliyyatlar zamanı Cenevrə konvensiyaları da daxil olmaqla, beynəlxalq humanitar hüququn müddəalarının tələblərinə uyğun hərəkət edirdi.

Ermənistan ordusu isə atəş nöqtələrini qəsdən mülki əhalinin yaşayış yerlərinə yaxın ərazilərdə, rayon və kəndlərin daxilində yerləşdirirdi. Bu təxribata qarşılıq olaraq döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan ölkəmizin erməni vətəndaşlarına Müdafiə Nazirliyi tərəfindən dəfələrlə müraciətlər edildi və bildirildi ki, onlar döyüşlər gedən bölgələrdən uzaq dursunlar. Hərbi əməliyyatlar zamanı erməni mülki vətəndaşlarımızın ağır döyüşlərdən ziyan çəkməməsi və ərazidən maneəsiz təxliyəsi üçün tərəfimizdən hər dəfə şərait yaradılırdı. Mülki əhali ilə Cenevrə





Gəncə. 11 oktyabr 2020-ci il
Azərbaycan müharibəni ləyaqətlə apardı... Ermənistan isə Azərbaycanın cəbhə bölgəsindən kənarda olan şəhər və rayonlarında – Gəncə, Bərdə, Tərtər, Ağdam, Mingəçevir və Naftalanda mülki əhaliyə hücum təşkil etdi.

konvensiyasının tələblərinə uyğun rəftar olunur, onların hüquqları qorunurdu. Azərbaycan Ordusu şəraitin imkan verdiyi hallarda erməni mülki əhalinin qabaqcadan məlumatlandırılmasını da həyata keçirirdi. Hərbçilərimiz hərbi əməliyyatlarda iştirak etməyən şəxslərin mühafizəsini təşkil edir, onlara tibbi və digər yardımlar göstərirdilər.

Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi nəzarətində olan sahələrdən biri də əks-həmlə əməliyyatlarında iştirak edən şəxsi heyətin təminat və təchizatının fasiləsiz təşkil edilməsi idi. Qoşunlarımızın ərzaq, geyim, məişət əşyaları, gündəlik tələbat məhsulları, silah-sursat, yanacaq-sürtkü materialları və digər zəruri vasitələrlə təminatı yüksək operativliklə həyata keçirilirdi.

## Bütün yollar Şuşaya aparır

Azərbaycan hərbçiləri döyüş meydanında hər gün Ermənistan silahlı qüvvələrinin bölmələrinə layiqli cavab verirdilər. Qoşunlarımız düşmənin müdafiə hədlərini müxtəlif istiqamətlərdə yarır, mövqelərindən sıxışdırıb çıxarır, qaçmağa məcbur edir və daim irəliləyirdi. Aparılan uğurlu hərbi əməliyyatlarla döyüş təcrübəsini hər saat daha da təkmilləşdirən şəxsi heyətimiz vacib istiqamətlərdə əlverişli hədd, yüksəklik və mövqeləri azad edərək nəzarətə götürürdü.

Bölmələrimiz düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırır, aktivliyinin qarşısını qətiyyətlə alır və darmadağın edirdi. Hər döyüş həftəsi ərzində minlərlə erməni döyüşçüsü ölür və yaralanırdı. Beləliklə, erməni qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə itir, bölmələr arasında nizamsızlıq yaranır, şəxsi heyətin intizamı, mənəvi-psixoloji durumu pozulurdu. Bəzi istiqamətlərdə müdafiə sahəsində düşmən ordusunun hərbi hissələri arasında qarşılıqlı əlaqənin olmaması nəticəsində onlar atəş açaraq bir-birini məhv edirdilər. Düşmən bölmələrində döyüş sursatları və yanacaq təminatında da ciddi problemlər mövcud idi. Müqaviməti qırılan erməni qüvvələrində döyüş mövqelərini özbaşına tərk etmək, texnikanı, silah-sursat və digər hərbi vasitələri ataraq qaçmaq, fərarilik kütləvi hal alırdı.

Azərbaycan Ordusu hərbi əməliyyatlarını uğurla davam etdirərək oktyabrın 17-də Füzuli şəhərini işğaldan azad etdi. Füzuli rayonunun bütün





ərazisi uğrunda döyüşlər isə müharibənin son gününədək davam etdi. Noyabrın 9-da rayonun daha 17 kəndi azad olundu. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 gün ərzində Füzuli şəhəri ilə yanaşı, rayonun 53 kəndi də işğalçılardan geri alındı.

Füzulinin azad olunması cənub istiqaməti üzrə yeni strateji həmlələrə əsaslı təkan oldu. Bir faktı xüsusi vurğulayım ki, şəhər azad olunarkən Azərbaycan bayrağını ucaltmağa bir tikili də tapılmırdı. Füzuli tamamilə viran edilmiş, dağıdılmış, xarabalığa çevrilmişdi.

Cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində davam edən şiddətli döyüşlər uğurla nəticələndi. Ali Baş Komandanın təsdiq etdiyi əməliyyat planına əsasən, Azərbaycan Ordusunun bölmələri əsas istiqamətlərdə nəzarətə götürdüyü əraziləri hər gün daha da genişləndirir, düşmənə ciddi zərbə vuraraq onun müqavimətini qırır, yeni mövqelərə doğru irəliləyirdi. Düşmənin canlı qüvvə baxımından ölən və yaralılarının sayı minlərlə idi, onların döyüş sursatları tükənmişdi, artilleriya qurğuları isə dəqiq zərbələrlə qoşunlarımız tərəfindən sıradan çıxarılırdı.

Oktyabr ayının 18-də Zəngilan uğrunda döyüşlər başladı. Ali Baş Komandanın əmrinə əsasən, qoşunlarımız yüksək əzmkarlıq və rəşadətlə hədəfə doğru irəliləyirdi. Oktyabr ayının 20-si Zəngilan şəhəri və 6 kəndin işğaldan azad edilməsi ilə bu cinahdakı əməliyyatımızın ilk mərhələsi uğurla nəticələndi. Oktyabrın 22-də isə rayonun Ağbənd qəsəbəsinin azad edilməsi ilə Arazboyu hərbi əməliyyatlar yekunlaşdı və Azərbaycan-İran sərhədi tam nəzarətə götürüldü.

Bu döyüşlər nəticəsində qoşunlarımızın bu istiqamətdən Qarabağın cənubuna, Zəngilan rayonunun kəndlərinə və Qubadlı rayonu ərazisinə irəliləməsi üçün strateji istiqamət açıldı. Ümumilikdə, Zəngilan rayonunun bütün ərazisi uğrunda döyüşlər son günədək aparıldı. Noyabrın 9-da isə rayonun daha 6 yaşayış məntəqəsi azad edildi. Vətən müharibəsində Zəngilan şəhəri, rayonun 3 qəsəbəsi və 52 kəndi işğaldan azad edildi.

Oktyabr ayının 22-dən artıq cəbhənin Qubadlı istiqaməti uğrunda döyüşlər başladı. Növbəti gün rayonun 4 kəndi, oktyabrın 25-i isə Qubadlı şəhəri işğaldan azad edildi. Azərbaycan Ordusu Zəngilandan sonra Qubadlıdan Ermənistanla sərhədə doğru irəliləyir, dövlət sərhədini qarış-qarış döyüşərək bərpa edirdi. Qubadlı uğrunda döyüşlər də son günədək davam

etdi. Noyabrın 9-da rayonun 15 yaşayış məntəqəsi, ümumilikdə isə müharibə dövründə 41 kəndi azad edildi.

Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlıdan sonrakı hədəf hamıya məlum idi. Bütün yollar artıq Şuşaya aparırdı.

## Hərbi əməliyyatlar Prezidentin vahid komandanlığı altında keçirilirdi

Hər gün təqdim edilən hərbi məruzələr Ali Baş Komandan tərəfindən dəqiqliklə öyrənilir və növbəti gün üçün yeni döyüş tapşırıqları verilirdi. Azərbaycan Ordusunun rəhbərliyi Prezidentin tapşırıqlarının uğurla icrasını planlaşdırır və yerinə yetirirdi. Düşmən qoşunlarına qarşı Azərbaycan Ordusunun əks-həmlə əməliyyatı keçirilir, yeni yaşayış məntəqələrinin azadlığı uğrunda döyüşlər aparılırdı. Döyüş əməliyyatları zamanı Prezident qeyd edirdi ki: "Əməliyyat planı tam icra edilir, əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu həm maddi-texniki təchizat baxımından, eyni zamanda döyüş hazırlığı baxımından döyüş meydanında tam üstünlüyə sahibdir".

Ali Baş Komandanın tapşırığı ilə mənim tərəfimdən mütəmadi xidməti müşavirələr keçirilir, cənab İlham Əliyevin strateji və taktiki tapşırıqları komandir-rəis heyətinə çatdırılır, əməliyyat planlarının gündəlik icrası və digər hərbi məsələlər müzakirə olunurdu. Əks-həmlə əməliyyatlarının mövcud vəziyyəti təhlil olunaraq düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsi istiqamətində göstərişlər verilirdi. Azad olunmuş ərazilərdə yerləşdirilən qoşunlara zəruri tədbirlərin görülməsi həvalə olunurdu. Azərbaycan Ordusuna arsenalındakı yüksək dəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi infrastrukturuna böyük zərbələr endirməyi əmr etmişdim.

Vətən müharibəsindən sonra Ali Baş Komandan bildirmişdi: "Biz əməliyyatların gedişini canlı rejimdə izləyirdik". Həqiqətən də, fasiləsiz koordinasiya nəticəsində cənab İlham Əliyev tərəfindən vahid komandanlıq həyata keçirilirdi. Bu prosesdə Prezident Azərbaycan Ordusunun rəhbərliyi ilə görüşməyə də xüsusi önəm verirdi.

Oktyabrın 7-də Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsinə gələn Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə operativ müşavirə





keçirildi. Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirədə cənab Prezident hərbi nailiyyətləri vurğulamaqla yanaşı, əməliyyatların gedişində yaranan sualların dərhal həlli və döyüşlərin daha keyfiyyətli aparılması ilə bağlı göstərişlərini verdi. Planlaşdırılan növbəti əməliyyatlara hazırlıqla əlaqədar vəziyyəti öyrənib, müvafiq əmrlərini verdi.

Oktyabrın 25-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində nazirliyin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə növbəti operativ müşavirə keçirildi. Ona müxtəlif bölgələrdə baş verən hadisələrlə bağlı operativ məlumatın daxil olduğunu, Müdafiə Nazirliyi və digər qurumlar tərəfindən daim məlumatlandırıldığını bildirən Prezident gün ərzində dəfələrlə hərbi komandanlıqla müşavirələr apardığını və vəziyyətin tam nəzarət altında olduğunu bəyan etdi.

Ali Baş Komandanın xüsusi tapşırığı işğaldan azad olunmuş bütün bölgələrdə təftiş işlərinin aparılması, bütün dağıntıların qeydə alınması, aktların tərtib edilməsi oldu. Müdafiə Nazirliyi və digər əlaqədar qurumlar Prezidentin bu göstərişinin icrasına dərhal başlayaraq müvafiq təftişin həyata keçirilməsi istiqamətində konkret işlər gördülər. Ermənistanın bu ərazilərdə törətdiyi hərbi cinayətlərə görə beynəlxalq hüquq qarşısında cavab verməsi üçün faktlar və sənədlərin hazırlanmasına başlanıldı.

Operativ müşavirənin gedişində cəbhə xəttindəki vəziyyət, ordunun hərbi, mənəvi-psixoloji durumu, təminat və təchizat məsələləri, yeni əməliyyat planları barədə Ali Baş Komandana məruzə edildi. Prezident ən kiçik detallar və proseslərlə bir daha dərindən maraqlandı, müvafiq tapşırıqlarını və əmrlərini verdi. Ali Baş Komandan artıq Azərbaycanın həlledici qələbəsinin qaçılmaz olduğunu bir daha bəyan etdi.

Prezidentin dediyi kimi, Vətən müharibəsi Azərbaycan Ordusu üçün böyük təcrübə idi. Prezident döyüşlərin ilkin nəticəsi olaraq bundan sonra ordu quruculuğunun daha effektiv üsullarla keçirilməsinin vacibliyini, silah arsenalının zənginləşdirilməsini, ən əsası isə müharibənin nəticələrinin ətraflı təhlil edilməsini qarşımızda vacib vəzifə kimi qoydu.

Əsas hissəsi məxfi davam edən müşavirə barədə onu əlavə edə bilərəm ki, növbəti mərhələ üçün hərbi hədəfləri dəqiqliklə müəyyənləşdirən Ali Baş Komandan hərbi əməliyyatların daha səmərəli aparılması barədə tap-



Prezident, Ali Baş Komandan İlham Əliyev Mərkəzi Komanda Məntəqəsində.
Müdafiə Nazirliyi, 7 oktyabr 2020-ci il



şırıqlar verdi. Mənim və cəbhə bölgəsində yerləşən hərbi birlik komandirlərinin təkliflərini, fikirlərini öyrəndikdən sonra Prezident öz qərarlarını elan etdi. Bu müşavirənin nəticəsi olaraq bütün cəbhəboyu hücumlarımız daha kəskin və uğurlu oldu.

Bundan əlavə, Vətən müharibəsi dövründə Müdafiə Nazirliyi tərəfindən Azərbaycanda akkreditə olunan xarici hərbi attaşelər, mətbuat nümayəndələri və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün davamlı brifinqlər keçirildi. İşğal olunmuş ərazilərdə aparılan əməliyyatların gedişi və azad olunmuş ərazilər, düşmən qüvvələrinə vurulmuş ziyan barədə məlumat verilir, mülki əhaliyə, həmçinin təmas xəttindən xeyli uzaqda yerləşən Azərbaycanın şəhər və rayonlarına düşmən tərəfindən raket və artilleriya zərbələrinin endirilməsi nəticəsində baş verən itkilərimiz barədə operativ və davamlı məlumatlar çatdırılırdı. Eyni zamanda qardaş Türkiyə Cümhuriyyətinin ordu rəhbərliyi başda olmaqla, digər ölkələrin hərbi rəsmiləri ilə də mənim mütəmadi təmaslarım olurdu.

## Vətən müharibəsinin Zəfər zirvəsi

Oktyabr ayının sonlarından cəbhə bölgəsində Şuşa ətrafındakı halqa cənubdan, şərqdən və qərbdən qoşunlarımız tərəfindən sıxılmağa başlanmışdı. Ali Baş Komandanın rəhbərliyi ilə hazırlanan və onun təsdiq etdiyi əməliyyat planının bütün detallarının, icra mexanizminin tam açıqlanması məxfilik baxımından bu gün mümkün deyil. İnanıram ki, müəyyən vaxt keçdikdən sonra Şuşanın Xilaskarı – cənab Prezident özü dünya hərb tarixinin ən möhtəşəm səhifələrindən birinə çevrilən bu qeyri-adi əməliyyat barədə öz xatirələrini ictimaiyyətlə bölüşəcək.

Xatırladım ki, Şuşanın 1992-ci ilin mayında işğalı Birinci Qarabağ müharibəsinin gedişini dəyişdirmiş, erməni silahlı birləşmələrinin hərbi üstünlüyünü təmin etmişdi. Bu hadisə onlarda böyük coşqu, Azərbaycan xalqında isə kədərli, faciəvi duyğular yaratmışdı. Şuşa Azərbaycanın tarixi simvolu olmasına baxmayaraq, Ermənistan da Şuşanı öz simvoluna çevirməkdən ötrü dəridən-qabıqdan çıxırdı. Xalqımız tarixi şəhərimizin işğalı ilə barışmayaraq onun azadlığını ən mühüm milli idealımız kimi müəyyənləşdirmişdi.

Şuşa ermənilər üçün həm də bütün Qarabağı nəzarətdə saxlayan strateji yüksəklik və bölgənin əsas müdafiə sütunu idi. Şuşa Xankəndinin müdafiəsini təmin edir. Onu Laçın dəhlizi vasitəsilə Ermənistanın Gorus vilayəti ilə bağlayan yol da məhz buradan keçirdi. Şuşanı azad etmək Vətən müharibəsinin ən mühüm zirvəsi idi.

Ali Baş Komandan əməliyyatın hazırlanması, ilkin icrası və gedişi prosesində komandanlığı şəxsən özü həyata keçirirdi. Günün hər saatı, hər dəqiqəsi əməliyyat barədə hərbi komandanlıqdan məlumat alır, konkret əmrlərini verirdi. Hər dəqiqə cənab Prezidentə yeni məlumat vermək üçün məruzələrimiz hazır olmalı idi.

Bölmələrimiz Laçın dəhlizinə doğru yaxınlaşmışdı. Oktyabrın son günlərindən Azərbaycan Ordusunun bölmələri, o cümlədən Xüsusi Təyinatlı Qüvvələr Şuşanın müdafiəsini yarmaq üçün müxtəlif istiqamətlərdən əməliyyata başladılar.

Əməliyyat hazırlanarkən cənab Prezidentin verdiyi tapşırıqlardan biri də o idi ki, Şuşanın mədəniyyət mərkəzi olduğu nəzərə alınmalı, şəhər dağıdılmadan, tarixi görkəmi qalmaq şərti ilə azad olunmalıdır. Yəni bu döyüşlərdə ağır artilleriyadan tam gücü ilə istifadə edə bilməyəcəkdik. Artilleriyadan, əsasən, Şuşa ətrafında olan Ermənistan qoşunlarının mövqeləri və atəş nöqtələri hədəf götürüldü və darmadağın edildi. Onlar həm canlı qüvvə, həm də hərbi texnika sarıdan çox böyük itki verdi. Biz isə doğma şəhərimizi, tarixi abidələrimizi artilleriya ilə vurmadıq, hava zərbələri endirmədik.

Havalar buludlu keçdiyindən pilotsuz uçuş aparatlarının imkanlarından da yararlana bilmədik və kəşfiyyatın aparılmasında müəyyən çətinlik yarandı. Lakin peşəkar, mübariz, əzmkar qoşunlarımız üçün bunlar maneə olmadı. Ordumuz Azərbaycan Prezidentinin, Azərbaycan xalqının onun qarşısında müəyyənləşdirdiyi bu tarixi vəzifəni ləyaqətlə icra etdi.

Müəyyən məsələlərə diqqət yetirmək istərdim. Kəşfiyyat məlumatına görə, ermənilər bizi iki istiqamətdən gözləyirdilər. Onlar Qırmızı Bazardan Şuşakəndə, oradan isə Şuşaya qalxan yolda və Laçın istiqamətində şiddətli döyüşlərə hazırlaşırdılar. Ona görə də əsas qüvvələrini orada cəmləşdirmişdilər. Azərbaycan hərbi komandanlığının əməliyyat planına görə isə Şuşaya sıx meşələrdən yeni yol açıldı. Qəhrəman mühəndis-istehkam qoşunlarımız qısa müddətdə inanılmaz işə imza ataraq bu yolu istifadəyə hazır etdi. Mühəndis- istehkamçılarımız ensiz dağ cığırını texnikanın hərəkət edə biləcəyi meşə yoluna çevirdilər. Bu yol ermənilər üçün, sözün əsl mənasında, böyük şok oldu.





Nəticədə, artilleriya qurğularını Şuşa ətrafına çəkə bildik. Mən artilleriyaçılarımızın qəhrəmanlığını xüsusi qeyd etmək istəyirəm. Yol çəkilmişdi, amma hava şəraiti yaxşı deyildi, palçığın içində ağır topları yüksək peşəkarlıq göstərərək yüksəkliklərə qaldırıb, atəş nöqtələri qurdular və Şuşa ətrafındakı erməni qoşunlarının mövqelərinə dəqiqliklə zərbələr endirdilər.

Noyabrın ilk günlərindən Şuşa uğrunda döyüşlər kəskinləşdi. Xüsusi Təyinatlı Qüvvələrin və digər hərbi birləşmələrin şəxsi heyəti artıq Şuşaya doğru atəş dəstəyi olmadan sıldırım qayalar, yarğanlar, meşələr vasitəsilə irəliləyir, ciddi mühafizə olunan Laçın dəhlizindən keçərək ətraf kəndləri mühasirəyə alırdı. Belə əməliyyat isə düşmənin ağlına gəlmirdi və o belə bir addım atılacağını əvvəlcədən hesablaya bilməmişdi. İgid döyüşçülərimizin çətin relyefli ərazilərlə hərəkəti hətta düşmən kəşfiyyatçıları tərəfindən belə müşahidə olunmurdu.

Mərhələlərlə Şuşa ətrafındakı kəndlər, yüksəkliklər azad edilir, hərbçilərimiz gizli yollarla Şuşaya doğru irəliləyirdilər. Laçın dəhlizinin əsas hissələrinə nəzarətin təmin olunması, Daşaltı kəndi ətrafındakı strateji yüksəkliklərin ələ keçirilməsi nəticəsində Şuşanın mühasirəsi daralırdı.

Noyabrın 6-da qoşunlarımız və bölmələrimiz artıq şəhərin hüdudlarına çatmışdılar. Bir həftəyə yaxın müddətdə əlverişsiz hava şəraitində sıldırım qayalarla, keçilməz yollarla böyük məsafəni çətinliklə dəf edən hərbçilərimiz artıq dörd tərəfdən şəhərə daxil olmuş və yaxın məsafədən ağır döyüşlər başlamışdı.

Həmin gün hava çox buludlu, dumanlı, yağmurlu idi. Şuşaya daxil olan şəxsi heyətin əlində yalnız yüngül silahlar, hərbi bıçaq (süngü) var idi. Bəzi yerlərdə əlbəyaxa döyüş gedirdi. Şəhərdə hər küçə, məhəllə, ev uğrunda qanlı döyüş baş verirdi. Ermənilərin itkiləri kütləvi idi və böyük təşviş içində Şuşadan qaçırdılar. Sonradan ermənilər bir neçə dəfə yenidən şəhərə daxil olmağa cəhd göstərsələr də, bütün həmlələri igid hərbçilərimiz tərəfindən dəf edildi. Hətta noyabr ayının 7-də Şuşaya Ermənistan tərəfindən qadağan olunmuş "İsgəndər-M" ballistik raketləri atıldı. Düşmənin bir neçə əks-hücumuna baxmayaraq, Azərbaycan Ordusu öz mövqelərini qorudu, möhkəm müdafiə yaratdı və şəhərdə qalan Ermənistan silahlı qüvvələrinin bölmələrini məhv edərək əraziləri düşməndən təmizlədi.

Noyabr ayının 8-də Ali Baş Komandanın Şəhidlər xiyabanından verdiyi "Əziz Şuşa, sən azadsan!" müjdəsi Azərbaycan xalqının taleyində dönüş mərhələsinə çevrildi. Bununla təkcə 28 illik işğala son qoyulmamışdı, eyni zamanda Azərbaycan Bayrağı Şuşanın timsalında bütün Qarabağda dalğalanırdı.

## Vətən müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı

Şuşa zəfərinin növbəti günü Azərbaycan Ordusunun irimiqyaslı hərbi əməliyyatları davam etdi və mühüm uğurlar qazanıldı. Bir gün ərzində 72 yaşayış məntəqəsi və 8 strateji yüksəklik azad olundu.

Noyabrın 9-dan 10-na keçən gecə Ermənistanın Baş naziri Azərbaycan Prezidenti İlham Əliyevin bütün şərtlərini qəbul etdiyini bildirərək razılaşmanı imzaladı. Bu sənəd Ermənistanın kapitulyasiya aktı idi. Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə imzalanan üçtərəfli bəyanat Qarabağ münaqişəsinin ölkəmizin və ordumuzun qələbəsi ilə başa çatdığını rəsmiləşdirdi.

Bu razılaşmanın tarixi əhəmiyyəti ilə yanaşı, mühüm strateji önəmi də var. Ağdam, Kəlbəcər və Laçın rayonları cənab İlham Əliyevin müdrik siyasəti nəticəsində bir güllə də atılmadan, itkisiz Azərbaycana qaytarıldı. Bu rayonların hərbi əməliyyatlar nəticəsində azad olunacağı təqdirdə itkilərin sayı arta bilərdi. Lakin Ali Baş Komandan bu məsələni də böyük peşəkarlıq və məharətlə həll etdi.

Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı ilə keçirilən möhtəşəm Zəfər paradı ordumuzun dünyanın ən güclüləri sırasında olduğunun əyani göstəricisi olmaqla bərabər, eyni zamanda "bir millət, iki dövlət" qardaşlıq münasibətlərinin növbəti təntənəsi idi. Azərbaycan xalqı Vətən müharibəsində qardaş Türkiyənin geniş dəstəyini heç vaxt unutmayacaq.

Azərbaycan Böyük Zəfərini döyüş meydanında qazandı və siyasi qələbəsini hərbi qələbəsi ilə tamamladı. Azərbaycan xalqı və ordumuz bu zəfərin nailiyyətlərini əsrlər boyu qoruyub saxlamalı və Ali Baş Komandanın yorulmaz fəaliyyətini hər zaman yüksək dəyərləndirməlidir.





## Biz hansı düşmənə qalib gəldik?

Böyük Zəfərin əldə olunması prosesindəki müəyyən məqamlarla bağlı fikirlərimi bildirmək istəyirəm.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən əsas amalını Qarabağın işğaldan azad olunması kimi elan etmişdi. Təsadüfi deyil ki, cənab Prezident İlham Əliyev də dəfələrlə bildirib ki, qüdrətli sələfinin ona ən önəmli vəsiyyəti məhz Qarabağın təcavüzünə son qoyması olub. 1993-cü ilin sonlarından başlayan ordu quruculuğu Prezident İlham Əliyev tərəfindən daha müasir və sürətli mərhələyə qədəm qoydu, 2013-cü ildən Ali Baş Komandanın rəhbərliyi altında keçirilən hərbi islahatların yeni mərhələsi isə Azərbaycan Ordusunu dünyanın ən yaxşı 50 ordusu sırasına çıxardı.

2020-ci ilin sentyabrınadək dünyada və regionda bəziləri hesab edirdilər ki, Ermənistan silahlı birləşmələri Qarabağ ərazisində "keçilməz hərbi sədlər", "radiolokasiya sistemləri", "silah və hərbi texnika", "döyüşkən ordu" və bu kimi digər "üstünlüklərə" malik olduğu üçün torpaqların işğaldan azad edilməsi mümkünsüzdür. Lakin Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanının rəhbərliyi altında qazandığı tarixi Zəfərlə əsl hərbi reallığın necə olduğunu bütün dünyaya nümayiş etdirdi və işğalçı Ermənistan ordusu haqqındakı mifləri darmadağın etdi.

Müdafiə naziri və uzun illər xidmət edən hərbçi kimi bir məsələyə aydınlıq gətirmək istəyirəm. Döyüşlərin gedişində biz Ermənistan silahlı qüvvələrinin şəxsi heyətində hazırlıq səviyyəsinin aşağı olduğunu və çətin vəziyyətlərdə fərarilik etdiklərini gördük.

Ancaq onu da etiraf etməliyik ki, Ermənistan ordusu bir çoxlarının düşündüyü qədər zəif və gücsüz deyildi. Onlar 30 il ərzində işğalda saxladıqları əraziləri mühəndis-istehkam baxımından tam möhkəmləndirə bilmişdilər. Ərazidə düşmənin kifayət qədər silah və hərbi texnikası var idi. Maraqlısı odur ki, iqtisadiyyatı zəif olan bir ölkə bu qədər silaha necə sahib ola bilmişdi?

Təbii ki, Ermənistan bu qədər silahı döyüşmək üçün əldə etmişdi və onlar cəbhənin əksər istiqamətlərində ciddi müqavimət göstərirdilər. Onların böyük silah arsenalı, komanda-müşahidə və idarəetmə məntəqələri, qərargahları var idi. Həmin ərazilərdə salınmış müxtəlif təminat yolları, qurulmuş geniş hərbi infrastruktur uzunmüddətli döyüşün aparılmasına

## 27 sentyabr 2020-ci il tarixinə olan əməliyyat şəraiti




Mənbə: Müdafiə Nazirliyinin Baş Qərargahı

## 06-07 oktyabr 2020-ci il tarixlərinə olan əməliyyat şəraiti




Mənbə: Müdafiə Nazirliyinin Baş Qərargahı

## 17-18 oktyabr 2020-ci il tarixlərinə olan əməliyyat şəraiti




Mənbə: Müdafiə Nazirliyinin Baş Qərargahı

## 08 noyabr 2020-ci il tarixinə olan əməliyyat şəraiti




Mənbə: Müdafiə Nazirliyinin Baş Qərargahı

hesablanmışdı. Eyni zamanda ərazidəki strateji yüksəkliklərin təxminən 95 faizi onların nəzarətində idi.

Dünyanın müxtəlif ölkələrində yaşayan ermənilər, o cümlədən erməni lobbisi və onların havadarları illər boyu böyük miqdarda maliyyə vəsaitini bu ərazilərdə keçirilə biləcək döyüş əməliyyatlarında ermənilərin üstünlüyə malik olmasına, oradakı qeyri-qanuni silahlı dəstələrin güclənməsinə və təminatına xərcləmişdi. Məhz bunun müqabilində erməni hərbi birləşmələri yetərincə müqavimət göstərmək imkanına malik idi. Sadəcə, Azərbaycan Ordusunun qələbə əzmi, peşəkarlığı, gücü və təchizatı qarşısında düşmən aciz idi.

Mən müdafiə naziri olaraq, bu prosesləri işıqlandıraraq tarixə çevirən yazarlara, jurnalistlərə və digər peşə sahiblərinə tövsiyə edərdim ki, Vətən müharibəsi barədə fikir yürüdəndə, rəy yazanda, münasibət bildirəndə mütləq bu amilləri nəzərə alsınlar. Bir daha xatırlatmaq istəyirəm ki, düşməndir deyə onun gücünü kiçiltmək, həddən ziyadə zəif göstərmək yanlışdır və ordumuzun misilsiz qəhrəmanlığına kölgə salmaqdır.

Danılmaz faktdır ki, "Dəmir yumruq" əməliyyatı nəticəsində arxasında dünyanın böyük gücləri dayanan, müxtəlif lobbi təşkilatları tərəfindən maliyyələşdirilən, sıralarına peşəkar və yüksək hazırlıqlı xarici muzdlu döyüşçüləri cəlb edən işğalçı bir ordu əzildi, darmadağın edildi.

Nəinki şəhər və rayon mərkəzlərinin, hətta kəndlərin, yüksəkliklərin azad olunması belə böyük rəşadət nümunələri idi. Suqovuşan, Hadrut, Daşaltı, digər onlarla belə yaşayış məntəqəsi uğrunda günlərlə qanlı döyüşlər olub. Hərbçilərimizin gecələr sıldırım qayaları dırmaşıb Şuşanı atıcı silahlarla azad etməsi isə, heç şübhəsiz, dünya hərb tarixinə düşəcək.

## Ali Baş Komandan, xalq və ordu möhtəşəm tarixi birgə yazdılar

Ali Baş Komandan Azərbaycan Ordusunun şəxsi heyətinə hər zaman inanıb, güvənib və onun qarşısında qoyduğu tapşırıqların uğurla yerinə yetiriləcəyinə əmin olub. Vətən müharibəsindən danışarkən Ali Baş Komandanın: "Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq əlində





bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!" – fikirləri ordumuza göstərilən yüksək etimadın bariz nümunəsidir.

Hərbi qulluqçular da Ali Baş Komandanımızın bu etimadını şərəflə, ləyaqətlə, qanı bahasına doğruldub və məsuliyyətli vəzifələri yüksək vətənpərvərlik hissi və peşəkarlıqla yerinə yetirib. Məhz ordumuza olan inam Vətən müharibəsinin Zəfərlə başa çatmasının ən birinci səbəblərindəndir.

Müharibədən sonra cənab Prezident tərəfindən Zəfər təltifləri adını almış orden və medalların təsis olunması və on minlərlə hərbi qulluqçunun bu mükafatlarla təltif edilməsi Vətən müharibəsi iştirakçılarına – şəhidlərə, qazilərə, hərbi qulluqçulara və könüllülərə dövlətin, xalqın yüksək ehtiramının nümunəsidir. "Zəfər" və "Qarabağ" ordenləri, "Vətən Müharibəsi Qəhrəmanı" adları, "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medallarını igidlərimiz bir ömür boyu sinələrində qürur və iftixarla gəzdirəcəklər.

Bu savaşda iştirak edən şəxslərdən yalnız bir nəfər mükafatlardan kənar qaldı. Zəfərimizin müəllifi olan Ali Baş Komandan ictimaiyyətin, o cümlədən Azərbaycan Ordusunun şəxsi heyətinin israrlı müraciətlərini qəbul etməyərək həmişəki kimi təvazökarlıq göstərdi. Əslində, cənab Prezident hər bir hərbi əməliyyatın əsas müəllifi olduğu üçün bütün orden və medallara ən çox layiq olan şəxsiyyətdir. Lakin, həqiqətən də, möhtərəm Prezidentimizin bu Zəfərlə, ümumiyyətlə isə Yeni Azərbaycan quruculuğu ilə tarixə həkk etdirdiyi imza bütün təltiflərdən daha yüksək və daha önəmlidir.

44 gün ərzində Ali Baş Komandanı olduğu Azərbaycan Ordusunun döyüş meydanında irəli gedib qələbə qazanmasına nail olan, dünyanın hərb tarixinə düşən əməliyyatları hazırlayıb yüksək peşəkarlıqla idarə edən, güclü strategiyası ilə yeni nəsil hərbi sərkərdəlik nümunəsi formalaşdıran cənab İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı Azərbaycanın birliyinin və gücünün təcəssümü oldu.

Qazanılan Qələbədə dövlətimizin başçısının illər boyu apardığı uğurlu diplomatiyasının da mühüm töhfəsi vardır. Müharibənin gedişində biz cənab Prezidenti Müzəffər Hərbi Sərkərdə olmaqla yanaşı, informasiya savaşının bacarıqlı Komandanı kimi də gördük, böyük qürur yaşadıq. Həmin dövrdə dünyanın aparıcı KİV-lərinə verdiyi 30-dan artıq müsahibəsində cənab İlham Əliyev Azərbaycanın haqq işini, bu müharibədə ədalətli tərəf olduğunu beynəlxalq ictimaiyyətə çatdırmaqla yanaşı, erməni faşizminin acı fəsadlarını da bütün dünyaya nümayiş etdirdi.

Prezident qazanılan Zəfərdə xalqın rolunu çox dəqiq ifadə edib: "Biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini birlikdə yazırıq. Biz həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Döyüş meydanında göstərdiyimiz güc və onun mənbəyi Azərbaycan xalqının iradəsidir".

Daim ordusunun yanında olan xalq 2020-ci ilin iyul ayında onun bir parçasına çevrildi. Ordu ilə xalq vəhdət təşkil edərək vahid gücə çevrildi. Elə döyüş meydanında da hər addımda xalqımızın dəstəyi aydın görünür, səmimi şəkildə özünü göstərirdi.

Gizlətmirəm, vətəndaşlarımızın bizə qarşı bəzən narazılıqları da olurdu. Ancaq bu narazılıqlar o qədər səmimi və vətənpərvərlik ruhunda idi ki, eşitdiyimiz etirazlar bizi təsirləndirir, qürurlandırır, böyük ruh yüksəkliyi verirdi. Onların bir qismini – dərhal orduya cəlb olunmalar ilə bağlı israrlı tələblərin yerinə yetirilməsinin müəyyən hallarda mümkün olmadığını məqalənin giriş hissəsində qeyd etmişəm.

Müharibənin gedişində isə vətəndaşlarımız ordumuza hər cür dəstək göstərib. Saysız-hesabsız müraciətlər edir, yardım karvanları ilə hərbi hissələrin qarşısına gəlirdilər. Müdafiə Nazirliyi olaraq, dəfələrlə minnətdarlıqla bəyan etdik ki, Azərbaycan Ordusu dövlətimizin, şəxsən cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Azərbaycan Ordusunun hərbi hissələri, xüsusilə də ön xətt bölmələri bütün təminat növləri ilə tam təmin edilib və əlavə yardıma ehtiyac yoxdur. Azərbaycan əsgərinin yalnız xalqımızın mənəvi dəstəyinə ehtiyacı var ki, bu da daim göstərilir. Lakin vətəndaşların davamlı yardımlarının ardı-arası kəsilmirdi. Xalq ordusunun yanında olmağı özünə borc sayırdı. Bu da qələbəmizin əsas səbəblərindən biri idi.

Vətən müharibəsinin gedişində dövlət qurumları və onların mənsubları da bir yumruq kimi birləşib, Ali Baş Komandanın sədaqətli əsgərləri





kimi vahid məqsəd uğrunda çalışdılar. Mən müdafiə naziri olaraq müharibə dövründə daim ordunun yanında olan, dəstəyini əsirgəməyən, bizimlə birgə fəaliyyət göstərən bütün dövlət strukturlarına – Daxili İşlər Nazirliyi və onun Daxili Qoşunları, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Fövqəladə Hallar Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, Xarici İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və onun nəzdindəki Kosmik Agentlik, Səhiyyə Nazirliyi, AZAL və onun nəzdindəki SİLKWAY şirkətləri, Dövlət Gömrük Komitəsi, TƏBİB və digər dövlət müəssisələrinə minnətdarlığımı bildirir, onların xidmətlərini yüksək qiymətləndirirəm. Eyni zamanda ölkənin ictimai, siyasi, elmi təbəqəsinin mənsublarına, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin nümayəndələrinə də təşəkkür edirəm.

Hərbi və mülki tibbi heyət Vətən müharibəsi dövründə xüsusi fəaliyyətləri ilə seçilirdi. Onlar Müdafiə Nazirliyinin hərbi-səhra hospitallarında hərbçilərimizə fasiləsiz tibbi xidmət göstərir, minlərlə hərbçimizin sağlamlığını qoruyurdular. Həkimlər, tibb bacısı və qardaşları, sanitarlar, texniklər, təcili yardım sürücüləri hospitallarla yanaşı, ön cəbhədə, döyüş meydanında da fəaliyyət göstərirdilər. Tibbi heyət arasında şəhid və yaralıların olması bu insanların cəsarətinin, qəhrəmanlığının əyani göstəricisidir.

## Böyük Zəfər Azərbaycanı yeni qələbələrə istiqamətləndirəcək

Azərbaycan Ordusunun böyük qayğıkeşi, himayədarı olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Vətən müharibəsi günlərində və sonrakı dövrdəki xeyirxahlıq missiyası şəxsi heyətimizin yaddaşında daim yaşayacaq. Ali Baş Komandan ilə dəfələrlə Müdafiə Nazirliyinin Baş Klinik Hospitalına gələrək yaralı hərbçilərimizlə görüşən Mehriban xanım onların müalicə prosesini şəxsi nəzarətinə götürdü.

Minlərlə hərbi qulluqçumuz bu qayğının nəticəsində sağlamlığına qovuşdu, sonrakı dövrdə isə Mehriban xanımın maddi və mənəvi dəstəyi ilə tibbi, sosial, psixoloji reabilitasiyanı uğurla keçdilər. Onlarla hərbçimizin yeni nəsil protezləri ilə təmin edilməsi, xarici ölkələrdə müalicələrinin

davam etdirilməsi də məhz Mehriban xanımın şəxsi diqqətinin nəticəsidir. Mehriban xanım Əliyevanın həyata keçirdiyi sosial layihələr Azərbaycan Ordusuna böyük dəstəkdir və bu qayğıya görə Azərbaycan Ordusunun şəxsi heyəti ona daim minnətdardır.

Müharibədən sonra Ali Baş Komandan Azərbaycan Ordusu qarşısında yeni tapşırıqlar qoyub və hərbi islahatların növbəti mərhələsinin başlanması barədə göstəriş verib. Cənab İlham Əliyev modernləşmə, silahlanma və hazırlıq sahələrində ordunun ən yüksək göstəricilərə sahib olması üçün konkret plan və tədbirlər hazırlayıb, onların təxirəsalınmaz icrasını tapşırıb.

Ermənistan-Azərbaycan dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərində vəziyyət daim nəzarətimiz altındadır. Burada baş verən hər hansı bir təxribata dərhal adekvat cavab verilir. Azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrimizdə qoşun xidmətinin təşkili, şəxsi heyətin döyüş hazırlığının və döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, yeni hərbi infrastrukturun yaradılması, bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin yaxşılaşdırılması, döyüş planlarının dəqiqləşdirilməsi, maddi-texniki, tibbi təminatın davamlı yüksəldilməsi, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi və bu kimi digər məsələlərin həlli gündəlik fəaliyyətimizin əsas prioritetlərindəndir.

Ali Baş Komandanın rəhbərliyi ilə keçirilmiş "Dəmir yumruq" əməliyyatı Ermənistanın faşizm və işğalçılıq siyasətinin başını əzdi. Cənab İlham Əliyevin şəxsində Azərbaycan Ordusu erməni silahlı qüvvələrini darmadağın etdi. Bu, Azərbaycan tarixinin ən möhtəşəm hərbi zəfəridir. Bu, əsrlər boyu davam edəcək qürur mənbəyimizdir.

Vətən müharibəsinin Zəfərindən sonra Azərbaycanın tarixində yeni mərhələ başlayıb. Tarixin ən şərəfli dövrünü yaşayan ölkəmiz bütün sahələr üzrə qazandığı nailiyyətlərin miqyasını genişləndirir, gələcəklə bağlı düzgün hədəflər müəyyənləşdirir və ona doğru böyük əzmlə gedir. Azərbaycan xalqı bu günündən razı, sabahına isə daha inamlıdır. Prezident İlham Əliyevin yaratdığı yeni hərbi, siyasi, iqtisadi reallıqlar Azərbaycanı Cənubi Qafqazdan Avrasiya məkanınadək bütün platformalarda böyük nüfuz sahibinə çevirərək qlobal miqyasda lider mövqeyinə çıxardı.

Ən əsası isə 30 il müddətində xarabalığa çevrilən, erməni vandalları tərəfindən dağıdılan Qarabağ torpağı və Şərqi Zəngəzur artıq quruculuq,





inkişaf mərkəzinə, Qafqazın ən böyük inşaat meydanına çevrilir. Bir müddət öncə hər qarışı uğrunda şəhidlərimizin qanının töküldüyü torpaqlar indi gülüstana çevrilir.

Vaxt keçdikcə amansız işğalın və savaşın izləri bu torpaqlardan silinəcək. Lakin xalqımız tariximizin həm faciəli, həm də şərəfli dövrlərini əhatə edən 32 illik zaman kəsiyini – işğaldan Zəfərədək olan mərhələni heç vaxt unutmayacaq. Ali Baş Komandanın, Azərbaycan xalqının və Azərbaycan Ordusunun müəllifləri olduqları möhtəşəm əsər – Vətən müharibəsinin böyük Zəfəri əsrlər boyu xalqın yaddaşında yaşayacaq, onu yeni qələbələrə istiqamətləndirəcək.

Heç kəs unutmamalıdır ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruğu" daim düşmənlərimizin başı üzərindədir və Azərbaycanın rəşadətli ordusu indi hərbi xidmətdə daha ayıq-sayıq, daha güclü və daha hazırlıqlıdır.

Azərbaycan Ordusu üçün Vətən müharibəsindəki Zəfər nəticə yox, başlanğıcdır.

Qarabağ Azərbaycandır!

## AZƏRBAYCAN ORDUSUNUN ŞUŞA ZƏFƏRİ

Azərbaycan xalqının dövlətçilik və müstəqillik tarixində şərəfli bir səhifə olan 44 günlük Vətən müharibəsi zamanı böyük Zəfərə aparan yolda əldə edilmiş möhtəşəm uğurlardan biri, heç şübhəsiz ki, Şuşa şəhərinin işğaldan azad edilməsi oldu. Çünki məhz Şuşa şəhərinin erməni işğalından azad edilməsi Qarabağda aparılan müharibənin taleyini həll etdi, böyük və tarixi Zəfərin yolunu açdı. Bu şəhərin yenidən Azərbaycanın ayrılmaz parçasına çevrilməsi ilə bölgədə hərbi-strateji üstünlüyün ələ alınması da təmin edildi.

Yerləşdiyi coğrafi məkana görə Şuşa şəhəri işğaldan azad edilmədən digər ərazilərin azad edilməsi işini bitmiş hesab etmək olmazdı. Yalnız bu şəhərə hakim olmaqla bütün Qarabağın azadlığa qovuşmasını təmin etmək olardı. Bu mənada, Azərbaycanın işğal altında olan ərazilərinin tam azad edilməsi yolu Şuşa şəhərindən keçirdi. Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsi, respublikanın ərazi bütövlüyünün təmin edilməsi 44 gün davam edən Vətən müharibəsində əsas məqsəd olsa da, bu yolda başlıca hədəf Şuşa şəhərinin işğaldan azad edilməsi idi. Xarici müşahidəçilərin də qeyd etdiyi kimi, Şuşa şəhəri Azərbaycanın yalnız mədəniyyət, fikir, sənət mərkəzi deyildi. Şuşa Qarabağın, daha geniş mənada, Azərbaycanın simvoludur. Bu mənada, Şuşa şəhərinin ermənilərin işğalından azad edilməsi, əslində, elə Qarabağın azad edilməsi demək idi.[1]

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Şuşa məsələsinə bu mövqedən yanaşırdı və bunu öz bəyanatlarında da açıq və qətiyyətli şəkildə irəli sürürdü. Müzəffər Ali Baş Komandan bildirirdi: "Şuşasız bizim işimiz yarımçıq qalar, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Təbii ki, müzakirələr prosesində hər zaman bu məsələ gündəlikdə idi. ...Amma mənim mövqeyim hər zaman belə olub ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə, təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq".[2]

[1] Хоштария Нана. Взятие Шуши – полная катастрофа для армянской армии. Российские эксперты.//https://moscow-baku.ru news politics/vzyatie_shushi_polnaya_katastrofa_dlya_armyanskoy_armii_rossiyskie_eksperty/

[2] Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verib. 16.10.2020 //https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Turkiyenin_A_Haber_televiziya_kanalina_musahibe_verib__YENILANIB__VIDEO-1615239






Respublika Prezidenti İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqa müraciət edərkən. Bakı, Şəhidlər xiyabanı. 8 noyabr 2020-ci il

Respublika Prezidenti İlham Əliyev bu sözləri hələ Vətən müharibəsinin gedişatında söyləmişdi. O zaman aparılan müharibədə bütün hədəflərin açıq şəkildə səsləndirilməsi mümkün deyildi. Vətən müharibəsinin başa çatmasından sonra isə bu müharibədə Şuşanın başlıca hədəf olmasını Prezident İlham Əliyev belə xarakterizə edirdi: "Müharibə dövründə, sadəcə olaraq, bir dəfə Şuşa haqqında demişdim, o da müxbir soruşdu ki, bəs Şuşa nə vaxt alınacaq? Əlbəttə ki, bunu biz deyə bilməzdik, dedim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Ancaq heç şübhə etmirdim ki, biz əziz, doğma Şuşamızı erməni əsirliyindən xilas edəcəyik, Azərbaycan bayrağını qaldıracağıq. O vaxt demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq. Müharibənin ilk günlərindən biz bilirdik ki, hədəfimiz nədir və Şuşaya doğru uğurla irəliləyirdik. Əgər müharibənin gedişatına hər bir mütəxəssis nəzər salsa, görər ki, bizim strateji hədəfimiz nə idi. Biz Ermənistan silahlı qüvvələri tərəfindən qurulmuş istehkamları yararaq cənub istiqamətindən işğal edilmiş torpaqlara daxil olduq, onları azad etdik və müxtəlif istiqamətlər üzrə əks-hücuma keçdik. Bunun nəticəsində Cəbrayıl, Füzuli, Xocavənd rayonlarının və Hadrut qəsəbəsinin bir hissəsini, Murovdağ yüksəkliyini, Kəlbəcər rayonunun bir hissəsini, Zəngilan, Qubadlı, Laçın rayonlarının cənub hissəsini və Şuşa şəhərini azad etdik. Hədəfimiz Qarabağın tacı olan Şuşa şəhəri idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı. Ondan sonra düşmən diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu".[3]

Vətən müharibəsinin gedişatını planlaşdıran və onun icrasına rəhbərlik edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanının bu sözlərindən göründüyü kimi, döyüşlərin hansı istiqamətdə getməsindən asılı olmayaraq ümumi əməliyyatın başlıca hədəfi məhz Şuşa şəhərinin işğaldan azad edilməsi idi. Yəni Ağdam, Tərtər və Kəlbəcər istiqamətində gedən döyüşlərin də məqsədi məhz Şuşa şəhərinin işğaldan azad edilməsinə lazımi şəraitin yaradılması idi.

Şuşa zəfərinə aparan şərəfli yol isə 2020-ci il sentyabr ayının 27-dən başladı. Həmin gün səhər saat 05:00-dan etibarən növbəti dəfə hərbi təxribata başlayan Ermənistan silahlı qüvvələri intensiv şəkildə Azərbaycanın müdafiə mövqelərini və təmas xəttinə yaxın olan yaşayış məntəqələrini iri-

[3] İlham Əliyev Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. 27.01.2021.// https://president.az/articles/50399





çaplı silahlardan, qumbaraatanlardan və minaatanlardan atəşə tutdu. Səhər saat 06:00-dan etibarən isə Ermənistan tərəfi raket və ağır artilleriyanı da hərəkətə gətirdi.[4] Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzulu rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri ilkin olaraq erməni silahlı təxribatlarının obyektinə çevrildi. Bu təxribatlar nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar oldu.[5]

Ermənistan silahlı qüvvələrinin daha geniş miqyasda belə təxribatlar törətməsi dərhal Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məruzə olundu. O isə bu təxribatların qarşısının alınması üçün əks-hücumlara başlanması haqqında müdafiə nazirinə göstəriş verdi. Bununla da, Azərbaycan Respublikasının ərazilərini işğal altında saxlayan Ermənistan silahlı qüvvələrinə qarşı "Dəmir yumruq" əməliyyatının həyata keçirilməsinə başlanıldı.[6]

Bu əməliyyatın icrasına yalnız Müdafiə Nazirliyinin qüvvələri deyil, eyni zamanda Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin qüvvələri də cəlb edilmişdi. "Dəmir yumruq" əməliyyatının icrasına Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev rəhbərlik edirdi. Müzəffər Ali Baş Komandanın bəyan etdiyi kimi, o, döyüşlərin gedişatını birbaşa öz nəzarəti altında saxlayırdı, hər döyüş gününün sonunda onun rəhbərliyi altında güc strukturlarının rəhbərlərinin müşavirəsi keçirilir, günə yekun vurulur, nöqsanlar mövcud olduğu halda aşkar edilir, növbəti gün üçün döyüş tapşırıqları müəyyənləşdirilir və təsdiq edilirdi.[7]

Biz Vətən müharibəsinin başlanmasını və Azərbaycan Ordusunun əks-hücum əməliyyatı xəbərini Naxçıvan Muxtar Respublikasında xidməti yerimizdə vəzifə borcumuzu yerinə yetirərkən eşitdik. Bütün xalqımız kimi, biz də hər gün həyəcan və sevinc içərisində Azərbaycan Ordusu bölmələrinin

[4] Müharibə bu cür başladı – Zakir Həsənov. //https://axar.az/news/siyaset/568653.html?utm_source=informers&utm_medium=monthly&utm_campaign=teleqrafcom

[5] Ermənistan silahlı qüvvələri bütün cəbhəboyu genişmiqyaslı təxribat törədib. 27.09.2020, 07:30. // https://mod.gov.az/az/news/ermenistan-silahli-quvveleri-butun-cebhe-boyu-genismiqyasli-texribat-toredib-32310.html

[6] Müharibə bu cür başladı – Zakir Həsənov. //https://axar.az/news/siyaset/568653.html?utm_source=informers&utm_medium=monthly&utm_campaign=teleqrafcom

[7] Prezident İlham Əliyevin Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsi. 24.09.2021.//https://azertag.az/xeber/Prezident_İlham_Aliyevin_Rusiyanın_nufuzlu_Nasionalnaya_oborona_jurnalina_musahibesi-1884229



Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə. Müdafiə Nazirliyi, 7 oktyabr 2020-ci il





qəhrəmanlıq mübarizəsini izləyir və böyük intizarla Prezident İlham Əliyevin twitter səhifəsində Azərbaycan Ordusunun əldə etdiyi uğurlar haqqında yeni-yeni məlumatları gözləyirdik. Nəhayət ki, oktyabr ayının 10-da Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin tərkibindən 300 nəfərin Qarabağ bölgəsində aparılan əks-hücum əməliyyatlarında iştirak etmələri üçün göndərilməsi barəsində müdafiə nazirinin döyüş sərəncamı alındı. Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsi uğrunda aparılan tarixi mübarizədə iştirak etmək şansı verdiyi üçün bu xəbər Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı Qüvvələrinin zabit və əsgərləri tərəfindən sonsuz bir sevinclə qarşılandı. Qısa bir zamanda təyin olunmuş heyətin yola düşməyə hazır olması barədə Əlahiddə Ümumqoşun Ordu Komandanına məruzə olundu.

Qeyd edilməlidir ki, sonradan Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarından daha 160 nəfər Qarabağ bölgəsində aparılan əks-hücum əməliyyatlarında iştirak etmələri üçün gətirildi.

Azərbaycan Ordusunun və digər güc strukturlarının, o cümlədən Xüsusi Təyinatlı Qüvvələrin böyük Zəfərin əldə edilməsində misilsiz xidmətlər göstərmələri indi Azərbaycan xalqına yaxşı məlumdur. Prezident İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin 44 günlük Vətən müharibəsinin gedişatında göstərdikləri şücaəti yüksək qiymətləndirdi. Müsahibələrinin birində o, xüsusi təyinatlılar haqqında öz fikrini belə açıqlamışdı: "Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələri işğal altında olan ərazilərin azad edilməsi üzrə ən mühüm əməliyyatların, ilk növbədə, Şuşa əməliyyatının və bir sıra başqa əməliyyatların keçirilməsində həlledici rol oynayıblar. Onlar bir sıra əməliyyatlar zamanı ölümün üzərinə gedərək, peşəkarlıq və fədakarlıq nümayiş etdiriblər".[8]

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev müsahibəsində Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarının Vətən müharibəsinin aparılmasına cəlb edildiyini xatırladırdı və onların da döyüş fəaliyyətini Azərbaycan Ordusunun xüsusi təyinatlılarının ümumi fəaliyyətinin tərkib hissəsi kimi qiymətləndirirdi: "Hərbi əməliyyatların müəyyən mərhələsində biz Naxçı-

[8] Prezident İlham Əliyevin Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsi. 24.09.2021.//https://azertag.az/xeber/Prezident_İlham_Aliyevin_Rusiyanın_nufuzlu_Nasionalnaya_oborona_jurnalina_musahibesi-1884229

van Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarını cəlb etdik. Onlar Naxçıvandan ezam olunmuşdu və döyüş əməliyyatlarında Xüsusi Təyinatlı Qüvvələrin digər nümayəndələri ilə bərabər iştirak edirdilər".[9]

Naxçıvandakı xüsusi təyinatlıların döyüş bölgəsinə gətirilməsi birbaşa Şuşa şəhərinin işğaldan azad edilməsi planının icrası ilə bağlı idi. Onların döyüşə qatıldığı tarixə qədər isə Azərbaycan Ordusu və digər güc strukturlarının Vətən müharibəsinə cəlb edilmiş Xüsusi Təyinatlı Qüvvələri Ermənistanın silahlı qüvvələrinə qarşı mübarizədə çox böyük uğurlar əldə etmişdilər. Cəbhə bölgəsinin şimal istiqamətində Suqovuşan kimi mühüm strateji məntəqə, habelə bu istiqamətdə yerləşmiş bir sıra strateji mövqelər, cənub istiqamətində isə Cəbrayıl rayonu, Hadrut qəsəbəsi və onların ətrafında yerləşmiş kəndlər erməni işğalından azad edilmişdi. Bu uğurlar Azərbaycan Ordusunu Şuşaya gedən zəfər yoluna daha da yaxınlaşdırırdı. Xüsusilə Hadrut qəsəbəsinin işğaldan azad edilməsi Şuşa istiqamətində yerləşmiş olan Ermənistan silahlı qüvvələrinə çox ağır zərbə vurmuşdu.

Hadrut qəsəbəsinin işğaldan azad olunması Şuşa zəfərinin yaxınlaşmasında xüsusi əhəmiyyət kəsb edirdi. Çünki bundan sonra Şuşaya birbaşa hücumun davam etdirilməsi məsələsi və imkanı ortaya gəldi. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev də bildirirdi: Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik".[10]

Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları Vətən müharibəsinin döyüşlərinə oktyabr ayının 12-dən etibarən Hadrut qəsəbəsi istiqamətində qatıldı. Bu qəsəbənin işğaldan azad edilməsi özü də Azərbaycan Ordusunun misilsiz məharətinin, yüksək taktiki hazırlığının tarixdə qalacaq parlaq bir nümunəsidir. Çünki bu

---

[9] Prezident İlham Əliyevin Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsi. 24.09.2021.//https://azertag.az/xeber/Prezident_İlham_Aliyevin_Rusiyanın_nufuzlu_Nasionalnaya_oborona_jurnalina_musahibesi-1884229

[10] Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar. 16.03.2021// https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Fuzuli_ve_Xocavend_rayonlarinda_olublar_YENILANIB_2_VIDEO-1734509





qəsəbənin işğaldan azad edilməsi ərəfəsində Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan Ordusuna qarşısıalınmaz bir əməliyyat planlaşdırdığı məlumatını yaymışdı. Ermənistanın Baş naziri özü belə bir anons verməklə xalqını növbəti uydurmalara inandırmağa çalışmışdı. O güman edirdi ki, cəbhənin cənub hissəsinin mərkəzində irəli atılan erməni silahlı qüvvələri sonra tədricən geri çəkiləcək və bununla da Azərbaycan Ordusunun qüvvələrini öz ardınca çəkməklə onları əvvəlcədən hazırlanmış erməni tələsinə salacaqdı. Ermənistanın Baş naziri şübhə etmirdi ki, bu planın həyata keçirilməsi ilə Azərbaycan Ordusuna ağır zərbə vurulacaq və erməni xalqı böyük qələbənin sevincinə bürünəcəkdir. Oktyabrın 7-də Ermənistan silahlı qüvvələri çoxlu sayda zirehli texnikanın müşayiəti ilə Azərbaycan Ordusunun mövqeləri üzərinə hücuma keçdi. Elə həmin gün Ermənistanın Baş naziri erməni ictimaiyyətinə çatdırdı ki, artıq Ermənistan silahlı qüvvələrinin açdığı koridorda Azərbaycan Ordusunun qoşun növləri tələyə salınıb və onlar tezliklə darmadağın ediləcəklər: "Elə bu saniyələrdə bu korpus sarsıdıcı zərbələr almaqdadır. Mən düşünürəm ki, bu, bütün əməliyyatın həlledici anı olacaqdır. Mənə çatan məlumatlara görə, bu dəqiqələrdə Qarabağ ordusunun həlledici qələbəsinin real əsası yaradılır. Çox yaxşıdır ki, Azərbaycan Ordusu tərəfindən ora çoxlu texnika gəlib. Onların böyük hissəsi məhv edilib və ya qaçan azərbaycanlılar tərəfindən tərk edilib".[11]

Əslində isə bu məlumatın heç bir əsası yox idi. Cəbhənin cənub bölgəsində döyüş tapşırığı icra edən Azərbaycan hərbi qüvvələri növbəti dəfə təşəbbüsü ələ almaq kimi xülyalara düşən Ermənistan silahlı qüvvələrinə elə bir zərbə vurdu ki, onlar heç təsəvvürlərinə gətirə bilmədikləri uğursuzluğa düçar oldular. Azərbaycan Ordusunun hərbi rəhbərliyinin vaxtında ələ keçirə bildiyi kəşfiyyat məlumatları Ermənistan silahlı qüvvələrinin niyyətlərini müəyyənləşdirməyə, ermənilərin gözləmədikləri bir taktikanı tətbiq etməyə imkan verdi ki, bu da Azərbaycan Ordusunun növbəti böyük uğuruna yol açdı. Ermənistan hərbi-siyasi rəhbərliyi isə haqqında əvvəldən anonsu verilmiş hücumun uğursuzluğunun öz xalqından gizlədilməsi üçün cəbhənin cənub hissəsində Azərbaycan Ordusunun üç briqadasının daxil olduğu böyük

[11] Конфликт в Карабахе достиг нового равновесия//https://yandex.ru/turbo/vz.ru/s/world/2020/10/9/1064611.html?promo=navbar&utm_referrer=https%3A%2F%2Fzen.yandex.com Пашинян: армия Азербайджана попала в ловушку в Карабахе.//https://discover24.ru/2020/10/pashinyan-armiya-azerbaydzhana-popala-v-lovushku-v-karabahe/





bir qruplaşmanın məhv edildiyi, Azərbaycan Ordusunun çoxlu sayda hərbi texnikasının salamat şəkildə qənimət götürülməsi barədə məlumat yaydı.[12]

2020-ci il oktyabr ayının 9-da Hadrut qəsəbəsinin və ətraf kəndlərin erməni işğalından azad edilməsi ilə bağlı xalqa müraciətində Prezident İlham Əliyev Azərbaycan Ordusunun ələ keçirdiyi erməni hərbi texnikası haqqında konkret məlumat təqdim etdikdən sonra erməni tərəfinin verdiyi məlumatların yalan olmasını bəyan etdi: "...düşmənin əlində Azərbaycan Ordusuna məxsus olan bir dənə də hərbi texnika yoxdur. Düşmən öz xalqına nağıllar danışır, yalan danışır. Faktları saxtalaşdırır, öz xalqını aldatmaq istəyir, beynəlxalq aləmi aldatmaq istəyir ki, guya onlar hücuma keçirlər, onlar bizim bəzi mövqelərimizi geri alıblar. Hamısı yalandır".[13]

Hadrut qəsəbəsinin azad edilməsi Şuşaya doğru uğurlu zəfər yürüşünün davam etdirilməsi baxımından hərbi-strateji əhəmiyyət kəsb edirdi. Ona görə bu qəsəbə ətrafında gərginlik bir neçə gün davam etdi. Azərbaycanın hərbi qüvvələri addım-addım Hadrut qəsəbəsi ətrafındakı məntəqələri və strateji mövqeləri ələ keçirdi. Bu qəsəbənin işğaldan azad edilməsi Azərbaycan Ordusunun Vətən müharibəsi dövründə tətbiq etdiyi taktikanın ən yaxşı nümunələrindən biri sayıla bilər. Çünki çeviklik, sürət və qətiyyəti ilə seçilən Azərbaycan bölmələri coğrafi baxımdan ən əlverişsiz istiqamətlərdən irəliləməklə əvvəlcə Hadrut qəsəbəsinin ətrafındakı strateji yüksəklikləri azad etdi, sonra isə bu qəsəbə nəzarət altına alındı. Prezident İlham Əliyev Hadrut qəsəbəsinin azad edilməsi ilə bağlı öz təəssüratını belə bildirirdi: "Mən Hadrut əməliyyatının əhəmiyyətini də qeyd edərdim. Çünki bizi orada gözləmirdilər, erməni tərəfi bizim bu yolla gedəcəyimizi güman etmirdi və bu onlar üçün gözlənilməz oldu. Biz Hadrutu götürəndən bir neçə gün sonra da erməni tərəfi deyirdi ki, Hadrut onların nəzarətindədir. Hərçənd Hadrutda artıq bütün yüksəkliklərdə bizimkilər qərarlaşmışdı və şəhərin alınıb-alınmamasını başa düşmək Ermənistan rəhbərliyi üçün bir qədər diletantlıq idi. Biz Hadrut ətrafındakı bütün əsas yüksəklikləri götürəndən sonra, əslində, bu şəhərin taleyi həll edilmişdi. Bizim oraya yenə də minimum itki ilə fiziki olaraq daxil olmağımız, sadəcə, vaxt tələb

[12] В Минобороны Армении пояснили, потеряны ли территории в Карабахе. //https://ru.armeniasputnik.am/karabah/20201007/24811443/V-Minoborony-Armenii-poyasnili-poteryany-li-territorii-v-Karabakh html

[13] Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib. 09.10.2020//https://azertag.az/xeber/Azerbaycan_Prezidenti_Ilham_Aliyev_xalqa_muraciet_edib_YENILANIB_VIDEO-1608883



Şuşanın azad olunması haqqında raport.
2020-ci il, noyabr

edirdi. Yalnız bizim hərbi qulluqçu Hadrut administrasiyasının binası üzərinə Azərbaycan bayrağını sancaraq Hadrutun götürülməsi barədə mənə raport verəndə Ermənistan tərəfin daha yalanlar uydurması üçün əsası qalmadı".[14]

Hadrutun işğaldan azad edilməsindən sonra cənub bölgəsində icra edilən əsas vəzifələrdən biri Hadrut qəsəbəsinin ətrafında olan kəndlərin və Füzulu şəhərinin azad edilməsi idi. Həmin istiqamətlərdə ermənilərin kifayət qədər qüvvələri var idi və onlar hələ də əks-hücuma keçməklə döyüş şəraitində dəyişiklik edə biləcəklərinə ümid edirdilər. Bu istiqamətlərdə uğurlar qazanılması Şuşa istiqamətində hücum üçün əlverişli şəraitin əldə edilmə-

[14] Prezident İlham Əliyevin Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsi 24.09.2021.//https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_Rusiyanin_nufuzlu_Nasionalnaya_oborona_jurnalina_musahibesi-1884229





sinə təminat verə bilərdi. Xüsusi Təyinatlı Qüvvələr də bu istiqamətlərdə döyüşlərə cəlb edildilər. Bu qüvvələr iki dəstəyə bölünərək döyüşə qatıldılar. Birinci dəstə Füzuli-Xocavənd, ikinci dəstə isə Hadrut-Şuşa istiqamətlərində öz məharət və qabiliyyətlərini nümayiş etdirdilər. Elə ilk döyüşlərdə həmin xüsusi təyinatlılar itkilərlə qarşılaşsalar da, döyüş tapşırıqlarını uğurla yerinə yetirdilər. İki gün ərzində Füzulinin Qarakollu, Aygestan yaşayış məntəqələri, Hadrut-Qarakollu yolu, daha sonra Qaracuq, Şiştəpə adlanan ərazilər və üç strateji yüksəklik, Ərgünəş, Güllükar, Tuğ dağları erməni işğalından azad edildi. Oktyabr ayının 19-na kimi həmin istiqamətdə Ermənistan silahlı qüvvələrinin azad edilmiş əraziləri yenidən geri qaytarmaq cəhdlərinin qarşısı alındı və Ermənistan silahlı qüvvələri geri oturduldu. Xüsusi təyinatlılar yalnız Hadrut qəsəbəsi və onun ətrafındakı meşələrdə apardıqları döyüşlər zamanı 80-ə yaxın erməni silahlısını məhv edə bildilər.

Oktyabr ayının 17-də Füzuli şəhərinin erməni işğalından azad edilməsi nəticəsində cəbhənin cənub-şərq hissəsində hərbi təşəbbüs bütünlüklə Azərbaycan Ordusunun əlində cəmləndi. Bu da imkan verdi ki, cəbhənin cənub hissəsində olan qüvvələrimiz əsas diqqəti şimala doğru, Şuşa–Laçın istiqamətində irəliləməyə yetirsinlər. Belə bir vəzifənin öhdəsindən gəlmək üçün Azərbaycanın hərbi qüvvələrinin bir hissəsi Cəbrayıl–Zəngilan-Qubadlı istiqamətində irəliləməyə başladı. Hadrut–Qırmızı Bazar Azərbaycan Ordusunun hücumunun başqa bir istiqaməti idi. Bir istiqamət isə Hadrutdan qərbdə olan meşəlik və dağlıq ərazilərdən Şuşa–Laçın yolu istiqaməti idi. Bu istiqamətlərin hər biri Azərbaycan tərəfi üçün strateji əhəmiyyət kəsb edirdi. Cəbrayıl–Zəngilan–Qubadlı istiqamətində irəliləyən Azərbaycan Silahlı Qüvvələrinin Laçına çıxması və Qarabağ üçün xüsusi əhəmiyyət kəsb edən Laçın-Şuşa yolunu nəzarət altına alması Şuşanın azad edilməsi planının tərkib hissəsi idi. Erməni hərbi rəhbərliyi Azərbaycan qüvvələrinin Şuşaya doğru, əsasən, Hadrut–Qırmızı Bazar yolu ilə irəliləyəcəyini gözləyirdi. Çünki bu yol həmin istiqamətdə Şuşaya aparan yeganə yol idi. Ona görə bu yolboyu yerləşən bütün strateji yüksəkliklər Ermənistan silahlı qüvvələrinin nəzarəti altında idi. Həmin strateji yüksəkliklərdən Şuşaya doğru irəliləmək istəyən Azərbaycan hərbi qüvvələrinə ciddi zərbə vurmaq və onların irəliyə hərəkətini dayandırmaq mümkün hesab edilirdi. Bu yol ətrafında qurulmuş müdafiə sistemi ermənilərin yaratdığı müdafiə sisteminin tərkib hissəsi sayılırdı. Erməni hərbi-siyasi rəhbərliyi belə güman edirdi ki, Azərbaycan

hərbi qüvvələri Füzuli–Cəbrayıl istiqamətində, bölgənin düzənlik hissəsində erməni müdafiə xətlərini keçə bilsələr, onda onların Hadrut–Qırmızı Bazar yolu boyunca hərəkətlərini dayandırmaq mümkün olacaq.

Oktyabrın 20-də Zəngilan şəhəri erməni işğalından azad olundu. Bununla Azərbaycan Ordusu Şuşaya bir qədər də yaxınlaşdı. Elə həmin günlərdə müharibənin dayandırılması və Şuşanın döyüşsüz təslim edilməsi üçün bir tarixi şans meydana gəldi. Zəngilanın azad edilməsi Azərbaycan Silahlı Qüvvələrinin Araz çayı boyunca Ermənistan sərhədinə gəlib çıxması demək idi. Zəngilanı almış olan qoşunlar sonra Ermənistan sərhədi boyunca şimala, Laçına doğru irəliləməli idi. Belə bir vaxtda Rusiya Prezidenti V.Putin müharibənin dayandırılması barədə tərəflərə öz təklifini təqdim etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğal altında olan ərazilərin azad edilməsi, qaçqın və köçkün düşmüş Azərbaycan vətəndaşlarının öz doğma yurdlarına qayıtmasına təminat verilməsi ilə müharibənin dayandırılmasına razı oldu. Bu şərtin qəbul ediləcəyi təqdirdə Şuşa şəhərindən qaçqın düşən azərbaycanlı əhali də bu şəhərə qayıtmalı idi. Ermənistanın rəhbərliyi isə bu təklifi qəbul etmədi. Ermənistan rəhbərliyinin nəzərində Şuşaya azərbaycanlı əhalinin qaytarılması bu şəhərin Azərbaycana qaytarılması demək idi. Çünki 1992-ci ildə Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal ediləndə bu şəhərdə çox cüzi sayda erməni sakin var idi. Bunu Ermənistanın rəhbərliyi də etiraf edirdi.[15] Yəni Ermənistan rəhbərliyi bu Azərbaycan şəhərinin öz sahiblərinə qaytarılmasına razı deyildi. Onların bu qərarından sonra bir daha məlum oldu ki, Şuşanı qaytarmağın yeganə yolu onun ermənilərdən azad edilməsidir. Ona görə də döyüş bölgəsində 2020-ci il oktyabr ayının 20-dən sonrakı dövrü Şuşa uğrunda mübarizənin son mərhələsi kimi də dəyərləndirmək mümkündür.

Oktyabr ayının 21-də xüsusi təyinatlıların bir dəstəsi Yuxarı Yağlıvənd-Divanalılar kəndləri arasındakı strateji yüksəkliklərin azad edilməsində iştirak etdilər. Cənubda yerləşən Yuxarı Yağlıvəndlə şimalda olan Divanalılar kəndi arasında təxminən 2 kilometrlik bir məsafə var idi. Bu kəndlər həm də Hadrut–Qırmızı Bazar yolunun şərqində yerləşməklə Şuşaya aparan həmin yolun qorunması üçün mövqe əhəmiyyəti daşıyırdı. Verilən döyüş tapşırığının icrası üçün bizim rəhbərlik etdiyimiz 160 nəfərlik xüsusi

[15] По предложенному Путиным варианту, прекращение войны означало сдачу Шуши – вице-спикер НС. //https://rus.azatutyun.am/a/30958496.html





təyinatlı dəstəyə əlavə 52 nəfər səxsi heyət də qoşuldu. Hələ gecə ikən Yuxarı Yağlıvənd kəndi ətrafında 58 erməni döyüşçüsünün mövqe tutduğunu müəyyənləşdirmək mümkün oldu. Səhər saatlarında isə artilleriya hazırlığından sonra xüsusi təyinatlılar irəli atıldılar və orada mövqe tutmuş bütün erməni qüvvələrini məhv etdilər. Sürət və çevikliklə həyata keçirilən bu hücum zamanı xüsusi təyinatlılar erməni mövqelərinin 5 kilometrə qədər dərinliyinə irəliləyə bildilər. Oktyabrın 23–24-də isə bizim xüsusi təyinatlı dəstəmiz 3 kəndi və 13 strateji yüksəkliyi erməni qüvvələrindən təmizləməyə müvəffəq oldu.

Oktyabr ayının 25-də isə Qubadlı şəhəri erməni işğalından azad edildi. Azərbaycan Ordusunun qüvvələri Laçın–Şuşa yoluna bir qədər də yaxınlaşdılar. Laçın–Şuşa yolunun nəzarət altına alınması və sonra da Şuşanın azad edilməsi 30 il ərzində Ermənistanın öz xalqının və eləcə də dünya ictimaiyyətinin gözündə qurub canlandırmağa çalışdığı yalançı miflərin dağılması, erməni təcavüzkarlığının sonu demək idi. Bu ərazi çox mürəkkəb bir coğrafi relyefə malik olduğu üçün burada irəliləmək Azərbaycan Ordusunun hissə və bölmələrindən böyük mübarizlik, məharət tələb edirdi. Oktyabr ayının 29–30-da Qubadlı rayonu ətrafında olan Azərbaycan qüvvələri yenidən irəli atıldılar və qeyri-münasib şəraitdə döyüşə girməklə Ermənistan silahlı qüvvələrinə ağır zərbələr vurdular. Prezident İlham Əliyev Qubadlı rayonu azad edildikdən sonra oradakı döyüş şəraitinin mürəkkəbliyini belə xarakterizə edirdi: "Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi – gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə təqribən 10–20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir".[16]

Oktyabr ayının son günlərində xüsusi təyinatlılar digər hissələrlə birlikdə Qırmızı Bazar istiqamətində ciddi döyüşlərə qatıldılar. Əlverişli coğrafi

[16] Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olublar. 24.12.2020//https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Qubadli_ve_Zengilan_rayonlarinda_olublar_-1673397

şərait bu istiqamətdə ermənilərə çox münasib mövqelər tutmağa imkan vermişdi. Həmin günlərdə həm Qubadlı istiqamətində, həm də cəbhənin digər istiqamətlərində ağır döyüşlər davam edirdi. Oktyabr ayının 30-da Azərbaycan Ordusu tərəfindən Xankəndi ətrafında ermənilərə məxsus böyük raket-mərmi anbarı, P–18 RLS stansiyası məhv edildi.[17] Bu isə Şuşanın işğaldan azad edilməsi ərəfəsində Ermənistan silahlı qüvvələrinə daha ağır bir zərbə oldu. Elə oktyabr ayının son günlərində də Azərbaycan Ordusunun bəzi bölmələri çətin relyefli əraziləri aşaraq Şuşa ətrafında mövqe tuta bildi.

Bütün çətinliklərə baxmayaraq, Qubadlı–Laçın istiqamətində Azərbaycan Ordusunun bölmələri Şuşa–Laçın yoluna doğru irəliləməyi davam etdirdilər. Məlumdur ki, noyabr ayının 2-də Qubadlının daha bir neçə yaşayış məntəqəsi erməni işğalından azad edildi. İşğaldan azad edilmiş bəzi kəndlər Laçın yolunun 12 kilometrliyində idi.[18] Bu kəndlərdə yerləşdirilmiş artilleriya vasitələri ilə artıq Laçın–Şuşa yolunu nəzarət altına almaq mümkün idi. Bu da erməni hərbi rəhbərliyinin çox ciddi təşvişinə səbəb oldu. Burada Azərbaycan Ordusunun təzyiqlərinin gücləndirilməsi erməni hərbi rəhbərliyində həmin istiqamətin ordumuz tərəfindən əsas zərbə istiqaməti kimi seçilməsi təsəvvürü yaratdı. Əslində, belə bir qənaət məntiqli görünürdü. Çünki Azərbaycan qüvvələrinin Şuşaya doğru irəliləyə biləcəyi digər bir yol olan Hadrut–Qırmızı Bazar yolu Ermənistan silahlı qüvvələrinin ciddi nəzarəti altında idi və erməni hərbi rəhbərliyi inanmırdı ki, Azərbaycan hərbi-siyasi rəhbərliyi öz qüvvələrini bu yolla Şuşaya göndərsin. Azərbaycan hərbi-siyasi rəhbərliyinin isə məqsədi erməni tərəfində belə aldadıcı bir gümanın yaradılması idi. Azərbaycan hərbi komandanlığı Laçın istiqamətində gərginliyi saxlamaqla, Hadrut–Qırmızı Bazar istiqamətində erməni qüvvələrinin müəyyən bir hissəsini döyüşlərə cəlb etməklə Şuşaya doğru yolsuz, meşəlik və dağlıq ərazi ilə irəliləmək qərarı qəbul etdi. Erməni hərbi rəhbərliyi Azərbaycan hərbi qüvvələrinin Hadrut–Qırmızı Bazar yolunun qərbindəki meşəlik və dağlıq ərazilərlə irəliləməsini heç bir halda mümkün saymırdı. Çünki bu ərazilər qoşunların irəliləməsi üçün bir-

[17] Xankəndidən görünən şiddətli partlayışlar: ordumuz düşmənin raket-mərmi anbarını belə məhv etdi//https virtualaz.org aktual 171843; Azərbaycan Ordusu dünyanın ən güclü RLS-lərindən birini Qarabağda məhv etdi. //https: virtualaz org aktual 171830

[18] Bu gün elan edildi: Laçının mərkəzinə 12 kilometr qaldı// https://axar.az news/gundem 512556.html?utm_source=informers&utm_medium=monthly&utm campaign=teleqrafcom





mənalı şəkildə münasib deyildi. Bölgənin coğrafiyasına yaxşı bələd olan erməni hərbi rəhbərliyi hətta piyada şəkildə keçilməsi mümkün olmayan bu ərazilərin nəzarətdən kənar qoyulmasını məntiqli bir qərar sayırdı. Xüsusi təyinatlılar və Azərbaycan Ordusunun digər qüvvələri məhz belə mürəkkəb relyefli ərazilərin keçilməsini öz üzərinə götürdü. Bu vəzifənin son dərəcə çətin və mürəkkəb olduğunu Prezident İlham Əliyev də qeyd edirdi: "...döyüşçülər nə götürə bilərdilərsə, götürməliydilər, amma özünlə nə götürə bilərsən? Maksimum qumbaraatan. Bu, inanılmaz fiziki qüvvə, hazırlıq tələb edir. Bu sal qayalara aşağıdan dırmaşmaq lazımdır. Müdafiə xətləri çox möhkəmlənib, özü də orada ermənilərin tankları və topları vardı. Bizdə isə süngü-bıçaqlar və yüngül silah".[19]

Mənim rəhbərlik etdiyim bölmələr oktyabr ayının 28-də Şuşa şəhəri istiqamətində hücuma başlamaq əmri aldı. Bu zaman onlar mənim rəhbərliyim altına verilmiş əməliyyat qruplaşmasının tərkibinə daxil idi. Əməliyyat qruplaşmasının tərkibinə əlavə olaraq iki tabor da verilmişdi. Oktyabr ayının 29-dan etibarən bu qruplaşma Şuşa şəhəri istiqamətində irəliləməyə başladı. Rəhbərlik etdiyim bu qruplaşmanın sol cinahında digər Xüsusi Təyinatlı Qüvvələr, sağ cinahda isə bir briqada və "Həmlə" taboru Şuşaya doğru istiqamət götürdülər. Bütün bu qüvvələr keçilən yolun çətinliyinə baxmayaraq, hücumun sürətini saxlamalı və düşmənin qəfil yaxalanması üçün qısa zaman ərzində Şuşa şəhərinə çatmalı idilər.

Qeyd edilməlidir ki, Hadrutdan Şuşaya qədər keçilməz ərazilərlə irəliləmək üçün yollar açılmasında Müdafiə Nazirliyinin Mühəndis-İstehkam Qoşunlarının qüvvələri çox böyük məharət və peşəkarlıq nümayiş etdirdilər. Onların fədakarlığı nəticəsində Şuşanın işğaldan azad edilməsinə vəzifələndirilmiş qüvvələrin irəliləməsi üçün yeni yollar çəkildi və keçidlər açıldı. Mühəndis-İstehkam Qoşunları verilən tapşırığın mühümlüyünü nəzərə alaraq çox qısa zaman ərzində bu işin öhdəsindən gəldi. Keçilməz ərazilərdən yolların çəkilməsi və qoşunların da bu yollarla Şuşaya doğru hərəkət etməsi ermənilərin özlərini də şok vəziyyətinə salmışdı. Onlar inana bilmirdilər ki, Azərbaycan Ordusu keçilməsi mümkün olmayan bu ərazilərdən irəliləyəcək. Erməni hərbi rəhbərliyi bizim Şuşaya doğru

[19] Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib. 26.02.2021 https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Fuzuli_ve_Xocavend_rayonlarinda_olublar_YENILANIB_2_VIDEO-1734509

irəliləməyimizi tamam başqa istiqamətdən gözləyirdilər və onların silahlı qüvvələri tamam başqa istiqamətlərdə mövqe tutmuşdular. Hətta Ermənistanın siyasi rəhbərliyi də Azərbaycan qüvvələrinin belə yollarla irəliləməsinə təəccüb qalmışdılar və bunu onlar mətbuata verdikləri açıqlamalarda da etiraf etmişdilər. Bu yolların çəkilişini təmin etmək üçün xüsusi planlar hazırlanmışdı. Ordumuz başqa istiqamətlərdə hücuma hazırlıq görüntüləri yaratmaqla Ermənistan silahlı qüvvələrinin diqqətini mühəndis qüvvələrimizin Hadrutdan başlanan dağlıq və meşəlik ərazilərlə yol çəkmələrindən yayındıra bilmişdilər. Mühəndis qoşunlarının bu fədakarlığı xüsusi təyinatlıların və onlarla birgə Şuşaya istiqamət götürən digər qüvvələrin irəliləməsinə də müəyyən şərait yaratmışdı.[20]

Bu yollardan keçməklə bizim qruplaşmamız noyabr ayının 1-də 31 ədəd nəqliyyat vasitəsi ilə Sığnax kəndinə doğru irəliləməyə başladı. Maşınların səsindən ermənilər bizim irəli hərəkət etməyimizdən xəbər tutdular. Onlar bunun qarşısını almaq üçün irəli atıldılar. Yolun keçdiyi ərazilərin meşəlik və dağlıq olması ermənilərin əlverişli mövqelər tutmasına əlavə imkanlar yaradırdı. Düşmənlər bundan istifadə edərək bizim dəstəmizi çox şiddətli atəşə tutdular. Böyük Tağlar, Taqaverd və Çanaxçı istiqamətlərində qurulmuş erməni pusquları, Meştaqlar adlanan ərazidəki "Cəhənnəm dərəsi" kimi tanınan yerdə erməni mühasirəsi bizim qüvvələri kifayət qədər çətin bir vəziyyətə saldı. Xüsusi Təyinatlı Qüvvələr bu yerlərdə əvvəldən hazırlanmış pusquya düşdülər. Ermənistan silahlı qüvvələri artilleriyadan və pilotsuz uçuş aparatlarından istifadə etməklə böyük zərbə qüvvəsi əldə etmişdilər. Hakim yüksəkliklərdə yerləşən erməni minaatanları isə Azərbaycan xüsusi təyinatlılarını açıq hədəfə almışdılar. Belə bir müqavimət zolağının keçilməsi üçün xüsusi təyinatlılar yüksək çevikliklə maşınları tərk edib meşəlik ərazidə döyüş mövqeləri tutdular. Öndə gedən kəşfiyyatçıların fədakarlığı nəticəsində irəli aparan yol açılsa da, Çanaxçı kəndi yaxınlığında xüsusi təyinatlılar yenidən erməni mühasirəsinə düşdülər. Bu dəfə də həm kəşfiyyatçıların, həm də xüsusi təyinatlıların fərdi məharətləri, döyüşərək özlərinə yol açmaları ermənilərin bütün cəhdlərini boşa çıxardı. Xüsusi təyinatlıların və onlarla birgə irəliləyən qüvvələrin misilsiz qəhrəmanlığı nəticəsində ermənilər qarşılarına qoyduqları məqsədə nail olmadılar.

[20] Как прокладывали Дорогу Победы к Шуше. //https://vestikavkaza.ru/analytics/kak-prokladyvali-dorogu-pobedy-k-susc.html





Çanaxçı kəndi ətrafında olarkən bizə Daşaltı kəndinə doğru irəliləmək əmri verildi. Qarşıda daha ağır və məsuliyyətli tapşırıqların icrası dayanırdı. Xüsusi Təyinatlı Qüvvələr üç qrupa bölünərək meşəlik və dağlıq ərazilərlə Daşaltı kəndinə doğru irəliləməli, bu kəndi azad etməklə oradakı Ermənistan silahlı qüvvələrini məhv etməli və eyni zamanda Laçın–Şuşa yolunu nəzarət altına almalı idi. Bu yolun nəzarət altına alınması ilə Qarabağın dağlıq hissəsindəki Ermənistan silahlı qüvvələrinin öz ölkələri ilə əsas əlaqə yolu kəsilmiş olur və bu yolla Şuşaya əlavə qüvvələrin gətirilməsi imkanı aradan qalxırdı. Şuşanın azad edilməsi üçün bu kəndin ələ keçirilməsi böyük əhəmiyyət kəsb edirdi. Buradakı Ermənistan silahlı qüvvələrini məhv etmədən Şuşaya qalxmaq mümkün deyildi. Yəni Şuşanın azad edilməsi yolu Daşaltıdan keçirdi. Bu isə bizə verilmiş tapşırığın məsuliyyətindən və taktiki əhəmiyyətindən xəbər verirdi.

Daşaltı kəndinin nəzarət altına alınması üçün kəndə aparan yol boyunca yerləşmiş 1431 və 1553 nömrəli hakim yüksəklikləri ələ keçirmək lazım idi. Bu hakim yüksəkliklərdə Ermənistan silahlı qüvvələri güclü atəş mövqeləri yaratmaqla Daşaltı ətrafını bütünlüklə nəzarət altında saxlayırdılar. Xüsusi təyinatlılar ilkin olaraq bu yüksəkliklərin ələ keçirilməsi üçün döyüşə atıldılar.

Bu yüksəkliklərə qədər də xüsusi təyinatlılar çox mürəkkəb relyefli ərazilərdən keçməli idi. Bu zaman verilmiş mürəkkəb döyüş tapşırığının icra edilməsi üçün yaradıcı və əsaslandırılmış təfəkkürün ortaya qoyulması, hərəkət gözlənilməzliyinin və sürətin məntiqi seçimlə düzgün əlaqələndirilməsi, komandirlərlə döyüşçülərin fəaliyyət bütövlüyü, onların fiziki göstəriciləri, Vətənin taleyinə hesablanmış mənəvi motivlər Xüsusi Təyinatlı Qüvvələrə imkan verdi ki, davamlı şəkildə irəliləməklə Şuşanın işğaldan azad edilməsinə daha da yaxınlaşsınlar və bu şəhərin ətrafındakı qüvvələrlə döyüşə girsinlər. Buludlu hava şəraitində artilleriyanın və aviasiyanın fəal himayəsindən məhrum olan xüsusi təyinatlılar kiçik dəstələrlə Ermənistan silahlı qüvvələrinin mövqe tutduqları strateji yüksəkliklərə yaxınlaşdılar və bu yüksəkliklərin ələ keçirilməsi üçün çeviklik, zəka və döyüşkənlik nümayiş etdirdilər. Ermənistan silahlı qüvvələrinin haqqında danışılan yüksəkliklərdə əlverişli atəş mövqeləri olsa da, Azərbaycanın xüsusi təyinatlılarının üstün fiziki və taktiki hazırlığı, mübarizə əhvali-ruhiyyəsi Şuşaya doğru aparan yoldakı Ermənistan silahlı qüvvələrini çarəsiz duruma saldı. Hətta Ermənistan silahlı qüvvələrinin havaların

soyuması ilə Azərbaycan qüvvələrinin fəallığının zəifləyəcəyinə bağladıqları ümid də özünü doğrultmadı.[21]

1553 nömrəli yüksəkliyin ələ keçirilməsi ətrafında xüsusilə gərgin döyüşlər keçdi. Bu yüksəkliyin alınmasını öz üzərinə götürmüş olan xüsusi təyinatlıların üç taboru əsas qüvvələrdən təxminən 16 kilometr aralanaraq onların dəstəyindən məhrum olmuşdular. Ermənistan silahlı qüvvələrinin 1553 nömrəli yüksəkliyi dairəvi atəş altına alacaqları təqdirdə bu qüvvələrin həmin yüksəklikdən sağ qayıdacaqlarına heç bir zəmanət yox idi. Əslində, Ermənistan silahlı qüvvələrinin mühasirəsində olan xüsusi təyinatlı taborlar dörd saat ərzində 1553 nömrəli yüksəkliyin zirvəsinə doğru süründülər və noyabr ayının 2-də səhərə yaxın bu yüksəkliyi nəzarət altına ala bildik. Bu yüksəkliyin itirilməsinin Daşaltı kəndinin və Şuşa şəhərinin müdafiəsi üçün strateji əhəmiyyət kəsb etdiyini erməni hərbi rəhbərliyi də yaxşı bilirdi. Ona görə tezliklə bu yüksəklik üzərinə ermənilərin əks-hücumu başladı. Artilleriya tərəfindən himayə olunan böyük qüvvələrin iştirakı ilə ermənilərin başladığı əks-hücumun qarşısını bu yüksəklikdə dayanmış kəşfiyyat bölüyünün döyüşçüləri öz həyatları bahasına aldılar. Həmin bölmənin şəxsi heyətinin bu qeyri-bərabər döyüşdə 60%-dən çoxu şəhid oldu. Bundan sonra kəşfiyyat taboru bu yüksəkliyin müdafiə edilməsi tapşırığını aldı. Bu taborun şəxsi heyətinin də böyük hissəsi şəhid oldu və yaralandı. Erməni minaatanlarının əlverişli mövqelərdən dəqiq atəşləri yüksəklikdə dayanan döyüşçülər üçün ağır durum yaratsa da, bu yüksəkliyi müdafiə etmək mümkün oldu. Ermənistan silahlı qüvvələrinin fasiləsiz davam edən əks-hücumları ona hesablanmışdı ki, 1553 nömrəli yüksəkliyi yenidən ələ keçirsin və bununla da Azərbaycan Ordusunun xüsusi təyinatlılarının Daşaltı kəndinə planlaşdırılan hücumunun qarşısını alsın. Bunun üçün Ermənistan silahlı qüvvələri addım-addım yüksəkliyə yaxınlaşmağa çalışdı. Hər dəfə onlar xüsusi təyinatlıların qətiyyəti və fədakarlığı ilə rastlaşdılar, sonra yenidən irəli atılmağa çalışdılar. Ermənistan silahlı qüvvələri dörd dəfə əks-hücuma keçdilər. Döyüşlər əl qumbaralarının istifadə oluna biləcəyi məsafəyə qədər yaxınlaşdı. Lakin ermənilər yüksəkliyi müdafiə

[21] Семенов К. Затягивание не поможет. Почему Армении не стоит надеяться на наступление холодов в Карабахе.// https: info24.ru/news/zatyagivanie-ne-pomozhet-poçhe-mu-armenii-ne stoit-nadeyatsya-na-nastuplenie-holodov-v-karabahe.html?utm campaign=-main&utm referrer=https%3A%2F%2Fpulse.mail.ru&utm sourse=pulse mail.ru; Крутиков Е. Почему Армения терпит поражение в Карабахе. //https://vz.ru world 2020/10 27 1067238 html





edən xüsusi təyinatlıların iradəsini qıra bilmədilər. Sayca çox olmayan xüsusi təyinatlılar düşmənin inana bilməyəcəyi bir şəkildə 1553 və 1431 nömrəli yüksəkliyi, eyni zamanda Daşaltı ətrafında olan bəzi digər yüksəklikləri müdafiə edib saxlamaqla bərabər, noyabr ayının 4-də Daşaltı kəndi üzərinə hücum üçün əlverişli şərait yaratdılar.

Noyabr ayının 4-də davam edən döyüşlərdən sonra rəhbərlik etdiyim bölmələrin gücü ilə Daşaltı kəndi ətrafındakı bütün yüksəkliklər ələ keçirildi. Bununla Daşaltı kəndi bütünlüklə bizim bölmələrin nəzarəti altına alındı.[22] Noyabr ayının 5-də səhər tezdən Daşaltı kəndinə daxil olduq. Saat 09:30 radələrində artilleriya atəşlərindən yararlanaraq ermənilər 4 tabora qədər qüvvə ilə Şuşa–Daşaltı, Qaybalı–Daşaltı, Laçın–Daşaltı istiqamətlərinə əks-hücuma keçdi. 6 saata yaxın qeyri-bərabər döyüşün davam etməsinə baxmayaraq, bir addım belə geri çəkilmədik. Bu döyüşdə şəhid və yaralılarımız oldu.

Daşaltının əldən verilməsi ermənilər üçün gözlənilən ağır məğlubiyyətin daha da yaxınlaşması demək idi. Buna yol verməmək üçün Daşaltı ətrafına böyük sayda erməni qüvvələri gətirilmişdi. Əlverişli coğrafi mövqelərdə, hakim yüksəkliklərdə yerləşdirilmiş çoxlu sayda hərbi texnika və raket-artilleriya ilə dəstəklənən bu qüvvələr bizim dəstəmizi dairəvi atəş altına almağa müvəffəq olmuşdular. Ona görə də xüsusi təyinatlılar Daşaltı ətrafında çox güclü bir müqavimətlə qarşılaşdılar. Bu ağır döyüşlərdə onların xeyli yorulduğu hiss olunurdu. Çünki saatlarla və hətta günlərlə davam edən fasiləsiz və şiddətli döyüşlərdə bu vəziyyət təbii idi. Düşmənin ağır artilleriya atəşi altında, bu çətin anlarda son variant olaraq onlara bildirdim ki, cənab Prezident bu vəziyyəti bilir. Onlar isə təəccübləndilər: "Cənab Prezident bizim burada olmağımızı doğrudan bilir?" Mən isə əminliklə bildirdim: "Əlbəttə, bilir. O bütün döyüş əməliyyatlarını izləyir". Bundan sonra onların əhvali-ruhiyyəsi tam dəyişdi və çox böyük əzmlə döyüşə davam etdilər.

Daşaltı kəndinin işğaldan azad olunması Şuşa şəhəri üzərinə son hücum üçün əlverişli mövqenin əldə edilməsi demək idi. Müşahidəçilərin və mütəxəssislərin fikrincə, Şuşa şəhəri üzərinə hücum üçün artıq noyabr ayı-

[22] "Söz verdim ki, qələbə müjdəsini özüm verəcəm" – Müsahibə. // https://teleqraf.com/news/toplum/276746.html






nın 4-də lazımi hazırlıqların aparılmasına başlanılmışdı.[23] Əslində, bu məlumat doğru idi. Çünki artıq noyabr ayının 4-də Daşaltı kəndinin Ermənistan silahlı qüvvələrindən təmizləndiyi məlum idi və Azərbaycanın hərbi rəhbərliyi tərəfindən Şuşa üzərinə hücum üçün qüvvə və vəsaitlərin müəyyənləşdirilməsinə, hücum istiqamətlərinin konkretləşdirilməsinə başlanılmışdı. Bu planın mühüm cəhəti ondan ibarət olmalı idi ki, müxtəlif istiqamətlərdən ordu qüvvələrinin hücum görüntüsünü yaratmaqla Xüsusi Təyinatlı Qüvvələrin ermənilərin gözləmədiyi istiqamətlərdən hücuma keçməsinə əlverişli imkan əldə edilsin.

Noyabr ayının 5-də Ermənistan silahlı qüvvələri Daşaltının geri alınması üçün əks-hücuma başlasa da, bu hücumu dayandırmaq mümkün oldu. Doğrudur, Azərbaycanın hərbi qüvvələri bu zaman itkilərlə qarşılaşdı. Lakin ermənilər daha böyük itkilər verərək geri çəkilmək məcburiyyətində qaldılar. Elə həmin gün Laçın–Şuşa yolu ilə xüsusi təyinatlılar Şuşa şəhərinin ətrafına bir qədər də yaxınlaşdılar.

Şuşa şəhərinin azad edilməsi hərbi-mənəvi dəyərinə və çətinlik səviyyəsinə görə Vətən müharibəsində aparılan döyüşlərin zirvəsi sayıla bilər. Bu məsələnin hərbi-mənəvi dəyəri onda idi ki, Şuşanın işğaldan azad edilməsi Azərbaycanın mədəniyyət və mənəviyyat mərkəzinin yad nəfəslərdən, yad tapdaqlardan təmizlənməsi, bütün Qarabağa hakim olan bir şəhərin yenidən Vətənə qovuşması demək idi. Çətinlik səviyyəsi isə coğrafi və relyef baxımından bu şəhərin müdafiə imkanlarının son dərəcə böyük olması ilə bağlı idi. Şuşa şəhəri təbii baxımdan alınmaz bir qala idi və bu təbii imkanların ermənilərin hərbi qüvvələri ilə birləşməsi şəhərin ordumuz tərəfindən işğaldan azad edilməsi imkanlarını xeyli çətinləşdirirdi. Ona görə Ermənistanın hərbi-siyasi rəhbərliyi bu şəhəri qoruyub işğal altında saxlaya biləcəklərinə böyük ümid bağlayırdı.

Şuşa şəhərinin azad edilməsi üçün Azərbaycan hərbi qüvvələrinin rastlaşdığı çətinlik yalnız bu şəhərin coğrafi və müdafiə imkanları ilə bağlı deyildi. Hərbi rəhbərlik tərəfindən Şuşa şəhərindəki erməni mövqelərinin top atəşinə tutulmasına, yəni şəhəri qoruyan Ermənistanın silahlı qüvvələrinə raket, aviasiya zərbələrinin və artilleriya atəşlərinin vurulmasına icazə

[23] Семенов К. Затягивание не поможет. Почему Армении не стоит надеяться на наступление холодов в Карабахе. //https: ınfo24.ru news/zatyagivanie-ne-pomozhet-poçhe-mu-armenii-ne stoit-nadeyatsya-na-nastuplenie-holodov-v-karabahe.html?utm campaign=-maın&utmreferrer=https%3A%2F%2Fpulse.mail.ru&utmsourse=pulsemail.ru

verilmirdi. Əslində, belə bir göstəriş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən verilmişdi. Həmin göstərişin mahiyyəti ondan ibarət idi ki, döyüşlərin gedişatında Azərbaycanın mədəniyyət və sənət mərkəzi olan Şuşa şəhərinin arxitektura inciləri və tarixi abidələri top atəşindən ziyan görməsin.[24] Bu isə şəhərin əldə saxlanması üçün ermənilərə əlavə üstünlüklər yaradırdı.

Bundan əlavə, Şuşa şəhəri üzərinə hücumun planlaşdırıldığı günlərdə hava şəraiti hava vasitələrinin uçuşu üçün də əlverişli deyildi. Bu isə yüksəklikdə yerləşən Şuşada mövqe tutmuş ermənilərə havadan zərbə vurmaq imkanı vermirdi. Hava şəraitinin əlverişsiz olması səbəbindən ermənilərin üzərində hava kəşfiyyatı işlərinin aparılması da çətinləşmişdi.[25]

Şuşa şəhəri üzərinə hücum planı cəbhənin müxtəlif hissələrində planlaşdırılan döyüşlərlə birbaşa əlaqələndirilmişdi. Məqsəd digər istiqamətlərdə dayanmış erməni qüvvələrinin Şuşa ətrafına gətirilməsinin qarşısını almaq idi. Şuşa şəhəri üzərinə hücum başlanan günü, noyabr ayının 5-də Tərtər, Ağdərə və Ağdam istiqamətlərində döyüşlər kifayət qədər intensiv xarakter almışdı. Ağdam istiqamətində çox sayda Ermənistan silahlı bölmələrinin olduğu əvvəldən məlum idi. Çünki Ağdam istiqaməti Şuşaya çatmağın ən qısa və münasib yolu idi. Ona görə də erməni hərbi-siyasi rəhbərliyi Ağdam istiqamətində bir neçə xətdə eşelonlaşdırılmış müdafiə və maneələr sistemi qurmuşdu, bu istiqamətə çoxlu sayda hərbi qüvvələr cəlb etmişdi. Bunu Prezident İlham Əliyev də təsdiq edirdi: "Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra, təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük".[26] Aparılan döyüşlər nəticəsində Ağdam və Tərtər istiqamətində olan Ermənistan silahlı qüvvəllərinin bölmələrinə ağır zərbə vuruldu, xeyli sayda canlı qüvvəsi və hərbi texnikası sıradan çıxarıldı.[27] Sonradan əldə edilmiş məlumatlardan aydın olmuşdu ki, Ağdam-Papravənd istiqamətində məhv edilmiş erməni qüvvələri Şuşanı əldən verməmək üçün

---

[24] Закир Гасанов о секретном поручении Ильхама Алиева при взятии Шуши. // https://haqqin.az/news/213539

[25] Как прокладывали Дорогу Победы к Шуше. //https://vestikavkaza.ru/analytics/kak-prokladyvali-dorogu-pobedy-k-suse.html





bu şəhərə yollanmağa hazırlaşırmış. Alınan zərbələrdən sonra həmin qüvvələrin Şuşaya göndərilməsi dayandırılmışdı.[26]

Azərbaycan bölmələrinin yaxınlaşdığını gördükcə erməni hərbi komandanlığı Şuşanın qorunması üçün ciddi tədbirlər həyata keçirməyə başlamışdı. Onlar üçün Şuşa ətrafında erməni işğalçılığının taleyi həll olunurdu. Şuşanın əldən verilməsi 30 il ərzində erməni-millətçi qüvvələrinin, dünya erməniliyinin həqiqət kimi qələmə verməyə çalışdıqları uydurmaların puç olması, erməniliyin çökməsi demək idi. Bunun qarşısını almaq üçün erməni hərbi rəhbərliyi Şuşa daxilində atəş mövqeləri yaratmaqla Laçın, habelə Şuşikənd və Muxtarkənd istiqamətlərində güclü müdafiə mövqeləri qurmuşdular. Onlar Azərbaycanın ordu qüvvələrinin də məhz bu istiqamətlərdən Şuşaya yaxınlaşacağını güman edirdilər. Şuşa şəhərinin hərbi-siyasi və strateji əhəmiyyəti nəzərə alındığı üçün idi ki, Ermənistanın keçmiş müdafiə naziri S.Ohanyan bu şəhərin qorunmasının təşkilini öz üzərinə götürmüşdü.[27] Bu vəzifənin icra edilməsi üçün o öz ətrafında hətta könüllü müdafiə dəstəsi də yaratmışdı. Şuşa ətrafına qədər qələbələrlə dolu möhtəşəm bir yol keçmiş Azərbaycan Ordusunun potensialını reallıqla qiymətləndirə bilməyən Ermənistanın başıbəlalı keçmiş müdafiə naziri ətrafına topladığı faşist xislətli insanlarla Şuşanı qoruyub saxlayacağını güman edirdi.

Noyabr ayının 6-da Şuşa şəhəri ətrafında son dərəcə gərgin döyüşlər getdi. Erməni hərbi rəhbərliyi bütün gücünü səfərbər etməklə Azərbaycan bölmələrinin şəhərə doğru irəliləməsinin qarşısını almağa çalışırdı. Şəhərin bütün girişləri 28 il ərzində yaradılmış güclü müdafiə sistemi ilə qorunurdu. Xüsusilə Azərbaycanın hərbi qüvvələrinin hərəkət istiqamətləri kimi qəbul edilən sahələrdə böyük qüvvələr yerləşdirilmişdi. Şəhər ətrafında ermənilərin güclü müqavimət göstərəcəkləri Azərbaycan hərbi rəhbərliyinə də bəlli idi. Ona görə mühüm zərbə istiqamətlərindən biri kimi, Şuşa ərafındakı sıldırım qayalıqlar seçildi. Xüsusi Təyinatlı Qüvvələr böyük risk və təhlükə olmasına baxmayaraq, bu sıldırım qayalıqlarla yuxarı dırmanmalı,

---

[26] Həsənov İ. Şuşaya "tələsən" ermənilər yoldaca məhv edildi. /https://axar.az/news/gundem/513495.html?utm_source=informers&utm_medium=monthly&utm_campaign=teleqrafcom

[27] Араик Арутюнян: Делается все возможное для того, чтобы Шуши оставался неприступным//https://yerkramas.org/article/176774/araik-arutyunyan-delaetsya-vse-vozmozhnoe-dlya-togo-chtoby-shushi-ostavalsya-nepristupnym



Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə Ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərkən. Bakı, Fəxri xiyaban. 8 noyabr 2020-ci il



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşanın azad olunması münasibətilə Şəhidlər xiyabanında. Bakı, 8 noyabr 2020-ci il





Şuşa şəhərinin müdafiə və mühafizəsi üçün ayrılan düşmən qüvvələrinin bölmələrinin arxasına keçməklə onlara zərbə vurmalı idi.

Belə mürəkkəb bir tapşırığın icrası üçün xüsusi təyinatlılar müstəsna hazırlıq və məharət nümayiş etdirdilər. Onlar həm Şuşa ətrafındakı meşələrdə fəallaşan erməni dəstələrinə, həm də şəhər daxilində əlverişli mövqelərdə yerləşmiş düşmən qüvvələrə sarsıdıcı zərbələr vurdular. Xüsusilə şəhər qəbiristanlığı ətrafında təxminən 5 saat ərzində Ermənistan silahlı qüvvələrinin bolmələrinin müqavimətini qırmaq zərurəti yarandı. Cinahlardan hücum edən qüvvələrin dəstəyi ilə Xüsusi Təyinatlı Qüvvələr noyabr ayının 6-da yalnız Laçın–Şuşa yolunu deyil, həm də Xankəndi–Şuşa yolunu tamamilə nəzarət altına ala bildilər. Erməni hərbi rəhbərliyinin Şuşaya əlavə qüvvələr gətirmək cəhdləri isə heç bir nəticə vermədi və şəhər daxilində mövqe tutmuş xüsusi təyinatlılar onların bütün cəhdlərinin qarşısını aldılar. Hətta erməni hərbi rəhbərliyi kənardan Şuşaya əlavə zirehli texnika gətirməyə cəhd göstərsə də, bu onların köməyinə çatmadı və şəhərdə hərbi təşəbbüs Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əlinə keçdi. Kənar müşahidəçilər qeyd etmişdilər ki, noyabrın 6-da Azərbaycan Ordusu şəhəri bütünlüklə nəzarət altına ala bilərdilər.[28] Amma bu iş noyabrın 7-də görüldü.

Şuşaya toplanmış olan erməni generalları, o cümlədən Ermənistanın keçmiş müdafiə naziri noyabrın 6-da artıq Şuşa şəhərinin taleyinin həll edildiyinin şahidi oldu və elə həmin gün onlar şəhərdən qaçmaqla canlarını Azərbaycan Ordusunun xüsusi təyinatlılarının ağır zərbəsindən qurtara bildilər.[29]

Noyabr ayının 7-də Ermənistan silahlı qüvvələrinin bölmələri ilə döyüşlər yenə də davam etdi. Erməni hərbi-siyasi rəhbərliyi Şuşa şəhərinin itirilməsi ilə heç cürə barışa bilmirdi. Ona görə də şəhərin geri alınması üçün döyüşə yeni-yeni qüvvələr atılırdı. Xüsusi Təyinatlı Qüvvələr şəhər daxilində olan erməni mövqelərini zərərsizləşdirərək Şuşa şəhərinin icra hakimiyyətinin binasını da ermənilərdən təmizlədi. Gündüz Səfərli tərəfindən komandirlik edilən xüsusi təyinatlı dəstənin şəxsi heyəti bu bina üzərindəki

[28] День 41-й: Азербайджан окружает Шушу, Нарышкин видит работу турецкой разведки.//https://riafan.ru/1331542-den-41-i-azerbaidzhan-okruzhaet-shushu-naryshkin-vidit-rabotu-tureckoi-razvedki?utm_campaign=main&utm_referrer=https%3A%2F%2Fpulse.mail.ru&utm_source=pulse_mail_ru

[29] Баласанян избил Тонояна, Тоноян пожаловался Пашиняну, Пашиняна оскорбил Мкртчян...//https://www.kavkaz-uzel.eu/blogs/83772/posts/45798

ermәni bayrağını yerә ataraq onun yerindә şәhidlәrin adı yazılmış üçrәngli Azәrbaycan bayrağını dalğalandırdı. Bundan sonra taborun şәxsi heyәti Azәrbaycan Himnini sәslәndirdi vә ardınca azan sәslәri eşidildi. Amma elә hәmin günün axşamı ermәnilәr böyük qüvvәlәrlә şәhәrә yenidәn hücum etdilәr. Belә hücumlar noyabrın 8–9-da da davam etdi. Bölmәlәrimiz tәrәfindәn Şuşanın etibarlı müdafiәsi yaradıldığı üçün artıq ermәni tәxribatları heç bir nәticә vermәdi.

Şuşa şәhәrinin azad edilmәsi üçün keçirilәn döyüşdә Azәrbaycan Ordusu şәhidlәr verdi. Lakin bu döyüş Azәrbaycan Ordusunun, onun xüsusi tәyinatlılarının mәharәt vә mübarizliyinin әyani nümayişi vә tәsdiqi oldu, tarixi vә misilsiz bir qәlәbә әldә etmәklә haqqında miflәr yaradılmış Ermәnistan ordusundan daha güclü vә yüksәkdә olduğunu göstәrdi. Bu döyüşlәr zamanı tәtbiq edilәn taktika isә әn müxtәlif xarici mütәxәssislәrin dә heyrәt vә heyranlığına sәbәb olan mәharәt nümunәsinә çevrildi.

Şuşa şәhәrinin işğaldan azad edilmәsinin hәrbi-taktiki bәnzәrsizliyi onda idi ki, Ermәnistanın hәrbi-siyasi rәhbәrliyi böyük dünya güclәrinin havadarlığı ilә qoruyub saxlamağa çalışdıqları bu şәhәrә böyük qarnizon yerlәşdirsә dә, şәhәri hәtta Ermәnistan әrazisindәn raket atәşlәrinә tutsalar da, öndә hәrәkәt edәn Azәrbaycan xüsusi tәyinatlıları gәrgin döyüşlәrdәn sonra düşmәn qüvvәlәrin müqavimәtini qıra bildi. Vәtәnin dayağından, Azәrbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvәlәrin Müzәffәr Ali Baş Komandanının qәtiyyәtindәn güc alan xüsusi tәyinatlılar qarşıya qoyulan tapşırığın icrası üçün hәtta әlbәyaxa döyüşlәrә girmәkdәn belә çәkinmәdilәr. Bunu ermәnilәrә havadarlıq edәn xarici qüvvәlәrin tәmsilçilәri dә tәsdiq edirdilәr. Mәsәlәn, Fransanın "Le Monde" qәzetinin Xankәndinә gәlmiş müxbiri xәbәr verirdi ki, Şuşadan gәlәn ermәni yaralıları, әsasәn, güllә vә bıçaqla yaralanmışdılar. Güllә yaraları tapança yaraları idi. Bu o demәkdir ki, Şuşa şәhәrindә Azәrbaycan döyüşçülәri ermәnilәrlә әlbәyaxa döyüşlәrә girmiş vә bu şәhәri azad etmişdilәr.[30]

Fransadan gәlmiş milliyyәtcә ermәni olan döyüşçü ermәni hәrbi qüvvәlәrinin düşdüyü vәziyyәti Azәrbaycan döyüşçülәrinin yaratdığı cәhәnnәm kimi xarakterizә edirdi. Onun fikrincә, Azәrbaycan döyüşçülәrinin yaratdığı cәhәnnәmә düşәn ermәnilәr, yәqin ki, hәyatları boyu bir dә belә

[30] Qarabağın qәlbi necә azad olundu: 300 spartalının әfsanәsi gerçәk oldu Şuşada.// https://www.bizimyol.info/az/news/301032.html?fbclid=IwAR10M4ffyYzs0y-HxzHaE7SeZ-kQz9QK5fZFXP0RTtSKgBfhGFQO_Ev6feuc





cәhәnnәmә düşmәk istәmәzdilәr. Hәmin ermәninin danışdığına görә, Azәrbaycan Ordusunun xüsusi tәyinatlıları ölüm mәlәyi kimi qәfil şәkildә, kimsә hiss etmәdәn 3–4 nәfәrlik qruplarla hücum edir vә әn azı 20–30 ermәninin meyitini orada qoyub gedirdilәr. Ermәni tәbliğatına vә xülyalarına uyaraq ermәniliyin maraqlarını qorumaq üçün әlindә silah Qarabağa gәlmiş fransalı ermәni onu da etiraf edirdi ki, 1500 ermәni silahlısının 5–6 Azәrbaycan döyüşçüsündәn qorxaraq geri qaçması artıq tәәccüblü görünmәmәlidir. Çünki hәmin 1500 ermәni qaçaraq canlarını qurtarmasaydı, onlar 5–6 azәrbaycanlı döyüşçünün әlindә mәhv olacaqdı. Şuşa şәhәri uğrunda gedәn döyüşlәri isә fransalı ermәni könüllüsü dәhşәt kimi qiymәtlәndirirdi.[31]

Azәrbaycana vә bütünlükdә türklüyә qarşı yönәldilmiş ermәni millәtçi-tәcavüzkar ideologiyasının liderlәrindәn biri olan Zori Balayanın oğlu da Şuşada Azәrbaycan döyüşçülәrinin Şuşa şәhәrinin azad edilmәsi üçün göstәrdiyi misilsiz şücaәti vә hünәri acı tәәssüratla etiraf etmәli olmuşdu. O yazırdı: "Bu, әfsanәvi әmәliyyat idi. ...Sizә sәmimi deyirәm. Mәn Hadrut yüksәkliklәrindә idim vә hәr şeyi öz gözlәrimlә görürdüm. Heç cür başa düşә bilmirәm ki, azәrbaycanlılar bu yüksәkliklәri necә ala bildilәr. Ancaq mәn hәrbi mütәxәssis deyilәm. Yәqin ki, azәrbaycanlılar bu cür dağ әmәliyyatlarına, sadәcә, yaxşı hazırlaşmışdılar. Çünki Şuşanı götürәndә topçularımız onların üzәrindә çox yaxşı işlәyirdi. Ancaq yenә dә irәlilәyirdilәr. Ölәnlәrin yerini yüzlәrlә, minlәrlә yenisi tutur vә onlar heç cür bitib-tükәnmirdilәr".[32]

2020-ci il noyabr ayının 8-i Azәrbaycan tarixinә Şuşa şәhәrinin işğaldan azad edilmәsi tarixi kimi yazıldı. Bu şәrәfli vә qürurlu tarix münasibәtilә elә noyabr ayının 8-dә Prezident İlham Әliyev әvvәlcә Fәxri xiyabanda Ulu öndәr Heydәr Әliyevin mәzarını vә Şәhidlәr xiyabanını ziyarәt etdi, tarixi qәlәbәnin sevincini bölüşmәk üçün Şәhidlәr xiyabanından radio vә televiziya ilә Azәrbaycan xalqına müraciәt etdi: "Böyük fәxarәt vә qürur hissi ilә bәyan edirәm ki, Şuşa şәhәri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibәtlә bütün Azәrbaycan xalqını ürәkdәn tәbrik edirәm. Bütün şuşalıları ürәkdәn tәbrik edirәm. İyirmi sәkkiz il yarım işğal altında

[31] Рзаев Т. Армянин из Франции о битве за Шушу: Те армянские солдаты, которые хотя бы раз побывали в этом аду, вряд ли снова будут там воевать.//https://1news.az/news/armyanin-iz-francii-o-bitve-za-shushu-te-armyanskie-soldaty-kotorye-hotya-by-raz-pobyvali-v-etom-adu-vryad-li-snova-budut-tam-voevat

[32] Zori Balayanın oğlu Şuşa döyüşündәn danışdı: Әfsanәvi әmәliyyat idi.// https://hit.az/az/siyaset/212058/zori-balayanin-olu-susa-dyusunden-danisdi-efsanevi-emeliyyat-idi/

olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq".[33]

Azərbaycan xalqının mədəniyyə və mənəviyyat beşiyi olan Şuşa şəhərinin azad edilməsi ilə bağlı ata vəsiyyətini yerinə yetirməkdən qürur duyduğunu açıqlayan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev öz müraciətini belə tamamladı: "17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu mənə güc verir. Bu mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda, bəlkə də, ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"[34]

Elə noyabr ayının 8-də də İlham Əliyev Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin komandanı general-leytenant Hikmət Mirzəyevə zəng etdi və Şuşa şəhərinin azad edilməsində Xüsusi Təyinatlı Qüvvələrin göstərdiyi tarixi xidmətlərə görə öz təşəkkürünü çatdırdı.[35]

Şuşa şəhərinin azad edilməsi ilə Vətən müharibəsi də başa çatmış oldu və Ermənistan rəhbərliyi Rusiya prezidentinin vasitəçiliyi ilə kapitulyasiya aktını imzalayaraq ölkəsinin bu müharibədə məğlub duruma düşdüyünü qəbul etdi.

Beləliklə, Şuşa şəhərinin işğaldan azad edilməsi Xüsusi Təyinatlı Qüvvələrin, bütünlükdə Azərbaycan Ordusunun Zəfəri, 44 gün ərzində sınaq dolu döyüş yolunun məntiqi nəticəsi və zirvəsi oldu. Bu Zəfər həm də Azərbaycan Ordusunun güc və mənəvi ruh aldığı, arxalandığı və dayaqlandığı Azərbaycan xalqının Zəfəri idi. Bu böyük Zəfər eyni zamanda Prezident İlham Əliyevin xalqımızın tarixinə silinməz izlərlə həkk etdiyi möhtəşəm bir qələbə idi.

Dünya hərb tarixi belə bir qənaətə gəlməyə əsas verir ki, güclü ordunun olması, xalqın yenilməz iradəsi, habelə dövlətin siyasi və iqtisadi gücü, ön və arxa cəbhənin qırılmaz vəhdəti, informasiya və diplomatiya çevikliyi və s. amillər müharibənin uğurla aparılması üçün mühüm amillərdir. Lakin bu amillərin hər birinin ayrı-ayrılıqda mövcudluğu müharibənin uğurla aparılması üçün heç də yetərli deyil. Həmin amillər yalnız dövlətin təşkilati fəaliyyəti ilə uzlaşdırıldıqda və məntiqli şəkildə səfərbərliyə alınaraq cəbhəyə istiqamətləndirildikdə özünün əməli nəticəsini verə bilər. Bu mənada cəmiyyət həyatında özünü göstərə biləcək ictimai-kütləvi proseslərin heç biri ordu quruculuğu və müharibə kimi mərkəzləşdirilmiş rəhbərliyi və vahid komandanlığı tələb etmir. Çünki məqsədyönlü təşkilatçılığı, sərt intizamı, icraçılığı və nəzarəti tələb edən hərb işinin mahiyyəti ölkənin bütün potensialının bir mərkəzdə toplanmasını, bu potensialın vahid mərkəz tərəfindən idarə olunmasını və istiqamətləndirilməsini tələb edir. Bütün bunlar isə hərb işində, o cümlədən müharibələrin aparılmasında ali baş komandanların rolunu birmənalı şəkildə ön plana çıxarır. Dünya təcrübəsi də göstərir ki, səriştəli, qətiyyətli və mübariz komandan olmadan müharibədən qalib çıxmaq mümkün deyil. Prezident İlham Əliyevin Vətən müharibəsi dövründəki fəaliyyəti də ondan xəbər verir ki, planlaşdırılmış, əsaslandırılmış, bütün riskləri və təfərrüatları hesablanmış rəhbərlik və təşkilatçılıq olmadan müharibəni uğurla başa vurmaq mümkün deyildir. Ona görə müharibə həm də dövlət idarəçiliyinin, ali baş komandanlığın sınağıdır və bu sınaqdan yalnız ən məsuliyyətli bir zamanda ən doğru seçim etməyi və bu seçimin ən düzgün icrasını təşkil etməyi bacaran Ali Baş Komandan uğurla çıxa bilər. Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev bir daha məhz belə keyfiyyətlərə malik olduğunu bütün dünyaya nümayiş etdirdi. Öz ordusunu, xalqını, ölkəsinin potensialını dəmir yumruğa çevirməyi bacaran, tarixi qələbəyə aparan və Şuşa Zəfəri kimi bir uğuru xalqına bəxş edən Müzəffər Ali Baş Komandandır.

---

[33] Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib.// https://azertag.az/xeber/Azerbaycan_Prezidenti_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Fexri_xiyabanda_ve_Sehidler_xiyabaninda_olublar_Dovletimizin_baschisi_Muzeffer_Ali_Bas_Komandan_Sehidler_xiyabaninda_Azerbaycan_xalqina_muraciet_edib_YENILANIB_VIDEO-1636809

[34] Yenə orada

[35] Ильхам Алиев поздравил генерала Хикмета Мирзоева с победой. //https://haqqin.az/news/193391

# PREZİDENT İLHAM ƏLİYEVİN MÜHARİBƏ DÖVRÜ DİPLOMATİYASI VƏ XARİCİ SİYASƏTİ

## Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının üzləşdiyi təcavüz və onun nəticələri, dünya birliyinin mövqeyi, ərazilərimizin işğaldan azad edilməsi istiqamətində aparılan danışıqlar və Azərbaycanın siyasəti

Azərbaycan Respublikası müstəqilliyinin ilk günlərindən qonşu Ermənistanın hərbi təcavüzü ilə üzləşmiş və nəticədə, beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20%-i (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ətraf 7 rayon) işğal olunmuşdur. Ermənistan silahlı qüvvələri tərəfindən qəsb edilmiş Azərbaycan torpaqlarında etnik təmizləmə həyata keçirilmiş, bütün azərbaycanlı əhali öz evlərindən zor gücünə qovulmuşdur. Bir milyona yaxın azərbaycanlının fundamental insan hüquqları pozulmuş, onlar qaçqın və məcburi köçkünə çevrilmişlər.

Keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı beynəlxalq ictimaiyyətin mövqeyi həm dövlətlər tərəfindən ikitərəfli əsasda qəbul olunmuş sənədlərdə, həm də beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələrdə öz əksini tapmışdır. Beynəlxalq təşkilatlar erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən və münaqişənin ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığına hörmət prinsipləri də daxil olmaqla, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə çağıran çoxsaylı sənədlər qəbul etmişdir. Qeyd olunan mövqe BMT-nin Təhlükəsizlik Şurası, Baş Assambleyasının müvafiq qətnamələrdə, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qoşulmama Hərəkatı və digər təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə birmənalı şəkildə ifadə olunmuşdur.

Beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə münaqişənin həlli ilə bağlı konkret şəkildə ifadə olunan mövqe özündə bir neçə vacib elementi ehtiva edirdi. Birinci növbədə, Azərbaycanın ərazi bütövlüyü tanınır və Qarabağın Azərbaycan ərazisinin tərkib hissəsi olduğu təsdiqlənir. BMT





TŞ-nin 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrində, Baş Assambleyanın qətnamələrində, İslam Əməkdaşlıq Təşkilatının mütəmadi əsasda qəbul etdiyi qətnamələrində, habelə digər beynəlxalq və regional təşkilatların çoxsaylı sənədlərində bu dəstək ifadə olunur. Ümumiyyətlə, işğalçı dövlət istisna olmaqla, Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünə heç bir dövlət və ya təşkilat tərəfindən şübhə ilə yanaşılmamışdır. İkinci, işğalın aradan qaldırılması və işğalçı qüvvələrin Azərbaycan ərazilərini tərk etməsi tələb olunur. BMT TŞ-nin qeyd olunan qətnamələri başda olmaqla, beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələrində Azərbaycan ərazilərinin işğalının aradan qaldırılması və işğalçı qüvvələrin bu əraziləri dərhal tərk etməsi çağırışı əks olunur. Üçüncü, qaçqın və məcburi köçkünlərin öz evlərinə geri qayıtmaq hüququ təsbit edilir. Münaqişə nəticəsində bir milyonadək insanın hüquqlarının pozulması, onların qaçqın və məcburi köçkünə çevrilməsi, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması yuxarıda sadaladığımız və digər qərarların vacib müddəaları sırasında yer alıb.[36]

Ermənistanın davam edən təcavüzü çərçivəsində Azərbaycanın işğal altında olan ərazilərində işğalçı Ermənistan tərəfindən həyata keçirilən qanunsuz fəaliyyət, o cümlədən işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin aparılması, bu torpaqlarda Azərbaycan xalqının zəngin tarixi, mədəni, dini irsinin məhv və talan edilməsi, təbii sərvətlərin qanunsuz istismarı, həmin ərazilərdəki şəxsi və ictimai mülkiyyətin qanunsuz mənimsənilməsi və digər qeyri-qanuni addımlar beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan sənədlərdə yer almışdır. Belə ki 2004-cü ildə[37] Azərbaycan tərəfindən BMT Baş Assambleyasında Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qanunsuz fəaliyyət, o cümlədən qanunsuz məskunlaşdırma məsələsi qaldırılmış, bunun ardınca bölgəyə ATƏT-in fakt araşdırma missiyası baş tutmuşdur. İƏT tərəfindən münaqişənin

[36] Beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və sənədlər barədə ətraflı məlumat AR XİN-in internet səhifəsində növbəti keçiddən əldə oluna bilər: https://www.mfa.gov.az/files/documents-of-international-organizations-on-the-armenia-azerbaijan-conflict.pdf

[37] Letter dated 11 November 2004 from the Permanent Representative of Azerbaijan to the United Nations addressed to the President of the General Assembly, transmitting a letter dated 11 November 2004 from the Minister for Foreign Affairs of the Republic of Azerbaijan regarding the illegal activities carried out in the occupied territories of the Republic of Azerbaijan and providing information on the transfer of population into the occupied territories of Azerbaijan. United Nations document A/59/568

siyasi və iqtisadi aspektləri ilə bağlı qəbul olunan qətnamələrlə yanaşı, tarixi, mədəni və dini abidələrin dağıdılması məsələsinə xüsusi diqqət ayrılmış və bu mövzuda ayrılıqda qətnamələr qəbul olunmuşdur.

Azərbaycan Ermənistanın reallıqları anlayacağı, beynəlxalq hüququn norma və prinsiplərinə, həmçinin beynəlxalq təşkilatların qətnamə və qərarlarına uyğun olaraq, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğaldan azad edəcəyi ümidi ilə 30 ilə yaxın danışıqlar prosesinə sadiq olmuşdur. Ölkəmiz eskalasiyanın qarşısını almağa çalışmış və haqq səsinin beynəlxalq ictimaiyyət tərəfindən eşidilməsini istəmişdir.

Azərbaycanın keçmiş münaqişənin həlli üzrə aparılan danışıqlar prosesində sərgilədiyi mövqe prinsipial xarakter daşımaqla, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmış, uzun illər davam edən proses çərçivəsində dəyişilməz qalmışdır. Bu mövqe beynəlxalq hüququn dövlətlərin suverenliyi, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsi, qanunsuz işğal faktorunun aradan qaldırılması və öz evlərindən didərgin düşmüş insanların hüquqlarının bərpa edilməsi, onların evlərinə təhlükəsiz şəraitdə və ləyaqətlə geri dönməsinin təmin edilməsindən ibarət olmuşdur.

Beynəlxalq ictimaiyyətin sərgilədiyi bu mövqeyə rəğmən, təcavüzkar siyasətini davam etdirən Ermənistan danışıqlar prosesini ləngidərək, Azərbaycan torpaqlarının işğalının nəticələrini möhkəmləndirmək və onların ilhaqını həyata keçirmək məqsədini güdmüş və bu istiqamətdə ardıcıl addımlar atmışdır.

Beləliklə də, Azərbaycanın siyasi həll yoluna sadiq olmasına baxmayaraq, beynəlxalq qərarları həyata keçirmə mexanizminin olmaması son zamanlar Ermənistan tərəfindən açıq şəkildə təxribatçı və təcavüzkar hərəkətlərin, habelə destruktiv mövqeyin nümayiş edilməsi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün hərbi yolla bərpasını qaçılmaz etdi.

27 sentyabr 2020-ci il tarixində, Ermənistanın növbəti təxribatına cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatları başladı. 44 günlük Vətən müharibəsinin nəticəsində Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini (822, 853, 874 və 884), BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Qoşulmama Hərəkatı, Türk Şurası, NATO, GUAM, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların erməni





işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal, qeyd-şərtsiz çıxarılmasını tələb edən, münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinin əsasında həllinə çağıran qərar və qətnamələrini həyata keçirdi.

## Ermənistanda hakimiyyət dəyişikliyi ilə hərbi-siyasi təxribatların artması və Azərbaycanın cavab tədbirləri. Dövlət başçısı tərəfindən beynəlxalq ictimaiyyətə ünvanlanan xəbərdarlıq

Onilliklər ərzində Ermənistan tərəfindən həyata keçirilən təcavüz siyasəti bu ölkəni ciddi sosial-iqtisadi problemlər, dərin böhran ilə üz-üzə qoymuşdu. Belə bir şəraitdə Ermənistanda 2018-ci ildə keçirilən seçkilər nəticəsində hakimiyyətə gələn Nikol Paşinyan ölkədə islahatların aparılması, inkişaf, rifahın təmin olunması, habelə beynəlxalq aləmdə nüfuzunun artırılması ilə bağlı xalqa verdiyi vədləri nəinki həyata keçirə bilmədi, əksinə, dövlətin idarəetmə sistemini xaosa sürüklədi.

Paşinyan hökumətinin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı yürüdəcəyi siyasət ilkin mərhələdə "demokratik seçkilərlə hakimiyyətə gələn biri kimi" münaqişənin danışıqlar yolu ilə irəliləməsinə imkan yaradacağı gözləntisi olsa da, sonradan onun sələflərinin belə nümayiş etdirmədiyi son dərəcə təxribatçı fəaliyyəti elə danışıqlar prosesinə vurulan əsas zərbələrdən oldu.

Baş nazir Paşinyanın hakimiyyətə gəldiyi 8 may 2018-ci il tarixindən məlum 27 sentyabr 2020-ci il tarixinədək Ermənistanın siyasi-hərbi rəhbərliyi tərəfindən atılmış təxribatçı addımların miqyası bu ölkənin məqsədinin münaqişənin həlli deyil, yalnız Azərbaycan ərazilərinin ilhaq edilməsi olduğunu açıq şəkildə nümayiş etdirirdi. N.Paşinyanın təxribatlarının yalnız bir neçəsini sadalamaqla Ermənistanın əsl niyyətini anlamaq olar.

Hakimiyyətə gəldiyi günün səhərisi Azərbaycanın o zaman işğalçı qüvvələrin nəzarətində olan Qarabağ bölgəsinə səfər edərək, Şuşa şəhərinin işğalını qeyd edən N.Paşinyan həmin ilin iyun ayında növbəti dəfə Qarabağa səfər etmiş, buradakı qondarma qurumun "rəsmiləri" ilə hərbi məsləhətləşmələr keçirmişdir. 2018-ci ilin iyul ayında o, oğlunu hərbi xidmət keçmək üçün Ermənistan hərbi qüvvələrinin Qarabağdakı bölməsinə göndərməklə,

Ermənistan gəncinin ordu sıralarına qoşulmasını təşviq etməklə yanaşı, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazilərində qanunsuz mövcudluğuna haqq qazandırmış olurdu. Xatırlatmaq istərdik ki, hələ 8 may 2018-ci il tarixində Ermənistan parlamentində çıxışı zamanı N.Paşinyan qondarma rejimin münaqişənin həlli üzrə danışıqlarda iştirakı məsələsini qaldırmış, beləliklə də, danışıqların formatını sual altına almışdı. Sonradan atdığı yeni-yeni təxribatçı addımları ilə o, münaqişənin həlli üzrə uzun illər ərzində mövcud olan danışıqların formatına ciddi xələl gətirmişdi.

Hakimiyyətdə olduğu ilk bir il ərzində Azərbaycanın işğal altında olan ərazilərinə 4 dəfə səfər edən Baş nazir N.Paşinyan keçirdiyi görüşlərdə və verdiyi bəyanatlarda açıq şəkildə "Qarabağı gələcəkdə Ermənistanın bir hissəsi" kimi gördüyünü ifadə edirdi. 2019-cu ilin 30 mart tarixində Ermənistan müdafiə naziri D.Tonoyan Nyu-Yorkda erməni icması ilə görüş zamanı "sülh üçün ərazilər" formatının artıq qəbuledilməz olduğunu qeyd edərək, əksinə, "yeni ərazilər üçün yeni müharibə" yanaşmasını irəli sürdü. Əslində, bu, Ermənistan hökumətinin açıq şəkildə təcavüz siyasətini genişləndirmək niyyətinin göstəricisi idi. Bütün bunlarla yanaşı, 2019-cu ilin 5 avqust tarixində N.Paşinyan ilk dəfə Qarabağda təşkil olunan ümumerməni oyunları ərəfəsində "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını səsləndirdi.

2020-ci ilin 10 iyul tarixində yenilənmiş Milli Təhlükəsizlik Strategiyasını qəbul edən Ermənistan burada açıq şəkildə münaqişənin həlli məqsədinin Ermənistanın Azərbaycana qarşı başlatdığı müharibənin nəticələrini möhkəmləndirmək olduğunu müəyyən etdi. Bunun ardınca isə 12–16 iyul 2020-ci il tarixlərində Ermənistan silahlı qüvvələri Ermənistan–Azərbaycan sərhədi boyunca Tovuz rayonu istiqamətində mövqelərimizə hücum etdi və 12 azərbaycanlı hərbçi və 1 mülki şəxsi qətlə yetirdi. Daha sonra avqust ayında Ermənistanın diversiya qrupu keçmiş təmas xəttini keçərək Azərbaycan hərbçilərinə və mülki şəxslərə qarşı terror aktları törətməyə cəhd etdi, lakin bunun qarşısı uğurla alındı.

N.Paşinyan hökumətinin yuxarıda sadalanan və digər çoxsaylı siyasi və hərbi təxribatları iki ölkə arasında beynəlxalq vasitəçilərin iştirakı ilə keçirilən danışıqların formatını mənasız bir prosesə çevirməklə onu kökündən sarsıtdı. 23 iyul 2020-ci il tarixində Tovuz təxribatından sonra Ermənistanın danışıqlarda üstünlüyünün möhkəmləndiyi mövqeyindən çıxış edən erməni baş nazir danışıqlar prosesində iştirakla bağlı 7 şərt irəli sürür, o cümlədən "qanunsuz rejimin danışıqlar prosesinin tam hüquqlu iştirakçısına çevrilməli olduğunu" iddia edir.





Göründüyü kimi, Ermənistanın məqsədyönlü və sistematik xarakter daşıyan təxribatları bölgədə vəziyyəti gərginləşdirməyə və danışıqlar prosesinə xələl gətirməyə hesablanmışdı. Azərbaycan, öz növbəsində, bütün bu təxribatları lazımi şəkildə cavablandırmış, hər bir təxribatla bağlı bir çox hallarda hətta dövlət rəhbəri səviyyəsində reaksiya özünü çox gözlətməmişdi. Bir məqamı xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının dövlət başçısı keçmiş münaqişə kontekstində səsləndirdiyi hər bir fikrin, mövqeyin, verdiyi ismarışın zamanını, məkanını xüsusi dəqiqliklə seçərək onun doğru hədəflərə və geniş beynəlxalq auditoriyaya çatmasına böyük önəm verir. Xatırlatmaq istərdik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin 3 oktyabr tarixində Rusiya prezidenti və dörd ölkə liderinin iştirakı ilə baş tutan "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı illik iclasının plenar sessiyasında çıxışı zamanı N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" bəyanatına cavabını verdi. Bütün dünya mediasının diqqət mərkəzində olan bir tədbirdə Prezident İlham Əliyev erməni baş nazirinin bəyanatının yalan olduğunu vurğulayaraq bildirdi: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".[38] 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində münaqişə ilə bağlı təşkil olunan panel müzakirəsində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev münaqişənin həm tarixi, həm də hüquqi aspektləri, eləcə də münaqişənin həlli prosesində Azərbaycanın sərgilədiyi beynəlxalq hüquqa əsaslanan mövqeyi barədə verdiyi dəqiq və dolğun məlumatla müzakirələrə qatılan Baş nazir N.Paşinyanı çıxılmaz vəziyyətdə qoydu.[39] Vurğulamaq istərdik ki, qeyd etdiyimiz hər iki tədbirdə dövlət başçısı tərəfindən edilən çıxışlar məhz beynəlxalq ictimaiyyətin diqqətinin bu məsələyə yönəldilməsi və keçmiş münaqişə kontekstində həqiqətlərin milyonların gözü önündə birbaşa çatdırılması məqsədini güdüb.

Ümumiyyətlə, Azərbaycanın dövlət başçısı tərəfindən istər yerli səviyyədə keçirilən görüş və verilən müsahibələrdə, istərsə də beynəlxalq tribunalardan edilən çıxışlarda Ermənistanın hərbi-siyasi təxribatlarına geniş yer ayrılaraq, bu ölkənin təcavüzkar siyasətinin nəticələri, habelə təxribatçı fəaliyyətinin məqsədləri barədə ətraflı məlumat verilmiş, bu xüsusda dünya ictimaiyyətinə xəbərdarlıq edilmişdi.

---

[38] https://president.az/articles/34346
[39] https://president.az/articles/35813

Tovuz təxribatından dərhal sonra Azərbaycanın dövlət başçısının rəhbərliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında çıxışı zamanı Prezident İlham Əliyev dövlət sərhədində Ermənistanın hərbi təxribatının həmin vaxt törədilməsinin təsadüfi olmadığını və bunun son zamanlar Azərbaycanın beynəlxalq arenada qazandığı uğurlarla əlaqəsinin olduğunu qeyd edib.[40] Xatırladırıq ki, Azərbaycan beynəlxalq gündəliyi zəbt etmiş COVİD–19 məsələsi ilə bağlı iki böyük Zirvə görüşü keçirib, bundan sonra isə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılmasına nail olmuşdu. Həm Ermənistan daxilində mövcud olan problemlər, həm də Azərbaycanın beynəlxalq müstəvidə artmaqda olan nüfuzu qonşu ölkənin yeni hərbi təxribat törətməsinin səbəbləri sırasında idi.

Dövlət başçısı Ermənistanın təxribatlarının danışıqlar prosesinə zərbə olduğunu açıq şəkildə bildirdi və Ermənistan rəhbərliyinin Azərbaycanı "yeni torpaqları işğal etməklə hədələməyə çalışdıqlarını" söylədi. "Azərbaycan xalqının səbrinin həddi var. Danışıqlar mahiyyəti üzrə aparılmalıdır. Əgər biz görsək ki, bu danışıqlar əhəmiyyətsizdir, onda buna uyğun şəkildə öz addımlarımızı da atacağıq və bəyanatlarımızı da verəcəyik",[41] – deyə bəyan edən Prezident İlham Əliyev bu təxribatların nəyə gətirib çıxara biləcəyini də açıq şəkildə səsləndirdi.

Azərbaycan Respublikası Prezidenti 24 sentyabr 2021-ci il tarixində BMT Baş Assambleyasının 76-cı sessiyasının ümumi debatlarında çıxışı zamanı, əslində, Ermənistanın yeni təxribatları ilə bağlı beynəlxalq ictimaiyyətə aydın şəkildə xəbərdarlıq etdi. Prezident çıxışının böyük hissəsini münaqişə və onun doğurduğu nəticələrə, habelə Ermənistanın hərbi-siyasi təxribatlarına həsr edərək, BMT-nin ali kürsüsündən dünya ictimaiyyətinə müraciət etdi: "Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğu regional sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən sülh prosesini pozmağa cəhd edir. Ermənistanın məqsədi işğalla bağlı hazırkı status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaqdır. Azərbaycanın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistanın Baş naziri məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. Onun qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir. Bizim sülhə nail olmaq üçün yeganə şərtimiz var: Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır".[42]

[40] https://president.az/articles/39596
[41] https://president.az/articles/39702





Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxış edərkən. 24 sentyabr 2021-ci il

Nə beynəlxalq hüquqi çərçivə, nə qəbul olunmuş qərar və qətnamələr, nə də Azərbaycanın xəbərdarlıqları Ermənistanı təcavüzkar siyasətindən çəkindirmir, əksinə, bu siyasətin nəticələrinin möhkəmləndirilməsi və daha da genişləndirilməsi meyillərini üzə çıxarırdı. Belə olduğu təqdirdə, Ermənistanın təxribatlarının adekvat şəkildə cavablandırılması, beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası çərçivəsində müvafiq tədbirlərin görülməsi qaçılmaz idi.

[42] https://president.az/articles/40937

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Ermənistan Baş naziri Nikol Paşinyanla beynəlxalq tədbirlər çərçivəsində qeyri-rəsmi təmasları, habelə keçirdiyi iki rəsmi görüş (2019-cu ilin 29 mart tarixində Vyana şəhərində, 2020-ci il 15 fevral tarixində Münhen şəhərində) nəticəsində prosesin irəli aparılma şansının olmadığının açıq şəkildə görünməsi, qonşu dövlətin siyasi rəhbərliyinin məkrli və barışmaz mövqeyi Ermənistanın diplomatiya və danışıqlar dilindən anlamadığını aydın şəkildə göstərirdi.

## Prezidentin 27 sentyabr 2020-ci il tarixindən başlayaraq xalqa ünvanladığı müraciətlərində beynəlxalq ictimaiyyətə verdiyi ismarışlar

27 sentyabr 2020-ci ildə Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq, Azərbaycan Ordusunun əks-həmlə əməliyyatları ilə başlayan və 44 gün davam edən Vətən müharibəsi müddətində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev xalqa müraciətlər edərək, cəbhə bölgəsindəki son vəziyyətlə bağlı ən son məlumatları əhalinin diqqətinə çatdırmışdır. Bu dövr ərzində 8 dəfə xalqa müraciət edən dövlət başçısı çıxışlarında eyni zamanda həm beynəlxalq ictimaiyyəti dəqiq və dürüst şəkildə məlumatlandırır, həm də Ermənistan da daxil olmaqla, onlara konkret ismarışlar göndərirdi.

27 sentyabr 2020-ci il tarixində xalqa müraciətində Ermənistan silahlı qüvvələrinin Azərbaycan yaşayış məntəqələrini atəşə tutduğu, nəticədə, mülki əhali və hərbçilərimiz arasında itkilərin olduğunu bəyan edən dövlət başçısı Azərbaycan Ordusunun düşmənə cavab zərbələri endirdiyini bildirdi.[43] Beləliklə də, 30 ilə yaxın davam edən qanunsuz işğala son verəcək cavab əməliyyatı, dövlət başçısının sözləri ilə desək, "Dəmir yumruq əməliyyatı" başladı. Azərbaycan Xarici İşlər Nazirliyi 27 sentyabr 2020-ci il tarixli bəyanatında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirləri həyata keçirdiyini və yaran-

[43] https://president.az/articles/40968





mış vəziyyətə görə tam məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü bəyan etdi.[44]

Prezident Ermənistanın son təxribatlarını, o cümlədən 2020-ci ilin avqust ayında bu ölkənin diversiya qrupunun terror aktları törətmək üçün Azərbaycan ərazisinə daxil olmaq cəhdlərindən danışaraq saxlanılan diversiya qrupunun başçısının ifadələr verdiyini qeyd etdi. Ermənistanın Azərbaycanı şüurlu şəkildə təxribatlara çəkmək istədiyini və yeni müharibəyə hazırlaşdığını BMT kürsüsündən bəyan edən Prezident İlham Əliyev bu ölkənin dayandırılacağı ismarışını da bütün dünyaya qətiyyətlə bildirdi.

44 günlük müharibədə Azərbaycanın haqlı mövqeyini xarakterizə edən və dövlət başçısının, demək olar ki, bütün müraciətlərində qeyd olunan əsas məqamlardan biri məhz ölkəmizin əməliyyatları beynəlxalq hüquq çərçivəsində tanınmış ərazilərində həyata keçirməsi idi. "Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır... Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir... Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu bizim doğma dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar, ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?!",[45] – deyən dövlət başçısı onilliklər ərzində Azərbaycan tərəfindən istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvilərdə səsləndirilən, danışıqlar prosesində ifadə edilən mövqeyimizi konkret şəkildə bəyan etdi.

Azərbaycanın işğaldan azad edilmiş hər bir rayonu, kəndi, qəsəbəsi, əldə edilən qənimətlər barədə məlumatı Azərbaycan xalqı ilə bölüşən dövlətimizin başçısı öz çıxışlarında bu torpaqlardakı vəziyyət, Ermənistan tərəfindən illər ərzində aparılmış qanunsuz fəaliyyət və onun nəticələri, genişmiqyaslı dağıntılar, habelə törətdiyi müharibə cinayətləri barədə konkret informasiyalar təqdim edirdi.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərini raket atəşinə məruz qoyaraq günahsız mülki insanları hədəf aldığını 17 oktyabr 2020-ci il tarixli müraciətində səsləndirən Prezident İlham Əliyev qarşı tərəfin bütün qeyri-insani və hüquqazidd davranışına

[44] https://mfa.gov.az/az/news/no27220-statement-of-the-ministry-of-foreign-affairs-of-the-republic-of-azerbaijan-enru

[45] https://president.az/articles/40968

rəğmən, Azərbaycanın sadiq qaldığı dəyərlərin dəyişməyəcəyini bildirdi: "Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq",[46] – deyərək Azərbaycan Ordusunun təcavüzkar deyil, xilaskar olduğunu bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də odur ki, Azərbaycan tərəfi hətta əməliyyatlar davam edən zaman belə münaqişənin qan tökmədən, itki vermədən həllinin tərəfdarı olduğunu bəyan etdirdi. Prezident İlham Əliyev 44 günlük müharibə dövründə ilk gündən etibarən öz çıxışlarında cavab əməliyyatlarının dayandırılmasının mümkünlüyünü, lakin bunun üçün Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasının zəruri olduğunu bəyan edirdi. "İşğalçıya, bəlkə də, sonuncu dəfə şans veririk ki, çıxın bizim torpaqlarımızdan. Çıxın, öhdəlik götürün, danışıqlara qayıdın, danışıqların formatına qayıdın"[47], – deməklə prezident mövqeyimizi aydın şəkildə ifadə edirdi. Bunun qarşılığında Ermənistan tərəfi nəinki bu çağırışlara qarşılıq vermir, əksinə, əməliyyatlar zamanı humanitar atəşkəsə dair əldə olunmuş razılıqları da hər dəfəsində kobud şəkildə pozurdu.

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin 9 oktyabr 2020-ci ildə Moskvada keçirilən görüşü nəticəsində 10 oktyabr tarixindən tərəflər arasında humanitar atəşkəslə bağlı razılıq əldə edildi. Bu razılıq humanitar xarakter daşımaqla, həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsini nəzərdə tuturdu. Lakin razılıq əldə olunandan 13 saat sonra Ermənistan atəşkəsi pozaraq, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə gecə saatlarında raket atəşi açdı. 9 günahsız mülki şəxsin öldürülməsi və 30-dan çox insanın yaralanması ilə nəticələnən bu cinayət Ermənistan tərəfinin sözündə, əməlində dürüst olmadığını və təcavüzkar mahiyyətini bir daha nümayiş etdirdi. Tərəflər arasında növbəti humanitar atəşkəsin 17 oktyabr tarixində elan olunmasına baxmayaraq, dəqiqələr sonra bu atəşkəsi pozan Ermənistan Gəncə şəhərinə növbəti namərd hücumunu etdi. 24 oktyabrda ATƏT-in Minsk qrupu həmsədrlərinin Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə görüşlərinin ardınca 26 oktyabr tarixindən yeni humanitar atəşkəs elan edildi. Bu dəfə də razılığı pozan Ermənistan oldu. Prezidentin xalqa 26 oktyabr 2020-ci il tarixli

[46] https://president.az/articles/43334
[47] Yenə orada





müraciətində bu barədə deyilir: "...səhər 9-da artıq mən maraqlandım, bir neçə dəqiqə keçmiş atəşkəs Ermənistan tərəfindən pozuldu, Tərtər rayonuna yenə də atəş açıldı. Ancaq mən yenə də göstəriş vermişəm, hələ ki, Azərbaycan Ordusu özünü təmkinlə aparsın, təxribata uymasın. Mənim mövqeyim xalqıma bəllidir. Bu məsələ öz həllini tapmalıdır, ya hərb yolu ilə, ya sülh yolu ilə".[48]

Beləliklə də, Azərbaycan dövlət başçısının 44 günlük müharibə dövründə beynəlxalq ictimaiyyətə verdiyi əsas ismarışları, o cümlədən Azərbaycanın mövqeyinin beynəlxalq hüquqa əsaslanması, əks-hücum əməliyyatının Azərbaycan ərazisində, özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə həyata keçirilməsi, habelə Ermənistanın təcavüzkar siyasətinin nəticələrinin, törətdiyi müharibə cinayətlərinin ifşa edilməsi, bir tərəfdən, həqiqətlərin geniş ictimaiyyətə çatdırılması, digər tərəfdən isə Azərbaycanın haqlı mövqeyinin siyasi-hüquqi əsaslarının daha da möhkəmləndirilməsi məqsədlərinə xidmət edib.

## Müharibə müddətində dünya liderləri ilə aparılmış telefon danışıqları, keçirilən görüşlər

44 gün davam edən Vətən müharibəsi qüdrətli Azərbaycan Ordusunun Ali Baş Komandanın rəhbərliyi ilə döyüş meydanında göstərdiyi hünər ilə yanaşı, diplomatiya meydanında Prezident İlham Əliyevin mübarizəsi, müdrik xarici siyasəti ilə xarakterizə olunur.

Bu dövr ərzində bir sıra dünya liderləri ilə aparılan telefon danışıqları, ölkəmizə edilən səfərlər çərçivəsində xarici nümayəndə heyətləri ilə keçirilən görüşlər, beynəlxalq tədbirlərdə iştirak, xarici ölkələrin aparıcı mətbuat nümayəndələrinə verilən çoxsaylı müsahibələr dövlət başçısının zəfər diplomatiyasının önəmli tərkib hissələrini təşkil edir.

Onilliklər ərzində münaqişənin həlli ilə bağlı danışıqlar prosesində iştirak edən Azərbaycan eyni zamanda münaqişənin həllinin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl və qətiyyətli iş aparmış, beynəlxalq təşkilatların bu xüsusda qəbul etdiyi çoxsaylı qərar və qətnamələr diplomatik uğurumuz olmuşdur. Prezident İlham Əliyevin 20 oktyabr 2021-ci ildə xalqa ünvanladığı müraciətdə bu tezis aydın şəkildə ifadə edilir: "...Azərbaycan

[48] https://president.az/articles/44435



Prezident İlham Əliyev "BBC News"a müsahibə verərkən. 6 noyabr 2020-ci il

vətəndaşları, o cümlədən köçkünlər hesab edirdilər ki, belə diplomatik uğurlar, əlbəttə, önəmlidir, ancaq onlar məsələnin həllini təmin etmir. Mən isə həmişə onlara izah edirdim ki, bu, beynəlxalq qanun çərçivəsində həll olunası bir məsələdir. Buna görə biz bütün aparıcı beynəlxalq təşkilatlarla işləməliyik ki, bu münaqişənin həlli üçün hüquqi bazanı genişləndirək. BMT Təhlükəsizlik Şurasının qətnamələri işləmirdi. Biz böyük səylər göstərdik, BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar qətnamə qəbul etdi. Avropa İttifaqı ilə bizim aramızda paraflanmış sənəddə də sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilir. Yəni budur bu münaqişənin həlli üçün əsas".[14]

Bu müddət ərzində Azərbaycan Respublikasının Prezidentinə qonşu dövlətlərin rəhbərləri, o cümlədən Türkiyə, Rusiya, İran, habelə Fransa, Almaniya, Qətər, Belarus liderləri, BMT Baş katibi, Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən telefon zəngləri edilib. Xarici dövlət və təşkilatların rəhbərləri silahlı qarşıdurma ilə bağlı narahatlıqlarını bildirərək, bölgədəki son vəziyyətlə maraqlanıblar.





Telefon söhbətləri zamanı dövlət başçısı sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribat, Silahlı Qüvvələrimizin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi Ermənistanın ağır artilleriyadan atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımızın həlak olduğu və buna cavab kimi Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatlarını həyata keçirdiyi barədə qarşı tərəfə məlumat verib. Prezident vurğulayıb ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət məhz bu ölkənin siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Xarici dövlətlərin rəhbərləri ilə aparılan telefon danışıqlarında Prezident İlham Əliyev bir daha vurğulayıb ki, Azərbaycanın məqsədi qan tökmək və ərazi qəsb etmək deyil, düşməni ədalətli sülhə məcbur etməkdir.

Azərbaycan heç zaman sülh danışıqları, dialoq təkliflərindən yayınmamış, ərazilərimizi işğaldan azad etmək üçün aparılan uğurlu əməliyyatlar zamanı belə humanitar atəşkəs çağırışlarına qarşılıq verib. Prezident İlham Əliyevin milli maraqlara söykənməklə beynəlxalq hüquq çərçivəsində apardığı xarici siyasət hər zaman özündə ədalət və humanizm prinsiplərini ehtiva edib. İstər xarici dövlət rəhbərləri ilə aparılan danışıqlar, istərsə də keçirilən görüşlərdə qarşı tərəfin "dinc yolla həll" çağırışlarına dövlət başçısının cavabı kifayət qədər tutarlı və əsaslı olub. Azərbaycan strateji səbir nümayiş etdirərək onilliklər ərzində ərazilərinin işğalına son verilməsi, beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsi, beynəlxalq hüququn təmin edilməsi üçün danışıqlar aparıb. Lakin bu danışıqların heç bir nəticə verməməsi, düşmənin öz təxribatlarını davam etdirməsi və üstəlik, mövcud danışıqları pozmaq cəhdləri Azərbaycanı təkbaşına ədaləti təmin etmək üçün əks-həmlə əməliyyatlarına məcbur edib.

Prezident İlham Əliyevin xalqa müraciətlərində səsləndirdiyi maraqlı məqamlardan biri də Ermənistan Baş nazirinin dünya liderlərinə etdiyi zənglərlə bağlı idi. 4 oktyabr 2020-ci il tarixli müraciətində dövlət başçısı bildirdi: "Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər".[15] Prezident ona edilən zənglərdə Azərbaycanın şərtinin nədən ibarət olduğunun sorğu edildiyini və buna verdiyi cavabı konkret şəkildə səsləndirmişdi: "Mənim şərtim birdir – çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə".



Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən. 6 oktyabr 2020-ci il



Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən. 19 oktyabr 2020-ci il



44 günlük Vətən müharibəsi zamanı Prezident İlham Əliyev qardaş Türkiyənin dövlət və hökumət nümayəndələrini – Böyük Millət Məclisinin sədri, xarici işlər naziri, müdafiə naziri, Baş Ombudsmanın rəhbərlik etdiyi nümayəndə heyətlərini qəbul edib. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının özünü parlaq şəkildə nümayiş etdirdiyi bu dönəmdə qardaş ölkənin mənəvi dəstəyi ən yüksək səviyyədə olub. Bu barədə dövlət başçısının Türkiyə televiziya kanalına verdiyi müsahibədə söylədikləri qardaş ölkənin müharibə dövründə oynadığı rolu xarakterizə edir: "İlk günlərdən, ilk saatlardan qardaş Türkiyədən göstərilən dəstək, mənim qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğandan səslənən dəqiq açıqlamalar, eyni zamanda digər yüksək səviyyəli şəxslərin açıqlamaları həm Azərbaycana mənəvi dəstək verdi, həm də bütün dünyaya göstərdi ki, Türkiyə Azərbaycanın yanındadır. Əgər belə olmasaydı, ola bilərdi ki, artıq Ermənistan-Azərbaycan arasında olan bu münaqişə daha da geniş coğrafiyaya sıza bilərdi".[49]

30 ilə yaxın davam edən işğalçı siyasətə son qoyan Azərbaycan Ordusu ərazilərimizi azad edərək bölgədə qətiyyətlə irəlilədikcə diplomatiya cəbhəsində də gərgin proseslər gedir və bu proseslərin mərkəzində Azərbaycan Respublikasının Prezidentinin yürütdüyü Zəfərə aparan siyasət dururdu.

## Azərbaycan Respublikası Prezidentinin dünyanın aparıcı media agentliklərinə verdiyi müsahibələr – dövlətimizin mövqeyinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasının ən etibarlı, dəqiq və dolğun mənbəyidir

Vətən müharibəsi dövründə Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə düşmənə qarşı apardığı müharibə ilə paralel olaraq, informasiya məkanında gedən mübarizədə də ölkəmiz layiqincə, müharibə qaydalarına uyğun olaraq iştirak etdi. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Prezident İlham Əliyev döyüş meydanında olduğu kimi, informasiya cəbhəsində də parlaq Qələbəyə imza atdı.

[49] https://president.az/articles/42723

44 günlük müharibə dövründə dövlət başçısı əməliyyatların ilk günlərindən sonunadək dünyanın aparıcı media agentliklərinin nümayəndələri ilə görüşdü, onlara müsahibələr verdi. Bu müddət ərzində Prezident İlham Əliyev Türkiyə, Rusiya, ABŞ, İtaliya, Fransa, Almaniya, İngiltərə, Qətər, Yaponiyadan olan, habelə dünyaca məşhur digər 30-a yaxın media agentliyinə müsahibələr verərək, ən yüksək səviyyədə və etibarlı məlumat mənbəyi olmaqla, Azərbaycanla bağlı həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Dövlət başçısı müsahibələrində bölgədəki son vəziyyətlə bağlı ətraflı məlumatı, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini, Ermənistanın təcavüzkar siyasətinin nəticələrini, törətdiyi müharibə cinayətlərini və s. qarşı tərəfin diqqətinə çatdırmaqla yanaşı, bəzi media agentliklərinin xüsusən qərəzli suallarını konkret şəkildə, faktlara əsaslanaraq, təmkinlə cavablandırdı, Azərbaycanın haqlı olduğunu bütün dünyaya sübut etdi. Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu xüsusda söylədiklərini yada salmaq istərdik: "Ermənistanın siyasi-hərbi rəhbərliyi Prezident İlham Əliyevin bu fəaliyyətini imitasiya etmək istəyir, ancaq bu, əks təsir verir, özlərinin işğalçılıq siyasətlərini ifşa edirlər. Azərbaycan dövlət başçısına bu kimi müsahibələrdə təxribatçı sualların da verildiyini görürük, ancaq Prezident səbir və təmkinlə cavablar verir. Təəssüf ki, beynəlxalq media qurumları ədalətli, obyektiv materiallar hazırlayanda təzyiqlərlə üzləşirlər. Azərbaycan belə halları qəti şəkildə qınayır".[50]

Prezidentin müsahibələrində, bir qayda olaraq, konkret arqumentlərə, beynəlxalq təşkilatların qərarlarına, beynəlxalq hüquq prinsiplərinə, tarixi faktlara dəqiq istinadlar edilir, qarşı tərəfin iddiaları elə onun təmsil etdiyi ölkənin timsalında tutarlı şəkildə cavablandırılırdı. Müsahibələrdə prezidentə ünvanlanan "Qarabağ Azərbaycan üçün niyə önəmlidir, orada resurslar var, yoxsa rəmzi xarakter daşıyır? Nisbi sülh var idi, niyə Azərbaycan əməliyyata başladı?" kimi təhrikçi suallara dövlət başçısı təmkinlə cavab verərək, Qarabağın Azərbaycan torpağı olduğunu, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin tərkib hissəsini təşkil etdiyini, bu məsələnin təbii ehtiyatlarla əlaqəsi olmadığını vurğuladı: "Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik."[51]

[50] https://azertag.az/xeber/1632413





Azərbaycanı hərbi əməliyyatlara başlamaqda ittiham edənlərə isə dövlət başçısı kifayət qədər konkret şəkildə, faktlara əsaslanaraq, Ermənistanın təcavüzkar siyasəti, davam edən hərbi təxribatları barədə məlumat verdi: "Hücuma başlayan Ermənistan idi, biz özümüzü müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız çox adekvat olmuşdur".[52]

Dövlət başçısı müsahibələrdə eyni zamanda bəzi ölkələrin nümayiş etdirdiyi qərəzli mövqeyi açıq şəkildə dilə gətirərək, bu xüsusda ismarışını sərt bir şəkildə çatdırdı. "Hər hansı dövlət ermənilərə öz müqəddəratını təyin etmə hüququ vermək istəyirsə, bunu öz ərazilərində yaşayan ermənilərə şamil edə bilərlər," – deyən Prezident İlham Əliyev Azərbaycana qarşı olan ittihamların dayandırılmasını tələb etdi.[53]

Ümumiyyətlə, Vətən müharibəsi dövründə Azərbaycan tərəfindən müvafiq qurumların çevik və dəqiq reaksiyası, xüsusilə Müdafiə Nazirliyinin yaydığı videogörüntülərdən, sosial şəbəkələrdən geniş istifadə olunması, çoxsaylı xarici jurnalistlərin ölkəmizə səfərlərinin təşkili və yerindəcə hadisələri işıqlandırması, ən əsası isə dövlət rəhbəri səviyyəsində birbaşa məlumatların xarici auditoriyanın diqqətinə çatdırılması Ermənistanın yalan və dezinformasiya kampaniyasının qarşısını effektiv şəkildə aldı.

## 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat və onun əhəmiyyəti

10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu, 27 sentyabr tarixində başlamış Vətən müharibəsi Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında böyük Zəfərlə yekunlaşdı.

10 noyabr üçtərəfli bəyanatı tərəflər arasında hərbi əməliyyatlara son qoymaqla yanaşı, özündə bir sıra vacib müddəaları əks etdirən hərtərəfli

[51] https://president.az/articles/45111
[52] https://president.az/articles/44279
[53] https://president.az/articles/41712

sənəddir. Keçmiş münaqişə kontekstində hər iki tərəfin rəhbəri tərəfindən imzalanan, demək olar ki, yeganə sənəddir.[54]

Üçtərəfli bəyanat Azərbaycanın döyüş meydanında əldə etdiyi qələbənin masa arxasında təsdiqlənməsi idi. Bu, Azərbaycanın Şanlı Qələbəsinin imzalı təsdiqi idi. Bəyanatda münaqişənin həllinə nöqtə qoyularaq, hərbi əməliyyatların dayandırılması, bölgədə təhlükəsizliyin təmin edilməsi üçün Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi, buna paralel olaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxması, məcburi köçkünlərin evlərinə geri qayıtması, hərbi əsir və girovların, habelə cəsədlərin mübadiləsi, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı müddəalar əks olunub.[55]

Birgə bəyanatda Prezident İlham Əliyevin hərbi əməliyyatların başladığı ilk gündən etibarən söylədiyi, konkret vaxt çərçivəsində Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından çıxması ilə bağlı öhdəlik öz əksini tapdı. Ermənistan Azərbaycanın Ağdam, Kəlbəcər və Laçın bölgələrindən işğalçı qüvvələrini çıxardı. Azərbaycan insan itkilərinin qarşısını alaraq, əlavə qan tökmədən diplomatik qələbə ilə sözügedən bölgələrini geri aldı.

Bölgədə Rusiya sülhməramlılarının yerləşdirilməsi, kontingentin sayı, hərbi texnika və yerləşmə məntəqəsi dəqiqliklə göstərilmiş və bu yerləşmənin konkret zaman çərçivəsində həyata keçirildiyi bəyanatda ifadə olunmuşdur. Sənəddə əks olunan digər vacib məsələlərdən biri atəşkəsə nəzarətlə bağlı mərkəzin yaradılması müddəasıdır. Bu müddəa əsasında 2020-ci il noyabrın 11-də Rusiya və Türkiyənin müdafiə nazirləri arasında atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin yaradılması barədə memorandum imzalandı və 2021-ci ilin 30 yanvar tarixində işğaldan azad olunan Ağdam rayonunun ərazisində Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılışı oldu.[56] Bu, Türkiyənin rəsmi qaydada atəşkəsə nəzarət işində rol oynaması deməkdir. Dövlət başçısı bu xüsusda 10 noyabr tarixində xalqa müraciətində hər iki dövlətin liderinin müsbət roluna toxunaraq, bölgədə gələcək əməkdaşlıq formatının çoxşaxəli ola biləcəyini qeyd etdi.

---

[54] 2008-ci ildə Azərbaycan, Ermənistan və Rusiya prezidentləri tərəfindən Moskva (Mayndorf qəsrində) görüşü nəticəsində tərəflər münaqişənin beynəlxalq hüququn prinsipləri, qəbul olunmuş sənəd və qərarlar əsasında həlli ilə bağlı sənəd imzalamışdılar.

[55] https://president.az/articles/45924

[56] Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılış mərasimi keçirilir. FOTO, VİDEO: AZƏRTAC – Azərbaycan Dövlət İnformasiya Agentliyi (azertag.az)





Üçtərəfli bəyanat Ermənistanın etnik təmizləmə siyasətinin qurbanı olan və öz doğma evlərində yaşamaq hüququ kobud şəkildə pozulan bir milyona yaxın məcburi köçkünün fundamental hüquqlarının bərpasını təmin edir. Bəyanatda BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında məcburi köçkünlər və qaçqınların Qarabağa geri qayıtması məsələsi öz əksini tapır.

Bəyanatın digər önəmli müddəalarından biri məhz Prezident İlham Əliyevin təkidi ilə ora salınan, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsini təsbit edən bənddir. Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsinə quru yolu ilə birləşdirilməsi istiqamətində atılan bu tarixi addım eyni zamanda bölgənin gələcək inkişafı baxımından önəmlidir. Bəyanatın imzalanmasından sonra Ermənistan tərəfinin həyata keçirilməsinə əngəllər yaratmağa çalışdığı bu müddəa, əslində, ticarətin inkişafı və daşımaların artımı baxımından bölgə dövlətlərinin maraqlarına cavab verir.

Üç dövlətin lideri tərəfindən imzalanan bu bəyanatdan danışarkən diqqətə alınmalı ən önəmli məsələlərdən biri də odur ki, burada Qarabağın statusu ilə bağlı heç bir söz yoxdur. Məlum olduğu kimi, uzun illər ərzində Azərbaycan tərəfi Qarabağa Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsinin mümkünlüyünü bəyan etmiş və aparılan danışıqlar prosesi çərçivəsində bu mövqe ifadə edilmişdir. Lakin Ermənistan tərəfi əsassız şəkildə "müstəqillik" iddialarından əl çəkməmişdir. Vətən müharibəsi nəticəsində ərazi bütövlüyümüz bərpa edildikdən sonra dövlət başçısı status məsələsinin artıq tarixdə qaldığını elan etdi. Prezidentin 2021-ci ilin 7 iyul tarixli Sərəncamı ilə Şərqi Zəngəzur və Qarabağ iqtisadi bölgələri yaradıldı. Bu bölgədə yaşayan ermənilər, əlbəttə, digər vətəndaşlarımız kimi Azərbaycan Respublikası Konstitusiyası ilə təsbit olunmuş bütün hüquq və azadlıqlardan bərabər şəkildə istifadə edəcəklər. "Status" məsələsinin hər hansı bir şəkildə qaldırılması Azərbaycan ərazisində separatçılığın təşviq edilməsindən başqa bir şey deyildir. Odur ki üçtərəfli bəyanatda bu məsələ ilə bağlı hər hansı bir müddəanın olmaması düşünülmüş siyasətin növbəti təzahürü idi.

Göründüyü kimi, hərbi əməliyyatlara son verən birgə bəyanat eyni zamanda bir çox mühüm məsələləri ehtiva etməklə bölgədə sülh və təhlükəsizliyin təmin olunması üçün önəmli çərçivəni təşkil edir. Əlbəttə, bu sənəd sülh müqaviləsi deyil, lakin onun icrası sülh müqaviləsinin imzalanmasının

əsasını təşkil edəcək. Bəyanatın tam həyata keçirilməsi bölgə dövlətləri ilə yanaşı, regionda sabitlik və rifahı dəstəkləyən hər bir dövlətin marağında olmalıdır.

Azərbaycan tərəfindən üçtərəfli bəyanatın icrası ilə bağlı o cümlədən xoşməramlılıq nümayiş etdirilərək birtərəfli qaydada müvafiq addımlar atılır. Azərbaycan öz ərazilərinin işğalı faktorunun aradan qaldırılması ilə iki dövlət arasında münasibətlərin normallaşdırılması mövqeyindən çıxış edir, əlbəttə, beynəlxalq hüququn prinsiplərinə ciddi riayət olunması əsasında. 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın icrası isə bu istiqamətdə atılacaq önəmli addımdır.

Birgə bəyanatın tarixi əhəmiyyəti böyükdür. Ermənistanın kapitulyasiya sənədi olan bu bəyanat Prezident İlham Əliyevin parlaq diplomatik qələbəsi olmaqla yanaşı, bölgədə sülh, təhlükəsizlik və gələcək inkişafın təməl daşıdır.

***

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi böyük Qələbə tariximizin şanlı səhifəsini təşkil etməklə yanaşı, bölgədə yeni reallıqlar yaratdı. Azərbaycanın qəhrəman oğul və qızlarının, adlarını tarixə həkk edən şəhidlərimizin qanı hesabına Azərbaycanın ərazi bütövlüyü təmin edildi, bir milyona yaxın həmvətənimizin pozulmuş fundamental hüquqları bərpa edildi, tarixi ədalət bərqərar oldu. Mövcud reallıqları nəzərə almadan nə Azərbaycan, nə də ümumilikdə bölgə ilə münasibətlərin gələcək inkişafı mümkün deyil. Azərbaycan Prezidentinin 24 sentyabr 2021-ci il tarixində BMT Baş Assambleyasının 76-cı sessiyasının ümumi müzakirələrində qeyd etdiyi kimi, "Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır. Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir".[57] Əlbəttə, bu məsələdə beynəlxalq ictimaiyyətin də rolu əhəmiyyət kəsb edir; Ermənistanın revanşizm cəhdlərinin hər hansı şəkildə dəstəklənməməsi və bölgənin rifahı üçün sülhün alternativinin olmamasına dair çağırışların edilməsi vacibdir.

[57] Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi – XƏBƏRLƏR. Tədbirlər (president.az)





Azərbaycan beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini bundan sonra da dünya müstəvisində qətiyyətli şəkildə müdafiə edəcək və beynəlxalq sərhədlərimiz çərçivəsində ölkəmizin, xalqımızın inkişafına yönəlik səyləri davam etdirəcəkdir. Ümid edirik ki, çoxdan gözlənilən sülh, təhlükəsizlik və sabitlik, nəhayət, Cənubi Qafqazda bərqərar olunacaq.

Əks təqdirdə yenidən Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid olarsa, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik. Məhz bu ismarış Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən BMT Baş Assambleyası kürsüsündən birmənalı şəkildə bəyan edildi.

Hər bir dövlətin daxili və xarici siyasətinin uğurunun təməlində, ilk növbədə, xalqın birliyi və dəstəyi dayanır. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının birliyinin və inamının ən bariz göstəricisi oldu. Prezident İlham Əliyev böyük Zəfərin əldə edilməsi ilə bağlı xalqa ünvanladığı müraciətində bunu çox aydın şəkildə ifadə etdi: "Mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq. Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi – yenilməz xalq, dəmir iradəli xalq, Müzəffər xalq, Müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla!"[58]

44 günlük Vətən müharibəsində, eləcə də bu şanlı Qələbəyə aparan yolda Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, keçmiş münaqişənin həlli məsələsinin beynəlxalq gündəmdə saxlanılması, həll prosesinin beynəlxalq hüquqi bazasının möhkəmləndirilməsi, bu xüsusda beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrin icrasının təmin edilməsi, beləliklə də, Azərbaycanın dünya xəritəsində ləyaqətli yerinin təmin edilməsində Prezident İlham Əliyevin rolu əvəzolunmazdır və tarixi əhəmiyyət kəsb edir.

İnanırıq ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin xalqımızın birliyinə, dövlətimizin milli maraqlarına əsaslanan uğurlu xarici siyasəti bundan sonra da davam etdiriləcək və bizə yeni-yeni Zəfərlər bəxş edəcəkdir.

[58] Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi – XƏBƏRLƏR. Tədbirlər (president.az)

# İLHAM ƏLİYEV İNFORMASİYA MÜHARİBƏSİNİN DƏ QALİBİDİR

Hər bir xalqın, dövlətin yüksəliş və tənəzzül dövrü, təhlükəli, sınaqlı illəri, günləri olur. Xoşbəxt o xalqdır ki, onu inkişaf etdirən, yüksək rifaha, mədəni intibaha çatdıran lideri var. Xoşbəxt o dövlətdir ki, təhlükəli, sınaqlı illərində ona müdrik, uzaqgörən, iradəli, qətiyyətli və hünərli rəhbər başçılıq edir. Başı çox bəlalar çəksə də, Azərbaycan xalqını xoşbəxt xalqlardan hesab etmək olar, çünki onun İlham Əliyev kimi rəhbəri var.

İlham Əliyev işğalçı Ermənistanı döyüş meydanında cəzalandırdı, düşməni ərazilərimizdən qovdu, Vətənimizi parçalanmış vəziyyətdən xilas etdi, torpaqlarımızı yenidən bütövləşdirdi. Bununla da itirilmiş əraziləri geri qaytararaq dövlət başçısı kimi Azərbaycan tarixinə düşdü!

## İlham Əliyevə inandıq və güvəndik

XIX əsrdən başlayaraq Azərbaycan əraziləri hesabına özlərinə dövlət quran ermənilər sonralar da bizdən torpaq qoparmaq üçün fürsət gözləyiblər. Əllərinə düşən imkanı heç zaman qaçırmayıblar: bu, 1918-ci ildə ilk dəfə müstəqil dövlət quranda da belə olub, sovet hökumətinin ermənipərəstliyindən istifadə edərək 1948–1953-cü illərdə soydaşlarımızı Ermənistan ərazisindəki tarixi torpaqlarından deportasiya etdirəndə də!

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edəndə də ermənilər fürsəti əldən vermədilər. Düşmən təkcə Dağlıq Qarabağı deyil, ustəlik, ona bitişik yeddi rayonumuzu da ələ keçirərək möhkəmləndirmə işləri aparmışdı. Hətta münaqişəyə “nöqtə qoymaqla” torpaqları özününkü sayırdı.

Təəssüf ki, müstəqilliyimizin ilk illərində Azərbaycan çox ağır durumda idi. Xalq həqiqi rəhbərindən ayrı düşmüşdü. Ölkəyə maymaq, qorxaq, qətiyyətsiz insanlar rəhbərlik edirdi, AXC-Müsavat cütlüyü vəzifə hərisliyinə düşdüyündən ölkədə xaos, anarxiya və özbaşınalıq mühiti yaratmaqla torpaqların müdafiəsinə imkan vermirdi. Əslində, nə nizami ordu quran vardı, nə də onu silah-sursatla təmin edə bilən. Bunun da nəticəsində 20 faiz ərazimiz işğal olundu.





Düşmənə qarşı qəhrəmanlıqla mübarizə aparan xalq 20 min şəhid versə də, torpağını qoruyub saxlaya bilmədi. Gözəl Qarabağ, ətrafındakı yeddi rayon, bütün strateji yüksəkliklər işğal olundu. Məğlub, miskin duruma düşdük. İllər boyu düşmənlə danışıqlar aparmaq üçün bir masa ətrafında oturmalı, onların sülh yolu ilə torpaqlarımızı nə vaxt qaytaracaqlarını gözləməli olduq.

Amma ümidlərimizi itirmədik. Çünki Heydər Əliyev yolunu qətiyyətlə davam etdirən İlham Əliyev kimi rəhbərimiz vardı. Bu illər ərzində ona inandıq, ona güvəndik. Əslində, hadisələrin gedişi də, tarixin gərdişi də torpaqların azadlığı missiyasının cənab İlham Əliyevin üzərində olduğunu hamımız üçün bir daha təsdiqlədi.

Məlum səbəblərdən itirdiyimiz torpaqları geriyə qaytarmaq axan çayı tərsinə axıtmaqdan daha çətin idi. Amma İlham Əliyev bunu bacardı. Özünün polad iradəsi, uzaqgörən siyasəti, yorulmadan çalışması, düşünülmüş və hesablanmış addımları, cəsarətli və qətiyyətli fəaliyyəti ilə reallaşdırdı. Sözün həqiqi mənasında, böyük hünər, qəhrəmanlıq göstərdi. 17 il ərzində gördüyü işləri, həyata keçirdiyi tədbirləri son nəticədə bu məqsədin gerçəkləşdirilməsinə müvəffəqiyyətlə yönləndirdi. Bütün bunların nəticəsi olaraq, 2020-ci il sentyabrın 27-də növbəti dəfə atəşkəsin pozulması və hərbi əməliyyatların alovlanması torpaqlarımızın azad olunması ilə başa çatdı.

## Azərbaycan qeyri-adi müharibə apardı

Müharibə qan, ölüm, itki deməkdir və heç kim müharibə istəmir. Amma acı bağırsaq kimi uzanan mənasız sülh danışıqlarından bezən xalqımız müharibənin başlanmasını böyük ruh yüksəkliyi, xüsusi coşqu ilə qarşıladı. Çünki daha heç kəs 30 il gözləmək, “sülh danışıqları”na vaxt itirmək istəmirdi. Hamı əmin olmuşdu ki, münaqişənin yeganə həll variantı daha sülh danışıqları deyil, müharibədir. Açıq-aydın görünürdü ki, Ermənistanın qudurmuş kriminal hərbi-siyasi rəhbərliyi nə sülh danışıqlarına gəlir, nə də torpaqları qaytarmaq niyyətindədir. Çünki uzun illər idi ki, ATƏT-in Minsk qrupu və digər beynəlxalq qurum və təşkilatlar BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsini həyata keçirməyərək, “icra mexanizmi yoxdur” deməklə yaxasını kənara çəkir, danışıqlar prosesini boşuna yola verirdi.

Belə olan halda torpaqları işğaldan yalnız Azərbaycan əsgərinin gücü ilə təmizləməkdən, hüquqları pozulmuş məcburi köçkünləri doğma yurd-yuvasına silah gücü ilə qaytarmaqdan başqa yol qalmamışdı. Azərbaycan xalqı bu yolu özünün qəhrəman övladına, mahir diplomatına, dünya çaplı liderinə arxalanmaqla seçdi. Xalq bilirdi ki, İlham Əliyev ötən 17 ildə olduğu kimi, bu savaşda da xalqının etimadını doğruldacaq, torpaqları murdar xislətlilərdən, yolunu azmış qudurmuşlardan sonadək təmizləyəcək, işğalçı Ermənistan əsgərlərini Azərbaycan torpaqlarından iti qovan kimi qovacaqdır.

Hərbi əməliyyatların başladığı ilk dəqiqələrdən Ali Baş Komandanımız xalqın bu əminliyini doğrultmaq qüdrətində olduğunu sübut etdi. Azərbaycan öz torpaqlarını erməni işğalından azad etmək üçün qeyri-adi müharibə apardı. Əvvəla, müharibə ildırım sürəti ilə getdi, Azərbaycan Ordusu hərbi əməliyyatlar zamanı daim hücumda oldu, bir dəfə də geri çəkilmədi və ən nəhayət, 44 gün ərzində bu müharibəyə 30 il hazırlıq görüb lovğa və özünəəmin vəziyyətdə dayanan düşməni kapitulyasiya sənədinə imza atmağa məcbur etdi.

İkincisi, Azərbaycan yeni strategiya və taktika tətbiq edərək, yeni növ silahlar işlədərək düşməni vahiməyə salıb çaşbaş qoydu, erməni ordusunu kütləvi şəkildə qaçmağa, fərarilər dəstəsinə çevrilməyə vadar etdi.

Üçüncüsü, Azərbaycan Ordusu düşmənin ənənəvi və təsirli müdafiə və hücum silahlarını, uzaqvuran toplarını və raket qurğularını, bütün növ zirehli texnikasını elə yerindəcə, hücum mövqeyinə çıxmasına imkan verməyərək dəqiq PUA zərbələri ilə məhv etdi.

Dördüncüsü, Azərbaycan düşmənin qısa vaxt ərzində məhvinə və panikaya düşməsinə səbəb olan ənənəvi taktikanı daha dəqiq və uğurla icra etməklə arxa cəbhə ilə ön mövqelər arasındakı əlaqələri ilk həmlədəcə kəsdi, beləliklə, düşmənə arxadan silah, sursat, canlı qüvvə, ərzaq və digər yardımların gəlməsinin qarşısını tamamilə aldı.

Beşincisi, düşməni gözləmədiyi yerdən və ağlına gətirmədiyi silahlarla vuraraq onun bütün müdafiə sistem və qurğularını əhəmiyyətsiz, mənasız vəziyyətə saldı. Düşməni psixoloji cəhətdən iflic etdi, rəzil, qorxaq duruma saldı, öz əsgərlərini müdafiə səngərlərində zəncirlərlə bağlamaqla, Azərbaycan Ordusuna müqavimət göstərməyə məcbur etmək kimi gülünc, vəhşi və qəddar vasitəyə əl atmağa məcbur etdi!

Beşinci nəsil müharibə kimi xarakterizə edilən İkinci Qarabağ müharibəsinin daha bir fərqli və qəribə cəhəti də vardı: biz öz evimizdə, kreslomuzda oturaraq hər gün Müzəffər ordumuzun düşmənin atəş nöqtələrini, top və raket qurğularını, hərəkətdə olan nəqliyyat vasitələrini, səngərdəki canlı qüvvələrini dəqiq zərbələrlə necə məhv etdiyini məmnunluqla izləyirdik.





İndi biz də dünyanın xoşbəxt xalqlarından biriyik. Vətən müharibəsindən sonra bu sözləri daha inamla, daha sevinclə söyləyə bilirik. Bu xoşbəxtliyi, bu inamı, bu sevinci bizə bəxş edən xalqımızın xilaskar oğlu, möhtərəm Prezidentimiz İlham Əliyevdir. İlham Əliyev bizi mənəvi iztirablardan, həsrətdən xilas etdi. Bizi erməni təhqirindən, ATƏT-in aşağılamasından, boş-boşuna gözləntilərdən xilas etdi. Maddi sərvətlərimizin, mənəviyyatımızın, mədəni dəyərlərimizin talan və məhv edilməsindən qurtulduq. Tariximizin ən görkəmli sərkərdəsi İlham Əliyev bizi gözükölgəlilikdən, baş qaxıncından, "qorxaq millət", "torpağını qoruya bilməyən xalq", "torpaq itirən dövlət" töhmətindən də xilas etdi!

Əsl rəhbərin xilaskarlıq missiyası belə olur! Əsl sərkərdə ərazi bütövlüyünü bax belə, düşməni əzə-əzə, qova-qova bərpa edir.

## İlham Əliyev informasiya cəbhəsinin də önündə idi

Müasir müharibələrə hibrid müharibəsi də deyilir. Çünki o təkcə döyüş meydanında yox, digər müstəvilərdə də aparılır. Onlardan biri də informasiya müharibəsidir. 44 gün ərzində Azərbaycanla Ermənistan arasında həm də informasiya müharibəsi getdi və İlham Əliyev bu savaşın da qalibi oldu. İnformasiya müharibəsini uğurla aparmaq, bu sahədə də düşmənə qalib gəlmək Azərbaycanın müharibə modelinin ən vacib cəhətlərindən biri kimi diqqəti çəkir. Bu savaşda da cənab İlham Əliyev hamıdan öndə gedirdi, bu cəbhənin də bütün ağırlığını öz üzərinə götürmüşdü. Ona görə erməni yalanı hərdən ayaq tutsa da, yerimədi, Prezidentimiz dərhal onun qarşısını kəsdi.

Təəssüf ki, Birinci Qarabağ müharibəsi dövründə bu sahədə də düşmənə uduzmuşduq. Ötən əsrin 90-cı illərində müttəfiq respublikaların müstəqil şəkildə xaricə çıxışı, habelə beynəlxalq səviyyəli mətbu orqanları və informasiya agentlikləri yox idi. Sovetlər İttifaqı məkanına da, dünyaya da yalnız SSRİ-yə məxsus mərkəzi qəzetlər, informasiya agentlikləri və televiziya kanalları vasitəsilə informasiya ötürmək mümkün idi. Mərkəzi qəzet-jurnal, informasiya agentlikləri və televiziya kanallarında erməni

millətindən olanların mövcudluğu, Rusiyada ermənilərə bəslənən rəğbət, habelə dünyada erməni diasporunun geniş imkanları haqlı Azərbaycanın dünyada haqsız; ədalətsiz, separatçı və işğalçı Ermənistanın isə "zavallı", "vəhşi müsəlmanlar tərəfindən əzilən və hüququ tapdalanan millət" kimi təqdim edilməsinə səbəb olmuşdu.

Torpaqların işğaldan azad olunması və məkrli düşmənə qarşı mübarizə artıq dünyada yaradılmış stereotiplərin dağıdılmasından, informasiya blokadasının yarılmasından başladı. Bu sahədə ən effektli işi Ulu öndər Heydər Əliyev gördü, böyük jurnalistlər ordusunun yerinə yetirə bilməyəcəyi missiyanı təkbaşına həyata keçirdi. Ulu Öndərimiz bəzən xarici səfərləri zamanı əlində çubuq xəritə önündə dayanaraq Qarabağın yerləşdiyi ərazini, işğalçı ilə "məzlum millət"in əməlinin fərqini əyani şəkildə, faktlarla izah etməli oldu.

İkinci Qarabağ müharibəsində isə eyni missiyanı – beynəlxalq KİV-də dünya erməniliyi ilə mübarizəni İlham Əliyev yerinə yetirməli oldu. İlham Əliyev informasiya sahəsini, sözün həqiqi mənasında, ikinci çarpışma meydanına çevirmişdi. Özü də bunu təkcə biz yox, bütün dünya görür və izləyirdi. Hərbi əməliyyatlar dövründə otuzdan çox qəzet, tanınmış televiziya kanalı və informasiya agentliyi Azərbaycan Prezidentindən müsahibə alaraq bütün dünyaya yaydı.



Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verərkən.
5 oktyabr 2020-ci il





Prezident İlham Əliyev "Euronews" televiziya kanalına müsahibə verərkən.
7 oktyabr 2020-ci il



Prezident İlham Əliyev "France–24" televiziya kanalına müsahibə verərkən.
14 oktyabr 2020-ci il

## Ali Baş Komandan erməni yalanlarını darmadağın etdi

Ümumiyyətlə, Ali Baş Komandan İlham Əliyev müharibəyə təkcə hərb cəbhəsində deyil, diplomatiya və informasiya sahəsində də ciddi hazırlaşmışdı. Çünki yeni müharibənin başlanacağı təqdirdə dünya erməniliyinin gücü həm də informasiya cəbhəsinə verəcəyi bəlli idi. Elə 2020-ci il sentyabrın 27-dən hər şey gözlənildiyi kimi oldu. Ermənistan "qoymayın, zavallı və qədim xalqı qırırlar, kilsələri dağıdıb bizi öz torpaqlarımızdan çıxarırlar", – deyə şivən qoparmağa başladı. Bir sıra dövlətlərin başçıları, beynəlxalq qurum və təşkilatların rəhbərləri, tanınmış siyasilər hərbi əməliyyatların dayandırılması, sülh danışıqlarına başlanılması yönündə Azərbaycana müraciət etməyə, təsir və təzyiq göstərməyə başladılar. Erməni diasporu tərəfindən ələ alınmış beynəlxalq televiziya kanalları və informasiya agentlikləri Azərbaycana qarşı şər-böhtan kampaniyasına start verdi.

Əslində, dünya erməniliyi – ermənilərin dostları və ikili standartlar səbəbindən bizə düşmən münasibəti bəsləyənlər heç bir nəticə verməyən sülh danışıqlarının dayandırılaraq hərbi əməliyyatların başlayacağını, yeni müharibədə Azərbaycanın yeni taktika, yeni silahlarla yeni nümunə ortaya qoyacağını, öz gücü və imkanları hesabına torpaqlarını bu qədər sürətlə və Ermənistanın ordusuna sarsıdıcı zərbələr vurmaqla, onu tar-mar etməklə azad edəcəyini güman etmirdilər. Ermənistan və onun havadarları elə zənn edirdilər ki, hərbi əməliyyatlar zamanı Azərbaycan düşmən mövqelərinə elə ilk hücumlarında səngər, istehkam, mağara və tələlərə rast gələrək çıxılmaz vəziyyətə düşəcək, ciddi texnika və canlı qüvvə itkisinə məruz qalaraq geri oturdulacaq, müharibəni dayandırmaq üçün "vasitəçi" dövlətlərə, ATƏT-ə yalvar-yaxara başlayacaq.

Sən öz saydığını say... Həqiqətən də, belə bir vəziyyət yarandı, amma əks cəbhədə. Miskin və rəzil günə düşən Ermənistan oldu. Ona görə həm Ermənistan, həm də dünya erməniliyi çaşbaş və özlərini itirmiş vəziyyətdə qaldıqlarından, hərbi əməliyyatlara müxtəlif səbəblərdən müdaxilə edə bilmədiklərindən güclərini informasiya müharibəsində cəmləşdirmişdilər. Feyk xəbərlər və məlumatlar yayılır, Azərbaycanı sülh danışıqlarını pozmaqda, muzdlulardan istifadə etməkdə, qadağan olunmuş silahların və sursatların tətbiqində, ölkəmizdə demokratiyanın pozulmasında və daha nələrdə suçlamağa çalışırdılar. Məqsəd Azərbaycanın siyasi nüfuzuna xələl gətirmək idi.





Amma İlham Əliyev bütün bunların qarşısını məharətlə aldı, ermənilərin informasiya yalanlarını darmadağın etdi. Bununla həm İkinci Qarabağ müharibəsi dövründəki informasiya məğlubiyyətinin əvəzini çıxdı, həm də təkcə düşməni məğlub etməklə kifayətlənməyərək, onun faşist xislətini açaraq bütün dünyaya göstərdi. Hərbi əməliyyatların davam etdiyi dövrdə bütün dünyaya yayımlanan ən məşhur televiziya kanallarına Azərbaycanın haqq işini, ədalətli mübarizəsini əks etdirən müsahibələr verdi, əsl həqiqətləri söylədi. Xalqımıza atılan böhtanları, deyilən yalanları üzə çıxartdı, Ermənistanın faşist xislətini konkret faktlarla sübut etdi.

Prezident İlham Əliyevin 44 günlük müharibə zamanı müsahibə verdiyi xarici KİV-lərin arasında Rusiyanın "Rossiya-1", "Pervıy", RBK televiziya kanalları, RİA Novosti, TASS və Interfax agentlikləri, Türkiyənin "TRT Haber", CNN Türk, "Haber Global", "Habertürk", NTV, "A Haber" televiziyaları, Fransanın "Sky News", "France 24" televiziya kanalları, "Le Figaro" qəzeti, Almaniyanın ARD televiziya kanalı, Yaponiyanın "Nikkei" qəzeti, ABŞ-ın "Fox News" televiziyası, İtaliyanın "Rai 1" televiziyası və "la Repubblica" qəzeti, İspaniyanın EFE informasiya agentliyi, habelə dünyada yüz milyonlarla izləyiciləri olan "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Euronews", "CNN", "BBC News" televiziya kanalları kimi tanınmış media orqanları vardı. Dövlət başçısının onların suallarına verdiyi cavablarda bir neçə istiqamət diqqət çəkirdi:

- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə maarifləndirmə;
- ermənilərin Azərbaycan torpaqlarına XIX əsrdən köçürülmələrini sübut edən tarixi fakt və sənədlərin açıqlanması;
- ATƏT-in Minsk qrupunun 27 il ərzində heç bir nəticə əldə etməməsi;
- BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməməsi;
- Ermənistanın Baş naziri N.Paşinyan tərəfindən sülh danışıqlarının pozulması və mənasız edilməsi;
- Ermənistanın Azərbaycana qarşı təxribatları və müharibənin düşmən tərəfindən başlanılması;
- atəşkəs razılaşmasının 3 dəfə Ermənistan tərəfindən pozulması;
- Ermənistan ordusunun Azərbaycandakı mülki əhalini və obyektləri ballistik raketlərlə atəşə tutması, insanların arasında tələfat və xəsarətlərə, habelə böyük dağıntılara səbəb olması;

- Ermənistanın Azərbaycan tərəfinin şərtlərini qəbul edəcəyi təqdirdə hərbi əməliyyatların dayandırılmasına hazır olması və s...

İlham Əliyev bu müharibənin dinlərarası savaş kimi təqdim edilməsinin qarşısını aldı, Azərbaycan xalqının tolerant olduğunu, multikulturalizm ənənələrinə sadiqliyini sübut etdi, ölkəmizdə yaşayan bütün xalqların və millətlərin azərbaycançılıq ideyası ətrafında sıx birləşdiyini göstərdi. Dövlətimizin başçısı "xristianların məbədləri dağıdılır" kimi ermənilərin uydurduğu yalanların hiylədən başqa bir şey olmadığını söyləyərək bunun əksini, işğal zonasındakı Azərbaycana məxsus 67 məsciddən 63-nün dağıdıldığını ortaya qoydu! Həmçinin sübut etdi ki, "münaqişənin həlli yalnız sülh danışıqları ilə mümkündür" deyənlər, əslində, riyakarlıq edir, işğal faktını əbədiləşdirməyə, torpaqların Ermənistanda qalmasına çalışırmışlar və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin əsl yolu elə müharibəymiş!

## İlham Əliyev təlimatlandırılmış jurnalistləri "tərk-silah" etdi

Cənab İlham Əliyevin müsahibələrində dünya erməniliyini müdafiə edənlərin, beynəlxalq hüququ tapdalayanların, Ermənistanın muzdlulardan istifadə etdiyinin, ermənilər tərəfindən Cenevrə konvensiyalarının tələblərinin pozulmasının ifşasına da geniş yer ayrıldı.

Hərbi əməliyyatlar başlayandan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə təmas qurmaq istəyən KİV-lərin marağı təkcə yenicə alovlanan müharibə ocağı barədə informasiya toplayaraq yaymaq, həqiqəti söyləmək niyyətindən qaynaqlanmırdı. Bir aydan bir qədər çox müddətdə Prezidentimizlə görüşə gələn xarici KİV-lərin bir qisminin erməni diasporunun sifarişini icra etdiyi diqqət çəkən başlıca məqamlardandır. Bunu müsahibə alan jurnalistlərin jurnalistikanın bir sıra mühüm prinsiplərini pozmalarından da aydın görmək mümkündür. Həmin prinsiplər jurnalistlərin beynəlxalq peşə davranışı qaydalarında (ona uyğun olaraq həm də Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarında) öz əksini tapmışdır.

Jurnalistikanın ali məqsədi həqiqəti yaymaqdır. Obyektivlik isə əsas peşəkarlıq meyarı sayılır. Jurnalist müsahibinə istədiyi sualı verməkdə sərbəstdir. Ancaq tərəf nümayiş etdirməməli, qərəzsiz olmalıdır. Müsahibə





hörmətlə yanaşmalı, etik normalara ciddi riayət etməlidir. Müsahibinin demək istəmədiyini zorla ona dedirtməyə çalışmamalı, öz fikrini məcburən qəbul etdirməyə cidd-cəhd göstərməməlidir. Müsahibə həm də xüsusi janrdır. Burada müxbir şərhinə, jurnalist müdaxiləsinə yol verilmir. Hər şey jurnalistin peşəkarlığından, müsahibini danışdırmaq bacarığından asılı olur. Ona sərf etməyən fikir söyləyən zaman müsahibinin sözünü kəsmək, cavablara açıq şübhə ilə yanaşmaq, xüsusən israr etmək və deyilənlərə düzəliş etməyə çalışmaq yolverilməzdir. Adətən, müsahibin kimliyi, hansı səviyyə sahibi olduğu da nəzərə alınır. Ona uyğun müxbir seçilir. Jurnalistin özü müsahibəyə diqqətlə hazırlaşmalıdır, redaksiya da ona müəyyən istiqamətlər verə, qarşısına hansısa vəzifə qoya bilər. Lakin bunların hamısı etik çərçivədə, jurnalistikanın mühüm prinsiplərinə əməl olunmaqla icra edilməlidir.

Prezident İlham Əliyevlə müsahibələrə baxdıqda dərhal hiss etmək olurdu ki, müsahibəni götürənlərin böyük bir qismi ölkəmizə heç də xoş məramla gəlməmişdilər. Ona görə müsahibəni də xoş niyyətlə götürmürdülər. İlk olaraq verdikləri suallardan, təkid etdikləri məsələlərdən aydın görünürdü ki, aralarında dünya erməniliyinin tapşırıqlarını icra edənləri də var. İkincisi, hamısı eyni mövzuda suallar verir, eyni məsələlərə toxunur, bir-birinin ağzına tüpürübmüş kimi, eyni tərzdə danışırdılar. Ona görə onların eyni mərkəzdən təlimatlandırıldığı açıq-aşkar görünürdü. Belələri hətta jurnalistlərin etik davranış qaydalarına əməl etmir, yersiz şəkildə israr edir, hətta bəzən kiminlə söhbət etdiklərini unudaraq özlərini prokuror kimi aparırdılar. Üçüncüsü isə öz eşitdiklərini həqiqət kimi təqdim edərək suala israrla cavab almağa can atırdılar. Məsələn, əksər müsahibələrdə səsləndirilən suallar təxminən belə idi:

- Müharibəyə niyə başladınız?
- Türkiyə niyə sizə kömək edir?
- Müharibə ilə ölkəniz daxilindəki problemləri başqa səmtə yönəltmək istəyirsiniz?
- Türkiyənin F-16 təyyarələri niyə Azərbaycandadır?
- Siz tərəfdən muzdlular döyüşür?
- Etnik təmizləmə aparmaq istəyirsiniz?
- Niyə müharibəni dayandırmırsınız? və s.

Prezident İlham Əliyev həmin jurnalistlərlə hörmətlə, səbir və təmkinlə davranırdı. Əvvəlcə KİV-in yayılacağı ölkələrdəki vətəndaşları maarifləndirəcək məlumatlar verir, əsl həqiqəti söyləyir, sonra feyk xəbərləri təkzib edir, ən nəhayət, məhz Ermənistanın sülh danışıqlarını pozduğunu, işğalçı ölkə olduğunu və faşizm ideyasını daşıdığını konkret faktlarla göstərirdi. Bununla da İlham Əliyev ermənilərə xidmət edən telekanallarda və informasiya agentliklərində ermənilərin özlərinin xəbis, faşist simalarını ifşa edir, onların şər-böhtanlarını konkret faktlarla puça çıxarır, qərəzli mövqe sərgiləyən jurnalistləri qaçılmaz dəlil və faktlarla susdurur, obyektiv və ədalətli olmağa səsləyirdi. Necə deyərlər, həmin jurnalistlər tərk-silah olunurdular.

Bu müsahibələrin nəticəsi olaraq, Ermənistan informasiya müharibəsində də tam məğlub oldu, iç üzü ifşa edilərək bütün dünyaya tanıdıldı. Digər tərəfdən, İlham Əliyev Azərbaycan torpaqlarını ələ keçirərək onu otuz il işğalda saxlayan Ermənistanla yanaşı, həm də dünyanın bir sıra aparıcı ölkələrinin dövlət başçılarının qərar qəbul etmələrinə təsir göstərən, parlamentlərində "erməni məsələsinə" dair məsələləri müzakirəyə çıxaran, qanundankənar layihələr qəbul etdirən, beynəlxalq qurumları və KİV-ləri ələ alaraq öz maraqlarına işləməyə sövq edən dünya erməniliyinə, ermənilərin patoloji xəstəliyinə çevrilən "erməni soyqırımı" və "böyük Ermənistan dövləti" xülyasının təbliğatçılarına qalib gəldi. "Məğlubedilməz xalq" və "məğlubedilməz ordu" anlayışını məhv edərək onun gülünclüyünü göstərdi!

Beləliklə, İlham Əliyev dünya erməniliyinin təşkilatçılığı və xarici KİV-lərin iştirakı ilə Azərbaycana qarşı aparılan informasiya müharibəsində təkbaşına çarpışaraq mühüm qələbə qazandı. Eyni vaxtda iki döyüş cəbhəsində zəfər çalmış oldu. Əslində, eyni vaxtda iki cəbhədə döyüşmək və hər ikisində uğur və müvəffəqiyyət qazanmaq hər rəhbərə və sərkərdəyə nəsib olan hünər deyil. Bu baxımdan Azərbaycanın qələbəsi tam, qəti və hərtərəfli oldu. Yəni düşmən təkcə hərb meydanında deyil, informasiya cəbhəsində də məğlub edildi. İlham Əliyevin müraciətləri və müsahibələri ilə qürur duyduq, məmnun olduq.





## İlham Əliyevin xalqa müraciətləri, çıxışları hər birimizin ürəyindən xəbər verirdi

Onu da qeyd edim ki, biz Prezidentimizi daim soyuqqanlı, təmkinli, emosiyadan uzaq, son dərəcə ölçülü-biçili danışan və davranan bir siyasi və dövlət xadimi kimi görməyə adət etmişdik. Amma sentyabrın 27-dən etibarən xalqa müraciətlərində, müsahibələrində, görüşlərində dövlətimizin başçısının nə qədər böyük vətənpərvər olduğunu, torpaqların işğalından, xüsusən Şuşa ilə bağlı ermənilərin murdar əməllərindən nə qədər təsirləndiyini, içində böyük qəzəb və hiddət olsa da, daima öz hisslərini boğub saxladığını anladıq, duyduq. İlk dəfə idi ki, o, düşmənə açıq və sərt tərzdə müraciət etdi, azğın işğalçıya nifrətini büruzə verdi.

Prezident İlham Əliyevin xalqa müraciətləri, hər bir çıxışı hamımızın ürəyindən xəbər verir, yüksək emosionallığı, hədəfi vuran fikirləri, üslub və intonasiyası ilə ruhumuzu oxşayır, ürəyimizdən tikan çıxarırdı. Belə çıxış və müraciətləri orduya yeni güc və qüvvət, xalqa böyük ruh yüksəkliyi və əminlik bəxş edirdi. Bu həm də xalqda yaranan inamın, ruh yüksəkliyinin daha da artmasına, xalq-rəhbər birliyinin keyfiyyətcə yeni, ən yüksək zirvəyə qalxmasına təkan verdi. İlham Əliyev adi sözlər söyləmədi, Azərbaycanın maraqlarını ifadə etdi, bizim hər birimizin ürəyindən keçənləri dilə gətirdi. Dostlara məhəbbətini çatdıraraq, düşmənə qəzəb və nifrətini püskürdü. Bu həm də ona görə adi sözlər deyildi ki, deyilənlər rəşadətli Azərbaycan Ordusu tərəfindən döyüş meydanlarında uğurla həyata keçirilirdi.

Biz hamımız bu müharibədən qələbə gözləyirdik. Əmin idik ki, Ali Baş Komandan İlham Əliyev bizi həsrətlə gözlədiyimiz qələbəyə çatdıracaqdır. İlham Əliyev möhkəm iradəsi, qətiyyəti, müdrikliyi, uzaqgörənliyi ilə xalqımızın yeganə ağrılı probleminə, həsrətimizə son qoydu. Əsl rəhbərin missiyası belə olur. Bu missiyanı yerinə yetirən İlham Əliyev Azərbaycanın yeni müharibə tarixini yazdı. Öz gücü, siyasəti, qurucusu olduğu ordusu ilə ölkəmizin ərazi bütövlüyünü təmin edərək tarixə qüdrətli dövlət başçısı, mahir sərkərdə, qətiyyətli rəhbər kimi düşdü.

# PREZİDENT İLHAM ƏLİYEVİN MÜHARİBƏ CƏBHƏLƏRİNDƏN ZƏFƏR MÜJDƏLƏRİ

Bəzən böyük tarix elə bircə sözdən, bir neçə kəlmədən başlanır.

Vətən Savaşında olduğu kimi...

Əslində, hər şey "Valday"dan başlanmışdı...

"Valday" Beynəlxalq Diskussiya Klubunun 2019-cu ilin 3 oktyabrında keçirilən XVI illik iclasının plenar sessiyasından və Prezident İlham Əliyevin həmin sessiyadakı tarixi nitqindən...

## Bir NİDA və yeni tarixin başlanğıcı

Həmin çıxışında dövlət rəhbərimiz bu beynəlxalq tribunadan istifadə edərək Ermənistanın işğalçı addımları, azərbaycanlılara qarşı illər boyu apardığı etnik təmizləmə siyasəti, erməni hərbi canilərinin dinc vətəndaşlarımızı, o cümlədən körpələri qətlə yetirmələri barədə məlumat verdi. BMT başda olmaqla, nüfuzlu beynəlxalq qurumların Ermənistanı işğalçı siyasətə son qoymağa çağıran sənədlərini xatırlatdı.

Bu münaqişənin ədalət prinsipləri, Azərbaycanın bütün dünyada tanınmış ərazi bütövlüyü çərçivəsində həlli zərurətini qeyd etdi və diqqəti işğalçı ölkənin yeni baş nazirinin "Valday" sammiti ərəfəsində səsləndirdiyi sərsəm bəyanata yönəltdi: "Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır".

İlham Əliyev bu bəyanata münasibətini tariximizin daş yaddaşına qızıl hərflərlə həkk olunmuş, milli varlığımızın, dövlətçilik qüdrətimizin simvollarından birinə çevrilmiş bu cümləsi ilə tamamladı: "Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Azərbaycan Prezidentinin səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" kəlməsi elə həmin andan xalqımızın milli birliyinin yeni çağırışı və tarixi reallıqların qarşımıza qoyduğu yeni hədəflərə yönəlməyimiz üçün səfərbəredici güc oldu.

Cənab İlham Əliyevin səsləndirdiyi o kəlmələr Azərbaycanın və ümumilikdə regionun tarixində yeni bir dövrün başlanğıcı idi. Azərbaycan xalqının timsalında bu torpaqların əzəli, əbədi sakinləri kimi regionun keçmişini formalaşdırmış və gələcəyini də xoşbəxt, təhlükəsiz, davamlı inkişaf içində görmək istəyən hər kəs üçün birləşmə məqamı idi. Bu kəlmələr ən yaxın gələcək üçün əsas hədəfi göstərirdi. Torpaqlarımızı azad etməkdən ötrü Azərbaycanın sülh danışıqlarının davam etdiyi uzun illər ərzində həmişə alternativ variant kimi saxladığı hərb yolu ilə hərəkətə keçəcəyinin, Azərbaycanın da münaqişənin həqiqətən dinc yolla həllinə çalışan beynəlxalq qurumların, xarici ölkələrin — bütün hər kəsin konstruktiv təkliflərini qəbul etməmək üçün özünü anlamazlığa qoymuş azğın düşmənlə anlayacağı dildə – gücün dili ilə danışacağının xəbərdarlığı idi.

"Qarabağ Azərbaycandır və nida işarəsi" cümləsi, əslində, İlham Əliyevin Vətən müharibəsindən bir il əvvəl Azərbaycan xalqına ilk Zəfər müjdəsi sayılmalıdır!

Dövlət rəhbərimiz bu qətiyyətli kəlmələri ilə düşmən üzərində parlaq qələbə qazanmışdı. Düşməni mənən yenmişdi. Hər kəs başa düşürdü ki, əgər indiyə qədər verdiyi bütün sözləri yerinə yetirən, sözü ilə əməli daim üst-üstə düşən, prinsiplərinə sadiqliyi ilə siyasətə, diplomatiyaya da mərdanəlik dəyərləri gətirən İlham Əliyev "Qarabağ Azərbaycandır!" həqiqətinin sonuna nidasını qoydusa, demək, Azərbaycan əsgərinin silaha sarılıb Qarabağda Azərbaycan bayrağını ucaldacağı günün üfüqləri görünməkdədir.

Beləliklə, ilk qələbə, ilk Zəfər müjdəsi, azad torpaqlarımızda dalğalanacaq Azərbaycan bayrağının ilk xoş xəbəri 2019-cu ilin oktyabrında – "Valday" sammitindən, İlham Əliyevin əzəmətlə, qürurla dayandığı tribunadan eşidildi.

Azərbaycan xalqının da, dünyanın dörd bir yanında haqq işimizə dəstək verən bütün hamının da gözləntiləri aradan bir il keçməmiş özünü doğrultdu.

## 27 sentyabr, saat 06.00...

Azərbaycan Ordusu 2020-ci ilin 27 sentyabrında saat 06.00-dan etibarən Ermənistanın növbəti hərbi təxribatını dəf edib geniş əks-hücum əməliyyatına başlayaraq elə həmin gün ildırım sürəti ilə düşmənin müdafiə sədlərini yardı. Bir neçə yaşayış məntəqəsini dərhal işğaldan azad edib orada bayrağımızı ucaltdı.

Həmin gün, hərbi əməliyyatların başlanmasından bir neçə saat sonra Azərbaycan Prezidentinin xalqımıza müraciəti oldu. İlham Əliyev müraciətində deyirdi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb".

Ardınca Təhlükəsizlik Şurasının iclasındakı çıxışı zamanı da Ali Baş Komandan bəyan etdi ki, səhər tezdən düşmən təxribatı barədə məlumatı alan kimi müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxlayıb, müvafiq əmrlər verib və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlayıb.

İlham Əliyevin həmin gün Azərbaycan xalqına müraciəti bu kəlmələrlə tamamlanırdı: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Sentyabrın 27-də Ali Baş Komandanın xalqa müraciətindəki bu əzm, qətiyyət, iradə Azərbaycanın, eyni zamanda Qafqazın, ümumilikdə Avrasiya məkanının tarixini dəyişdirmək gücündə idi. Azərbaycan Ordusu Ali Baş Komandanın hücum əmrindən qısa müddət sonra xalqımızı münaqişə arazisindəki bir neçə kəndin, strateji yüksəkliyin, o cümlədən müstəsna əhəmiyyətə malik Suqovuşanın azadlığı ilə sevindirdi.

Oktyabrın 4-də isə Azərbaycan Prezidenti xalqımıza Cəbrayıl şəhərinin və rayonun 9 kəndinin düşməndən azad edilməsinin xoş xəbərini çatdırdı. Beləliklə, İlham Əliyevin müharibə boyu müxtəlif kommunikasiya kanalları vasitəsilə xalqımıza yetirdiyi müjdələr 44 günlük Vətən müharibəsinin ən unudulmaz, yüz illər sonra da sənədli tariximizdə fəxrlə xatırlanacaq və gələcək nəsillərin də ürəyini böyüdəcək qürur dolu məqamları oldu. Dünyanın hansı məkanında yaşamasından asılı olmayaraq, qəlbi Azərbaycanla döyünən bütün soydaşlarımıza izahı sözlə mümkün olmayan misilsiz duyğular yaşatdı.





## Hər bir azərbaycanlının Prezidenti

Siyasi lider, yüksək təcrübəyə malik dövlət adamı, mükəmməl idarəçi olaraq İlham Əliyevin fəaliyyətini uğurlu edən çox mühüm cəhətlər var. Bunlardan biri də Azərbaycan Prezidentinin xalqla təkmil kommunikasiya qurmaq qabiliyyətidir. Bu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin ustad dərslərindən əxz olunmuş və illərin təcrübəsi ilə daha da inkişaf etdirilmiş məharətdir.

Düzgün qurulmuş ünsiyyət, lazımi fikirlərin, niyyətlərin, arzu və istəklərin dəqiq çatdırılması, toplumun konkret hədəflərə aydın yönləndirilməsi müasir dünyamızda müstəsna əhəmiyyət daşıyır. Prezident İlham Əliyev də hər zaman xalqın arasındadır, vətəndaşlarımızla gündəlik ünsiyyətdədir. Azərbaycan vətəndaşları onu xalqın adamı kimi tanıyır, qəbul edir. O, zəmanəmizin dövlət başçıları arasında xalqa ən yaxın rəhbərlərdəndir, insanlarla ünsiyyətdən heç zaman yayınmır.

Xalqla özü arasında sədd qoymur, həmişə səmimi ünsiyyətdə olur. Qeyri-real vədlərlə əsassız ümidlər yaratmır. Amma nəyəsə söz verdisə, onu mütləq yerinə yetirir. Ona görə də dünyanın aparıcı liderlərindən tutmuş Azərbaycanın ucqar bir yaşayış məntəqəsində ömür sürən və siyasətdən, diplomatiyadan uzaq olan sıravi zəhmət adamına kimi hər kəsdə İlham Əliyev şəxsiyyətinə böyük inam və hörmət var. Onunla ünsiyyət həmişə xoş, faydalı və motivasiya doludur.

Azərbaycan Prezidentinin fəaliyyətində xüsusilə diqqəti çəkən bir məqam da ondan ibarətdir ki, dövlət rəhbərimiz hər zaman situasiyaya uyğun olaraq kommunikasiyanın ən effektiv, səmərəli, çevik, mobil vasitələrini tapır, onlardan böyük məharətlə istifadə edir. Yəni xalqla ünsiyyət deyərkən, heç də bu qədər gərgin qrafiklə hər gün vətəndaşlarla üzbəüz görüşlərin keçirilməsi zərurətindən söhbət getmir. Azərbaycan Prezidenti iş planına uyğun olaraq müxtəlif yerlərə səfərlərində, dövlət tədbirlərində, təbii ki, bu cür görüşlər də keçirir. Lazımi sözlərini vətəndaşlara yetirir, insanların istəklərini dinləyir. Eyni zamanda başqa müxtəlif kommunikasiya imkanları, hökumət toplantıları, müsahibələr, çıxışlar, müraciətlər vasitəsilə də əhali ilə sıx ünsiyyəti təmin edir. Prezidentə müraciət üçün yaradılmış müxtəlif kanallarla vətəndaşların aparılan dövlət siyasətinə münasibətinin, onları narahat edən problemlərin öyrənilməsinə, təhlilinə və lazımi addımların atılmasına şərait yaradır.

Əhali ilə müntəzəm ünsiyyəti, vətəndaşların müraciətlərinə həssas münasibəti İlham Əliyev öz administrasiyası, yüksək vəzifələrdə etimad göstərdiyi məmurlar qarşısında da əsas vəzifələrdən biri kimi irəli sürür. Onları vətəndaşlarla sıx kommunikasiyalara, insanların qayğılarını öyrənməyə, rəy və təkliflərini dinləməyə, görülən işlərin nəticələri barədə xalqa mütəmadi hesabat verməyə çağırır. Azərbaycan Prezidenti xalq qarşısında hesabatlı hökumət formalaşdırıb və fəaliyyətində hər zaman hesabatlılıq prinsiplərini əsas götürür. Davamlı şəkildə öz fəaliyyəti ilə bağlı xalqa hesabat verir. Nəticələri birgə dəyərləndirir, qazanılmış nailiyyətlərə uyğun yaxın və uzaq strateji hədəfləri müəyyənləşdirir. Bununla yanaşı, şəffaflığı, açıqlığı qoruyur.

İlham Əliyev Azərbaycan tarixinin ən əhəmiyyətli səhifəsinə çevrilmiş, hər bir azərbaycanlının milli hədəfi, gözləntisi olan Vətən savaşında da bu fəaliyyət üslubuna sadiq qalmalı idi və qaldı.

## Azərbaycana müraciət – Ermənistana mesaj

Qlobal dünyanın ən parlaq liderlərindən olan İlham Əliyevin qələbə müjdələri onun əzəmətli simasını, mükəmməl ünsiyyət qabiliyyətini, natiqlik bacarığını, həqiqətləri anlatmaq səriştəsini bir daha sərgilədi. Ölkə başçısının xalqa müraciətləri dövlət idarəçiliyi sənətinin sirlərini öyrənmək, liderlik vərdişlərini əxz etmək istəyənlər, kommunikasiya bacarıqlarına yiyələnməyə can atanlar üçün əsl ustad dərsləridir.

Azərbaycan Prezidentinin hər yeni ərazimizin düşməndən təmizlənməsi ilə bağlı müjdələrində bir neçə mühüm istiqamət ardıcıllıqla öz əksini tapırdı. İlham Əliyev ədalət uğrunda apardığımız bu savaşın Azərbaycan xalqının beynəlxalq hüquq normalarından irəli gələn haqqı olduğunu hüquqi baxımdan əsaslandırırdı. Ermənistanın yeni Baş naziri N.Paşinyanın timsalında işğalçı ölkənin əvvəlki rəhbərlərinin də bütün etnik separatizm fəaliyyətini ifşa edirdi. Erməni faşistlərinin Azərbaycan xalqına qarşı törətdikləri dəhşətli soyqırımı əməllərini dünyaya çatdırırdı. Özlərini uzun illər ərzində Cənubi Qafqazın guya "ən mədəni xalqı" kimi qələmə vermək istəyən ermənilərin əsl mahiyyətini göstərirdi. Ermənistanın işğalçı siyasətinin, faşizm ideyalarına bağlılığının, regionun keçmişində olduğu kimi, bu günü və gələ-





cəyi üçün də nə qədər böyük təhdidlər yaratdığını konkret dəlil-sübutlarla izah edirdi. Azərbaycan xalqının bu məsələlərlə bağlı mövqeyini yetirirdi.

İlham Əliyev düşməndən azad edilmiş hər yeni böyük ərazimiz haqqında da fikirlərini bölüşürdü. O, ərazilərin strateji əhəmiyyətindən danışır, xalqa torpaqların təkcə azadlığının deyil, eyni zamanda gələcək abadlığının, düşmənin illərlə viran qoyduğu bu ərazilərdə Azərbaycan hökumətinin aparacağı quruculuq işlərinin müjdəsini verirdi. Bəzi müraciətlərində isə dövlət rəhbərimiz düşmənin torpağın köksündə Azərbaycanın tarixi izlərini silməkdən ötrü dəyişib erməniləşdirdiyi yer-yurd adlarımızı bərpa etdiyini daha bir xoş xəbər kimi insanlarımıza çatdırırdı.

Azərbaycan əsgəri ermənilərin işğaldan sonra Madagiz adlandırdıqları Suqovuşan qəsəbəsində üçrəngli bayrağımızı ucaltdığı və bu qələbə sorağının xalqa yetirildiyi gün cənab İlham Əliyev özünün twitter hesabında bunu yazmışdı: "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!"

Ardınca isə Azərbaycan Prezidenti bununla bağlı qanun imzaladı. Beləliklə, Ali Baş Komandan təkcə torpaqlarımızı işğaldan azad etmirdi. Torpaqla birgə, ona bağlı maddi-mənəvi abidələri, tarixi yaddaşı da həyata qaytarırdı.

Azərbaycan Prezidenti xalqa müraciətlərində müharibənin hətta ən gərgin günlərində də milli varlığımızın dəyərli əlamətlərindən olan humanizm prinsiplərinə sadiqliyini qoruyurdu. Düşməni vəhşiliyindən, qeyri-insani əməllərindən əl götürməyə çağırırdı. Münaqişənin daha az insan itkisi ilə həlli, hərbi əməliyyatların, qan-qadanın dayanması üçün yol göstərirdi. Çünki hərbi əməliyyatların ilk dəqiqələrindən sonuna qədər Ali Baş Komandanın əsas qayğısı insanlarımızı qorumaq, itkilərə yol verməmək idi.

Eyni zamanda hətta düşmən olsa belə, ermənilər arasından da günahsız insanların Ermənistan siyasətçilərinin populizminə, siyasi miflərə qurban getməmələrini, özlərini "Dəmir yumruq" altında labüd ölümə atmamalarını istəyirdi. Hərbi əməliyyatların gedişində on minlərlə erməni əsgər və zabiti fərarilik edib döyüş meydanından qaçmışdı. Əsgər və zabitlərimizin düşməndən təmizlədikləri ərazilərdəki postlarda olan mənzərə hətta müharibənin ən ağır dəhşətlərini görmüş təcrübəli hərbçiləri də heyrətə gətirirdi. Erməni əsgərləri fərarilik edib döyüş meydanından, postlardan qaçmasınlar deyə onları zəncirləmişdilər.





Bu heyvani mənzərə bir çox həqiqətləri dünyaya sərgiləyirdi. Göstərirdi ki, erməni cəmiyyətində də artıq siyasilərin oyunlarından yorulub usananlar, başqasının torpağında ölmək istəməyənlər var. Amma bu mənzərə Ermənistan siyasilərinin, əsgər yeməyini satıb özünə varidat toplayan erməni generallarının qeyri-insani xislətini də bir daha canlandırırdı. Onların Azərbaycan torpaqlarını işğal altında saxlamaq, işğal siyasətini davam etdirmək üçün hətta öz xalqlarına belə qənim kəsildiklərini, hər cür vəhşi davranışa hazır olduqlarını nümayiş etdirirdi.

Azərbaycan Prezidentinin müraciətlərində Ermənistan cəmiyyətinin sağlam düşüncə qabiliyyətini hələ tam itirməmiş kəsiminə mesajlar öz əksini tapırdı. Dövlət rəhbərimiz, demək olar, bütün geniş müraciətlərində bildirirdi ki, əgər düşmən torpaqlarımızdan çıxmaq üçün dəqiq vaxt göstərsə, üzərinə bununla bağlı konkret öhdəlik götürsə, Azərbaycan hərbi əməliyyatları dərhal dayandırar. Beləliklə, münaqişənin yeni insan itkilərinə yol vermədən həlli mümkün olar.

Erməni rəhbərləri, siyasiləri isə Şuşanın azad edildiyi günə qədər bu barədə ağılla düşünmədilər. Beləliklə, minlərlə gəncin ölümünə, minlərlə ailənin faciəsinə bais oldular. Gəncəni, Tərtəri, Bərdəni, Naftalanı və dinc əhalimizin yaşadığı başqa şəhərlərimizi, kəndlərimizi ağır silahlardan atəşə tutub yüzlərlə günahsız azərbaycanlını – körpələri, qocaları, qadınları qətlə yetirdilər. Beləliklə, tarixin müxtəlif dönəmlərində xalqımıza qarşı törətdikləri soyqırımılarla arada yaratdıqları kin-küdurəti yeni insan ölümləri ilə daha da alovlandırdılar.

Sonda isə kapitulyasiya aktına imza atıb Ağdamı, Laçını və Kəlbəcəri döyüşsüz təhvil verməkdən başqa əlacları qalmadı. Halbuki Azərbaycan Prezidentinin müraciətlərindən, göstərdiyi düzgün yoldan vaxtında nəticə çıxarsaydılar, bu insan faciələrinin heç biri baş verməzdi.

## Savaşın twitter cəbhəsi

Vətən müharibəsinin davam etdiyi günlərin bir maraqlı xatirəsi də var. Azərbaycan Prezidenti innovasiyaların faydasını dərindən duyan, onları gündəlik fəaliyyətində tətbiq edən və başqalarını da çağımızın texnologiyalarından yararlanmağa çağıran yenilikçi təfəkkürlü liderlərdəndir.

İlham Əliyevdə daimi inkişaf üçün yeni imkanların axtarışı və üzə çıxarılması ruhu var. Bunu dövlət rəhbərimizin verdiyi qərarların, cəmiyyət həyatının bütün əhəmiyyətli sferalarında atdığı addımların, gələcək qarşısında müəyyənləşdirdiyi hədəflərin hər birində görürük.

Belə bir ruh Azərbaycan Prezidentinin insanlarla qurduğu ünsiyyətdə də dərhal nəzərə çarpır. Dövlət rəhbərimiz mesajlarının geniş auditoriyaya çatması, təqdim edilən fikirlərin hədəf kütlə tərəfindən düzgün qavranılması, bütün sosial qruplara aydın olması üçün hər zaman vəziyyətə ən uyğun kommunikasiya üsullarından istifadə edir.

Məlumdur ki, müharibə, hərb işi lakonikliyi, qısa və konkret məzmunu sevən fəaliyyət sahəsidir. Müasir dünyamızın ünsiyyət sənayesində qısa məzmunun çatdırılması üçün ən müvafiq görünən populyar kommunikasiya platforması isə twitter sayılır. Vətən müharibəsi günlərində İlham Əliyevin sosial şəbəkələrdən, xüsusilə twitterdən fəal istifadə etməsi, kənd və qəsəbələrimizin azadlığı müjdəsini məhz bu sosial şəbəkə platforması vasitəsilə çatdırması xoş bir ənənəyə, xalqımızın həyəcan, coşqu və sevgi içində izlədiyi maraqlı prosesə çevrilmişdi.

Maraqlısı həm də budur ki, Azərbaycan Prezidentinin Vətən müharibəsi zamanı paylaşdığı twitlərə qədər bu sosial platforma ölkəmizdə o qədər də populyar deyildi. Azərbaycan əhalisi facebook və instagram sosial şəbəkələrindən daha çox istifadə edirdi. Amma dünyada əsas trenddə olan sosial şəbəkə məhz twitterdir. Əlbəttə, izləyicinin maraqlarından, məqsədlərindən, yaşından, mədəni səviyyəsindən, dünyagörüşündən asılı olaraq hər sosial şəbəkə platformasının özünəməxsus xüsusiyyətləri var. Bununla belə, əksəriyyətin qənaətinə görə, twitter təqdim etdiyi keyfiyyətli məzmuna, mobilliyinə, vaxta qənaətə görə daha faydalı platforma sayılır. Onun bütün dünyada ciddi, intellektual, sağlam düşüncə mühitində olmağa üstünlük verən insanlar arasındakı populyarlığının əsas səbəbi də, görünür, elə budur. Azərbaycan Prezidenti də vətəndaşlarımızı sosial şəbəkələrdə daha keyfiyyətli, zövqlü, intellektual və mobil platformaya yönəltdi.

Dövlət rəhbərimiz twitterdən istifadə edərkən, təbii ki, bu platformanın beynəlxalq siyasi arealdakı populyarlığını nəzərə almamış deyildi. Twitter sosial şəbəkəsinin auditoriyası elədir ki, baş verən siyasi hadisələrdən, proseslərdən hali olmaq, ölkə liderlərinin müxtəlif məsələlərlə bağlı fikirlərini bilmək üçün bütün dünya ora yönəlir.





Prezident İlham Əliyev Cəbrayıl və Zəngilan rayonlarında.
27 aprel 2021-ci il

Həmin günlərdə İlham Əliyevin twitlərini bütün dünyada izləyirdilər. Azərbaycan xalqı ilə yanaşı, ümumən dünya da Azərbaycan liderinin twitlərinə köklənmişdi. Ölkə rəhbərimiz twitter vasitəsilə bütün dünyanı Azərbaycanda baş verən hadisələr ətrafında səfərbər edir, məlumatlandırırdı.

Təsadüfi deyil ki, Vətən müharibəsi günlərində Azərbaycan Prezidentinin twitter səhifəsinin ingilisdilli variantına abunə olunanların sayı qısa müddətdə yüz minlərlə artmışdı. Dünya onun mövqeyini bilmək, baxışlarını öyrənmək, Qarabağ həqiqətlərini Azərbaycan liderindən eşitmək istəyirdi. Dünya azərbaycanlıları ilə yanaşı, planetimizin hansı məkanında yaşamasından asılı olmayaraq, bu münaqişəyə maraq göstərən hər kəs İlham Əliyevdən qələbə müjdələri gözləyirdi.

Azərbaycan Prezidenti insanlara müraciətlərində təkcə ardıcıl olaraq qazanılan qələbənin hesabatını vermirdi, eyni zamanda hər zəfərdən sonra gələcək hədəfləri göstərirdi. Xalqımızı o hədəflərə doğru yönəldirdi. Prosesləri epizodik olaraq yox, tam təfərrüatı ilə, böyük bir tam halında izah edirdi. Qarabağ həqiqətləri barədə ən məlumatsız şəxs belə İlham Əliyevin

müraciətlərindən birini diqqətlə dinləməklə münaqişənin tarixi, burada kimin haqlı, kimin haqsız olması barədə qəti qənaətə gələ bilərdi və bilirdi.

Qarabağ məsələsi ilə bağlı proseslərin bütün məğzi İlham Əliyevin müraciətlərində idi. Bu müraciətlər bundan sonra da əsrlər boyu Azərbaycan xalqı üçün istinad mənbəyi olacaq. Qarabağ həqiqətləri bu müraciətlərdən öyrəniləcək.

Azərbaycan Prezidentinin xalqa müraciətləri münaqişənin başlanmasına səbəb olan amillərdən Ermənistanın apardığı işğal, etnik təmizləmə siyasətinə, azərbaycanlılara qarşı törədilmiş soyqırımılara, sonrakı mərhələlərdə aparılan sülh danışıqlarına, Azərbaycanın atəşkəs dövründə sosial-iqtisadi inkişaf, ordu quruculuğu, beynəlxalq aləmdə ölkəmizin mövqelərinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərə qədər təxminən 32 illik böyük bir dövrün tarixi salnaməsini canlandırırdı.

Hamı İlham Əliyevdən öyrənirdi, hamı İlham Əliyevdən xoş bir xəbər gözləyirdi, insanlar yeni müraciətlərin, yeni twitlərin intizarını çəkirdi, twitlər bir az yubananda narahat olurdu. Hətta Azərbaycan Prezidenti özü də sonralar söyləyirdi: “Bilirəm, twitlər gecikəndə xalq bundan narazı qalır”.

## İnformasiya müharibəsində yeni mərhələ

Gözəl nitq qabiliyyəti, natiqlik məharəti bütün zamanlarda siyasi liderlər üçün həlledici bacarıq olub. Bir neçə dildə mükəmməl danışan İlham Əliyev də sahib olduğu nitq qabiliyyəti ilə bu işin ustadlarındandır.

Azərbaycan Prezidentinin bütün nitqləri hər zaman fikirlərin məntiqi ardıcıllığı, dəqiqliyi, sistemliliyi, zəngin faktları əhatə etməsi ilə diqqət çəkib. Hər bir nitqində İlham Əliyev mükəmməl hekayə qurur. Mövcud vəziyyətin təhlilini aparır, nəticələri təqdim edir və qazanılmış nailiyyətlərin qorunaraq daha da inkişaf etdirilməsi üçün konkret vəzifələr müəyyənləşdirir.

Bu, Vətən müharibəsi günlərində də belə idi. Həmin dövrdə İlham Əliyev təkcə hərb cəbhəsinin Ali Baş Komandanı deyildi, eyni zamanda informasiya müharibəsinin, informasiya cəbhəsinin yenilməz sərkərdəsi idi. Onun əmri ilə ordumuz işğalçı düşməni darmadağın etdiyi kimi, Azərbaycan Prezidentinin xarici ölkələrin kütləvi informasiya vasitələrinə müsahibələrində də erməni faşizminin daşı daş üstə qalmır, erməni lobbisinin əsrlərlə dünyaya sırıdığı yalanlar ifşa edilirdi.





Dövlət rəhbərimiz həmin müsahibələrində Azərbaycanın apardığı haqq savaşını göstərirdi, münaqişə ilə bağlı ortaya çıxan bütün suallara təmkinlə, soyuq məntiqlə, sistemli şəkildə aydınlıq gətirir, dünyanı inandıra bilirdi. Bütün bunlardan daha əfzəli isə həm də o idi ki, cənab İlham Əliyev erməni məkrinin daşıyıcısı olan, erməni lobbisinin tribunasına çevrilmiş kütləvi informasiya vasitələrinə cəsarətlə çıxırdı. Azərbaycan Prezidentini informasiya savaşında məğlub edə biləcəkləri ümidi ilə müsahibə üçün müraciət edən, əvvəlcədən təxribat xarakterli yönəldici suallar hazırlayan bu media qurumlarının özünü məğlub vəziyyətə salırdı. Azərbaycan Prezidentinin bu müsahibələrinin çoxu canlı yayımlanırdı.

O günlərdə Azərbaycan Prezidentindən müsahibə götürən televiziya kanalları arasında dünyanın əksər şirkətləri vardı. Hətta Rusiyanın, Avropanın, Amerikanın ermənipərəst kanalları da dövlət rəhbərimizdən müsahibələr götürürdülər. O kanallara çıxmaq, canlı yayımlarla müsahibələr vermək necə böyük cəsarət tələb edirdisə, ermənilərin öz tribunalarında onların yalanlarını üzə çıxarmaq, o yalanları səsləndirənləri mat vəziyyətində qoymaq, onları öz dillərində, təmkinlə, məntiqlə ifşa etmək, yerlərində oturtmaq özü böyük məharət və bacarıq istəyirdi.

İlham Əliyev bunu da bacardı. Vətən müharibəsi zamanı Azərbaycan Prezidentinin verdiyi müsahibələrin hər biri tariximizin dəyərli parçası kimi daim böyük rəğbətlə xatırlanacaq, öyrəniləcək, yeni tədqiqat əsərlərinə mövzu olacaq.

Azərbaycan Prezidenti uzun illərdir ki, dövlətimizə rəhbərlik edir, liderlik keyfiyyətləri, tarixi uğurları ilə ölkəyə, xalqa rəhbərliyin örnəyini yaradır. Beynəlxalq arenada Azərbaycan naminə informasiya savaşını illərdir ki, davam etdirir. 44 günlük Vətən müharibəsi gedişində isə, açıq etiraf edək, Azərbaycan xalqı dövlət rəhbərimizin ötən 17 il ərzində hələ də büruzə vermədiyi keyfiyyətləri gördü, kəşf etdi.

Bu müharibə İlham Əliyevin yeni keyfiyyətlərini üzə çıxardı. Biz İlham Əliyevi bu 44 gündə yenidən tanıdıq və anladıq ki, onunla qürur duymaqda, iftixar hissi keçirməkdə əsla yanılmamışıq.

Bir əsrə bərabər 44 günün kəşf etdiyi bu keyfiyyətlər Azərbaycan Prezidentinin təvazökarlığını da bir daha sərgilədi. Hər birimiz dövlət rəhbərimizin nə qədər təvazökar, sadə, səmimi lider olduğunu, heç vaxt bəlağətli nitqlərlə özünü göstərməyə, ucuz şoularla imic formalaşdırmağa çalışmadı-

ğını, malik olduğu üstün keyfiyyətləri də nümayiş etdirməyə meyil etmədiyini gördük.

Vətən müharibəsi də göstərdi ki, Azərbaycan Prezidenti üçün ən uğurlu, özünə rəva gördüyü ən məqbul təqdimat tərzi real əməldir, özünü deyil, işini göstərməkdir, özünü müəllifi olduğu nailiyyətlərin kölgəsində saxlamağı bacarmaqdır.

Dövlət rəhbərimiz müstəsna liderlik keyfiyyətlərini qabarıq şəkildə büruzə verməyi sevən dövlət adamı deyil. Amma biz onun necə lider olduğunu Ali Baş Komandan kimi apardığı hərbi əməliyyatlarda, ordumuzun zəfərində, informasiya savaşındakı ardıcıl qələbələrində gördük, lider kimi onun misilsiz qabiliyyətlərini, uğurunu, böyüklüyünü xalqa yetirdiyi qələbə müjdələrində bütün ruhumuzla hiss etdik.

Xalq olaraq İlham Əliyevin timsalında daha da böyüdük, bütünləşdik, gücləndik...

## 32 ildir gözlənən Zəfər müjdəsi

Azərbaycan Prezidentinin Vətən müharibəsi gedişində xalqa bütün müraciətlərinin, sosial media platformalarındakı bütün paylaşımlarının, mediaya bütün müsahibələrinin hər birinin tarixdə öz yeri, öz rolu var. Onların hər biri təkrarolunmazdır, yaratdığı coşqu, bəxş etdiyi qürur hissi ilə misilsizdir.

Bununla belə, cənab İlham Əliyevin xalqa müraciətlərinin ən mühümü isə, heç şübhəsiz ki, 8 noyabrda Şəhidlər xiyabanında elan etdiyi Şuşanın azadlığı müjdəsi idi. Dövlət rəhbərimiz Azərbaycan naminə fəaliyyətində ən yaxın silahdaşı olan, daim yanında durub dəstəyini heç zaman əsirgəməyən, xalq arasında qazandığı böyük sevgi və rəğbətlə xalqın dövlətə inamını daha da artıran, milli birliyimizin möhkəmlənməsinə xidmət edən Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə əvvəl Fəxri xiyabana, Ulu öndər Heydər Əliyevin məzarını ziyarətə gəldi. Ata vəsiyyətinə əməl etdiyini məzarı başında onun səmalardan boylanan ruhuna yetirdi. Daha sonra isə Şəhidlər xiyabanından Şuşanın azadlığı xəbərini bütün dünyaya duyurdu.

9 noyabrdan 10 noyabra keçən gecə isə dövlət rəhbərimiz Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatması xəbərini, düşmənin kapitulyasiyaya imza atmasını xalqa elan etdi.




İlham Aliyev @azpresident · Oct 3

Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı.
Madagiz bizimdir.
#Qarabağ #Azərbaycandır!


İlham Aliyev @azpresident · Oct 3

2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır.
#Qarabağ #Azərbaycandır!


İlham Aliyev @azpresident · Oct 9

Bu gün Azərbaycan ordusu Hadrut qəsəbəsini, Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracalı, Əfəndilər, Süleymanlı, Sur kəndlərini işğaldan azad edib.
Eşq olsun Azərbaycan ordusuna!
#Qarabağ #Azərbaycandır!


İlham Aliyev @azpresident · Nov 8

ƏZİZ ŞUŞA, SƏN AZADSAN!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Qarabağ bizimdir!
#QARABAĞ #AZƏRBAYCANDIR!

Prezident İlham Əliyevin rəsmi twitter səhifəsindən

Bu, Azərbaycan tarixinin ən mühüm nailiyyətidir!

Düşmən ölkənin hökumət rəhbərinin təslimçilik aktını, İlham Əliyevin öz təbirincə desək, hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir şəraitdə qorxaqcasına imzalamasına nail olduq!

İlham Əliyev Azərbaycanın haqqını bütün dünyaya göstərdi. Qələbə təntənəsini yaşatdı, Azərbaycan xalqını tarixi qalibiyyətə çatdırdı. İlham Əliyevin Qələbə müraciətinin sonuncu cümləsi bitən kimi xalq artıq küçələrdə bu qələbəni bayram edirdi.

Həmin günlərdən yaddaşımızda bir xoş xatirə də var. Azərbaycanın bütün yaşayış məntəqələrinin küçələrindəki kiçikli-böyüklü bütün ictimai-iaşə məkanlarında televizorlar qoyulmuşdu, televizorun olmadığı yerlərdə də radiolar səslənirdi. Hamı bir-birinə müjdə verirdi ki, bir azdan Azərbaycan Prezidenti çıxış edəcək. Hamı dövlət rəhbərimizin çıxış edəcəyi anı intizarla gözləyirdi. İnsanların bir gözü televizorun ekranında, bir gözü twitterdə, qulağı radioda qalmışdı. Hamı gözləyirdi ki, görəsən, İlham Əliyev bu dəfə hansı müjdəni səsləndirəcək.

Hətta müraciətlər başa çatandan sonra da vətəndaşlarımız Azərbaycan Prezidentinin çıxışlarına dönə-dönə baxıb qulaq asırdılar. Kifayət qədər geniş, əhatəli olan, bəzən bir saata yaxın çəkən çıxışlara televiziyadan sonra Youtube kanalında, sosial şəbəkələrdə hətta 4–5 dəfə baxanlar, radioda dönə-dönə dinləyənlər olurdu. Çıxışların ayrı-ayrı fraqmentlərini sosial şəbəkə istifadəçiləri bir-biri ilə paylaşırdılar.

Xalqla sadə dildə, ürəkdən tikan çıxaran ifadələrlə danışan İlham Əliyevin "Nə oldu, Paşinyan?!", "Bəs Cəbrayıla yol çəkirdin?!", "Gorbagor oldu status" kimi qanadlı kəlmələri dildən-dilə dolaşırdı, xalqın qələbə əhvalını daha da yüksəldirdi.

Bu çıxışlar, ifadələr illərdir belə qələbə müjdələrinin tamarzısı olmuş xalqımız üçün mənəvi qida, güc mənbəyi idi!

Noyabrın 10-dan sonra Azərbaycan Prezidentinin xalqa daha 3 müraciəti oldu, dövlət rəhbərimiz yeni qələbə müjdələrini yetirdi. Artıq bu, dövlət rəhbərimizin diplomatik savaşının qələbəsi idi. İlham Əliyev bir güllə belə atmadan, bir şəhid vermədən, heç bir hərbçimizə sədəmə toxunmadan Ağdamı, Kəlbəcəri, Laçını işğaldan azad etdi.

Dekabrın 1-də Laçının azad olunması münasibətilə xalqa müraciətində Azərbaycan Prezidenti deyirdi: "Mən artıq bu mövzu ilə bağlı müraciətlərimi yekunlaşdırıram. Əminəm, bundan sonra, əlbəttə ki, bir çox hallarda doğma xalqıma öz sözlərimi deyəcəyəm. Amma bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"





Bu, Qələbə müjdələrinə qoyulan nida idi.

## "İlham Əliyev" yazılır, "Zəfər" oxunur

İlham Əliyev və Qələbə...

İlham Əliyev və Zəfər...

Bunlar həmişə bir-birini tamamlayan məfhumlardır. Harada İlham Əliyev varsa, orada Zəfər var, Azərbaycan naminə harada Zəfər varsa, orada İlham Əliyevin imzası var.

Necə deyərlər, "İlham Əliyev" yazılanda "Zəfər" oxunur, "Zəfər" yazılanda İlham Əliyevin imzası görünür!

Azərbaycan Prezidenti unudulmaz qəhrəmanlıq dastanına dönmüş 44 günlük Vətən müharibəsinin hər günündə xalqımıza qələbə yaşatdı. Bu 44 günün hər birində bizə qələbə müjdələri yetirdi və bu müjdələr Vətən müharibəsindəki qələbədən sonra da davam etməkdədir.

İlham Əliyev yenə öz qələbələrinin xoş soraqlarını gətirir. Bu dəfə Qarabağa müntəzəm səfərlərindən, onu müşayiət edən Mehriban xanımın bu səfərlərdə bir telefon kamerası ilə çəkib paylaşdığı qısa videolardan...

Azərbaycan Prezidenti yenə qələbə xəbərləri verir. Azad Qarabağın dirçəlişi tədbirləri ilə... Düşməndən təmizlənmiş yurd yerlərimizdə çəkilən yollarla, enerji-kommunikasiya xətləri ilə, salınan ağıllı şəhər və kəndlərlə... Bərpa edilən tarixi abidələrimizlə, Şuşadan, Cıdır düzündən səmalara havalanan musiqi, şeir, nəğmə səsi ilə... Milli birliyimizin rəmzi olan mədəniyyətimizin sədası ilə, daha da qüdrətlənən ordumuz, güclənən iqtisadiyyatımız, Azərbaycandan, Qarabağdan dünyaya açılan qapılarla...

Bunlar daha uzunmüddətli qələbələrimizin müjdəsidir.

# AZƏRBAYCAN TƏRƏFİNDƏN ERMƏNİSTANIN KAPİTULYASİYASI: 10 NOYABR BƏYANATI

Vətən müharibəsində noyabrın 8-i və 9-da ordumuz mühüm mədəniyyət mərkəzini – Şuşanı və 72 yaşayış məntəqəsini azad edərək növbəti şanlı qələbəsini qazandı, düşmənin belini tamamilə qırdı və Ermənistan mahiyyətcə kapitulyasiyaya uğrayaraq üçtərəfli bəyanatı imzalamalı oldu. Bəyanatı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan imzalamışdır. Qeyd edək ki, bəyanat ilk mərhələdə videokonfrans vasitəsilə imzalanmalı idi. Ancaq son anda Ermənistan Baş naziri bundan imtina etmişdir, çünki bəyanat, faktiki olaraq, Ermənistanın hərbi kapitulyasiyası demək olduğundan Paşinyan onu açıq şəkildə, insanların gözü qarşısında imzalamaqdan qorxmuş, onu qapalı bir yerdə icra etmişdir. Bəyanatı əvvəlcə İlham Əliyev imzalamış, sonra Rusiya səfirinə təqdim edilmiş, Rusiya Prezidenti və Ermənistan Baş naziri imzalamışdır.[59]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu bəyanata aparan yoldan bəhs edərkən demişdir: "Uzun illər nə qədər düşünülmüş siyasət aparmışıq. Bir çox hallarda bu siyasətin əlamətlərini ictimaiyyətə təqdim edə bilmirdik. Çünki, sadəcə olaraq, bu, konfidensial məlumat idi və bizim planlarımızın reallaşmasına müdaxilə edilə bilərdi. Amma çox dəqiq, məqsədəuyğun, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi – torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm də danışıqlar masasında və razılaşma yolu ilə".[60]

Bəyanatın birinci maddəsində 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunurdu.

2-ci maddəyə görə, 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonunun işğal altında olan bütöv ərazisi Azərbaycan Respublikasına qaytarılırdı.

[59] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti. 10.11.2021//"Azərbaycan" q., 11 noyabr 2020-ci il

[60] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Laçın rayonunun Azərbaycana qaytarılması münasibətilə xalqa müraciəti. 01.12.2020// "Azərbaycan" q., 2 dekabr 2020-ci il





3-cü maddədə göstərilirdi ki, Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 38 ədəd avtomobil və xüsusi texnikasından ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4-cü maddədə göstərilirdi ki, RF-nin sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Bu sülhməramlı kontingentin qalma müddəti 5 il müəyyənləşdirilmiş, bu müddətin bitməsinə 6 ay qalmış, tərəflərdən biri bu müddəaya xitam verilməsi niyyətini bəyan etməzsə, sülhməramlı kontingentin qalma müddəti avtomatik olaraq 5 illik müddətə uzadılacaq.

5-ci maddəyə görə, tərəflərin razılaşmaya əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılmalı idi. Bəyanat imzalananda sülhməramlı mərkəzlə bağlı o qədər geniş açıqlama olmasa da, artıq tərəflər arasında razılıq əldə olunmuşdu ki, bu mərkəz Türkiyə-Rusiya mərkəzi olacaqdır.[61]

6-cı maddədə Ermənistan Respublikasının üzərinə təəhhüd qoyulurdu ki, 15 noyabr 2020-ci ilədək Kəlbəcər rayonu, 1 dekabr 2020-ci ilədək isə Laçın rayonu Azərbaycan Respublikasına qaytarılmalı idi. Eyni zamanda qeyd olunurdu ki, Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və Şuşa şəhərinə toxunmayacaq 5 km enində Laçın dəhlizi Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.[62]

Qeyd edək ki, Ermənistan tərəfi Rusiya tərəfinə müraciət edərək Kəlbəcər rayonunun boşaldılması üçün bir qədər vaxt istəmişdi. Bu həmin rayonun dağlıq relyefi ilə bağlı hərbi texnikanın və canlı qüvvənin evakuasiyasında yaranan çətinliklərlə bağlı idi. Azərbaycan tərəfi buna anlayış göstərərək güzəştə getmiş və Kəlbəcər rayonu üçtərəfli bəyanatda göstərildiyi kimi, noyabrın 15-də deyil, 25-də qaytarılmışdır.[63]

Laçın rayonunun böyük hissəsi 2020-ci il dekabrın 1-də Azərbaycan Respublikasına qaytarılsa da, Laçın şəhərinin özü 5 km enliyində Laçın dəhlizi ilə birlikdə Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalmışdır. Burada qeyd etmək yerinə düşər ki, üçtərəfli bəyanatın ilkin variantında

[61] http /www.aztv. az. news president. Prezident İlham Əliyevin 1 dekabr 2020-ci il tarıxdə xalqa müraciəti

[62] "Azərbaycan" q., 11 noyabr 2020-ci il; Zəfər salnaməsi, s. 395

[63] Azərbaycan Respublikasının Prezidentı İlham Əliyevin xalqa müraciəti. 25.11.2020// https//president az./articles 47778

Laçın dəhlizinin eni, nə az, nə çox, 30 kilometr nəzərdə tutulmuşdu. Prezident İlham Əliyevin qətiyyətli mövqeyi sayəsində bu rəqəm əvvəlcə 10 kilometrə, daha sonra isə 5 kilometrə salındı. Həm də ilkin variantda dəhlizin erməni silahlı qüvvələrinin nəzarəti altında qalması nəzərdə tutulmuşdu ki, Prezident İlham Əliyev bunun bəyanatdan çıxarılmasına nail olmuşdu.

Tərəflərin razılığı əsasında növbəti üç il müddətində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Burada söhbət ondan gedir ki, Laçın şəhəri dəhlizin ortasında qalırdı. Lakin Prezident İlham Əliyev Laçın dəhlizi üçün yeni hərəkət marşrutunun müəyyənləşdirilməsi haqqında müddəanı bəyanata saldırmaqla yaxın gələcəkdə Laçın şəhərinin Azərbaycana qaytarılması məsələsini dəqiqləşdirdi. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.[64]

Bəyanatın 7-ci maddəsində nəzərdə tutulurdu ki, məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.[65]

8-ci maddə hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsini nəzərdə tuturdu.[66]

9-cu maddə bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tuturdu. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə zəmanət verirdi. Nəqliyyat əlaqəsi üzrə nəzarət Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin orqanları tərəfindən həyata keçirilməlidir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən kommunikasiyaların inkişafı təmin ediləcəkdir.[67]

---

[64] "Azərbaycan" q., 11 noyabr 2020-ci il; Zəfər salnaməsi. Bakı. 2010, s. 395; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti. 1 dekabr 2020-ci il. // https://president.az./articles./48205

[65] "Azərbaycan" q., 11 noyabr 2020-ci il; Zəfər salnaməsi. s. 395–396

[66] "Azərbaycan" q., 11 noyabr 2020-ci il; Zəfər salnaməsi, s. 396

[67] Yenə orada





Üçtərəfli bəyanatın imzalanması. 10 noyabr 2020-ci il

9-cu bənd üçtərəfli bəyanata Prezident İlham Əliyevin təkidi ilə salınmışdı. Uzun illər müzakirə olunan sülh planında qeyd olunurdu ki, bütün kommunikasiyalar açılacaq, lakin Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1 dekabr 2020-ci il tarixində xalqa müraciətində bu müddəanın əhəmiyyətindən bəhs edərək demişdir: "...bu nə deməkdir? O deməkdir ki, əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq, Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir. Azərbaycan Türkiyə ilə birləşir".[68]

Beləliklə, üçtərəfli bəyanat uzun illər davam edən işğala son qoyaraq imkan verdi ki, hələ də işğal altında olan digər rayonlar – Ağdam, Kəlbəcər və Laçın qan tökülmədən geri qaytarılsın. Üçtərəfli bəyanatın bağlanması münasibətilə xalqa müraciətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyi məqsədilə atəşkəsə nəzarət üzrə yaradılan sülhməramlı

---

[68] Prezident İlham Əliyevin xalqa müraciəti. 01.12.2020. // "Azərbaycan" q., 2 dekabr 2020-ci il

mərkəzdə Rusiya və Türkiyə hərbçilərinin fəaliyyət göstərəcəyini bəyan etdi.[69]

Üçtərəfli bəyanat İkinci Qarabağ müharibəsində Azərbaycanın parlaq hərbi və diplomatik qələbəsini rəsmiləşdirdi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşdu. Azərbaycan ərazi bütövlüyünü, suverenliyini, dövlət sərhədlərini tam bərpa etdi və bununla da Qarabağın Azərbaycana məxsus olması haqqında tarixi, hüquqi, siyasi həqiqət de-fakto və de-yure təsdiqini tapdı. Azərbaycan Ermənistanı həm döyüş meydanında, həm də informasiya müharibəsində diz çökdürərək möhtəşəm tarixi və şanlı zəfərə imza atdı.

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında 2021-ci il sentyabrın 23-də videokonfrans formatında çıxışı zamanı demişdir: "Azərbaycan BMT Təhlükəsizlik Şurasının ... qətnamələrinin icrasını özü təmin etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır.

Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı".[70]

Prezident İlham Əliyevin vurğuladığı kimi, 10 noyabr bəyanatı mahiyyətcə sülh müqaviləsidir, çünki bir tərəf digərini məğlub edib, digəri də kapitulyasiya aktını imzalayıb.[71]

Rusiya Federasiyasının xarici işlər naziri S.Lavrov Bakıda, 2020-ci ilin noyabrında mətbuat qarşısında çıxışında 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın əhəmiyyətinə dair suala cavab verərkən demişdir: "Bu sənəd təxminən 30 il ərzində dondurulmuş münaqişədən sonra bu regionda, nəhayət ki, sülhün bərqərar olması üçün əsasdır. Sənəd bu regionun həm azərbaycanlı, həm də erməni əhalisinin mənafelərinə tamamilə uyğundur və buna yönəlib ki, hazırda yaranmış real şərtlər gerçəkləşsin, bu şərtlərin reallaşması həmişə burada yaşamış insanların yenidən birgə yaşamalarına, etnik mənşəyindən, dini əqidələrindən asılı olmayaraq, sülh və

[69] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti. 10.11.2020// Zəfər salnaməsi, s. 403

[70] BMT Baş Assambleyasının 76-cı sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı//"Azərbaycan"q., 21 sentyabr 2021-ci il

[71] https://ordu.az.news.azerbaycan. 16.02.2021





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edərkən.
10 noyabr 2020-ci il

təhlükəsizlik şəraitində yanaşı yaşamalarına imkan verəcək. Ən başlıcası budur".[72]

Azərbaycan Ordusu çətinlik çəkmədən Xankəndiyə daxil ola bilərdi. Lakin relyefinə görə Kəlbəcər və Laçın rayonlarını, habelə ermənilərin on illərlə istehkamlar qurduğu Ağdam rayonunu işğaldan azad etmək üçün hələ nə qədər şəhid vermək lazım gələcəkdi. Üçtərəfli bəyanat həmin rayonların itkisiz qaytarılmasına imkan verdi. Digər tərəfdən Ermənistan rəhbərliyi və dünya erməni lobbisinin guya ikinci erməni soyqırımı keçiriləcəyi haqqında iddialarının əsassızlığı sübuta yetirildi.

Prezident İlham Əliyev Laçın rayonunun Azərbaycana qaytarılması ilə bağlı 1 dekabr 2020-ci ildə xalqa etdiyi müraciətində demişdir: "Biz müharibə zamanı təqribən 5 min kvadrat kilometrə yaxın ərazini döyüş meydanında azad etdik. Eyni zamanda təxminən bir o qədər – 5 min kvadrat kilometr ərazini artıq sülh yolu ilə qaytardıq. Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki kapitulyasiya aktına imza atacaqdı".

[72] Rusiyanın xarici işlər naziri Bakıda mətbuat qarşısında çıxış edib və jurnalistlərin suallarını cavablandırıb// "Azərbaycan" q., 22 noyabr 2020-ci il

Adı çəkilən müraciətdə 10 noyabr bəyanatının tarixi əhəmiyyətinə toxunan Prezident demişdir: "...bizim qələbəmiz tarixi qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik".[73]

Prezident İlham Əliyev Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış münaqişənin gedişində blokadaya salınmış Naxçıvana gedən yolun tikintisinə dair maddənin üçtərəfli bəyanata daxil edilməsinə nail olmaqla həm bu regionun problemini həll edən, həm də bütövlükdə daha genişmiqyaslı geoiqtisadi layihənin icrasına imkan yaratmış zəmanəmizin görkəmli strateji, dövlət və siyasi xadimidir. Həmin maddədə nəzərdə tutulanların yerinə yetirilməsi ilə Naxçıvanın blokadasına son qoyulacaq, İğdır–Naxçıvan dəmir yolunun tikintisi ilə Azərbaycan Türkiyə üzərindən Avropaya, eyni zamanda Fars körfəzinə çıxa biləcək, Naxçıvan dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzinə çevriləcək, Türkiyənin türk dünyası ilə quru əlaqəsi qurulacaq. Bu yol Rusiyaya Azərbaycan və Türkiyə üzərindən Avropaya çıxmağa imkan verəcək, beləliklə, regionda iqtisadi əməkdaşlıq canlanacaq.[74]

44 günlük müharibə nəticəsində Azərbaycan, hər şeydən əvvəl, BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirərək BMT-nin nüfuzunu, ona olan inamı qismən bərpa etdi.

Prezident İlham Əliyev təkcə hərb meydanında deyil, diplomatik-siyasi sahədə də ustalıqla və böyük məharətlə qələbə qazanaraq zəmanəmizin görkəmli diplomatı olduğunu təsdiq etdi. Azərbaycan dövləti uzun illər apardığı gərgin iş və yürütdüyü siyasət ilə əlverişli şərait yaratmağa nail oldu.[75]

Təəssüf ki, 10 noyabr bəyanatından sonra da Ermənistanın havadarları özlərinə xas olan tərzdə xain, heç bir məntiqə, haqqa, ədalətə sığmayan yanlış əməllərini davam etdirirdilər. 2020-ci il noyabrın 25-də Fransa Senatı tərəfindən qondarma "Dağlıq Qarabağ Respublikası" haqqında qərəzli qətnamənin qəbulu və dekabrın 3-də Fransa Parlamentinin aşağı palatası olan

[73] Rusiyanın xarici işlər naziri Bakıda mətbuat qarşısında çıxış edib və jurnalistlərin suallarını cavablandırıb// "Azərbaycan" q., 22 noyabr 2020-ci il, s. 2

[74] Qasımlı M. İlham Əliyevin zəfəri (Bu möhtəşəm qələbə bütün dünya üçün əhəmiyyətlidir. // "Azərbaycan" q., 5 dekabr 2020-ci il

[75] "Azərbaycan" q., 5 dekabr 2020-ci il





Milli Assambleyada "Dağlıq Qarabağ"ın müstəqilliyinin təcili tanınması zərurəti ilə bağlı qərar qəbul edilməsinin heç bir hüquqi əsası yox idi. "Sadəcə, kağız parçası olan və heç bir əhəmiyyət kəsb etməyən bu qərəzli qətnamənin qəbulu" Fransa iqtidarının siyasi, tarixi, hüquqi savadsızlığını, beynəlxalq hüququ gözardı edərək erməni lobbisinin əlində oyuncağa çevrilməsinin göstəricisi idi.[76]

Azərbaycan Respublikasının Milli Məclisi Fransa Senatının məlum qətnaməni qəbul etməsi ilə əlaqədar bəyanat yaymışdır. Bəyanatda qeyd olunurdu ki, "Dağlıq Qarabağ Respublikası" adlı oyuncaq qurumun mövcudluğuna 2020-ci ilin noyabrında son qoyulduğundan Fransa Senatı tərəfindən bu oyuncaq qurumun tanınması zərurətinin irəli sürülməsi Fransa hökumətini beynəlxalq hüququn əsas norma və prinsiplərini pozmağa təhrik etmək cəhdidir və Fransa Senatının bu addımı Avropa İttifaqının xarici və təhlükəsizlik siyasəti üzrə qlobal strategiyası, o cümlədən Avropa İttifaqı Şurasının dövlətlərin ərazi bütövlüyü barədə 2016-cı ildən bəri qəbul etdiyi sənədlər çərçivəsində Fransa Respublikasının üzərinə götürdüyü öhdəliklərlə bir araya sığmır.[77]

2021-ci il sentyabrın 27-də Vətən müharibəsinin başlanmasının birinci ildönümü günündə xalqa müraciətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Azərbaycan öz ərazi bütövlüyünu bərpa etdi. Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı. Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox!"[78]

[76] Hacıyev Ş. İlham Əliyevin dəmir yumruğu tarixi ədaləti bərpa etdi. Siyasi nüfuzunu itirən Fransa Senatının qondarma qətnaməsi isə adi bir kağız parçasıdır. // "Azərbaycan" q., 8 dekabr 2020-ci il

[77] Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı. 26 noyabr 2020-ci il// "Azərbaycan" q., 27 noyabr 2020-ci il

[78] İlham Əliyev. "Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq". Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım günü ilə əlaqədar xalqa müraciəti. 27.09.2021// "Azərbaycan" q., 28 sentyabr 2021-ci il

AZƏRBAYCAN CƏMİYYƏTİNİN
QƏLƏBƏ NAMİNƏ
BİRLİYİNİN TƏMİN EDİLMƏSİ

# V
FƏSİL



## ÜMUMMİLLİ TƏNTƏNƏ –
## ZƏFƏR PARADI

# PREZİDENT, XALQ, ORDU VƏ SİYASİ PARTİYALARIN BİRLİYİNİN TƏMİN EDİLMƏSİ

Ulu öndər Heydər Əliyev tərəfindən başladılan quruculuq, tərəqqi, beynəlxalq birliklə yaxınlaşma, ümummilli hədəflər naminə cəmiyyətin bütün sosial və siyasi kəsimlərini əhatə edən milli həmrəylik, həyatın bütün sferalarını əhatə edən reform kursu onun siyasi varisi, 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev tərəfindən uğurla davam etdirildi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin", – sözləri ilə bütün ölkə vətəndaşları, dünya azərbaycanlıları qarışısında həyata keçirilməsinin o qədər də asan olmadığı vədlərinin, məsuliyyət və cavabdehliyinin təminatını verirdi. Prezident İlham Əliyev qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunması üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və "güclü dövlət" konsepsiyasını reallaşdırmağa nail oldu. Azərbaycanın bütün regionlarının inkişafına istiqamətlənmiş sosial-iqtisadi inkişaf proqramlarında yer almış bir sıra bəndlər – yeni səhiyyə müəssisələrinin tikintisi, köhnələrin əsaslı bərpa edilməsi və müasir avadanlıqla təmini, yeni yaradılan müdafiə sənayesi obyektləri, hərbi hissələr, tikilən hərbi zavodlar və müharibəyə hazırlıqla bağlı digər məqamlar Azərbaycan dövlətinin işğalla barışmayacağını və lazım gəldiyi vaxtda müharibə yolu ilə bu əraziləri azad etməyə hazırlaşdığını təsdiq edirdi.

Hakimiyyətdə olduğu dövr ərzində Prezident İlham Əliyev xalq qarşısında götürdüyü öhdəliyə, verdiyi sözə sadiq qalmış, ölkənin dini, milli, sosial və siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşının Prezidenti olduğunu real fəaliyyətlə göstərmiş, bu gün də bu xəttə sədaqətini nümayiş etdirməkdədir.

Ölkə rəhbərinin ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da öz çağırışları, bəyanatları ilə hər bir cəmiyyət üzvünü, hər bir vətəndaşı qələbə ətrafında birləşdirirdi.

Vətən müharibəsində qalibiyyət İlham Əliyev və milli həmrəyliyin gücü, təntənəsi idi. Bu Zəfər Müzəffər Ali Baş Komandan-ordu-xalq birliyinin

üçrəngli bayraq altında dəmir yumruq kimi birləşən düşüncəsinin məntiqi yekunu idi. Ali Baş Komandanın çıxış və müraciətlərindən güc alan, ön və arxa cəbhənin birliyindən ilhamlanan ordumuz tariximizin yeni və parlaq səhifəsini yazırdı. Azərbaycan əsgəri öz ləyaqət və şərəfi ilə qələbəyə çatırdı. Ölkə başçısının səmimi, vətənpərvərlik hissi ilə köklənmiş nitqi, qətiyyətli və inamlı qərarları ordunu qələbədən-qələbəyə aparırdı. Bu idi gerçək komandanlıq, bu idi əsl sərkərdəlik. Ordu da, xalq da vahid bir vücud olaraq yeni tarixin yazılmasında öz Sərkərdəsinə inanaraq Zəfərə əmin addımlarla yürüyürdü. Ali Baş Komandanın mübariz ruhlu müraciətləri, polad iradəli duruşu, zərgər dəqiqliyi ilə düşünülmüş hərbi strategiyası Qarabağı azadlığına qovuşdururdu. Prezident gücünü xalqdan, xalq isə gücünü Prezidentindən alırdı.

Vətən müharibəsində bütün dünya Azərbaycan xalqının əzmini, ordumuzun rəşadətini, qəhrəman əsgərlərimizin vətənpərvərliyini heyranlıqla seyr etdi. "Ali Baş Komandanın bircə əmrinə müntəzirik", – deyən cəsur əsgər və zabitlərimiz döyüş meydanında tarixdə bənzərinə az rast gəlinən Qəhrəmanlıq Salnaməsi yazdılar.

## İkinci Qarabağ müharibəsinin sosial media cəbhəsi

44 günlük Vətən savaşı Prezident İlham Əliyevin müharibənin informasiya sahəsində də necə yüksək intellektə, heyrətamiz zəkaya, dərin tarixi biliyə malik olduğunu bütün dünyaya nümayiş etdirdi. Dünyanın 30-a yaxın aparıcı mətbuat orqanına verdiyi müsahibələrində özünün tutarlı, cəsarətli və məntiqli cavabları ilə dünya ictimaiyyətinə Ermənistanın illərdir davam edən təcavüzü, törətdiyi təxribatları haqqında geniş və hərtərəfli məlumatlar verməklə, düşmənə bu istiqamətdə də böyük zərbə endirdi. Bir çox xarici jurnalistin təxribat xarakterli, əsəbləri tarıma çəkən suallarına təmkinli, soyuqqanlı və təkzibolunmaz faktlarla cavab verməsi onun dünyanın ən böyük siyasi fiqurlarından, qəbul edilən dövlət xadimlərindən biri olduğunu sübut etdi.

Hərbi əməliyyatların başladığı ilk vaxtlardan etibarən dünyanın aparıcı və nüfuzlu media qurumları məsələyə kifayət qədər maraq göstərməyə, öz səhifələrində gündəlik şərhlər və analizlər aparmaqla onu işıqlandırmağa başladılar. Çox təəssüf ki, biz bir çox hallarda hadisələrə qərəzli, subyektiv





Prezident İlham Əliyevin xalq ilə qələbə sevinci. 16 noyabr 2020-ci il

baxış, münaqişənin tarixi köklərinin qeyri-obyektiv işıqlandırılması kimi ədalətsiz və hətta təxribat xarakterli yanaşmaların şahidi olurduq. Cənab Prezident də 24 sentyabr 2021-ci il tarixində Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsində bununla bağlı vurğulayırdı: "Döyüş əməliyyatlarının ilk günlərindən dünya mediasında – həm Rusiya, həm Qərb mediasında, həm də qonşu ölkələrdə bu münaqişəyə maraq yüksək idi. Mən bütün müraciətlərə cavab verməyə razılaşırdım, çünki vəziyyət barədə həqiqəti – nələr baş verdiyini, münaqişənin səbəblərinin nədən ibarət olduğunu, kimin işğalçı və kimin işğal qurbanı olduğu barədə həqiqəti mümkün qədər çox ölkənin ictimaiyyətinin diqqətinə çatdırmağı vacib hesab edirdim. Ona görə ki bir sıra ölkələrdə yetərincə effektiv olan erməni təbliğatı və erməni diaspor təşkilatları onilliklər ərzində bu münaqişə barədə yalan təsəvvür yaradırdılar. Hətta hərbi əməliyyatların başlanğıcına və bəzi ölkələr tərəfindən qəbul edilmiş qərarlara nəzər salsaq, onlar, sadəcə, heç bir məntiqə uyğun gəlmir". Prezidentin bu fikirləri də dövlətimizin hansı media gücləri ilə qarşı-qarşıya olduğunu, necə böyük maraqlarla mübarizə apardığını təsdiq edirdi. İllərlə formalaşmış erməni yalanlarına, "məzlum və acılar çəkmiş toplum" düşüncəsinə, saxtalaşdırılmış tarixə qarşı mübarizə aparmağın nə qədər çətin və bir o qədər də böyük peşəkarlıq tələb etdiyini geniş izah etməyə ehtiyac qalmır.

Tarix bizə müharibələrin informasiya cəbhəsinin əldə edilən qələbədə nə dərəcədə əhəmiyyətli olduğunu dəfələrlə sübut edib. Texnologiyanın ən yüksək inkişaf etdiyi çağdaş dövrümüzdə bu qiymətli resursdan daha səmərəli, ağıllı, düşünülmüş şəkildə istifadə edilməsinin qazanılacaq qələbədə son dərəcə həlledici olacağı danılmaz bir gerçəklik idi. İnformasiya savaşında xalqımızın, demək olar ki, hər bir fərdinin ortaya qoyacağı mövqe, öz güc və imkanları çərçivəsində həyata keçirəcəkləri fəaliyyət erməni cəfəngiyyatının ifşasına çox böyük töhfə vermiş olacaqdı. Necə ki istər ölkə daxilində, istərsə də dünyanın fərqli məkanlarında məskunlaşmış həmvətənlərimizin bu sahədə düşmənin yalan, böhtan, təxribat xarakterli fəaliyyətinin qarşısının alınmasında, eyni zamanda dəqiq, həqiqətə söykənən və gerçəkləri özündə əks etdirən məlumatların yayılmasında göstərdikləri yüksək intellekt, nümayiş etdirdikləri mobillik, tutarlı və tarixi ədalətə söykənən məlumatları çatdırma üstünlükləri informasiya müharibəsində də düşmənə sarsıdıcı zərbənin vurulmasına səbəb oldu. Bu platformada da Azərbaycan gənclərinin ortaya qoyduqları nəticə cənab Prezidentin "biz





neft kapitalını insan kapitalına çevirəcəyik" fikrinin nə qədər real və əhəmiyyətli olduğunu ortaya qoydu. Düşmən sosial media cəbhəsində də gözləmədiyi ağır zərbə almış, xalqımızın birlik və bərabərliyindən doğan böyük gücün qarşısında çarəsiz vəziyyətə düşmüşdür.

Müharibənin başladığı ilk anlardan ölkə daxilində bir çox sahələr və istiqamətlər üzrə atılan addımlar, verilən qərarlar kifayət qədər vacib, əhəmiyyətli idi. Belə ki 44 günlük savaş dövründə bu qərarların nə qədər yerində və doğru verildiyinin şahidi olduq.

27 sentyabr səhər saatlarında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən Ermənistanın törədə biləcəyi təxribatların qarşısını almaq üçün ölkə üzrə internetin verilişində bir sıra məhdudiyyətlər tətbiq olunmuşdur. Həmçinin Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə yaşayan azərbaycanlılara müraciət edərək, sosial şəbəkədə, elektron media və digər kütləvi informasiya vasitələrində rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırdı. Hərbi vəziyyətlə əlaqədar Milli Məclisdə keçirilən iclasda 28 sentyabr saat 00:00-dan etibarən Bakı, Gəncə, Göygöl, Yevlax və bir sıra rayonlarda komendant saatının tətbiq olunması düşmənin gözlənilən istənilən təxribatına qarşı qabaqlayıcı tədbirlərin görülməsi baxımından son dərəcə vacib və əhəmiyyətli idi. Həmçinin Azərbaycan Hava Yollarının mətbuat xidməti 30 sentyabr tarixinədək Azərbaycan Respublikasının bütün hava limanlarının müntəzəm sərnişin reysləri üçün bağlanacağını açıqladı.

## Bütün xalq vahid və bölünməz Vətən uğrunda "Dəmir yumruq" oldu

Vətən müharibəsinin başladığı ilk gün – sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Dövlət başçısı iclasda çıxış edərək vurğuladı: "Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır". Bu çıxış döyüşlərin getdiyi dövrdə ölkənin bütün regionlarının dövlətə, dövlət başçısına, orduya göstərdiyi dəstəkdə, yaranmış ümumxalq həmrəyliyində özünü aydın göstərdi.

Vətən savaşında respublikamızın bütün bölgələrinin milli, dini, etnik mənsubiyyətindən asılı olmayaraq, üçrəngli bayraq altında bir yumruqda birləşməsi illərdir uzaqgörənliklə düşünülmüş strateji yanaşmanın məntiqi bəhrəsi kimi qəbul oluna bilər. Ölkəmizdə yaşayan bütün xalqları, etnik qrupları, bütün fərqli inancları birləşdirən bir amal vardı – vahid və bölünməz Vətən. Biz istər şəhid, istərsə də qazi olanlar içərisində azərbaycanlılarla yanaşı, ləzgi, talış, yəhudi, rus, avar və s. xalqların nümayəndələrinin olduğunu gördük. Düşmənin ənənəvi daxili parçalanmaya, etnik ayrımçılığa, milli ayrı-seçkiliyə yönəlik bütün cəhdləri, təxribat xarakterli təbliğatları iflasa uğradı. Azərbaycan adlı vahid bir vücudda birləşən bütün ölkə vətəndaşları bu istiqamətdə də düşmənin arzusunu gözündə qoydu, cəbhədə, döyüş meydanında erməni məkrinin cavabını verdi. Düşmənə qarşı müqəddəs Vətən savaşında insanları qələbədən-qələbəyə aparan, onları böyük Zəfərə inandıran və ruhlandıran da məhz bu birlik, qardaşlıq və ümumvətən anlayışı idi. Bu birlik, həmrəylik, Ali Baş Komandana olan inam müharibə dövründə Prezidentə ünvanlanmış saysız məktub və müraciətlərdə bir daha görünürdü.

Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyə vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə ünvanlanan minnətdarlıq məktublarında Qarabağ müharibəsində qazandığımız tarixi Qələbənin böyük sevinc və qürur hissi ilə qarşılandığı qeyd edilirdi. Onlar dövlətimizin başçısına minnətdarlıqlarını bildirir, Zəfər təbriklərini çatdırırdılar. "Cənab Prezident, məğrur duruşunuz, qətiyyətli mövqeyiniz, düşmənə tutarlı cavablarınız bizi çox qürurlandırır. Siz tariximizdə yeni bir şanlı səhifəni qızıl hərflərlə yazdınız və insanların qəlbində ömürlük məskən saldınız, yeni qəhrəmanlıq salnaməsi yaratdınız. Fəxr edirik ki, Sizin kimi xalqını, Vətənini sevən və qoruyan Ali Baş Komandanımız, dünyaya öz sözünü deyən Prezidentimiz var".

Müzəffər Ali Baş Komandan 10 noyabr 2020-ci il tarixində xalqa müraciətində bir daha Vətən müharibəsi dövründə ölkə daxilində yaranmış milli və dini birliyi xüsusi qeyd edərək vurğulayırdı: "Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi. Bütün bölgələrdə hər bir vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya qarşısında, radio başında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinib. Bütün bölgələrdə biz bunu gördük. Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün





dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur, çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, etnik təmizləməyə məruz qoyurlar, azərbaycanlılara qarşı etdikləri kimi, ya da ki başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar. Amma bizim üstünlüyümüz bax bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir".

Vətən savaşı dövründə ölkəmizdə mövcud olan dini icmalar və onların rəhbərlərinin Prezidentə, Azərbaycan Silahlı Qüvvələrinə verdikləri dəstək, sərgilədikləri mövqe beynəlxalq aləmdə erməni yalanlarının, dövlətimiz haqqında mənfi rəy yarada biləcək böhtan təbliğatının ifşa edilməsində müstəsna əhəmiyyət kəsb etdi. Bu baxımdan 6 noyabr 2020-ci il tarixində Amerikanın dünyaca məşhur "Newsweek" nəşrində Azərbaycanın dini liderlərinin məqaləsinin dərc edilməsini xüsusi qeyd etmək olar.

Azərbaycan aşkenazi yəhudilərinin baş ravvini Şneor Seqal, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr ata və Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadənin imzası ilə "Qarabağın gələcəyi naminə bir məsləkdəyik" sərlövhəli məqalədə müəlliflər – Azərbaycanın yəhudi, xristian pravoslav və müsəlman icmalarının liderləri dünya KİV-lərində yayılmış, ölkəmizin qoşulduğu "müqəddəs müharibə"də xristianların guya təhlükədə olması barədə xəbərlərə münasibət bildirməyi qərara aldıqlarını vurğulayırdılar. Məqalədə qeyd edilirdi: "Ermənistan ilə Azərbaycan arasında münaqişənin eskalasiyası bütün dünyanın gözü qarşısında baş verir. Başqalarının istəyindən asılı olmayaraq bu münaqişə heç də dini xarakter daşımır və Azərbaycan "işğalçı müsəlman" rolu oynamır. Azərbaycanın monokonfessional, monoetnik mühitində aşkenazi yəhudiləri icması, unikal dağ yəhudiləri icması, katolik və pravoslav xristianlar, habelə erməni kilsəsi rahat fəaliyyət göstərir. Hətta Azərbaycanda islam dininə etiqad edənlər də eyni məzhəbə aid deyil. Bizim vətəndaşlar arasında sünnilər də var, şiələr də".

Müəlliflər daha sonra yazırlar: "Gəncə şəhəri raketlərlə atəşə tutulanda aşkenazi yəhudilərinin baş ravvini həmin şəhərə gedib, oradakı yəhudi ailələri ilə birlikdə dua edib. Arxiyepiskop Azərbaycan Silahlı Qüvvələrində könüllü xidmət edən gənc xristian əsgərin dəfn mərasimini təşkil edib. Müfti yaxınlarını itirmiş çoxsaylı müsəlman ailələrinə təsəlli verib. Biz görüşərək birgə dua etmişik. Din adamları kimi bizim borcumuz xalqlarımızın hansı konkret dinə etiqad bəsləməsindən asılı olmayaraq onların yanında olmaqdır".

Ölkəmizdə mövcud dini, milli monolitliyin digər bir nümunəsi kimi, 23 noyabr 2020-ci il tarixində Azərbaycan rus icmasından Vətən müharibəsində qazanılmış böyük Zəfər münasibətilə Prezidentə ünvanlanmış təbrik məktubunu göstərə bilərik. Məktubda deyilirdi: "Möhtərəm cənab Prezident, Ali Baş Komandan İlham Heydər oğlu! İcazə verin, Azərbaycanın Rus İcması adından Sizi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı bütün Azərbaycan xalqının düşməni üzərində birmənalı, möhtəşəm Qələbəsi münasibətilə təbrik edək. Ermənistan Respublikasının işğalçı qüvvələri darmadağın edildi və geri çəkildi. Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin, Rusiya Federasiyası Prezidentinin üçtərəfli bəyanatı 30 illik müharibəyə son nöqtə qoydu və Azərbaycanın qalib statusunu təsbit etdi. Respublikanın rus vətəndaşlarının çoxu 1990-cı illərin əvvəlində olduğu kimi, bu dəfə də





Azərbaycan xalqı ilə çiyin-çiyinə dayandı və Azərbaycan sərhədlərinin pozulmazlığı hüququnu müdafiə edərək ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında iştirak etdi. Biz Sizin sözlərinizi xatırlayırıq ki, bu gün biz birlikdəyik və heç kəs bu birliyi poza bilməz".

## Müstəqil dövlətçilik tarixində bir ilk

Ölkənin, demək olar ki, bütün sahələrini əhatə edən, müasir çağırışlardan irəli gələn, yeni yanaşma tələb edən dəyişikliklər siyasi partiyalar, onların fəaliyyət imkanlarının genişləndirilməsi, qarşılaşdıqları problemlərin öyrənilməsi və aradan qaldırılması, dialoq mühitinin yaradılması kimi mühüm məsələlərdən də yan keçmədi.

Belə ki 29 noyabr 2019-cu il tarixində Prezident Administrasiyasında "Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi"nin yaradılması faktı özü-özlüyündə köklü siyasi islahatların başlamasından xəbər verirdi. Prezident İlham Əliyevin "Prezident Administrasiyasında parlamentlə iş üzrə xüsusi şöbə yaradılıb. Bu, əlbəttə, bir daha onu göstərir ki, biz parlamentin işinə böyük əhəmiyyət veririk" sözləri yeni yaradılmış strukturun əhəmiyyətini göstərirdi. Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin siyasi partiya rəhbərləri ilə görüşləri siyasi islahatların ilk mərhələsi oldu.

17 fevral 2020-ci il tarixindən 12 mart 2020-ci il tarixinədək 24 gün ərzində şöbə rəhbərliyi 42 siyasi partiya sədri ilə görüşmüşdür. Sonralar bu proses daha da intensivləşmiş və ölkədə fəaliyyət göstərən 52 siyasi partiyadan 50-si ilə şöbə müdiri görüşlər təşkil etmişdir. Keçirilən görüşlərdə dövlətin təməl prinsipləri: suverenlik, ərazi bütövlüyü, Ermənistanın Azərbaycana təcavüzü, milli həmrəylik, müstəqilliyin qorunması, həmçinin iqtidar-müxalifət dialoqu mövzusunda müzakirələr, qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Azərbaycanın müstəqil parlamentarizm tarixində ilk dəfə olaraq müxalif siyasi partiyaların qanunvericilik orqanının rəhbərliyində təmsil olunması özlüyündə mühüm və əhəmiyyətli idi. Milli Məclisin sədr müavini, komitə sədri və sədr müavinlərinin müxalif siyasi partiyaların nümayəndələrindən seçilməsi ilə bir ilk yaşanırdı. Hələ parlament seçkilərindən öncə Prezident İlham Əliyev öz çıxışlarında xüsusi vurğulayırdı ki, Azər-



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında. 24 dekabr 2020-ci il



baycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün siyasi islahatlar mütləq həyata keçirilməli və bunun üçün partiyalararası geniş dialoq aparılmalıdır.

Ümumilikdə isə ölkədə siyasi islahatlar fonunda sağlam iqtidar-müxalifət dialoqu qurulmuş, yeni siyasi mühit yaradılmışdır. Bunun nəticəsi olaraq, bu gün dövlətin təməl prinsipləri olan müstəqilliyin qorunması, xarici təcavüzə qarşı mübarizə, milli və dini vəhdətin qorunub saxlanılması kimi mühüm və taleyüklü məsələlər ətrafında siyasi partiyalar həmrəylik nümayiş etdirir.

Altı yeni siyasi partiyanın dövlət qeydiyyatına alınması, onların fəaliyyətinin təmin edilməsi üçün müvafiq şəraitin yaradılması, mənzil-qərargahla təmin edilməsi Prezidentin müstəqil demokratik dövlət düşüncəsinin parlaq təzahürüdür. Bütün bunlar müxalifət partiyalarına dövlətçiliyin qorunması və möhkəmləndirilməsi, eyni zamanda ümummilli məsələlərin həlli prosesində vahid siyasi qüvvə şəklində birləşmək imkanı verib.

Beləliklə, Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hakimiyyətin siyasi partiyalara və vətəndaş cəmiyyətinə münasibətdə atdığı addımlar islahatçılıq kursunun davamlılığını və mütərəqqiliyini əks etdirir. Aparılan siyasi dialoqun məntiqi nəticəsi kimi, siyasi partiyaların 2020-ci ilin iyul, sentyabr, oktyabr bəyanatları milli həmrəyliyin, xalq-hakimiyyət birliyinin yüksək səviyyəsinin bariz nümunəsi, əyani sübutudur. Eyni zamanda noyabrın 8-də Şuşanın işğaldan azad olunması münasibətilə 50 siyasi partiya Prezident, Müzəffər Ali Baş Komandanı təbrik edərək, bu qələbəni illərlə yürüdülmüş müdrik siyasətin, siyasi uzaqgörənliyin, iqtisadi islahatların, xalqın iqtidara göstərdiyi yüksək etimadın, xalq-dövlət həmrəyliyinin ən ali təcəssümü olduğunu bildirmişlər.

Prezident İlham Əliyevin 10 noyabr – Ermənistanın kapitulyasiyaya məhkum edildiyi gün xalqa etdiyi müraciətində bir daha ölkədəki daxili birlik və bərabərliyə, siyasi həmrəyliyə, xalq-iqtidar dayanışmasına diqqət çəkərək qeyd edirdi: "Son illər ərzində ölkəmizdə aparılan işlər, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz – bütün bunlar, ordu quruculuğu, təbii ki, bu qələbəmizi şərtləndirdi. Mən bu günlərdə bir şeyə fikir verdim. Hətta fərqli siyasi baxışlara malik olan insanlar, bizim işimizə tənqidi yanaşan insanlar, hətta bir çox hallarda əsassız tənqidlər ifadə edən insanlar bu dövrdə, hesab edirəm ki, yüksək şüur nümunəsi göstərdilər. Mən həmişə deyirdim ki, siyasi müstəvidə fərqli baxış-

lar var, olmalıdır, bu, normaldır. Müxalifət olmalıdır, bu, normaldır. Hər bir demokratik ölkədə olduğu kimi, bizdə də, əlbəttə ki, bütün azadlıqlar var. Amma bir şey olmamalıdır – dövlətə müxalifətdə olmaq olmaz, dövlətçiliyə müxalifətdə olmaq olmaz.

"İqtidara, dövlətə nə qədər pisdir, mənim üçün bir o qədər yaxşıdır" fikri ilə yaşamaq olmaz. Mən deyə bilərəm, bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir. Çünki biz hamımız istəyirik ki, Azərbaycan inkişaf etsin, hamımız istəyirik ki, daha güclü ölkə olsun".

Prezident İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsində: "Biz praktiki əməkdaşlığa başlamaq, düşmənçiliyə son qoymaq və ən azı bir-birimizlə danışmağa başlamaq üçün bütün siyasi partiyalara açıq müraciət etdik və iki partiyadan başqa bütün digər partiyalar, onların 50-si bunu dəstəklədi. Biz müasir, yeni siyasi prosesə başladıq. Hazırda parlamentimizdə çox sayda müxalifət üzvü var. Siyasi proses çox səmərəlidir", – fikri onun ölkə daxilində milli-siyasi birliyin yaradılması, daxili siyasi dialoq mühitinin formalaşdırılması istiqamətində nə dərəcədə arzulu və qətiyyətli olduğunu nümayiş etdirirdi. Bununla müstəqillik tariximizdə ilk dəfə olaraq yüksək siyasi həmrəylik, milli birlik nümayiş etdirilmişdir. Siyasi sabitliyə, etibarlı və davamlı inkişafa xidmət edən bu addım milli həmrəyliyin, xalq-hakimiyyət birliyinin təcəssümü idi.

Bunlar Prezidentin siyasi iradəsini, çoxpartiyalı siyasi sistemin və demokratik cəmiyyətin inkişafını əks etdirən, siyasi islahatların dərinləşməsinin əsasını təşkil edən, dövlətçiliyin təməl prinsiplərinin möhkəmlənməsini təmin edən əhəmiyyətli hadisələrdir.

Azərbaycan Respublikası Prezidentinin ölkədə vətəndaş sülhü, həmrəylik və dialoq mühiti yaradılması istiqamətində qoyduğu tələblərin icrası məqsədilə partiyalarla aparılmış davamlı fəaliyyət bu gün öz hədəflərinə çatmaqdadır. Belə ki Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində və postmüharibə dövründə real siyasi qüvvələrin, demək olar, hamısı tərəfindən dövlətin yürütdüyü siyasətin dəstəklənməsi tariximiz üçün bir ilk olmuşdur. Ali Baş Komandanın ifadə etdiyi kimi, qazanılmış qələbələrdə ölkəmizdəki bu həmrəylik, milli birlik ruhunun da xüsusi töhfəsi var. Prezidentə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinə siyasi partiyaların dəstək müraciətlərini aşağıdakı ardıcıllıqla qeyd edə bilərik:

2020-ci il iyulun 15-də Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları





ilə əlaqədar 43 siyasi partiya birgə, 4 siyasi partiya isə ayrılıqda, ümumilikdə 47 siyasi partiya milli həmrəylik bəyanatı yaymışdır.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına cavab olaraq, ölkədə fəaliyyət göstərən 52 siyasi partiyadan 50-si ölkə Prezidenti, Ali Baş Komandanın ətrafında birləşmiş və birgə dəstək bəyanatı imzalamışdır.

2020-ci il oktyabrın 3-də 50 siyasi partiyanın iştirakı ilə "Milli Həmrəylik – siyasi dialoqun nəticəsi" mövzusunda videokonfrans formatında görüş keçirilmişdir. Tədbirdə iştirak və çıxış edən siyasi partiya rəhbərləri Azərbaycanda partiyaların son 32 illik fəaliyyəti ərzində bu cür geniş tərkibli görüşün ilk dəfə baş tutduğunu vurğulamaqla ölkə Prezidentinin siyasi sistemin yeni konfiqurasiyasının formalaşdırılmasına yönəlmiş addımlarını təqdir etdiklərini diqqətə çatdırmış, Vətənin müdafiəsi, torpaqlarımızın azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda daim yanında olduqlarını, həyata keçirdiyi tədbirləri sonadək dəstəkləyəcəklərini bir daha yekdilliklə ifadə etmişlər.

2020-ci il oktyabrın 7-də 50 siyasi partiya Dağlıq Qarabağ məsələsində Fransanın anti-Azərbaycan mövqeyinə dair birgə bəyanat imzalamışdır. Bəyanatda Fransanın mövqeyi pislənmiş, habelə bütün siyasi qüvvələr ərazi bütövlüyümüzün təmin edilməsində, dövlətimizin təməl prinsiplərinin qorunmasında, Ermənistanın işğalçı siyasətinə son qoyulmasında Ali Baş Komandanın ətrafında birləşdiklərini qeyd etmişlər.

2020-ci il oktyabrın 12-də Ermənistan silahlı qüvvələrinin Gəncəni ballistik raketlərlə bombalaması ilə bağlı 50 siyasi partiya, vətəndaş cəmiyyətinin digər nümayəndələri, həmçinin ziyalılar və etnik azlıqların təmsilçiləri (cəmi 140 nəfər) Ermənistanın bölgə və beynəlxalq təhlükəsizlik mühitini təhdid edən təcavüzkar siyasətinin dərhal dayandırılmasına, Azərbaycanın işğal olunmuş ərazilərindən ən qısa zamanda çıxması üçün Ermənistana təzyiq edilməsinə və hərbi cinayətlərinin qarşısının alınmasına dair 16 beynəlxalq təşkilata birgə müraciət imzalamışlar.

2020-ci il oktyabrın 17-də 50 siyasi partiya tərəfindən Ermənistanın həmin tarixdə Gəncədə törətdiyi növbəti terror aktı ilə bağlı 30 beynəlxalq təşkilata birgə müraciət ünvanlanmışdır.

Müraciətdə beynəlxalq ictimaiyyətin Azərbaycan xalqına qarşı törədilən qəddar aktlara laqeyd qalmamasının, sözügedən müharibə cinayətlərinə beynəlxalq səviyyədə hüquqi qiymət verilməsinin, terrorçu Ermənistanın

cəzalandırılmasının, eləcə də Ermənistana silah satışının dayandırılmasının vacibliyi qeyd olunmuşdur.

Həmçinin müraciətdə Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların Vətən müharibəsində Ali Baş Komandanın həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəklədiyi və onun ətrafında sıx birləşdiyi diqqətə çatdırılmışdır.

2020-ci il oktyabrın 18-də 51 siyasi partiyanın sədrləri Dövlət Müstəqilliyi Günü və döyüş meydanında əldə edilmiş uğurlar münasibətilə təbriklərinin və ən səmimi arzularının Azərbaycan Respublikasının Prezidentinin diqqətinə çatdırılmasını xahiş etmiş, Ali Baş Komandanın ətrafında sıx birləşdiklərini və bütün addımlarını dəstəklədiklərini bir daha ifadə etmişlər.

Təbrikə görə siyasi partiya rəhbərlərinə təşəkkür bildirilmiş və dövlət başçısının təbrikləri onlara çatdırılmışdır.

2020-ci il noyabrın 8-də Şuşanın azad olunması münasibətilə 50 siyasi partiya Azərbaycan Respublikası Prezidentini təbrik edərək, bu Qələbəni illərlə yürüdülmüş müdrik siyasətin, siyasi uzaqgörənliyin, iqtisadi islahatların, xalqın iqtidara göstərdiyi yüksək etimadın, xalq-dövlət vəhdətinin ən ali təcəssümü olduğunu bildirmişlər. Kollektiv müraciətlə yanaşı, partiyalar, partiya sədrləri, siyasi fəallar, o cümlədən Azərbaycanın yaxın siyasi tarixində ilk dəfə radikal müxalifət qanadı təmsil edən AXCP və Müsavat rəhbərləri fərdi qaydada qazanılmış qələbə münasibətilə Müzəffər Ali Baş Komandanımızı, Milli Ordumuzu və Azərbaycan xalqını təbrik etmiş, onları qələbənin əsas müəllifləri adlandırmışlar.

2020-ci il noyabrın 25-də 49 siyasi partiya Fransa Senatında Dağlıq Qarabağdakı qondarma qurumun tanınması məsələsinə baxılması ilə bağlı bəyanat yaymışdır. Bəyanatda Dağlıq Qarabağ münaqişəsinin başladığı ilk vaxtlardan bu günədək Fransanın birtərəfli, qərəzli, ədalətsiz mövqe tutması faktlarla sadalanmışdır. İşğalçını açıq-aşkar dəstəkləyən Fransanın bundan sonra ATƏT-in Minsk qrupunun həmsədrliyindən uzaqlaşdırılması, Fransa ilə bütün siyasi-iqtisadi münasibətlərə yenidən baxılması, bütün mədəni layihələrin dayandırılması tələb olunmuşdur.

Bundan əlavə, siyasi partiyalar ayrılıqda beynəlxalq təşkilatlara, təmsil olunduqları partiyalararası ittifaqlara, Azərbaycanda fəaliyyət göstərən səfirliklərə, xarici dövlətlərin siyasi partiyalarına Ermənistanın hərbi təcavüzünü, mülki əhalini, Gəncə, Tərtər və Bərdə şəhərlərini, Azərbaycanın mülki infrastrukturunu ballistik raketlərlə atəşə tutmasını pisləyən, ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın qərəzli mövqeyini qınayan müraciətlər ünvanlamışdır.





## Ümumxalq həmrəyliyinin Zəfər bəhrəsi

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu öz şərəfli missiyasını uğurla yerinə yetirdi və bu haqq savaşı tarixi ədalətin qələbəsi ilə yekunlaşdı. Artıq Azərbaycan yeni dövrə qədəm qoyur. Bu gün bizim ən ümdə məqsədimiz zəfərimizin dayanıqlı və daimi olmasına nail olmaqdır. Atılan addımlar, həyata keçirilən tədbirlər, ölkə başçısının dəmir yumruqla birləşdirilmiş milli-siyasi birliyi, xalq-iqtidar həmrəyliyi Azərbaycanı firavan, sabit və güclü inkişaf səviyyəsinə çatmış bir gələcəyin gözlədiyini əminliklə deməyə əsas verir.

Biz əsarət altında olan torpaqlarımızı azad etməklə yanaşı, xalq olaraq birlik və bərabərliyimizi, milli qürur və mənliyimizi, özgüvənimizi göstərdik. Vətən müharibəsində qazandığımız şanlı qələbə ləyaqətimizi qorudu və eyni zamanda bizi gələcək nəsillərin qınağından azad etdi. Müzəffər Ali Baş Komandanın dəmir yumruğu birlik, bütövlük və tükənməz güc rəmzi kimi bütün dünyanı heyran etdi, xalqımız, dövlətimiz haqqında yeni düşüncənin formalaşmasına gətirib çıxartdı. Bu birliyin təməlini Vətən müharibəsindən öncə əldə olunmuş xalq-iqtidar birliyi, milli-siyasi həmrəylik təşkil edirdi. Azərbaycanda yaşayan bütün xalqlar, etnik qruplar, fərqli dini inanca sahib insanlar vahid bir subyekt kimi düşmənə qarşı birləşdilər. Prezident-xalq-ordu-siyasi partiyaların birliyi, həmrəyliyi ərazi bütövlüyümüzün bərpa edilməsində, düşmən üzərində qazanılan böyük Zəfərdə həlledici amilə çevrildi. Bu daxili siyasi birliyin, ümummilli maraqlar naminə milli həmrəyliyin formalaşması xarici təcavüzə qarşı nümayiş etdiriləcək vahid mövqe baxımından müstəsna dərəcədə əhəmiyyətli olmuşdur.

İşğal olunmuş ərazilərin azad edilməsi bütün bu illər ərzində hər bir azərbaycanlı üçün şərəf məsələsi idi. Bu məsələ təkcə yüz minlərlə insanın öz yurdlarına qayıtması, sərhədlərin təhlükəsizliyinin qorunması demək deyildi, ilk növbədə, ədalətin öz yerini tutması və şübhəsiz, milli qürurun bərpası demək idi. Son onilliklər ərzində ölkədə qazanılmış nailiyyətlər xalqın şüurunda Azərbaycan Ordusunun Vətən müharibəsindəki zəfəri ilə müqayisə oluna bilməzdi.

Bu, xalqın öz lideri ilə əsl birliyi idi. Ata və anaların öz övladlarına hələ uzun illər danışmaqdan doymayacaqları əsl Zəfər idi.

# PREZİDENT İLHAM ƏLİYEVİN VƏTƏNPƏRVƏRLİK MİSSİYASI: AZƏRBAYCAN GƏNCLƏRİNİN ZƏFƏR TƏNTƏNƏSİ

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini bərpa etdi. XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan bir əsrdə ikinci dəfə məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Həmin dövrdə ölkəyə səriştəsiz adamların rəhbərlik etməsi və düşmənin respublikamızın ərazi bütövlüyünə davamlı təcavüzü bütövlükdə xalqımızı "ölüm-qalım" faktı qarşısında qoymuşdu. Vətənpərvərlik ideyaları, vətən maraqları şəxsi maraqlar və xəstə ambisiyalara qurban verilirdi. Məhz belə çətin məqamda tale Ümummilli lider Heydər Əliyevə lider-xilaskar rolunu həyata keçirmək üçün imkan yaratmışdı. Xalqın tələbi və dəstəyi ilə 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş Heydər Əliyev öz titanik fəaliyyəti ilə Azərbaycanın müstəqilliyini sarsılmaz və dönməz etdi. Beləliklə, Ulu öndər Heydər Əliyev Vətəni və xalqı qarşısında ən mühüm missiyasını yerinə yetirmiş oldu.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli çağlarını yaşayan ölkəmizin qazandığı nailiyyətlər Ulu Öndərin onilliklər ərzində gələcək inkişaf üçün formalaşdırdığı möhkəm təməllər əsasında qazanılmışdır. Xalq 2003-cü ilin prezident seçkilərində İlham Əliyevə səs verməklə, dövlətimizin taleyi ilə yanaşı, Qarabağın azadlığı uğrunda mübarizənin gələcəyini də ona etibar etmiş oldu. Bu seçimin doğruluğu öz təsdiqini tapdı.

44 günlük Vətən müharibəsində əldə olunan möhtəşəm qələbə Azərbaycan xalqının çoxəsrlik tarixində dərin iz buraxacaq hadisədir. Son bir neçə əsrlik tariximiz boyu Azərbaycan xalqı buna bənzər qələbə yaşamamışdı. Vətən müharibəsindəki qələbə Azərbaycanın dövlət müstəqilliyinin qazandırdığı gücü, imkanları bütün dünyaya nümayiş etdirdi.

Vətən müharibəsində qazanılan bu böyük Zəfər Azərbaycan Ordusunun gücünü bütün dünyaya göstərməklə yanaşı, həm də Ali Baş Komandan ətrafında birləşib Vətən uğrunda hər an canından keçməyə hazır olan vətənpərvər Azərbaycan gəncliyinin olduğunu nümayiş etdirdi. Bu gənclik bir gündə, bir dəqiqədə yetişmədi. Müzəffər Ali Baş Komandanın siyasəti,





şəxsi nümunəsi nəticəsində formalaşdı. Torpaqlarımızı Ulu öndər Heydər Əliyevin və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dövründə doğulub böyümüş gənc nəsil azad etdi. Məhz bu gənc nəslin gücü, əzmkarlığı, igidliyi, vətənpərvərliyi sayəsində üçrəngli bayrağımız işğaldan qurtulmuş Suqovuşanda, Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Qubadlıda, Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında ucaldıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qələbədən sonra azad olunmuş Şuşa şəhərinə ilk səfəri zamanı qazanılmış zəfərdə gənclərimizin rolunu xüsusi vurğuladı: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27–32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".[1]

Belə bir ifadə var ki, uşaqlar, gənclər örnəkləri nəsihətlərdən daha tez qəbul edirlər. Bu baxımdan Azərbaycan Prezidentinin gənclərə ünvanlanmış vətənpərvərlik çağırışları daha çox örnəklərə əsaslanır. Gənc nəsil üçün ən böyük vətənpərvərlik nümunəsini Azərbaycana sevgisi, dəyərlərimizə bağlılığı, sarsılmaz qətiyyəti, dəmir iradəsi, cəsarəti, verdiyi sözə, tutduğu mövqeyə, inandığı prinsiplərə sadiqliyi ilə məhz Prezident İlham Əliyev nümayiş etdirir. Bizə bu 44 günlük zəfəri qazandıran nəsil Azərbaycan Prezidenti İlham Əliyevin yetişdirdiyi və onun apardığı əzmkar siyasət ruhunda tərbiyələnən nəsildir. Bu nəsil Prezidentimizdən, Müzəffər Ali Baş Komandandan Vətən sevgisini necə ifadə etməyi, dövlət üçün necə faydalı olmağı öyrənib. Vətənin qazandığı uğurların, bu uğurlara birlikdə sevinməyin, ucalan bayrağa baxıb fərəhlənməyin nə qədər gözəl hiss olduğunu gənclərimiz Azərbaycanın son illərdəki nailiyyətlərində görüblər. Gənc nəsil Prezidentin qətiyyətindən güc alaraq ali məqsədlərə doğru yoldan heç zaman geri çəkilməməyi, ədalətli olmağı, haqsızlıqla barışmamağı, cəsurluğu, mətinliyi və amallara sadiqliyi dövlət rəhbərimizdən öyrənib.

[1] https://president.az/articles/50184



Öz xalqının tarixini bilməyən şəxs vətənpərvər ola bilməz. Hələ Vətən müharibəsindəki qələbəmizdən təxminən bir il əvvəl, 2019-cu ilin noyabrında Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gənclərə üz tutaraq demişdi: "Gənclər tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Bir daha demək istəyirəm ki, bizim müstəqillik dövrlərimiz Azərbaycan xalqının tarixində çox məhduddur. Məhz ona görə ki aldanmışıq, əzilmişik".[2] Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə Azərbaycan tarixinin dərin bilicisi olduğunu nümayiş etdirmişdi. Onun Azərbaycanın bölgələrinə səfərləri zamanı və yüksək beynəlxalq kürsülərdən Azərbaycanın işğal olunmuş torpaqlarının tarixi barədə söylədiyi fikirlər hər bir vətənpərvər azərbaycanlıda qürur hissi oyadırdı.

Prezident İlham Əliyevin 5 mart 2020-ci il tarixində Tovuza səfəri zamanı Tarix-Diyarşünaslıq Muzeyinin açılışında təqdim edilən xəritədəki qeyri-müəyyənliklər və nöqsanlara tutduğu iradlar hamımızın xatirindədir.

[2] https://president.az/articles/34985






Prezident bildirmişdir: "Xəritə asmısınız, hesab edirsiniz ki, bununla iş düzəlir? Xəritə bizim tariximizdir. Uşaqlar buradan nə başa düşəcəklər? Tarixə belə yanaşmaq olmaz". Bu bir daha ölkə rəhbərinin tariximizə və uşaqların bu tarixi öyrənməsinə nə dərəcədə əhəmiyyət verdiyini və bu məsələyə hansı həssaslıqla yanaşdığını nümayiş etdirdi. Bu həm də tariximizə tam ciddiyyəti ilə yanaşmayan hər bir kəsə Prezident tərəfindən dərs və vətənpərvərlik nümunəsi idi.

Xalqımız, gənclər Prezidentin səfərləri zamanı bəyanatlarını, nitqlərini diqqətlə izləyirdi. Bu çıxışların gənclərimizdə vətənpərvərlik ruhunun yüksəlməsində əvəzolunmaz rolu var idi.

Prezident İlham Əliyevin "vaxt gələcək azərbaycanlılar Zəngəzura, Göyçəyə, İrəvana qayıdacaq", "Azərbaycan bayrağı Şuşada dalğalanacaq", "Qarabağ Azərbaycandır və nida işarəsi" fikirləri gələcək Qələbəmizin müjdəçisi kimi səslənirdi. 2020-ci ilin fevralında Münhen təhlükəsizlik konfransının sammitində Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin kökləri barədə Ermənistanın Baş nazirinə verdiyi tarix dərsi bütün dünya qarşısında ermənilərin bu bölgə ilə bağlı saxta tarixini ifşa etmişdi. Burada xalqımızın və bütün dünyanın gözü qarşısında Ermənistan Baş nazirini dərin intellekti və dəmir məntiqi ilə məğlub edərək, haqq və ədalətin kimin tərəfində olduğunu bir daha sübut etmişdi. Bu, sadəcə ola-

raq, bir çıxış və ya diskussiya deyildi. Bu ən böyük vətənpərvər Prezident İlham Əliyevin erməni qəsbkarlarını məntiq, tarix, siyasət, intellekt meydanında təkbaşına uğratdığı ağır məğlubiyyət idi. Cəmi, təxminən, 7 aydan sonra siyasi və diplomatik yolları qəbul etməyən düşməni Prezident İlham Əliyev artıq Müzəffər Ali Baş Komandan kimi hərb meydanında öz ordusu ilə darmadağın edəcək və alçaldıcı kapitulyasiyaya məcbur qoyacaqdı. Münhen Təhlükəsizlik Konfransı sammitində nəhəng siyasətçi Prezident İlham Əliyevlə Paşinyanın debatı bütün dünyada geniş müzakirə olundu. Azərbaycanın hər yerində – yollarda, müəssisələrdə bütün nəslin nümayəndələri, xüsusilə də gənclər burada səsləndirilən fikirləri, deyilən sözləri müzakirə edir və böyük fəxrlə Prezidentin ifadələrini təkrarlayırdılar.

Etiraf edək, uzun illər ərzində cəmiyyətimizdə belə bir yanlış düşüncə vardı ki, nəsillər dəyişdikcə yurd həsrəti itəcək, unudulacaq. Hesab edilirdi ki, Birinci Qarabağ müharibəsini görmüş, o savaşda döyüşmüş, doğma evlərindən didərgin düşmüş insanların sırası seyrəldikcə, onlar estafeti gənc nəslə ötürdükcə düşmən tapdağındakı torpaqlarımız da yavaş-yavaş unudulacaq. Nə qədər ağır olsa da, bunu dilə gətirənlər belə bir məntiqə əsaslanırdılar ki, bir yurdu həyatında heç vaxt görməmiş, oranın havasından, suyundan dadmamış, doğulub böyüdüyü məkanı özünə daha doğma sayan gəncə o yerlərin nisgilini hiss etmək, həmin torpaqlar uğrunda mübarizələrə atılmaq o qədər də asan deyil. Görünür, düşmən də özünün "strateji düşündüyünü" zənn edərək əsas ümidlərini məhz bu amilə bağlamışdı. Onlara da elə gəlirdi ki, Azərbaycanda nəsil yeniləndikcə işğal altındakı torpaqları unutdurmaq, beləliklə, cəmiyyətimizi təslimçi sülhə razı salmaq getdikcə daha da asanlaşacaq. Amma belə düşünənlər yeni nəslin Azərbaycanın müstəqilliyi dövründə doğulub böyüdüyünü, gözünü açandan dövlətini heç kimin əsarətində olmadan güclü, qüdrətli gördüyünü, bu ruhda böyüdüyünü, ailələrdən, məktəbəqədər tədris müəssisələrindən, məktəblərdən yetkin yaşlara qədər davam edən sistemli vətənpərvərlik təbliğatı mühitində tərbiyələndiyini diqqətə almırdılar.

Zəfərdən öncə gənclərimizin böyük hissəsi Qarabağı yalnız şəkillərdə, videolentlərdə görmüşdü. Bir qismi işğal zamanı o torpaqlardan südəmər vaxtında, doğmalarının qucağında çıxmışdı. Qarabağda bir addım belə atmamışdı. Amma onlar Qarabağ yanğısı, qəlblərindəki Vətən sevgisi ilə döyüşlərə atıldılar. Azərbaycan xalqının necə qəhrəman bir xalq olduğunu





Prezident İlham Əliyevin Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirakı. 1 fevral 2019-cu il

bütün dünyaya nümayiş etdirdilər. İgid əsgər və zabitlərimizin Şuşanın sıldırım qayalarından dırmaşaraq yüngül silahlarla düşmənin tankının, topunun üstünə atılması, bu qədim şəhərimizi, demək olar ki, əlbəyaxa döyüşlə azad etməsi illər sonra da dillərdə dastan olacaq. Dünyanın ən məşhur hərbi məktəblərində nümunə kimi öyrəniləcək. Vətən müharibəsindəki qələbəmizlə, igidlərimizin bu müharibədəki hünəri, coşqusu ilə Azərbaycan gəncliyi haqqında bəzi hallarda cəmiyyətimizdə dolaşan bütün bədgümanlıqlar, yanlış düşüncələr aradan qalxdı. Vətən müharibəsində Azərbaycan gəncliyini də sanki yenidən tanıdıq. Ölkəmizdə nə qədər vətənpərvər, cəsur, qəhrəmanlıq ruhu ilə dolu, bir o qədər də savadlı, sağlam düşüncəli gəncliyin yetişdiyinə hər birimiz şahid olduq.

44 günlük Vətən müharibəsində torpaq uğrunda, millətin namusu, heysiyyəti, haqq işi uğrunda canından keçmiş şəhidlərimizin həyatları və şəhadətləri yeni nəsillər üçün örnəkdir, vətənpərvərlik və fədakarlıq nümunəsidir. Vətən müharibəsində qəhrəmancasına vuruşan gənclərimiz haqqında kitablar yazılacaq, dərsliklərdə məktəblilərimizə və tələbələrimizə onların şücaəti nümunə göstəriləcək. Vətən müharibəsində iştirak etmiş gənclərimiz zaman keçdikcə yaşa dolacaq, ömrün ixtiyar vədələrinə çatacaqlar.

Onların xatirələri isə heç zaman köhnəlməyəcək. Vətən müharibəsi iştirakçıları döyüş təəssüratlarını zaman-zaman özlərindən sonrakı nəsillərlə bölüşəcək, Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunu daha da yüksəldəcəklər. Onlar artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər.

44 günlük Vətən müharibəsi dövründə gənclərimiz yalnız döyüş meydanında deyil, sosial şəbəkələr və kütləvi informasiya vasitələri ilə də düşmənə qarşı aktiv mübarizə aparırdılar. Gənclərimizin bu fəallığı Ermənistanın təcavüzkar siyasəti barədə dünya ictimaiyyətinin məlumatlandırılmasında, faşist simasının ifşa olunmasında, Azərbaycan reallıqlarının hər kəsə bəyan edilməsində və ölkəmizin informasiya cəbhəsində müharibəsində də qalib gəlməsində böyük rol oynadı. Bu mənada gənclərimiz Prezident İlham Əliyevdən nümunə götürürdülər. Çünki müharibənin ilk saatlarından başlayaraq Prezident düşmənlə bir neçə cəbhədə mübarizə aparırdı – Müzəffər Ali Baş Komandan kimi ordunun apardığı hərbi əməliyyatlara rəhbərlik edirdi və eyni zamanda dünyanın aparıcı kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrdə beynəlxalq aləmə Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri çatdırırdı.

44 günlük Vətən müharibəsində tarixi qələbəmiz vətənpərvərlik tərbiyəsinin nə qədər əhəmiyyətli olduğunu bir daha göstərdi. İnsan öz Vətənini sevəndə güclü və qürurlu olur. Vətənə məhəbbət, öz şəxsi maraqlarını Vətən yolunda qurban vermək onu əsl şəxsiyyətə çevirdi. Tarixən vətənpərvərlik hissləri doğma torpağa, dilə, ənənələrə bağlılıq şəklində formalaşıb və yenə də mövcudluğunu qoruyur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin öz çoxsaylı çıxışlarında bugünkü gəncliyə aşıladığı, təlqin və təbliğ etdiyi vətənpərvərlik məhz bu dəyərlərə söykənir. 2019-cu il fevralın 1-də Gənclər Gününə həsr olunmuş respublika toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gənclərə müraciətində demişdi: "Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir".[3]





Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ən yaxın silahdaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın Vətən naminə tarixi fəaliyyəti də gənc nəsil üçün parlaq örnəkdir. Onun insanların sosial problemlərinə həssas münasibəti, şəhid ailələri, müharibə iştirakçıları ilə mütəmadi görüşləri, onların qayğısına qalması, əlillərin, qazilərin müalicəsinə kömək göstərməsi, yerinə yetirdiyi humanitar təşəbbüslər böyük vətənpərvərlik nümunəsidir. Vətən uğrunda sağlamlığından keçən hər kəs Mehriban xanım Əliyevanın timsalında dövləti hər an yanında hiss edir, onların bütün problemlərini üzərinə götürdüyünü görür. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə və qazilərə dayaq durması, mərhəmət göstərməsi, onları tək qoymaması həmin ailələrə böyük təsəlli-

[3] https://president.az/articles/31737

dir. Ən əhəmiyyətlisi isə gənclərimiz vətənpərvərliyinin dövlət tərəfindən də, xalq tərəfindən də ən yüksək səviyyədə qiymətləndirildiyinin, başqalarına örnək göstərildiyinin, Azərbaycan cəmiyyətində vətənpərvər insanın ən ali məqamda olduğunun şahidi oldular. Bütün bunlar gənclərimizdə vətəndaşlıq məsuliyyəti formalaşdıraraq vətənpərvərlik işinə də müstəsna töhfələr verir. Çünki vətənpərvərliyin təbliğatının kökündə insanın dərk edilmiş məsuliyyəti, mənsub olduğu xalqa, dövlətə dərin sevgisi, bağlılığı, Vətəni ilə fəxarət hissi durur. Bu baxımdan, xalqımızın Ümummilli lideri Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" fikri daim Azərbaycanda vətənpərvərlik düşüncəsinin, təbliğatının əsas istinad mənbəyi olacaqdır.

Biz Vətən savaşını, sadəcə, torpaqlarımızı azad etməkdən ötrü aparmamışıq. Bu torpaqlarda rifah yaratmaq, erməni vandallarının uzun illər boyu dağıdıb yerlə yeksan etdikləri yurdlarımızı, füsunkar təbiətə, zəngin təbii resurslara, geniş iqtisadi potensiala malik torpaqlarımızı inkişaf axarına qovuşdurmaq üçün bu zəfəri qazanmışıq. Buna görə müasir elmin nailiyyətlərinə, dövrün bilik və bacarıqlarına yiyələnmiş, innovasiyaları mənimsəmiş gəncliyə böyük ehtiyac var. Çünki tarix boyu hər zaman ordunun gücü ilə qazanılmış qələbələri biliyin gücü möhkəmləndirir və əbədi edir. Azərbaycan Prezidentinin də, cəmiyyətimizin də bu gün gənclərlə bağlı ən böyük ümidi onları müasir dünyanın inkişaf axınında görməkdir: "Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar".[4]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı siyasət nəticəsində bu gün gənclərimiz ölkəmizin ictimai həyatında fəal rol oynayır, müxtəlif sahələrdə uğurla fəaliyyət göstərirlər. Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda könüllülər hərəkatı geniş vüsət almışdır. Könüllülər hərəkatının xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir və təsa-

[4] https://president.az/articles/31737





düfi deyil ki, bu sahədə gənclər mühüm rol oynayır. Gənclərimiz idmanda böyük qələbələr qazanırlar. Qazanılan qələbələr hər bir vətənpərvər vətəndaşı sevindirir, ruhlandırır. Bu qələbələri bizə müstəqillik dövründə doğulmuş və boya-başa çatmış gənclər bəxş edir. Prezidentin apardığı islahatlar nəticəsində gənclərimiz bu gün iqtisadiyyatın müxtəlif sahələrində, dövlət idarələrində məsul vəzifələrdə işləyirlər, təcrübə toplayırlar, çünki gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır.

Bu gün gəncliyimiz Qarabağa "Böyük qayıdış"da fəal iştirak edir. 2021-ci ildən Prezidentin verdiyi sərəncamlara əsasən, azad edilmiş ərazilərimizdə "Böyük qayıdış" planının reallaşdırılmasına, düşmən tərəfindən dağıdılmış və qarət olunmuş şəhərlərimizin, kəndlərimizin bərpası və yenidən qurulması istiqamətində geniş tədbirlər həyata keçirilməyə başlanılmışdı. Qısa müddətdə görülmüş böyük işlər qəti əminlik yaradır ki, tezliklə işğaldan azad olunmuş torpaqlarımıza yenidən həyat qayıdacaq və vətəndaşlarımız tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacaq, qurub-yaradacaqlar. Bu mənada Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2021-ci il avqustun 26-da Bakının Abşeron rayonunda şəhid ailələri, Qarabağ qaziləri ilə növbəti görüşündə dediyi sözlər hər bir Azərbaycan vətəndaşı üçün möhtəşəm səslənirdi: "Biz isə bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq, qürurla yaşayacağıq. Öz gələcəyimizi özümüz quracağıq, azad edilmiş torpaqları bərpa edəcəyik. Şəhidlərimizin xatirəsini daim qəlbimizdə yaşadacağıq".[5]

[5] https://president.az/articles/52975

# AZƏRBAYCANIN HAQQ İŞİNƏ DƏSTƏK: MÜHARİBƏ DÖVRÜ MƏKTUBLARI

Sentyabrın 27-də Azərbaycan Ordusunun əks-hücum əməliyyatları ilə başlanan İkinci Qarabağ – Vətən müharibəsi XX əsrin müharibələri, xüsusilə Birinci Qarabağ müharibəsi ilə müqayisədə tamamilə fərqli idi. 44 günlük müharibə başlananda Azərbaycan Respublikasının optimal siyasi hakimiyyət sistemi, güclü və iradəli Prezidenti və Ali Baş Komandanı var idi. Azərbaycan inkişaf etmiş hərbi-sənaye kompleksinə, güclü və çoxşaxəli iqtisadiyyata, səmərəli təlimlənmiş, texniki cəhətdən təchiz olunmuş dünya standartlarına cavab verən müasir orduya, yüksək əhvali-ruhiyyəli əsgər və zabit heyətinə malik idi. Müharibənin ədalətli xarakteri, işğal olunmuş ərazilərin azad edilməsi, səriştəli hərbi planlaşdırma, döyüş əməliyyatlarının hərtərəfli hazırlığı aparılmışdır.

Müharibənin ilk saatlarından başlayaraq Azərbaycan Prezidentinin dünya televiziya kanallarına, ayrı-ayrı informasiya agentliklərinə müsahibələri, Azərbaycan xalqına müraciətləri ölkəmizdə, həmçinin bütün dünyada diqqətlə izlənilir və reaksiya verilirdi. Kütləvi informasiya vasitələri yazırdı ki, dünyanın müxtəlif yerlərindən Azərbaycan Prezidentinə məktublar göndərilməsi davam edir. AZƏRTAC-ın materiallarından məlum olur ki, Azərbaycan Ordusunun cəbhədəki uğurlarını, Azərbaycan Prezidentinin dünyanın aparıcı televiziya kanallarına verdiyi müsahibələri və müraciətlərini diqqətlə izləyən xarici ölkələrdə yaşayan soydaşlarımız Azərbaycan Prezidentinə, Ali Baş Komandana məktublar göndərməkdə davam edirdilər. Almaniya, Norveç və Rusiya Federasiyasının müxtəlif şəhərlərində yaşayan azərbaycanlılar dövlət başçısına məktublar göndərərək Ermənistan ordusunun Azərbaycan torpaqlarını zəbt etmək məqsədilə yenidən hücum etməsini pisləmişlər. Oslo şəhərində yaşayan Şervin Nəcəfpur və Atabəy Nəcəfpur, Rusiya Federasiyasının Vladimir şəhərində yaşayan Təranə Xəlilova, Almaniyanın Köln şəhərindən Rəşad Quliyev, Qazaxıstanın Almatı şəhərindən Qəhrəman Sadıyevin məktublarında bildirilirdi: "Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başlamaqla BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qəbul etdiyi qətnamələrə necə hörmətlə yanaşmağın vacib olduğunu bütün dünyaya göstərir. Dövlətimizə, xalqımıza bu haqq işində, şərəfli mübarizədə zəfər arzulayır və daim bütün gücümüzlə başda Siz olmaqla Azərbaycan dövlətinin, ordusunun yanındayıq".[6] "Dünya azərbaycanlıları yekdilliklə Sizin arxanızdadır".[7] Məktublarda Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təcavüzü nəticəsində başlanan əks-hücum əməliyyatları dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin fəaliyyəti dəstəklənir, ölkəmizin döyüşdə qazandığı qələbə ilə yanaşı, diplomatiya cəbhəsində də müvəffəqiyyət əldə etməsi "diplomatiyamızın qələbəsi" kimi qiymətləndirilir və Azərbaycan Prezidentinin hər tribunadan, hər efirdən Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsi üçün istifadə etdiyi vurğulanırdı.[8]

QHT-lər informasiya müharibəsində üstünlüyümüzü təmin etmək, düşmən və onun havadarlarının ölkəmizə qarşı apardığı yalan və böhtan kampaniyasını zərərsizləşdirmək, Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi və soyqırımı cinayətlərini ifşa edərək dünya ictimaiyyətini operativ, geniş şəkildə məlumatlandırmaq istiqamətində səmərəli fəaliyyət göstərdi.[9] İctimai təşkilatların, birlik və cəmiyyətlərin bəyanatlarında, ölkə Prezidentinə ünvanladıqları müraciətlərində, məktublarında bildirilirdi ki, Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ və ətrafındakı rayonların işğalına 32 ildir, yalnız sözdə sülh və həll istəyən, türkə düşmən dövlətlər tərəfindən laqeydlik göstərilir, bölgədəki işğalçı qüvvələrin, yəni ermənilərin namərdliyinə hər dəfə göz yumulur. Ancaq son nəticədə başda Azərbaycan hökuməti olmaqla, xalqımız və dövlətimiz sülhün, atəşkəsin artıq heç bir yaraya məlhəm olmadığını, əksinə, qaysaq bağlamış yaralarımızın daha da dərinləşdiyini anlayıb. Azərbaycan Respublikası öz problemlərini özü həll edəcək və işğal olunmuş torpaqlarının hamısını hərbi əməliyyatlarla azad edəcək əzmə və gücə malik olduğunu göstərəcəkdir".[10]

Vətən müharibəsi dövründə qeyri-hökumət təşkilatları əsgər, gizir və zabitlərimizi, həmçinin şəhid və hərbçi ailələrini daim diqqət mərkəzində saxladı, onlara maddi və mənəvi dəstək göstərdi. "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri, 2016-cı ilin aprel döyüşlərində şəhid olan polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Orucova bildirib ki, Azərbaycan Ordusu şəhidlərimizin qisasını almalı idi. Bu gün ordumuz düşməndən qisas alır. Hamımızın gözü cəbhədədir. Biz hamımız birik, Ali

[6] "Azərbaycan Ordusu" q., 21 oktyabr 2020-ci il
[7] "Xalq qəzeti", 10 oktyabr 2020-ci il
[8] Yenə orada
[9] http://cssn.gov.az/news.php?id=3929&lang=az
[10] "Xalq qəzeti", 22 oktyabr 2020-ci il



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş
Füzuli və Cəbrayıl rayonlarında. 17 noyabr 2020-ci il

Baş Komandanın ətrafındayıq. Bizim hər birimiz Ali Baş Komandanın əmrinə hazırıq. Bu günü biz illərdir gözləyirdik... Bu gün Azərbaycan Ordusu ən müqəddəs vəzifəsini həyata keçirir, şanlı tarix yazır. Əminik ki, ordumuz elə bir tarix yazacaq ki, o, Azərbaycan xalqının taleyini həll edəcək. Azərbaycan xalqı, ordusu əzəli və əbədi torpaqlarımızı azad edəcək, ölkəmizin ərazi bütövlüyünü təmin edəcək, şəhidlərimizin qanını yerdə qoymayacaq, şəhidlərimizin ruhunu şad edəcək. Azərbaycan xalqı ordusuna güvənir, onun arxasındadır.[11]

Sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycanın Ermənistan tərəfinin hərbi hücumuna qarşı apardığı əks-hücum hərbi əməliyyatları dövründə – Vətən müharibəsi zamanı Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycandakı yəhudi icmaları, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycandakı Katolik dini icması və Yevangelist-Xristian protestant dini icmaları tərəfindən rus və ingilis dillərində verilən bəyanatlarda erməni vandalizmi pislənilib, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirilib. Azərbaycanda fəaliyyət göstərən dini icma rəhbərlərinin ermənilərin atdığı çoxlu zərbələr nəticəsində dağılmış yerlərə səfərləri olub. Bakı Avropa Yəhudiləri dini icmasının baş ravvini Şneor Seqalın rəhbərliyi ilə "İsrail-Azərbaycan palatası"nın üzvləri də 17 oktyabr 2020-ci il tarixində Gəncəyə səfər edərək evləri dağılan vətəndaşlarımıza dəstək nümayiş etdirib.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) kollektivi 2020-ci ildə müzəffər ordumuzun həyata keçirdiyi zəruri əks-həmlə tədbirlərinə dəstək məqsədilə könüllü olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna vəsait köçürüb. Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun kollektivləri də bu aksiyada fəal iştirak etdi. Vətən müharibəsi dövründə vətənpərvərliyi və vətəndaşlıq borcunu təbliğ edən "Vətən borcu", "Din xadimləri və dindarların vətənpərvərlik istiqamətində apardığı işlər və şəhid dəfnlərinin təşkili", "Şəhidlik", "Qazilik", "Şəhidlər ölməz, Vətən bölünməz", "Qan donorluğuna İslam dinində baxış", "Zəfər bizimdir", "Cəbhədəki qələbələrimiz və bayrağımız", "Qələbəmiz mübarək" kimi mövzularda onlayn tədbirlər keçirilib.

Azərbaycanda yaşayan etnik icma rəhbərləri də Ermənistanın təxribatları ilə bağlı bəyanat yayıblar. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə

[11] "Xalq qəzeti", 27 sentyabr 2020-ci il





Azərbaycan Respublikasında yaşayan etnik icma rəhbərlərinin – İmamverdi Həmidov (talış icması), Əhməde Həpo (kürd icması), İmran Rzayev ("Samur" Ləzgi Milli Mərkəzi), Məhəmməd Nooyev (Azərbaycan-Avar İctimai Birliyi), Mixail Zabelin (Azərbaycanda Rus İcması), Elman Əhmədov ("Azəri" Tat Mədəniyyət Mərkəzi İctimai Birliyi), Milix Yevdayev (Bakı Dağ Yəhudiləri Dini İcması), Robert Mobili (Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması), Aleksandr Şarovski (Avropa Yəhudilərinin Bakı Dini İcması), Rafiq Abdullayev ("Buduq" Xeyriyyə Cəmiyyəti), Gülcan Miəsautova ("Tuqan tel" Tatar Mədəniyyəti Cəmiyyəti), İsmayıl Rəhimov (Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyi), Sevinc Bulacova (İngiloy İcması), Rafael Qvaladzemin (Azərbaycanda yaşayan Gürcü İcması) imzaladığı bəyanatda deyilirdi: "Bu ilin 27 sentyabr tarixində Ermənistan növbəti hərbi təcavüzə əl ataraq atəşkəs rejimini kobud şəkildə pozub, təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini, yaşayış məntəqələrini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutmuşdur. Azərbaycanın cavab həmlələri nəticəsində ciddi tələfat verən düşmən növbəti siyasi-ideoloji təxribata əl ataraq, Azərbaycan Respublikasının guya döyüş əməliyyatlarına müxtəlif xalqların nümayəndələrini zorla cəlb etməsi barədə çirkin məlumat yaymışdır. Onu da yaxşı bilirik ki, Azərbaycanda yaşayan xalqlar arasında əsrlər boyu davam edən sarsılmaz dostluq və qardaşlıq münasibətləri, onların vahid və bölünməz vətən naminə həmrəyliyi özünün sərsəm iddiaları ilə monoetnik dövlətə çevrilən irqçi Ermənistanda həmişə qısqanclıq və qıcıq hissi ilə qarşılanır. Çünki Vətənimiz Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Münaqişənin əvvəllərində olduğu kimi, bu gün də Azərbaycan Milli Ordusunun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə, minlərlə nümayəndələri – əsgər və zabitləri vardır. ... Ermənistanın özünü Azərbaycanda yaşayan xalqların "dostu və himayədarı" kimi təqdim etməsi isə riyakarlıqdan başqa bir şey deyildir. Biz Ermənistanın növbəti çirkin böhtan kampaniyasını qətiyyətlə pisləyir və bir daha bəyan edirik: İşğalçı və marionet Ermənistan dərk etməlidir ki, Azərbaycanın bütün xalqları Vətənimizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın düşməndən azad olunması, məcburi köçkünlərimizin öz ata-baba yurdlarına, Azərbaycanın tarixi torpaqlarına qayıtması uğrunda aparılan müqəddəs mübarizədən heç vaxt kənarda qalmamışdır. Biz etnik və dini mənsubiyyətimizdən asılı olmayaraq, Azərbaycan əsgərlərinin döyüş bölgələrində

uğurlarına sevinəndə, şəhidlərimizə göz yaşları tökəndə onların etnik mənsubiyyətini soruşmuruq. Biz ürəkdən inanırıq və əminik ki, tezliklə Azərbaycanın rəşadətli ordusu üçrəngli bayrağımızı Şuşada, Xankəndidə dalğalandıracaq, şəhidlərimizin qisasını alacaq və mənfur düşmən üzərində böyük qələbə sorağı ilə bizi sevindirəcəklər".[12]

44 günlük Vətən müharibəsində Azərbaycan jurnalistləri də yaxından iştirak etdilər. Vətən müharibəsinin başlanması ilə əlaqədar KİV-lərə müraciətdə informasiya müharibəsinin önəmi vurğulanıb, jurnalist peşəkarlığına riayət edilməsinin mühüm tərəfləri izah olunub, Azərbaycan Mətbuat Şurası jurnalistlərin cəbhəboyu ərazilərdə peşə fəaliyyətlərini yerinə yetirmələrinə dair tövsiyə mətnini yayıb.

Ermənistan-Azərbaycan döyüş bölgəsində baş verən hadisələri diqqətlə izləyən Azərbaycan xalqı cəbhəyə yardım göstərməklə bərabər, mənəvi dəstəyini də davam etdirirdi. Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla almasını, düşmənə sarsıdıcı zərbələr endirməklə cəbhədə əldə etdiyi qələbələri böyük sevinc və ruh-yüksəkliyi ilə qarşılayan Bakı, Mingəçevir və Gəncə şəhərlərinin, Cəbrayıl, Salyan, Beyləqan, Biləsuvar, Füzuli, Quba, Ağdaş, Astara, İsmayıllı, İmişli, Lerik rayonlarının sakinlərinin Prezidentimizə ünvanladıqları məktublarda Ermənistan silahlı qüvvələrinin təxribatına qarşı əks-hücum əməliyyatına başlama haqqında verilən bu cəsur qərar, ordumuzun uğurları alqışlanır və Qarabağın işğaldan azad olunacağı günün uzaqda olmadığına inam ifadə olunurdu.[13] Ali Baş Komandana minnətdarlıqlarını bildirən məktub müəllifləri yazırdılar ki, onlar torpaqlarımızın, dədə-baba yurdumuzun mənfur düşməndən azad olunacağı günləri səbirsizliklə gözləyirlər. Məktublarda əminliklə bildirilirdi ki, bu şərəfli yolda torpaqlarımızı tam şəkildə azad edəcəyimiz gün üçün, Qarabağın azad edilməsi uğrunda canlarından keçməyə hazırdırlar.[14]

44 günlük müharibənin gedişində hərbi əməliyyatlardan uzaqda olan rayonların əhalisinin ön cəbhə ilə əlaqələrinin möhkəmlənməsində, əsgərlərin arxa cəbhədəki vəziyyətlə tanışlığında və xalq-ordu birliyinin yaranmasında "Əsgərə məktub" layihəsi mühüm rol oynadı. Türkiyənin "Haber Global", "CNN Türk", "A Haber", həmçinin Rusiyanın "Pervıy Kanal", "NTV",

[12] "Xalq qəzeti", 28 sentyabr 2020-ci il
[13] "Azərbaycan Ordusu" q., 21 oktyabr 2020-ci il
[14] "Xalq qəzeti", 28 sentyabr 2020-ci il





"Rossiya-1" və "Rossiya-24" telekanallarının "ASAN Könüllüləri" Təşkilatının "Əsgərə məktub" layihəsini əks etdirən xüsusi reportajlarında layihə çərçivəsində qəhrəman Vətən övladlarına ünvanlanan mesajlarda Azərbaycan vətəndaşlarının yüksək qələbə əzmində olduğu, tezliklə işğaldan azad olunacaq torpaqlarda Azərbaycan Bayrağının dalğalanacağına əminlik nümayiş etdirilirdi. Məktub müəllifləri müxtəlif kateqoriyaları təmsil edirdi. Məsələn, Yusifzadə Ayan Vüqar qızı yazırdı: "Salam, qələbə tarixini yazan Azərbaycan əsgəri! Mən Sumqayıt şəhəri Nizami Gəncəvi adına Texniki və Təbiət elmləri liseyinin 8-ci sinfində oxuyuram. Biz sizinlə çox qürur duyuruq. Çünki siz Azərbaycan xalqının arzularını yerinə yetirirsiniz. Bizim 2016-cı ilin aprel ayında daddığımız zəfəri siz davam etdirirsiniz. Hər dəfə mən yeni-yeni torpaqlarımızın azad olunduğunu eşidəndə sizinlə daha da qürur duyuram. Mən sizin hansı əziyyətlərə qatlaşdığınızı bilirəm. Çünki mən də hərbçi qızıyam. Mənim atam şəhid polkovnik Vüqar Yusifovdur. Onun da sizin kimi bir məqsədi var idi – torpaqlarımızı azad etmək. Və bunu bütün əsgərlərimizə öyrətmişdi. Ancaq atamın ən çox bayraq sancmaq istədiyi yer Kəlbəcər idi. Mən çox istərdim ki, siz Kəlbəcərə bayraq sancanda atamın adını da çəkəsiniz. O zaman atam və arzusunda olan bütün şəhidlərimizin ruhu şad olar. Mən bu çətin və şərəfli günlərdə Allahdan sizə güc-qüvvət diləyirəm. Torpaqlarımızı yağı düşməndən azad edib evinizə, əzizlərinizin yanına, doğma yurdlarınıza sağ-salamat qayıdasınız".[15]

Bir ananın məktubuna diqqət yetirək: "Əsgərə məktub yazmışam. Bilmirəm, əsgərin əlinə keçəcək, ya zabitin. Mənim üçün fərq etməz, təki məktub 5 dəqiqəlik fasilədə onu oxuyanın yorğunluğunu çıxarsın, anlatsın ki, hamının düşüncəsində, ürəyindədir. Bunu anlayanda fərəhlənsin, növbəti qələbələrə çatsın".

"Sabahın xeyir, ƏSGƏR! Səsini eşitməsəm də, əminəm ki, sağ və salamatsan, düşmənin başını əzirsən. Biz də sağ və salamatıq. Hər şey qoyub getdiyin kimidir. Televizorun qarşısından çəkilmirik. Eşitmək istədiyimiz tək qələbə xəbərləridir. Şükür olsun bizi yaradana ki, eşitmək istədiyimizi bizə qismət edir. ...Özündən muğayat ol, özünü qoru ki, düşmənin başını əzib qələbə ilə qayıdasan. Səni öpürəm, qucaqlayıb bağrıma basıram.

Səni səbirsizliklə gözləyirəm!"

"Əsgərə məktub" layihəsində elm və təhsil, mədəni-maarif müəssisələri, səhiyyə təşkilatları da fəal iştirak edirdilər. Soyqırımı Memorial Kompleksi

[15] https://www.moderator.az/news/357597.html

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva
Qubadlı və Zəngilan rayonlarında. 24 dekabr 2020-ci il





əməkdaşları, Azərbaycan Milli Elmlər Akademiyasının institutlarının kollektivi Milli Orduya dəstək məqsədilə "Əsgərə məktub" layihəsi çərçivəsində torpaqlarımızın azadlığı uğrunda mübarizə aparan qəhrəman oğullarımızla görüşərək onlara öz sovqatlarını çatdırmışlar. Cəbhədə əsgər və zabitlərlə görüşən əməkdaşlar onlara kollektiv adından isti geyimlər, ərzaq məhsulları, təmizlik və dərman vasitələri, kollektivin üzvləri tərəfindən yazılan məktubları təqdim etmişdilər.

Ermənistanın törətdiyi terror aktlarının ilk qurbanları məktəblilər olmuşdu. Gəncədə baş verən terror aktı nəticəsində yaralananlar – Gəncə şəhəri 32 nömrəli tam orta məktəbin şagirdləri Ömər Mehdiyev 2-ci, Səlim Mustafazadə 11-ci, Murad Cavadov 3-cü, Dinarə Muradova 2-ci, Rauf Muradov 4-cü, Hüseyn Əliyev 3-cü, Sevinc Rəhimova 6-cı sinif şagirdləridir. Aysu Əliyeva isə Gəncə şəhəri 20 nömrəli tam orta məktəbin 10-cu, Şəfa və Şəmiddin Şirinovlar 25 nömrəli tam orta məktəbin 6-cı və 7-ci sinfində təhsil alırlar.

Tərtərdə və Ağdamda hər birində 14, Gəncədə 8, Füzulidə 5, Goranboyda 3, Yevlax, Bərdə və Ağcabədidə isə 1 məktəb binası dağıntılara məruz qalmışdı. Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində 10 məktəblimiz həlak olmuş, 16-sı yaralanmışdır.

Ermənistanın işğalından əziyyət çəkən məktəblilər "Əsgərə məktub" layihəsində fəal iştirak etmişdilər. Məktublar Vətən müharibəsini qalibiyyətlə başa vuran, öz ərazi bütövlüyünü bərpa edən, işğalçı qüvvə üzərində zəfər çalan Azərbaycan Ordusunun əsgərlərinə ünvanlanırdı. Məktublarda şagirdlər öz arzu və istəklərini bildirir, onlarla qələbə sevinclərini bölüşürdülər. Hər məktub bir məktəblinin ordumuza, ordumuzun əsgərinə səmimi müraciəti, onun vətən sevgisi ilə döyünən ürəyinin diktəsi idi. Müzəffər ordumuzun qəhrəman əsgərləri işğaldan azad olunmuş torpaqlarda məktəblilərimizin göndərdiyi məktubları oxuyaraq yalnız olmadıqlarını, bütün Azərbaycan xalqının ürəyinin onlarla birlikdə Qarabağda – Qubadlıda, Zəngilanda, Cəbrayılda, Füzulidə, Ağdamda, Laçında, Kəlbəcərdə döyündüyünü hiss edirdilər.

Əsgərə yazılan məktubların əsas ideyasını "Pələng ruhu tülkü ruhuna dəyişilə bilməz" ideyası təşkil edirdi. "Əsgərə məktub" layihəsində iştirak edən Qarabağ müharibəsi veteranları, qaziləri və Cəmşid Naxçıvanski adına Hərbi Lisey kursantlarının cəbhə bölgəsində döyüş mövqelərində qulluq edən əsgərlərə yazdıqları məktubları əsgərlər oxuyur və videoçəkiliş vasitəsilə cavablandırırdılar.

Arxa cəbhədə çalışan hər kəs – alimindən tutmuş fəhləsinə qədər, kənddə çalışan əməkçi də cəbhədən gələn xəbərləri diqqətlə izləyir, onlara dəstək ifadə edirdi. "Əsgərə məktub" layihəsinə qoşulan Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev 2020-ci il noyabrın 4-də rəşadətli ordumuzun igidlərinə ünvanladığı məktubda yazırdı:

"Azərbaycan əsgəri, sənə əbədilik zəfər, uğur diləyirəm. Fərəh hissləri keçirirəm ki, 30 ildir həsrətini çəkdiyimiz Şuşa, Laçın, Kəlbəcər və digər işğal altında olan torpaqlarımızı azad edirsən. Bilirəm, çoxunuz elə yaşdasınız ki, erməni tapdağında olan yerlərimizi görməmisiniz. Allahdan arzum Sizin sağ-salamat, zəfərlə gedib o yerlərə çatmanız, o yerlərin gözəlliklərini gözlərinizlə görməyinizdir. Doğrudan da, oralar Azərbaycanın ən gözəl guşələridir və azad olunduqdan sonra daha da gözəl olacaq. İnşallah, sağ-salamat qayıdın, Azərbaycanın zəfər paradında iştirak edin. Otuz il bundan qabaqla indini müqayisə etsək, çox şeyin dəyişdiyinin şahidi oluruq. O vaxt xalqda bugünkü kimi birlik, ruh yüksəkliyi olmamışdı. Keçən illər bizə çox dərslər verdi. Mübarizədə qalib gələcəyimizi, torpaqlarımızı ancaq müharibə yolu ilə ala biləcəyimizi, birlik olmasa, heç nə əldə edə bilməyəcəyimizi öyrətdi ötən illər. Bu illərin dərslərini mənimsəyib, hazırda qələbəyə doğru gedirik. Cənab Ali Baş Komandanın dediyi kimi: "Yumruq kimi birləşmişik!".

Yazıçı-dramaturq Əli Əmirli yazırdı: "Adını bilmədiyim əsgər balam, Azərbaycan əsgəri, səni çox-çox uzaqdan, əmin-aman iş otağımdan salamlayıram! Bu əmin-aman şəraiti yaradan sənsən, sənin rəşadətin, sənin cəsarətin, sənin qüdrətindir! Biləndə ki, mən yazı masası arxasında əyləşəndə, çay içib çörək yeyəndə, rahat yerimə uzanıb dincələndə sən soyuq səngərdə, od-alov saçan döyüş meydanında ölümlə üz-üzə dayanmısan. Etiraf edim ki, bu əmin-amanlıqdan, asudəlikdən bir qədər darılıram, amma nə etməli, görünür, bu dava, qəsb edilmiş torpaqlarımızın azadlığı uğrunda gedən müqəddəs savaş sənin qismətinmiş. Atalarımız demiş, hər bir kişinin həyatında mütləq bir müharibə, savaş olmalıdır. Bu sarıdan bəxtin gətirib, sənə müqəddəs bir müharibə qismət olub, bu müharibə müqəddəs olduğu qədər də şərəflidir. Sən vətənimiz Azərbaycanın qiymətli incisi Qarabağın azadlığı uğrunda döyüşürsən. Əsgər balam, sən mütləq qalib gələcəksən, hər cəhətdən möhtəşəm Qarabağımızı azad edəcəksən! Əyilmiş qəddimizi dikəldəcəksən, bizi düşmən tənələrindən, dost qınaqlarından, qonşu kinayələrindən qurtaracaqsan. Cəbhədən qəhrəman kimi qayıdacaqsan! Döyüş, igid





əsgərim, dörd yanına üfunət saçan mənfur düşmənin bağrını yar, məkr dolu qəlbini parçala, üçrəngli müqəddəs bayrağımızı gözəl Şuşamızın ən yüksək zirvəsinə sanc. Qoy bayrağımız o ucalıqda vüqarla dalğalansın!

İgid əsgərim, sən xoşbəxtsən, çünki övladlarına Qarabağsız Azərbaycanı deyil, Qarabağlı bütöv Azərbaycanı miras qoyacaqsan. Bu, gələcək nəsillərə səndən möhtəşəm ərməğan olacaq. Bəlkə də, zaman keçəcək, illər dolanacaq, adın yaddaşlardan silinəcək, amma əməlin, böyük əməlin heç vaxt unudulmayacaq. Xilaskar Azərbaycan əsgəri!"

İncəsənət işçilərinin də məktublarında Azərbaycan əsgərinə dəstək ifadə olunurdu. Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli "Əsgərə məktub"unu "Mənim əziz balalarım, özünüzdən muğayat olun. Qələbənin iyini hiss edirik" sözləri ilə başlamışdı. F.Bədəlbəyli yazırdı: "Siz aslan kimi vuruşursunuz. Amma çox xahiş edirəm, artıq riskə getməyin. Bir müddət də gözləyin. Qoyun vaxt uzun çəksin, təki siz sağ-salamat qayıdasınız. Əsas məsələ özünüzü qorumağınızdır. Siz sağ-salamat lazımsınız.

Biz sizinlə fəxr edirik. Siz tarixi bir qələbə qazanırsınız. Bu qələbəni 30 ildir gözləyirik".

Dunya ictimaiyyətinin etiraz səsini dinləməyən Ermənistanın siyasi-hərbi hakimiyyəti müharibənin aparılmasına dair beynəlxalq konvensiyalara zidd olaraq mülki əhalinin yaşadığı məntəqələri raket atəşinə tutmaqda davam etmişdir. Vətən müharibəsi günlərində müharibə bölgələrindən 100 kilometrlərlə uzaqda olan şəhərlərin raket zərbəsi ilə vurulması Azərbaycan xalqını, xüsusilə cəbhəyanı ərazilərin əhalisini qorxutmadı. 44 günlük müharibədə arxa cəbhənin möhkəm olmasının əsas səbəbi xalqın Prezidentə inamı və güvəni idi.[16] İkinci Dünya müharibəsi dövründə dağılmış Stalinqrad şəhərinə bənzədilən Tərtərə gündə yüzlərlə mərmi düşürdü, amma bir nəfər də tərpənmədi. Mingəçevir və Bərdəyə atılan raketlər nəinki xalqı qorxutdu, əksinə, ön cəbhə ilə arxa cəbhənin birliyini daha da möhkəmləndirdi.

44 günlük müharibədə erməni terroruna məruz qalan şəhərlərdən biri də Gəncə oldu. 2020-ci il oktyabrın 4-də Gəncəyə atılan raket nəticəsində 1 mülki şəxs – Əliyev Tunar Qoşqar oğlu şəhid oldu, 30-dan çox mülki şəxs yaralandı. Bu raket hücumu müharibənin getdiyi Dağlıq Qarabağ bölgəsindən kənara edilən ilk ciddi hücum idi. Gəncəyə ikinci raket oktyabrın 5-də

[16] "Azərbaycan" q., 18 aprel 2020-ci il

atıldı. Hücum nəticəsində 3 mülki şəxs yaralandı, oktyabrın 8-də erməni terrorçuları üçüncü dəfə Gəncəyə raket zərbəsi endirdilər. Oktyabrın 11-də baş vermiş dördüncü raket hücumu nəticəsində 10 mülki şəxs şəhid oldu, 40-dan çox insan yaralandı. Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş verdi. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla 16 nəfər şəhid oldu, 55 nəfər müxtəlif dərəcəli xəsarət aldı. Gəncə şəhərinə səfərdə dünya televiziya kanallarının əməkdaşları, qəzet müxbirləri, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri erməni terrorçularının hücumları zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla digər binalara, avtomobillərə dəymiş ziyanla, insanlığa sığmayan erməni təcavüzünün nəticələri ilə tanış oldular.

Azərbaycan Prezidenti ölkə vətəndaşlarının məğrurluğundan, igidliyindən, qorxmazlığından bəhs edərək bildirmişdi: "Mülki vətəndaşlar, evi dağılıb, malı batıb, yaxın insanını itirib, yenə də deyir ki, Vətən sağ olsun. Ancaq irəli, irəli! Mənə yazılan məktublarda deyilir, Ali Baş Komandan, irəli!"

Bu günlərdə bütün Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdə hər bir vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinib. Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük, yenilməz, dəmir iradəli, müzəffər xalq olduğunu göstərdi. Erməni terrorçularının Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə bir neçə raket zərbəsi endirməsinə baxmayaraq, şəhərin müxtəlif yerlərində qurulan poçt qutusu hər yaşdan olan şəhər sakinlərinin üz tutduğu bir məkana çevrilmişdi. Vətəndaşlar "Salam, əsgər!" sözləri ilə başlayan məktublarda əsgərlərin işğal olunmuş bütün torpaqları xilas edəcəyinə inandıqlarını, evlərinə qalib və sağ-salamat qayıtmalarını xahiş edirdilər. Məktublar dövlət orqanları tərəfindən hər gün cəbhənin müxtəlif yerlərində döyüşən əsgərlərə çatdırılırdı. Məsələn, qızı ilə birlikdə əsgərlərə məktub yazan Xəyalə Hüseynova həyat yoldaşının könüllü olaraq cəbhəyə gedən əsgərlər arasında olduğunu bildirərək bütün əsgərlərlə qürur duyduğunu ifadə etmişdi. 70 yaşlı Afət Əliyeva uşaqlarımızın qələbə ilə hamısının gülə-gülə analarının yanına qayıtmasını arzulamış, onlara güc-qüvvət diləmişdi.

Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri, o cümlədən Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə daxil olan hər üç telekanal – AzTV, Mədəniyyət və İdman, həmçinin Azərbaycan radiosu da bütün efir siyasətini müharibə dövrünün reallıqlarına





kökləd i. AzTV-nin "Xəbərlər" proqramının operativ şəkildə cəbhə və cəbhəyanı bölgələrdən canlı yayımlar aparması, bu ərazilərə ezam olunmuş əməkdaşların bölgə müxbirləri ilə birlikdə çiyin-çiyinə çalışması təqdirəlayiqdir. Həyati təhlükənin olmasına baxmayaraq, əməkdaşlarımız peşə borclarını layiqincə yerinə yetirdilər. Gəncə bürosundan Xaliq Qurbanov və Sədan Zeynalov, Ağdam bürosundan Pərviz İmranoğlu və Elgün Qəmbərov, Tərtər bürosundan Elnur Tofiq və Elmin İsfəndiyaroğlu, büroya ezam olunmuş videooperator Elşad Heydərovun hazırladıqları operativ videomateriallar mövcud reallıqları əks etdirirdi. Telekanalın əməkdaşı, sürücü Namiq Qəmbərovun 14 oktyabr tarixində Tərtər istiqamətində erməni tərəfinin açdığı atəş zamanı yaralanması, AzTV-yə məxsus avtomobilin yararsız hala düşməsi faktı da yaddaşlarımıza yazıldı.

Müharibə günlərində canlı yayımda olan "Səhər" proqramı (3 saat), həmçinin "Gün başladı" (1 saat 30 dəq.), "Çıxışa doğru" (1 saat 15 dəq.), "Əsas məsələ" (gün ərzində iki dəfə olmaqla, hər buraxılışı 1 saat) tok-şouları və "Hədəf" analitik proqramları mütəxəssis fikirləri ilə yanaşı, hadisə yerinə operativ qoşulmalarla da teleauditoriyanın informasiya tələbatını ödəmiş oldu. Bu müddət ərzində yayımlanmış digər verilişlər də bədii-estetik dəyərləri, mədəni-maarifçilik yükü və informativ konteksti ilə seçildi. Müharibə günlərində işğaldan azad olunan şəhər və qəsəbələrimiz haqqında yazılan cümlələrdə Firuzə Nadirin publisistik qələminin istisi hiss olundu. Yunis Orucovun təqdimatında "Jurnalist araşdırması" müharibənin son gününün akkordu sayıldı. Sahəddin Hüseynovun analitik şərhləri dolğunluğu ilə seçilirdi. Bir sözlə, jurnalistlərin məsələyə müvəffəqiyyətli yanaşması nəticəsində tamaşaçılar günün dolğun və spesifik məlumatları ilə tanış oldular.

AzTV-nin əməkdaşları müharibə günlərində Gəncə və Bərdə şəhərlərinə erməni silahlı qüvvələri tərəfindən namərdcəsinə atılmış raketlərin xalqımıza yaşatdıqları ağrı-acıları əks etdirən "Mən Gəncəyəm" və "Xurmalar saralanda" lirik sənədli qısametrajlı filmlərini tamaşaçılara təqdim etdilər. Şəhid və qazilərimizin ömür yolunu işıqlandıran "Vətənə xidmət", "Mən də əsgərəm" verilişləri maraqlı efir həlli ilə müharibə günlərində geniş izləyici auditoriyası topladı. "Xəbərlər" proqramında Vətən müharibəsinin iştirakçıları haqqında səslənən bioqrafik oçerklər, Azərbaycan radiosunda səsləndirilən "Əsgər məktubları" və işğaldan azad olunmuş şəhər və kəndlərimizlə bağlı ensiklopedik məlumatlar, əslində, bir novatorluq idi.

44 günlük Vətən müharibəsinin mövzusu telekanallarda, radiolarda, qəzet və jurnallarda, sosial şəbəkələr və internet resurslarında daim diqqət mərkəzində oldu.[17] YouTube, facebook, instagram, telegram, tik-tok, VKontakte və s. kimi sosial şəbəkələr də arxa cəbhədə insanların müəyyən mənada yaxın məsləhətçisinə çevrildi. "Sosial şəbəkələr insanlara psixoloji təsir sahəsində də böyük rol oynadılar.[18]

Beləliklə, Azərbaycan xalqı "Öncə Vətən" deyib öz dövlətinin lideri ətrafında birləşərək 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsini ön və arxa cəbhədə təmin etdi. 27 sentyabrda başlanmış Vətən müharibəsində Azərbaycanın qələbəsini şərtləndirən, Zəfəri təmin edən başlıca faktor Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin vaxtında müəyyənləşdirdiyi düzgün döyüş strategiyası oldu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı.[19] Qələbənin təmin olunmasını şərtləndirən amillərdən ən əsası ölkəmizdəki milli birlik, həmrəylik oldu. Siyasi baxışlarından, milli, dini mənsubiyyətindən asılı olmayaraq, hər kəs birləşərək Ali Baş Komandanın dəmir yumruğu oldu və bu "Dəmir yumruq" düşməni başından vuraraq onu döyüş meydanında məhv etdi.[20]

[17] https://news.milli.az/society/905724.html
[18] https://sia.az/az/news/social/870468.html
[19] "Azərbaycan Ordusu" q., 30 sentyabr 2020-ci il
[20] https://news.day.az/azerinews/1298050.html



5.4.

# ZƏFƏR PARADI: TARİXİ, SİYASİ VƏ MƏNƏVİ ASPEKTLƏR

2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradı xalqımızın uzun illər arzuladığı möhtəşəm qələbə tədbiri kimi Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazıldı. Hərbi parad Azərbaycanın müasir tarixində ən parlaq və təkrarolunmaz hadisə oldu. Çünki o, məzmunca əvvəlkilərdən fərqlənirdi. Azadlıq meydanında sovet dövründə və müstəqillik illərində bir çox paradlar təşkil olunub, lakin dekabrın 10-da keçirilən parad bu sırada xüsusi yer tutur. Əgər sovet dövründə Azadlıq meydanında (o zaman Hökumət evi qarşısındakı meydan Lenin meydanı adlanırdı) keçirilən paradlar xüsusi kommunist bayramlarına və İkinci Dünya müharibəsində sovet xalqının qələbəsinə həsr olunurdusa, 10 dekabrda keçirilən hərbi parad Azərbaycanın 30 illik müstəqillik tarixində ilk milli Zəfər paradı idi. Bu tarixi hadisə 30 ildən sonra bütün qüvvələrini səfərbər edərək öz torpaqlarını düşməndən azad edən Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini özündə ehtiva edirdi. Dekabrın 10-da keçirilən parad Azərbaycan xalqı üçün böyük mənəvi əhəmiyyət kəsb edir, çünki azərbaycanlıların mübariz və qürurlu, öz tarixi torpaqlarının bütövlüyü uğrunda canlarından keçməyə daima hazır olan bir xalq olduğunu bütün dünyaya göstərdi.

10 dekabr 2020-ci ildə Bakının Azadlıq meydanında keçirilən hərbi paradda 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı, türk əsgər və zabitləri də iştirak etmişdir. Zəfər paradında 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilmişdir. Müharibə zamanı qənimət kimi ələ keçirilmiş Ermənistan silahlı qüvvələrinə məxsus hərbi texnikanın bir qismi, onların nömrələri yerləşdirilmiş "Kamaz" markalı maşın nümayiş olunmuşdur. Şuşa şəhəri azad edildikdən sonra Azərbaycan hərbçiləri tərəfindən şəhər üzərində qaldırılan Zəfər bayrağı parada gətirilmişdir. Çünki Prezident İlham Əliyev 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda söz vermişdi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və Hərbi paradda göstəriləcək. Biz



Prezident İlham Əliyev Zəfər paradında çıxış edərkən. 10 dekabr 2020-ci il





bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".[21] Nəhayət, gözlənilən gün – o böyük gün gəldi, vədə əməl olundu.

Zəfər paradını Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etmişdir. Sözsüz ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin paradda nitqi xüsusi yer tuturdu. Prezidentin nitqi, həmişə olduğu kimi, dərin məzmunu ilə seçilir, hadisələrə baxışda konseptual xarakter daşıyırdı. Prezidentin nitqində münaqişənin tarixi kökləri, beynəlxalq aspektləri, ordu quruculuğu, sülh danışıqlarının uğursuzluğu və müharibənin başlanmasının səbəbləri, qardaş Türkiyənin siyasi və mənəvi dəstəyi, hərbi əməliyyatların gedişatı və yekunları kimi məsələlər, Vətən müharibəsində qələbənin Azərbaycan xalqı üçün tarixi əhəmiyyəti öz əksini tapmışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixinin dərin bilicisi olan, bunu bir çox beynəlxalq tədbirlərdə nümayiş etdirən Prezident İlham Əliyev münaqişənin son 30 ildə tarixinə toxunaraq demişdir: "Əslində, Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış yüz minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb, ancaq Ermənistan rəhbərliyi o vaxt yüz minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır. Ondan sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olunurdu, Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törətmişdir, Xocalı soyqırımını törətmişdir. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdu. 1992-ci ilin may ayında Şuşa şəhərinin və Laçın şəhərinin işğala məruz qalması Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdı. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğal altına düşməsi bizim vəziyyətimizi daha da ağırlaşdırdı və faktiki olaraq, sonrakı işğalçılıq siyasətinin davam etdirilməsinə səbəb oldu".

Birinci müharibədən sonra münaqişənin beynəlxalq aspektlərinə toxunan İlham Əliyev qeyd etmişdir: "Biz uzun illər bütün beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı həqiqətləri çatdırırdıq, böyük iş aparılmışdır və

[21] https://president.az/articles/29538

bu işin səmərəsi oldu. Baxmayaraq ki biz ərazi bütövlüyümüzü döyüş meydanında qazandıq, hesab edirəm ki, son illər ərzində apardığımız siyasi və diplomatik səylər öz bəhrəsini verdi, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə, münaqişənin həlli üçün hüquqi zəmin yaradılmışdır".

Prezident heç vaxt onu gizlətməmişdir ki, sülh danışıqları nəticə verməsə, Azərbaycan dövləti torpaqlarını azad etmək üçün digər vasitələrdən, o cümlədən hərbi gücdən istifadə edəcək. Bunun üçün Azərbaycan Prezidenti son 17 il ərzində ölkə iqtisadiyyatını inkişaf etdirirdi və ordunu gücləndirirdi: "Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik. Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik".

Azərbaycan 30 il ərzində münaqişənin sülh yolu ilə həll olunması üçün Ermənistanla müxtəlif səviyyələrdə danışıqlar aparmışdır. Bu müddətdə Ermənistanda üç prezident dəyişmişdir. İllərdir doğulduqları yerlərdən uzaq qalaraq, yurd həsrəti ilə alışıb-yanan məcburi köçkünlər öz ata-baba ocaqlarına qayıdacaqlarını səbirsizliklə gözləyirdilər, bəziləri ümidlərini itirimişdilər. Belə əhvali-ruhiyyə ilə yaşayan bütöv bir nəsil dəyişmişdi. İşğala son qoymaq üçün Ermənistana təzyiq etmək əvəzinə, ATƏT-in Minsk qrupunun həmsədrləri son bir neçə ildə, demək olar ki, fəaliyyətsizlik nümayiş etdirmişdilər. 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyi baş verəndən sonra yeni erməni lideri danışıqların formatını dəyişməyə və Dağlıq Qarabağ separatçılarının danışıqlarda münaqişə tərəfi kimi iştirakına çalışırdı. Ermənistan tərəfi artıq yüksək səviyyədə açıq şəkildə bəyan edirdi ki, Qarabağ Ermənistandır və bu, ötən 30 il ərzində danışıqlarda əldə edilmiş kiçik nailiyyətləri tamamilə heçə endirirdi. Ermənistanın müdafiə naziri isə açıq şəkildə bəyan edirdi ki, yeni müharibə başlayacağı təqdirdə Ermənistan Azərbaycanın yeni torpaqlarını ələ keçirmək niyyətindədir. Bu bəyanatlar fonunda yalnız Qarabağda qoşunların təmas xəttində deyil, Qarabağdan kənarda Ermənistan-Azərbaycan sərhədində ermənilər tərəfindən qanlı təxribatlar törədilirdi. Bütün bu faktlar Prezident İlham Əliyevin nitqində öz əksini tapmışdır: "Biz dünyada gedən prosesləri diqqətlə izləyirdik və görürdük ki, son illərdə beynəlxalq hüquq və prinsiplər kobudcasına pozulur. Bəzi ölkələr güc tətbiq edərək öz məqsədlərinə çatırlar, beynəlxalq hüquq kağızda qalır, BMT Təhlükəsizlik Şurasının qətnamələri kağızda qalır. Belə olan halda münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi. Bundan əlavə, son illər ərzində, xüsusilə son 2 il ərzində Ermənistanın təxribatçı addımları, bəyanatları, hərəkətləri müharibəni qaçılmaz etmişdi. Ermənistan rəhbərliyinin çox zərərli və təhlükəli bəyanatları, demək olar ki, danışıqlara son qoymuşdu. "Qarabağ Ermənistandır" deməklə Ermənistan rəhbərliyi danışıqlara son qoymuşdu. Bizim tarixi torpaqlarımızda xaricdən gətirilmiş erməniləri məskunlaşdırmaq hərbi cinayətdir, beynəlxalq konvensiyalara ziddir. Bu, faktiki olaraq, danışıqlara son qoyurdu, danışıqları mənasız edirdi və biz bunu görürdük, hiss edirdik və öz sözümüzü beynəlxalq kürsülərdən dünya ictimaiyyətinə çatdırırdıq. Bu ilin sentyabr ayında, müharibəyə 3 gün qalmış mən BMT Baş Assambleyasının kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Belə də oldu və bu il bizə qarşı 3 dəfə hərbi təxribat törədildi. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədində hərbi təxribat törədildi və Ermənistan bizim torpaqlarımızı işğal etmək istədi. Amma biz layiqli cavab verərək onları yerinə oturtduq. Avqust ayında Azərbaycana diversiya qrupu göndərildi. O diversiya qrupu da zərərsizləşdirildi. Biz dedik, yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır".

Beləliklə, Ermənistanın destruktiv hərəkətləri Azərbaycan Prezidentini hərbi əməliyyatların başlanması haqqında qərar qəbul etməyə məcbur etdi və onun gedişində Azərbaycan Ordusu 44 gün ərzində bir dəfə də olsun dayanmadı, ancaq irəli getdi, hər gün yeni-yeni yaşayış məntəqələrini azad etdi. Prezident İlham Əliyev bu haqda deyirdi: "Nəhayət, sentyabrın 27-də bizim kəndlərimiz, hərbi mövqelərimiz artilleriya atəşinə məruz qalmışdır, mülki şəxslər, hərbçilər arasında itkilər olmuşdur. Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri, irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkiləк. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurul-

muşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı".

Prezident çıxışında hərbi dərsliklərə daxil olacaq Şuşa şəhərinin Azərbaycan Ordusu tərəfindən necə azad edilməsi və bu hadisənin tarixi əhəmiyyətini xüsusi qeyd etmişdi: "Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad ediləndən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad edildi".

Prezident qələbəni təmin edən bir neçə amili xüsusilə qeyd etmişdir: "Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Mən bir daha Azərbaycan xalqının qəhrəmanlığını dilə gətirmək istəyirəm. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, bizim şəhərlərimizi ballistik raketlərlə, fosforlu bombalarla, kasetli bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki o evlərə ziyan vurulub. Ancaq Azərbaycan vətəndaşı öz torpağından bir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəfər paradının tribunasında. 10 dekabr 2020-ci il

addım geri atmayıb. Deyirdilər ki, öldü var, döndü yoxdur, sona qədər gedəcəyik. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".

Bunun fonunda Ermənistan ordusunun vəziyyəti acınacaqlı idi: "Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Ermənistan ordusu, demək olar ki, yoxdur, məhv edilib".

Prezident nitqində eyni zamanda Ermənistanda revanşist hisslərlə yaşayan, yeni müharibəyə çağırış edən qüvvələrə də mesaj verdi: "Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə də eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".

İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyi də yüksək qiymətləndirmişdi: "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı

Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda bütün dünyaya göstəririk".

Azərbaycan Respublikasının Prezidenti noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış sazişə qiymət verərkən qeyd etmişdir ki, bu saziş Ermənistanın təslim olmasının, Azərbaycanın isə təkcə hərbi cəbhədə deyil, həm də siyasi müstəvidə qələbəsinin parlaq göstəricisidir: "Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu onu göstərir ki, biz müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmışıq".

Nitqinin sonunda Prezident İlham Əliyev müharibədən sonra Qarabağın azad olunmuş rayonlarında bərpa işlərinin aparılması və onun əhalisinin dinc həyata qayıtması proqramını da açıqlamışdı: "İndi isə bizim üçün yeni dövr başlayır – quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var. Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır. Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da var".[22]

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı zəfərdə qardaş Türkiyənin böyük payı var. Vətən müharibəsi dövründə qardaş ölkənin mövqeyini, gücünü, siyasi, mənəvi dəstəyini bütün dünya gördü. Azərbaycan xalqı, ordusu daim arxasında bu güclü əli hiss etdi, bu bizi qələbəyə daha da ruhlandırdı. Bu baxımdan cənab Rəcəb Tayyib Ərdoğanın Zəfər

[22] https://president.az/articles/48793






Zəfər paradı. 10 dekabr 2020-ci il

paradında iştirakı və qardaş Türkiyə Ordusunun Azərbaycan Ordusu ilə çiyin-çiyinə olması ayrıca qürurverici hadisə idi. Bu bir daha xalqlarımıza, Türk dünyasına, beynəlxalq ictimaiyyətə, eləcə də düşmənə, onun havadarlarına xüsusi mesaj idi.

Prezident İlham Əliyevin çıxışından sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. Ərdoğanın çıxışında bir neçə mühüm fikir diqqəti cəlb etdi. Bu, ilk növbədə, Qarabağın 30 illik işğalına son qoyan Prezident İlham Əliyevin və Azərbaycan Ordusunun fəaliyyətinə verilən yüksək qiymət idi: "Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri, şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir". Türkiyə Prezidentinin çıxışında dərin əminlik ifadə olundu ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bundan sonra da öz tarixinə yeni parlaq səhifələr yazacaqdır.

İkinci mühüm fikir ondan ibarət idi ki, Türkiyə daima Azərbaycanın haqq işində ona dəstək olub: "Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azər-


QARABAĞ
AZƏRBAYCANDIR!
8
NOYABR
ZƏFƏR
GÜNÜ

baycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq".

Ərdoğanın nitqində səslənən üçüncü vacib fikir erməni xalqına olan mesaj idi: "Dağlıq Qarabağa fəlakət, qətliam və göz yaşından başqa heç nə gətirməyənlər də artıq ağıllarını başlarına toplamalıdırlar. Ermənistan rəhbərləri xalqın sərvətlərini Azərbaycanın torpaqlarını işğal altında saxlamaq üçün sərf etmişlər. Halbuki bu potensial mənasız müdafiə xətlərinə, silahlara, gözlərini kin və qan tutmuş rəhbərlərin ehtiraslarına sərf edilməsəydi, bu gün mənzərə çox fərqli olardı. Erməni siyasətçilərin bunu çox yaxşı təhlil edib, sülh və sabitlik əsasında gələcəyi qurmaq məsələsində cəsarətli addımlar atmalarını arzu edirik. Ermənistan xalqının da özlərini keçmişin yalanları ilə ovunduraraq yoxsulluğa məhkum edən diasporun əsarətindən qurtulmasını diləyirik. Qərb imperialistlərinin təhriki ilə bir yerə çatmağın mümkün olmayacağını görməli, düşmənçilik əvəzinə, mehriban qonşuluğa əsaslanan əlaqələr yenidən nəzərdən keçirilməlidir. Ermənistan xalqı Qarabağda yaşananlardan dərs götürərsə, bu, bölgədə yeni bir dövrün başlanğıcı olacaqdır".

Ərdoğanın lirik məqamları ilə qəlblərə toxunan çıxışı Türkiyə Prezidentinin Azərbaycan coğrafiyasına, mədəniyyətinə, tarixinə, ədəbiyyatına yaxından bələd olduğunu göstərirdi: "Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir, həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Kondələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. "Qarabağ şikəstəsi"ni oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır. Gözəlliyinə qurban olduğumuz Laçın, Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər artıq azaddır. Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavadın, Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür".





Zəfər paradı. 10 dekabr 2020-ci il

Çıxışının sonunda Ərdoğan müharibədən sonra Qarabağın bərpasında və abadlaşmasında Türkiyənin daim Azərbaycana kömək edəcəyini bildirmişdi: "Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürəkkürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!"[23]

Beləliklə, 10 dekabr 2020-ci il tarixində Bakıda keçirilmiş Zəfər paradı bir neçə məqamı ilə Azərbaycan xalqının tarixində mühüm əhəmiyyət kəsb edir:

1. Zəfər paradı Azərbaycanın Qarabağ bölgəsinin Ermənistan tərəfindən 30 illik işğalına son qoyan Vətən müharibəsinin başa çatmasının rəmzi oldu.

2. Zəfər paradı Azərbaycan Ordusunun ən müasir silahlarla təchizatını və yüksək professional hazırlığını, son 17 ildə həyata keçirilən düzgün hərbi strategiyanı nümayiş etdirdi.

[23] https://az.azvision.az/news/240868/-erdoganin-zefer-paradindaki-cixisi-tam-metn-.html

3. Zəfər paradı Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu, ermənilər üçün məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olaraq tarixləşdi. Paradda qənimət kimi əldə olunan düşmənin hərbi texnikasının nümayişi Ermənistanın nə dərəcədə ağır məğlubiyyətə uğradığını göstərdi.

4. Zəfər paradında bütün dünya, beynəlxalq ictimaiyyət "bir millət, iki dövlət" ifadəsinin reallığının, Azərbaycan-Türkiyə qardaşlığının, hərbi tərəfdaşlığının şahidi oldu.

5. Zəfər paradı bugünkü və gələcək nəsillər üçün qürur və qəhrəmanlıq mənbəyi olacaq. Paradda küçələrdən keçən ordumuzu, əsgərlərimizi alqışlayan, əllərində Azərbaycan bayrağı "Ən böyük əsgər, bizim əsgər!", "Şəhidlər ölməz, Vətən bölünməz!", "Qarabağ Azərbaycandır!" şüarlarını səsləndirən bugünkü uşaqlar sabah Vətənin keşiyində duran gəncliyimizdir. Kiçik qəlbində böyük Azərbaycan sevgisi daşıyan körpələrin coşqusu Zəfər paradının ən yadda qalan xatirələrindəndir. Bu mənada, Qələbəmizə həsr olunan bu tarixi təntənə – Zəfər paradı böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında müstəsna əhəmiyyət kəsb edir.

6. Zəfər paradı Azərbaycanda xalqla hakimiyyətin birliyini, vətəndaşların Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin apardığı siyasəti tam dəstəklədiyini bir daha sübut etdi.





# ŞƏHİD AİLƏLƏRİ VƏ QAZİLƏRƏ DÖVLƏT VƏ ÜMUMXALQ QAYĞISI

27 sentyabr 2020-ci il tarixində düşmən öz çirkin əməllərindən əl çəkməyərək mülki əhalini və infrastruktur obyektlərini müxtəlif silahlardan atəşə tutdu, səhər saat 06:00 radələrində Ali Baş Komandan qoşunlarımızın bütün cəbhəboyu əks hücum əməliyyatına başlaması barədə tarixi bir əmr verdi. Beləliklə, "Dəmir yumruq" əməliyyatının icrasına başlanıldı. Şanlı Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında müzəffər bir yürüşə çıxdı. 44 gün davam edən bu yürüş Azərbaycan xalqının tarixi qələbəsi, düşmənin isə məğlubiyyəti ilə başa çatdı. 30 ilə yaxın işğalda qalan doğma torpaqlarımız azad olundu, işğala son verildi, ərazi bütövlüyümüz tam bərpa olundu. Bu 44 günlük müharibə müddətində qəhrəman Azərbaycan oğulları şəhadət şərbətini içib, geridə buraxdıqlarını bir an belə düşünmədən ən ali məqsədlər uğrunda ölümün üzərinə yürüdülər. Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi uğrunda aparılan döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi, misilsiz şücaət və rəşadət göstərdi. Xalqımızın igid övladları işğalçı düşmənə qarşı həyata keçirilən əməliyyatlar zamanı canlarından, sağlamlıqlarından keçdilər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2016-cı ildə şəhid anaları ilə görüşdə belə bir ifadə işlətmişdi: "Mən əminəm ki, ədalət bərpa olunacaq. Azərbaycan torpaqları işğaldan azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq".

Bəli, bu gün qəhrəman Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şəhidlərimizin canı, qazilərimizin qanı bahasına tarixi ədaləti bərpa etdi. BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddət ərzində icra olunmayan qətnamələri Azərbaycan Ordusu tərəfindən 44 günə icra edildi.

Hərbi əməliyyatların davam etdiyi müddət ərzində xalq öz Prezidentinin və ordusunun ətrafında sıx birləşməklə bütün dünyaya sübut etdi ki, Qarabağ millətimizin milli ləyaqət rəmzidir və Azərbaycan xalqı Qarabağ arzusundan bir an belə əl çəkməyib. Ordumuzun maddi-texniki təminatının ən yüksək səviyyədə olması ilə yanaşı, xeyirxah və yardımsevər Azərbaycan xalqı "Hər şey cəbhə üçün" şüarı altında səfərbər olub, durmadan gecə-

gündüz ön cəbhəyə yardımlar etdi. Ordumuz daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Azərbaycan Respublikasında hərbi qulluqçuların və şəhid ailələrinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması da daim dövlət siyasətinin əsas tərkib hissəsi olmuşdur. Bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır.

Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Ümumilikdə, mütərəqqi sosial siyasət həyata keçirən Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Xüsusilə, bu gün dövlət başçısı İlham Əliyev Vətən müharibəsi nəticəsində şəhid olanların ailələrinə və fiziki sağlamlığını itirən şəxslərə xüsusi diqqət ayırır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın, ilk növbədə, yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, ölkəmizdə fəaliyyət göstərən banklar Vətən müharibəsində şəhid olan 830 nəfərə aid 1503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsini təmin edibdir.

Eyni zamanda şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı yüksək səviyyədə davam etdirilir.

Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək.

Göründüyü kimi, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımların atılmasını, sosial inkişafda ciddi irəliləyişləri təmin edir. Bütün sosial proqramlar kimi, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlə təminatı proqramı da ildən-ilə uğurla davam etdirilir və əhəmiyyətli şəkildə genişləndirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: "Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dün-






Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə. 11 noyabr 2020-ci il

yada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib". Bütün bunlar göstərir ki, şəhid ailələrinə və qazilərə qayğı göstərmək dövlətin prioritet vəzifəsidir. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır, bundan sonra da saxlayacaq.

Beləliklə, Vətən müharibəsində xəsarət alaraq aşağı ətrafları amputasiya olunmuş 114 qazi 118 yüksək texnologiyalı protezlə təmin olunub.

"Genium" sistemi üzrə hazırlanan yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. Köməkçi vasitələr olmadan ayağa qalxaraq sərbəst və inamlı hərəkətə, qeyri-bərabər səthlərdə də addımlamağa, dəyişən məkanlarda və məqamlarda maneəsiz dönməyə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir.

Yuxarı ətrafları amputasiya olunmuş qazilərin yüksək texnologiyalı protezlərlə təminatı istiqamətində işlər davam etdirilir. Bu tədbirlər çərçivəsində şəhid ailələri və müharibə əlillərindən ibarət 9100 nəfərə 18400 sosial ödəniş təyinatı həyata keçirilib. 7 mindən çox şəxsə sosial-psixoloji və reabilitasiya yönümlü 10 min xidmət göstərilib. 1200-ə yaxın müharibə əlili 8800-dən çox reabilitasiya vasitəsi ilə təmin olunub. Həmin kateqoriyalara aid şəxslərin məşğulluq məsələlərinin həlli sahəsində də müvafiq işlər aparılır. Onlardan 7100 şəxs özünüməşğulluq və digər aktiv məşğulluq tədbirlərinə cəlb olunub.

Bu ilin iyun ayında "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında başladılan "Məşğulluq marafonu"na qoşulan işəgötürənlərin sayı artıq 455-ə çatıb. Marafona qoşulmaqla şəhidlərimizin ailə üzvlərinin, Vətən müharibəsində yaralanmış qazilərimizin məşğulluğuna dəstəyini ifadə edən həmin işəgötürənlərin 234-ü dövlət, 221-i özəl müəssisələrdir. Onlar tərəfindən marafona 2044 vakansiya təqdim edilib. Bu vakansiyalar üzrə işlə təmin olunanların sayı da 566-ya çatıb ki, onlardan 460-ı qazi, 106-sı şəhid ailəsi üzvləridir. Hazırda vakansiyalar üzrə işlərə göndərişlərin verilməsi prosesi davam edir.

Prezident İlham Əliyevin 2021-ci il 25 iyun tarixli fərmanı ilə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması şəhid ailələri və qazilərə əmək,





Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın müalicə olunan hərbçilərlə görüşü. 1 saylı Kliniki Tibbi Mərkəz. 11 noyabr 2020-ci il

məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə xidmətlərin, ümumilikdə 7 qurum üzrə 26 xidmətin "bir pəncərə"dən, operativ və şəffaf, vətəndaş məmnunluğu prinsipləri əsasında göstərilməsinə xidmət edir.

Prezident İlham Əliyevin tapşırığına əsasən, postmüharibə dövründə şəhid ailələri, qazilər, müharibə əlilləri, erməni terrorundan zərər çəkənlər, onların yaxınları ilə bağlı icra olunan sosial dəstək tədbirləri artıq 26 min şəxsi əhatə edib.

Şəhid ailələrinin və Vətənin müdafiəsində iştirak edən şəxslərin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması daim vətəndaş cəmiyyətinin də diqqət mərkəzindədir. Azərbaycan xalqı xeyirxahlıq, fədakarlıq və humanizm prinsiplərini rəhbər tutaraq, təmənnasız kömək ənənələrini davam etdirir, vətəndaşlarımız, xarici ölkələrdə yaşayan soydaşlarımız, sahibkarlar, humanitar və digər təşkilatlar şəhid ailələrinin və hərbi əməliyyat iştirakçılarının zəruri ehtiyaclarının təmin edilməsinə, maddi, tibbi və digər sosial xərclərinin ödənilməsinə yardım sahəsində həmrəylik nümayiş etdirirlər.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində. Abşeron rayonu. 26 avqust 2021-ci il

Məhz bu reallığı nəzərə alaraq, şəhid ailələrinin, hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması, bunun üçün müvafiq platformanın yaradılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Fərman imzalayıb.

Fondun yaradılmasında məqsəd şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.

Həmçinin fond fərmanla müəyyən edilmiş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə təsis olunub. Azərbaycan Respublikasının Prezidenti yanında





Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Fondun vəsaitinin sərəncamçısı müəyyən edilib. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir.

Müvafiq vəsait Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır.

Fond yarandığı gündən etibarən fəaliyyətə başladı. Beləcə, Fond tərəfindən 69 qrup formalaşdırıldı və bu qruplardan biri operativ şəkildə təcili müraciətlərin olduğu yerə yönləndirildi, digər 68 qrup isə regionlarda fəaliyyət göstərdi. Hansı ki şəhid ailələrimizin evlərini ziyarət etmək üçün rayonbarayon, kəndbəkənd dolaşıb, problemləri şəhid ailələrinin dillərindən eşidib, öz gözləri ilə gördülər. Daha sonra həmin məlumatlar elektron bazaya ötürüldü. Ardınca isə məlumatlar təhlil edilib, ödənişlər aşağıdakı dörd fəaliyyət istiqaməti üzrə həyata keçirildi:

– şəhid ailəsi statusu alana və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanması;

– müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi;

– təhsil almasına, habelə əlavə təhsilinə, peşə hazırlığının artırılmasına, eləcə də yaradıcı potensialının inkişafına kömək edilməsi ilə bağlı xərclərin ödənilməsi;

– məişət şəraitinin yaxşılaşdırılması.

Bu görüşlər zamanı ölkə ərazisində 2908 şəhidin ailə üzvləri, habelə 3 894 yaralı olmaqla ümumilikdə 15353 şəxslə görüşülmüş, ehtiyacları qeydə alınmış və 8708 şəxsin icra üçün öhdəliyə götürülmüş 10580 müraciəti öz həllini tapmışdır.

Yardıldığı gündən bu günə kimi Fondun hesabına 62047568.95 AZN vəsait daxil olmuşdur. Fondun fəaliyyət istiqamətləri üzrə 35972 543.82 AZN məbləğində vəsait xərclənmişdir. Belə ki istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması üzrə 617 şəhid ailəsi üzvü, 3 itkin ailəsi üzvü və 582 yaralı olmaqla ümumilikdə 1202 müraciət üzrə 4001771.94 AZN, müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üzrə 1551 şəhid ailəsi üzvü və 1428 yaralı olmaqla ümumilikdə 2979 müraciət üzrə 7311789.83 AZN, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərclərinin ödənilməsi üzrə 35 şəhid ailəsi üzvü və 582 yaralı olmaqla ümumilikdə 37 müraciət üzrə 67142.54 AZN, məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə

3237 şəhid ailəsi üzvü, 5 itkin ailəsi üzvü və 3047 yaralı olmaqla ümumilikdə 6289 müraciət üzrə 24591 839.5 AZN xərclənmişdir.

Eyni zamanda şəffaflığı, operativliyi və əlçatanlığı təmin etmək üçün 8 yanvar 2021-ci il tarixində "YAŞAT" Fondunun *yashat.gov.az* portalı və 8110 çağrı mərkəzi istifadəyə verilmişdir. Portalın "Haqqımızda" bölməsində fondun yaradılması məqsədləri, qanunvericilik və Himayəçilik Şurasının tərkibinə dair məlumatlar yerləşdirilmişdir. Vəsaitlərin xərclənməsi haqqında geniş məlumatın əks olunduğu "Hesabatlar" bölməsində dəstək göstərənlər, xərclənmiş vəsaitlər və edilən ianələr haqqında ətraflı hesabatlar verilmişdir. "Faydalı" bölməsində isə ən çox verilən suallar və onların cavabları ilə tanış olmaq mümkündür.

Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün "Onlar bizə əmanət" layihəsi başlamışdır. Layihənin keçirilməsində məqsəd 27 sentyabrdan sonra dünyaya gələn şəhid uşaqlarına dəstək olmaq, şəhidlərimizin bizə əmanətlərinə xalq olaraq, millət olaraq sahib çıxmaqdır. Çünki onlar bilirdi ki, bir neçə aydan sonra övladları dünyaya gələcək və o körpələr ömür boyu atasız böyüyəcək. Sabah həmin körpələr bağçaya, məktəbə gedəndə, həyətdə oynayanda dostları, rəfiqələri atalarının qabağına qaçanda, qucağına atılanda, bəlkə də, bir küncdə bu mənzərəni ürkək baxışlarla seyr edəcəklər.

Layihə çərçivəsində yeni doğulmuş 102 şəhid övladından 93 şəhid övladına 1000 AZN məbləğində maddi yardım edilmiş, 76 şəhid övladının adına 5000 AZN məbləğində depozit hesabı açılmışdır. Ödəniş prosesi tamamlanmayan vətəndaşlar tərəfindən zəruri sənədlər təqdim olunduqda ödənişin yekunlaşması həyata keçiriləcəkdir.

Müalicəsi ölkəmizdə mümkün olmayan ən ağır yaralılarımız mütəxəssislərin rəyi nəzərə alınaraq ölkə xaricində müalicə olunub sağalması üçün Türkiyə Respublikasına göndərilir. Ümumilikdə, 131 ağır yaralı müalicə məqsədilə Türkiyəyə göndərilmiş, onlardan 82-si sağalaraq ölkəyə geri qayıtmışdır. Hazırda 49 ağır yaralının mualicəsi Türkiyə Respublikasında davam edir.

"YAŞAT" Fondu və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə 2021-ci il 12 iyul tarixindən avqust ayının sonuna qədər şəhid övladları üçün "YAŞAT" düşərgəsi keçirilmişdir. Ümumilikdə, 300-ə qədər uşağı əhatə edən düşərgə altı həftə davam etmişdir. Hər həftə düşərgədə uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatr tamaşaları, öz sahəsində müsbət





Birinci vitse-prezident Mehriban Əliyevanın Heydər Əliyev Fondu tərəfindən yuksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşü. 3 aprel 2019-cu il

imicə malik olan peşəkarlarla, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar və yekunda müğənnilərin iştirakı ilə konsert proqramı keçirilmişdir. Düşərgəyə şəhidlərimizin 8–11, 12–14, 15–18 yaş kateqoriyasında olan övladları qatılmışlar.

"YAŞAT" Fondunun maliyyə vəsaiti hesabına yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq bir illik zəruri məktəb ləvazimatları alınmış, 870-dək şəhid övladını əhatə edəcək hədiyyə qutular hazırlanmış və birbaşa Şəhid ailələrinin mənzillərində uşaqlara təqdim olunmuşdur.

"YAŞAT" Fondunun dəstəyi ilə qardaş ölkə Türkiyədən ölkəmizə dəvət olunan yüksək ixtisaslı həkimlər – ortoped, beyin cərrahı, ümumi cərrah və digərləri tərəfindən Vətən müharibəsində ağır yaralanmış 150-dən çox yaralı, eyni zamanda komada olan ağır yaralılar 3 gün ərzində müayinə edilmişdir.

28 fevral–07 mart 2021-ci il tarixləri arasında İsrail dövlətindən hərbi xəsarətlərin müalicə edilməsi üzrə ixtisaslaşmış 8 mütəxəssis gətirilmiş, qeydiyyatı aparılmış, ağır göz problemləri olan 148 nəfər şəxs müayinə



Prezident İlham Əliyev şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində. 26 avqust 2021-ci il

edilmiş, müayinə nəticəsinə uyğun olaraq 30 nəfər əməliyyat edilmiş, gözün buynuz qışa transplantasiyası əməliyyatı nəticəsində 2 nəfərin görmə qabiliyyəti bərpa olunmuşdur. Həkim heyəti tərəfindən 55 nəfərə protez göz qoyulmuş, 82 nəfər isə, sadəcə, müayinə edilmişdir.

Qədirbilən və xeyirxah, ürəyi Vətən eşqi ilə döyünən həmvətənlərimiz dünyanın hansı ölkəsində olmasından asılı olmayaraq bir an belə işğal altında olan torpaqlarımızı unutmadılar. Onlar diaspor təşkilatları ətrafında sıx birləşib haqq işimizi, Qarabağın əbədi və əzəli Azərbaycan torpağı olduğunu bütün dünyaya çatdırdı. 29 aprel–25may 2021-ci il tarixlərində "Qələbəni bizə yaşadanları birlikdə yaşadaq" şüarı altında dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız "Dəmir yumruq" ətrafında sıx birləşib Zəfər tariximizi öz canları, qanları ilə yazan qazilərə və şəhid ailələrinə dəstək üçün "YAŞAT" xeyriyyə marafonu təşkil etdilər.

Müxtəlif ölkələrdə olan diaspor təşkilatlarımız "YAŞAT" xeyriyyə marafonunda çox fəal iştirak etdilər. 25 may tarixində marafon videoyayım formatında Azərbaycan Televiziyasında (AzTV) nümayiş etdirildi. Yayım zamanı müxtəlif ölkələrdə yaşayan həmvətənlərimizlə və tanınmış şəxslərlə bağlantılar təşkil edildi, şəhid ailələri, Vətən müharibəsi qəhrəmanları, qazilər çıxış etdilər. Həmçinin marafonda iştirak üçün xaricdən 45 çağırış səsləndirildi, 11 "Skype" bağlantısı reallaşdırıldı. Eyni zamanda "YAŞAT" Fondu tərəfindən qısa müddətdə görülən işlər və 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan diasporunun fəaliyyəti barədə hesabatlar təqdim olundu. Ümumilikdə marafon müddətində 1000000 manatdan artıq vəsait toplandı. Xaricdən, diaspor nümayəndələri ən çox ianə edən ölkələrin ilk beşliyində isə Türkiyə, Ukrayna, Rusiya, Böyük Britaniya, İsrail yer aldı. Azərbaycan diasporu tarixində ilk dəfə keçirilən marafonda 63 ölkədən soydaşlarımız, Azərbaycana dost insanlar, eləcə də ölkədəki yerli icmaların üzvləri iştirak etdilər. 6 ölkədən, o cümlədən ABŞ, Türkiyə, İsrail, İtaliya, Banqladeş və Pakistandan xaricilər marafona qoşulmaqla bağlı çağırışlar səsləndirdilər. Əhatə dairəsi olduqca geniş olan marafondu, hətta Baham adaları, Trinidad və Tobaqo, Kolumbiya, Braziliya, Ekvadordan da insanlar iştirak etdilər.

Xaricdə yaşayan azərbaycanlıların və ölkəmizi sevən insanların xeyriyyə marafonunda fəal iştirakının təmin olunmasında son 3 ildə müxtəlif ölkələrdə yaradılan Koordinasiya Şuraları və Azərbaycan evləri ciddi rol oynayıb. Xarici mediada xeyriyyə marafonu ilə bağlı 50-dən çox material dərc olunub, sosial şəbəkələrdə, xüsusilə Telegram kanallarında yayılan yüzlərlə məlumatın 10 minlərlə insana çatması təmin olunub.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "YAŞAT" Fondunun yaradılması dövlətimizin humanizm prinsiplərinə, əhalinin sosial təminatının və rifah halının daha da yaxşılaşdırılması siyasətinə sadiqliyinin, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinə xüsusi həssas münasibətinin növbəti əyani təzahürüdür. Bu Fərman Azərbaycan Prezidenti tərəfindən bəyan olunmuş "Həyata keçirdiyimiz siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır" şüarının təcrübədə yüksək səviyyədə reallaşdığının əyani sübutudur. Prezident bununla bir daha təsdiq etdi ki, dövlətin həyata keçirdiyi ardıcıl sosial siyasət daha da gücləndiriləcək. Azərbaycan dövləti hər bir vətəndaşın, imtiyazlı təbəqənin, dövlət və xalq qarşısında xidmətləri olan şəxslərin sosial məsələlərinin həllini prioritet vəzifə hesab edir.

# VI FƏSİL

# AZƏRBAYCANIN TARİXİ ZƏFƏRİNİN GEOPOLİTİK NƏTİCƏLƏRİ



# AZƏRBAYCANIN İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ QƏLƏBƏSİ VƏ QAFQAZDA YENİ GEOPOLİTİK VƏZİYYƏT

44 günlük Vətən müharibəsi, sadəcə, Azərbaycanın beynəlxalq hüquqa və beynəlxalq təşkilatların müvafiq qərarlarına uyğun şəkildə öz ərazi bütövlüyünü bərpa etməsi ilə nəticələnmədi, eyni zamanda çox ciddi regional və qlobal nəticələr də yaratdı. Azərbaycan beynəlxalq sistemin əsas oyunçularının (xüsusilə BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin və mövcud hərbi ittifaqların) heç birinin dəstək formasında birbaşa iştirakı olmadan, hətta onların önəmli bir qisminə rəğmən nəticə əldə etdi. Heç şübhəsiz ki, çox düzgün olaraq balanslaşdırılmış xarici siyasət kursunun müəyyən edilməsi, bu kursun uğurla icra edilməsi, ordu quruculuğunun xüsusi strateji xətlə aparılması, müttəfiqlərin düzgün seçilməsi, doğru zamanda doğru addımların atılması bu nəticəni təmin edən əsas amillər arasında olmuşdur.

Digər tərəfdən, 44 günlük müharibə dövründə və sonrakı mərhələdə beynəlxalq münasibətlərin mahiyyətinə və beynəlxalq sistemə dair yeni yanaşmalar ortaya çıxdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 sentyabr 2021-ci ildə, BMT Baş Assambleyasının 76-cı sessiyasındakı çıxışında qeyd etdiyi kimi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizminin yaradılması üçün səylərin birləşdirilməsinə ehtiyac artıq özünü daha güclü şəkildə hiss etdirir. Çünki məhz BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etmək üçün Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq etməməsi, ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistanı Azərbaycana qarşı hərbi təcavüzə son qoymağa məcbur etmək üçün qətiyyətli addımlar atmaması, Ermənistanın növbəti təxribatları müharibənin ikinci mərhələsinə gətirib çıxardı.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da uzun müddətdir ki, "dünya beşdən böyükdür" şüarı ilə dünyanın taleyinin BMT Təhlükəsizlik Şurasının qeyri-effektiv idarəetməsinin ümidinə qoyulmasını tənqid edir. Bu tənqid dünyanın digər bir çox ölkəsinin siyasətçiləri və alimləri tərəfindən də bölüşülür. Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, BMT Təhlükəsizlik Şurası da daxil olmaqla, beynəlxalq təşkilatların müvafiq qərarlarının icrasını özünün təmin etməsi, şübhəsiz ki, bu sahədəki müzakirələri də daha effektiv istiqamətə yönəldə bilər.

Eyni zamanda Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsi, ümumiyyətlə, müharibələrlə bağlı hərbi taktikalar, istifadə edilən texnika və s. istiqamətlərdə yeni yanaşmaları ön plana çıxardı. Xüsusilə PUA-lardan istifadə və Şuşanın işğaldan azad edilməsi taktikası hərb tarixində xüsusi səhifə açdı.

Azərbaycan müharibədə böyük üstünlük əldə etməsinə baxmayaraq, vaxtilə Ermənistanın düşdüyü tələyə düşmədi. Keçmişin əsiri olmağı deyil, gələcəyə konstruktiv baxmağı seçdi. Azərbaycanın öz ərazilərini azad etməsi və dərhal sonra ortaya atılan regional əməkdaşlıqla bağlı təkliflər, xüsusilə reallaşdırılması planlaşdırılan Zəngəzur dəhlizi, bütün kommunikasiya imkanlarının canlandırılması təklifi, irəli sürülən üçtərəfli və "altılıq" formatlarındakı əməkdaşlıqlar Cənubi Qafqazın sülh, əməkdaşlıq və rifah bölgəsi olması üçün yeni imkanlar yaratdı. Bu təkliflərin ən önəmli xüsusiyyətlərindən biri də odur ki, bütün region dövlətlərini əhatə edir və heç bir ölkəyə qarşı deyil.

Əslində, Azərbaycan bu yanaşmasında səmimi olduğunu hələ 1994-cü il ilə 2020-ci il arasındakı atəşkəs dövründə də ortaya qoymuş, Ermənistan işğal altında tutduğu Azərbaycan ərazilərini tərk edəcəyi təqdirdə kommunikasiya xətlərini açmağa və regional əməkdaşlığı canlandırmağa hazır olduğunu bildirmişdi. Hətta regional enerji və nəqliyyat layihələrinin Ermənistanı əhatə etməsi ehtimalı da mövcud idi. Amma Ermənistan Azərbaycanın konstruktiv təkliflərinə müsbət reaksiya vermədiyi və işğalçılıq siyasətini davam etdirdiyi üçün bunlar reallaşmamışdı.

Buna baxmayaraq, Azərbaycan müharibədən sonra dərhal müsbət mesajlar verdi və quruculuq işlərinə başladı. Digər tərəfdən isə sülhün möhkəmləndirilməsi, Azərbaycanın bütün ərazilərində dövlət suverenliyinin tam bərpa edilməsi, revanşist meyillərin qarşısının alınması istiqamətində addımlar atıldı.

## Üçtərəfli Bəyanatdan sonrakı ilk addımlar

Azərbaycanın Ermənistanın davam edən təxribatlarına cavab olaraq, işğalçı dövləti sülhə məcbur etmək, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək və beynəlxalq hüququ bərpa etmək məqsədilə 27 sentyabr





2020-ci il tarixində başlatdığı əks-hücum əməliyyatları 10 noyabr 2020-ci il tarixində Ermənistanın təslim olmasını müəyyən edən Üçtərəfli Bəyanatın imzalanması ilə yekunlaşdı.[1] Bəyanatın imzalanmasına qədərki mərhələdə Azərbaycan Ordusu tərəfindən 5 şəhər, 4 qəsəbə və 286 kənd düşmən işğalından azad edilmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanan Üçtərəfli Bəyanat Ermənistan ordusunun Azərbaycan ərazilərini tərk etməsinə paralel olaraq, Rusiya sülhməramlılarının Azərbaycan ərazisinə (münaqişə bölgəsinə) yerləşməsini, 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonunun, 2020-ci il noyabrın 20-dək Ağdam rayonunun işğal altındakı hissələrinin, 2020-ci il dekabrın 1-dək isə Laçın rayonunun işğal altındakı hissələrinin azad edilməsini nəzərdə tuturdu.[2] Ermənistan tərəfi Kəlbəcərin azad edilməsi üçün 5 günün kifayət etməyəcəyini bildirərək Rusiya vasitəsilə əlavə 10 gün möhlət xahiş etmişdi. Azərbaycan tərəfi humanitar məqsədlərlə bu xahişi qəbul etdi və ümumilikdə 1 dekabra qədər Ermənistan ordusu, Rusiya sülhməramlılarının müvəqqəti məskunlaşdıqları Azərbaycan əraziləri istisna olmaqla, Azərbaycan torpaqlarını tərk etdi.

Eyni zamanda sülhün qorunması və daha da möhkəmləndirilməsi prosesində Rusiya ilə yanaşı, Türkiyənin iştirakı məsələsi də gündəmə gəldi. Çünki Azərbaycan cəmiyyətində haqlı olaraq münaqişənin bütün tarixi boyunca Ermənistana tam dəstək verən, iyul provokasiyasından sonrakı mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, Ermənistana min tona yaxın silah-sursat göndərən Rusiyanın bölgədə sülhü təkbaşına qoruma ehtimalı sual doğurur.

Hələ noyabrın 10-da Birgə Bəyanatın imzalanmasından dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa televiziya ilə müraciəti zamanı sənədin 5-ci maddəsinə ("Münaqişə tərəflərinin razılaş-

[1] "İlham Əliyev xalqa müraciət edib", Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 10 noyabr 2020, https://president.az/articles/45924

[2] "Заявление Президента Азербайджанской Республики, Премьер-министра Республики Армения и Президента Российской Федерации", Rusiya Federasiyası Prezidentinin rəsmi saytı, 10 ноября 2020 года, http://kremlin.ru/events/president/news/64384

malara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır") istinad edərək Türkiyə və Rusiya hərbçilərinin bu mərkəzdə birgə fəaliyyət göstərəcəyini, beləliklə, Türkiyənin rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacağını bildirmişdi. Bir gün sonra Türkiyə və Rusiya müdafiə nazirləri Birgə Monitorinq Mərkəzini yaratmaqla bağlı anlaşma memorandumu imzaladılar.[3]

16 noyabr 2020-ci il tarixində Türkiyə hökuməti Böyük Millət Məclisinə Azərbaycana sülhməramlıların göndərilməsi ilə bağlı Türkiyə prezidentinə xüsusi səlahiyyət verilməsini nəzərdə tutan qərar layihəsini təqdim etdi.[4] Türkiyə Böyük Millət Məclisi 17 noyabr 2020-ci il tarixində bu barədə qərar qəbul etdi.[5] Qərar 18 noyabr 2020-ci il tarixində "Resmi Gazete"də yayınlanaraq qüvvəyə mindi.[6]

Rusiya qarşı çıxsa da, Azərbaycanın və Türkiyənin xüsusi təkidi ilə Birgə Monitorinq Mərkəzinin Ağdam şəhərində açılmasına qərar verildi. 30 yanvar 2021-ci il tarixində atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılışı oldu.[7] Mərkəz hazırda da fəaliyyətini davam etdirir.

10 noyabr razılaşmasından sonra Azərbaycan rəhbərliyi regionda yeni mərhələnin başladığını, münaqişənin bitdiyini, artıq sülhü möhkəmləndirməyin və quruculuq işləri ilə məşğul olmağın vacibliyini qeyd etsə də, Ermənistan buna tam əməl etmədi. Azərbaycan ərazisindəki qeyri-qanuni

[3] "Turkey, Russia to set up joint center to watch Nagorno-Karabakh peace". Hürriyet Daily News, November 11 2020, https://www.hurriyetdailynews.com/turkey-russia-to-set-up-joint-center-to-watch-nagorno-karabakh-peace-159920

[4] "Turkey seeks approval to deploy peacekeepers in Azerbaijan", Al Jazeera, November 16, 2020, https://www.aljazeera.com/news/2020/11/16/turkey-seeks-approval-to-deploy-peacekeepers-in-azerbaijan

[5] "1272.nolu Son Dönem TBMM Kararının Metni", TBMM, https://www5.tbmm.gov.tr/tbmm_kararlari/karar1272.html; "Turkish parliament approves peacekeepers for Azerbaijan", Associated Press, November 18, 2020

[6] "TBMM KARARI", Resmi Gazete, 18 noyabr 2020-ci il, Sayı: 31308, https://www.resmigazete.gov.tr/eskiler/2020/11/20201118-1.pdf

[7] "Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılış mərasimi keçirilib", Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı, 30 yanvar 2021-ci il, https://mod.gov.az/az/news/turkiye-rusiya-birge-monitorinq-merkezinin-acilis-merasimi-kecirilib-video-34668.html; "Российско-турецкий центр в Карабахе начал свою работу", Interfax, 30 января 2021, https://www.interfax.ru/world/748609





erməni silahlı qruplarının ölkəmizi tərk etmə prosesi yubadılmağa çalışıldı. Bu azmış kimi, Laçın–Xankəndi yolu (şərti olaraq "Laçın dəhlizi" adlandırılan yol) ilə Azərbaycan ərazisinə yeni erməni silahlıları göndərildi.

2020-ci il noyabr ayının 26-da Müdafiə Nazirliyinin işğaldan azad olunmuş Xocavənd rayonunun Sur kəndində xidmət aparan hərbçilərinə ermənilərin qəfil hücumu nəticəsində Azərbaycan Ordusunun 3 qulluqçusu şəhid oldu, 2 əsgər isə yaralandı. Dekabrın 8-də Xocavənd rayonunun Hadrut qəsəbəsi yaxınlığında rabitə qurğularının və ötürücü avadanlıqların quraşdırılması işlərinin aparılması zamanı erməni silahlılarının növbəti təxribatı nəticəsində 1 əsgər şəhid oldu və "Azercell" şirkətinin əməkdaşı ağır yaralandı. Bunlara cavab olaraq, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti bu bölgədə antiterror əməliyyatı keçirmək məcburiyyətində qaldı.[8] Əməliyyat nəticəsində həbs edilənlərdən 13 nəfərinin 10 noyabr razılaşmasından sonra Azərbaycan dövlət sərhədini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi hissədən keçərək ölkəmizə daxil olan Ermənistan ordusunun hərbi qulluqçusu olduğu istintaq prosesində ortaya çıxdı. Azərbaycan bununla bağlı Ermənistana və Rusiyaya etirazını bildirdi.

Rusiya sülhməramlılarının missiyalarına uyğun davranmamağa davam etməsi Türkiyənin də narahatlığına səbəb oldu. Hətta Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu 15 yanvar 2021-ci il tarixində Pakistandan qayıdarkən təyyarədə jurnalistlərə verdiyi açıqlamada Rusiya sülhməramlılarının hüquqi statusunun müəyyən olunmadığını, bunun müəyyən edilməsinin zəruriliyini, eyni zamanda Azərbaycanın dövlət sərhədindən keçişlərə Azərbaycanın özünün nəzarət etməli olduğunu vurğuladı.

10 noyabr razılaşmasından sonrakı ən mühüm hadisələrdən biri dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradının keçirilməsi oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə yanaşı, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücu-

[8] "Müdafiə Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin məlumatı", Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı, 13 dekabr 2020-ci il, https://mod.gov.az/az/news/mudafie-nazirliyi-ve-dovlet-tehlukesizliyi-xidmetinin-melumati-34074.html

mundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu.[9] Zəfər paradında Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən xüsusi təyinatlıların müttəfiq qismində iştirak etməsi ikitərəfli münasibətlərin hərbi xarakterinin dərinləşməsinin nümunəsi kimi qeyd edildi. Digər tərəfdən, Zəfər paradında Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirilən hərbi qənimətlərin bir qisminin nümayiş etdirilməsi dolayısı ilə bəzi qüvvələrin, o cümlədən ermənipərəst siyasətçilərin və ekspertlərin mənfi reaksiyasına səbəb oldu. Amma Azərbaycanın məsələyə yanaşması birmənalı idi: işğala, onun uzanmasına, düşmənin hərbi qabiliyyətinin gücləndirilməsinə töhfə Zəfər paradında məğlub qismində nümayiş etdirilməli idi. Bu, sadəcə, keçmişə nəzər, keçmişlə hesablaşma deyildi. Eyni zamanda gələcəyə dair mesaj idi. Gələcəkdə bizimlə birgə olmaq istəyənlər işğalçının və işğalçılığın yanında durmamalı, onu dəstəkləməməlidir. Əks halda, yenə eyni aqibətlə üzləşə bilərlər.

## Sülhün möhkəmləndirilməsi fəaliyyətləri

10 noyabr razılaşması müharibəni dayandırsa da, aydın məsələdir ki, uzunmüddətli sülhün əldə olunması üçün detallı sülh müqaviləsinə ehtiyac var. Amma bu sənəd imzalanana qədər liderlər sülhün möhkəmləndirilməsi, mübahisəli məsələlərin mümkün qədər müzakirə edilməsi və əməkdaşlıq imkanlarının gücləndirilməsi üçün səyləri davam etdirməli idi. Bu çərçivədə 11 yanvar 2021-ci il tarixdə Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında üçtərəfli görüş keçirildi. Görüşün yekunu olaraq Birgə Bəyanat imzalandı və liderlər mətbuata bəyanatla çıxış etdilər.[10] 11 yanvarda imzalanan bəyanat

[9] "İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər", Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 10 dekabr 2020-ci il, https://president.az/articles/48788

[10] "Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı", Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 11 yanvar 2021-ci il, https://president.az/articles/50070





10 noyabr tarixli Üçtərəfli Bəyanatın 9-cu maddəsinin icrası ilə bağlı idi. Bildiyi kimi, 9-cu maddə bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsini, Ermənistan Respublikasının vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verməsini nəzərdə tuturdu. Amma Ermənistan tərəfinin açıqlamalarında sanki bu məqam təkzib edilməyə çalışılırdı. Bu səbəbdən də 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatın 9-cu bəndinə uyğun olaraq, regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasının reallaşdırılması məqsədilə xüsusi bir üçtərəfli sənədin imzalanması, sənədin 1-ci maddəsində qeyd olunduğu kimi, Azərbaycan, Ermənistan və Rusiya Federasiyası baş nazirləri müavinlərinin birgə həmsədrliyi ilə üçtərəfli İşçi qrupun yaradılması barədə qərar qəbul olunması müsbət hal oldu.[11] Sənədin digər maddələrində işçi qrupun fəaliyyətinin digər detalları müəyyən edildi.

Bu müsbət sənədin imzalanmasına baxmayaraq, mətbuata açıqlamalarda vahid mövqe nümayiş etdirilmədi. Azərbaycan Prezidenti İlham Əliyev mətbuata açıqlamasında münaqişənin geridə qaldığını qeyd etdi və bildirdi ki, biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmləndirmək haqqında düşünməliyik. Əslində, Rusiya Prezidenti Vladimir Putin də daha öncəki çıxışlarında münaqişənin geridə qaldığını qeyd etmişdi. Amma 11 yanvar tarixli görüşdən sonra mətbuata açıqlamasında Ermənistanın Baş naziri Nikol Paşinyan münaqişənin hələ nizamlanmadığını, davam etdiyini, "Dağlıq Qarabağ"ın statusunun müəyyən edilməli olduğunu iddia edərək destruktiv mövqe nümayiş etdirdi.[12]

Qeyd edək ki, işçi qrup ilk iclasını yanvarın 30-da keçirdi, bu çərçivədə alt ekspert qrupları da yaradıldı. Ümumilikdə 6 görüş keçirildikdən sonra Ermənistanda 20 iyunda keçirilən parlament seçkiləri fonunda bu ölkənin

[11] "Заявление Президента Азербайджанской Республики, Премьер-министра Республики Армения и Президента Российской Федерации", Rusiya Federasiyası Prezidentinin rəsmi saytı, 11 января 2021 год, http://kremlin.ru/supplement/5606

[12] "Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri mətbuata bəyanatla çıxış ediblər", Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 11 yanvar 2021-ci il, https://president.az/articles/50071

iddiaları sərtləşdi və görüşlər dayandırıldı. İşçi qrupun görüşləri 17 avqust 2021-ci il tarixindən etibarən bərpa edildi.[13]

Zəfərin möhkəmləndirilməsi ilə bağlı fəaliyyətlərin önəmli bir istiqamətini işğaldan azad edilmiş ərazilərə səfərlər və bu ərazilərdəki quruculuq işləri təşkil etdi. Bu çərçivədə ilk olaraq prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfər etdilər. Bu səfər zamanı Prezident İlham Əliyev çıxışında bir neçə vacib məqamı xüsusi vurğuladı. Bunlardan biri quruculuq işlərinin dərhal başlaması ilə bağlı idi. Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistanın kapitulyasiyasından, sadəcə, 6 gün keçəndən sonra artıq Füzuli-Şuşa avtomobil yolu çəkilir.[14] Yəni quruculuq və dərhal quruculuq Azərbaycan üçün çox önəmlidir. Çünki Azərbaycanın fikrincə münaqişənin hərbi mərhələsi başa çatıb və artıq qalan detalların siyasi yolla həlli mərhələsi gedir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci il noyabrın 23-də işğaldan azad edilmiş Ağdam şəhərinə, 23 dekabrda Qubadlıya, Zəngilana, 2021-ci il yanvarın 15-də Şuşa şəhərinə, 14 fevralda Füzuli, Zəngilan və Laçın rayonlarına, 15 martda Füzuli, Xocavənd rayonlarına, 16 martda isə yenidən Şuşa şəhərinə səfər etdi. Bütün bu səfərlərdə 44 günlük zəfərin geri dönməzliyi, münaqişənin hərbi mərhələsinin Azərbaycan üçün geridə qaldığı, Azərbaycanın quruculuq işlərinə başladığı, regionun sülh və əməkdaşlıq regionu olması üçün bütün imkanlarını səfərbər etməyə hazır olduğu, amma Ermənistanda revanşist meyillər davam etdiriləcəyi halda Azərbaycanın yenidən işğalçı dövlətə layiqli cavab verəcəyi xüsusi qeyd edildi.

140 illik tarixi olan Horadiz-Zəngilan-Ağbənd beynəlxalq dəmir yolunun bərpa edilməsi ilə bağlı fəaliyyətlər başladı. Füzuli, Zəngilan və Laçında aeroportların tikilməsi istiqamətlərində işlərə start verildi. 5 sentyabr 2021-ci il tarixində ilk təyyarə Füzuli Beynəlxalq Hava Limanına endi.[15]

[13] "Trilateral working group on Karabakh resumes work in Moscow", TASS, August 17, 2021, https://tass.com/world/1327133

[14] "İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar", Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 15 noyabr 2020-ci il, https://president.az/articles/46840

[15] "Azerbaijan inaugurates its first airport in Karabakh", Eurasianet, September 9, 2021, https://eurasianet.org/azerbaijan-inaugurates-its-first-airport-in-karabakh





7 iyul 2021-ci il tarixində (Azərbaycan ərazisində onun iradəsinə zidd şəkildə qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yaradılmasından 98 il sonra) Prezident İlham Əliyevin fərmanı ilə Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını əhatə edən Qarabağ iqtisadi rayonu və Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarını əhatə edən Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı. Bu addım regionun yeni reallıqlarının ifadəsi və Zəngəzur dəhlizinin canlandırılması istiqamətində növbəti addım kimi dəyərləndirildi.

Azərbaycan Ermənistanla dövlət sərhədini bərpa etmək üçün praktiki addımlar atmağa başladı. Bu prosesdə həm Ermənistanın bəzi rəsmiləri, həm də bəzi xarici dövlətlər beynəlxalq hüquqa zidd mövqe nümayiş etdirdilər. Əslində isə beynəlxalq aləmdən gözlənən həm sərhədlərin delimitasiyası və demarkasiyası, həm də mina xəritələrinin Azərbaycana təhvil verilməsi üçün Ermənistana təzyiq göstərilməsi idi. Bu istiqamətdə Ermənistan tərəfinin və bəzi dövlətlərin mövqeyi arzuolunmaz şəkildə olsa da, Azərbaycan addımlarını qərarlı şəkildə atdı və dövlət sərhədini bərpa etdi. Hazırda sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin başa çatması üçün Ermənistanın konstruktiv mövqe nümayiş etdirməsi və müvafiq sənədi imzalamağa razı olması tələb olunur.

## Şuşa Bəyannaməsi: Azərbaycan-Türkiyə müttəfiqliyi regional sabitliyin təminatı kimi

Qələbənin əbədiləşdirilməsi və sülhün möhkəmləndirilməsi istiqamətində ən önəmli addımlardan biri Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın 15–16 iyun 2021-ci il tarixində Azərbaycana səfəri, bu səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə Şuşaya getməsi və burada iki dövlət arasında tarixi sənədin imzalanması oldu.[16] 15 iyun 2021-ci il tarixli Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi, ilk növbədə, simvolik məna daşıyırdı: mənəvi, siyasi, texniki və s. dəstəyin artmağa

[16] "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi", Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 16 iyun 2021, https://president.az/articles/52122

davam edəcəyinin və prosesin geri döndərilməsinə icazə verilməyəcəyinin simvolu olaraq. Amma təbii ki, bu sənədin çox ciddi praktiki nəticələri də oldu.

Əslində, Azərbaycan ilə Türkiyə arasında 24 yanvar 1992-ci il tarixli Dostluq və Əməkdaşlıq haqqında Sazişini, 2 noyabr 1992-ci il tarixli Əməkdaşlıq və Həmrəylik haqqında Sazişini, 9 fevral 1994-cü il tarixli Dostluq və Hərtərəfli Əməkdaşlığın İnkişafı barədə Müqavilənin, 5 may 1997-ci il tarixli Strateji Əməkdaşlığın Dərinləşdirilməsi haqqında Bəyannamənin imzalanması münasibətlərin strateji xarakteri üçün baza yaratmışdı. 16 avqust 2010-cu il tarixində Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında Sazişin imzalanması və 15 sentyabr 2010-cu il tarixində iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması ilə iki ölkə arasındakı münasibətlər xüsusi bir mərhələyə keçmişdi. Məhz bu hüquqi baza çərçivəsində inkişaf etdirilən strateji tərəfdaşlıq, hər iki ölkənin fəal xarici siyasəti, xüsusilə Azərbaycanın öz ərazilərini Ermənistan işğalından xilas etmək əzmi 44 günlük müharibədə zəfəri təmin etdi.

Yeni dövrdə münasibətlərin xarakteri ilə bağlı yeni sənədə ehtiyac var idi və bu sənədin yeni mərhələyə keçidin (Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsinin) simvolu olan Şuşada imzalanması sənədin önəmini daha da artırdı.

Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyə arasında imzalanan və adında "ittifaq" sözü keçən ilk sənəd idi. Bəyannamənin müqəddiməsində 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiqliyi və ümumi maraqlara əsaslanan regional və beynəlxalq strateji məsələlər üzrə fəaliyyətin qarşılıqlı əlaqələndirilməsinin zəruriliyini vurğulamaq çox vacibdir. Bəyannamədə Qarabağ münaqişəsinin sona çatması ilə bağlı Azərbaycanın mövqeyi tam dəstəkləndi ("Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi") və 44 günlük müharibədən əvvəlki dövrə qayıtmaq səylərinə münasibət açıq şəkildə ortaya qoyuldu.

Tərəflərin bütün vacib məsələlərdə və bütün platformalarda (beynəlxalq və regional təşkilatlar çərçivəsində) bir-birini tam dəstəkləyəcəyi sənəddəki "bir millət – iki dövlət" ruhunun nümayişi idi.





Şuşa Bəyannaməsinin imzalanması. 15 iyun 2021-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyanatı imzalayarkən. Şuşa, 15 iyun 2021-ci il

Tərəflərin hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə məsləhətləşmələr aparılması və birgə addımlar atılması nəzərdə tutulur ki, bu da müttəfiqliyin əsas xüsusiyyətlərindən biri, eyni zamanda revaşnist niyyətlərə qarşı birgə duruşun göstəricisi kimi başa düşülməlidir. Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsinin, iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylər göstərilməsinin nəzərdə tutulması da ikitərəfli münasibətlərin strateji xarakterində 16 avqust 2010-cu il tarixli Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında Sazişdən irəliyə doğru addım kimi qiymətləndirilməlidir.

Şuşa Bəyannaməsi və səfər zamanı verilən bəyanatlar təkcə Azərbaycan–Türkiyə münasibətləri baxımından deyil, ümumiyyətlə, bölgənin gələcəyi üçün çox əhəmiyyətlidir. İlk dəfə idi ki, Azərbaycan və Türkiyə öz aralarında imzaladıqları bir sənəddə ikitərəfli münasibətlərdən kənar mövzular





barədə bu cür önəmli ifadələr işlədirdilər. Bəyanatda tərəflərin Qafqaz regionunda sabitliyi və təhlükəsizliyi möhkəmləndirmək, iqtisadiyyat və nəqliyyat sahəsindəki bütün əlaqələri bərpa etmək, eləcə də bölgə dövlətləri ilə münasibətləri normallaşdırmaq səylərini davam etdirəcəkləri bildirilirdi. Beləliklə, uzunmüddətli sülhü təmin etmək və əslində, iki liderin 44 günlük müharibənin bitməsindən etibarən mütəmadi vurğuladığı məsələlər rəsmi bir sənəddə öz əksini tapmışdır. Bu həm də bəzi dövlətlərin 44 günlük müharibədən öncəki duruma qayıtmaq səylərinə qarşı Azərbaycan və Türkiyənin ortaq mövqeyinin göstəricisidir.

Şuşa Bəyannaməsində, Türk dünyası ilə bağlı məqamlar 6 yerdə vurğulanırdı. Şuşa Türk dünyasının qədim mədəniyyət beşiyi kimi qeyd edilirdi. Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılması üçün səylərin birləşdirilməsinin vacibliyi qeyd edilirdi.

Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılması, Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığın gücləndirilməsi, Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türk dövlətlərini birləşdirən regional təşkilatların fəallığının artırılması prioritet məqsədlər arasında qeyd edildi.

Sənəddə Zəngəzur dəhlizindən də bəhs edilirdi ki, bu baxımdan da Şuşa Bəyannaməsi ilk sənəd kimi qeyd edilə bilər. Dəhlizin açılışı həm Türkiyə ilə Azərbaycan arasında regional əməkdaşlıq baxımından, həm də ümumilikdə xüsusi strateji önəm kəsb edən bir hal kimi qiymətləndirildi. Ümumilikdə, Şuşa Bəyannaməsi Azərbaycanın artan gücünün və əldə edilən zəfərin qorunmasının təminatçısı kimi dəyərləndirilə bilər.

Şuşa Bəyannaməsinin imzalanmasından sonrakı mərhələdə Azərbaycan quruculuq fəaliyyətini və daimi sülhün əldə olunması üçün təkliflərini davam etdirdi. Amma təəssüf ki, Ermənistan və bəzi xarici dövlətlər destruktiv mövqelərində israr edirlər. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 sentyabr 2021-ci ildə, BMT Baş Assambleyasının 76-cı sessiyasında videoformatda çıxışında bir daha bu məqamla bağlı narahatlığını ifadə etmiş, Ermənistanı daha konstruktiv mövqe nümayiş etdirməyə dəvət etmişdir. Prezident İlham Əliyev xatırlatmışdır ki, onun bir il öncəki xəbərdarlıqlarına lazımi reaksiya verilmədiyi

üçün 27 sentyabr 2020-ci ildə regionda müharibə başlamışdır: "Ötən ilin sentyabrında BMT Baş Assambleyasındakı çıxışım zamanı mən sizin diqqətinizi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etdirilməsinə, Ermənistan hökumətinin təcavüzkar bəyanatlarına və hərəkətlərinə yönəltdim. Bu gün qürur hissi ilə deyirəm ki, Ermənistan döyüş meydanında məğlub edildi və Azərbaycan işğala son qoydu."[17]

Prezident İlham Əliyev Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bənzər qərarlara məhəl qoymamasını və beynəlxalq təşkilatların da buna laqeyd münasibət göstərməsini tənqid etmişdir. O, BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində icra edildiyi halda, Azərbaycana gəldikdə, 27 il icra olunmamış qalmasını ikili standartların bariz nümunəsi kimi qiymətləndirmişdir. Selektiv yanaşmaya yol verilməməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizminin yaradılması istiqamətində səylərin birləşdirilməsinə ehtiyac olduğunu qeyd etmiştir. Prezident İlham Əliyev xüsusi vurğulamışdır ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin etmişdir və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır.

Qeyd edək ki, eyni iclasda çıxış edən Türkiyə Prezidenti Ərdoğan da Azərbaycanın 44 günlük müharibə ilə beynəlxalq hüquqa uyğun olaraq öz ərazilərini Ermənistan işğalından azad etdiyini vurğulamışdır.[18]

İlham Əliyevin Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsində vurğuladığı bu üç məqam da qələbənin əbədiləşdirilməsi baxımından önəmlidir[19]:

[17] "BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub", Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 24 sentyabr 2021, https://president.az/articles/53197

[18] "Turkey's Erdogan: Refugee Crisis From Climate Change Coming", U.S. News, September 21, 2021, https://www.usnews.com/news/world/articles/2021-09-21/turkeys-erdogan-refugee-crisis-from-climate-change-coming

[19] "Все 44 дня мы шли только вперед!", Национальная оборона, 24 сентября 2021, https://oborona.ru/product/zhurnal-nacionalnaya-oborona/vse-44-dnya-my-shli-tolko-vpered-42610.shtml





1. Əgər Ermənistan Azərbaycana qarşı ərazi iddialarını davam etdirsə, Azərbaycanın Ermənistana qarşı ərazi iddialarından çəkinməsi çətin olacaq. Bundan ötrü elə həmin Zəngəzurun və elə həmin Göyçə gölü regionunun tarixi mənsubiyyəti baxımından bizim daha çox əsasımız, ərazi iddiaları üçün daha çox tarixi zəmin vardır. Biz ki belə iddialar təqdim etmirik.

2. Məğlub olmuş, kapitulyasiya haqqında akt imzalamış Ermənistan nəyə görə hesab edir ki, onun Dağlıq Qarabağ üçün hansısa status – mövcud olmayan şey üçün status barədə danışmağa haqqı var? Dağlıq Qarabağ yoxdur. Qarabağ iqtisadi rayonu var, Şərqi Zəngəzur iqtisadi rayonu var. Bunlar bizim ərazidir və bizdə hansı inzibati vahidlərin ola biləcəyini biz müəyyən etməliyik. Yalnız biz etməliyik, bizdən başqa heç kim, heç bir ölkə, xüsusən Ermənistan bunu edə bilməz!

3. Buna görə düşünürəm ki, status barədə və Dağlıq Qarabağ barədə bu çeynənilmiş sözlər Ermənistan üçün böyük təhlükə mənbəyidir və yaxşı olar ki, bizi qəzəbləndirməsinlər, qıcıqlandırmasınlar, nə qədər ki bizim təklifimiz masa üzərindədir, onunla razılaşsınlar. Əks halda, müharibə dövründə olanlar təkrarlana bilər. Axı biz vaxtında dayanmağı təklif edirdik. Biz könüllü şəkildə çıxmalarını təklif edirdik, lakin onlar razılaşmadılar və indi nəticəsini görürlər. Eyni vəziyyət bu dəfə də yarana bilər.

Beləliklə, Azərbaycan əsasən 44 günlük müharibədə uğuru təmin edən amillərlə sülhü və əldə edilən qələbəni möhkəmləndirməyə, Cənubi Qafqazın sülh və əməkdaşlıq regionu olmasına çalışır. Bunlar, ilk növbədə, Azərbaycanın daxili siyasi birliyinin, diplomatik qabiliyyətinin, hərbi və iqtisadi potensialının daha da gücləndirilməsidir.

Sülhə nəzarət prosesinin Türkiyə və Rusiya tərəfindən birgə həyata keçirilməsi regional balansın qorunması baxımından vacibdir. Çünki həm Ermənistan daxilində, həm də regionda və regiondan kənar güclər arasında münaqişənin həllini arzulamayanlar, bu baxımdan Ermənistandakı revanşist meyilləri təşviq edənlər mövcuddur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə apardığı quruculuq işləri, regional səviyyədə əməkdaşlığın gücləndirilməsi üçün göstərilən səylər və atılan addımlar, regional kommunikasiyanın açılması və Türkiyə-Ermənistan münasibətlərinin yaxşılaşdırılması da daxil olmaqla, geniş çərçivəli əməkdaşlıqla bağlı təkliflər Cənubi Qafqazın gələcəyi baxımından inam yaradır.

Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük müharibədən öncə dəfələrlə Ermənistanı işğal altında tutduğu Azərbaycan ərazilərini dinc yolla azad etməyə dəvət etdi. BMT Baş Assambleyasının 75-ci iclasında, 24 sentyabr 2020-ci ildə bildirdi ki, təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir: "Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir."

Amma beynəlxalq təşkilatlar öz missiyalarını uğurla yerinə yetirmədilər. Ermənistan təxribatlarına davam etdi və müharibə qaçılmaz oldu.

Azərbaycan Prezidenti İlham Əliyev 23 sentyabr 2021-ci ildə, BMT Baş Assambleyasının 76-cı sessiyasındakı çıxışında və bir gün sonra "Nasionalnaya oborona" jurnalında nəşr olunan müsahibəsində növbəti dəfə Ermənistana və beynəlxalq aləmə mesajlarını açıq şəkildə verdi. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etdiyini vurğuladı. Münaqişə başa çatdığından Azərbaycan Ermənistanla sərhədlərin delimitasiyası və demarkasiyası, bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması prinsipi əsasında sülh sazişi üzrə danışıqlara başlamağa hazır olduğunu, belə bir sazişin regionumuzu sülh və əməkdaşlıq regionuna çevirə biləcəyini, lakin Ermənistandan hələ də müsbət reaksiya gəlmədiyini qeyd etdi. Prezident İlham Əliyev bildirdi: "Ümid edirik ki, çoxdan gözlənilən sülh, təhlükəsizlik və sabitlik, nəhayət, Cənubi Qafqazda bərqərar olunacaq. Azərbaycan regional sülhə və inkişafa töhfə verən, onun gücləndirilməsinə xidmət edən ardıcıl səylərini davam etdirəcəkdir".

Əslində, hazırda Ermənistan və onun regiona qonşu olan dəstəkçiləri düzgün qərar qəbul edərək konstruktiv mövqe nümayiş etdirsələr, Azərbaycan və Türkiyənin təklif etdiyi altılıq formatında əməkdaşlıqdan bütün bu ölkələr qazanclı çıxa bilər. Sadəcə, Cənubi Qafqazın deyil, ona qonşu olan dövlətlərin də taleyi əsaslı dərəcədə bu imkanı dəyərləndirməkdən asılı olacaqdır.





# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN TÜRKİYƏ XARİCİ SİYASƏTİ BAXIMINDAN TƏHLİLİ

1992–2020-ci illər ərzində Qarabağ torpaqlarının Ermənistanın işğalı altında olması Türkiyə üçün yalnız qardaş hesab etdiyi dövlətin ərazi bütövlüyünün pozulması deyildi, eyni zamanda Şərq istiqamətində apardığı bütün xarici siyasət üçün mühüm geosiyasi çatışmazlıq demək idi. İşğal amilindən qaynaqlanan bu problemin Türkiyənin 5 dövlətlə (Azərbaycan, Ermənistan, İran, Rusiya, Gürcüstan) münasibətinə birbaşa təsir etdiyi məlum məsələdir. Lakin bundan başqa, son 30 il boyunca Türkiyənin Qara dəniz, Qafqaz, Xəzər və Türküstanla bağlı siyasətə, hətta bundan da artıq dərəcədə ümumi xarici siyasətə psixo-siyasi təsir göstərdiyi hiss olunmaqdadır.

Apardığı işğalçı siyasət dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən görməməzliyə vurulan Ermənistan isə bu illər ərzində beynəlxalq səviyyədə də Türkiyəyə qarşı fəaliyyətini artırmış və davam etdirmişdir. Türkiyə 1990-cı illərdə mövcud siyasi və iqtisadi şərtlər çərçivəsində Azərbaycana öz dəstəyini müəyyən sərhədlər daxilində göstərə bilmişdir. 2020-ci ildə baş verən 44 günlük müharibədən sonra Ermənistan ordusunun uğradığı ağır məğlubiyyət, bu müddət ərzində Türkiyənin Azərbaycana açıq-aydın şəkildə və güclü dəstək göstərməsi, müharibə bitdikdən sonra Ankara ilə Bakı arasında münasibətlərin yüksələn xətlə inkişaf etdirilməsi diqqətəlayiq haldır. Bu mənada Türkiyə öz yaxın geosiyasi mühitində çox mühüm bir problemin arzulanan istiqamətdə həll edilməsi baxımından Azərbaycanla birlikdə "qalib ölkə" roluna sahib olmuşdur.

Dövlətlərlə bağlı istifadə edilən güc təsnifatında Türkiyə haqqında işlədilən ümumi bir ifadə vardır: "Orta səviyyədə güc sahibi". "Regional güc" anlayışı ilə paralel olaraq, istifadə edilən bu təyini ifadəyə əsasən gücün coğrafi, hərbi, iqtisadi, siyasi, diplomatik və s. elementləri daxil edilir. Dünyanın çox kritik bir bölgəsində yerləşməsi, Qara dəniz və Aralıq dənizi geosiyasətində hakim mövqedə durması, iqtisadi cəhətdən dünyanın iyirmi ən böyük ölkəsi sırasında yer alması, NATO-nun ikinci ən böyük ordusuna sahib olması, yaşatdığı güclü tarixi irs, 100 milyona yaxın əhali sayı, diplomatiya sahəsində qazandığı təcrübə, təşkilati infrastruktura malik olması Türkiyəni dünyada, xüsusilə də öz bölgəsində önə çıxaran xüsusiyyətlərdəndir. Bütün bunlara baxmayaraq, qlobal və ya böyük güclərin apardığı siyasətin



Zəfər paradı. Bakı, 10 dekabr 2020-ci il

təsiri, yaxın ətrafında uzun illərdir ki, davam edən qeyri-sabit şərait, məruz qaldığı və üzləşməli olduğu beynəlxalq terrorizm, daxilində yaşanan siyasi münaqişələr və qarşıdurmalar Türkiyənin, sözün əsl mənasında, regional gücə çevrilməsini çətinləşdirmiş, qlobal səviyyədə təsir gücünə malik beynəlxalq əlaqələr ruporu olması imkanlarını məhdudlaşdırmışdır.

Türkiyənin yürütdüyü xarici siyasətə xas bəzi tarixi prinsiplər və tendensiyalar mövcud olsa da, bəzən səhvlərlə, bəzən isə dünya siyasətindəki dəyişikliklərə qarşı həssaslıq göstərmək zərurəti ilə bağlı olaraq müəyyən qırılmalar yaranmışdır. 1990-cı illərdən sonra çoxistiqamətli xarici siyasət apardığı açıq şəkildə diqqəti çəkən Türkiyə yeni tarixi mərhələdə dövrün verdiyi imkanlar və öz imkanları sayəsində təsir gücünü və nəzarət bacarıqlarını inkişaf etdirməyə çalışmışdır. Sahib olduğu geosiyasi mövqedən irəli gələn risklər, müxtəlif mədəniyyət mərkəzlərinin və ya geosiyasi münasibətlərin qovuşma/qırılma nöqtələrinin ona yaxın olması kimi amillər ümumilikdə əsasında təhlükəsizlik duran Türkiyə xarici siyasətinin mahiyyətində çox az dəyişikliklərin baş verməsi ilə nəticələnmişdir. Özünə yaxın bölgələrdəki etnik və ərazi münaqişələrinə maraq göstərmək və vəsait ayırmaq məcburiyyətində olduğu halda, öz daxilində də ağır terrorizmlə mübarizə aparması Türkiyənin xarici siyasət yürüdərkən bir çox çətinliklərlə üzüzə qalmasını şərtləndirmişdir.





XXI əsrin başlaması ilə dünyada və Türkiyənin yaxın ətrafında bəzi mühüm dəyişikliklər də baş vermişdir. Qlobal rəqabətin müxtəlif səviyyələrində iddialar irəli sürən güc sahiblərinin sayında son 20 ildə müşahidə olunan artım beynəlxalq sistemdə yeni "güc mərkəzlərinin" nəzərdə tutulan "səviyyə xətti"ni aşması kimi qəbul edilməkdədir. Digər tərəfdən, yaşadığımız dövr, sadəcə, güc mərkəzlərinin çeşidlənməsi dövrü olmayıb, eyni zamanda da təhlükəsizlik anlayışının yeni ölçülər qazandığı, xarici siyasətlə daxili siyasət və iqtisadiyyat arasında mövcud olduğu hesab edilən sərhədin daha da qeyri-müəyyənləşdiyi bir zamandır.

Dövlətlərin xarici siyasətdə istifadə etdikləri iqtisadi vasitələr də dəyişməkdədir; boykot, iqtisadi blokada kimi klassik xarici ticarət tədbirlərinin yerini daha mürəkkəb maliyyə tədbirləri almaqdadır. Təhlükəsizliklə bağlı klassik yanaşma da dəyişməkdədir; bütövlükdə müdafiə sənayesində, xüsusilə də aviasiya və kosmik tədqiqatlar sahəsində, kibertəhlükəsizlik məsələlərində başgicəlləndirici irəliləyişlər müşahidə edilir[20].

Bütün coğrafi və siyasi ünsürləri ilə birlikdə Qarabağ məsələsi geosiyasətin ən klassik təyin və təcrübələrindən tutmuş ən müasir araşdırma nümunələrinə qədər öz-özlüyündə diqqət mərkəzi ola biləcək keyfiyyətlərə malikdir. Əvvəla, yer kürəsində coğrafi baxımdan Cənubi Qafqaz kimi unikal bir yer tapmaq çətindir. Bu ərazi qapalı bir dənizlə yarımqapalı bir dəniz arasında, yüksək dağ silsilələri ilə əhatə olunmuşdur[21]. Karbohidrogen, su, dəyərli mədənlər kimi təbii ehtiyatlarla zəngin olan, iqlim və bitki örtüyü baxımından rəngarəng bir bölgədir. Qafqazın cənub bölgəsində Sovet İttifaqının dağılmağa başlaması ilə Ermənistan Sovet Respublikası və Qarabağ erməniləri arasında Azərbaycanın tarixi və hüquqi cəhətdən ayrılmaz hissəsi olan ərazini Ermənistana birləşdirmək istiqamətində mütəşəkkil bir fəaliyyət başlanmışdır[22]. Bu, Ermənistan Sovet Respublikasında və Qarabağ bölgəsində yaşayan Azərbaycan türklərinin zorakılıq, təzyiq və hədə-qorxu ilə köçürdülməsi[23] cəhdləri ilə də müşayiət olunmuşdur. Nəhayət, 1988-ci

[20] 2023'e Doğru Küresel ve Bölgesel Gelişmeler Karşısında Türk Dış Politikası, dr. Yalçın Sarıkaya, TASAV Yayınları, Ankara 2020, s. 6.

[21] Suat İlhan, Kafkasya'nın Gelişen Jeopolitiği, Türk Kültürünü Araştırma Enstitüsü Yay., Ankara 1999, s. 11.

[22] Araz Aslanlı, Yeni Küresel Mücadelede Kafkasya ve Karabağ Sorunu. Ankara 2013, ss. 52–53.

[23] Bugünkü Ermenistan toprakları, başkent Erivan dâhil olmak üzere 19. Yüzyıl sonundan 1990'lara kadar sistemli biçimde etnik temizliğe maruz bırakılmıştır. Öyle ki, 19. Yüzyıl sonuna kadar Müslüman Türk çoğunluğun yaşadığı Erivan'da 1990'lara gelindiğinde tek bir Türk bırakılmamıştır.

ildə başlayan kiçik miqyaslı münaqişələr 1991-ci ildən etibarən müharibəyə çevrilmiş və 1992–1993-cü illərdə postsovet coğrafiyasının ən qanlı müharibələrindən biri başlamışdır. Bu müharibədə Ermənistan və Qarabağdakı separatçı ermənilər aldıqları beynəlxalq dəstək sayəsində, Xocalı soyqırımı başda olmaqla, insanlığa qarşı bir çox cinayətlər törətmiş, bununla da açıq bir şəkildə işğal həyata keçirmişlər[24].

1994-cü ildə atəşkəs əldə edilərək Bişkek protokolu imzalandıqda Azərbaycan torpaqlarının 20%-ə yaxın bir hissəsi Ermənistanın işğalı altında idi. İşğal 2020-ci ilə qədər davam etdiyi halda, Ermənistan tərəfindən atəşkəs minlərlə dəfə pozulmuşdur. Bunun nəticəsində isə (böyük əksəriyyəti Azərbaycandan olmaqla) çoxlu mülki vətəndaş və hərbçi həlak olmuşdur[25].

Türkiyə üçün Qarabağ məsələsi Türkiyə-Azərbaycan münasibətləri kontekstində, Qafqaz və Türküstan siyasəti kontekstində, bütün postsovet coğrafiyasına aid siyasət kontekstində və "erməni məsələsi" ümumi başlığı altında birinci dərəcəli əhəmiyyət kəsb edən məsələ olmuşdur.

Əlbəttə ki, yuxarıdakı mövzuların hər birində enerji, ticarət, xarici investisiya, mədəniyyətlə bağlı məsələlərin öz yeri vardır. Bununla belə, demək lazımdır ki, Türkiyə öz sərhədlərinə çox yaxın olan bu problemin ciddiliyini həmişə dərk etmişdir.

Unutmaq olmaz ki, Türkiyə Azərbaycanın müstəqilliyini ilk tanıyan və bu ölkə ilə möhkəm tarixi əlaqələri olan bir dövlət kimi diplomatik olaraq işğal və təcavüzə qarşı çıxış edir və hər zaman Azərbaycanın yanındadır[26]. Eyni zamanda illərdir ki, Azərbaycana iqtisadi və humanitar yardım göstərir. Kəlbəcərin işğalından sonra Türkiyə siyasi baxımdan da Ermənistanla sərhədini rəsmən bağlamış və işğalın baş verdiyi o gündən sonra sərhədi açmayacağını bəyan edərək, bu mövqeyində qətiyyətli olduğunu nümayiş etdirmişdir. Heç bir region dövləti tərəfindən verilməyən belə bir açıq siyasi dəstəyin Türkiyə

---

[24] Bkz. Celal Aliyev – Budaq Budaqov, Türkler, Azerbaycanlılar, Ermeniler: Tarihi Heqiqetin Soyqırımı, Azerbaycan Neşriyyatı, Bakü 2003, Seriyye Müslümqızı, Ölümden O Yandaki Xocalı, Şems Yay., Bakü 2006, Allahyar Xocalı, Xocalı Soyqırımının Qurbanları, Şerq-Qerb Yay., Bakü 1999.

[25] International Crisis Group, "The Nagorno-Karabakh Conflict: A Visual Explainer", https://www.crisisgroup.org/content/nagorno-karabakh-conflict-visual-explainer[Erişim-Tarihi: 20.07.2021]

[26] Türkiye Cumhuriyeti Dışişleri Bakanlığı, "Relations Between Turkey and Azerbaijan", https://www.mfa.gov.tr/relations-between-turkey-and-azerbaijan.en.mfa[ErişimTarihi: 10.06.2021]





tərəfindən göstərilməsi Azərbaycan tərəfindən böyük təqdir və minnətdarlıq hissi ilə qarşılanmışdır. Bu, Bakının enerji siyasətinə, xarici ticarət və investisiya qoyuluşuna münasibətinə də öz təsirini göstərmiş və hər iki dövlət 2000-ci illərə böyük bir əməkdaşlıq içərisində qədəm qoymuşdur.

2009-cu ildə imzalanan Sürix protokolunun həyata keçirilməsi mümkün olmasa da, bu, siyasətdə bir qırılma cəhdi kimi görünmüş və Türkiyə-Azərbaycan münasibətlərində qısamüddətli bir böhranın yaranmasına səbəb olmuşdur. Lakin Türkiyə bu baha başa gələcək səhvdən çox böyük bir bacarıqla dönmüşdür. Beləliklə, 2010-cu il avqustun 16-da imzalanmış Strateji Əməkdaşlıq və Qarşılıqlı Yardım Sazişi ikitərəfli münasibətlərin inkişafında dönüş nöqtələrindən birinə çevrilmişdir.

## Qurulduğu gündən 1990-cı illərə qədər Türkiyənin xarici siyasəti haqqında

Atatürk Türkiyəsinin xarici siyasəti milli suverenlik, tam müstəqillik və realizm prinsipləri üzərində qurulmuşdur. Keçmişlə müqayisədə Atatürkün diplomatiyasında ən böyük fərq güzəştə getməmək və başqalarından mərhəmət gözləmək əvəzinə öz haqqını tələb etmək, bunu real, açıq bir şəkildə tətbiq etmək idi.

Yeni dövlətin xarici legitimliyini qeydə alan Lozanna müqaviləsini tərəflərin qəbul etməsi nəticəsində yalnız Türkiyə üçün yeni bir dövr müəyyənləşdirilməmişdir, eyni zamanda Avropa, Balkanlar və Yaxın Şərq ölkələri üçün gələcəkdə müsbət və ya mənfi nəticələrlə qarşılaşacaqları yeni bir dövr başlamışdır[27].

Atatürkün "Yurdda sülh, cahanda sülh" kəlamını bu mülahizələr işığında dəyərləndirmək lazımdır. Yəni bu ideya bütün mənası ilə milli azadlıqdan, diplomatiyada qarşılıqlı anlaşmadan, xüsusilə də ikitərəfli münasibətlərdə nəzakət və beynəlxalq etiketdən, siyasətdə isə realizmə xələl gətirməyən bir anlayışla həyata keçirilmişdir. Onun Milli Misakabağlılığı, Hatay (İskəndərun sancağı), Boğazlar, kapitulyasiyalar, Şərqi Anadoluda bir "erməni yurdu"nun qurulmasına imkan verməmək üçün göstərdiyi həssaslıq hər zaman xatırlanmalıdır. Başqa sözlə, Atatürkün sülhsevər xarici siyasəti milli hüquqlardan imtina etmək, nəyin bahasına olursa olsun, pasifizm deyildi.

---

[27] Mert Bayat, Millî Güç ve Devlet, Belge Yay., İstanbul 1986, s. 300.

Dünyada xüsusən 1929–30-cu illərin dünya iqtisadi böhranından sonra beynəlxalq gərginlik sürətlə artmış, Birinci Dünya müharibəsinin gətirdiyi status-kvonu qorumaq istəyən antirevizionist dövlətlər ilə bu strukturu dəyişdirmək istəyən revizionist dövlətlər arasında getdikcə kəskinləşən bir qütbləşmə yaranmışdır. Avropanın və dünyanın qısa bir müddətdə depressiyalar dövrünə qədəm qoyduğu illərdə Türkiyə revizionist Avropa dövlətləri kimi bu böhranlardan öz maraqları üçün istifadə etmək yolunu seçməmişdir. Əksinə, kollektiv sülh və təhlükəsizliyin qızğın müdafiəçisi kimi antirevizionist siyasət yürütmüşdür.

O dövrdə – 1936-cı ildə Montrö Boğazlar Sözləşməsinin imzalanması və 1938–1939-cu illərdə Hatayın Türkiyəyə qatılması xarici siyasətdə iki son dərəcə mühüm qələbə idi. Bu dövrdə Türkiyə bütün dövlətlərlə olan əlaqələrini davam etdirməklə bərabər, öz təhlükəsizliyini ön planda tutaraq, ilk növbədə, regional ittifaqlara (Balkan və Sədabat paktı) üz tutmuş, lakin Avropada sürətlə baş verən hərbi-siyasi hadisələr, xüsusilə İtaliya təhlükəsi həyəcanverici səviyyəyə çatdıqda regional ittifaqlarla bərabər, Qərb ölkələri ilə də əməkdaşlığa yönəlmişdir. Bununla da, Atatürkün ölümündən sonra, 1939-cu ildə əvvəlcə Türkiyə-İngiltərə Birgə Bəyannaməsinin bağlanmasını, daha sonra buna Fransanın da qatılmasını İkinci Dünya müharibəsindən əvvəl Avropada baş verən proseslərin nəticəsi kimi qiymətləndirmək olar.

O illərdə Türkiyə Sovet İttifaqını da nəzərə almış, onunla qarşıdurma yaratmayaraq, əməkdaşlıq etmək istəyən bir mövqedə olmuşdur. İnönü Türkiyəsi İkinci Dünya müharibəsində müttəfiq və faşist bloku dövlətlərinin onu öz tərəflərindən döyüşə cəlb edə bilmək məqsədilə göstərdiyi güclü təzyiqlərlə qarşı-qarşıya qalmışdı. Döyüşən tərəflərin bu təzyiqləri qarşısında Türkiyənin apardığı siyasət isə ölkənin ərazi bütövlüyü və müstəqilliyi ilə bağlı heç bir güzəştə getmədən qorunmaq, müharibədən kənarda qalmaq və böyük dövlətlər arasında bir tarazlıq yaradıcısı olmaq siyasətini yürüdərək hücumlardan qorunmaqdan ibarət idi.

İkinci Dünya müharibəsi davam edərkən 1941-ci ildə Adana danışıqlarında[28], 1943-cü ildə Qahirə və Tehran konfranslarında Türkiyə öz üzərində ağır bir müttəfiq təzyiqi hiss etmiş, bununla belə, uzun müddət müharibəyə girməməyə nail olmuşdur. 1944-cü ildə – müharibənin son ilində Türkiyə

[28] Görüşmelere ilişkin Bkz. İzzet Öztoprak, İkinci Dünya Savaşında Adana Görüşmelerinin Askeri Yönü, Belleten, Türk Tarih Kurumu, Ağustos 1999, C.62, S. 237., s. 597–618.





Füzuli Beynəlxalq Hava Limanının açılışı.
Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan. Füzuli, 26 oktyabr 2021-ci il

Almaniya ilə diplomatik əlaqələrini kəsmiş, 1945-ci ilin fevralında, yəni Almaniyanın təslim olmasına cəmi 2 ay qalmış müharibəyə girmədən müharibəyə qoşulduğunu elan etməklə kifayətlənmişdir.

İkinci Dünya müharibəsindən sonra Türkiyənin xarici siyasətində Sovet İttifaqı bir təhlükə kimi görünməyə başlamışdır. Hətta müharibə bitməmişdən Stalinin Yalta konfransında Boğazlar rejimində dəyişiklik tələb etməsi bu istiqamətdə bir başlanğıc nöqtəsi idi. Məhz bundan sonra – 1945-ci ilin iyununda Sovet İttifaqının xarici işlər naziri Molotovun tələbləri arasında SSRİ-yə Boğazlarda hərbi baza verilməsi, Qars və Ərdahanın qaytarılması kimi məsələlərin yer alması ilə Türkiyə Böyük Britaniyaya və ABŞ-a dəstək verməyə başlamışdır[29]

Beləliklə, 1947-ci ildə elan edilən Trumen doktrinası çərçivəsində Türkiyə Yunanıstanla birlikdə ABŞ-dan yardım almağa başlamışdır. Bunun ardınca da Marşal Planı və "Birgə Müdafiə Proqramı" gəlmişdir[30]. Ancaq

[29] Türk Dış Politikası: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar C.1:1919–1980, drl. Baskın Oran, İletişim Yayınları, İstanbul 2001, s. 470–471

[30] Bkz. Türk Dış Politikası: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar C.1:1919–1980, drl. Baskın Oran, İletişim Yayınları, İstanbul 2001, s. 529–540

Türkiyə üçün yarım əsr davam edəcək xarici siyasət taleyinin əsl başlanğıcı 1949-cu ildə qurulan NATO-ya 1952-ci ildə rəsmi üzv olması idi.

İkiqütblü dövr kimi tanınan bu mərhələdə Türkiyə Qərb Bloku içərisində həm də Sovet İttifaqı ilə həmsərhəd bir üzv kimi yer almışdır. Daha dəqiqi, Qərbin siyasi və iqtisadi quruluşları içərisində yer tutmaq, güclü qonşusu olan SSRİ qarşısında müdafiə olunmaq ehtiyacını Qərbin təhlükəsizlik strukturu çərçivəsində təmin etmək kimi prioritetlərlə hərəkət edərək ödəmişdir. Bu vəziyyət Türkiyə-ABŞ münasibətlərində sürətli və dərininə bir irəliləyiş ilə müşahidə edilmişdir.

1962-ci ildə Kuba raket böhranı Ankaranın ABŞ-a olan inamının sarsılmasına səbəb olsa da, Kipr hadisələrinə qədər ciddi bir qarşıdurma müşahidə edilməmişdir. 1964-cü ildə ABŞ prezidenti Consonun Kiprdə artan gərginliklə bağlı Baş nazir İnönüyə göndərdiyi təhdid dolu məktub İsmət İnönünün sərt reaksiyası ilə qarşılaşmışdır.

İstər bürokratiya, istərsə də milli səviyyədə ABŞ-la və müttəfiqliklə əlaqədar müzakirələr başlamışdır. Çünki ABŞ-ın istər "Conson məktubu"ndakı "SSRİ böhrana qarışarsa, NATO hərəkətə keçirilməyəcək" şəklində bir ifadə ilə Türkiyəyə qarşı etdiyi üstüörtülü təhdid, istərsə də 6-cı donanma vasitəsilə Aralıq dənizinə girməyə cəhd etməsi Türkiyənin beynəlxalq hüquqdan və müqavilələrdən irəli gələn haqlarının və Kiprlə bağlı həssaslığının ABŞ tərəfindən tam şəkildə nəzərə alınmadığını göstərirdi[31].

Yunanıstanın 15 iyul 1974-cü ildə Kiprdə çevriliş edərək Enosisə[32] nail olmağa çalışmasından sonra Türkiyə qarant hüququndan istifadə edərək 20–22 iyul və 14–16 avqust 1974-cü il tarixlərində Kiprdə hərbi əməliyyat keçirmişdir. Bu hərbi əməliyyat nəticəsində Kipr türklərinin can və mal təhlükəsizliyi təmin edilmiş, Kipr adasında həm türklərin, həm də yunanların həsrətində olduqları daimi sülh mühiti yaradılmışdır.

Bu dinc mühitdə 11 il yunanlar tərəfindən dövlətsiz qoyulan Kıbrıs türkləri 13 fevral 1975-ci ildə Kipr Türk Federativ Dövlətini qurmuşdular. Daha sonra öz müqəddəratlarını təyinetmə hüququndan istifadə edən kiprli türklər 15 noyabr 1983-cü ildə Şimali Kipr Türk Cümhuriyyətini yaratmışdılar. Bülənt Ecevitin Baş nazir, Necmettin Erbakanın isə baş nazirin müavini olduğu bir hökumət dövründə həyata keçirilən bu əməliyyat Türkiyənin xarici siyasəti üçün həm hərbi, həm də siyasi baxımdan mühüm uğur idi.

1980-ci illərdə Türkiyə öz xarici siyasəti, İran-İraq müharibəsi, Yaxın Şərqdəki ərəb-İsrail münaqişəsi, ASALA terror fəaliyyəti və onun ardınca gələn PKK terroru ilə məşğul olmuşdur. 1990-cı illərin əvvəllərində Şərq Blokunda baş verən titrəyişlər Türkiyənin ətrafında da hiss olunmağa başlamış, xüsusilə Bolqarıstandakı hadisələr Ankara tərəfindən diqqətlə izlənilmişdir. Bu ölkədəki böyük türk azlığına Todor Jivkov rejimi tərəfindən tətbiq edilən zülm və təzyiqlərə qarşı ictimai həssaslıq artmış, o dövrdə hakimiyyətdə olan qüvvələr də müəyyən diplomatik addımlar atmışdır. Bolqarıstandan Türkiyəyə köç gəlmiş və bunun da müəyyən iqtisadi nəticələri olmuşdur.

## Çətin illər: 1990-cı illərdən bəri Türkiyənin xarici siyasəti

1990-cı illərdə Türkiyənin istər daxilində, istərsə də xaricindəki problemlər, yaxın ətrafında baş verən hadisələri istiqamətləndirməsi nəticə çıxarmaq imkanlarını geriyə çəkən böyüklükdə və keyfiyyətdə olan problemlərdir. Xüsusilə 1984-cü ildən başlayan PKK terroru 1990-cı illərdə daha da güclənmiş, terror təşkilatları Şərqi və Cənub-Şərqi Anadolunun əhəmiyyətli bir hissəsində dövlət nüfuzunu zəiflədən hərəkətlər edə bilmək xüsusiyyəti qazanmışdır.

1991-ci ildə ABŞ-ın İraqa müdaxiləsi, Türkiyənin üzləşdiyi problemlər bir az da artmış, sərhəddən gələn qaçqın axını, Şimali İraqda hakimiyyətdəki boşluq və PKK-nın buradan qidalanması kimi yeni problemlər meydana çıxmışdır[33].

Xarici siyasətdə isə dünyanın yaşadığı paradiqmatik dəyişikliklər Türkiyənin də ətrafında baş verməkdə idi. Soyuq müharibə sona çatarkən imzalanmış Avropada Adi Silahların Məhdudlaşdırılması Müqaviləsi SSRİ-nin qəbul etdiyi silahlanmanın azaldılması və Qərb bloku dövlətlərini özündə ehtiva edirdi. Türkiyənin də Van-Mersin xəttinin cənubunda qalan hissəsindən kənarda silahlı qüvvələrin azaldılmasına qərar verilmişdi[34].

[31] Bülent Şener, 1963–1964 Kıbrıs Krizi: Türk Dış Politikası Tarihinde Askeri, Siyasal ve Hukuksal Boyutlarıyla Bir Zorlayıcı Diplomasi Uygulaması, Türk Dünyası Araştırmaları, s. 205, Ağustos 2013, s. 130

[32] Enosis, Yunanistan dışında yaşayan Rumların bulundukları yerlerin Yunanistan'a birleştirilmesi anlamında bir yayılmacı ideal olup, öncelikle Kıbrıs'ın Yunanistan'a ilhakını hedeflemektedir.

[33] Cihat Yaycı, Irak'ta Yaşanan Savaşlar ve Türkiye'ye Etkileri, Güvenlik Stratejileri Dergisi, c. 15, s. 30, s. 337

[34] Türk Dış Politikası: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar C.2:1980–2001, drl. Baskın Oran, İletişim Yayınları, İstanbul, 2001, s. 207

1990-cı illərin əvvəllərində Moskvanın öhdəliklərinə əməl etməməsi, çeçen, abxaz və Qarabağ problemləri, PKK ilə və ümumilikdə terrorla bağlı Rusiya ilə Türkiyə arasında problemlər var idi[35]. Digər tərəfdən, ABŞ-ın 1991-ci il müdaxiləsindən sonra İraqa qarşı yürütdüyü siyasət Türkiyə-ABŞ münasibətlərini müəyyən səviyyədə qarşılıqlı inamsızlığa sürükləməkdə idi. Çünki uzun müddətdir, ABŞ-ın gündəmini zəbt edən "Kürd dövləti" siyasəti artıq daha açıq şəkildə müşahidə edilməyə başlamış, "Çəkic gücü" bu siyasətin əsas alətinə çevrilmiş, PKK terroru da Türkiyə hökumətini daha çətin vəziyyətə salmışdı. Digər tərəfdən, 1990–1995-ci illər arasında Türkiyədə həm PKK terror hadisələri öz pik səviyyəsinə çatmış, həm də mühüm şəxsiyyətlərə qarşı müxtəlif siyasi cinayətlər, sui-qəsdlər və Sivas hadisələri kimi təxribat xarakterli proseslər baş vermişdir.

Bütün bu hadisələrin Azərbaycan torpaqlarının işğal edildiyi müddətdə baş verdiyinə xüsusi olaraq diqqət yönəltmək lazımdır. Məsələnin başqa bir tərəfi də ASALA-PKK münasibətləri idi. Türkiyəyə qarşı erməni terror fəaliyyətinin, ASALA-nın 1983-cü ildə Orli hücumundan sonrakı səssizliyə keçdiyi zaman PKK-nın 1984-cü ildə silahlı terrora başlamasını təsadüf kimi dəyərləndirmək çox çətindir. Hətta bəzi mənbələrə görə, 1984-cü ildə baş verən Eruh və Şemdinli hücumlarında ASALA silahlıları da iştirak etmişdilər. 1991-ci ildə Ermənistan müstəqil olduqdan sonra bu ölkənin ərazisinin PKK terrorçuları üçün təhlükəsiz bir əraziyə çevrildiyi də məlum məsələdir[36].

1990-cı illərdə Türkiyənin xarici siyasətinin gündəminə yeni bir maddə kimi "Türk dünyası" da daxil olmuşdur. "Türk dünyası" anlayışı hər nə qədər yeni müstəqillik qazanmış türk dövlətlərindən ibarət olmasa da, 90-cı illərdən sonra Türkiyədə bu mövzu Azərbaycan və Türküstan dövlətləri ilə, demək olar ki, eyniləşdirilməyə başlanmışdır. Türkiyə müstəqilliklərini elan edən yeni türk dövlətlərini tanıyan və diplomatik nümayəndəliklərini açan ilk dövlət olmuşdur.

Təbii ki, dil birliyi, qardaşlıq əsas motivasiya qaynağı idi. Ancaq Türkiyənin siyasi və iqtisadi xüsusiyyətləri ilə Moskvadan asılılığı azaldacağı, Yaxın Şərqdən qaynaqlanan dini-məzhəb ekstremizminin təsirlərini məhdudlaşdıracağı da bu dövlətlər tərəfindən Türkiyəyə üstünlük verilməsinin başa düşülən tərəfləridir.

---

[35] Türk Dış Politikası: Son On Yıl, drl. Yelda Demirağ – Özlen Çelebi, Palme Yayınları, Ankara 2011 içinde Mitat Çelikpala, "Türkiye-Rusya Federasyonu İlişkileri", s. 61.

[36] Ermeni Terör Örgütü ASALA ve Faaliyetleri, https://satemer.sakarya.edu.tr/tr/icerik/19787/101536/ermeni-teror-orgutu-asala-ve-faaliyetleri [Erişim Tarihi: 18.07.2021]





Digər tərəfdən, ABŞ-ın Türkiyə ilə bağlı apardığı siyasət daha çox Türkiyənin bu bölgədə ehtimal edilən rolundan Qərbin xeyrinə yararlanmaq və bu istiqamətdə olduğu müddət ərzində Türkiyəni dəstəkləmək mahiyyəti daşımışdır[37].

Türkiyənin rəhbərlik etdiyi institusional təşəbbüslərə, zirvə toplantılarına, müxtəlif sahələrdə əldə etdiyi ikitərəfli və çoxtərəfli razılaşmalara baxmayaraq, Türkiyənin türk cümhuriyyətləri ilə münasibətlərində, məsələn, iqtisadi baxımdan istədiyi məqsədlərə çatdığını söyləmək çətindir. Türkiyənin ümumi xarici ticarət həcmində bu dövlətlərin ixracda 3,2 faiz, idxalda isə 1,4 faiz paya malik olması bunu tam şəkildə ortaya qoyur[38]. Həmçinin 2020-ci ilin məlumatlarına görə bu respublikaların heç biri ən çox idxal edilən ilk 20 ölkə, nə də ən çox ixrac edilən ilk 20 ölkə arasında yer almamışdır. Bununla belə, Türkiyə hər bir türk respublikasının ən çox ticarət etdiyi ilk 10 ölkə arasındadır[39].

## Türkiyə-Azərbaycan münasibətlərinin gerçək dairəsi

Türkiyə-Azərbaycan əlaqələri istər coğrafi, istər mədəni, istərsə də tarixi baxımdan digər türk cümhuriyyətləri ilə mövcud əlaqələrdən fərqlənir. İki ölkənin Xəzərin qərbindəki türk dövlətlərinin davamçısı və irs daşıyıcısı olması, Səlcuq, Ağqoyunlu, Qaraqoyunlu kimi dövlətlərin təcrübələrinə sahibliyi, Osmanlı-Səfəvi mübarizəsi və son zamanlarda eyni dövrə təsadüf edən Qacar-Osmanlı dövlətlərinin müasirləşmə yaşamasını bu kontekstdə xatırlamaq lazımdır. Azərbaycan adlı müstəqil bir dövlətin yaranması digər respublikalarla müqayisədə daha erkən olmuşdur. Əslində, bu meydana çıxmada Osmanlı Türkiyəsi və Qafqaz İslam Ordusunun da müəyyən rol oynadığı aşkardır.

1991-ci ildə müstəqillik əldə etməzdən bir qədər əvvəl – 1989-cu ildən Türkiyə ilə Azərbaycan arasında qarşılıqlı gediş-gəlişlərin başlaması,

---

[37] Çağrı Erhan, ABD'nin Orta Asya Politikaları ve 11 Eylül'ün Etkileri, Uluslararası İlişkiler, (Güz 2004), c.1, s. 3, s. 131

[38] Ülke Gruplarına Göre Dış Ticaret: 2019–2020, https://data.tuik.gov.tr/Bulten/Index?p=Dis-Ticaret-Istatistikleri-Aralik-2020-37412, [Erişim Tarihi: 10.08.2021]

[39] Bkz. Nevzat Balıkçıoğlu, Türkiye ile Diğer Türk Cumhuriyetleri Arasında Dış Ticaretin Gelişimi: 2000–2017 Dönemi, CUJOSS Cumhuriyet Üniversitesi Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, 2019, c. 43, s. 1



Azərbaycan və Türkiyə prezidentləri Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun təməlqoyma mərasimində. 26 oktyabr 2021-ci il

Qarabağ probleminin də məhz bu dövrdə meydana çıxması digər türk dövlətləri ilə fərqli olan xüsusiyyətlərdəndir. Həmçinin 1990-cı ildə 20 Yanvar hadisələri baş verəndə Türkiyənin, demək olar ki, bütün əsas şəhərlərində Azərbaycana həmrəylik nümayiş etdirən mitinqlər keçirilmiş, həlak olanların ailələri üçün yardım kampaniyaları təşkil edilmişdir. Demək olar ki, bir əsrə yaxın bir-birindən ayrı düşmüş iki qardaş cəmiyyətdə qısa müddət ərzində bir-birini başa düşmə və bir-biri ilə qaynayıb-qarışmaq üçün bir qığılcım yaranmışdır.

Bununla belə, 1992–1994-cü illərdə Qarabağda baş verən hadisələr Türkiyə ictimai fikrini də dərindən sarsıdan bir fəlakətə çevrilmişdir. 1992-ci ilə qədər artıq iki tərəf arasında kiçik miqyaslı münaqişələrdə ölənlərin sayı mini keçmişdi və həlak olanların böyük əksəriyyəti Azərbaycan türkləri idi. Azərbaycan tərəfi nizami bir orduya malik olmasa da, sadəcə, könüllülərdən ibarət dəstələrlə Moskvanın dəstəklədiyi ermənilərə qarşı iki cəbhədə mübarizə aparmaq məcburiyyətində qalmışdı. Həmçinin Azərbaycan Türkiyə və bütün postsovet məkanı üçün də bir ilk addımın atıldığı məkana çevrilmişdir: məhz bu ölkə köhnə infrastruktura qarşı çıxaraq, çəkiləcək böyük bir neft kəmərinin inşasında əsas rol oynayacaq və buradan daşınacaq neftin qaynaq ölkəsi olacaqdı.





Bakı–Tbilisi–Ceyhan xəttinin Xəzərin sərvətlərinin Rusiyadan kənar yollar vasitəsilə ixracında bir ilk olması, eləcə də Türkiyə ilə Azərbaycanı Gürcüstandan keçən geosiyasi bir xətlə birləşdirməsi son dərəcədə əhəmiyyət daşıyırdı.

2000-ci illərin əvvəllərində həm boru kəməri işə düşəcək, həm də Bakı–Tbilisi–Ərzurum qaz kəməri və bunun ardınca da TANAP və Bakı–Tbilisi–Axalkələk–Qars dəmiryolu layihələri həyata keçiriləcəkdir. Beləliklə, Azərbaycan işğalçı qonşusunu regionun ən mühüm layihələrindən kənarda saxlamağa müvəffəq olduğu halda, Türkiyə də Xəzər resurslarının Qərb bazarlarına çıxışında aparıcı güc olmaq üstünlüyünü qazanacaqdı.

Türkiyə ilə Azərbaycan arasında münasibətlər hərbi sahədə də kifayət qədər erkən başlamış və bu münasibətlərin əsası 1992-ci ildə Hərbi Akademiyaya qəbul olunan ilk azərbaycanlı tələbələrlə qoyulmuşdur. Bundan sonra yüksək strateji əməkdaşlıq səviyyəsinə doğru sürətlə inkişaf getmiş, bir qismində Gürcüstanın da iştirak etdiyi müdafiə sahəsi ilə bağlı əməkdaşlıqlar genişləndirilmişdir.

Ali təhsil sahəsində yeni inkişaf səviyyəsinə keçən çoxşaxəli əməkdaşlıq, mədəniyyət sahəsində mübadilə və yaxın zamanlarda Azərbaycanın Türkiyəyə investisiya yatırması ilə yeni səviyyə qazanan iqtisadi əlaqələr iki dövləti bir-birinə daha sıx bağlamışdır.

Bununla bərabər, Qarabağ problemi öz mövcudluğunu davam etdirmiş və iki dövlət arasında – dolayısı ilə Türkiyə ilə türk dövlətləri arasında birbaşa quru əlaqəsinin yaranmasına mane olmuşdur. Bu əlaqə faktiki olaraq İran və Gürcüstan üzərindən təmin edilsə də, Naxçıvanın şərq sərhədində bitən yol Türkiyə üçün fiziki və psixoloji bir maneə olaraq qalmaqda davam etmişdir.

Müharibə və işğal zamanı baş verənlər Türkiyədə Azərbaycanla daha sıx münasibətlərin qurulmasını səbirsizliklə gözləyən kütləyə böyük bir məğlubiyyət hissi təsiri bağışlamışdır. Rusiyanın, nə qədər zəif olursa olsun, türklərin bir araya gəlməsinin qarşısını alacaq qədər güclü olması, Moskvaya rəğmən bu sahədə bir şey etməyin mümkün olmadığı kimi siyasi qənaətlər bir yana, Türkiyə ictimaiyyətində Azərbaycanın öz torpaqlarını müdafiə etmək iqtidarında olmadığını iddia edən xəbərlərin və şərhlərin də yayılmasına səbəb olmuşdur. Digər tərəfdən, dövrün hakim qüvvələrinə yönələn "Azərbaycanın yanında lazım olduğu səviyyədə durulmadığı",

"digər güclərin reaksiyasından ehtiyat edilib hərb variantının masaya qoyulmadığı" kimi tənqidi düşüncələr də hər kəsin xatirindədir.

Məlumdur ki, Azərbaycan Qarabağ münaqişəsində türk cümhuriyyətlərindən də istədiyi dəstəyi ala bilməmişdir. Beynəlxalq platformalarda bu açıq qanunsuzluğu ucadan belə pisləyə bilməyən dövlətlərin irəli sürdüyü qardaşlıq iddiasının doğruluğu sual doğurmuşdu. Türkiyədən başqa, heç bir türk respublikası Ermənistanla nə diplomatik, nə də iqtisadi əlaqələrini kəsmişdir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində Ermənistanın təşəbbüslərinə Qazaxıstanın bir neçə dəfə etirazı olsa da[40], xüsusilə 1990-cı illərdə bu məsələyə neytral yanaşma cəhdləri hər kəsin xatirindədir.

## Azərbaycanın Qarabağda qələbəsi və Türkiyə

1994-cü ildən 2020-ci ilə qədər həyata keçirilən ikitərəfli və ya çoxtərəfli vasitəçilik təşəbbüslərindən, həmçinin ATƏT-in Minsk qrupunun fəaliyyətindən heç bir müsbət nəticə əldə edilməmişdir. İstər 1991–1994-cü illər arasındakı müharibə dövründə, istərsə də 1994-cü il atəşkəsindən bu günümüzə qədər hər iki tərəfdən on minlərlə əsgər və mülki vətəndaş həlak olmuşdur. Ermənistanın 2008, 2010, 2016 və 2018-ci illərdə törətdiyi qanun pozuntuları və ondan sonra yaşanan münaqişələr total bir müharibənin başlanması riskini ehtiva edən səviyyədə olmuşdur.

2008-ci ilin avqustunda Rusiyanın Gürcüstana müdaxiləsi ümumən Qafqaza təsir edəcək, Azərbaycanın problemin həlli ilə bağlı ümidlərini azaldacaq bir hadisə kimi qəbul edilsə də, Azərbaycan öz siyasi mövqeyindən geri çəkilməmiş, hərbi sahədə apardığı hazırlıqları davam etdirmişdir. 2010-cu ildə Mübariz İbrahimovun simvolik əhəmiyyət kəsb edən qəhrəmanlığı, Ermənistanın bütün cəhdlərinə baxmayaraq, Xocalı aeroportundan istifadə etməsinə Azərbaycanın icazə verməməsi, 2014-cü ildə Azərbaycan

[40] Dönemin Ermenistan Savunma Bakanı S. Oganyan'a göre KGAÖ faaliyetlerinde aktif olarak iştirak eden Ermenistan acil ve ihtiyaç duyduğu durumlarda örgütteki müttefiklerinden destek görme hakkına sahiptir. Bu durum RF, Kazakistan, Kırgızistan ve Tacikistan'ın Dağlık Karabağ ihtilafında BM ve AGİT kararların uygulanmasını ve Azerbaycan'ın toprak bütünlüğünü desteklemeleri göz önünde bulundurulduğunda Ermenistan'ı örgüt içinde son derece rahatsız etmektedir. Bkz: Evgenia Klevakina, Strategiya i deyatelnost Organizatsii Dogovora o kollektivnoy bezopasnosti vv otsenkah gosudarstv-chlenov, Teoriya i praktika obschestvennogo razvitiya. Politicheskiye nauki, 2013, sayı 1, s.289–291, s. 289.





mövqelərinə doğru hərəkət edən erməni helikopterinin Azərbaycan əsgərləri tərəfindən vurulub salınması qardaş ölkənin öz torpaqlarını Ermənistanın işğalından xilas etməsi yolundakı bütün cəhdlərini açıq-aydın göstərir.

2016-cı ilin aprelində Qarabağın şərqində – Tərtərdən başlayıb cənubda Füzuliyə qədər olan xətdə baş verən münaqişələr Azərbaycan tərəfinin açıq-aşkar üstünlüyü və torpaqların (Lələtəpə yüksəkliyi) geri alınması ilə nəticələnmişdir. 2018-ci ilin mayında Naxçıvanda baş verən münaqişələrdə də Azərbaycan tərəfi yenidən üstünlük qazanaraq ərazilərini geri ala bilmişdir.

2020-ci ilin iyul ayında Ermənistanın Tovuza təxribat xarakterli hücumları nəticəsində Azərbaycan Ordusu üstünlük əldə etmiş, Ermənistan tərəfi yüzlərlə əsgərini və onlarla hərbi texnikasını itirmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan geniş bir əməliyyatla işğalçı ünsürlərə qarşı əks-hücuma başlamış və 10 noyabr 2020-ci il tarixində müharibənin qalibi olmuşdur[41].

Türkiyənin həm Tovuz təxribatı zamanı, həm də ondan sonra Azərbaycana verdiyi dəstəyi, daha sonra isə geniş, çoxşaxəli (o vaxta qədər keçirilən təlimlərin ən böyüyü də daxil olmaqla) təlimləri gücləndirməsi əlamətdar haldır[42]. Türkiyə Rusiya da daxil olmaqla, bütün tərəf müqabillərinə bu iki ölkənin öz münasibətlərini aydınlaşdırmasına müdaxilə edərlərsə, bunu tamaşaçı qismində izləməyəcəyini, eyni zamanda bağlanan qarşılıqlı müqavilələrdən irəli gələn bir öhdəlik olduğunu xatırlatmışdır.

Nəticədə, Azərbaycan dövləti 30 il uzanan bir məsələdə heç bir konkret irəliləyişin olmadığını, Ermənistana etibar etmək üçün heç bir ehimal qalmadığını görərək, müharibə etməyə qərar vermiş və bu sahədə böyük uğur qazanmışdır.

ABŞ-ın prezident seçkisi ərəfəsində olması, Rusiyanın bu məsələyə müəyyən bir məsafədən yanaşacağının anlaşılması və Türkiyənin dəstək olmaq məsələsində qətiyyətli olması da siyasi-diplomatik şərtlər və "qüvvə-məkan-zaman" münasibətləri çərçivəsində yaxşı təsbit olunmuşdur. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böhranla güclü mübarizə komandası formalaşdırılmış, diplomatik və hərbi cəbhələrdə çox uğurlu koordinasiya həyata keçirilmişdir.

[41] Yalçın Sarıkaya, 44 Gün Savaşı: Azerbaycan'ın Karabağ Zaferi, TASAV Yayınları, Ankara, 2020, s. 6

[42] Turan Gafarlı, One Nation, Two States: Turkey's Stance on the Recent Escalation between Armenia and Azerbaijan, TRT World Research Centre, Eylül 2020, İstanbul, s. 13

Azərbaycan Ordusu 28 il ərzində işğal altındakı bölgələrdə Ermənistan tərəfindən zərrə-zərrə işlənən güclü müdafiə xətlərini əvvəlcədən planlaşdırdığı şəkildə bəzi yerlərdə aradan qaldırmağa, bəzi yerlərdə isə yarmağa müvəffəq olmuşdur. Bu əməliyyatın hərbi uğur kimi dəyərləndirilməsinin bir çox səbəbləri vardır. Bunların arasında Qarabağın mərkəzi, şimal və qərb hissələrinə nisbətən daha düzənlik olan cənub, şərq və cənub-şərq istiqamətlərindən şimal və qərb istiqamətlərinə, dolayısı ilə aşağıdan yuxarıya doğru "işlənmə" zərurəti birinci yeri tutur.

İkincisi, müdafiə xəttinin xarakteri ilə bağlıdır, çünki ictimaiyyətin rəsmi sosial media xəbərləri vasitəsilə adını eşitdiyi hər bir kəndin alınması üçün onlarla erməni müdafiə istehkamının məhv edilməsi lazım olmuşdur. Bu müdafiə xətlərinin nə dərəcədə möhkəmləndirildiyi və hansı böyüklükdə olduğu, bundan başqa, ətraflarının da sıx bir şəkildə minalandığı hamıya məlum idi. Üçüncüsü, geri qaytarılan, azad edilən hər bir ərazinin təhlükəsizliyinin təmin edilməsi də eyni çətinliklərin aradan qaldırılması ilə həyata keçirilmişdir. Əgər diqqət yetirilərsə, Azərbaycan tərəfindən alındığı rəsmi olaraq elan edilən yerlərin heç biri müharibə boyunca yenidən əldən verilməmişdir. Bunu psixoloji üstünlük baxımından da son dərəcə vacib və müsbət bir taktika kimi qeyd etmək lazımdır.

Azərbaycan Ordusu texnologiya, logistika, silah-sursat və maddi-texniki təminat baxımından üstünlüyünü nümayiş etdirmiş, XXI əsrin müharibə anlayışına uyğun şəkildə, hətta bu anlayışı formalaşdıracaq alətlərdən istifadə edərək uğurla müharibə aparmışdır[43].

Qarabağın ensiz və dağlıq bir əraziyə malik olmasını, Ermənistan tərəfinin hava hücumundan müdafiə elementlərini nəzərə alsaq, Azərbaycan Hərbi Hava Qüvvələrinin hərbi əməliyyatlar zamanı təyyarə və helikopterdən çox az yararlanmasına baxmayaraq, PUA və SİHA-lardan səmərəli şəkildə istifadə etməsini müharibəyə hazırlıq dövründə verilən düzgün qərarlarla izah etmək mümkündür[44].

Türkiyənin terrorla mübarizəsinin, Suriya və Liviyada İHA/SİHA və elektron döyüş sistemləri ilə bağlı təcrübəsinin Azərbaycana mütləq müəyyən bir töhfəsi olmuşdur. Lakin Azərbaycan Ermənistanın iddia etdiyi kimi, döyüşdə türk əsgərləri və ya "suriyalı cihadçılar"la deyil, öz əsgərləri ilə döyüş aparmışdır[45].

Döyüşlərdə arxa cəbhədəki əhvali-ruhiyyənin səviyyəsi son dərəcə böyük əhəmiyyət daşımışdır. Azərbaycan Ordusu qətiyyətlə və inamla döyüş aparmışdır. Azərbaycan xalqı orduya hərtərəfli dəstək vermiş, yüz minlərlə insan könüllü olaraq orduya yazılmış, əsgərlər cəbhəyə ruh yüksəkliyi ilə, böyük şövqlə və həvəslə yola salınmışdır. Müharibədə ölüm də mütləqdir. Azərbaycan xalqı və dövləti şəhidlərinə böyük hörmət və sayğı ilə yanaşmış, dövlət rəhbərləri və millətin iştirakı ilə dəfn mərasimləri keçirilmişdir.

Qarabağın mürəkkəb relyefinin müdafiə üçün əlverişli, hücum əməliyyatları üçün isə təhlükəli olduğunu söyləmək mümkündür. Bölgədə uğurlu bir əməliyyatı yalnız havadan və qurudan atəşlə dəstəklənən piyada, komanda və xüsusi təyinatlı birləşmələrin birlikdə hərəkət edəcəyi zaman həyata keçirmək mümkündür.

Azərbaycan Silahlı Qüvvələrinin ümumi heyəti birinci mərhələdə təmas xəttinin digər bölmələrindəki köməkçi qüvvələr düşməni aşkar edərkən, cəbhədən hücum həyata keçirərkən cənubdakı əsas qüvvələr dağıdıcı hücum əməliyyatı keçirmişlər.

Təmas xəttinin dağıdılmasından sonra əsas hücum Füzuli–Cəbrayıl–Qubadlı istiqamətində olmuş və İranla sərhəd tamamilə nəzarət altına alındıqdan sonra şimala, əsas hədəf kimi seçilən Şuşaya istiqamət alınmışdır. Gözlənildiyi kimi, Şuşanın alınmasından sonra təmas xəttinin digər bölmələrindəki erməni silahlı qüvvələrinin vəziyyəti kritik hala gəlmiş, İrəvan administrasiyası atəşkəsə razılıq vermək məcburiyyətində qalmışdır[46].

Ermənistan, Rusiya və Fransa mətbuatında Türkiyənin Azərbaycan tərəfində faktiki olaraq müharibədə iştirak etdiyinə dair iddialar ortaya atılsa da, Türkiyənin Azərbaycanla 2010-cu ildə imzaladığı müqavilənin müddəalarına tam uyğun olaraq, verdiyi güclü siyasi dəstəkdən və müxtəlif məsləhətləşmə mexanizmlərindən başqa, döyüş meydanında olduğuna dair heç bir fakt, sübut yox idi. Bununla belə, başda İHA/SİHA-ların istifadəsi

[43] Ruslan Rahimov, Azerbaijan exerts superiority on front line: Military, Anadolu Ajansı, 18.10.2020, https://www.aa.com.tr/en/azerbaijan-front-line/azerbaijan-exerts-superiority-on-front-line-military/2010243, [Erişim Tarihi: 12.08.2021]

[44] Robyn Dixon, Azerbaijans's Drones Owned the Battlefield in Nogorno-Karabakh and showed future of warfare, The Washington Post, 12.11.2020, https://www.washingtonpost.com/world/europe/nagorno-karabkah-drones-azerbaijan-aremenia/2020/11/11/441b-cbd2-193d-11eb-8bda-814ca56e138b_story.html, [Erişim Tarihi: 13.07.2021

[45] Patrick Keddie, What's Turkey's Role in the Nagorno-Karabakh Conflict? Aljazeera, 30.10.2020, https://www.aljazeera.com/features/2020/10/30/whats-turkeys-role-in-the-nagorno-karabakh-conflict, [Erişim Tarihi: 27.06.2021]

[46] Cenk Özgen, 44 Günün Ardından: 2020 Karabağ Savaşının Askeri Açıdan Analizi, Giresun Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2021, C. 7, s. 1, s. 111




"Bayraktar TB2" Zəfər paradında. 10 dekabr 2020-ci il

təcrübəsinin ötürülməsi olmaqla, Azərbaycan Silahlı Qüvvələrinə hər cür hərbi-texniki yardım göstərilmişdi. Onsuz da, Azərbaycan Prezidenti İlham Əliyevin "France 24" televiziya kanalına verdiyi müsahibədə aparıcının "Sizin neçə türk PUA-nız var?" sualına verdiyi "kifayət qədər" cavabı belə vəziyyətlə bağlı kifayət qədər açıq məlumat verir.

Əslində, Türkiyə Cümhuriyyəti Azərbaycana ən yüksək səviyyədə, hərtərəfli və səmimi siyasi dəstək vermişdir və bu davranış təkcə Azərbaycan tərəfindən deyil, bütün türk milləti tərəfindən təqdir edilmişdir. Prezident, xarici işlər naziri, milli müdafiə naziri, Baş Qərargah rəisi, Silahlı Qüvvələrin komandanları, Türkiyə Böyük Millət Məclisinin sədri fikirlərini dəfələrlə açıq şəkildə bəyan edərək, "Azərbaycan hansı formada tələb edərsə, o formada da yanında olacağını" bildirmişdir[47].

Bu dəstəyin ciddiyyəti 2020-ci ilin iyul ayından sonra Azərbaycanla birgə keçirilən təlimlərdə özünü büruzə vermiş, çəkindirmə siyasəti təmin edilmişdir. Türkiyə iqtisadi və öz yaxın ətrafında başqa beynəlxalq problemlərlə mübarizə aparmaqla məşğul ikən verdiyi bu dəstək həm Azərbaycan xalqı, həm də Qarabağ və türk dünyası ilə bağlı narahatlığı olan Türkiyə vətəndaşları üçün də təsəvvür edilməyəcək qədər mənalı olmuşdur[48].

[47] Ali Cura, TBMM Başkanı Şentop, Azerbaycan Cumhurbaşkanı Aliyev ile Görüştü, Anadolu Ajansı, 19.10.2020, https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/tbmm-baskani-sentop-azerbaycan-cumhurbaskani-aliyev-ıle-gorustu/2011429, [Erişim Tarihi: 21.06.2021]





Azərbaycanın PUA/SİHA-lardan bu dərəcədə səmərəli istifadə etməsi dünya ictimaiyyətinə çox ciddi təsir göstərmişdir. Hətta o qədər təsirli olmuşdur ki, Almaniyanın müdafiə naziri Anneqret Kramp Karrenbauer "Tarixdə ilk SİHA müharibəsi Qarabağda baş verdi. SİHA-lar bombardmanlarla müharibənin gedişatını dəyişdirdi. Nəticələri məğlub olan tərəf üçün çox ağır oldu" kimi bir fikir bildirmişdir. Alman mətbuatında dərc olunan bir təhlil məqaləsində isə hətta bir addım da irəli gedilərək "Yalnız SİHA-larla qazanılan ilk müharibə" (Star, 2020) kimi bir şərh də təqdim edilmişdir.

Reallıqda Azərbaycanın qələbəsinin bütünlüklə İHA/SİHA-larla qazanıldığını deyərək aşağı səviyyəyə endirmək döyüş meydanındakı vəziyyətə qətiyyən uyğun deyildir. Ancaq İHA/SİHA sistemləri tərəfindən məhv edilən nəqliyyat vasitələri və silah-sursat sayının çoxluğunun, bəlkə də, bundan da daha vacibi, onların erməni əsgərlərində yaratdığı şok effektinin və psixoloji təsirinin müharibənin qələbə ilə nəticələnməsində çox ciddi rol oynadığı şübhəsizdir. Görünür, gələcəkdə 2020-ci il Qarabağ müharibəsi təcrübəsi vasitəsilə İHA/SİHA-lar və bu sistemlərə qarşı tətbiq oluna biləcək müdafiə tədbirləri mühüm müzakirə mövzusu olacaqdır. Çünki müharibədən dərhal sonra Avropa Xarici Əlaqələr Şurasının üzvü Qustav Qresselin Avropa ordularının İHA-lara qarşı mübarizə sahəsindəki zəifliklərinə diqqət çəkən və lazım gələn addımların atılmayacağı təqdirdə Ermənistanın silahlı qarşıdurmada düşdüyü "səfil" vəziyyətə düşəcəkləri istiqamətində bir dəyərləndirmə aparması bu sahədə mübahisələrin başladığına bir sübutdur[49].

İkinci Qarabağ müharibəsi Türkiyə ilə Azərbaycan arasındakı tarixi münasibətlərdə əldə olunan səviyyəni göstərmək baxımından da mühüm dönüş nöqtəsi olmuşdur. Qafqaz İslam Ordusunun 1918-ci ildəki qələbəsindən keçən 102 ildən sonra başa düşüldü ki, bu iki dövlət regionda qarşılıqlı və həmrəy fəaliyyət nəticəsində birgə işlər görə və bununla da sülh və sabitliyi təmin edə bilər. Keçdiyimiz 30 il ərzində aparılan Qarabağ siyasətinin nə qədər dəqiq olduğu əldə edilən nəticədə də görünür.

[48] Ruslan Rehimov, Turkey-Azerbaijan Joint Military Drills Continue, Anadolu Ajansı, 02.08.2020, https://www.aa.com.tr/en/turkey/turkey-azerbaijan-joint-military-drills-continue/1929548, [Erişim Tarihi: 21.06.2021]

[49] Cenk Özgen, 44 Günün Ardından: 2020 Karabağ Savaşının Askeri Açıdan Analizi, s. 115

Müharibə müddətində Türkiyə və Azərbaycan ictimai fikrinin güclü həmrəyliyi, başda sosial media olmaqla, bir çox sahələrdə özünü göstərmişdir. Bütün sosial media platformalarında türk istifadəçilərin və xeyli sayda da pakistanlı istifadəçinin yüksək həmrəylik nümayiş etdirdiyi müşahidə olunmuşdur.

Müharibənin sonunda imzalanan atəşkəs bəyannaməsində Naxçıvandan Azərbaycana çıxışı təmin edən dəhlizin açılması ilə bağlı 9-cu maddənin daxil edilməsi Türkiyə ərazisindən Azərbaycanın paytaxtı Bakıya avtomobil yolu ilə birbaşa çıxışın təmin edilməsi baxımından son dərəcə əhəmiyyətlidir. Bu yol 2021-ci ilin sonuna kimi açılmasa da, Ermənistanın bu öhdəliyi yerinə yetirmək məcburiyyəti vardır. 2021-ci ilin yayında Azərbaycanın Ermənistan-İran əlaqəsini təmin edən Gorus-Qafan yolunu bağlaması açılmamış Zəngəzur dəhlizi məsələsini yenidən gündəmə gətirdi. Belə görünür ki, Ermənistan administrasiyası bu addımı atmağa çəkinir və daxili ictimai rəyində bu məsələdə yetərli qədər sərt olduğu hiss olunur. Bununla belə, İrəvanın seçimi məhdud, imkanları isə azdır. Noyabrın 9-da imzalanan saziş regionda bütün nəqliyyat və kommunikasiya xətlərinin azadlığını göstərməkdədir. İrəvan administrasiyası gec və ya tez real vəziyyətlə üzləşəcək, gələcəyin imkanlarından məhrum olmamaq, bəlkə də, ikinci məğlubiyyəti yaşamamaq üçün qapıları və başqa yolları açmaq variantını seçəcəkdir.

Digər bir məsələ isə İranın müharibənin əvvəlində apardığı ikitərəfli siyasət və Nurduz qapısının açıq qalmasına qarşı İran türklərinin reaksiyalarının İran hakimiyyətinə göstərdiyi təsirlə bağlıdır. Xatırladaq ki, İran 27 ildir ki, bir tərəfdən, Ermənistanla sərhəd qapısını açıq saxlayır, digər tərəfdən, Azərbaycan rəhbərliyini və xalqını – açıq və gizli şəkildə döyüşməməkdə, İslamdan uzaqlaşmaqda, İsraillə əməkdaşlıq etməkdə ittiham edir. İran mərkəzli müxtəlif media mənbələri tərəfindən uzun müddətdir davam etdirilən gizli və açıq anti-Azərbaycan təbliğatı müharibə başlayandan bəri "Türkiyə Azərbaycanı Suriyaya çevirmək istəyir, Suriyadan bura İŞİD silahlıları, cihadçılar köçür..." kimi bəyanatlara çevrilmişdir. Bu fikirlər ictimai rəydə, hətta İran ictimaiyyətində heç bir dəstək tapmamış, əksinə, İranın adına qara hərflərlə yazılmışdır[50].

Müharibənin əvvəllərində İran hakimiyyətinin bəyanatları problemlə bağlı heç bir töhfə verməmiş, ATƏT rəsmilərinin dediklərindan heç nə ilə

[50] Umut Başar, İran, Karabağ Savaşının Kaybedeni mi? Anadolu Ajansı, 23.11.2020, https://www.aa.com.tr/tr/analiz/iran-karabag-savasinin-kaybedeni-mi/2052813, [Erişim Tarihi: 22.07.2021]





fərqlənməmişdir. Onların arasında "problemin müharibə yolu ilə həll olunacağına inanmadıqları" kimi bir məqamın ifadəsi də vardır. Bundan daha da vacibi odur ki, açıqlama verən adların təmsil olunma səviyyəsi çox aşağıdır. Azərbaycanda isə, təbii ki, Ruhani və Xomeyninin açıq-aşkar açıqlama verəcəyi gözlənilirdi. Bundan başqa, sosial şəbəkələrdə Rusiyadan Ənzəli limanına gətirilərək oradan Ermənistana aparılmaq üçün Nurduz sərhəd qapısına gedən hərbi yük maşınlarının video və fotoları yayılanda çaşqınlıq yaranmışdır.

İran tələsik bəyanatlar verməyə və göndərilənləri brezentlə örtməyə başlamışdır. Bundan sonra həm bu sərhəd qapısında, həm də Tehran və Təbriz daxil olmaqla, bir çox şəhərlərdə etiraz nümayişləri keçirilmişdir. İran bu nümayişlərə müdaxilə etmiş, iştirak edənlərin bir qismi saxlanılmışdır. Hazırda İran həbsxanalarında bu məsələyə görə həbs olunan yüzə yaxın adamın olduğu bildirilir[51].

İranın dini lideri Xomeyninin açıq şəkildə "Azərbaycan 30 ildir işğal altında olan torpaqlarını azad etmək hüququna malikdir" deməsi noyabrın 3-də baş vermişdir ki, bu tarixdə Azərbaycan Ordusu cəbhədə açıq-aşkar öz üstünlüyünü nümayiş etdirmişdir[52]. İranın Azərbaycanın qələbəsindən və Türkiyənin buna verdiyi dəstəkdən narahat olduğuna işarə edən bir hadisə də dekabrın 10-da Bakıda keçirilən Zəfər yürüşü tədbirində prezident Ərdoğanın oxuduğu şeirlə yaşanan böhran zamanı hiss edilmişdir[53]. Bundan altı ay sonra İranda keçirilən 13-cü prezident seçkilərində prezidentliyə namizədlərin türklük, Azərbaycan və türk dili kartları ilə oynamaq cəhdləri də diqqətdən yayınmamışdır[54].

Müharibədən sonra Türkiyənin Türk dünyası siyasətində daha bir ümidverici məqam Türkmənistan kontekstində ortaya çıxmışdır. Onun birbaşa

[51] Mustafa Caner, İran'ın Karabağ Siyaseti Diplomatik Esneklikle İmkansızlıklar Arasına Sıkışmış Durumda, Anadolu Ajansı, 12.10.2020, https://www.aa.com.tr/tr/analiz/iran-in-karabag-siyaseti-diplomatik-esneklikle-imkansizliklar-arasina-sikismis-durumda/2003507, [Erişim Tarihi: 22.07.2021]

[52] Syed Zafar Mehdi, Iran Backs Azerbaijan's Right to Liberate Karabakh, Anadolu Ajansı, 3.11.2020, https://www.aa.com.tr/en/middle-east/iran-backs-azerbaijan-s-right-to-liberate-karabakh/2029245, [Erişim Tarihi: 12.07.2021]

[53] Yalçın Sarıkaya, İran'ın İkinci Karabağ Savaşı Tutumu: Takke Düştü Kel Göründü, Giresun Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2021, c. 7, s. 1, s. 96

[54] İran'da Cumhurbaşkanlığı Adayları Arasında Azeri-Türk Tartışması, 08.06.2021 https://www.sozcu.com.tr/2021/dunya/iranda-cumhurbaskani-adaylari-arasindaki-munazarada-azeri-turk-tartismasi-6476217/ [Erişim Tarihi: 22.07.2021]

olaraq bu müharibənin nəticəsi ilə bağlı olduğuna dair heç bir sübut olmasa da, Azərbaycan və Türkmənistan Xəzər dənizindəki neft yataqları ilə bağlı uzun müddətdir davam edən mübahisəyə məhz müharibədən iki ay sonra, 2021-ci ilin yanvarında son qoymuşdur. Türkmənistanın "Sərdar", Azərbaycanın "Kəpəz" adlanan zəngin yataqlarının birgə istismarına dair saziş iki ölkənin xarici işlər nazirləri tərəfindən imzalansa da, dövlət başçıları da videokonfrans vasitəsilə görüşdə iştirak etmişdilər. Mərasimdə İlham Əliyev yatağın birgə istismarının iki ölkəni daha da yaxınlaşdıracağını və hər iki xalqa fayda verəcəyini vurğulayaraq belə söyləmişdir: "Bugünkü saziş Xəzərin karbohidrogen ehtiyatlarının istifadəsində yeni səhifə açır. Bu layihə həm ölkələrimizin, həm də qonşularımızın enerji təhlükəsizliyini gücləndirəcək. Bu layihə ixracat üçün böyük imkanlar verəcək, bununla da xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq. Biz təkcə Xəzərdəki bir yataq haqqında saziş imzalamırıq, münasibətlərimizin gələcək inkişafı üçün də mühüm bir addım atırıq"[55].

Bir ay sonra, 23 fevral 2021-ci il tarixində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun ev sahibliyi ilə Türkmənistanın xarici işlər naziri Rəşid Meredov və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bir araya gəldi. Əslində, bu görüş Türkiyə–Azərbaycan–Türkmənistan üçtərəfli xarici işlər nazirlərinin 5-ci görüşü idi. Bu görüşdən sonra tərəflərin imzaladığı birgə bəyannamədə geniş, əhatəli sülh, sabitlik və ümumi rifah məkanının yaradılmasının vacibliyi vurğulanmış və çoxtərəfli əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi üçün Türkmənistan–Türkiyə–Azərbaycan üçtərəfli mexanizmindən istifadənin vacibliyi qeyd edilmişdir[56]. Bu üçtərəfli münasibətlərin əldə etdiyi inkişafın sürətləndirilməsi Xəzərdən keçməklə enerji layihələrinə ümid vermək baxımından da son dərəcə əhəmiyyət daşıyır. Beləliklə, türkmən qazının Bakıya, oradan da TANAP sisteminə əlavə edilməsi söhbət mövzusu ola biləcəkdir.

Müharibədən sonra Türk Şurasının fəaliyyətində də bir canlanma müşahidə edilmiş və 2018-ci ildən bəri müşahidəçi qismində iştirak edən Macarıstanın xarici işlər naziri Peter Szijarto 2021-ci ilin iyun-iyul aylarında

[55] https://www.aa.com.tr/tr/dunya/azerbaycan-ve-turkmenistan-hazardaki-dostluk-petrol-yataginin-ortak-isletilmesi-konusunda-anlasti/2118146, [Erişim Tarihi: 13.08.2021]

[56] https://www.aa.com.tr/tr/dunya/turkiye-azerbaycan-turkmenistan-uclu-disisleri-bakanlari-5-toplantisinin-ardindan-ortak-bildiri-imzalandi/2154829[Erişim Tarihi: 20.08.2021]





Türkiyə, Azərbaycan və Özbəkistana səfər etmişdir. Macarıstanlı nazir bu səfərlər zamanı ölkəsinin Qarabağla bağlı mövqeyinin aydın və dəyişməz olduğunu, qardaşlığın çətin anlarda özünü büruzə verdiyini, bütün üzv dövlətlərlə hər sahədə əlaqələri inkişaf etdirmək istədiyini bəyan etmişdir[57].

Qarabağ müharibəsindən sonra Ukraynanın Türkiyənin müdafiə sənayesinə marağı artmış, dünyanın müxtəlif dövlətlərindən də Türkiyənin İHA və SİHA-larına yeni tələblər gəlməyə başlamışdır.

2021-ci ilin avqust ayında Türkiyədə baş vermiş və böyük ehtimalla terrorçu qruplar tərəfindən törədilmiş irimiqyaslı meşə yanğınlarına Azərbaycan Fövqəladə Hallar Nazirliyinə tabe olan yanğınsöndürmə briqadalarının, təyyarə və maşınlarının göndərilməsi, maşınların qısa müddət ərzində Gürcüstandan keçərək gəlməsi və yanğınsöndürmə fəaliyyətinə verdikləri töhfə diqqətdən yayınmamışdır. Bütün bunlar hər iki ölkədə sosial mediada tez-tez və qürurla paylaşılan hadisələrə çevrilmiş, qarşılıqlı həmrəylik hissini gücləndirmişdir.

Nəticə etibarilə, İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünü təmin edən hərbi uğur olmaqla yanaşı, türk dünyasının müxtəlif problemlərinə qarşı həmrəyliyin göstərilməsinin və bunun nəticə verə biləcəyinin əyani sübutuna çevrilmişdir.

28 ildir davam edən işğalın Azərbaycan cəmiyyətinin psixologiyasında, Türkiyənin Qafqaz və Türk dünyasına yönəlmiş siyasətində yaratdığı dağıntılar böyük ölçüdə aradan qaldırılmışdır. Ermənistanın keçilməz hesab edilən müdafiə xətti aradan qaldırılarkən bu ölkə dərin daxili siyasi qarşıdurmanın içərisinə girmişdir. Üstəlik, güclü erməni diasporu tərkibində olduğu dövlətlərin də bu müharibəyə cəlb olunmasını təmin edə bilməmiş və türk həmkarları ilə mübarizədə, xüsusən kiber aləmdə də arxa planda qalmışdır. Müharibədən sonra digər türk cümhuriyyətlərinin rəftar və davranışlarında da özünəinamın müəyyən əlamətləri müşahidə edilməyə başlanmışdır.

Məsələnin başqa bir tərəfi də odur ki, Türkiyə içərisində olduğu Qərb müttəfiqlik sisteminin elementlərindən asılı olmayaraq, regional problemlərdə nəticəyə nail olmaq iqtidarındadır. Müharibə boyu ABŞ, AB və Rusiya kimi güclərlə məlumat mübadiləsi və məsləhətləşmə əlaqələri olsa da, Türkiyə rəhbərliyi öz milli qərarına və gücünə əsaslanaraq Azərbaycanı dəstək-

[57] https://www.aa.com.tr/tr/dunya/turk-konseyinin-gozlemci-uyesi-macaristan-turk-dunyasi-ile-guclu-baglar-kuruyor/1921964[Erişim Tarihi: 20.08.2021]

ləmiş və nəticə əldə etmişdir. Başda Fransa olmaqla, müxtəlif qüvvələrin Türkiyənin son illərdə atdığı xarici siyasət addımları ilə Azərbaycana qarşı münasibətlərini legitimləşdirmək cəhdləri, məsələni Türkiyənin irredentizmi kimi təqdim etmək cəhdləri effekt verməmişdir.

Türkiyə və Azərbaycanın beynəlxalq ictimai rəydə qarşılıqlı əlaqə ilə fəaliyyəti bu təbliğatları puç etmişdir. 2016-cı ildən sonra Türkiyənin Suriya, Liviya, Şərqi Aralıq dənizi və İraq sahələrində əldə etdiyi hərbi və diplomatik nailiyyətlərlə yanaşı, Qarabağ zəfərinin də uğur xanasında xüsusi çəkisi olduğunu söyləmək olar.

Bunlardan Suriyada həyata keçirilən dörd ayrı iri əməliyyat sərhədlərdə terrordan təmizlənmiş zonanın yaradılmasını təmin etmiş, bu prosesdə Rusiya ilə qismən əməkdaşlıq və koordinasiya, ABŞ ilə maraqların açıq toqquşmasına baxmayaraq, məsləhətləşmə mexanizmləri işlədilmişdir. Suriya ilə bağlı Türkiyə Astana prosesi ilə hərtərəfli həllin əsas paydaşlarından birinə çevrilmişdir. Liviyada BMT tərəfindən tanınan Milli Razılıq Hökumətinə dəstək verilmiş və bu administrasiya ilə biri dəniz, digəri isə müdafiə sahəsində əməkdaşlıq haqqında iki müqavilə imzalanmışdır. Türkiyənin dəstəklədiyi ünsürlər qələbəsinin dəqiq olduğu hesab edilən Haftər qarşısında hərbi və siyasi uğur əldə etmişdir. İraqda mərkəzi hökumətə rəğmən, Ərbil rəhbərliyi ilə əməkdaşlığın artıq bir seçim olmaqdan çıxmış, Ankara Bağdadla razılığa gələrək ölkənin şimalındakı terror yuvalarını aradan qaldıran bir çox əməliyyatlarla bölgəyə yerləşmişdir.

İkinci Qarabağ müharibəsi Türkiyənin milli güc ünsürlərinə üstünlük verərək Azərbaycanı tam qətiyyətlə dəstəkləyib nəticəyə nail olduğu, bununla da yuxarıda qeyd olunan qazancların ən müstəsnası kimi qiymətləndirilməlidir. Bu qələbədən sonra Türkiyə və Azərbaycan münasibətlərinin daha da inkişaf etdiriləcəyini bəyan edərək çox mühüm addım atdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 15–16 iyun 2021-ci il tarixlərində Azərbaycana səfəri və səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Şuşaya getməsi, burada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik əlaqələri haqqında Şuşa Bəyannaməsi" adlı tarixi bir sənədi imzalaması bunun sübutudur. İki dövlət regionda ən məhsuldar və əhatəli əməkdaşlıq zəmini yaradıb və digər regional dövlətləri də "altılıq formatı" çərçivəsində bunu dəstəkləməyə dəvət etmişdir. Bu dəvətə xoş niyyətlə cavab verilərsə, bundan qazanan region və dünya sülhü, bölgə millətləri və dövlətləri olacaqdır.





# ERMƏNİSTANIN İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏKİ HƏRBİ-SİYASİ İFLASI

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu cəmi 44 gün ərzində erməni faşistlərinin 30 il müddətində "keçilməz" hesab etdikləri müdafiə istehkamlarını, qurğuları darmadağın etdi və "məğlubedilməz erməni ordusu" mifini puça çıxardı. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad edildi, düşmənin hərbi texnikasının əhəmiyyətli hissəsi və çoxsaylı canlı qüvvəsi məhv edildi. Beləliklə, Azərbaycan Ordusu BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin işğal altında olan Azərbaycan ərazisindən təxirəsalınmaz, tam və qeyd-şərtsiz şəkildə çıxarılmasını tələb edən, lakin 27 il kağız üzərində qalan 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasına başladı. Təəssüflər olsun ki, BMT TŞ-nin qətnaməsinin icrasının təmin edilməsi üçün Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilmədi.[58]

Beləliklə, ən müasir döyüş qabiliyyətinə malik Azərbaycan Ordusunun dağıdıcı zərbələri altında Ermənistanın hərbi-siyasi iflası qaçılmaz oldu, təcavüzkar hərbi, siyasi və diplomatik uğursuzluqlarla üz-üzə qaldı.

Cənubi Qafqaz regionunda Azərbaycan, Gürcüstan və Türkiyəyə qarşı əsassız ərazi iddiasında olan, eləcə də Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan Ermənistan son on illərdə qeyri-leqal silahlanma tendensiyasını davam etdirir, əldə etdiyi silahların bir hissəsini Dağlıq Qarabağdakı qondarma quruma ötürməklə regional təhlükəsizliyi ciddi təhdid altında qoyurdu. Xaricdəki erməni diasporunun və ermənipərəst qüvvələrin dəstəyindən yararlanan rəsmi İrəvan silahlanma prosesini son 2–3 ildə daha da artırdı. Daha çox "qara bazar" prinsipi ilə fəaliyyət göstərən yerli və xarici şirkətlərin xidmətlərindən istifadə edərək müxtəlif ölkələr üzərindən Ermənistana silah, hərbi texnika və digər müdafiə təyinatlı məhsulların ötürülməsi indi də davam edir.[59]

---

[58] Bayramov K. Ordumuz 44 gün müddətində Ermənistanın "məğlubedilməz erməni ordusu" mifini darmadağın etdi.//"İki sahil" q., 31 oktyabr 2020-ci il

[59] https://ordu.az/az/news/150922/ermenistan-ordusunun-silahlanmasinda-olan-snayper-tufengleri-%E2%80%93-herbi-ekspert-arasdirma+yenilenib

44 günlük müharibə Ermənistan Respublikasının xarici havadarlarının dəstəyi ilə beynəlxalq konvensiyaların tələblərini də kobudcasına pozduğunu, regionda ciddi təhlükəsizlik təhdidinə çevrildiyini göstərir. Belə ki 1992-ci il noyabrın 9-da qüvvəyə minmiş Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə əsasında SSRİ-nin mövcud olan kvotasını bölüşdürərkən Ermənistanın payına 220 tank, 220 zirehli döyüş maşını, 285 artilleriya qurğusu, 100 döyüş təyyarəsi və 50 zərbə helikopteri düşmüşdü. Lakin Ermənistan Respublikası bu kvotanı nəinki pozdu, hətta Paşinyanın hakimiyyəti dövründə bunu nümayişkaranə şəkildə göstərməkdən çəkinmədi.

“Qlobal Atəş Gücü – 2020” indeksinə görə, Ermənistan Respublikası dünya ölkələri arasında (138 ölkənin hesabatı üzrə) 111-ci yerdə qərarlaşır. Mənbə göstərir ki, Ermənistan ordusunda 110 tank, 748 zirehli texnika (PDM, BTR, ZTR, BRDM və s.), 38 özüyeriyən və 150 qoşqulu artilleriya qurğusu var. ArmedForces.eu saytında Ermənistan ordusunda 529 tank, 1000 zirehli texnika və 436 artilleriya qurğusunun olduğu iddia olunur ki, bu rəqəmlər daha real görünür. Təhlükəsizlik məsələləri üzrə mütəxəssis Tomas Baranec və Beskid Juraj bildirirlər ki, Ermənistan ordusunun 170 tankı, 250 zirehli texnikası, 360-dan çox artilleriya qurğusu Dağlıq Qarabağda yerləşdirilib. Qeyd edək ki, 2020-ci il sentyabrın 27-dən oktyabrın 20-dək düşmənin 241 tankı məhv edilib, 39 tankı isə hərbi qənimət kimi götürülüb (cəmi 280 tank). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq sual verir: “Haradandır onlarda bu qədər tank? Bir də ki bu, beynəlxalq konvensiyalara ziddir. Bəs bu konvensiyalara monitorinq aparmalı olan qurumlar niyə buna fikir verməyiblər?”

Əslində, bu fakt Ermənistanın xarici qüvvələr tərəfindən silahlandırılması barədə iddiaları əsaslandırmağa imkan verir. Məsələ ondan ibarətdir ki, bəzi ölkələr bu qədər faktın qarşılığında nədənsə əllərində heç bir sübutu olmayan İrəvana inanmağı seçir ki, bu da ikili standartların mövcudluğunu yenidən gündəmə gətirir, beynəlxalq hüququn işləmədiyini nümayiş etdirir. Türkiyə Respublikası nümayəndələrinin də cəlb olunduğu inspeksiya qrupunun Ermənistanda həyata keçirməli olduğu yoxlamanın 2020-ci il iyulun 29-da İrəvanın istəyi ilə təxirə salınması da bu faktı sübut edir. Çünki Paşinyan hakimiyyətinin yeni müharibəyə hazırlaşdığı əvvəlcədən məlum idi.





Avropada Adi Silahlı Qüvvələrə dair Müqavilənin kvotalarına görə, Ermənistan ordusunda 60000 hərbçi xidmət edə bilər. Strateji Araşdırmalar üzrə Beynəlxalq İnstitutun 2020-ci il statistikasına görə, Ermənistan silahlı qüvvələrinin sayı 44800 nəfərdir. Ehtimal olunur ki, Ermənistan ordusunun təxminən 20–22 minlik şəxsi heyəti Dağlıq Qarabağ ərazisində yerləşdirilmişdir. Lakin sentyabrın 27-dən başlayan əməliyyatların nəticəsində Ermənistanın Dağlıq Qarabağdakı ordu hissələri, demək olar ki, tamamilə sıradan çıxarılıb.

Beləliklə, Ermənistanın beynəlxalq konvensiyaların tələblərini pozaraq, Dağlıq Qarabağda cəmləşdirdiyi silah və texnika Azərbaycanı haqq savaşından çəkindirə bilməzdi, necə ki çəkindirmədi. Aparılan təhlillərdən məlum olur ki, Ermənistan öz silah və texnikasının təxminən 50 faizini itirib. Bununla yanaşı, Paşinyanın sıravi erməni xalqını silaha sarılmağa və döyüşməyə çağırması da onun çarəsizliyini göstərir. Nəzərə alsaq ki, Azərbaycanda hərbi xidmətə yararlı heyətin sayı 3 milyondan artıq olduğu halda, Ermənistanda təxminən 809 min nəfərdir, onda Paşinyanın çarəsizliyinin səbəbini başa düşmək olar.[60]

Ermənistandakı vəziyyəti işıqlandıran media məqalələri də 44 günlük müharibədə Ermənistanın birbaşa hərbi iştirakını əks etdirir. Cek Loş xarici siyasətə dair məqaləsində İrəvanda yas yerində olan bir adamdan sitat gətirir: “Buradakı hər kəs müharibədən təsirləndi. Oğlumun dostu hələ də itkin düşüb. Onun diri və ya ölü olduğunu bilmirik”. Eyni məqalədən bir başqa misal olaraq, İrəvandakı hərbi xatirə qəbiristanlığı olan Yerablurda bir məzarqazanın dediyi kimi: “Hər gün daha çox cəsəd gəlir. Hər gün daha çox məzar qazırıq. Təpə dolur”.

Ermənistan Səhiyyə Nazirliyinin məlumatına görə, 44 günlük müharibədə öldürülən erməni hərbi qulluqçularının sayı 13 fevral 2021-ci il tarixinə 3450 nəfərdir. Bundan əlavə, müharibə zamanı Ermənistan ordusunda 10.000-dən çox fərari var idi.[61]

44 günlük müharibədə Ermənistanın hərbi iflasını göstərən faktlardan biri də onun hərbi texnikasının 50 faizdən çox hissəsinin məhv edilməsidir.

---

[60] İsgəndərov X. Ermənistan beynəlxalq hüququ hərtərəfli pozan və eyni zamanda dünya ictimaiyyətindən imdad diləyən yeganə ölkədir.//“İki sahil” q., 22 oktyabr 2020-ci il

[61] ANALYSIS – “The military and Economic Consequences of the second Karabakh war for Armenia”. March-2021




Prezident İlham Əliyev Hərbi Qənimətlər parkında

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində İkinci Qarabağ müharibəsində Ermənistan ordusunun məhv edilmiş texnikasının siyahısını verdi. Ermənistan ordusunun məhv edilmiş texnikasına daxildir: tank əleyhinə silahlar – 53 ədəd; "Smerch" ağır çoxlu raket qurğusu – 4 ədəd; "Grad" yük maşını çoxsaylı raket buraxan qurğular – 97 ədəd; "Uragan" özüyeriyən çoxlu raket qurğusu – 2 ədəd; "TOS" termobarik silahı – 1 ədəd; "S-300" zenit-raket sistemi – 7 buraxılış qurğusu, "S-300" radarı və 2 "S-300" aşkarlama stansiyası; "Müdafiə" radar stansiyası – 1 ədəd; "TOR" hava hücumundan müdafiə sistemləri – 5 ədəd; "OSA" hava hücumundan müdafiə sistemləri – 40 ədəd; "KUB" hava hücumundan müdafiə sistemləri – 4 ədəd; "KRUG" hava hücumundan müdafiə sistemləri – 1 ədəd; "ZASTAVA" hava hücumundan müdafiə sistemləri – 14 ədəd; "S-125" hava hücumundan müdafiə sistemləri – 2 ədəd; PUA – 22 ədəd; "Elbrus" taktiki-əməliyyat raket sistemi – 2 ədəd; ballistik raket – 1 ədəd; "Toçka-U" raket kompleksi – 1 ədəd; radioelektron müharibə sistemləri – 5 ədəd; komanda-qərargah maşını "R-142" – 2 ədəd; "Sky-M" radar stansiyası – 1 ədəd; müxtəlif radarlar – 7 ədəd və "Kovucu" elektron müharibə sistemi – 4 ədəd.

Döyüş qənimətləri olaraq məhv edilən və götürülən avadanlıqların siyahısına aşağıdakılar daxildir: özüyeriyən "Acacia" və "Carnation" artilleriya qurğuları – 28-i məhv edilmiş və 5-i qənimət olaraq götürülmüş; müxtəlif kalibrli toplar – 37-si qənimət olaraq götürülmüş; minaatanlar – 63-ü məhv edilmiş və 62-si qənimət olaraq götürülmüş, ixtisaslaşdırılmış nəqliyyat vasitələri – 10-u məhv edilmiş və 93-ü qənimət kimi götürülmüş; qumbaraatan – 178-i qənimət olaraq götürülmüş; traktorlar – 10-u qənimət olaraq götürülmüş; zenit silahları "Shilka" – 5 və 1380 kiçik silah qənimət olaraq ələ keçirilmişdir.

Yeddi komanda məntəqəsi və 11 sursat anbarı məhv edilmişdir. Tanklar – 287-si məhv edilmiş və 79-u qənimət olaraq ələ keçirilmişdir (cəmi 366). Piyada döyüş maşınları – 69-u məhv edilmiş və 47-si qənimət olaraq götürülmüşdür; Su-25 təyyarəsi – 5-i məhv edilmiş, hərbi yük maşınları – 252-si məhv edilmiş, 270-i qənimət kimi götürülüb. Azərbaycan tərəfi iddia edir ki, tanklardakı ümumi itkilər 366 ədəd təşkil edib.[62]

Azərbaycan hərb tarixinə yenilik kimi yazılan strategiyanı tətbiq edərək, ən müasir silahlardan istifadə etməklə, habelə az itkilər verməklə 44 gün

[62] ANALYSIS – "The military and Economic Consequences of the second Karabakh war for Armenia". March-2021






Düşmənin məhv edilmiş hərbi texnikası

ərzində düşmənin hərbi texnikasının əhəmiyyətli hissəsini məhv etdi, düşmənin canlı qüvvəsinə ciddi, əsaslı zərbə vurdu.[63]

Yenilməz, qəhrəman əsgər və zabitlərimiz, mülki insanlarımız, bütün Azərbaycan xalqı birlik və həmrəylik nümayiş etdirərək təcavüzkara layiqli cavab verdi. "Dəmir yumruq" əməliyyatı nəticəsində düşmən darmadağın edildi.

44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələri ilk döyüşlərdən nisbətən az itki verməklə əhəmiyyətli irəliləyişlərə nail oldu. Hərbi əməliyyatların başlanğıcında bir sıra kəndləri və strateji körpüləri işğaldan azad etdikdən sonra Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri oktyabrın 22-də Qarabağın İranla cənub sərhədini tamamilə azad etdi və oktyabrın 23-də Laçın dəhlizinə doğru irəliləməyə başladı. Davam edən müharibə ərzində Azərbaycan Ordusu 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı rayonlarını, daha sonra Azərbaycanın mədəniyyət mərkəzi, dahilər

[63] http://ismayilli-ih.gov.az/news/2775.html

yurdu Şuşa şəhərini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan, Talış və Çaylı kəndlərini, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Bu torpaqlar Azərbaycan xalqının igid oğullarının, bizim əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına qaytarıldı.[64]

Şuşanın işğaldan azad edilməsi əməliyyatı tarixdə əbədi qalacaq. Qarabağın tacı, döyünən ürəyi Şuşa təbii istehkam olduğundan şəhərə tanklarla, yaxud digər ağır silahlarla girmək mümkün deyildi. Qəhrəman əsgər və zabitlərimiz yüngül silahlarla qalın meşələrdən, dərin dərələrdən keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məhv etdi. Şuşa döyüşlərinin getdiyi vaxt Xankəndidə olan xarici jurnalistlərdən biri ermənilərin düşdüyü acınacaqlı vəziyyəti belə təsvir edirdi: "Şuşanı müdafiə edənlər pərən-pərən düşüblər. Hərbi təcili yardım maşınlarında onlarla yaralı qan içində Xankəndi xəstəxanasına daşınır. Qalan döyüşçülər yorğun halda yolboyu hərbi geyimlərini çıxarıb ataraq dağdan enirlər. Təcili yardım maşınları aramsız olaraq gedib-gəlir. Avtomobildə yaralı əsgərlər bir-birinin üstünə qalaqlanıb. Onların aldığı xəsarətlər əlbəyaxa döyüşlər getdiyinin sübutudur". "Le Monde" nəşrinin həmin günlərdə yaydığı başqa bir reportajda deyilirdi ki, Ermənistan ordusunun məğlubiyyətə uğradılmış hərbçiləri yaralı halda Şuşanı tərk edərək Xankəndiyə qaçırlar. Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi. Şuşa zəfəri, əslində, müharibənin taleyini həll etdi. Ertəsi gün daha 70-dən çox kəndin azad olunması xəbəri gəldi və bundan bir gün sonra Paşinyan Azərbaycan Prezidentinin şərtlərini qəbul edərək kapitulyasiya aktına imza atmağa məcbur oldu.[65]

44 günlük müharibə Azərbaycanın tam qələbəsi, Ermənistanın hərbi-siyasi iflası və kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəklik azad olundu.

Düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu darmadağın edildi, bu ordu atəşkəs ərəfəsində

[64] https://herbiqenimetlerparki.az/az/page/veten-müharibesi/demir-yumruq-emeliyyati

[65] https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html





artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, başıpozuq dəstələri xatırladırdı.

Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi.

30 ildir danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi, Dağlıq Qarabağın statusunun müəyyən edilməsi məsələsi arxivə qovuşdu və burada yeni erməni dövlətinin yaradılması planları pozuldu.

Sentyabrın 27-də başlanan müharibə sonda Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Danışıqlar prosesinin müxtəlif mərhələlərində müzakirə olunan razılaşma variantlarının Azərbaycan üçün ən sərfəli variantı belə hazırda ölkəmizin əldə etdiyi üstünlüklə müqayisə edilə bilməz.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.[66]

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın Baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bəyanata əsasən, noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları bir güllə atılmadan, heç bir şəhid verilmədən azad edildi. Bəyanatda həmçinin Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan olunmuşdur. Beləliklə, Azərbaycanın hərbi qələbəsi Ermənistanı kapitulyasiyaya məcbur etdi. Dağlıq Qarabağda hərbi əməliyyatların başa çatması və Rusiya Federasiyasının sülhməramlı əməliyyatlarının başladığı andan etibarən ilk dəfə 11 dekabrda atəşkəs pozulub. Hadrutda atəşkəs rejiminin pozulması ilə bağlı bir hal qeydə alınıb. Nəticədə, Azərbaycan Ordusunun bir hərbçisi yaralanıb.[67]

Ermənistanın məğlubiyyətinin səbəbi təkcə onun ordusunun zəifliyi deyil, ilk növbədə, Azərbaycan Ordusunun qüdrətidir. Azərbaycan Ordusu

[66] http://celilabad-ih.gov.az/news/584.html

[67] https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html

44 günlük müharibə ərzində "Harop" zərbə pilotsuz aparatlarından, o cümlədən İsraillə birlikdə Azərbaycanın istehsal etdiyi "Zərbə" dronlarından və digər PUA-lardan, o cümlədən "Bayraktar TB2" zərbə pilotsuz təyyarələrindən geniş istifadə etdi. Təkcə "Bayraktar TB2" dronları vasitəsilə Azərbaycan Ordusu tərəfindən Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikası məhv olundu. Dronlar həm düşmənin texnikasına və canlı qüvvəsinə dəqiq zərbələrin endirilməsi, həm də artilleriya atəşini korreksiya etmək və kəşfiyyat aparmaq məqsədləri ilə tətbiq olunurdu. Rusiyalı ekspert Pavel Felqenhauer qeyd edirdi ki, təxminən bərabər hərbi vəziyyətlərə baxmayaraq, Azərbaycan Ordusu texnoloji üstünlüyə sahib idi.[68] Azərbaycan Ordusu "Bayraktar TB2"lərdən istifadə edərək Ermənistanın 9 hava hücumundan müdafiə sistemini məhv etmişdir.

Rusiyanın "İzvestiya" qəzeti Azərbaycan Ordusunun arsenalında Türkiyə istehsalı "Bayraktar TB2" pilotsuz uçan aparatının Dağlıq Qarabağ səması üzərində tamamilə dominant olduğunu qeyd edib. Daha sonra qəzet qeyd edib ki, Ermənistan köhnə texnikalarla Azərbaycan Ordusu qarşısında çarəsiz idi. Həmçinin Ermənistan tankları PUA-lara qarşı aciz idi. Hərbi ekspert A.Xlopov qeyd edib ki, Ermənistanın döyüşlərdə istifadə etdikləri köhnə tanklar indi tarixə çevrilib.

Azərbaycan tərəfdən döyüşlərdə Ermənistanın hava hücumundan müdafiə sisteminə qarşı istifadə edilən "Bayraktar TB2" yalnız Azərbaycan tərəfindən satın alınan və Azərbaycan Ordusunun arsenalında olan azərbaycanlı mütəxəssislər tərəfindən istifadə olunub.[69]

Dağlıq Qarabağda hərbi əməliyyatlar dayandırıldıqdan sonra Ermənistan tərəfinin müharibədə məğlubiyyətlərinin səbəbləri haqqında müzakirələr başlamışdır. Ermənistanın siyasi liderlərinin bir çoxu məğlubiyyətdə Ermənistanın rəhbərliyini günahlandırırdı. O cümlədən Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan məğlubiyyətdə bütün günahları Paşinyan hakimiyyətinin üzərinə qoyur.

Politoloq Stepan Qriqoryan güman edir ki, Paşinyan müharibənin nəticələrinə və Ermənistanın hərbi-siyasi iflasına görə özünü təmizə çıxarmağa çalışır: "N.Paşinyan qeyd edir ki, Azərbaycan beynəlxalq aləmdə öz xeyrinə fikir formalaşdıra bilib".

[68] https://herbiqenimetlerparki.az/az/page/veten-müharibesi/demir-yumruq-emeliyyati
[69] Ermənistan tankları PUA-lara qarşı acizdir.//"Azərbaycan" q., 6 oktyabr 2020-ci





Bir neçə nüfuzlu hərbi ekspert Ermənistanın hərbi-siyasi iflasının səbəblərini göstərməyə çalışıb. Əvvəla, Ermənistan 30 ilə yaxın bir müddətdə işğal altında olan torpaqlarda qurduğu istehkamlara böyük ümid bəsləyirdi. Hətta Ermənistan Milli Aviasiya Komitəsi 27 sentyabr 2020-ci il tarixində qəbul edilmiş 1585 saylı qərarına uyğun olaraq 55 yaşdan aşağı şəxslər üçün çağırış elan etmişdi. Bu çağırışlarla əlaqədar olaraq, Ermənistanda 18 yaşdan 55 yaşadək kişilər ölkəni yalnız ərazi hərbi komissarlıqlarının yazılı icazəsi ilə tərk edə bilərdilər.[70]

Müharibədə Ermənistanın məğlubiyyətinin əsas səbəblərinə daxil idi:

Birincisi, möhkəm istehkamlara arxayınlıq. Ermənistan, əsasən, təmas xəttini və Yuxarı Qarabağ hissəsini möhkəmləndirmişdi. Əsas fikir bundan ibarət idi ki, əgər Azərbaycan tərəfi təmas xəttini yararsa, Yuxarı Qarabağdakı təbii dağ silsiləsi, eləcə də möhkəm beton istehkamlar ordunun qarşısını kəsəcək. Bununla da Azərbaycan yalnız Dağlıq Qarabağ ətrafındakı rayonlarla kifayətlənməli olacaq. Hələ 1990-cı illərdən təmas xətti möhkəmləndirilsə də, Yuxarı Qarabağda möhkəm istehkamların qurulması 2016-cı ildə – Lələtəpə ətrafındakı döyüşdən sonra sürətləndi. Xarici mühəndislər əsas yüksəklik və Dağlıq Qarabağa aid məkanlarda yeraltı tunellər tikdilər. Lakin belə təhlükəsizlik tədbirlərinin yetərli olmaması 2020-ci ilin sentyabr-oktyabr aylarında Azərbaycan Ordusunun yüksək səviyyəli əməliyyatları ilə üzə çıxdı.

İkincisi, müharibə yanlışlığı. Ermənistan tərəfi düşünmüşdü ki, heç vaxt müharibə olmayacaq. Azərbaycan istər region, istərsə də Avropanın enerji təhlükəsizliyinə yönəlik neft-qaz kondensat layihələrinə risk yaranmaması üçün müharibə aparmayacaq. Kiçik lokal atışmalar bir neçə gün çəkəcək. Arxayınlıq 2015, 2016 – Lələtəpə və 2020-ci il – Tovuz münaqişəsinin qısamüddətli olmasına görə yaranmışdı. Məhz bu baxımdan qarşı tərəf hər zaman müharibə ritorikası ilə çıxış etməkdən çəkinmirdi.

Üçüncüsü, əhəmiyyətsiz silahlanma. Ermənistan 2016-cı ilə qədər də silahlanırdı. Həmin ildən sonra respublikanın silahlanmasında aktivlik müşahidə edildi. Amma arsenala kifayət qədər əhəmiyyət daşımayan silahların doldurulması ilə razılaşmağa məcbur qalan Ermənistan "Smerch" və "Tor" yaylım sistemi ilə müharibəni udacaq qədər gülünc fikirdə idi. Qarşı tərəfin

[70] https://az.wikipedia.org/wiki/%C4%130ikinci-Qara6a%C4%9F-m%C3%BCharib%-C9%99si

aldığı yüksək texnologiyalı silahlardan xəbərsizlik məğlubiyyətin əsas şərtlərindən biri kimi yozulmalıdır.

Dördüncüsü, müttəfiqliyə arxayınlıq. Ermənistan Azərbaycanla konfrontasiyanın necə ağır olacağını zənn etməmişdi. Bu baxımdan, Rusiyanın atəşkəs elan edəcəyinə ümidin puça çıxması məğlubiyyətə əsas yaratdı. Eyni zamanda 1990-cı illərdə nüfuzlu erməni iş adamlarının, eləcə də yüksək postlarda çalışan ermənilərin həmsədr ölkələrin – Rusiya, Fransa və ABŞ liderlərinə təsir imkanlarına da ümidin bağlanmasında yanlışlıq müşahidə edildi.

Beşincisi, informasiya müharibəsi. Ermənistanın 1990-cı illərdəki kimi Azərbaycanı informasiya blokadasında saxlayacağı, haqq səsinin eşidilməməsi üçün xarici KİV orqanlarına təsir göstərib, terrorla hədələyəcəyi, onları maliyyə ilə ələ alacağı arxayınlığı budəfəki situasiyada tamam başqa mənzərə yaratdı. Azərbaycan tərəfinin informasiya sahəsində çevik manevri və diplomatik hazırlığı başa çatdırması nəzərə alınmamışdı.

Altıncısı, internet məhdudiyyəti. Məğlubiyyətin əsas səbəblərindən biri döyüşlər başlanan andan Ermənistan rəhbərliyinin öz sakinlərinin internetə çıxışına məhdudiyyət qoyması göstərilməlidir. Qarşı tərəfin sakinləri real mənzərəni, əsasən, Azərbaycan saytlarından öyrənirdilər, eyni zamanda yaralanan əsgərlərin PUA-lar və artilleriya barəsindəki dəhşətli hekayətləri ruh düşkünlüyü və fərariliyə əsas yaratdı.

Yeddincisi, xəstə təxəyyül. Ermənistan Respublikası "Daşnaksütyun" ideyaları əsasında yaradılıb. Həmin ideyalarda böyük ermənilik, ari irq, yüksək mübarizlik, məğlubedilməzlik təbliğ edildiyindən formalaşan xəstə təxəyyül imkan vermədi ki, Azərbaycan Respublikasının bu illər ərzində artan imkanları, müharibədə qalibiyyət üçün bütün hazırlıqları – hərbi, siyasi-iqtisadi işlərin başa çatdırılıb yekunlaşdırılması analiz edilib nəticə çıxarılsın. Eyni zamanda yeni siyasi dünya düzəninin formalaşması, qlobal məsələlərin fonunda Ermənistanın kölgədə qalacağı vaxtında nəzərdə tutulmadı.[71]

44 günlük müharibədə Azərbaycan Ordusunun gücünə, döyüş taktikasına, qüdrətinə davam gətirə bilməyən Ermənistan məğlubiyyətlə barışmaq istəmirdi.

Ermənistan Müdafiə Nazirliyinin hərbi nəzarət idarəsinin sabiq rəisi müharibə günlərində erməni tərəfin "İsgəndər" operativ-taktiki raket komplek-

[71] https://yenisabah.az/ermenistanin-meglubiyyetinin-yeddi-sebebi





Düşmənin məhv edilmiş hərbi texnikası

sindən istifadə etdiyini deyib: "Bilirəm ki, "İsgəndər"dən istifadə olunub, amma harada, hansı istiqamətdəki hədəfə qarşı, deyə bilmərəm".

Ermənistandakı "Adekvat" siyasi hərəkatının lideri isə bəyan edib ki, Ermənistan Müdafiə Nazirliyi "İsgəndər"dən noyabrın 7-də istifadə edib. "Raket həmin gün səhər saat 09:00-da Şuşaya atılmışdır. Amma raket Şuşaya yox, şəhərin yaxınlığına, erməni hərbçilərinin çox olduğu yerə düşmüşdür".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli şəhərində səfərdə olarkən bildirib: "Biz Ermənistan ordusunu çökdürdük. Eyni zamanda ermənilərə uzun illər rəhbərlik etmiş cinayətkarlara da dərs verdik". Həqiqətən də, danılmaz faktdır ki, Ermənistan ordusunu Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı, qüdrətli, qəhrəman Azərbaycan Ordusu məhv edib.[72]

Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə erməni mifini də məhv etdi. Azərbaycan oğulları Ermənistanı döyüş meydanında məhv etdi. Ermənilərin uzun illər yaratdıqları mif darmadağın oldu.

[72] "Xalq qəzeti", 26 yanvar 2021-ci il

Kapitulyasiya aktının imzalanması Ermənistanın hərbi-siyasi iflasının sübutudur. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu onu göstərir ki, Azərbaycan müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanıb.

44 günlük müharibənin nəticəsi göstərdi ki, İrəvan hərbi cinayətkardır. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, Azərbaycanın şəhərlərini ballistik raketlərlə, fosforlu və kasetli bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub.

44 günlük müharibədə Ermənistan ordusu eyni zamanda mənəvi məğlubiyyətə uğradı. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari oldu. Təcavüzkar erməni əsgəri haqq uğrunda savaşan Azərbaycan əsgəri qarşısında dura bilmədi.[73]

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi – İkinci Qarabağ müharibəsi 44 gün davam etdi və noyabrın 10-da Azərbaycanın parlaq, şanlı qələbəsi ilə başa çatdı. Müharibənin nəticəsi bir daha göstərdi ki, Ermənistan sosial-iqtisadi, siyasi, mədəni-humanitar sferada olduğu kimi, hərbi sahədə də Azərbaycanla rəqabət aparmaq qabiliyyətinə malik deyil və bunu Ermənistanın hərbi-siyasi iflası da sübut etdi.

Müasir hərb tarixində misli görünməmiş Şuşa əməliyyatında Azərbaycanın 400 nəfərlik rəşadətli döyüşçüsü Şuşada möhkəmlənmiş üç mindən çox erməni elit hərbi hissələrini darmadağın edib qaçmaq məcburiyyətində qoydu. "Le Monde" nəşrinin həmin günlərdə yaydığı bir reportajda deyilirdi ki, Ermənistan ordusunun məğlubiyyətə uğradılmış hərbçiləri Şuşanı tərk edərək Xankəndiyə qaçırlar. Şuşa əməliyyatı faşist Ermənistanın hərbi-siyasi iflasını sona çatdırdı.[74]

Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi. Şuşa zəfəri, ertəsi gün 70-dən çox kən-

[73] http://www.sabirabad-ih.gov.az/news/856.html

[74] https://az.wikipedia.org/wiki/%C5%9EU%C5%9Fan%C4%Blnazadedilm%c9%99si





din azad olunması, əslində, müharibənin taleyini həll etdi və Ermənistanın hərbi iflasını tamamladı.

Bir gün sonra Ermənistan Baş naziri N.Paşinyan Azərbaycan Prezidentinin şərtlərini qəbul edərək kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Noyabrın 10-da isə Azərbaycan Prezidenti, Ermənistan Baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar.[75]

Bununla Prezident İlham Əliyevin: "Heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz, Qarabağ Azərbaycandır!" və digər öncədən söylədiyi bəyanatlar həqiqətə çevrildi.

Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Azərbaycanın əldə etdiyi qələbə, apardığı hərbi əməliyyatlar, həm texniki imkanlar, həm də operativ addımlar, əməliyyatların hazırlanması, icra edilməsi baxımından dünyada yenilikdir və öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması, həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birliyi vəhdət təşkil etmişdir.

Özü haqqında məğlubedilməzlik sindromu yaradan Ermənistan silahlı qüvvələri qısa müddət ərzində darmadağın edildi.

Prezident İlham Əliyev qəti siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi. Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi müsahibələr dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Ermənistanın və onun havadarlarının işğala, tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi.

Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı

[75] dim.qov.az/upload/ibbock/7e30/bec04e71e6c5b79a7f2db719f2f.pdf

heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir.[76]

Ermənistanın hərbi-siyasi məğlubiyyəti, iflası həm də bölgədə, ilk növbədə, Cənubi Qafqazda yeni reallıqlar yaratdı. Onların təcavüzkar, faşist siması indi bütün dünyaya daha yaxşı göründü. Beləliklə, 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu bəşəriyyət üçün təhlükə mənbəyi olan erməni faşizmini məhv etdi.

Vətən müharibəsinin uğurlu sonluğu bölgədə qüvvələr nisbətini dəyişdi, yeni reallıq yaratdı. Vətən müharibəsinin gedişi göstərdi ki, indi biz tək deyilik. Qardaş Türkiyə artıq yanımızdadır, siyasi masadadır. Bu, bir həqiqətdir ki, Azərbaycan və Türkiyə prezidentlərinin bir-birlərinə "qardaş" deyə müraciət etməsi, ay-ulduzlu bayraqlarımızın yanaşı dalğalanması dostlarımız üçün fəxarət, bədxahlarımıza isə göz dağıdır.[77]

Dünyada baş verən çoxsaylı müharibələrin gedişinə nəzər salsaq, görərik ki, Azərbaycanın Qarabağ uğrunda 44 günlük Vətən müharibəsində olduğu kimi, son nöqtəni güclü tərəf qoyur. Son 17 ildə Azərbaycan xalqı Prezident İlham Əliyevin uzaqgörən, düşünülmüş fəaliyyəti nəticəsində böyük güc topladı, güclü, müasir standartlara uyğun ordu yaratdı, zaman planlaşmasını düzgün müəyyən edərək düşməni ağır məğlubiyyətə, iflasa düçar etdi. Otuz ilə yaxın bir müddətdə davam edən işğala, ədalətsizliyə 44 gündə son qoyuldu.

Ermənistanın hərbi-siyasi iflası ölkədə hakimiyyətdaxili qarşıdurmaları, siyasi liderlərarası mübarizəni, sosial-iqtisadi tənəzzülü, mənəvi-psixoloji sarsıntını və ölkənin siyasi həyatındakı böhran vəziyyətini daha da dərinləşdirdi. Ağır məğlubiyyət ölkə rəhbərləri ilə əhali arasında dərin uçurum yaratdı. Ermənistandan mühacirət edənlərin sayı artmağa başladı, şəhər və kəndlərdə demoqrafik və sosial vəziyyət gündən-günə pisləşdi. Gənclərin Ermənistandan xarici ölkələrə axını kütləvi xarakter aldı, bunun da başlıca səbəbi Dağlıq Qarabağdakı işğalçı erməni ordusunda xidmət etməmək istəyi idi.

[76] http://ismayilli-ih.gov.az/news/2775.html

[77] virtualkarabakh.az





Müharibədəki məğlubiyyət, ölkədə siyasi böhranın dərinləşməsi fonunda siyasi mövqeyinə görə repressiyaya məruz qalanların sayı sürətlə artırdı. Orduda fərarilik baş alıb gedirdi.

Eyni zamanda 44 günlük müharibədə Ermənistanın və havadarlarının Azərbaycana qarşı apardığı informasiya müharibəsi də iflasa uğramışdı.

Müharibədə Ermənistanın hərbi-siyasi iflası təkcə onun havadarları üçün deyil, həm də Dağlıq Qarabağ münaqişəsinin həllində "ikili standartlar" siyasəti aparan beynəlxalq təşkilatlar üçün də ibrət dərsi oldu.

Məğlubiyyət həm də Ermənistanda ağır mənəvi-psixoloji gərginlik yaratdı. Ölkədə hakimiyyətə inamsızlıq pessimizmlə xarakterizə olunur, vətənpərvərlik, milli ruh yox dərəcəsinə çatıb.

Daxili siyasi qruplaşmalar, qarşıdurmalar, ağır sosial-iqtisadi problemlər, ermənilərin müharibədəki uğursuzluqları Ermənistanda siyasi, mənəvi-psixoloji böhranı daha da kəskinləşdirməkdə davam edir.

Azərbaycanda isə 44 günlük Vətən müharibəsi xalqımızın şanlı, bənzərsiz tarixinə çevrildi. Tarixi ədalət, ölkəmizin ərazi bütövlüyü bərpa olundu, nəhayət, dünyanın mütərəqqi qüvvələri, dövlətləri, beynəlxalq təşkilatlar Ermənistanın təcavüzkar, işğalçı, terrorçu olduğunu anlamağa başladılar.

Ermənilərin işğal edilmiş Azərbaycan torpaqlarında müharibələr təcrübəsindən miras qalmış "Yandırılmış torpaq" adlandırılan taktikanın tətbiq edilməsi beynəlxalq müstəvidə qınağa çevrildi. Güclünün qalib gəlməsi nəzəriyyəsi 44 günlük müharibənin gedişində həqiqətə çevrildi.

# VII FƏSİL

# PREZİDENT İLHAM ƏLİYEVİN POSTMÜHARİBƏ DÖVRÜNDƏ QARABAĞIN SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYASI



# PREZİDENT İLHAM ƏLİYEVİN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ SƏFƏRLƏRİ: TARİXİ ZƏFƏRDƏN YENİDƏNQURMA VƏ BÖYÜK QAYIDIŞA

Prezident İlham Əliyevin siyasətində regionların sosial-iqtisadi inkişafı mühüm yer tutur. 2003-cü ildən bəri bu sahə üzrə dörd Dövlət proqramı qəbul edilib. Ən başlıcası, proqramın qəbul edilməsi ilə birgə onun həyata keçirilməsi uğurla təmin edilib. Bu təcrübədə Prezidentin regionlara səfərləri böyük önəm daşıyıb. Təbii ki, Ermənistanın işğalı altında olan ərazilər bu proqram və səfərlərdən kənarda qalırdı.

44 günlük Vətən müharibəsi – İkinci Qarabağ müharibəsindən sonra, leksikonda "işğal altında olan ərazilər" əvəzinə yeni – "işğaldan azad edilmiş rayonlar" anlayışı meydana gəldi və Prezident İlham Əliyev elə müharibənin başa çatmasından az sonra ilk dəfə işğaldan azad edilmiş rayonlara səfərlər etdi və bu sahədə xüsusi bir ənənə yaratmağa nail oldu.

Bu səfərlərin respublikanın digər rayonlarına səfərlərdən fərqi ondadır ki, onlar yalnız ölkə deyil, regional, eləcə də beynəlxalq əhəmiyyət daşıyır. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin məhz işğaldan azad edilmiş Şuşa şəhərində imzalanması da təsadüfi olmayıb, nəinki rəmzi, eləcə də siyasi əhəmiyyətə malik idi.

İşğaldan azad edilmiş ərazilərə səfərlər həm onlara dair strateji planlar və çox diqqətəlayiqdir ki, həm də mədəni-mənəvi məsələlər ilə (Novruz bayramı münasibətilə 2021-ci il martın 20-də Şuşadan xalqa müraciət, 28 May Respublika Günündə Ağdamda Baş Planın təsdiqi və s.) müəyyən edilir, səfərlərin tarixi, coğrafiyası və əsas konsepsiyası formalaşır.

Prezidentin işğaldan azad edilmiş rayonlara səfərlərinin təşkili də orijinallığı ilə fərqlənir. Səfərlərin prezidentin idarə etdiyi avtomobil vasitəsilə həyata keçirilməsi görüş və çıxışlaradək ilkin təəssürat yaradır və hər bir səfərə xüsusi emosiya gətirir.

Prezidentin ilk səfəri 2020-ci il noyabrın 16-da işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən hər iki şəhərə olmuş və sistemli şəkildə davam etdirilmişdir. O, 2021-ci il avqustun 16-da Prezident Kəlbəcər və Laçın rayonlarında olub. Bu dövr ərzində Prezident İlham Əliyev ilk

səfərin xronoloji ardıcıllığına uyğun olaraq Füzuli, Cəbrayıl, Ağdam, Qubadlı, Zəngilan, Şuşa, Laçın, Xocavənd və Kəlbəcər rayonlarında olub. Beləliklə, işğaldan azad edilmiş bütün rayonlara səfərlər edilib və bu mühüm dövlət tədbirlərinin, belə demək mümkünsə, birinci mərhələsi başa çatıb.

Səfərlərin xronikal baxımdan nəzərdən keçirilməsi onların dinamikasını və həyata keçirilən tədbirlərin intensivliyini müəyyən etməyə imkan verir. Prezident İlham Əliyev səfərlər zamanı daha çox Füzuli rayonunda və Şuşa şəhərində olub. Bu, faktiki olaraq, Füzulinin işğaldan azad edilmiş rayonların nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməsi ilə əlaqədar idi. Şuşa şəhəri isə Prezident tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilib və Şuşa Bəyannaməsinin imzalanması ilə siyasi missiya da yerinə yetirilib.

Hər bir səfər özlüyündə müstəqil əhəmiyyətə malik olsa da, bir-biri ilə sıx bağlı olub, ümumi prosesin tərkib hissəsi hesab edilir. Ona görə də bu səfərlərin konseptual baxımdan, yəni həyata keçirilən tədbirlərin və səsləndirilən əsas müddəaların bir araya gətirilməsi ilə nəzərdən keçirilməsi olduqca vacibdir.

Səfərlər zamanı Azərbaycan torpaqlarının Birinci Qarabağ müharibəsində işğalının səbəbləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair fəaliyyət, 44 günlük müharibənin başlanması, gedişi, nəticəsi və əhəmiyyəti, hər bir yaşayış məntəqəsi, xüsusilə Şuşa uğrunda gedən döyüşlər, ermənilərin törətdikləri vandalizm aktlarının dünyaya çatdırılması, dəyən ziyanın müəyyən edilməsi, ermənilərin işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşdırılması, bərpa və yenidənqurma proqramı, sülh müqaviləsi, qayıdış və s. süjetlər diqqət mərkəzində olub. Bütün bu müddəaların hər dəfə işğaldan azad edilmiş bu və ya digər rayonun real mühitində səsləndirilməsi onların təsir qüvvəsini daha da artırır.

Qeyd edilən məsələlər içərisində, təbii ki, əsas yeri tarixi Zəfər tutur. Digər məsələlər yalnız bu qələbə nəticəsində mümkün ola bilmişdir. Prezident hər bir səfəri zamanı Azərbaycanın 44 günlük müharibədə qələbəsini müəyyən edən şərtlər və bu qələbənin əhəmiyyətini xüsusi qeyd etmişdir. Dövlət başçısı Füzuli və Cəbrayıl rayonlarına 2020-ci il noyabrın 16-dakı səfəri zamanı demişdir: "Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd azad edildi, bütövlükdə 300-dən çox yaşayış məntəqəsi azad edildi, düşmənin beli qırıldı, düşmən diz çökdü və məcbur oldu, noyabrın 10-da, o kapitulyasiya aktına imza atdı, məhz bi-





Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında. 17 noyabr 2020-ci il

zim gücümüz hesabına. Biz düşməni məcbur etmişik, biz düşmənə yerini göstərmişik, biz Azərbaycan xalqının böyüklüyünü göstərmişik".[1] Bu fikir Füzuli və Xocavənd rayonlarına 2021-ci il martın 15-dəki səfər zamanı belə ifadə edilmişdir: "Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır".[2] Prezident İlham Əliyev Kəlbəcər və Laçın rayonlarına 2021-ci il avqustun 16-dakı səfəri zamanı qəti şəkildə

[1] https://azertag.az/xeber/1643463
[2] https://azertag.az/xeber/1734509

söyləmişdir: "İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır".[3]

Prezident müharibənin gedişində azad edilən hər bir rayon üzrə keçirilən hərbi əməliyyatların əhəmiyyətini də diqqətə çatdırmışdır. Zəngilan, Qubadlı, Hadrut əməliyyatlarının qələbədəki yeri müəyyən edilmişdir. Prezident İlham Əliyev Füzuli və Xocavənd rayonlarına 2021-ci il martın 15-dəki səfəri zamanı demişdir: "Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq, biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq".[4] Şuşanın azad edilməsi isə həm əhəmiyyətinə, həm də müharibənin başa çatmasındakı roluna görə Prezidentin daima diqqət mərkəzində olmuşdur. O, 2020-ci il noyabrın 23-də Ağdama səfərində demişdir: "Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik".[5]

Ən maraqlı məsələlərdən biri sonralar Ermənistanın kapitulyasiyaya uyğun olaraq azad etdiyi rayonlar ilə bağlı idi. İctimai fikirdə hərbi əməliyyat istiqamətlərinin müəyyən edilməsinə dair bəzi mühakimələr və inam var idi. Belə ki müharibə dövründə Ağdam istiqamətində hücum səbirsizliklə gözlənilirdi, lakin bu baş vermədi. Bunun səbəbi geniş maraq doğururdu. İctimai fikri daim nəzərə alan və hər zaman ona münasibət bildirən Prezident bu barədə də mövqeyini 2020-ci il noyabrın 23-də Ağdama səfərində açıq şəkildə ifadə etməyi lazım bilmişdir: "Müharibənin bütün sirlərini açmaq hələ ki tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi".[6]

[3] https://azertag.az/xeber/1854117
[4] https://azertag.az/xeber/1734509
[5] https://azertag.az/xeber/1649171
[6] Yenə orada





Azərbaycan Ordusu nəinki yüksək döyüş əməliyyatları həyata keçirmiş, eyni zamanda strateji baxımdan düşmənin hərbi-siyasi iflasına da nail olmuşdur. Prezident İlham Əliyev bu faktorun da önəmi üzərində dayanmış, Cəbrayıl və Zəngilana 2021-ci il aprelin 26-dakı səfəri zamanı demişdir: "44 günlük müharibə dövründə bir gün belə geriyə addım atmamışıq. 44 gün ərzində hər bir gün Zəfər günü idi. 44 gün ərzində Ermənistanın bütün cəhdlərinə baxmayaraq, bir dənə də uğurlu əməliyyat keçirə bilməmişlər. Bax bu istiqamətdə (Füzuli-Cəbrayıl istiqamətində – K.Ş.) onlar əks-hücum əməliyyatı planlaşdırmışdılar və bunu həyata keçirməyə başlamışdılar. Amma bu onların sonunun başlanğıcı olmuşdur. Çünki həmin əks-hücum əməliyyatı Azərbaycan Silahlı Qüvvələri tərəfindən tamamilə darmadağın edilmişdir, düşmən böyük sayda itki vermişdir və düşmənin onlarla texnikası məhv edilmişdir. Biz məhz bu istiqamətdən – Füzuli-Cəbrayıl istiqamətindən bir çox müdafiə xətlərini keçərək azadlığa yol açmışdıq".[7]

Müharibədə qazandığımız qələbə ilə erməni ordusu haqqında onun təbliğat maşını ilə yaradılmış miflərə də son qoyulmuşdur. Prezident İlham Əliyev Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı bu miflərin təsnifatını da vermişdir. Bunlar erməni ordusu, erməni əsgərinin cəsurluğu, azərbaycanlıların öz torpaqları uğrunda vuruşmayacağı, erməni ordusunun sərkərdələri, ermənilərin qədim tarixə malik olması və "vəhşi müsəlmanlar" arasında qalması haqqında miflər idi. Azərbaycan Ordusu bu mifləri də darmadağın etdi.

Prezident İlham Əliyev 44 günlük müharibənin dünya üçün də böyük əhəmiyyətə malik olduğunu Füzuli və Cəbrayıl rayonlarına 2020-ci il noyabrın 16-dakı səfərində belə qeyd edib: "İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu eyni zamanda bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq".[8]

Prezidentin səfərlərinin baş tutduğu işğaldan azad edilmiş bütün rayonları birləşdirən əsas ümumi cəhət onların erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılması olmuşdur. Prezident İlham Əliyev hər dəfə bu fakta toxunmuş, erməni faşizminin mahiyyətini açmışdır. Bu barədə əsaslandırılmış fikirlərdən biri Qubadlı və Zəngilana 2020-ci il dekabrın 23-dəki

[7] https://azertag.az/xeber/1766219
[8] https://azertag.az/xeber/1643463



Prezident İlham Əliyev Ağdam məscidinin qarşısında çıxış edərkən. 23 noyabr 2020-ci il

səfərdə belə ifadə edilmişdir: "Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çöküb düzgün nəticə çıxarmalıdır".[9]

Ermənilərin işğal edilmiş Azərbaycan torpaqlarında həyata keçirdiyi dağıntı və vandalizm aktları mahiyyət etibarilə iki cəhəti aydın şəkildə sərgiləyirdi. Onlar bununla azərbaycanlıların geriyə dönməsinə mane olmağa çalışırdılarsa, digər tərəfdən, bu torpaqların özlərinə məxsus olmadığını əyani şəkildə sübut edirdilər. Belə ki ermənilər 30 ilə qədər davam edən işğal dövründə bu torpaqlarda bir dənə də olsun quruculuq layihəsinə imza atmamışdılar.

[9] https://azertag.az/xeber/1673397





Prezidentin səfərləri zamanı müəyyən iqtisadi layihələrə start verilməsinin və ya başa çatdırılmasının qeyd edilməsi üstün yer tutmuşdur. Bu layihələr strateji əhəmiyyətinə, miqyasına və yerinə yetirilməsi vəziyyətinə görə postmüharibə dövrü keçirmiş digər ölkələrdən daha yüksək səviyyədədir. Bu layihələr, demək olar ki, tam şəkildə Azərbaycan dövlətinin hesabına maliyyələşdirilir. Onların içərisində avtomobil və dəmir yollarının çəkilməsi, su elektrik stansiyalarının, hava limanlarının tikilməsi, digər mühüm iqtisadi proqramlar üstünlük təşkil edir. Prezidentin səfərləri bu və ya digər layihənin təməlinin qoyulması, yaxud tikintisinin başa çatdırılması ilə əlamətdar olmuşdur. Prezidentin səfərlərindən aydın olur ki, 2020-ci il noyabrın 16-da işğaldan azad edilmiş torpaqlarda icra edilən ilk layihə kimi Füzuli–Şuşa avtomobil yolunun, 2021-ci il yanvarın 14-də Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun 27-ci kilometrliyində Füzuli–Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının, fevralın 14-də Füzulidə Horadiz–Ağbənd dəmir yolu xəttinin, Zəngilanın Ağalı kəndində "Ağıllı kənd"in, martın 15-də Füzuli–Hadrut avtomobil yolunun, Hadrut–Cəbrayıl–Şükürbəyli avtomobil yolunun, aprelin 26-da Zəngilanda Beynəlxalq Hava Limanının, Horadiz–Zəngilan avtomagistral yolunun, Toğanalı–Kəlbəcər avtomobil yolu üzərində – Murovdağda inşa olunacaq tunelin, avqustun 16-da Kəlbəcər–Laçın avtomobil yolu üzərində tikiləcək tunelin, Laçın hava limanının və s. layihələrin təməli qoyulmuş, daxili əhəmiyyət daşıyan 700 kilometr uzunluğunda yolların çəkilişi həyata keçirilməyə başlanmışdır. Bununla eyni zamanda bir sıra layihələr, o cümlədən 2021-ci il fevralın 14-də Laçının Güləbird kəndində ilk infrastruktur layihəsi kimi su elektrik stansiyasının açılışı həyata keçirilmiş, digər proqramların da yaxın vaxtlarda yerinə yetiriləcəyi müəyyən edilmişdir.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara səfərləri zamanı diqqət mərkəzində duran ən önəmli məsələlərdən biri keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması haqqında fikirlər idi. Prezident Füzuli və Şuşa şəhərlərinə 2021-ci il yanvarın 14-dəki səfəri zamanı demişdir: "Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, – cəmi 44 gün ərzində – bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik".[10]

[10] https://azertag.az/xeber/1688523

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə xalqa müraciət edərkən. Şuşa, 20 mart 2021-ci il





Bunun üçün işğaldan azad edilmiş ərazilərin yenidən qurulması modeli də hazırlanıb. Bu, "Ağıllı kənd" və "Ağıllı şəhər" modelidir. Bərpa ediləcək birinci kənd kimi Zəngilanın Ağalı kəndi müəyyən edilmişdir. Prezident İlham Əliyev Cəbrayıl və Zəngilan rayonlarına 2021-ci il aprelin 26-dakı səfəri zamanı demişdir: "Əslində, bu, azad edilmiş torpaqlarda inşa edilən birinci kənddir. Əlbəttə ki, bu kəndin çox böyük önəmi var. Çünki Böyük qayıdış bu gün başlayır".[11]

2021-ci il mayın 28-də isə daha bir tarixi hadisə baş vermişdir. Ağdamın Baş Planı təsdiq edilmişdir. "Ağıllı kənd"də olduğu kimi, bu baş plan da ictimaiyyətin nümayəndələrinə təqdim edilmişdir. Prezident İlham Əliyev demişdir: "Hesab edirəm ki, bu gün tarixi gündür. Çünki bu gün azad edilmiş torpaqlarda birinci baş plan artıq təsdiqlənir. İndi Şuşa şəhərinin baş planı hazırlanır, artıq bir müddətdən sonra təsdiqlənəcək. Füzuli şəhərinin, Cəbrayıl şəhərinin, digər şəhərlərin baş planları üzrə iş gedir. Amma birinci baş plan bax burada təsdiqlənəcəkdir". [12]

Təbii ki, bu tədbirlərin başlıca məqsədi Böyük qayıdışın başlanması və uğurla həyata keçirilməsi ilə əlaqədardır. Prezident bu barədə də fikirlərini tezliklə dədə-baba torpaqlarına dönəcəyi günü həsrətlə gözləyən məcburi köçkünlərə Kəlbəcər və Laçın rayonlarına 2021-ci il avqustun 16-dakı səfəri zamanı belə çatdırmışdır: "Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq".[13]

Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara səfərləri bir sıra siyasi və iqtisadi tədbirlərin hazırlanması və həyata keçirilməsi ilə birgə, nəzəri məsələlərin həllinə də imkan vermişdir. Bu sırada ərazilərin işğaldan azad edilməsindən sonra aparılan yeni iqtisadi rayonlaşmanı xüsusi qeyd etmək olar. Prezident qeyd edilən səfəri zamanı demişdir: "Bildiyiniz kimi, mənim sərəncamımla 14 iqtisadi rayon yaradıldı. Onların arasında iki iqtisadi rayonun yaradılması diqqət çəkdi – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Hesab edirəm ki, bu da çox düzgün

[11] https://azertag.az/xeber/1766219
[12] https://azertag.az/xeber/1792563
[13] https://azertag.az/xeber/1854117

addımdır. Bu həm tarixə əsaslanır, eyni zamanda gələcəyə əsaslanır. Çünki həm Qarabağ, həm Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində, əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da – bura ilə həmsərhəddir – zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq".[14]

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə dair siyasətində Azərbaycan və Türkiyə arasındakı müttəfiqlik müqaviləsinə dair Bəyannamənin Şuşada imzalanmasının təşkili xüsusi yer tutur. Həm Azərbaycan, həm də Türkiyə prezidentlərinin Şuşa Bəyannaməsinə dair 2021-ci il 15 iyun bəyanatlarında onun imzalanmasının tarixi şərtləri və əhəmiyyəti hərtərəfli şərh olunmuşdur. Prezident İlham Əliyev müharibədə qələbənin əldə edilməsində Türkiyənin rolunu yüksək qiymətləndirərək demişdir: "Əlbəttə, Türkiyə kimi müttəfiqi olan Azərbaycan İkinci Qarabağ savaşında bundan ruhlanaraq tarixi missiyanı yerinə yetirdi, ədaləti bərpa etdi, ərazi bütövlüyünü bərpa etdi".[15]

Beləliklə, Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri postmüharibə dövrünün vacib tarixi hadisəsidir. Demək olar ki, işğaldan azad edilmiş Kəlbəcər rayonu ilə bu bölgələrin hər birinə səfər həyata keçirilmiş, bu mühüm tədbirin müəyyən bir mərhələsi başa çatmışdır. Prezident İlham Əliyevin bu səfərlərinin işğaldan azad edilmiş ərazilər üzrə proqramının həyata keçməsinədək davam edəcəyi və bundan sonra da yeni-yeni mərhələlərə yol açacağı aydındır. Bu səfərlər həm Qarabağ, həm də Şərqi Zəngəzurun tarixi salnaməsində mühüm yer tutacaqdır.

[14] https://azertag.az/xeber/1854117
[15] https://azertag.az/xeber/1807667





## İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASI VƏ BÖYÜK QAYIDIŞ PROQRAMI

Müharibələr dövlətlər və cəmiyyət üçün ciddi sosial-iqtisadi, sosial-psixoloji, siyasi, ekoloji və s. problemlər yaradır. İqtisadiyyatı və infrastrukturu silahlı toqquşmalar nəticəsində əsaslı şəkildə dağıdılmış ərazilərin yenidən bərpa olunması zərurəti ilə indiyədək bir çox dövlətlər üz-üzə qalmışdır. XX əsrdə Birinci və İkinci Dünya müharibələrindən sonra Avropa ölkələrinin əksəriyyəti, Rusiya imperiyası (və sonradan SSRİ), habelə Yaponiya, ayrı-ayrı lokal müharibələr nəticəsində Livan (Beyrut), Vyetnam, İran, hazırda isə Rusiya Federasiyası (Çeçenistan), Gürcüstan, Balkan dövlətləri, Əfqanıstan və İraq belə vəziyyətə düşmüşdür.[16] Son illərdə Suriya, Liviya, Yəmən və bir sıra Afrika ölkələrində baş verən konfliktləri də bu siyahıya daxil etmək olar. Sözsüz ki, müharibələrin yaratdığı problemlərin həlli, xüsusilə dağıdılmış ərazilərin bərpası, qaçqın və məcburi köçkün düşmüş insanların öz yurdlarına qaytarılması, onların rifahının yaxşılaşdırılması, təhlükəsizliyinin təmin olunması dövlətlərin qarşısına ciddi vəzifələr qoyur. Tarixi təcrübələr göstərir ki, müharibənin dağıdıcı sosial-iqtisadi və mənəvi-psixoloji nəticələrinin aradan qaldırılması, bu ərazilərdə normal həyatın bərpa olunması mürəkkəb və uzunmüddətli bir prosesdir. Bu baxımdan, postmüharibə dövründə ərazilərin infrastrukturunun bərpası və insanların öz doğma yurdlarına qayıdışının effektli şəkildə həyata keçirilməsi, rifahının yaxşılaşdırılması, məşğulluğunun təmin olunması və məhsuldarlığın artırılması üçün sistemli tədqiqatların aparılması və buna müvafiq olaraq da tədbirlərin görülməsi tələb olunur.

Bu günə qədər dünyanın bir çox ölkələrində postmünaqişə dövründə ərazilər bərpa edilmiş və insanların öz yurdlarına (evlərinə) qayıdışı təmin olunmuşdur. Bu ölkələrin təcrübəsindən Azərbaycanda da bu və ya digər səviyyədə istifadə oluna bilər. Bununla eyni zamanda hər bir münaqişənin yaranması, onun müddəti, dağıntının səviyyəsi bir-birindən fərqlənir. Ona görə də hər bir postmüharibə dövründə ərazinin bərpası və burada insanların normal yaşayışının təmin olunması özünəməxsus yanaşma tələb edir.

[16] United Nations (2009) United Nations Policy for Post-Conflict Employment Creation, Income Generation and Reintegration. Ceneve, 2009, p.33



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında. 24 dekabr 2020-ci il



BMT-nin "Münaqişədən sonrakı dövrdə məşğulluq, gəlir və inteqrasiya siyasəti" adlı hesabatında qeyd olunur: "Məşğulluq və gəlir əldə etmək imkanları münaqişədən sonrakı həll yolunun əsas elementləridir. Cəmiyyətlər və fərdlərə iş yerlərinin, yaşamaq üçün müntəzəm gəlir mənbələrinin yaradılması, sağlam həyatın təmin olunması sülhün qorunması baxımından çox vacibdir".[17] UNDP-nin "Münaqişədən sonrakı iqtisadi bərpa yerli yaradıcılığı təmin edir" adlı 2008-ci il hesabatında isə "Münaqişədən sonrakı dövrdə ölkələrin qarşılaşdıqları çətinliklər yoxsul, lakin dinc inkişaf etməkdə olan ölkələrin üzləşdiyi problemlərlə müqayisədə bir çox cəhətdən daha ciddidir. Bunlara dövlətin ciddi şəkildə zəifləyən təsir gücü, məhv edilmiş insan kapitalı, fiziki və sosial kapital, təhrif edilmiş iqtisadi təşviqlər, geniş yayılmış yoxsulluq və kütləvi işsizlik daxildir. Bəziləri də öz mənbələrini talan edən cinayətkar şəbəkələrin və hakimiyyətdən imtina etməyə müqavimət göstərən keçmiş sərkərdələrin öhdəsindən gəlmək məcburiyyətində olurlar. Şərq baharının nəticələri buna misal ola bilər. Bu şərtlər müharibə şəraitində olan ölkələrdə şiddətli qarşıdurmaya yenidən qayıtmaq riskini davam etdirir". Hesabatda qeyd olunur ki, "münaqişədən sonrakı bərpa prosesində iqtisadi siyasət prioritetləri bu fərqləri mütləq nəzərə almalıdır. Bunlara münaqişələrin təkrarlanma riskini minimuma endirmək və sosial, siyasi və iqtisadi institutlara inamı bərpa etmək daxildir".[18] Bu xüsusda postmüharibə (xüsusilə vətəndaş müharibəsi) dövrünü yaşayan ölkələrdə dövlətin iqtisadi təhlükəsizliyini də nəzərə almaqla əhalinin təhlükəsizliyini təmin etmək qabiliyyətinin artırılması vacibdir. M.Yahya, M.Linç, F.Vehrey və başqaları apardıqları tədqiqatda göstərirlər ki, "iqtisadi bərpa prioritetlərini məşğulluğa yönəltməli, məhsuldar investisiyaları təşviq etməli, iş risklərini və qrup bərabərsizliyini azaltmalıdırlar".[19]

UNDP tərəfindən aparılan araşdırmalarda postmüharibə dövründə ərazilərdə sülhün qurulmasının ən vacib mərhələlərinə aşağıdakılar daxil edilir: hərbi əməliyyatların və zorakılığın dayandırılması; sülh müqavilələrinin imzalanması; demobilizasiya, tərk-silah və reinteqrasiya; qaçqınların və məcburi köçkünlərin geri qaytarılması; ərazidə dövlətin işlək mexaniz-

[17] United Nations (2009) United Nations Policy for Post-Conflict Employment Creation, Income Generation and Reintegration. Ceneve, 2009, p.33

[18] UNDP, 2008. Crisis Prevention and Recovery Report 2008. Post-Conflict Economic Recovery Enabling Local Ingenuity. New York, 2008

[19] Yahya M., Lynch M.Wehrey F.Frances Z. Brown, Ghanem D. (2018) The Politics of Post-Conflict Reconstruction September 13, 2018, Paper Project On Middle East Political Science. Https://Carnegie-Mec.Org/2018/09/13/Politics-Of-Post-Conflict-Reconstruction-Pub-77243

minin əsaslarını yaratmaq; ərazidə barışığa və sosial inteqrasiyaya başlamaq; iqtisadi canlanmanın əsasını qoymaq.[20] A.Hoeffler, S.S.Ijaz, Sarah von B. bu siyahını bir qədər də genişləndirərək aşağıdakıların daxil edilməsini vacib hesab edirdilər:

- təhlükəsizlik (sərhəd nəzarəti, polis və başqa müvafiq qurumlar);
- idarəetmə (regional və yerli mülki hakimiyyət orqanlarının infrastrukturu, yeni personalın işə götürülməsi və ona zəruri təlimlərin verilməsi, vergi və ödəniş sistemlərinin bərpası);
- nəqliyyat (avtomobil, hava və dəmir yolu nəqliyyatı);
- təchizat (əhalinin ərzaqla və digər istehlak malları ilə, müəssisələrin isə xammal və avadanlıqla, ilk növbədə, tikinti materialları ilə təminatı);
- kommunikasiyalar (telefonlaşdırılma, radio və televiziya yayımları, poçt xidməti);
- banklar və maliyyə (sənayenin, kənd təsərrüfatının və mülki inşaatın kreditləşdirilməsi, istehlak kreditləri), iqtisadiyyatın bərpası;
- təhsil (ümumtəhsil və orta-ixtisas məktəbləri, məktəbəqədər tərbiyə müəssisələri, ixtisasartırma mərkəzləri);
- səhiyyə (xəstəxanalar, poliklinikalar, dispanserlər).[21] Suriyada, İraqda baş verən dağıntıların bərpası.[22]

Bunların bəziləri Azərbaycanda öz həllini artıq tapsa da, bəzi məsələlər vardır ki, onların reallaşması üçün zaman lazımdır. Təbii ki, bunlar dağıntının səviyyəsindən, münaqişənin davametmə müddətindən, yaranmış sosial-psixoloji vəziyyətdən asılıdır.

Qeyd olunmalıdır ki, Azərbaycandakı vəziyyət dünyanın müxtəlif ölkələrində baş verən münaqişələrdən əsaslı şəkildə fərqlənir. 30 ilə yaxın müddətdə erməni işğalçılarının nəzarətində olan ərazilər tamamilə və vəhşicəsinə dağıdılmışdır. Bu ərazilərin bərpası bu gün Azərbaycan dövlətinin qarşısında duran əsas prioritetlərdən biridir. Ərazilərin bərpası, məcburi köçkün düşmüş insanların öz doğma yurduna qayıtması, onların yaşayışı və məşğulluğu üçün bütün imkanlardan istifadə edilməsi ilə bağlı elmi araşdırmaların aparılmasına ehtiyac vardır. Suriyada, Liviyada, Afrikanın müxtəlif ölkələrində və digər yerlərdə baş verən konfliktlər, bu konfliktlərin bitməsi, ərazilərin bərpası ilə bağlı həyata keçirilən tədbirlər bir-birindən köklü şəkildə fərqlənsə də, nəticə olaraq dağıdılmış ərazilərin bərpası və əhalinin öz evinə qaytarılması prosesi mahiyyətcə eynilik təşkil edir.

[20] UNDP, 2008. Crisis Prevention And Recovery Report 2008. Post-Conflict Economic Recovery Enabling Local Ingenuity, New York, 2008, p. 17

[21] Nazim Müzəffərli, Eldar İsmayılov. Azərbaycanın postkonflikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı, 2010.

[22] Hoeffler, Anke; Ijaz, Syeda Shahbano; von Billerbeck, Sarah. 2011. Post-Conflict Recovery and Peacebuilding. Washington, DC: World Bank. © World Bank. https://openknowledge.worldbank.org/handle/10986/9184 License: CC BY 3.0 IGO, p.17-18





Prezident İlham Əliyev Ağdamda. 28 may 2021-ci il

Postmüharibə dövründə bərpa işlərinin iqtisadi və sosial baxımdan faydalı olması isə, ilk növbədə, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsini, bu ərazilərə investisiyaların (daxili və xarici) cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, əhalinin məşğulluq probleminin həlli ilə bağlı kompleks tədqiqatların aparılmasını tələb edir. Elmi ictimaiyyətin bərpa prosesinə cəlb edilməsi bərpa və böyük qayıdış prosesinin daha effektli olması məqsədini daşıyır. Bu gün Qarabağda aparılan bərpa işləri elmi ictimaiyyətin qarşısına ciddi vəzifələr qoyur.

## İşğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı tədbirlər

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük müharibənin sonunda şanlı qələbəsi nəticəsində 30 ilə yaxın işğal altında olan doğma torpaqlarımız azad olundu, ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildi. Bu şanlı qələbə regionda liderliyini möhkəmləndirən Azərbaycan üçün yeni inkişaf perspektivləri də yaratmış oldu. Belə ki işğaldan azad edilmiş ərazilərin bərpası və həmin ərazilərdə dayanıqlı sosial və iqtisadi inkişafın təmin edilməsi hökumətin ən mühüm hədəflərindən birinə çevrildi. Prezident İlham Əliyev 1 dekabr 2020-ci il tarixində xalqa müraciətində bildirmişdir: "Əlbəttə, işğaldan azad edilmiş torpaqlarda mövcud olan mənzərə böyük çətinliklər yaradır. Çünki hər tərəf dağıdılıb, infrastruktur dağıdılıb, binalar sökülüb, inzibati binalar sökülüb. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq".[23] Hazırda Qarabağın işğaldan azad edilmiş bütün ərazilərində bərpa və quruculuq işləri sürətlə davam etdirilir.

Ölkə Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5 milli prioritet müəyyənləşdirilmişdir ki, onlardan biri də işğaldan azad olunmuş ərazilərə böyük Qayıdışdır. Sənəddə bu prioritetin reallaşdırılması üçün iki məqsəd: dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyaya nail olunması qarşıya qoyulmuşdur. Sərəncamda göstərilir ki, "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində mühüm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır".[24]

[23] https://president.az/articles/48205

[24] "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.






Prezident İlham Əliyev Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun 27-ci kilometrliyində Füzuli–Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyarkən. 14 yanvar 2021-ci il

Demək olar ki, tamamilə dağıdılmış ərazilərin bərpası böyük prosesdir və bu prosesin sistemli və mərhələli şəkildə həyata keçirilməsi tələb olunur. Məhz görüləcək işlərin həcmini və əhəmiyyətini nəzərə alaraq, Prezident İlham Əliyev quruculuq işlərinin vahid strategiyaya əsaslanaraq həyata keçirilməsi məqsədilə 24 noyabr 2021-ci il tarixində işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Sərəncam imzaladı. Əlaqələndirmə Qərargahının nəzdində yaradılmış İdarələrarası Mərkəzdə isə müxtəlif dövlət qurumlarının nümayəndələrinin təmsil olunduğu İşçi qruplar fəaliyyət göstərir. Artıq 8 aydan çoxdur ki, fəaliyyət göstərən Əlaqələndirmə Qərargahı işğaldan azad edilmiş ərazilərlə bağlı qarşıya çıxan problemlərin həlli zamanı vahid strategiyaya əsaslanmaqla yanaşı, eyni zamanda aidiyyəti dövlət qurumlarının hər bir məsələyə dair rəylərinə istinad edərək kompleks yanaşmanın təmin edilməsinə nail oldu. Əlaqələndirmə Qərargahı tərəfindən qısa zaman ərzində bir sıra mühüm sənədlər hazırlanmışdır. Bu sənədlərdə qarşıya qoyulan hər bir məqsəd üzrə həyata keçiriləcək tədbirlər, icra müddətləri və cavabdeh qurumlar əks etdirilmişdir. Bu isə, öz



Prezident İlham Əliyev Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməlini qoyarkən. Xatirə gilizinin içərisindəki kağıza bu sözlər yazılmışdır: "Ağalı kəndində "Ağıllı kənd" layihəsinin təməl daşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdur. Qarabağ Azərbaycandır!"
26 aprel 2021-ci il

növbəsində, icra ediləcək tapşırıqlar üzrə hesabatlılığın artırılmasına, eləcə də tədbirlərin vaxtında və effektiv icrasına xidmət edir. Yeni yaradılmış İdarələrarası Mərkəzin nəzdində fəaliyyət göstərən İşçi qrupların sayı və tərkibi qarşıya qoyulmuş hədəflərə uyğun olaraq mütəmadi olaraq yenilənir. Belə ki vaxt keçdikcə bir sıra məsələlər artıq öz həllini tapır və növbəti mərhələdə ölkə rəhbərliyi tərəfindən bir sıra yeni tapşırıqlar verilir. Bu isə mövcud resurslardan daha effektiv istifadəni təmin etmək üçün prioritet istiqamətlərin müəyyən edilməsini şərtləndirir. Hər bir İşçi qrupu mütəmadi əsasda iclaslar keçirir, görülmüş işlərlə bağlı İdarələrarası Mərkəzə hesabat təqdim edir və İşçi qruplarda təmsil olunan dövlət qurumları arasında kommunikasiyanı və ümumi fəaliyyətin hesabatlılığını təmin edir. Məhz buna görə də Prezident İlham Əliyevin tapşırığına əsasən, məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə repatriasiyasının miqyasının qiymətləndirilməsi məqsədilə "Azərbaycanın postkonflikt ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və effektiv təşkili üzrə təkliflərin hazırlanması" adlı





tədqiqat işi İdarələrarası Mərkəzin nəzdində fəaliyyət göstərən Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupu tərəfindən həyata keçirilir. Tədqiqat işi çərçivəsində Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupunun sifarişi ilə "ADA" Universiteti nəzdində yaradılmış tədqiqat qrupu tərəfindən 3-ü məcburi köçkünlər, 2-si sahibkarlar arasında olmaqla toplam 5 sorğunun keçirilməsi nəzərdə tutulur. Aparılan müsahibə-sorğuların əsas məqsədi məcburi köçkünlərin mövcud sosial-iqtisadi profilini, işğaldan azad edilmiş ərazilərə qayıdışla bağlı hazırlıq səviyyələrini və bu istiqamətdə arzu və təkliflərini öyrənməkdir.

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, yüksək sosial rifaha nail olunması məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021–2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı üzrə Dövlət Proqramı"nın layihəsi hazırlanmışdır. Sözügedən layihənin hazırlanması Əlaqələndirmə Qərargahının Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində hərbi-siyasi, sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin səmərəli həlli məqsədilə hazırlanmış Strateji Fəaliyyət Planında da tapşırıq olaraq qeyd edilmişdir. Dövlət Proqramının layihəsi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafı ilə bağlı Konsepsiya" əsasında hazırlanmış, mütərəqqi beynəlxalq təcrübə və işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı nəzərdən keçirilmişdir. Layihə Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə İşçi Qrupunun iclasında müzakirə edilmiş və aidiyyəti dövlət qurumlarının rəy və təklifləri nəzərə alınmaqla hazırlanmışdır.

İşğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı həyata keçirilən mütərəqqi islahat tədbirlərindən biri də Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilər üzrə xüsusi nümayəndəliklərinin təsis edilməsidir. Daha kompakt və müasir idarəetmə üsullarına əsaslanan xüsusi nümayəndəliklərin yaradılması işğaldan azad edilmiş rayonlarda həyata keçirilən quruculuq işlərinə nəzarətin gücləndirilməsinə, hesabatlılığın artırılmasına, eləcə də layihələrin vahid dövlət siyasətinə uyğun şəkildə icrasına xidmət edir. Bu həm də gələcəkdə yerlərdə yeni idarəetmə institutunun yaradılması üçün bir sınaq imkanıdır. İlkin mərhələdə Şuşa və Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində cənab Prezidentin xüsusi nümayəndələri təyin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 fevral 2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə"yə əsasən, müvafiq ərazinin müəyyən edilmiş hədəflərə uyğun olaraq inkişafını təmin etmək, perspektiv inkişafı ilə bağlı hədəflərə nail olunması məqsədilə dövlət orqanlarının (qurumlarının), onların yerli bölmələrinin fəaliyyətini əlaqələndirmək, müvafiq ərazidə mülkiyyətin mühafizəsini, dövlət əmlakından səmərəli istifadəni, habelə sahibkarlıq, şəhərsalma, tikinti və digər sahələrdə fəaliyyətin həyata keçirilməsini təşkil etmək xüsusi nümayəndəliyin əsas fəaliyyət istiqamətləri kimi müəyyən edilib.

## Qarabağda bərpa işləri və prioritetlər

İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı istiqamətində görüləcək işlərə və həyata keçiriləcək layihələrə başlamadan öncə həmin rayonların iqtisadi potensialının düzgün qiymətləndirilməsi həlledici əhəmiyyət kəsb edir. Məhz buna görə də hazırda ölkənin beyin mərkəzlərinin, dövlət qurumlarının və vətəndaş cəmiyyətlərinin iştirakı ilə bir sıra fundamental araşdırmalar aparılır, konsepsiya və dövlət proqramları hazırlanır. Bu araşdırmalarda hər bir rayonun təbii ehtiyatları, ənənəvi iqtisadiyyat sahələri, yenidən bərpa olunan nəqliyyat dəhlizlərinə, avtomobil və dəmir yollarına yaxınlığı nəzərə alınaraq, hər bir iqtisadi rayonun müqayisəli üstünlükləri təhlil edilir, işğaldan azad olunmuş ərazilərin profillərinin müəyyənləşdirilməsi ilə bağlı işlər aparılır.

Azərbaycanda işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək məqsədilə həyata keçiriləcək tədbirlərin dörd mərhələdə icrası nəzərdə tutulur. İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həlli, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətinin təmin edilməsi, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələlərinin həlli planlaşdırılır. İşğaldan azad edilmiş ərazilərin bərpası üçün əsas prinsiplər aşağıdakılardır:

- məcburi köçkünlərin öz doğma ərazilərinə (böyük) qayıdışının və məskunlaşmasının təmin olunması;
- infrastruktur təminatının həmin bölgənin 4 fasiləsiz logistik imkanlarına uyğunlaşdırılması;






- əhalinin geri qayıdışı zamanı sosial ədalət prinsipinə riayət olunması və mülkiyyət hüquqlarının bərpası;
- iqtisadi inkişafın dayanıqlılığının təmin olunması;
- tələb olunan investisiyaların həcminin optimallaşdırılması;
- dövlət xərclərinin azaldılması məqsədilə bərpa prosesinə özəl, həmçinin yerli və xarici investisiyaların cəlb edilməsi, xüsusilə dövlət və özəl sektor tərəfdaşlığından geniş istifadə olunması;
- bərpa və yenidənqurma prosesində müasir texnologiyaların və elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiq edilməsi və bu həllərin ölkənin digər regionlarında da həyata keçirilməsi üçün pilot səciyyəsi daşıması;
- ərazilərin bərpası prosesinin yerli istehsala daha çox tələb yaratması və beləliklə, ölkə iqtisadiyyatının artımının stimullaşdırılması.

Qarabağın yenidən qurulması və orada iqtisadi inkişafın təmin edilməsinin əsas məqsədlərindən biri də müharibədən əvvəl öz doğma yurdlarından

didərgin düşmüş məcburi köçkünlərin dayanıqlı şəkildə Qarabağa qayıtmasıdır. Bərpa və yenidənqurma işlərinin həcmi, eləcə də yeni salınacaq yaşayış məntəqələrinin miqyası məhz Qarabağa qayıdacaq məcburi köçkünlərin sayından asılıdır.

## Ağdamın bərpası və iqtisadiyyatı

Hazırda Ağdamın bərpası ilə bağlı ciddi tədbirlər həyata keçirilir. Qeyd edək ki, Ağdam Qarabağın ən böyük rayonlarından biridir. Rayon təbii ehtiyatlarla zəngindir. Ağdam rayonunun təbii ehtiyatları təqribən 1,3 mlrd. ABŞ dolları həcmində qiymətləndirilir.

Ağdamda əkin sahələrinin (28813 ha) 45,3%-ni üzüm, 26,6%-ni taxıl, 26,3%-ni pambıq, 1%-ni meyvə və giləmeyvə, 0,5%-ni tərəvəz, 0,3%-ni bostan, 0,01%-ni kartof sahələri əhatə edib. Yuxarı Qarabağ və ətraf rayonlarda yığılan üzümün 26,7%-i Ağdamın payına düşürdü. Bunlar isə onu deməyə əsas verir ki, Ağdamda kənd təsərrüfatında ənənəvi üstün sahələr üzümçülük, taxılçılıq və pambıqçılıq olub. Hesab olunur ki, müasir Ağdam yeni iqtisadiyyat quruculuğunun prinsiplərinə əsaslanaraq bərpa olunacaqdır.

Qarabağın işğaldan azad edilmiş ərazilərinin qısa müddət ərzində bərpası və təkcə ölkənin deyil, eyni zamanda regionun iqtisadiyyatına inteqrasiyası hökumətin iqtisadi siyasətinin ən mühüm prioritetlərindən biridir. İşğaldan azad olunmuş ərazilərin gələcək inkişafı ilə bağlı qərarların düzgün verilməsi üçün həmin rayonların coğrafi mövqeyi və sosial-iqtisadi inkişaf imkanları dərindən təhlil edilməli və müqayisəli üstünlükləri qiymətləndirilməlidir. Məhz bu təhlillərin və qiymətləndirmələrin nəticəsində Ağdam Sənaye Parkının yaradılması ilə bağlı qərar verildi və 2021-ci il 28 may tarixində bununla bağlı fərman ölkə başçısı tərəfindən imzalandı. Məhz elə həmin gün Prezident Ağdama səfər etmiş və Ağdam Sənaye Parkının təməlini qoymuşdur. Həmin səfər zamanı ölkə başçısının səsləndirdiyi: “Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır”, – ifadəsi Ağdamın gələcəyi ilə bağlı ən gözəl mesajdır. Həmin səfər zamanı həmçinin qeyd edildi ki, azad edilmiş ərazilərin potensialı və müqayisəli üstünlükləri nəzərə alınaraq, dörd regional mərkəzin yaradılması planlaşdırılır. Belə ki Ağdamda sənaye, Cəbrayılda logistika və ticarət,






Şuşada mədəniyyət və turizm, Kəlbəcərdə mədənçilik və turizm mərkəzlərinin yaradılması planlaşdırılır.

Ağdam Sənaye Parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrindən ibarət olacaq. Sənaye Parkında tikinti materiallarının, ət və süd məhsullarının, meyvə-tərəvəz konservlərinin, şərab, yem və gübrə istehsalı, eyni zamanda soyuducu kameraların quraşdırılması və xidmət sahələrinin təşkili də nəzərdə tutulur.

Ağdamda yaradılacaq sənaye mərkəzinə 110 milyon manata yaxın sərmayə qoyulacaq. İlkin müraciətlər əsasında sənaye mərkəzində 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək. Ağdamın əlverişli coğrafi mövqeyi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını artırır.

Hazırda qəbul olunan və hazırlanan sənədlər, həyata keçirilən fəaliyyətlər kompleks elmi araşdırmaların nəticələrinə əsaslanaraq həyata keçirilir. Müqayisəli üstünlüklərə əsaslanaraq bütün maraqlı tərəflər arasında strukturlaşdırılmış koordinasiya əlaqələri qurulur. Postmüharibə dövründə milli və sektoral çərçivələrə əsaslanaraq iqtisadi siyasət reallaşdırılır. Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərində davamlı inkişafın məqsədləri də nəzərə alınır.

İşğaldan azad edilmiş ərazilərdə yeni iqtisadiyyat quruculuğu, onların iqtisadi potensialı və müqayisəli üstünlüyə malik olan sahələri diqqət mərkəzində saxlanılmalıdır. Bu ərazilərdə hasilat sənayesi, alternativ enerji, mineral suların istehsalı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, turizm və nəqliyyat, tikinti məhsullarının istehsalı, təhsil, informasiya və kompüter texnologiyaları, yerli xammal əsasında tikinti məhsullarının istehsalı üzrə ixtisaslaşmış rayon profilləri müəyyənləşdirilə bilər.

## Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə görülmüş və görülməkdə olan işlər

### Ağdam

- Ağdam Sənayə Parkının təməli qoyulub.
- Açıq səma altında İşğal və Zəfər muzey-komplekslərinin və Mərkəzi meydanın təməli qoyulub.
- 1-ci yaşayış binasının və 1 nömrəli məktəbin təməli qoyulub.
- 44 km-lik Bərdə-Ağdam avtomobil yolunun tikintisi davam edir.
- "Ağdam–1" və "Ağdam–2" yarımstansiyalarının tikintisi davam edir.
- Ağdam Xüsusi Nümayəndəliyinin müvəqqəti düşərgəsinin tikintisi davam edir.
- Ağdam–Xındırıstan enerji xəttinin çəkilməsi davam edir.
- Bərdə–Ağdam dəmir yolunun yenidənqurulması davam edir.
- "Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamda inkişaf impulsları" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans keçirilib.
- "Yolumuz Ağdama" adlı müntəzəm səfərlər təşkil edilir.

### Xocavənd

- Dördzolaqlı Hadrut–Cəbrayıl, Hadrut–Füzuli avtomobil yollarının təməli qoyulub.
- "Hadrut" yarımstansiyasının təməli qoyulub. Füzuli rayonundakı 110/35/10 kV-luq "Şükürbəyli" yarımstansiyasından "Hadrut" yarımstansiyasına qədər uzunluğu 27 kilometr olan 35 kV-luq ikidövrəli hava xətti çəkilib.
- Şuşa şəhərinin qısa vaxtda elektrik enerjisi ilə təmin olunması üçün 35/10 kV-luq "Daşaltı" yarımstansiyası inşa edilib. Yarımstansiyanı qidalandırmaq üçün "Hadrut" yarımstansiyasından 53,5 kilometr uzunluğunda elektrik veriliş xətti çəkilib. "Hadrut"–"Daşaltı" elektrik veriliş xətti vasitəsilə ilkin mərhələdə Şuşa şəhərinin, Xocavənd rayonunun bəzi kəndlərinin və ətraf ərazilərdəki mühüm strateji obyektlərin, eyni zamanda bu istiqamətdə aparılan yol infrastrukturu və digər tikinti işlərinin elektrik təchizatı təmin edilib.
- Hadrutda məscidin tikintisinə başlanılıb.

### Cəbrayıl

- "Araz Vadisi İqtisadi Zonası"nın təməli qoyulub.
- "Cəbrayıl" yarımstansiyası istifadəyə verilib.
- Laçın və Kəlbəcər rayonlarında hazırda su-elektrik stansiyalarının bərpası işləri davam edir.
- Tərtər rayonunda Suqovuşan su-elektrik stansiyasının fəaliyyəti təmin edilib.
- Zəfər və İşğal muzeylərinin təməli qoyulub.
- Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulub.
- 960 şagirdlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbin və Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməli qoyulub.
- Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışı olub.
- 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının açılışı olub.
- Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Cəbrayıl rayonuna uzunluğu 31 kilometr olan 110 kV-luq ikidövrəli 1-ci və 2-ci "Cəbrayıl" hava xətləri çəkilib.
- Cəbrayılda "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməli qoyulub.
- Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşı qoyulub.

**Tərtər**

- Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışı olub.
- Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməli qoyulub.
- "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su-elektrik stansiyalarının yenidənqurma işləri tamamlanıb.
- Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyulub.

**Füzuli**

- Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda işlər davam edir və Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməli qoyulub.
- Füzuli Beynəlxalq Hava Limanının tikintisi davam edir.
- Uzunluğu 100 km olan Horadiz-Ağbənd dəmir yolunun təməli qoyulub.
- 110/35/10 kV-luq "Füzuli" yarımstansiyası istifadəyə verilib.

**Şuşa**

- 110/35/10 kV-luq "Şuşa" yarımstansiyası istifadəyə verilib.
- Şuşada 960 şagirdlik 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub.
- Şuşada yeni məscidin təməli qoyulub.
- Şuşa şəhərində "Qarabağ" hotelinin açılışı olub.
- Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün açılışı olub.
- Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı olub.
- Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı olub.





- Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı olub.
- Şuşada "Hotel və Konfrans Mərkəzi"nin təməli qoyulub.

**Kəlbəcər**

- Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunacaq 11,6 kilometrlik tunelin təməli qoyulub.
- 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyası istifadəyə verilib.

**Laçın**

- Laçın rayonunda 8 meqavatt gücündə olan "Güləbird" su-elektrik stansiyası istifadəyə verilib.
- Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməli qoyulub.
- Laçın Beynəlxalq Hava Limanının təməli qoyulub.
- Uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun yenidən çəkilməsi işlərinə başlanılıb.

**Zəngilan**

- Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub.
- Zəngilanda Beynəlxalq Hava Limanının təməli qoyulub.
- Ümumi uzunluğu 124 kilometr olan Zəngilan-Horadiz avtomobil yolunun təməli qoyulub.

# MÜNDƏRİCAT

Böyük Qələbədə şəxsiyyət faktoru ............ 6
Eldar Əzizov, *Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*

**I FƏSİL**
**Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi. Birinci Qarabağ müharibəsi ............ 12**

1.1. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzünün yeni mərhələsi ............ 15
İlqar Niftəliyev, *tarix üzrə fəlsəfə doktoru, dosent*

1.2. Birinci Qarabağ müharibəsi və onun məğlubiyyət səbəbləri ............ 34
Anar İsgəndərov, *millət vəkili, tarix elmləri doktoru, professor*

**II FƏSİL**
**Ulu öndər Heydər Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində fəaliyyəti (1993–2003-cü illər) ............ 52**

2.1. Ulu öndər Heydər Əliyevin hərbi quruculuq siyasəti ............ 55
Mehman Süleymanov, *tarix elmləri doktoru*

2.2. Ulu Öndərin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində diplomatik fəaliyyəti ............ 77
Musa Qasımlı, *millət vəkili, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor*

**III FƏSİL**
**Prezident İlham Əliyevin qələbə strategiyası: əsas istiqamətlər (2003–2020-ci illər) ............ 94**

3.1. Diplomatik fəaliyyət ............ 97
Elçin Əhmədov, *siyasi elmlər doktoru, professor*

3.2. Ordu quruculuğu ............ 128
Əlimusa İbrahimov, *siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

3.3. İqtisadi islahatlar ............ 137
Arif Şəkərəliyev, *iqtisad elmləri doktoru, professor*

**IV FƏSİL**
**Prezident, Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi dövründə diplomatiyası və Zəfər salnaməsi ............ 150**

4.1. Hərbi əməliyyat planlarının hazırlanması və idarə edilməsi ............ 153
Zakir Həsənov, *Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik*

4.2. Azərbaycan Ordusunun Şuşa zəfəri ............ 194
Tehran Mənsimov, *polkovnik*

4.3. Prezident İlham Əliyevin müharibə dövrü diplomatiyası və xarici siyasəti ............ 224
Ceyhun Bayramov, *Azərbaycan Respublikasının xarici işlər naziri*

4.4. İlham Əliyev informasiya müharibəsinin də qalibidir ............ 246
Bəxtiyar Sadıqov, *millət vəkili, "Azərbaycan" qəzetinin baş redaktoru*

4.5. Prezident İlham Əliyevin müharibə cəbhələrindən Zəfər müjdələri ............ 258
İxtiyar Hüseynli, *"Azərbaycan" qəzeti, baş redaktorun müavini*

4.6. Azərbaycan tərəfindən Ermənistanın kapitulyasiyası: 10 noyabr bəyanatı ............ 274
Tofiq Mustafazadə, *tarix elmləri doktoru, professor*

**V FƏSİL**
**Azərbaycan cəmiyyətinin qələbə naminə birliyinin təmin edilməsi. Ümummilli təntənə – Zəfər paradı ............ 282**

5.1. Prezident, xalq, ordu və siyasi partiyaların birliyinin təmin edilməsi ............ 285
Elmin İmanov, *Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri*

5.2. Prezident İlham Əliyevin vətənpərvərlik missiyası: Azərbaycan gənclərinin Zəfər təntənəsi ............ 300
Elgin Həbibullayev, *Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının rəhbəri*

5.3. Azərbaycanın haqq işinə dəstək: Müharibə dövrü məktubları ............ 310
Mais Əmrahov, *tarix elmləri doktoru, professor*

5.4. Zəfər paradı: tarixi, siyasi və mənəvi aspektlər .................................... 325
İlqar Niftəliyev, *tarix üzrə fəlsəfə doktoru, dosent*

5.5. Şəhid ailələri və qazilərə dövlət və ümumxalq qayğısı ...................... 339
Elvin Hüseynov, *"YAŞAT" fondunun rəhbəri*

**VI FƏSİL**
**Azərbaycanın tarixi Zəfərinin geopolitik nəticələri .................................350**

6.1. Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsi və Qafqazda yeni geopolitik vəziyyət ............................................................ 353
Araz Aslanlı, *Dövlət Gömrük Komitəsinin Akademiyasının Monitorinq və qiymətləndirmə şöbəsinin rəisi*

6.2. İkinci Qarabağ müharibəsinin Türkiyə xarici siyasəti baxımından təhlili ........................................................................................ 369
Yalçın Sarıkaya, *Türkiyə, Giresun Universiteti, dr., professor*

6.3. Ermənistanın İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi iflası..... 393
İbrahim Zeynalov, *tarix elmləri doktoru, professor*

**VII FƏSİL**
**Prezident İlham Əliyevin postmüharibə dövründə Qarabağın sosial-iqtisadi inkişaf strategiyası ...........................................410**

7.1. Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri: Tarixi Zəfərdən yenidənqurma və Böyük Qayıdışa.............................. 413
Kərim Şükürov, *tarix elmləri doktoru, professor, Dövlət mükafatı laureatı*

7.2. İşğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdış proqramı ........................................................................ 423
Emin Hüseynov, *Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi*



ŞƏRQ-QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

Buraxılışa məsul: Rafiq Kazımov
Dizayner: Nurlan Nəhmətov
Səhifələyici: Yeganə Rüstəmova
Korrektor: İradə Musalı
Redaktorlar: Gültəkin Cəfərova
Qurban Nuriyev
Texniki redaktor: Sevinc Yusifova
Baş redaktor: Nərgiz Cabbarlı
Texniki direktor: Allahverdi Kərimov
Nəşriyyat direktoru: Sevil İsmayılova

Çapa imzalanmışdır: 16.12.2021. Format: 70x100 $^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 27,75. Sifariş 21302. Tiraj 1000

ŞƏRQ–QƏRB

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84